# NUR TƏFSİRİ

## ALTINCI CİLD

**MÜƏLLİF: MÖHSÜN QƏRAƏTİ**
**TƏRCÜMƏ EDƏN: HACI ARZU**

بسم الله الرحمن الرحیم


نام کتاب:..........................................تفسیر نور (جلد-6)
مؤلف:..........................................محسن قرائتی
مترجم:..........................................حاج آرزو
ناشر:.......................................... فائز.
تاریخ چاپ:..........................................1385
نوبت چاپ:..........................................اول
تیراژ:..........................................2000

**Kitabın adı:......................Nur təfsiri (altıncı cild)**
**Müəllif:....................................................Möhsün Qəraəti**
**Tərcümə edən:...............................................................H. Arzu**
**Nəşr edən:.......................................................................Faiz**
**Çap tarixi:.......................................................................2006**
**Çap növbəsi:.............................................................Birinci**
**Tiraj:..................................................................................2000**

Әзиз вә диггәтли охучу! Гур`ан тәфсири тәрҹүмәсинин нә дәрәҹәдә әһәмијјәтли вә инҹә иш олдуғуну анласаг да, нөгсанлардан гача билмәдик. “Һәјј” вә “гәјјум” кими јүзләрҹә мирвари тә`бирини бәсит шәкилдә тәрҹүмә етмәк зорунда галдыг. Ҝәләҹәкдә бу илаһи ишдә јардымчы олачағынызы дүшүнүрүк. Бизә үнванлајачағыныз гејдләр нөвбәти нәшрләрдә нәзәрә алыначаг.

*Дуа истәји илә тәрҹүмәчи*

## RƏHMAN VƏ RƏHİM ALLAHIN ADI İLƏ

***HƏMD OLSUN ALƏMLƏRİN RƏBBİNƏ! ALLAHIN SALAMI OLSUN AĞAMIZ MƏHƏMMƏD (S) VƏ ONUN MƏSUM ƏHLİ-BEYTİNƏ!***

## Ön söz

Qum elmi hövzəsində ümumi (səth) mərhələni bitirdikdən sonra bir qədər də "Dərsi-xaric" oxuyub, Quranla daha dərindən tanış olmaq fikrinə düşdüm. Bəzi dostlarla birlikdə bu istiqamətdə fəaliyyətə başladıq. Hərəmiz bir təfsiri mütaliə edib, xülasə şəkildə qeydlər götürürdük. Beləcə, Quranın bir neçə cüzünü sonadək mütaliə etdik.

Həmin vaxt eşitdim ki, Ayətullah Məkarim Şirazi bir qrup alimlə təfsir yazmaq qərarına gəlib. O mənim təfsir yazılarımı görüb bəyəndi və mən də onlara qoşuldum.

İyirmi yeddi cildlik "Təfsiri-nümunə"nin başa çatması on beş il çəkdi. Həmin təfsir indiyədək dəfələrlə çap olunmuş və başqa dillərə tərcümə edilmişdir. "Təfsiri-nümunə"nin təqribən yarısı yazılıb tamamlandığı vaxt imam Xomeyninin (r) rəhbərliyi ilə İslam inqilabı qələbə çaldı. Elə həmin ilk günlərdə mərhum Əllamə Şəhid Mütəhhərinin göstərişi ilə televiziyaya getdim. Artıq iyirmi yeddi ilə yaxındır ki, hər cümə axşamı İran İslam Respublikasının televiziyasında "Quran dərsləri" adı altında proqramda çalışıram.

"Təfsiri-nümunə" başa çatanadək həmin heyətlə həmkarlıq etdim. Amma bu arada belə bir fikrə düşdüm ki, radioda hamının anlaya biləcəyi bir səviyyədə təfsir dərslərinə başlayım. Bu məqsədlə "Təfsiri-nümunə"dən əlavə, başqa on təfsirdən də qeydlər götürdüm. Artıq səkkiz ildir ki, həftədə bir gün, eləcə də, ramazan ayında hər gün "Ayineye vəhy" adı altında radio verilişləri yayımlanır.

Dəfələrlə təklif edildi ki, radiodan danışdıqlarımı kitab şəklində nəşr etdirim. Öz yazılarımdan bir neçə cüzünü Ayətullah hacı Seyyid Mehdi Ruhani, Ayətullah Misbah Yəzdi üçün oxudum və öz təfsir üslubuma daha çox əmin oldum. Qeydlərimi tərtib üçün höccətül-islam Məhəmmədi və höccətül-islam Mühəddisiyə təqdim etdim. Məcmuə hazır olduqdan sonra onu Qumun "Dər-rahe həqq" müəssisəsinə verdim ki, Ayətullah Ustadinin nəzarəti altında çap olunub, maraqlananların ixtiyarına verilsin.

### *HƏMKARLAR*

Qurani-kərimin ilk dörd cüzünün təfsirinin hazırlanmasında höccətül-islam Dehşiri və höccətül-islam Cəfəri həftənin yarı hissəsini Tehrana gəlib, mənə kömək etdilər.

Beşinci cüzdən on altıncı cüzədək isə höccətül-islam Seyyid Cavad Behişti və höccətül-islam Şeyx Mahmud Mütəvəssil bu müqəddəs işdə həmkarlıq etmişlər.

### *İMTİYAZLAR*

1. Bu təfsirdə yalnız xüsusi zümrənin anlaya biləcəyi ədəbi, fiqhi, kəlami, fəlsəfi terminlərdən pəhriz edilmişdir.

2. Rəy əsasında təfsirdən pəhriz olunmuş, yalnız Quran ayələri və Peyğəmbər (s) Əhli-beytindən (ə) olan rəvayətlərə istinad edilmişdir.

3. Bir çox bildiriş və dərslərdə mötəbər şiə və sünni təfsirlərindən istifadə edilmiş, bəzi nöqtələr isə müəllif və əziz həmkarlar tərəfindən açıqlanmışdır.

Allahdan istəyirik ki, hər birimizə ixlas, düşüncə, əməl, təbliğ və Quran maarifinin yayılması və bu müqəddəs işi başa çatdırmaq tövfiqi mərhəmət buyurub, Quranı bizim üçün dünya, bərzəx və qiyamət nuru qərar versin.

Xalqdan istəyim budur ki, Quran təlimində yalnız tilavət, təcvid, tərtil və təvaşihlə kifayətlənməyib, Quranda düşünməyi və ona əməl etməyi əsas götürsünlər.

Alim və fazillərdən təmənnam budur ki, təbliğ və tədrisdə Quran ali bir məqsəd kimi qarşıya qoyulsun və bütün məntəqələrdəki elmi mərkəzlərdə, mədəniyyət ocaqlarında, məscidlərdə və mədrəsələrdə Quran təfsiri dərsləri təşkil edilsin.

İslam, Quran və Peyğəmbər (s) Əhli-beyti (ə) ilə tanışlığımda rolu olanlara təkbətək təşəkkür edir, onlar üçün, xüsusi ilə də ustadlarım, atam-anam üçün bağışlayan Allahdan mərhəmət diləyirəm.

Eləcə də, bu təfsirin yazılmasında, tərtibində, islahında, çapında və yayılmasında mənə yardım edənlərə və işin təkmilləşməsi üçün qurucu və faydalı tənqid və təklif verənlərə təşəkkür edirəm.

***MÖHSÜN QƏRAƏTİ***

## *AYƏTULLAH HACI SEYYİD MEHDİ RUHANİDƏN BİR NEÇƏ XOŞ SÖZ*

**Rəhman və Rəhim Allahın adı ilə**

Bəşər həyatında, tarixi dönəmlərdə, xüsusi ilə də müsəlman tarixində böyük təsirə malik olan Qurani-kərimə onun məqamına layiq səviyyədə diqqət yetirilmədiyindən bu ilahi kitab xalq arasında qərib qalmışdır. Hansı ki, Quranda "Biz Quranı öyüd üçün asan etdik" buyurulur. Bununla belə, bir çoxları Quran dəyərlərini yaddan çıxarıb ona diqqətsizlik göstərmişlər. Necə ki, keçmiş ümmətlər haqqında Quranda buyurulur: "Onlara xatırladılanların bir hissəsini unutdular..."[1]

Qurani-məcid əvvəldən axıradək bəşər üçün ilahi göstərişlərdən ibarətdir. Bütün bu bəyanatlarla tanış olmaq zəruridir. Xüsusi ilə də bəşəriyyətin dünyəvi və əbədi səadət yolunu göstərən ayələr və onlardakı nöqtələr haqqında düşünmək lazımdır. Qurani-məciddə həzrət Peyğəmbərə (s) belə müraciət olunur: "Sənə nazil etdiyimiz mübarək bir kitabdır ki, onun ayələrini düşünüb dərk etsinlər və ağıl sahibləri öyüd götürsünlər."[2]

Bu müqəddimənin istəyi Qurani-məcidin bütövlükdə elə bir təfsirinin hazırlanmasıdır ki, bu təfsirdə əsas diqqət ayələrin mənasının dərk olunmasına yönəldilsin. Məlum olsun ki, hər bir ayənin məqsədi nədir, nəyə etiraz edir? Müasir dillə desək, bu təfsir "bəyani" bir təfsir olsun.

Adətən, təfsir kitabları daha çox ədəbiyyat, onun şöbələri, kəlam elmi, məzhəbi mübahisələr istiqamətində peşəkar araşdırmalarla məşğul olur. Hər bir mütəxəssis öz ixtisasına aid terminlərlə araşdırma aparır. Bundan əlavə, mövzu haqqında söhbətlər olduqca uzun çəkir və bu hal insanların Qurani-məcidlə bütövlükdə tanış olmasına mane olur. Bəziləri isə Quran ayələrini öz şəxsi, çox vaxt isə yanlış əqidələrinin sübutu üçün əsas gətirirlər.

Son zamanlar elm adamlarının ehtiyacına cavab verəcək bir təfsirin hazırlanması zəruri görünürdü. Həmin təfsirin hazırlanmasında aşağıdakı məsələlərə diqqət yetirilməli idi:

1. Təfsir həm sadə və yetərli, həm də güclü olmalı idi;
2. Quranın dərk olunmasını çətinləşdirən xüsusi terminlərdən pəhriz edilməli idi;
3. Həyat problemlərini həll edən, müsəlman cəmiyyətinə təqdim olunası, hətta tərcümə edilib bütün dünyaya yayılası (bəşəriyyəti, təqva sahiblərini hidayət edəsi) mövzular araşdırılmalı idi. Çünki Quran mətləbləri konkret bir zaman, fərd və ya cəmiyyətə aid deyil;
4. Ayələrdən alınan nəticələrdə Quran ayələrinə istinad olunmalı idi. Rəyə və şəxsi istəklərə, zəif rəvayətlərə əsaslanmaq olmazdı;
5. Həzrət Peyğəmbərin (s) göstərişi əsasında "Səqəleyn"dən (iki əmanətdən) biri olan Əhli-beytdən nəql olunmuş mötəbər rəvayətlərə diqqət yetirilməli idi.

---

1 "Maidə" 13.
2 "Sad" 29.

Bu prinsiplər Möhsün Qəraətinin təfsirində nəzərə alınmışdı. Əgər həmin prinsiplərdən kənarlaşma müşahidə edilərsə, bu, məqsədli şəkildə edilməmişdir və inşallah, gələcəkdə islah olar.

Ümid edirəm ki, dəyərli alim höccətül-islam Möhsün Qəraəti elmi keyfiyyətlərindən əlavə, təfsir sahəsində zövq sahibidir və ilahi kəlmələrin lətafətini yaxşı dərk edir. Onun öz təfsirini bu üsul və imtiyazlarla sona çatdıracağına ümidvaram.

Həmin təfsirin bir cüzdən çoxunu müəlliflə birlikdə müzakirə etdik və bəzi qeydlərimi ona bildirdim.

Əziz müəllif hər bir ayəni sadə və yetərli bir şəkildə tərcümə etdikdən sonra onun mahiyyətini şərh etmişdir. Həmin şərhlərdə müəllifin “bildirişlər” adlandırdığı nöqtələrə toxunulmuşdur. Əslində bu nöqtələr təfsirin ruhunu açıqlayır. Düzünə qalsa, bir çox məqamlarda həmin nöqtələr müəllifin xüsusi ixtirasıdır və xüsusi təravətə malikdir.

Ümid edirəm ki, Qurani-kərim bir gün hövzə və universitetlərdə əsas mehvər olacaq. Necə ki, imam Zeynəlabidin (ə) “Səhifeye-səccadiyyə” kitabında Quranın xətm duasında buyurur: “Quran elə bir ədalət tərəzisidir ki, haqqın bəyanında dili qısa deyil.”

Ümid edirəm ki, əziz müəllifin təfsir şivəsi və ixtiraçılıq yolu Quranın ali mətləblərinin gerçəkləşməsində irəliyə doğru bir addım olacaq. İnşallah, bu addım son addım olmaz və nəzər sahibləri növbəti addımlarda bu üsulu təkmilləşdirərlər.

***09 RƏBİUS-SANİ, 1414***

***MEHDİ HÜSEYNİ RUHANİ***

## *MÜƏLLİFDƏN*

Şəmsi 1378-ci ildə ilk cildin yenidən nəşri üçün növbəti dəfə “Nur təfsirini” diqqətlə mütaliə etdim. İxtisarlar və əlavələr oldu. Allahın lütfü ilə ağlıma gələn yeni mətləblər və “Təfsiri-rahnüma”, “Nüxbətut-təfsir” kitablarındakı bəzi nöqtələr mətnlərə əlavə edildi.

Bir anlıq fikrə getdim. Düşündüm ki, cəmi iki-üç il keçmiş öz əlimlə dəyişdiyim yazı əgər qiyamətə çatsa, övliyaların, mələklərin, ən əsası Allahın nəzərindən keçsə, nə qədər dəyişəcək?! Bütün bu dəyişikliklər o zaman faydalı olur ki, işin canında qeyri-ilahi niyyət olmasın.

Hər halda xeyli zəhmət çəkdim. Amma qiyamətdə bu təfsirin bir səhifəsinin də mənim qurtuluşuma səbəb olub-olmayacağını bilmirəm!

Sözsüz ki, Quran nurdur. Təfsirdə nə nöqsan varsa, bizim nöqsanımızdır. Gülzarda torpaq gülə döndüyü kimi, ümid edirəm ki, Quranın nurani ayələri sayəsində bizim də yazılarımız nura çevrilsin. Amin!

***MÖHSÜN QƏRAƏTİ***

## BİSMİLLAHİR-RƏHMANİR-RƏHİM

## “YUSUF” SURƏSİ
## *(12-Cİ SURƏ, 111 AYƏ)*

### *On iki, on üçüncü cüzlər*

### *“YUSUF” SURƏSİNİN SİMASI*

111 ayədən ibarət olan “Yusuf” surəsi Məkkədə nazil olmuşdur. Həzrət Yusifin adı Quranda 27 dəfə zikr olunmuşdur. Bunlardan 25-i “Yusuf” surəsindədir. Bu surənin ayələri bir-birinə bağlı şəkildə və bir neçə yığcam, cazibəli hissədə həzrət Yusifin uşaqlığından Misirin dövlət xəzinədarı məqamınadək olan ömrü, iffət və paklığı, ona qarşı qurğuların puça çıxması və Allahın bir sıra cilvələri bəyan olunur.

Digər peyğəmbərlərin əhvalatı müxtəlif surələrdə nəql olunduğu halda, həzrət Yusifin əhvalatı yalnız bu surədə zikr olunmuşdur. Həzrət Adəm və Nuhun hər birinin əhvalatı 12 surədə, həzrət İbrahimin əhvalatı 18 surədə, həzrət Salehin əhvalatı 11 surədə, həzrət Davudun əhvalatı 5 surədə, həzrət Hudun və Süleymanın hər birinin əhvalatı 4 surədə, həzrət İsa və Zəkəriyyanın hər birinin əhvalatı 3 surədə nəql olunmuşdur.[1]

Həzrət Yusifin əhvalatı Tövratda da yaranış kitabının[2] 37-ci – 50-ci fəsillərində də zikr olunur. Amma bu məlumat Qurandakı məlumatla müqayisə olunduqda Quranın fundamentallığı və Tövratın təhrif olunması üzə çıxır. Ədəbi əsərlər arasında da Yusif və Züleyxa dastanının xüsusi yeri var. Nizami Gəncəvinin və Firdovsinin uyğun mövzulardakı əsərlərini nümunə göstərmək olar.

Digər peyğəmbərlərin əhvalatlarında daha çox onların inadkar müxalifləri haqqında danışılırsa, Yusifin əhvalatında daha çox onun şəxsiyyəti və başına gələn hadisələr nəql edilir.

Bəzi rəvayətlərdə “Yusuf” surəsinin qadınlara və qızlara təlim olunması qadağan edilir. Amma bəzi nəzər sahiblərinin fikrincə, bu qəbildən olan rəvayətlərin etibarlı sənədi yoxdur.[3] Bu qadağanın səbəbi uyğun əhvalatda Əzizi-Misrin arvadı Züleyxa tərəfindən Yusifə eşqin bəyan olunmasıdır. Hansı ki, Quranda bu əhvalatda mənfi nöqtənin olmadığı bildirilir.

---

1 “Təfsire-Hədaiq”
2 “Sifre-peydayeş”
3 “Təfsire-Nümunə”

﴿بسم الله الرحمن الرحيم﴾

**Bağışlaya və mehriban Allahın adı ilə**

Ayə 1:

﴿الر تِلْكَ آيَاتُ الْكِتَابِ الْمُبِينِ﴾

**“Əlif, Lam, Ra; Odur aydınladan kitabın ayələri.”**

Ayə 2:

﴿إِنَّا أَنزَلْنَاهُ قُرْآنًا عَرَبِيًّا لَّعَلَّكُمْ تَعْقِلُونَ﴾

**“Həqiqətən, Biz onu ərəbcə Quran olaraq nazil etdik. Ola bilsin ki, düşünəsiniz.”**

◊ **Nöqtələr**

● Müqəttəə hərfləri haqqında müxtəlif münasibətlər bəyan olunmuşdur. O cümlədən:

1. Quran, bu ilahi möcüzə hamının ixtiyarında olan əlifba hərflərindən tərtib olunmuşdur.
2. Həmin hərflərlə başlamış surənin adıdır.
3. Allaha and növüdür.
4. Allahla Onun rəsulu arasında rəmzdir.

Müqəttəə hərflərlə başlamış 29 surədən 24-ündə həmin hərflərdən sonra Quran və onun möcüzəsindən danışıldığını nəzərə alsaq, birinci münasibət daha üstün olar.

● Quran hansı dildə olsaydı, başqaları bu dillə tanış olmalı idi. Onun ərəb dilində nazil olmasının bir sıra məziyyətləri var. O cümlədən:

a) Ərəb dilində başqa dillərdə mövcud olmayan söz ehtiyatı və qrammatik qaydalar var. Rəvayətlərə əsasən behişt əhlinin dili ərəb dilidir.

b) Quranın nazil olduğu məntəqənin əhli ərəbdilli idi. Onlara başqa bir dildə xitab olması mümkünsüz sayılır.

● Allah-təala həm Quran, həm də yağış haqqında “nazil oldu” təbirini işlədir. Quranla yağış arasında bir sıra oxşarlıqlar vardır. O cümlədən:

a) Quran, həm də yağış səmadan nazil olur.[1]

b) Həm Quran, həm də yağış pakdır.[2]

v) Quran da, yağış da həyat vasitəsidir.[3]

q) Hər ikisi mübarək və bərəkət gətirəndir.[4]

---

1 Bax: “Muminun”, 18
2 Bax: “Ənfal”, 11; “Bəqərə”, 29
3 Bax: “Ənfal”, 24; “Furqan”, 49
4 Bax: “Ənam”, 92; “Qaf”, 9

d) Yağış damla-damla, Quran isə ayə-ayə nazil olur (tədrici nüzul).

● Bəziləri iddia edirdilər ki, Peyğəmbərə (s) Quranı başqa millətdən olan bir şəxs öyrətmişdir. Quranın ərəbcə nazil olmasında məqsəd bu iddianın rədd edilməsi ola bilər.[1]

◊ **Bildirişlər**

1. Quran əlimizdəki əlifba hərflərindən tərtib olunmuşdur.

(Ey inadkarlar,) əgər bacarırsınızsa, siz də bu hərflərdən Quran kimi bir kitab tərtib edin.

2. Quran yetərincə uca məqama malikdir.

3. Quran başlanğıcda öz dinləyicisini ayələrinin möhkəmliyindən xəbərdar edib, sonra digər mətləblərin bəyanına başlayır.

4. Quranın ərəb dilində nazil olması və onun ayələrinin dərk olunması ilə bağlı göstəriş zəruri edir ki, müsəlmanlar ərəb dili ilə tanış olsunlar.

5. Quran təkcə tilavət və təbərrük üçün yox, əsasən düşünmək və inkişaf etmək üçündür.

6. Hər hansı yazı aydın, aydınladan, məqsədli və tərbiyəvi olmalıdır.

7. Quranın nazil olması əbəs deyil. Onun ayələri haqqında düşünmək lazımdır.

Ayə 3:

﴿نَحْنُ نَقُصُّ عَلَيْكَ أَحْسَنَ الْقَصَصِ بِمَا أَوْحَيْنَا إِلَيْكَ هَذَا الْقُرْآنَ وَإِن كُنتَ مِن قَبْلِهِ لَمِنَ الْغَافِلِينَ﴾

**“Biz sənə vəhy etdiyimiz bu Quranla sənin üçün ən üstün əhvalatı danışırıq. Halbuki sən bundan öncə xəbərsizlərdən idin.”**

◊ **Nöqtələr**

● “Qəsəs” dedikdə həm əhvalatı, həm də onun nəql olunması başa düşülür.

● İnsanın tərbiyəsində hekayə və əhvalat dinləyib xatırlamağın xüsusi yeri var. Çünki əhvalat bir ümmətin həyatının və əməli təcrübəsinin təcəssümüdür. Tarix millətlərin güzgüsüdür. Tarix və keçmişdəkilərlə tanış olduqda sanki onların həyatını yaşayırıq. Həzrət Əli (ə) “Nəhcül-bəlağənin” 31-ci məktubunda oğlu imam Həsənə (ə) buyurur: “Ey oğlum! Mən keçmişdəkilərin başına gələnləri elə mütaliə etmişəm ki, sanki onlarla yaşamışam, onlar qədər ömür sürmüşəm.”

Hekayə və əhvalatın insana güclü təsir etməsinin bir səbəbi də onun qəlbən hekayəyə meyilli olması ola bilər. Adətən, tarixi kitablar və dastanlar bəşər tarixi boyu rövnəqli olmuş, əksər insanlar tərəfindən başa düşülmüşdür. Hansı ki, əqli dəlillərlə müşayiət olunan mövzuları az insanlar anlayır.

---

1 Bax: “Nəhl”, 103

● Rəvayətlərdə Quran bütövlükdə "əhsənul-qəsəs", yəni "əhvalatların gözəli" adlandırılır. Səmavi kitablar arasında Quranın, Quran surələri arasında bu surənin "əhsənul-qəsəs" adlandırılmasında heç bir təzad yoxdur.[1]

● Quran əhvalatlarının digər əhvalatlarla bir sıra fərqləri var. O cümlədən bu əhvalat Allah tərəfindəndir, məqsədlidir, xəyal yox, həqiqətdir, güman yox, elmə əsaslanır, əyləncə yox, düşüncə vasitəsidir, baş qatmaq yox, ibrət üçündür.[2]

● Həzrət Yusifin əhvalatının "əhsənül-qəsəs" adlandırılmasının səbəbləri var:

1. Əhvalatların ən mötəbəridir;
2. Bu əhvalatda ən böyük cihad olan nəfslə cihaddan danışılır;
3. Əhvalatın qəhrəmanı bütün insani kamilliklərə malik bir gəncdir (səbr, iman, təqva, iffət, əmanətdarlıq, hikmət, əfv, ehsan);
4. Əhvalatdakı bütün simaların aqibəti xoş olur. Məsələn, Yusif hakimiyyətə çatır, qardaşları tövbə edir, atasının gözü açılır, ölkədə qəhətlik aradan götürülür, qəm və həsəd vüsal və məhəbbətə çevrilir;
5. Bu əhvalatda bir sıra ziddiyyətlər yanaşı zikr olunur: Ayrılıq və vüsal, qəm və şadlıq, qıtlıq və bolluq. Vəfasızlıq və vəfadarlıq, ağa və qul, quyu və saray, yoxsulluq və var-dövlət, bəndəlik və sultanlıq, korluq və görmə, paklıq və pislikdə ittiham.

● Yalnız ilahi dastanlar yox, Allahın bütün işləri "əhsən"dir. Çünki: O, ən üstün yaradandır; Ən üstün kitaba malikdir; Ən üstün surət verəndir; Ən üstün dinə malikdir; Ən üstün mükafatı verir.[3]

Bütün bu üstün nemətlər müqabilində Allah insanlardan ən üstün əməli istəmişdir.[4]

● "Qəflət" Quranda üç mə`nada zikr olunur:

a) Pis qəflət:

**"Həqiqətən, xalqın çoxu Bizim ayələrimizdən qəflətdədir."[5]**

b) Yaxşı qəflət:

**"Pak və pis işdən xəbərsiz (qəflətdə olan) qadınları zinada ittiham edənlər dünya və axirətdə lənətlənmişlər."[6]**

v) Təbii qəflət: Hazırkı ayədə nəzərdə tutulan qəflət.

◊ **Bildirişlər**

1. Quran əhvalatlarını Allah bəyan edir.
2. Əhvalatı danışan (və ya yazan) mötəbər olmalıdır.

---

1 "Təfsiri-Kənzud-dəqaiq"
2 Bax: "Hud", 120; "Kəhf", 13; "Ə`raf", 7; "Ə`raf", 176; "Yusuf", 111
3 Bax: "Muminun", 14; "Zumər", 23; "Ğafir", 64; "Nisa", 125; "Nur", 38
4 Bax: "Hud", 7
5 "Yunus", 96
6 "Nur", 23

3. Psixoloji və tərbiyəvi baxımdan daha güclü təsir etmək üçün müqəddiməyə yer verilməlidir. (Əhvalata başlamazdan öncə müqəddimə verilir ki, Allah ən gözəl əhvalatı nəql etmək əzmindədir.)

4. Ən üstün sözlər ən üstün fərdlərin ixtiyarındadır.

5. Başqalarına nümunə göstərmək üçün ən üstünləri seçib təqdim edək.

6. Quran əhvalatları ən üstün və ən gözəl şəkildə bəyan edir.

7. Ən üstün hekayə vəhyə əsaslanmalıdır.

8. Peyğəmbər (s) vəhy olan məsələləri bilməlidir.

9. Peyğəmbər (s) ona vəhy nazil olmamışdan öncə keçmişlərin tarixindən xəbərsiz idi.

10. Quran qəfləti aradan götürür.

Ayə 4:

﴿إِذْ قَالَ يُوسُفُ لِأَبِيهِ يَا أَبتِ إِنِّي رَأَيْتُ أَحَدَ عَشَرَ كَوْكَبًا وَالشَّمْسَ وَالْقَمَرَ رَأَيْتُهُمْ لِي سَاجِدِينَ﴾

**“O zaman ki, Yusuf öz atasına dedi: “Ey ata! Həqiqətən, mən (yuxuda) günəş və ayla on biri ulduz gördüm. Gördüm ki, onlar qarşımda səcdə edir.”**

◊ **Nöqtələr**

● Həzrət Yusifin əhvalatı röyanın nəqli ilə başlayır. Əllamə Təbatəbainin “Əl Mizan” təfsirində bəyan etdiyi kimi, Yusifin əhvalatı ona müjdə verən, gələcəyə ümidvar edən bir yuxu ilə başlayır. Məqsəd onu ilahi tərbiyə yolunda səbirli və dözümlü etməkdir.

● Yusif qardaşı Benyamindən sonra dünyaya gəlmişdir. Digər qardaşları başqa anadan olmuşlar. Həzrət Yəqub həzrət İshaqın, həzrət İshaq isə həzrət İbrahimin övladıdır.[1]

● İlahi övliyaların yuxusu fərqlidir. Bəzən bu yuxular həzrət Yusifin yuxusu kimi təbir olunmalıdır və həqiqətdir. Həzrət İbrahimin yuxusu da belə idi. Ona yuxuda əmr olunmuşdu ki, oğlu İsmaili zibh etsin.

◊ ***YUXU HAQQINDA***

● Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Yuxu üç qisimdir: Ya Allah tərəfindən müjdədir, ya şeytan tərəfindən qəm-qüssədir, ya da insanın gündəlik qayğıları ilə bağlıdır...”[2]

Bəzi alimlər və psixoloqlar yuxunu insan həyatındakı çatışmazlıqların təsiri sayırlar. Onlar “ac toyuq yuxuda darı görər” məsəlinə istinad edirlər. Bəziləri isə yuxunu qorxunun təlqini sayırlar.

---

1 “Təfsiri-məcməul-bəyan”
2 “Bihar”, c. 14, s. 441

Bir məsəldə deyilir: "Dəvədən uzaqda yat ki, yuxunu qarışıq görməyəsən." Bəziləri də yuxunu daxili meyillərin təzahürü sayır. Yuxuya münasibətlər müxtəlif olsa da, kimsə yuxunu bir hadisə kimi inkar etmir. Unutmamalıyıq ki, bütün yuxulara eyni cür yanaşmaq, onları eyni qaydada araşdırmaq olmaz.

● Mərhum Əllamə Təbatəbai "Əl Mizan" təfsirində deyir: "Üç aləm mövcuddur: Təbiət aləmi, Misal aləmi, Əql aləmi. İnsan ruhu mücərrəd olduğundan yuxuda həmin iki aləmlə əlaqədə olur və öz istedadı həddində həqiqətləri dərk edir. Kamillikdə son dərəcəyə çatmamış ruh həqiqətləri başqa qəliblərdə müşahidə edir. Dünya həyatında şirdə şücaət, tülküdə hiylə, dağda ucalıq gördüyümüz kimi, yuxuda elmi nur, izdivacı libas, cəhaləti qaranlıq qəlibində müşahidə edirik.

Yuxu görən insanlar bir neçə dəstədir:

Birinci dəstədən olanların ruhu kamildir. Onlar yuxuya getdikdən sonra duaları Əql aləmi ilə əlaqədə olur. Digər dünyaya aid həqiqətləri saf və aydın dərk edirlər. Bu sayaq yuxuların təbirə ehtiyacı yoxdur.

İkinci dəstədən olanların ruhu orta haldadır. Onlar röya aləmində həqiqətləri dumanlı şəkildə müşahidə edirlər. Bu sayaq yuxuların təbirə ehtiyacı var.

Üçüncü dəstədən olanların ruhu o qədər dəyişkəndir ki, onların gördüyü yuxunun mənası yoxdur. Bu sayaq yuxular təbir olunmur.

● Quranın müxtəlif surələrində bəzi gerçəkləşmiş yuxulara işarə olunur:

a) 11 ulduz, ayla günəşin Yusifə səcdə etməsi ilə bağlı yuxu; bu yuxu həzrət Yusifin qüdrətə çatması, qardaşlarının, ata-anasının onun qarşısında təvazösü kimi təbir olundu.

b) Yusifin zindandakı iki yoldaşının yuxusu; sonradan onlardan biri azad oldu, ikincisi isə edam edildi.

v) Misir padşahının yuxuda arıq və kök inək görməsi; bu yuxu bolluqdan sonra qıtlıq və quraqlıq kimi təbir olundu.

q) Peyğəmbərin (s) yuxuda müşrikləri azsaylı görməsi; nəticədə müşriklər məğlub oldular.[1]

d) Peyğəmbər (s) yuxuda gördü ki, müsəlmanlar başları qırxılmış halda Məscidül-Hərama daxil oldular; bu yuxu Məkkənin fəthi və Allah evinin ziyarəti kimi təbir olundu.[2]

j) Həzrət Musanın anasının yuxusu; o, körpəni sandığa qoyub suya atdı. "Taha" surəsinin bu hadisə ilə bağlı nazil olmuş 38-39-cu ayələrində vəhy deyərkən həmin yuxu nəzərdə tutulur.

z) Həzrət İbrahimin oğlu İsmailin zibhi ilə bağlı yuxusu.[3]

Adi həyatda yuxunun həqiqətinə şahid oluruq. Bəziləri adi yolla əldə oluna bilməyən məlumatları yuxuda əldə edirlər.

---

1 "Ənfal", 43
2 "Fəth", 27
3 "Saffat", 10

Hacı Şeyx Abbas Quminin oğlu yuxuda atasını görür. Atası ona deyir: “Səndə əmanət bir kitab vardır. Onu sahibinə qaytar, qoy Bərzəxdə rahat olum.” Şeyxin oğlu yuxudan oyanıb atasının qeyd etdiyi əlamətlərə malik kitabı tapır. Evdən çıxmaq istədiyi vaxt kitab əlindən düşür və azca zədələnir. O, kitabı sahibinə qaytardığı vaxt heç nə demir. Növbəti gün atasını yuxuda görür və atası ona deyir: “Nə üçün ona demədin ki, kitab zədələnib. İstəsəydi ona zərəri ödəyərdin, ya da razılığını alardın.”

◊ **Bildirişlər**

1. Övladlar atanın biliyinə və canıyananlığına etimad göstərməli, həyatla bağlı məsələlərdə ataları ilə məsləhətləşməlidirlər.

2. Atanı adı ilə çağırmayaq.

3. Ata-ana övladların problemlərinin həlli üçün ən yaxın şəxslərdir.

4. Atalar və övladlar bir-birinə müraciət edərkən səmimiyyət, mərhəmət və şəfqət nişanəsi olan sözlərdən istifadə etsinlər.

5. Valideynlər öz övladlarının yuxularına diqqətli olsunlar.

6. Həzrət Yusif öncə yuxu təbirini bilmirdi və öz yuxusunun təbiri üçün atasına müraciət etmişdi.

7. Bəzən yuxu həqiqəti əldə etmək üçün bir yol olur.

8. Yusifin öz qardaşlarını yuxuda ulduz surətində görməsi onların məqama çatmasını göstərir.

9. Yuxu dilində hər əşya bir həqiqəti göstərir. (Məsələn günəş atanın, ay ananın, ulduz qardaşın nişanəsidir)

10. Ay, günəş və ulduzları yuxuda görməsi Yusifin röyasının ecazkarlığındandır.

11. Allahın övliyalarının yuxusu həqiqətdir.

Bu ayədə “rəəytu”, yəni “gördüm” sözünü təkrarlanması xəyal kimi qəbul olunmaması üçündür.

12. Yusif yuxuda gördü ki, günəş, ay və ulduzlar şüurlu varlıqlar kimi ona səcdə edir.

13. Seçilmiş insanlar elə bir məqama çatırlar ki, başqaları üçün səcdə yeri olurlar.

14. Bəzən gəncdəki istedad özündən böyükləri təvazöyə sövq edir.

15. Əhvalatın yuxu ilə başlayıb təbirlə başa çatması dastan və ssenari yazılmasında ən üstün üsullardandır.

Ayə 5:

﴿قَالَ يَا بُنَيَّ لاَ تَقْصُصْ رُؤْيَاكَ عَلَى إِخْوَتِكَ فَيَكِيدُواْ لَكَ كَيْدًا إِنَّ الشَّيْطَانَ لِلإِنسَانِ عَدُوٌّ مُّبِينٌ﴾

**“(Yəqub) dedi: “Oğulcan! Yuxunu qardaşlarına danışma, yoxsa sənə qurğu qurarlar. Həqiqətən, şeytan insanın aşkar düşmənidir.”**

◊ **Nöqtələr**

● Həyat üsullarından biri sirr saxlamaqdır. Əgər müsəlmanlar bu ayəyə əməl etsəydilər, bir bu qədər xəttatlıq əsərləri, elmi mənbələr, sənət əsərləri yadellilərin muzeylərini bəzəməzdi. Eləcə də mütəxəssis, diplomat, səyyah adı ilə bizim mənbə və imkanlarımızdan xəbər tutmazdılar. Sadəlik və xəyanət səbəbindən bütün sirlərimiz daim qurğu qurmaq fikrində olan biganələrə faş oldu.

●Həzrət Yusif öz yuxusunu qardaşlarından gizli atasına danışdı. Bu onun iti ağlının göstəricisi idi.

◊ **Bildirişlər**

1. Qardaşlarınıza mehribancasına müraciət edin.
2. Ata-analar öz övladları ilə səmimi rabitə qurmalıdırlar ki, övladlar öz sözlərini onlara deyə bilsin.
3. Ailə mühitində və cəmiyyətdə mövcud olan həsəd təhlükəsindən övladlarımızı xəbərdar edək.
4. Övladlarımıza uşaq yaşlarından sirr saxlamağı öyrədək.
5. Biliklər və məlumatlar aşkar və gizli olmaqla iki hissəyə bölünməlidir.
6. Hər adamla hər söz danışmayın.
7. Fəsadın qarşısını almaq məqsədi ilə fəziləti gizlətmək gərəkli işdir.
8. Övladlardan birində istedad gördükdə bunu digər övladlara açıqlamayaq.
9. İti ağıllı və istedadlı fərdləri tanıtdırarkən ehtiyatlı olmaq lazımdır.
10. Əgər yuxu bəzən danışılası olmursa, insanın oyaq vaxtı gördüyü bir çox şeylər də danışılmamalıdır.
11. Həzrət Yəqubda yuxunu təbir etmək üçün bilik və vergi vardı.
12. Şeytan bəzən qulağın dibindədir.
13. Xəstəliyin qarşısını almaq onu müalicə etməkdən üstündür. (Yuxunu qardaşlara danışmamaq bir növ həsədin qarşısını almaqdır.)
14. Peyğəmbərlərin də ailəsində həsəd, hiylə kimi əxlaqa zidd xüsusiyyətlər görünmüşdür.
15. Həsəd üçün zəmin yaratmayın.
16. Həsəd insanın gözünü elə bağlayır ki, o hətta qohumluq haqlarını görə bilmir.
17. Yusifin qardaşları onun yuxusundan və gələcək məqamından xəbərsiz olduqları üçün pisliyə əl atdılar. Əgər xəbər tutsaydılar necə?!
18. Öngörənlik və gələcəyi nəzərə alma dəyərli sifətlərdəndir.
19. Sirlərin və bəzi məlumatların açıqlanması insana baha başa gələ bilər.
20. Bəzi sirlər o qədər mühümdür ki, onların faş olması bir və ya bir çox insanın həyatını təhlükəyə atır.
21. Mühüm və həssas məqamlarda təhlükəni öncədən xatırlamaq lazımdır.
22. Həzrət Yəqub övladlarının Yusifə qurğu qurduğuna əmin idi.

23. Mühüm məsələləri öncədən görmək üçün bəzən sui-zənnin və ya xislətlərin açıqlanmasının eybi yoxdur.

24. Valideyn övladlarının bir-birinə münasibətindən xəbərdar olmalıdır ki, ailəni yaxşı idarə edə bilsin.

25. Hiylə şeytani işdir.

26. Şeytan daxili zəminlərdən istifadə edərək bizə hakim olur. (Qardaşlar arasındakı həsəd şeytanın insana münasibətdə düşmənçiliyinin üzə çıxması üçün zəmindir).

27. İnsan peyğəmbər övladı olsa da şeytan onun düşmənidir.

28. İnsana uşaq vaxtından şeytanı tanıtdırmaq, onun planlarını açıqlamaq lazımdır.

Ayə 6:

﴿وَكَذَلِكَ يَجْتَبِيكَ رَبُّكَ وَيُعَلِّمُكَ مِن تَأْوِيلِ الأَحَادِيثِ وَيُتِمُّ نِعْمَتَهُ عَلَيْكَ وَعَلَى
آلِ يَعْقُوبَ كَمَا أَتَمَّهَا عَلَى أَبَوَيْكَ مِن قَبْلُ إِبْرَاهِيمَ وَإِسْحَقَ إِنَّ رَبَّكَ عَلِيمٌ
حَكِيمٌ﴾

**“Bu sayaq Rəbbin səni seçər, yuxularının təbirindən xəbərdar edər və sənə və Yəqub ailəsindən olanlara nemətini tamamlayar. Necə ki, bundan öncə atan İbrahim və İshaq üçün tamamladı. Həqiqətən, Rəbbin biləndir və hikmət sahibidir.”**

◊ **Nöqtələr**

● Yuxu yozumu batinin və yuxunun gerçəkləşmə yolunun bəyanı mənasındadır. “Hədis” sözünün cəm forması olan “əhadis” sözü macəranın nəqlini bildirir. İnsan öz yuxusunu başqalarına nəql etdiyindən yuxu da hədis adlandırılmışdır.

● Bu ayədə həzrət Yəqub Yusifin yuxusunu onun üçün təbir edir və gələcəkdən xəbər verir.

● Ayədən zahirdə belə görünür ki, “Rəbbin bu sayaq səni seçər” cümləsini ya Allah, ya da həzrət Yəqub söyləyir. Çünki Yəqubun elmi Allah tərəfindəndir və düzgün bir öngörənlikdir. Həmin dövrdə Yusif peyğəmbər olmadığından Allahın ona bu cümlə ilə xitab etməsi tam məntiqidir.

◊ **Bildirişlər**

1. Peyğəmbərlər Allahın seçilmişləridir.

2. Vücud gövhərinin parlaması üçün Yusif müxtəlif çətinliklərlə üzləşdi.

3. İnsanın dəyəri onun yaşında deyil. Yaşca kiçik olan bir şəxs uca dəyərlərə malik ola bilər. (Yusif öz qardaşlarından kiçik idi.)

4. Allahın övliyaları bir yuxu ilə insanların gələcəyini bilirlər.

5. Mühüm və həlledici bilikləri hər adama öyrətmək olmaz. Öncə layiqli insanları seçmək, sonra onları elmlə silahlandırmaq lazımdır.

6. Elm Allahın Öz övliyalarına olan ilk hədiyyəsidir.
7. Peyğəmbərlər Allahın bilavasitə şagirdləridirlər.
8. Yuxu təbiri Allahın insana əta etdiyi bacarıqlardandır.
9. Qeyblə rabitə yollarından biri yuxu yozumudur.
10. Yusifə öyrədilən elm də məhdud olmuşdur.
11. Nübuvvət və hökumət məqamı nemətlərin zirvəsidir.
12. Quran dilində əcdad ata hökmündədir.
13. Bir şəxsin elmi, tərbiyəsi və ləyaqəti həm də onun ailəsi, qohumları üçün bir nemətdir.
14. Yəqub ailəsinə nemətin tamamlanması Yusifin qardaşlarının xeyir aqibətini göstərir.
15. Peyğəmbərlər ilahi elm və hikmət əsasında seçilirlər.

Ayə 7:

﴿لَّقَدْ كَانَ فِي يُوسُفَ وَإِخْوَتِهِ آيَاتٌ لِّلسَّائِلِينَ﴾

**“Həqiqətən, Yusif və qardaşlarında (onların əhvalatında) axtaranlar üçün nişanələr var.”**

◊ **Nöqtələr**

● Həzrət Yusifin əhvalatında bir çox ilahi qüdrət nişanələri nəzərə çarpır. Bu nişanələrin hər biri həqiqəti axtaranlar üçün ibrət və öyüddür. Bu nişanələri nəzərdən keçirək: Həzrət Yusifin sirli yuxusu; yuxu təbiri elmi; Yəqubun öz övladının gələcəyindən xəbərdar olması; quyuda olub zərər görməmək; quyunun dibi və zirvə; zindana düşmək və hakimiyyətə çatmaq; pak olmaq və günahda ittiham edilmək; ayrılıq və vüsal; bəndəlik və sultanlıq; günahdan qaçmaq üçün zindan; günahkar qardaşların dərhal bağışlanması.

Bu nişanələrlə yanaşı müəyyən suallar ünvanlamaq olar. Bu sualların hər birinə verilən cavab həyat yolunu işıqlandırır. Sualları nəzərdən keçirək:
1. Həsəd insanı qardaş qətlinə necə sürükləyir?
2. Bir xəyanətdə 10 nəfər necə həmrəy olur?
3. Yusif xəyanətkar qardaşlarını necə bağışlayır?
4. Necə olur ki, insan ona Allahı xatırladan zindanı günah ləzzətindən üstün tutur?

● Bu surə elə bir vaxtda nazil oldu ki, İslam Peyğəmbəri (s) ciddi iqtisadi və ictimai mühasirədə idi. Bu əhvalat həzrət Peyğəmbərə (s) təsəlli verdi. Ona ürək-dirək verilirdi ki, yaxınlarının iman gətirməməsindən narahat olma, Yusifin qardaşları onu quyuya atdılar!

◊ **Bildirişlər**

1. Əhvalatın bəyanından öncə dinləyicini eşidib ibrət götürməyə hazırlamaq lazımdır.
2. Həsəd ailə və qohumluq bağlarını da məhv edir.
3. Yusifin əhvalatının iki mehvəri var: Yusif və onun qardaşları. Hansı tərəfdən başlasaq, yenə də nəticəyə yetişirik.

4. Əhvalat bir olsa da onun ibrətamiz nöqtələri və dərsləri çoxdur.

5. Sual həqiqətə çatmaq yollarındandır.

6. Nə qədər ki, dinləməyə və öyrənməyə təşnə deyilik, Quran dərslərindən yetərincə faydalanmayacağıq.

7. Quranın xatırladığı əhvalatlar xalqın həyatı ilə bağlı suallara cavab verir.

Ayə 8:

﴿لَّقَدْ كَانَ فِي يُوسُفَ وَإِخْوَتِهِ آيَاتٌ لِّلسَّائِلِينَ﴾

**“O vaxt ki, (qardaşları ona) dedilər: “Həqiqətən, Yusif və onun qardaşı (Benyamin) böyük bir dəstə olan bizlərdən atamıza daha əzizdir. Həqiqətən, atamız aşkar azğınlıqdadır.”**

◊ **Nöqtələr**

● Əlbir və güclü qrupa “usbət” deyilir. Çünki belə bir qrup bir bədənin əsəb sistemi kimi qarşılıqlı himayə ilə fəaliyyət göstərir.

● Yəqubun övladlarından ikisi (Yusif və Benyamin) bir anadan, o biri övladlar isə başqa bir anadan idilər. Yəqub ya körpə olduğuna, ya da kamalına görə Yusifi çox sevirdi. Onun bu sevgisi Yusifin qardaşlarında həsəd yaratmışdı. “Biz güclü qrupuq” demələrindən belə məlum olur ki, onlarda həsəddən əlavə qürur və təkəbbür də olmuşdur. Onlar məhz həmin qürur və həsəd səbəbindən atalarını öz övladlarına münasibətdə səhvə yol verməkdə ittiham edirdilər.

● Cəmiyyətdə bir qrup insanlar özlərini yüksəltmək əvəzinə yüksəkdə olanları alçaldırlar. Onlar özləri sevilmədiyindən sevilənlərə qarşı çıxırlar.

● Ayrıseçkilik və fərq sözləri fərqli məna daşıyır. Ayrıseçkilik dedikdə, heç bir dəlilə əsaslanmadan birini o birindən üstün tutmaq nəzərdə tutulur. Fərq isə ləyaqətə əsaslanan üstünlükdür. Məsələn, müəllimin verdiyi qiymətlər fərqli olur. Amma bu fərq zülm yox, hikmət əsasındadır. Həzrət Yəqubun öz övladı Yusifə məhəbbəti zülm sayılmamalıdır. Amma Yusifin qardaşları bu məhəbbəti dəlilsiz sayır və deyirdilər: “Həqiqətən, atamız aşkar surətdə azmışdır.”

● Bəzən güclü məhəbbət başağrısına səbəb olur. Yəqub Yusifi çox sevirdi. Bu sevgi səbəbindən qardaşları ona qarşı həsəd apardılar və onu quyuya atdılar. Necə ki, Züleyxanın Yusifə bağlılığı Yusifin zindana düşməsi ilə nəticələndi. Yusifin əxlaqına heyran qalan zindan rəisi ona dedi: “Mən səni çox istəyirəm. Qorxuram ki, bu istəyin də ardınca bəla gələ.”[1]

◊ **Bildirişlər**

1. Həsəd səbəbindən yaşlı insanlar da belə öz şəxsiyyətlərini unudub uşaqlara qarşı kin saxlayırlar. (Yusif gənc olsa da, yaşlılar ona həsəd aparırdılar)

2. Əgər övladlar ayrıseçkilik hiss etsələr, onlar arasında həsəd alovlanar.

---

1 “Təfsirul-sitteynil-came”

3. Hər bir insanda sevilmək istəyi var. İnsan özü biganəlikdən əziyyət çəkir.

4. Həzrət Yəqub bütün övladlarını sevirdi. (Qardaşları deyirdi ki, atamız Yusifi daha çox sevir: yəni Yəqub o biri övladlarını da sevirdi.)

5. Zor və qüdrət insanı sevdirə bilməz. (Yusifin qardaşları qüdrətli idilər, amma sevimli deyildilər.)

6. İnsanlar bir yerdə olduqda özlərində güc və qüdrət hiss edirlər.

7. Həqiqi və Allah bəyənən rəhbər olmadan qrup yaratmaq süqut amillərini daha tez gerçəkləşdirir.

8. İnsan xəta və günaha yol verməzdən öncə özü üçün dəlil axtarır, əməlinə don geyindirir. (Yusifin qardaşları özlərini güclü bir qrup, atalarını isə azğın sayırdılar.)

9. Gənclər özlərini bir növ yetkin ağıl sahibi sayır, atalarının baxışlarına əhəmiyyət vermirlər.

10. Güc və qüdrət hissi ağılı kor edir.

11. Yanlış meyarların yanlış nəticələri olur. (Əgər güc və say meyar olsaydı, azlıqda qalanlar azğın sayılardı.)

12. Eqoist adamlar uğursuzluqda özlərini yox, başqalarını ittiham edirlər. (Yusifin qardaşları özlərini həsədcil saymaq əvəzinə atalarını azğın adlandırdılar.)

13. Həsəd nübuvvət və atalıq sərhədlərini də pozur. Övladlar həm də ataları olan peyğəmbəri çaşqınlıq və ədalətsizlikdə ittiham edirlər.

14. İnsan o qədər qafil ola bilər ki, özü azdığı halda başqalarını azğın sayar.

Ayə 9:

﴿اقْتُلُواْ يُوسُفَ أَوِ اطْرَحُوهُ أَرْضًا يَخْلُ لَكُمْ وَجْهُ أَبِيكُمْ وَتَكُونُواْ مِن بَعْدِهِ قَوْمًا صَالِحِينَ﴾

**“(Qardaşlardan biri dedi:) Yusifi öldürün, ya uzaq bir yerə atın ki, atanızın diqqəti sizə məxsus olsun. Ondan sonra (tövbə edib) saleh bir qrup olun.”**

◊ **Nöqtələr**

● İnsanın nemətə münasibətdə dörd halı olur: həsəd, xəsislik, isar (fədakarlıq), qibtə. Əgər insan onda olmayan nemətin başqalarında da olmamasını istəyirsə, o həsədçidir. Bir nemətin kimsədə yox, yalnız onun özündə olmasını istəyən insan xəsisdir. Özü bir nemətdən məhrum olsa da, başqalarında bu nemətin olmasını istəyən insan isar əhlidir. Başqalarında olan nemətin onda da olmasını istəyən şəxs qibtə edir.

● İmam Baqir (ə) buyurmuşdur: “Mən arabir bəzi övladlarıma məhəbbət göstərib onları dizim üstə oturduram. Halbuki bu onların haqqı deyil. Məqsədim

budur ki, övladlarım arasında həsəd olmasın və Yusifin macərası təkrarlanmasın.”[1]

◊ **Bildirişlər**

1. Təhlükəli fikir insanı təhlükəli işə sövq edir.

2. Övladların özlərinə münasibətdə ayrıseçkilik hiss etmələri onları qardaş qətlinədək aparır. (Yəqub Yusifi onun ləyaqətinə görə sevsə də, qardaşları bunu ayrıseçkilik kimi dəyərləndirirdilər.)

3. Darbaxışlı insanların nəzərincə, rəqibi fiziki cəhətdən aradan götürmək ən yaxşı yoldur.

4. Həsəd insanı qardaş qətlinədək aparır.

5. Günahkarlar günah yolunda bir-birlərinə vəsvəsə edir, bir-birlərindən güc alırlar.

6. İnsan sevgi sorağındadır. Məhəbbətdən məhrumluq təhlükə və azğınlıqların ən böyük amilidir.

7. Həsədçi insanlar elə güman edirlər ki, göz qabağından gedən qəlbdən də çıxır. (Yusifin qardaşları elə güman edirdilər ki, ataları Yusifi görməsə, diqqətini onlara yönəldəcək).

8. Quran iman və saleh əməli məhəbbət amili sayırsa,[2] Şeytan qardaş qətlini məhəbbət yolu kimi təqdim edir.

9. Həsədçi insan düşünür ki, başqalarını aradan götürməklə bütün nemətlər onun olacaq.

10. Şeytan qarşıda tövbə etmək imkanı olduğunu önə çəkərək, bu gün günah üçün yol açır.

11. Təkcə elm və agahlıqla azğınlıqdan qurtarmaq olmaz. Qardaşlar qətl və sürgünün pis olduğunu bilirdilər. Bnunla belə, bu çirkin işlərə yol verdilər.

12. Günaha başlamazdan öncə tövbə etməyi planlaşdırmaq – vicdanı aldatmaq və günaha yol açmaqdır. (Qardaşlar bir-birinə deyirdilər ki, Yusifi aradan götürək, sonra tövbə edib salehlərdən olarıq.)

Ayə 10:

﴿قَالَ قَآئِلٌ مَّنْهُمْ لاَ تَقْتُلُواْ يُوسُفَ وَأَلْقُوهُ فِي غَيَابَةِ الْجُبِّ يَلْتَقِطْهُ بَعْضُ السَّيَّارَةِ إِن كُنتُمْ فَاعِلِينَ﴾

**“Onların arasından dillənən biri dedi: “Yusifi öldürməyin, onu quyunun dibinə atın ki, karvanlardan biri onu götürsün.”**

◊ **Nöqtələr**

---

1 “Təfsire-Nümunə”, c. 74, s. 78

2 Bax: “Məryəm”, 96

● “Cubb” dedikdə daş döşənmiş quyu başa düşülür. “Ğəyabət” quyunun divarında suya yaxın bir hissədə düzəldilmiş taxçadır. Yuxarıdan baxdıqda bu taxçalar görünmür.

● “Nəhy-əz münkərin”, yəni pisliyə qadağa qoymağın gələcəkdə üzə çıxan bir sıra bərəkətləri var. “Öldürməyin” qadağası Yusifə nicat verdi. Yusif sonrakı illərdə məmləkəti qıtlıqdan qurtardı. Fironun arvadı Asya da “öldürməyin” deməklə Musanın canını qurtarmışdı. Musa sonralar Bəni-İsraili Fironun şərindən xilas etdi. “Maidə” surəsinin 32-ci ayəsində ilahi vədin aydın bir nümunəsi verilmişdir: “Hər kəs bir nəfərə həyat versə, sanki bütün xalqa həyat vermişdir.”

◊ **Bildirişlər**

1. Bəzən bir fərdi pis işdən çəkindirmək bir toplumun baxışını dəyişə bilər. (Bir nəfər “öldürməyin” dedi, bir dəstənin fikrini dəyişdi.)
2. Sözü deyənin adı yox, sözün mənası mühümdür.
3. Çoxluqdan qorxmayaq, onlarla həmrəng olmayaq.
4. Əgər pis işin qarşısını tamamilə almaq mümkün deyilsə, ona güc çatan həddə mane olmaq lazımdır.
5. Nəinki yaxşı işlərdə, bəyənilməyən işlərdə də məsləhətləşmək faydalıdır. (Yusifin qardaşları onu qətlə yetirmək barədə məsləhətləşdilər).
6. Fəsadla mübarizə üçün bəzən fəsadı fəsadla aradan götürmək lazım gəlir. (“Onu öldürməyin, quyuya atın”.)
7. Pis işə qadağa qoymaqla yanaşı yaxşı iş təklif edək. (Bir işi görmə deyiriksə, deyək ki, hansı iş görülməlidir.)

Ayə 11:

﴿قَالُواْ يَا أَبَانَا مَا لَكَ لاَ تَأْمَنَّا عَلَى يُوسُفَ وَإِنَّا لَهُ لَنَاصِحُونَ﴾

**“Dedilər: “Ey ata, sənə nə olub ki, Yusifin xeyirxahı olduğumuz halda onu bizə etibar etmirsən?!”**

◊ **Bildirişlər**

1. Puç insanlar daha çox iddia və təbliğat edirlər.
2. Hətta hər qardaşa da etibar etmək olmaz.
3. Hər iddiaya aldanmayın və əsassız adlardan çəkinin. (Xain özünü saleh adlandırır.)
4. Düşmən sui-zənni aradan qaldırmaq üçün hər yolla etibar qazanmaq istəyir.
5. Xain təqsiri başqalarının boynuna atır.
6. Yaranışın ilk günündən bəşəriyyət xeyirxahlıq adı ilə aldadılmışdır. Şeytan da Adəm və Həvvanı qafil etmək üçün dedi: “Mən sizin xeyirxahınızam.”[1]

---

1 “Əraf”, 21

7. Həsəd insanı yalan, hiylə, hətta yaxın insanlara qarşı pisliyə vadar edir.

Ayə 12:

﴿أَرْسِلْهُ مَعَنَا غَدًا يَرْتَعْ وَيَلْعَبْ وَإِنَّا لَهُ لَحَافِظُونَ﴾

**"Onu sabah bizimlə göndər ki, (səhrada) gəzsin, oynasın. Şübhəsiz, biz onu qoruyacağıq."**

◊ **Nöqtələr**

● İnsanın əyləncə və idmana ehtiyacı vardır. Bu ayədən göründüyü kimi, Yusif əyləncəyə ehtiyac duyduğundan atası övladlarının təklifi ilə razılaşdı.

Rəvayətdə deyilir: «Mömin vaxtının bir hissəsini əyləncə və halal ləzzətlərdən faydalanmaq üçün ayırmalıdır. Bu yolla başqa işlərdə müvəffəqiyyət əldə etmək olur.»[1]

● Nəinki keçmişdə, hətta bu gün və gələcəkdə də gəncləri idman və oyun pərdəsi altında əsil yaranış məqsədindən qəflətdə saxlayacaqlar. Onlar oyunu ciddiləşdirirlər ki, ciddi işlər oyun kimi görünsün. Dünyanın zalım hakimləri nəinki idmandan sui-istifadə edir, hətta başqa cazibəli adlarla da öz çirkin məqsədlərini həyata keçirirlər. Diplomat adı altında ölkələrə ən təhlükəli casuslar göndərilir. Hərbi müşavir adı ilə ölkələrdə fitnə-fəsad yaradır, hərbi sirləri əldə edirlər. İnsan haqları adı altında öz muzdurlarını himayə edirlər. Humanitar yardım adı altında öz muzdurlarına silah göndərirlər. İqtisadçı mütəxəssis, qloballaşma adı ilə zəif ölkələri güclənməyə qoymur, torpağı dərmanlamaq adı ilə bağ və əkin sahələrini məhv edir, hətta islamşünaslıq adı ilə İslamı tərsinə cilvələndirirlər.

◊ **Bildirişlər**

1. Övlad atanın icazəsi ilə əylənə bilər.
2. Gənc insan əyləncə və idmana ehtiyaclıdır.
3. Qardaşlar halal və məntiqi vasitələrdən qarşı tərəfi aldatmaq üçün sui-istifadə etdilər.
4. Əgər canıyanan valideyn və tərbiyəçilər övladların boş vaxtı üçün proqram hazırlasalar, düşmənlər gənclərin boş vaxtından sui-istifadə edə bilməzlər. (Qardaşları Yusifin idmana ehtiyacından sui-istifadə etdilər).
5. Uşaqlar əylənərkən onlardan muğayat olaq ki, zədələnməsinlər.
6. Bir mövzuya israrla yanaşmaq bəzən qurğu nişanəsi olur.

---

1 "Nəhcül-bəlağə", h. 390

Ayə 13:

﴿قَالَ إِنِّي لَيَحْزُنُنِي أَن تَذْهَبُواْ بِهِ وَأَخَافُ أَن يَأْكُلَهُ الذِّئْبُ وَأَنتُمْ عَنْهُ غَافِلُونَ﴾

**“(Yəqub) dedi: “Həqiqətən, onu aparmağınızla məni qəmləndirirsiniz. Qorxuram ki, onu canavar yesin və siz xəbərsiz olasınız.”**

◊ **Bildirişlər**

1. Övlad qarşısında məsuliyyət və ona can yandırmaq peyğəmbərlərin xislətlərindəndir.

2. Ayrılıq hətta peyğəmbərlər üçün də ağrılıdır.

3. İnsan həssas yanaşdığı nöqtələrdən imtahana çəkilir. (Yəqub Yusifə münasibətdə çox həssas idi. Yusifin ayrılığı onun üçün imtahan oldu.)

4. Həya pərdəsini yırtmayın.

(Yəqub övladlarının həsədindən xəbərdar idi, ona görə də Yusifə buyurdu: “Gördüyün yuxunu qardaşlarına danışma.” Amma Yəqub burada övladlarının həsədindən söz açmır. O, sadəcə, canavarı və övladlarının Yusifdən xəbərsiz qalacaqlarını bəhanə gətirir.)

5. Övladlarınıza müstəqillik verin.

(Atanın övlada eşqi və ehtimal olunan təhlükələrdən qoruması iki prinsipdir. Amma övlada istiqlal vermək də başqa bir prinsipdir. Yəqub Yusifi o biri qardaşları ilə göndərdi. Çünki gənc aram-aram istiqlal əldə etməli və atasından ayrılmalıdır. Övlad tələsmədən özünə dost seçməli, düşünüb öz ayağı üstündə dayanmalı və bu yolda çətinliklərə dözməlidir.)

6. Öz həssas nöqtələrinizi hamıya açıqlamayın. Qarşı tərəf nə vaxtsa bu məlumatdan sizə qarşı istifadə edə bilər.

7. Qəflət insanın zərbə almasına səbəb olur.

Ayə 14:

﴿قَالُواْ لَئِنْ أَكَلَهُ الذِّئْبُ وَنَحْنُ عُصْبَةٌ إِنَّا إِذًا لَّخَاسِرُونَ﴾

**“(Yəqubun övladları) dedilər: “Biz güclü bir dəstə olduğumuz halda canavar onu yesə, ziyankar olarıq ki!”**

◊ **Bildirişlər**

1. Bəzən böyüklər təcrübə və agahlıq vasitəsi ilə təhlükəni hiss edirlər, amma cavanlar öz güclərinə güvəndiklərindən təhlükəni zarafat sayırlar.

2. Güclü olmaq təhlükədən uzaqlıq deyil. (Yusifin qardaşları güclü bir dəstə idi, amma təhlükədən amanda deyildi.)

3. Qardaşlar canavarın Yusifi yeməsindən narahat deyildilər. Amma zəif görünməsinlər deyə, Yəqubun sözünə reaksiya verdilər.

4. Əgər bir şəxs məsuliyyəti qəbul edib, onu lazımınca yerinə yetirməsə, öz şəxsiyyətini, sərmayəsini, hörmətini, vicdanını təhlükəyə atmış olur və zərərə düşür.

5. Zahirlə aldatmaq və hissləri riyakarcasına büruzə vermək münafiqlərin qurğularındandır.

6. Bəziləri öz məqsədlərinə çatmaq üçün hətta şəxsiyyətlərindən belə keçməyə hazırdırlar.

Ayə 15:

﴿فَلَمَّا ذَهَبُواْ بِهِ وَأَجْمَعُواْ أَن يَجْعَلُوهُ فِي غَيَابَةِ الْجُبِّ وَأَوْحَيْنَآ إِلَيْهِ لَتُنَبِّئَنَّهُم بِأَمْرِهِمْ هَـذَا وَهُمْ لاَ يَشْعُرُونَ﴾

**“Elə ki, onu özləri ilə götürdülər, hamılıqla qərara gəldilər ki, onu quyunun məxfi yerinə atsınlar. (İstəklərini həyata keçirdilər.) Biz ona vəhy etdik ki, gələcəkdə onlara bu işlərini xəbər verəcəksən. Bir halda ki, onlar səni tanımazlar.”**

◊ **Nöqtələr**

● Allah Yusifi hakim qərar vermək istədiyindən, o öz ətrafını görməli idi. O, qullara rəhm etmək üçün qul olmalı, məhbuslara rəhm etmək üçün quyu və zindana düşməli idi. Necə ki, Allah-təala Öz Peyğəmbərinə buyurur: “Sən fəqir və yetim oldun ki, fəqir və yetimləri yanından qovmayasan.”[1]

◊ **Bildirişlər**

1. İnsanların yekdil fikri onların haqlı olmasını göstərmir.

2. Planla onun icrası arasında fərq ola bilər. (Qardaşlar Yusifi quyuya atmaq istəyirdilər, amma əməldə onu quyuda yerləşdirdilər.)

3. Yusifə vəhy gələn vaxt o, ailədən uzaqlaşdı və qardaşlarının pis münasibəti ilə üzləşdi.

4. Həssas məqamlarda övliyalar ilahi yardımdan bəhrələnirlər.

5. Quyuda Yusif üçün arxayınlıq vasitəsi Allahın gələcəklə bağlı ilhamı idi.

6. Yusifin gənc yaşlarında vəhy qəbul etmək ləyaqəti vardı.

7. Allah Öz övliyalarını çətinliklərlə sınağa çəkir və onları hidayət edir.

8. Agahlıq arxayınlıq yaradır. (Yusifi quyuda arxayınlaşdıran ilahi vəhy idi)

9. Həyatın davamı üçün ən yaxşı sərmayə ümiddir. (Yusifə vəhy edildi ki, quyudan xilas olacaq və qardaşları öz işlərinə görə xəcalət çəkəcək.)

10. Bir halda ki, rəzilliyin sonu rüsvayçılıqdır, insan öz nəfsini cilovlamalıdır.

11. Çirkin işləri işarə və kinayə ilə yada salın.

Ayə 16:

﴿وَجَاؤُواْ أَبَاهُمْ عِشَاء يَبْكُونَ﴾

---

1 Bax: “Zuha”, 6-11

**“(Öz planlarını həyata keçirdikdən sonra) gecə vaxtı ağlar halda atalarının yanına gəldilər.”**

◊ **Nöqtələr**

●Quranda dörd növ göz yaşına işarə olunur:

1. Şövqdən göz yaşı; məsihilərdən bir dəstəsi Quran ayələrini eşitdikdə ağlayırdı.[1]

2. Qüssə və həsrətdən göz yaşı; aşiq müsəlmanlar Peyğəmbərdən (s) cəbhəyə getmək imkanı olmadığını eşitdikdə ağlayırdılar.[2]

3. Qorxudan göz yaşı; övliyalara ilahi ayələr oxunduqda ağlayaraq səcdəyə düşürdülər.[3]

4. Saxta göz yaşı; Yusifin qardaşları ağlar halda Yəqubun yanına gəldilər.

◊ **Bildirişlər**

1. Fitnəkarlar hiss və zamanın roluna diqqətlidirlər.

2. Göz yaşı sədaqət nişanəsi olmaya da bilər. Hər göz yaşına inanmayın.

Ayə 17:

﴿قَالُواْ يَا أَبَانَا إِنَّا ذَهَبْنَا نَسْتَبِقُ وَتَرَكْنَا يُوسُفَ عِندَ مَتَاعِنَا فَأَكَلَهُ الذِّئْبُ وَمَا أَنتَ بِمُؤْمِنٍ لِّنَا وَلَوْ كُنَّا صَادِقِينَ﴾

**“Dedilər: Ey ata! Biz yarışmaq üçün getdik, Yusifi şeylərimizin yanında qoyduq. Sonra canavar onu yedi. Əlbəttə, biz doğru danışsaq da sözlərimizə inanmırsan.”**

◊ **Bildirişlər**

1. Yalan yalan gətirir. Qardaşlar öz xətalarını ört-basdır etmək üçün ardıcıl olaraq üç yalan danışdılar: Yarışmağa getmişdik, Yusifi şeylərimizin yanında qoymuşduq, canavar onu yedi.

2. Yalançının yaddaşı olmur. Qardaşlar Yusifi əylənmək üçün aparmışdılar. Amma atalarına bildirdilər ki, onu şeylərin yanında qoyubmuşlar.

3. Oyunda yarışmanın uzun keçmişi var.

4. Xain qorxaqdır. Yalançı ifşa olmaqdan qorxur.

5. Yalançı israr edir ki, xalq onu sədaqətli tanısın.

Ayə 18:

---

1 Bax: “Maidə”, 83

2 Bax: “Tövbə”, 92

3 Bax: “Məryəm”, 58; “İsra”, 109

﴿وَجَآؤُوا عَلَى قَمِيصِهِ بِدَمٍ كَذِبٍ قَالَ بَلْ سَوَّلَتْ لَكُمْ أَنفُسُكُمْ أَمْرًا فَصَبْرٌ جَمِيلٌ وَاللّهُ الْمُسْتَعَانُ عَلَى مَا تَصِفُونَ﴾

**"Yusifin köynəyini yalandan qana batırıb (atalarının yanına) gətirdilər. (Ata) dedi: "Belə deyil, nəfsiniz sizə pis işi bəzəmişdir. Gözəl və yaxşı səbir lazımdır. Dediklərinizlə bağlı Allahın yardımını istəyirəm."**

◊ **Nöqtələr**

● **Sual:** İlahi müqəddərat qarşısında səbir gözəldir. Amma uşağa zülm qarşısında səbri Yəqub "səbri-cəmil" adlandırır. Bu necə izah olunlur?

**Cavab:** Əvvəla, Yəqub Yusifin sağ olduğunu vəhy vasitəsi ilə bildi. İkincisi, əgər Yəqub övladlarının şübhəsini artırsaydı, onlar Yusifi qoyduqları yerə qayıdıb onu öldürərdilər. Üçüncüsü, hətta zalımların da üzünə tövbə qapısını birdəfəlik bağlamaq olmaz.

◊ **Bildirişlər**

1. Qurğulara qarşı diqqətli olaq.
2. Məzlum görkəmi qurğu ola bilər. (Yəqub qanlı köynək qurğusuna aldanmadı. O "aman sizin nəfsinizin əlindən" söylədi.)
3. Şeytan və azğın nəfs günahı insana gözəl göstərir, ona don geyindirir.
4. Yəqub bilirdi ki, Yusifi canavar yeməyib. Ona görə də Yusifin cəsədini tələb etmədi.
5. Hadisələrin iki çöhrəsi var: Bəla və çətinlik, səbir və gözəllik.
6. İlahi peyğəmbərlər hadisələrlə üzləşdikdə ən gözəl şəkildə reaksiya göstərirlər.
7. Hadisələrlə qarşılaşdıqda səbir və gücdən əlavə, ilahi yardımlara da ehtiyac var.
8. Səbirli olmaq üçün Allahdan yardım diləmək lazımdır.
9. Ən gözəl fəzl odur ki, ürək yanıb gözdən yaş axsa da, Allah yaddan çıxmasın.
10. Qardaşın qardaşa qarşı qurğusuna dözmək çətindir. Belə bir hadisə ilə qarşılaşdıqda səbir üçün Allahdan yardım diləmək lazımdır.
11. Həzrət Yəqub öz sözləri ilə övladlarına anlatdı ki, onların iddiası inanılası deyil.

Ayə 19:

﴿وَجَاءتْ سَيَّارَةٌ فَأَرْسَلُواْ وَارِدَهُمْ فَأَدْلَى دَلْوَهُ قَالَ يَا بُشْرَى هَـذَا غُلاَمٌ وَأَسَرُّوهُ بِضَاعَةً وَاللّهُ عَلِيمٌ بِمَا يَعْمَلُونَ﴾

**"(Yusif o vaxta qədər quyuda qaldı ki,) bir karvan gəlib çatdı. Suçunu göndərdilər (ki, su gətirsin). O öz qabını quyuya atdı. (Yusif qabın ipindən yapışıb quyunun ağzına qalxdı.) Suçu fəryad çəkdi: "Şad xəbər, bu bir oğlandır." Onu əşyatək gizlətdilər (ki, kimsə onun sahibi olduğunu iddia etməsin), halbuki Allah onların etdiyi işdən agah idi."**

◊ **Nöqtələr**

● Allah Öz xalis bəndələrini tənha buraxmır, çətinliklər zamanı onlara nicat verir. Allah Nuha suyun üstündə, Yunusa suyun altında, Yusifə suyun kənarında nicat verdi. İbrahim odda, Musa dəryanın ortasında, Məhəmməd mağarada, Əli (ə) Peyğəmbərin (s) yatağında hifz olundu.

● Allahın iradəsi ilə quyuya atılan qabın ipi Yusifin xilası üçün vasitə oldu. Bu ipdən yapışan Yusif nəhayət taxt-taca çatdı. Bəli, Allahın ipindən yapışan beləcə yüksəlir![1]

◊ **Bildirişlər**

1. Bəzən insanı öz adamları quyuya atır. Amma Allah istədiyi vaxt onu biganələrin əli ilə xilas edir.

2. İş bölgüsü müdiriyyət və kollektiv yaşayış prinsiplərindəndir. (Karvanda su üçün məmur vardı.)

3. Bəziləri insana əşya kimi baxır.

4. Həqiqəti xalqdan gizləmək olar. Bəs hər şeydən xəbərdar olan Allahdan necə?!

Ayə 20:

﴿وَشَرَوْهُ بِثَمَنٍ بَخْسٍ دَرَاهِمَ مَعْدُودَةٍ وَكَانُواْ فِيهِ مِنَ الزَّاهِدِينَ﴾

**“(Karvan əhli) Yusifi ucuz qiymətə, bir neçə dirhəmə satdı. Ona rəğbət göstərmədilər.”**

◊ **Nöqtələr**

● Yusif vücudunu ucuz satan peşman olar. Ömür, gənclik, izzət, istiqlal, paklıq Yusif səciyyəsidir və bütün bunları ucuz satmaq olmaz.

◊ **Bildirişlər**

1. Asan yolda əldə olunan mal asanlıqla əldən çıxar.

2. Quldarlığın və qul alverinin böyük tarixi var.

3.Karvan əhlinin Yusifə rəğbətsizliyi onun gələcəyi üçün faydalı oldu.

4. Bir şeyin qiymətini bilməyən kəs onu ucuz qiymətə verir.

5. Dəyərli insanlara bir müddət rəğbət göstərilməsə də, nə vaxtsa onların dəyəri üzə çıxır. (Qul kimi satılan Yusif bir gün hakim oldu.)

6. Pulun neçə min illik tarixi var.

7. Qafil insanlar Yusifi ucuz qiymətə satdılar. Amma agah və aşiq qadınlar onu mələyə oxşatdılar. İmam Sadiq (ə) buyurur: “Kişidən dərrakəli qadın çoxdur.”[2]

Ayə 21:

---

1 Bax: “Ali-İmran”. 103

2 “Kafi”, c. 4, s. 306

﴿وَقَالَ الَّذِي اشْتَرَاهُ مِن مِّصْرَ لاِمْرَأَتِهِ أَكْرِمِي مَثْوَاهُ عَسَى أَن يَنفَعَنَا أَوْ نَتَّخِذَهُ وَلَدًا وَكَذَلِكَ مَكَّنِّا لِيُوسُفَ فِي الأَرْضِ وَلِنُعَلِّمَهُ مِن تَأْوِيلِ الأَحَادِيثِ وَاللّهُ غَالِبٌ عَلَى أَمْرِهِ وَلَكِنَّ أَكْثَرَ النَّاسِ لاَ يَعْلَمُونَ﴾

**“Yusifi alan misirli zövcəsinə dedi: “Onu əziz tut, ümid var ki, gələcəkdə bizə fayda versin və ya onu övladlığa götürək.” Bu sayaq həmin məmləkətdə Yusifə yer və güc verdik ki, ona yuxuların təbirini öyrədək. Allah Öz işində qalibdir, amma xalqın əksəri bilməz.”**

◊ **Nöqtələr**

● “Gələcəkdə bizə fayda verə bilər, ya onu övladlığa götürərik” cümləsi Quranda iki yerdə işlənmişdir: Musanın olduğu sandıq sudan götürülərkən, Fironun arvadı ona belə müraciət etmişdi; Hazırkı ayədə Əzizi-Misr öz zövcəsinə belə müraciət edir. Bəli, Allahın iradəsi ilə tanınmayan qulun məhəbbəti Misir hakiminin qəlbində özünə yer tapır və gələcəkdə bu şəxsin hakimiyyətə çatması üçün zəmin yaranır.

◊ **Bildirişlər**

1. Yusifin əzəməti onun simasından görünürdü. Belə ki, Əzizi-Misr onu zövcəsinə tapşırır.
2. Qadının evdə aparıcı rolu var.
3. Ətrafınızdakıları və tanışları xalqa yaxşılığa dəvət edin.
4. Müamilələrdə gələcəyi nəzərə alın.
5. İnsanlara hörmət göstərməklə onlardan kömək gözləmək olar.
6. Qəlblər Allahın əlindədir. Yusifin məhəbbəti sahibin qəlbində qərar tutdu.
7. Yalnız diqqətlə götür-qoydan və sınaqdan sonra mühüm qərar çıxarın. (Yusif əvvəlcə köməkçi götürüldü, sonra övlad kimi seçildi).
8. Oğulluğa götürmənin tarixi keçmişi var.
9. Əzizi-Misrin övladı yox idi.
10. Allah istəsə, pislik xeyir səbəbi olar. (Qardaşları Yusifi quyuya atdı, o isə taxt-taca yetişdi.)
11. Əlinizin altında olan qulamlara biganə yanaşmayın. Onlar gələcəkdə qüdrətli və hökm sahibi ola bilərlər.
12. Elm və bilik məsuliyyətin qəbulu üçün şərtdir.
13. Acılıqların sonu şirinlikdir.
14. Allahın qalib iradəsi Yusifi quyudan taxt-taca qaldırdı.
15. Yaxşılığın pisliyə qalib gəlməsi Allahın qanunudur.
16. Bizim hadisə kimi qəbul etdiyimiz işlər əslində Allahın iradəsinin gerçəkləşməsi üçün ilahi plandır.
17. Əslində xeyir olan acı hadisələr çoxdur. (Yusif zahirdə quyuya düşdü, amma əslində işin davamı yüksəlişə aparırdı.)
18. Xalq hadisələrin zahirini görür, amma Allahın proqramlarından xəbərsizdir.

Ayə 22:

﴿وَلَمَّا بَلَغَ أَشُدَّهُ آتَيْنَاهُ حُكْمًا وَعِلْمًا وَكَذَلِكَ نَجْزِي الْمُحْسِنِينَ﴾

**“(Yusif) yetkinlik qüvvəsinə çatdığı vaxt ona hökm və elm verdik. Biz yaxşı əməl sahiblərini bu sayaq mükafatlandırırıq.”**

◊ **Nöqtələr**

● “Şədd” sözündən olan “əşuddə” sözü “möhkəm düyün” mənasını bildirir. Bu söz fiziki və mənəvi möhkəmliyə işarədir. Bu söz Quranda bəzən “büluğ” mənasında işlədilmişdir.[1] Bəzən də “əşuddə” dedikdə qocalıqdan əvvəlki yaş nəzərdə tutulur.[2]

◊ **Bildirişlər**

1. Elm və hikmət insandan tutum və hazırlıq tələb edir.
2. İlahi yüksəlişin gerçəkləşməsi üçün vaxt və məqama ehtiyac var.
3. Hikmət elmdən fərqlənir. (Elm bilikdir, hikmət isə insanı haqqa çatdıran bəsirətdir.)
4. Peyğəmbərlər elmi oxumaqla qazanmırlar.
5. Elm və hikmət yanaşı olduqda səmərə verir.
6. Birini vəzifədən kənarlaşdırdıqda və ya vəzifəyə qoyduqda bunun dəlilini xalqa bəyan edin.
7. Allahın xüsusi mükafatını əldə etmək üçün ehsan etmək lazımdır.
8. Xeyir əməl sahibləri elə bu dünyada kama çatır.
9. Yalnız elmi və fiziki güclə Allahın lütfünə çatmaq olmur. İlahi lütfü əldə etmək üçün xeyir əmələ də ehtiyac var.

Ayə 23:

﴿وَرَاوَدَتْهُ الَّتِي هُوَ فِي بَيْتِهَا عَن نَّفْسِهِ وَغَلَّقَتِ الأَبْوَابَ وَقَالَتْ هَيْتَ لَكَ قَالَ مَعَاذَ اللّهِ إِنَّهُ رَبِّي أَحْسَنَ مَثْوَايَ إِنَّهُ لاَ يُفْلِحُ الظَّالِمُونَ﴾

**“Evində olduğu qadın yaxınlıq etməklə Yusifdən kam almaq istədi. Qapıları möhkəm bağladı və dedi: “Hazıram sənin üçün.” Yusif dedi: “Pənah aparıram məni yaratmış və məqamımı möhtərəm tutmuş Allaha. Şübhəsiz, zalımlar nicat tapmaz.”**

◊ **Nöqtələr**

● “Pənah aparıram məni yaratmış və məqamımı möhtərəm etmiş Allaha” cümləsi iki cür təfsir olunur:

a) Allah mənim Rəbbimdir və məqamımı möhtərəm tutmuşdur, mən Ona pənah aparıram.

---

1 Bax: “Əhqaf”, 15
2 Bax: “Ğafir”,67

b) Əzizi-Misr mənim malikimdir, mən onun süfrəsində oturmuşam, mənim haqqımda “ona ehtiram göstər” dedi və mən ona xəyanət etmərəm.

Hər bir baxışın öz tərəfdarı var və hər qrup öz baxışına dəlillər gətirir. Amma elə düşünürük ki, birinci ehtimal daha üstündür. Çünki Yusifi günahdan çəkindirən Əzizi-Misrə sədaqətli qalmaq hissi yox, ilahi təqva idi. Təqva Əzizi-Misrə sədaqətli qalmaqdan üstündür. Bəli, bu surədə bir neçə məqamda “Rəbbukə” dedikdə Əzizi-Misr nəzərdə tutulmuşdur. Amma “Rəbbi” sözü surənin bütün yerlərində Allaha işarədir.

Əzizi-Misri Rəbb adlandırmaq Yusifin şənində deyil, o belə bir müraciətlə özünü alçaltmazdı.

● Allahın övliyaları Allaha sığınıb nəticə əldə edirlər: Musa Fironun fitnələri şərindən Allaha pənah apardı.[1] Məryəmin anası Məryəm və onun nəslini Allahın pənahında qərar verir.[2] Bu ayədə isə Yusif Allaha pənah aparır. Allah-təala İslam Peyğəmbərinə (s) Ona sığınmağı göstəriş verir.

● Yusif “sığınıram” əvəzinə “Allaha pənah” deməklə özünü kiçik sayır.

◊ **Bildirişlər**

1. Böyük günahlar mülayimliklə başlayır.

2. Kişinin pak olması bəs etmir. Çünki bəzən qadın kişinin sorağına gəlir.

3. Şəhvət o qədər güclüdür ki, padşahın zövcəsi öz quluna əsir olur.

4. Çalışaq ki, günahkarın adını çəkməyək, sadəcə işarə edək.

5. Naməhrəm qadın olan yerdə gənc oğlanların hüzurundan çəkinək. Həmin şəraitdə mehr salma ehtimalı var.

6. Eşq adətən, tədricən peyda olur. Yusifin həmin evdə olması qadının qəlbində tədricən eşq yaratdı.

7. Cinsi fəsadlar haqqında üstüörtülü, ədəbli şəkildə danışın.

8. Naməhrəm kişi ilə qadının qapalı bir mühitdə olması günah üçün şərait yaradır.

9. Tarix boyu zina çirkin iş kimi qəbul olunmuşdur. Bu səbəbdən də Züleyxa bütün qapıları möhkəm bağladı.

10. Bütün qapılar bağlı olsa da, Allaha sığınma qapısı açıqdır.

11. İlahi sınaq fərqli məqamlar üçün nəzərdə tutulur. İnsan bəzən quyuda, bəzən sarayda sınağa çəkilir.

12. İnsanın təqva və iradəsi günah zəmininə qalib gələ bilər.

13. Allaha diqqət insanı günahdan çəkindirir.

14. Rəis və başçı əgər bizə günah göstərişi verərsə, ona itaət etməməliyik. (Xalqa itaət etmək xatirinə Allaha itaətsizliyə yol vermək olmaz.)[3]

15. Sınaq təhlükəsi olduqda Allaha pənah aparmaq lazımdır.

16. Sarayda da pak, iffətli, sədaqətli qalmaq olar.

---

1 Bax: “Ğafir”, 27

2 Bax: “Ali-İmran”, 36

3 “Bihar”, c. 10, s. 227

17. Cinsi ehtiras o qədər güclüdür ki, bu təhlükədən qurtarmaq üçün Allah yardım etməlidir.

18. Nəfsinə itaət edən insan zahiri rüsvayçılıqdan qorxur. (Züleyxa qapıların açıqlığından, Yusif isə Allahdan qorxurdu.)

19. Günah (zina) insanlıq kəraməti ilə bir araya sığmır.

20. Allah zikrinin xasiyyətə çevrilməsi günahdan uzaqlaşmaq üçün çox təsirlidir.

21. Günaha qarşı ilk addım Allahın zikri, Ona pənah aparmaqdır.

22. Ən üstün təqva odur ki, insan qorxu və rüsvayçılıqdan yox, Allahın lütf və məhəbbətinə çatmaq üçün günahdan çəkinsin.

23. Allahın lütfünün xatırlanması günahdan uzaqlıq amillərindəndir.

24. Günahın aqibətini düşünmək insanı bu yoldan çəkindirir.

25. Günaha təşviq və ya günah üçün zəmin yaratmaq insanın özünə, zövcəsinə və cəmiyyətə zülmüdür.

26. Bir anlıq günah insanı əbədi qurtuluşdan uzaq sala bilər.

27. Günaha yol vermək Allahın nemətlərinə qarşı naşükürlükdür.

28. Bütün işlərdə işin sonunu düşünmək lazımdır.

29. Yusif Züleyxa ilə çarpışarkən qurtuluş fikrində idi.

30. Dəyərini bilən insan özünü ucuz satmır.

31. Zülm bir qapıdan girəndə, qurtuluş o biri qapıdan çıxır.

Ayə 24:

﴿وَلَقَدْ هَمَّتْ بِهِ وَهَمَّ بِهَا لَوْلَا أَن رَّأَى بُرْهَانَ رَبِّهِ كَذَلِكَ لِنَصْرِفَ عَنْهُ السُّوءَ وَالْفَحْشَاءَ إِنَّهُ مِنْ عِبَادِنَا الْمُخْلَصِينَ﴾

**“Həqiqətən, (Əzizi-Misrin arvadı) ona (Yusufa) meyl etdi. Əgər Allahın dəlilini görməsəydi, o da meyl edərdi. Bu sayaq (dəlillərlə ona kömək etdik ki,) pisliyi ondan uzaqlaşdıraq. Çünki o Bizim xalis bəndələrimizdəndir.”**

◊ **Nöqtələr**

● İmam Sadiq (ə) buyurur: “Rəbbinin dəlili” dedikdə həmin elm, yəqin və hikmət nuru nəzərdə tutulur. Allah-təala ötən ayələrdə ona hikmət və elm verdiyini bildirirdi.[1] Bəzi rəvayətlərdə bildirilir ki, dəlil dedikdə Yusifin öz atası və ya Cəbrailin qiyafəsini müşahidə etməsi nəzərdə tutulur. Amma bu xəbərin səhih sənədi yoxdur.

● Quranda Allah düşmənlərinin ilahi övliyalara qarşı planlarına dəfələrlə işarə olunmuşdur. Bildirilir ki, Allah onların planlarını puça çıxardı.

Təbuk döyüşündən qayıdarkən münafiqlər Peyğəmbərin (s) dəvəsini hürkütməklə onu qətlə yetirmək istədilər,. amma bu plan baş tutmadı.[2] Onlar

---

1 “Təfsire-kəşful-əsrar”
2 Bax: “Tövbə”, 74

Peyğəmbəri (s) azdırmaq üçün də çox çalışdılar.[1] Bəzən də Allahın rəsuluna (s) təcavüz etmək fikrinə düşdülər.[2]

● Yusif məsum və pak idi. Hər hansı vasitə ilə Yusiflə rabitədə olanların onun haqqında dediklərini nəzərdən keçirək:

1. Allah-təala buyurur: "(Biz Yusifə dəlillərlə kömək etdik) ki, pisliyi ondan uzaqlaşdıraq. Çünki o Bizim xalis bəndələrimizdəndir."

2. Yusif deyirdi: "Pərvərdigara! Mənim üçün zindan, dəvət olunduğum günaha batmaqdan üstündür." Digər bir yerdə Yusif belə deyir: "Mən sahibim olmayan yerdə ona xəyanət etmədim."

3. Züleyxa dedi: "Həqiqətən, mən Yusifə yaxınlaşdım, amma o məsum idi."

4. Əzizi-Misr dedi: "Ey Yusif! Bu əhvalatı aşkarlama. «Züleyxaya isə belə dedi: "Günahına görə tövbə et.»

5. Yusifin paklığına şəhadət verən şəxs dedi: «Əgər köynək arxadan cırılmışsa, məlum olur ki, Yusif pakdır.»

6. Misir qadınları dedilər: "Biz ondan heç bir günah və pislik görmədik."

7. Hamını aldadacağını vəd edən İblis dedi: "Mən xalis bəndələri aldada bilmirəm."

◊ **Bildirişlər**

1. İlahi yardımlar olmasa, hamı büdrəyər.

2. İstənilən bir səhnədə Allahın dəlillərini görmək mümkündür.

3. Peyğəmbərlərin də başqa insanlar kimi daxili meyilləri var. Amma onlar Allahın hüzuruna inandıqlarından günah etmirlər.

4. Allahın zikrindən qəflət günaha yol açır, Allaha diqqət insanı günahdan qoruyur.

5. Xalis insanı günahdan qoruyan səbəbdir.

6. Xalisanə ibadət günahdan uzaqlaşmaqlıqda müvəffəqiyyət rəmzidir.

7. Allah Öz xalis bəndələrini hifz edir.

8. Pislik xalisliklə bir araya sığmır.

9. Xalislik təkcə Yusifə aid deyil. Onun yolunu getməklə müxlislik məqamına yaxınlaşmaq olar.

Ayə 25:

﴿وَاسُتَبَقَا الْبَابَ وَقَدَّتْ قَمِيصَهُ مِن دُبُرٍ وَأَلْفَيَا سَيِّدَهَا لَدَى الْبَابِ قَالَتْ مَا جَزَاء مَنْ أَرَادَ بِأَهْلِكَ سُوَءًا إِلاَّ أَن يُسْجَنَ أَوْ عَذَابٌ أَلِيمٌ﴾

**"Hər ikisi qapıya doğru çıxdı. Qadın onun köynəyini arxadan cırdı. Qəfildən ərini yanında gördü. Qadın (intiqam və ya bəraət üçün) dedi: "Zövcənə qarşı pis məqsədi olanın yeri zindan və ya ağrılı işkəncədən başqa nədir?"**

1 Bax: "Nisa", 113
2 Bax: "Maidə", 11

◊ **Nöqtələr**

● "İstibaq" dedikdə iki nəfərin bir-birini ötmək istəməsi nəzərdə tutulur. Yusif günahdan qurtulmaq üçün qaçırdı. Züleyxa da onun ardınca gedirdi. Sanki yarışırdılar. "Qədd" dedikdə parçanın uzununa cırılması başa düşülür. "Lifa" bir şeyi qəfil tapmaq mənasını bildirir.

◊ **Bildirişlər**

1. Təkcə "məazəllah" demək bəs etmir, həm də günahdan qaçmaq lazımdır.

2. Bəzən əməllər zahirən eyni olsa da, məqsədlər müxtəlif olur. (Biri günahdan uzaqlaşmaq, digəri isə günaha batırmaq üçün qaçır).

3. Günah mühitindən hicrət və günahdan qaçmaq zəruridir.

4. «Qapı bağlıdır» deyə günaha təslim olmaq düzgün deyil. Qapının açılacağı ümidi ilə ona doğru hərəkət etmək lazımdır.

5. Günahkar insan, adətən, özündən sonra iz qoyur.

6. Arabir mənzil və iş yerinə baş çəkmək lazımdır.

7. Bəzən günahkar özü şikayət edir.

8. Günahkar özünü təmizə çıxarmaq üçün yaxınlarının məhəbbətindən istifadə edir.

9. Qüdrət sahibləri təqsirkar olduqda, adətən, başqalarını ittiham edirlər.

10. Günahkar özünü təmizə çıxarmaq üçün başqalarına böhtan atır.

11. Çox vaxt haqq sözdən batil yolda istifadə olunur. (Ərli qadına pis məqsədlə yaxınlaşmaq günahdır. Amma belə bir məqsədin olub-olmaması araşdırılmalıdır.)

12. Züleyxa aşiq yox, həvəsbaz idi. Çünki aşiq canını məşuq yolunda verməyə hazırdır. Züleyxa isə Yusifə böhtan atıb onu zindana saldı.

13. Zindan və günahkarların həbsi tarixi keçmişə malikdir.

14. Cəzanı elan etməsi Əzizin arvadının qüdrətini göstərirdi.

15. Həvəs qatqılı eşq bəzən aşiqi qatilə çevirir.

16. Züleyxanın dövlət ətrafında və yol seçimində nüfuzu vardı.

Ayə 26:

﴿قَالَ هِيَ رَاوَدَتْنِي عَن نَّفْسِي وَشَهِدَ شَاهِدٌ مِّنْ أَهْلِهَا إِن كَانَ قَمِيصُهُ قُدَّ مِن قُبُلٍ فَصَدَقَتْ وَهُوَ مِنَ الكَاذِبِينَ﴾

**"(Yusif) dedi: "O məndən kam almaq istədi." Qadının ailəsindən olan bir şahid şəhadət verdi ki, əgər Yusifin köynəyi qabaqdan cırılmışsa, qadın düz deyir. O, yalançılardandır. (Əgər qadın doğru desəydi, Yusif və Əzizin zövcəsi üzbəüz çarpışmalı və köynək qabaqdan cırılmalı idi.)"**

Ayə 27:

﴿وَإِنْ كَانَ قَمِيصُهُ قُدَّ مِن دُبُرٍ فَكَذَبَتْ وَهُوَ مِن الصَّادِقِينَ﴾

**“Əgər onun köynəyi arxadan cırılmışsa, deməkk, qadın yalan deyir və o, (Yusif) doğruçulardandır.”**

◊ **Nöqtələr**

● Bəzi rəvayətlərdə şahidin bir uşaq olduğu bildirilir. İsa beşikdə danışdığı kimi, bu uşaq da dilə gəlmişdi. Amma bu sənədin etibarlı sənədi olmadığından onu əsas götürmək olmaz. Çox ehtimal ki, şahid Əzizin müşavirlərindən olmuşdur. Bu düşüncəli şəxs də hadisəni öz gözləri ilə görsəydi, şərt cümləsi işlətməz, özü şəhadət verərdi.

●Yusif öncə danışmadı. Əgər Əzizin arvadı ona böhtan atmasaydı, Yusif onun şəxsiyyətini alçaltmaz, “o istədi” deməzdi.

● Daha pak insanlar daha çox böhtana məruz qalırlar. Qadınlar arasında Məryəmdən pakı yox idi. Amma ona böhtan atdılar. Kişilər arasında da Yusif kimi pakı olmayıb. Onu da zindana saldılar. Amma Allah-təala iki halda onların paklığını sübuta yetirir.

● Yusifin əhvalatında onun köynəyi ciddi bir dəlil oldu. Köynəyin arxadan cırılması Yusifin günahsızlığını və Əzizin zövcəsinin günahkarlığını sübuta yetirdi. Digər bir tərəfdən, Yusifin köynəyinin cırılmaması onun qardaşlarının yalanını açdı. Yusifin qardaşları atalarına “onu canavar yedi” dediyi vaxt ataları soruşdu: “Bəs nə üçün onun köynəyi cırılmayıb?!” Əhvalatın sonunda isə Yusifin köynəyi atasının gözünün açılması üçün vasitə olur.

◊ **Bildirişlər**

1. İttiham olunan şəxs özünü müdafiə edib əsl günahkarı tanıtdırmalıdır. Yusif Züleyxanın böhtanına “o meyl etdi” deməklə münasib cavab verdi.

2. Mühakimə aparan şəxs həm şikayətçinin, həm də müttəhimin sözünü dinləməlidir. Hadisə araşdırıldıqdan sonra hökm vermək olar. (Bu əhvalatda Əzizin zövcəsi dedi ki, Yusif pis məqsəddə idi. Yusif isə bu böhtanı rədd edib dedi: “O meyl etdi.” Şahid də köynəyin necə cırılması vasitəsi ilə həqiqəti yalandan fərqləndirdi.)

3. Susmaq həmişə yaxşı iş sayılmır, günahsızı müdafiə etmək vacibdir.

4. Həqiqətin açıqlanmasına yardım bəyənilmiş bir işdir.

5. Mühakimədə sənədə əsaslanaraq danışan və dediyini dəlillərlə sübuta yetirən kəs şahid hökmündədir.

6. Allah kimsənin ağlına gəlməyən yolla insanları himayə edir.

7. Allah istəyən vaxt günahkarın yaxınları da onun əleyhinə şəhadət verirlər.

8. Şahidlik və hakimlikdə əsl-nəsəbi, mövqe və qohumluğu nəzərə almağa icazə verilmir.

9. Qohumların bir-birinin ziddinə şəhadət verməsi daha çox əminlik yaradır.

10. Mühakimədə şikayətçi və müttəhimin dediklərindən əlavə, hadisə araşdırılmalıdır.

11. Mühakimədə hər bir günahın təhlili üçün mütəxəssisə ehtiyac var.

12. Günahın müəyyənləşdirilməsində buraxılmış izlər əsasında günahkar tanınır, hadisə qiymətləndirilir.

13. Qazi öz dəlilləri əsasında hökm çıxara bilər.

14. Günah və günahkarı müəyyənləşdirmək üçün peşəkar üsullardan bəhrələnmək lazımdır.

Ayə 28:

﴿فَلَمَّا رَأَى قَمِيصَهُ قُدَّ مِن دُبُرٍ قَالَ إِنَّهُ مِن كَيْدِكُنَّ إِنَّ كَيْدَكُنَّ عَظِيمٌ﴾

**“Elə ki, (Əzizi-Misr) onun arxadan cırılmış köynəyini gördü, (həqiqəti anladı və) dedi: “Şəksiz, bu siz qadınların hiylələrindəndir. Əlbəttə, sizin hiyləniz böyükdür.”**

◊ **Nöqtələr**

● Şeytanın hiyləsini zəif sayan Quran[1], ayədə qadınların hiyləsini böyük hesab edir. “Təfsire-Safi”də bildirildiyinə əsasən, şeytanın hiyləsi ona görə zəif sayılır ki, gözə görünmür, anidir və oğurluqdur. Qadının hiyləsi isə göz qabağındadır, daimidir və məhəbbətlə müşayiət olunur.

● Bəzən Allah böyük işləri kiçik vasitələrlə həyata keçirir. Məsələn, Əbrəhənin əzəmətli qoşunu əbabil quşları vasitəsilə məhv edildi. İslam Peyğəmbəri (s) hörümçək toru vasitəsilə qorundu. Dəfn qaydası qarğa vasitəsilə öyrədildi. Məryəmin paklığı uşağın danışması ilə sübuta yetdi. Yusifin paklığı köynəyinin necə cırılması ilə təsdiqləndi. Bir ölkə hüd-hüd (şanapipik) quşu vasitəsilə iman gətirdi, Kəhf əshabı bir pul sikkəsi ilə tapıldı.

◊ **Bildirişlər**

1. Mühakimədə dəlillərə istinad olunması, məhəbbət və kinə yer verilməməsi ədalətin tələbidir.

2. Məntiqi ədalət hər bir insanı müti edir. (Əzizi-Misr şahidin dediklərinə tabe oldu.)

3. Cinayət səhnəsindəki izlər və detallar diqqətlə araşdırılmalıdır.

4. Qəti bir nəticə əldə etdikdə hökmü yubanmadan elan edin.

5. Əzizi-Misrdə nisbi ədalət vardı və o, məsələlərə insafla yanaşırdı. (O kimsəni sual-cavabsız ittiham etmədi, sorğu-sualdan sonra Yusifə haqq qazandırdı.)

6. Haqq pərdə arxasında qalmır, günahkar bir gün rüsvay olur.

7. Haqq sözü acı və zərərimizə olsa da, qəbul edək. (Əziz qəbul etdi ki, günahkar onun öz arvadıdır.)

8. Günahkar qadınların hiyləsindən qorxun. Onların hiyləsi təhlükəlidir.

9. Məkr və hiylə nə qədər böyük olsa da, ifşa oluna bilər.

Ayə 29:

1 Bax: “Nisa”, 76

﴿يُوسُفُ أَعْرِضْ عَنْ هَـذَا وَاسْتَغْفِرِي لِذَنبِكِ إِنَّكِ كُنتِ مِنَ الْخَاطِئِينَ﴾

**“(Əzizi-Misr dedi:) Yusif, bu məsələyə göz yum (onu açıqlama; zövcəsinə xitabən dedi:) günahına görə tövbə et, çünki xətakarlardan olmusan.”**

◊ **Bildirişlər**

1. Əzizi-Misr istəyirdi ki, məsələ məxfi qalsın. Amma Yusifin paklığı sübuta yetsin deyə, bütün əsrlərin insanları bu macəradan xəbər tutdular.

2. İnsanların çirkin əməlləri açıqlanmamalıdır.

3. Əzizi-Misr öz məqamına xatır Yusifdən bu məsələyə göz yummasını istədi.

4. Əzizi-Misr də digər saray adamları kimi namus və qeyrət məsələsinə biganə idi. O öz arvadının tövbə etməsi ilə kifayətləndi və onu ciddi cəzalandırmadı.

5. Qeyri-ilahi rəhbərlər öz yaxınlarının pis işləri ilə sərt rəftar etmək gücündə deyildirlər.

6. Qadının öz ərindən başqası ilə rabitə qurmağa çalışması çirkin və qeyri-şəri bir işdir.

7. Qeyri-qanuni cinsi əlaqə hətta dindar olmayanlar arasında da xoşagəlməz sayılır.

Ayə 30:

﴿وَقَالَ نِسْوَةٌ فِي الْمَدِينَةِ امْرَأَةُ الْعَزِيزِ تُرَاوِدُ فَتَاهَا عَن نَّفْسِهِ قَدْ شَغَفَهَا حُبًّا إِنَّا لَنَرَاهَا فِي ضَلاَلٍ مُّبِينٍ﴾

**“Şəhərdəki qadınlar dedilər: “Əzizin zövcəsi öz qulamına meyl edib, ondan kam almaq istəyib. Həqiqətən, onu bir qulam özünə vurğun etmişdir. Həqiqətən, biz onu aşkar azğınlıqda görürük.”**

◊ **Nöqtələr**

● “Şəğaf” dedikdə ürəyi qulaq tək örtülmüş nazik pərdə nəzərdə tutulur. “Şəğəfəha hubbən” dedikdə Züleyxanın qəlbində Yusifin məhəbbətinin kök atması, şiddətlənməsi başa düşülür.[1]

● Yusifin haqqında iki dəstə belə dedi: “Ona həddi aşan məhəbbət azğınlıq nişanəsidir.” Bu dəstələrdən biri Yusifin qardaşları idi. Onlar atalarını Yusifi sevdiyi üçün azğın sayırdılar. Digər bir dəstə Misir qadınları idi. Yusifi həddən artıq sevdiyi üçün onlar Züleyxanı azğınlıqda ittiham edirdilər.

● Hər kəs Yusifi özü üçün istəyir: Yəqub onu öz övladı sayır; karvan onu özü üçün sərmayə bilir; Əzizi-Misr onu oğulluğu sanır; Züleyxa onu məşuq kimi

---

1 “Təfsire-Nümunə”

istəyir; məhbuslar onu yuxularının təbiri üçün arzulayır; amma Allah-təala Yusifi Öz rəsulu sayır və Yusifə qalan da elə həmin bu risalət məqamıdır.

◊ **Bildirişlər**

1. Vəzifəlilərin ailəsində baş verən hadisələr tez yayılır. Onlar öz rəftarlarına qarşı diqqətli olmalıdırlar.

2. Günahkarın qapıları bağlaması onu rüsvayçılıqdan qurtara bilməz.

3. Ailə üzvlərinin nöqsanları kişinin, ailə başçısının ayağına yazılır.

● Ayə 31:

﴿فَلَمَّا سَمِعَتْ بِمَكْرِهِنَّ أَرْسَلَتْ إِلَيْهِنَّ وَأَعْتَدَتْ لَهُنَّ مُتَّكَأً وَآتَتْ كُلَّ وَاحِدَةٍ
مِّنْهُنَّ سِكِّينًا وَقَالَتِ اخْرُجْ عَلَيْهِنَّ فَلَمَّا رَأَيْنَهُ أَكْبَرْنَهُ وَقَطَّعْنَ أَيْدِيَهُنَّ وَقُلْنَ حَاشَ
لِلّهِ مَا هَذَا بَشَرًا إِنْ هَذَا إِلاَّ مَلَكٌ كَرِيمٌ﴾

**“(Əzizin zövcəsi) (misirdəki) qadınların hiyləsini (pis sözünü) eşitdi və onların ardınca adam göndərdi. Onlar üçün məclis qurdu və (meyvə üçün) hərəsinə bir bıçaq verdi. Yusifə dedi ki, qadınların yanına gəlsin. Qadınlar onu əzəmətli görüb əllərini kəsdilər və dedilər: “Aman Allah, bu, bəşər deyil, əziz bir mələkdir.”**

◊ **Nöqtələr**

● “Qəttənə” sözü “qət” kökündəndir və kəsmək mənasını bildirir. Bu söz “təfil” babından olduğu üçün bir çox yeri kəsmək və doğramaq mənasını çatdırır.

● “Haşa” dedikdə haşiyədə, kənarda olmaq nəzərdə tutulur. Bir şəxsin eybdən uzaq olduğunu bildirmək üçün öncə Allahı pak bilmək bir qayda olub.[1]

● Əzizi-Misrin zövcəsi siyasətçi bir qadın idi. O bir qonaqlıq verməklə rəqiblərini öz yerlərində oturtdu.

◊ **Bildirişlər**

1. Bəzən başqaları haqqında danışmaqda məqsəd canıyananlıq yox, həsəd, qurğu olur.

2. Ola bilsin ki, Misir qadınları Yusifi görmək məqsədi ilə Züleyxanın eşqini aləmə yayırdılar.

3. Bəzən hiyləyə hiylə ilə cavab vermək lazım gəlir. (Misir qadınları Züleyxanın sirrini açmaqla qurğu qurdular, Züleyxa qonaqlıq təşkil etməklə onların qurğusuna qarşı cavab verdi.)

4. Züleyxa özünə qarşı qurğunu nəzarət altına almaq üçün bu qurğunu Quran ümdə fərdlərə qarşı plan cızdı. (Aydın məsələdir ki, Züleyxa təkcə məhəllə qadınlarını dəvət etməmişdi.)

5. Xilafkar insan özünü paka çıxarmaq üçün bəzən həmin günaha geniş meydan verir və onu adi bir iş kimi təqdim etmək istəyir.

---

1 “Təfsire-Əl Mizan”

6. Hər bir qonaq üçün ayrıca xidmət bəyənilmiş işdir.
7. Ağa günaha yol verməyənədək ona itaət etmək lazımdır.
8. Eşitmək görmək kimi deyil.
9. İnsan fitri olaraq əzəmət qarşısında təvazö göstərir.
10. Züleyxa qadınlara anlatmaq istəyirdi ki, əgər onlar Yusifi bir an görməklə çaşırlarsa, Yusiflə gecə-gündüz bir evdə olan kəs nə etsin?!
11. Tənqidə tələsməyin. Ola bilsin ki, siz də qarşı tərəfin yerində olsaydınız onun kimi hərəkət edərdiniz. (Züleyxanı məzəmmət edənlər Yusifi görən kimi onun halına düşdülər.)
12. İnsan nə qədər ki, imtahana çəkilməyib, iddialıdır. Amma imtahana çəkilən insan özündən xəbərsiz olaraq mahiyyətini göstərir.
13. Eşq tüğyan edən yerdə insan özündən xəbərsiz əlini kəsir. (Namaz vaxtı Əlinin (ə) ayağından ox çıxarılarkən onun xəbər tutmamasına təəccüblənməyin. Əgər dünyəvi eşq insanı əlinin kəsilməsindən xəbərsiz saxlayırsa, həqiqi eşq nəyə qadirdir?!)
14. Yusif gözəllikdə oxşarsız, iffətdə hamıya nümunə idi.
15. Bir qadının hiyləsi Yusifin qardaşlarının hiyləsindən böyük idi. (Əgər Əzizin zövcəsi bir qonaqlıqla eşqinə haqq qazandıra bildisə, Yusifin qardaşları öz həsədlərinə don geyindirə bilmədilər.)
16. Yusifin camalı Züleyxanı dərdə saldı. Amma onun elm və təqvası qurtuluşuna səbəb oldu. (Bəli, mənəvi gözəllik zahiri gözəllikdən mühümdür).
17. Həmin dövrdə Misir camaatı Allaha və mələklərə inanırdı.

● Ayə 32:

﴿قَالَتْ فَذَلِكُنَّ الَّذِي لُمْتُنَّنِي فِيهِ وَلَقَدْ رَاوَدتُّهُ عَن نَّفْسِهِ فَاسَتَعْصَمَ وَلَئِن لَّمْ يَفْعَلْ مَا آمُرُهُ لَيُسْجَنَنَّ وَلَيَكُونًا مِّنَ الصَّاغِرِينَ﴾

**“(Əzizi-Misrin zövcəsi əlini kəsmiş arvadlara) dedi: “Bu həmin şəxsdir ki, ona görə məni məzəmmət edirdiniz. Həqiqətən, mən ondan kam almaq istədim, amma o paklıq göstərdi. Əgər ona verdiyim göstərişi yerinə yetirməsə, zindana salınacaq və zillətə düşənlərdən olacaq.”**

◊ **Nöqtələr**

● İctimai və psixoloji durum insanın reaksiyasına təsir göstərir. Əzizin zövcəsi öz çirkin işinin ifşa olacağından qorxduğu vaxt qapıları bağladı. Amma Misir qadınlarını özü ilə eyni münasibətdə görüb dedi: “Mən ondan kam almaq istədim”. Cəmiyyət də belədir. Çirkin iş adi hal aldıqda günah etmək asanlaşır. Bəlkə də belə bir halın qarşısını almaq üçün Kumeyl duasında oxuyuruq: “Pərvərdigara! Həya pərdəsini yırtan günahlarımı bağışla.” Çünki günahı birinci dəfə etmək çətin olur. Həya pərdəsi yırtıldıqdan sonra günah etmək asanlaşır.

◊ **Bildirişlər**

1. Başqalarını qınamayın, özünüz giriftar olarsınız.
2. Günah yolla eşq rüsvayçılıq səbəbidir.

3. Yalançı rüsvay olar. Dünən “Yusifin pis məqsədi vardı” deyən, bu gün “mən ondan kam almaq istədim” dedi.

4. İxlas, iffət və paklıq çirkin insanları rüsvay edir.

5. Bəzən düşmən də qarşı tərəfin paklığına şəhadət verir. (Bəzən günahkarın da vicdanı oyanır.)

6. Paklıq peyğəmbərlik şərtidir.

7. Bəzən pak insan qarşı tərəfin kam alma istəyi səbəbindən zindana düşür.

8. Günahkarlar öz məqsədlərinə çatmaq istəyir və bu yolda istənilən vasitədən bəhrələnirlər.

9. Qüdrətli insan imanlı və təqvalı olmadıqda öz qüdrətindən nəfs istəkləri üçün istifadə edir.

10. Züleyxanın Misir hökuməti aparatında nüfuzu vardı.

11. Qüdrətdən sui-istifadə zalım hakimlərin rəftarıdır.

12. Həbs və təhqirlə hədələmə zalım hakimlərin üslubudur.

13. Nəfs istəyi o qədər güclüdür ki, hətta rüsvayçılıqla razılaşıb yoluna davam edir.

14. Məğlub olmuş aşiq düşmənə çevrilir.

15. Saray əhval-ruhiyyəsi qeyrəti öldürür. (Əzizi-Misr arvadının xəyanətinə əmin olsa da, onu Yusifdən ayırmadı).

16. Nəfsə uyanlar və zalım hakimlər təqva və iffəti zəlillik səbəbi sayırlar.

● Ayə 33:

﴿قَالَ رَبِّ السِّجْنُ أَحَبُّ إِلَيَّ مِمَّا يَدْعُونَنِي إِلَيْهِ وَإِلاَّ تَصْرِفْ عَنِّي كَيْدَهُنَّ أَصْبُ إِلَيْهِنَّ وَأَكُن مِّنَ الْجَاهِلِينَ﴾

**«(Yusif) dedi: “Pərvərdigara! Mənim üçün zindan məni dəvət etdikləri işdən daha əzizdir. Əgər onların hiyləsini məndən uzaqlaşdırmasan, onlara meyl edərəm və cahillərdən olaram.”»**

◊ **Nöqtələr**

● Yusif qəlbi geniş bir insan idi. Qardaşlarının həsədinə düçar olduğu vaxt düşmənçilik etmədi. Züleyxanın eşqi ilə üzləşdikdə günaha batmadı. Qüdrətə çatdığı vaxt qardaşlarından intiqam almadı. Ölkəni təhlükədə gördüyü zaman vətənə dönmək əvəzinə iqtisadi tədbirlər görmək, ölkəni pis vəziyyətdən qurtarmaq yolunu seçdi.

● Hər bir insan üçün əziz şey var. Yusif üçün paklıq daha əziz idi. Bəziləri üçün dünya daha əziz olur.[1] Möminlər üçün isə Allah daha əzizdir.[2]

◊ **Bildirişlər**

---

1 Bax: “İbrahim”, 3

2 Bax: “Bəqərə”, 125

1. Allahın rübubiyyətinə (Rəbliyinə) diqqət dua qaydalarındandır.

2. Allahın övliyaları şərəfli həyatın sıxıntısını günah yoldakı rifahdan üstün tuturlar.

3. Bəzi hallarda azadlıqda olmaq dəyər, zindanda olmaq eyb sayılmır.

4. İnsan Allahdan yardım almaqla bütün vəziyyətlərdə günahdan uzaq ola bilər.

5. Əziyyət və çətinlik günaha batmaq üçün səbəb deyil.

6. Dua, ah-nalə və Allahdan yardım istəmək günah və cinsi azğınlıqdan qorunma yollarından biridir.

7. İnsanın şəxsiyyəti onun cismindən yox, ruhundan asılıdır. Əgər ruh azad olsa, zindan behiştdir. Ruh sıxıntıda olduqda isə saray da zindandır.

8. İnsanları günahdan qorumaq üçün mühit ayırmaq yaxşı işdir. (Yusif zindan bahasına olsa belə, düşdüyü mühitdən ayrılmaq istəyirdi.)

9. Allahın razılığı xalqın və toplumun razılığından üstündür.

10. Kimsə Allahın lütfü olmadan qoruna bilməz. Böhranlı şəraitdə yeganə qurtuluş yolu Allaha sığınmaqdır.

11. İlahi sınaqlar hər an çətinləşə bilər. (Yusif öncə bir qadınla üz-üzə gəlmişdisə, sonra bir dəstə qadınla üzləşdi.)

12. Yusif günah haqqında danışarkən «meyl», zindan haqqında danışarkən «daha əziz» sözünü işlədir. Məlum olur ki, paklıq Yusifin ruhunun dərinliyində qərar tutmuşdu.

13. Allahı narazı salmaq bahasına xalqın razılığını əldə etmək cəhalətdir.

14. Günah ilahi elm və ətaları insanın əlindən alır. (Ötən ayədə Yusifə hikmət və elm əta olunduğu bildirilirdisə, bu ayədə Yusif günah səbəbindən cahillərə qatılacağından ehtiyatlanır.)

15. Cəhalət təkcə savadsızlıq deyil. Bir anlıq ləzzətə görə Allahın razılığını yaddan çıxarmaq əsl cəhalətdir.

16. Günah cahilcəsinə bir işdir.

17. Bildiyinə əməl etməmək insanı cahillər zümrəsinə qatır.

● Ayə 34:

﴿فَاسْتَجَابَ لَهُ رَبُّهُ فَصَرَفَ عَنْهُ كَيْدَهُنَّ إِنَّهُ هُوَ السَّمِيعُ الْعَلِيمُ﴾

**“Belə ki, Rəbbi onu (duasını) qəbul etdi və qadınların hiyləsini ondan pak etdi. Çünki O (Allah) eşidən və biləndir.”**

◊ **Bildirişlər**

1. İlahi insanların duası qəbuldur.

2. Bəzən çətinliklər ilahi yardımların nazil olması və qurtuluş yolunun açılması üçün zəmin olur.

3. Paklıq və iffət duanın qəbul olması üçün zəmindir.

4. Allahdan xaliscəsinə, səmimi qəlbdən istəmək Onun lütfü ilə nəticələnir.

5. Yusifin Misir qadınlarının hiyləsindən qurtarmaq üçün etdiyi dua dərhal qəbul oldu. (“Fəstəcabə” sözündəki “fa” hərfi sürət rəmzidir.)

6. Allaha pənah aparan şəxs hifz olunur.

7. Bəzən düşmənin gördüyü iş bizim xeyrimizə tamamlanır. (Düşmən Yusifi zindana atmaqla onu Züleyxanın əlindən xilas etdi.)

8. İsmətli olmaq üçün peyğəmbər olmaq zəruri deyil. (Yusif günahdan pak olduğu vaxt peyğəmbərliyə çatmamışdı.)

9. Duanın qəbul olması Allahın eşidən, görən və alim olmasının dəlilidir.

10. Xalqın müraciət etdiyi kəs öncə yaxşı eşitməyi bacarmalı, sonra öz elmi ilə problemi aradan qaldırmalıdır. Allah-təala da duanın qəbul məqamında belədir.

● Ayə 35:

﴿ثُمَّ بَدَا لَهُم مِّن بَعْدِ مَا رَأَوُاْ الآيَاتِ لَيَسْجُنُنَّهُ حَتَّى حِينٍ﴾

**“Gördükləri nişanə və şahidlərdən sonra onlara elə göründü ki, onu (Yusifi) bir müddət zindana salsınlar.”**

◊ **Bildirişlər**

1. Bir dəlinin quyuya atdığı daşı yüz ağıllı çıxara bilmir. Bir qadın aşiq oldu, bir bu qədər kişi, dövlət adamı həmin rüsvayçılığın qarşısını ala bilmədi.

2. Saray həyatında, adətən, harınlıq və sırtıqlıq müşahidə olunur. Yusifin paklığına bir bu qədər dəlil olduğu halda yenə o, zindana salındı.

3. Gözəllik həmişə xoşbəxtlik gətirmir, onun həm də baş ağrısı var.

4. Zalımların saraylarında adətən mühakimə qiyabi, dəbdəbə üçün aparılır. Beləcə, günahsız insanlar məhkum edilir. (Əlbəttə ki, bəzi hallarda belə olmur).

5. Günahkar cəmiyyətdə həvəsbazlar azadlıqda, müttəqilər isə zindandadır.

6. Xətakar insanlar, xüsusi ilə zövq sahibləri çox vaxt öz əməllərinin məsuliyyətini qəbul etmir, başqalarını qurban verməkistəyirlər.

7. Zalım quruluşlarda ən məsum insan ən məzlum insandır.

8. Paklanmağın və pak qalmağın zəhməti var.

9. Yusifin zindana salınmasında məqsəd Əzizi-Misrin ailəsini rüsvayçılıqdan qurtarmaq, şayiələrə son qoymaq idi.

10. Məhkəmə orqanları zalımların istəyi əsasında hökm çıxarırsa, zindanda qalma müddəti qeyri-müəyyən olur.

● Ayə 36:

﴿وَدَخَلَ مَعَهُ السِّجْنَ فَتَيَانَ قَالَ أَحَدُهُمَآ إِنِّي أَرَانِي أَعْصِرُ خَمْرًا وَقَالَ الآخَرُ إِنِّي أَرَانِي أَحْمِلُ فَوْقَ رَأْسِي خُبْزًا تَأْكُلُ الطَّيْرُ مِنْهُ نَبِّئْنَا بِتَأْوِيلِهِ إِنَّا نَرَاكَ مِنَ الْمُحْسِنِينَ﴾

**“Yusiflə birlikdə iki gənc də zindana düşdü. Onlardan biri dedi: “Mən yuxuda gördüm ki, şərab üçün (üzüm) sıxıram. Digəri dedi: “Mən yuxuda**

**gördüm ki, başımda çörək aparıram və quşlar onu yeyir. Bizim yuxumuzu təbir et! Həqiqətən biz səni yaxşı əməl sahibi kimi görürük.”**

◊ **Nöqtələr**

● Hədisdə oxuyuruq: Məhbuslar Yusifi ona görə yaxşı əməl sahibi adlandırdılar ki, o, zindanda xəstələrə yardım göstərir, ehtiyaclılara əl tutur və başqaları üçün şərait yaradırdı.[1]

◊ **Bildirişlər**

1. Yusifin düşdüyü zindan ümumi idi.

2. Yuxuya yüngül yanaşmayın. Onlardan bəzilərində məna var. (Adi insanlar da mühüm yuxu görə bilərlər.)

3. İnsan hər yerdə, o cümlədən zindanda da fayda verə bilər.

4. Yaxşı əməl sahibləri saf qəlb sayəsində başqalarının dərk etmədiklərini dərk edirlər.

5. Xalq bir insana inandıqda bütün sirlərini ona açır.

6. Dəyərli insanlar zindandakı məhbuslara da təsir göstərirlər.

7. Hətta günahkarlar da yaxşı əməl sahiblərini dəyərləndirirlər.

8. Yaxşı əməl sahibləri zindanda da ehtiram sahibi və xalq üçün sığınacaqdırlar.

9. Yusifin xeyirxahlığı ilk addımda cazibə və təbliğdə idi. (Onun zindandakılara ehsan və xidməti onların qəlbini ələ almışdı və Yusifi «yaxşı əməl sahibi» deyə çağırırdılar.)

10. Var-dövlət və azadlıq olmadan da yaxşı əməl sahibi olmaq mümkündür. (Yusifin zindanda nə sərvəti, nə də azadlığı vardı.)

11. Əvvəl öz xeyirxahlığınızı sübuta yetirin, sonra dinin təbliğinə başlayın. (Xalqın gözündə xeyir əməl sahibi kimi tanınan Yusif zindan yoldaşlarının yuxusunu yozmazdan qabaq təbliğ edərək onları təkallahçılığa dəvət etmişdir.)

12. Düzgün yol göstərmək ehsan nümunələrindəndir. («Bizi gördüyümüz yuxunun sirrindən agah et.»)

● Ayə 37:

﴿قَالَ لاَ يَأْتِيكُمَا طَعَامٌ تُرْزَقَانِهِ إِلاَّ نَبَّأْتُكُمَا بِتَأْوِيلِهِ قَبْلَ أَن يَأْتِيكُمَا ذَلِكُمَا مِمَّا عَلَّمَنِي رَبِّي إِنِّي تَرَكْتُ مِلَّةَ قَوْمٍ لاَّ يُؤْمِنُونَ بِاللّهِ وَهُم بِالآخِرَةِ هُمْ كَافِرُونَ﴾

**“(Yusif yuxu görmüş həmin iki şəxsə) dedi: “Yemək payınız gəlməmişdən öncə yuxunuzun təbirini deyəcəyəm. Bu, Rəbbimin mənə öyrətdiyi işlərdəndir. Həqiqətən, mən Allaha imanı olmayan, qiyaməti inkar edən qövmün ayinini boşlamışam.”**

◊ **Nöqtələr**

1 “Təfsire-Nurus-Səqələyn”

● Ayənin ilk hissəsinin tərcüməsində belə bir ehtimal da vardı: “Mən Allahım tərəfindən bilirəm ki, sizin üçün gətiriləcək yemək nədir. Belə ki, sizin yuxunuzu təbir edə bilərəm.” Yəni Yusif yuxu təbirindən əlavə başqa məsələlərdən də xəbərdar idi.

● **Sual:** Nə üçün həzrət Yusif zindan yoldaşlarının yuxusunu dərhal təbir etmədi, bu işi sonraya saxladı?

**Cavab:** Fəxr Razi “Təfsire-Kəbir”də bu məsələ ilə bağlı bir neçə ehtimal irəli sürür:

1. Yusif onları intizarda saxlayırdı ki, az da olsa təbliğ edə bilsin. Ola bilsin ki, edam ediləsi insan təbliğ nəticəsində iman gətirdi və dünyadan imansız getmədi.

2. Yusif hələ ki, gəlib çıxmamış qidaların nə olduğunu öncədən bildirməklə yoldaşlarının etimadını qazanmaq istədi.

3. Onları intizarda saxlayırdı ki, daha yaxşı dinləsinlər.

4. Yuxulardan birinin təbiri edam olduğundan Yusif sıxıntı yaratmağa tələsmədi.

◊ **Bildirişlər**

1. Bəzən daha çox təsir göstərmək üçün insan öz elmi qüdrətini və kamilliyini başqalarına bildirməli olur.
2. Başqalarına fayda vermək üçün öz elminizdən istifadə edin.
3. Öz bildiklərinizin Allah tərəfindən olduğuna inanın.
4. Elm və təhsilin də məqsədi tərbiyədir.
5. Allah hikmət sahibidir və səbəbsiz yerə kimsənin üzünə qapı açmır.
6. Küfr zülmətindən qaçan şəxs elm nuruna çatır.
7. Fürsətlərdən imkan həddində faydalanın.
8. Təbərra və təvəlla (Allah dostu ilə dostluq, Allah düşməni ilə düşmənlik) imanın əsasıdır. Bu ayədə kafirlərdən uzaqlıq, növbəti ayədə övliyalara tabeçilik məsələsi ortaya qoyulur.
9. İnsanları birbaşa ittiham etməkdən çəkinin. Dolayı yolla təbliğ etməyə çalışın. (Yusif “küfrdən əl çəkin” demədi. Buyurdu ki, mən küfr yolunu boşlamışam.)
10. Bütün dinlərdə tövhid və məad əqidəsi yanaşı olmuşdur.

● Ayə 38:

﴿وَاتَّبَعْتُ مِلَّةَ آبَآئِي إِبْرَاهِيمَ وَإِسْحَقَ وَيَعْقُوبَ مَا كَانَ لَنَا أَن نُّشْرِكَ بِاللّهِ مِن شَيْءٍ ذَلِكَ مِن فَضْلِ اللّهِ عَلَيْنَا وَعَلَى النَّاسِ وَلَكِنَّ أَكْثَرَ النَّاسِ لاَ يَشْكُرُونَ﴾

**“Atalarım İbrahim, İshaq, Yəqubun ayinlərinə tabe olmuşam. Bir şeyi Allaha şərik qoşmaq bizə layiq deyil. Bu, Allahın bizə və xalqa olan fəzlidir. Amma xalqın çoxu şükür etməz.”**

◊ **Nöqtələr**

● Ailə bünövrəsi şəxsiyyətin tərbiyəsinə təsir göstərdiyi kimi, xalqın qəbuluna da təsir göstərir. Həzrət Yusif özünü tanıtdırarkən Allahın peyğəmbəri olmuş ata-babalarını yada salır. Bununla da həm ailə bünövrəsini nəzərə çatdırır, həm də dəvətinin müqəddəsliyini. İslam Peyğəmbəri (s) də özünü bu sayaq tanıtdırmışdır. O buyururdu: “Mən ad və nişanım Tövrat və İncildə qeyd olunmuş həmin dərs oxumamış peyğəmbərəm.” İmam Hüseyn (ə) Kərbəlada, imam Səccad (ə) Şam əhli qarşısında özlərini belə tanıtdırırlar: “Biz Fatimə (s) övladlarıyıq.”

●”Millət” sözü Quranda ayin mənasında işlədilmişdir. “İbrahimin milləti” dedikdə İbrahimin ayini nəzərdə tutulur. Bu ayinin siması belə təsvir olunur: “Bütün gücünüzlə Allah yolunda vuruşun, namaz, zəkat əhli olun və Allaha bağlanın. Dində heç bir çətinlik yoxdur, Allaha təslim olun, budur atanız İbrahimin ayini.”[1]

◊ **Bildirişlər**

1. Yalnız batili tanımaq və tərk etmək sayəsində haqqa çatmaq olar.
2. Baba da ata hökmündədir. “Əb” dedikdə baba da nəzərdə tutula bilər.
3. Peyğəmbərlər pak ailədən olmalıdırlar.
4. Peyğəmbərlərin vahid hədəfi olmalıdır.
5. Həzrət Yusif ilk dəfə zindanda öz əsl-nəsəbini bildirdi.
6. Mənfi yollarla yanaşı müsbət yolu da göstərək.
7. Atalar haqq və tövhid yolunda olmuşsa, onların yolunu davam etdirmək olar.
8. Peyğəmbərlərin ata-babası müşrik olmamışdır.
9. Şirkdən çəkinmək və onunla mübarizə ilahi dinlərin əsasıdır.
10. Şirk bütün hallarda mənfurdur.
11. Şirkdən çəkinmək və tövhidə üz tutmaq üçün ilahi tövfiqə (yardıma) ehtiyac var.
12. Peyğəmbərlərin təlimi ilahi bir nemətdir və bu nemətə görə şükür etmək lazımdır.
13. Peyğəmbərlik və hidayət Allahın bütün bəşəriyyət üçün nəzərdə tutulmuş tövfiqi və fəzlidir.
14. Çoxluq düzlüyü və haqlılığı göstərmir.
15. Peyğəmbər yolundan üz döndərmək ən böyük naşükürlükdür.

● Ayə 39:

﴿يَا صَاحِبَيِ السِّجْنِ أَأَرْبَابٌ مُّتَفَرِّقُونَ خَيْرٌ أَمِ اللّهُ الْوَاحِدُ الْقَهَّارُ﴾

**“Ey mənim iki zindan yoldaşım! Müxtəlif tanrılar yaxşıdır, yoxsa ixtiyar sahibi olan bir Allah?”**

◊ **Nöqtələr**

---

1 “Həcc”, 78

● İnsanlar üç qrupdur: Bir dəstə formasını dəyişir. Onlar hava və su kimi düşdükləri qabın formasını alır. Digər bir qrup dəmir və polad kimi möhkəmdir, xarici təsirlərə qarşı müqavimət göstərir. Üçüncü qrup isə başqalarını haqq rənginə boyayan imam və rəhbərlərdir. Yusif üçüncü zümrənin nümunəsidir. O, zindanda da müşrikləri təkallahlığa doğru yönəldir.

● Quranın müxtəlif yerlərində müqayisə və sorğu-sual üsulundan istifadə olunur. Bu üsulun Allaha münasibətdə işlədilmiş nümunələrinə nəzər salaq:

1. "Allahın əvəzinə seçdiyiniz şəriklərdən yaradıb, sonra geri qaytara biləni varmı?"[1]

2. "Allaha qoşduğunuz şəriklərdən hidayət edəni varmı?"[2]

3. "Bir olan Allah hər şeyin Rəbbi olduğu halda Ondan başqasını tanrımı qəbul edim?"[3]

4. "Allah üstündür, yoxsa Ona qoşulan şəriklər?"[4]

◊ **Bildirişlər**

1. Xalqı məhəbbət və sevgi ilə çağırın.

2. Fərdlərin fitrətini oyatmaq üçün məhəbbət və ehsan yolundan faydalanın.

3. İnsan yanaşı əyləşdiyi fərdlər qarşısında da məsuliyyət daşıyır.

4. Həssas məkan və zamanlardan təbliğ üçün istifadə edin. (Yusif görəndə ki, onun yuxu təbir etməsinə ehtiyac var, bu fürsətdən istifadə edib təbliğə başladı.)

5. Sual və müqayisə təbliğ və hidayət yollarından biridir.

6. Tövhidə etiqad imanın əsasıdır. (Yusif öz dəvətinə tövhiddən başladı.)

7. Çoxsaylı tanrılar təfriqə və pərakəndəlik amilidirlər. Vahid Allah isə vəhdəti təmin edir.

8. Bəşərin fitrəti təfriqə və parçalanmalardan zara gəlmişdir. Yusif həmin təzahürdən tövhidin isbatı üçün faydalandı.

9. Vəhdət və birlik qüdrət və qələbə amilidir.

● Ayə 40:

﴿مَا تَعْبُدُونَ مِن دُونِهِ إِلاَّ أَسْمَاء سَمَّيْتُمُوهَا أَنتُمْ وَآبَآؤُكُم مَّا أَنزَلَ اللّهُ بِهَا مِن سُلْطَانٍ إِنِ الْحُكْمُ إِلاَّ لِلّهِ أَمَرَ أَلاَّ تَعْبُدُواْ إِلاَّ إِيَّاهُ ذَلِكَ الدِّينُ الْقَيِّمُ وَلَكِنَّ أَكْثَرَ النَّاسِ لاَ يَعْلَمُونَ﴾

**"Sizin Allahdan başqa ibadət etdikləriniz yalnız sizin və atalarınızın (heç bir əsas olmadan) qoyduğu adlardan başqa bir şey deyil. Allah (onların haqlılığını sübut edən) heç bir dəlil göndərməyib. Allahdan savay kimsənin**

---

1 Bax: "Yunus", 34

2 "Yunus", 35

3 "Ənam",164

4 "Nəml", 59

**hökm vermək haqqı yoxdur. O əmr edib ki, Ondan başqasına pərəstiş etməyəsiniz. Bu din möhkəm dayanmışdır. Amma xalqın çoxu bilmir.”**

◊ **Bildirişlər**

1. Allahdan savay məbudlar uydurmadır, müşriklər və onların ata-babalarının quramasıdır.

2. Əksər qüdrətlər, təşkilatlar, müəssisələr, seminarlar, qətnamələr, görüşlər, himayədarlıqlar, məhkumiyyətlər, ünvanlar və adlar əsassızdır və əsrimizin model bütləridir. Bəşəriyyət Allahın əvəzinə bu bütlərə üz tutmuşdur.

3. Yaşın çoxluğu və qədimlik haqlılıq dəlili deyil.

4. İnsanın əqidəsi əqli və ya nəqli dəlillərə əsaslanmalıdır.

5. Allahdan qeyriləri qarşısında boyun əyməyin. Çünki əmr vermək yalnız bir olan Allahın haqqıdır.

6. Xaliscəsinə ibadət doğru və davamlı yoldur.

7. İlahi qanunlardan savay bütün qanunlar davamsızdır.

8. Yalnız möhkəm əqidəyə etimad göstərilməlidir.

9. Xalqın çoxu Allah dininin möhkəmliyindən xəbərsizdir. (Onlar ya öz cəhalətlərindən xəbərdar bəsit cahillər, ya da öz cəhalətlərindən xəbərsiz mürəkkəb cahildirlər.)

10. Cəhalət və nadanlıq şirkin meydana çıxması üçün zəmin yaradır.

● Ayə 41:

﴿يَا صَاحِبَيِ السِّجْنِ أَمَّا أَحَدُكُمَا فَيَسْقِي رَبَّهُ خَمْرًا وَأَمَّا الآخَرُ فَيُصْلَبُ فَتَأْكُلُ الطَّيْرُ مِن رَّأْسِهِ قُضِيَ الأَمْرُ الَّذِي فِيهِ تَسْتَفْتِيَانِ﴾

**“Ey mənim zindan dostlarım! Sizlərdən biriniz (azad olduqdan sonra) öz ağasına şərab içirər, digəri isə dardan asılar. (Darda o qədər qalar ki,) quşlar (dimdikləri ilə) onun başından yeyərlər. Haqqında mənim nəzərimi bilmək istədiyiniz iş qəti və labüddür.”**

◊ **Nöqtələr**

● “Rəbb” sözü hakim, malik, ağa mənasını bildirir. “Rəbbud-dar” dedikdə “ev sahibi” başa düşülür. “Fəyəsqi rəbbəhu xəmrən”, yəni öz ağasına şərab içirər.

◊ **Bildirişlər**

1. Sizinlə eyni fikirdə olmasalar da, insanlara hörmətlə yanaşın.

2. Müraciət edənlərə növbə ilə cavab verilməlidir. (Həzrət Yusif daha tez danışılan yuxunu birinci təbir edir.)

3. Təkallahçı olmayan insanın da yuxuları bəzən mühüm təbirə malik ola bilər.

4. Xoş xəbəri öncə deyin.

5. Yuxu xoş olmasa da təbirçi onu təbir edə bilər.

6. Yusifin yuxu təbiri öngörənlik yox, Allah tərəfindən qəti xəbərdir.

● Ayə 42:

﴿وَقَالَ لِلَّذِي ظَنَّ أَنَّهُ نَاجٍ مِّنْهُمَا اذْكُرْنِي عِندَ رَبِّكَ فَأَنسَاهُ الشَّيْطَانُ ذِكْرَ رَبِّهِ فَلَبِثَ فِي السِّجْنِ بِضْعَ سِنِينَ﴾

**“(Yusif) azad olacağını bildiyi məhbusa dedi: “Ağanın yanında məni də yada sal.” (Amma) şeytan ağasına xatırlatmağı onun yadından çıxardı. Nəticədə (Yusif) neçə il zindanda qaldı.”**

◊ **Nöqtələr**

● “Zənnə” sözü etiqad və elm mənasında da işlədilmişdir. Çünki ötən ayədə Yusif bir məhbusun azad olunacağı və digərinin edam ediləcəyini qəti şəkildə xəbər vermişdi. Bu səbəbdən də ayədəki “zənn” sözü şübhəli güman mənası kimi başa düşülməməlidir.

● Ondan aşağı ədədlər “bizə” adlanır. Əksər təfsirçilər həzrət Yusifin yeddi il zindanda qaldığını bildirir.

● Bəzi təfsirlərdə “fəənsahuş şeytanu” cümləsi “şeytan Yusifin yadından Rəbbini çıxardı və o, Allahın əvəzində şahın saqisinə üz tutdu” kimi tərcümə olunmuşdur. Belə bir rəftar Yusif üçün “tərki ovla”, yəni yaxşı bir işin tərk olunması sayılır. Bu səbəbdən Yusif sonra da zindanda bir neçə il qaldı. Amma Əllamə Təbatəbai belə yazır: “Bu sayaq rəvayətlər Qurana ziddir. Çünki Quran Yusifi müxlislərdən sayır, şeytan isə müxlislərə nüfuz edə bilmir.” Bundan əlavə, növbəti iki ayədə bildirilir ki, unudan şəxs bir müddət sonra Yusifi yada saldı. Məlum olur ki, unutmaq mövzusu Yusifə yox, saqiyə aiddir.

◊ **Bildirişlər**

1. Peyğəmbərlər də öz problemlərini adi yolla həll edirlər. Bunun tövhid və təvəkküllə heç bir ziddiyyəti yoxdur.

2. Hər istək rüşvət sayılmamalıdır.

3. Öz günahsızlığınızı və paklığınızı sübut etmək üçün istənilən sağlam yolla həqiqəti məsullara çatdırın.

4. Saray həyatı, rifah və asayiş biçarələrin dərd-qəminin unudulması üçün zəmin yaradır.

5. İnsanlar vəzifəyə, məqam və rifaha çatdıqdan sonra, adətən, keçmiş dostlarını unudurlar.

6. Yusifin zindandan çıxması və onun üzərindən ittihamın götürülməsi şeytanın oyunlarına uyğun olmadığından, o, qurğu qururdu.

● Ayə 43:

﴿وَقَالَ الْمَلِكُ إِنِّي أَرَى سَبْعَ بَقَرَاتٍ سِمَانٍ يَأْكُلُهُنَّ سَبْعٌ عِجَافٌ وَسَبْعَ سُنبُلاَتٍ خُضْرٍ وَأُخَرَ يَابِسَاتٍ يَا أَيُّهَا الْمَلأُ أَفْتُونِي فِي رُؤْيَايَ إِن كُنتُمْ لِلرُّؤْيَا تَعْبُرُونَ﴾

**“(Bir gün) padşah dedi: “Mən yeddi arıq inəyin yeddi kök inəyi yediyini və yeddi yaşıl sünbüllə digər yeddi quru sünbül gördüm. Ey qövm başçıları! Əgər yuxu təbir edirsinizsə, yuxum haqqında mənə bir söz deyin.”**

◊ **Nöqtələr**

● Bu ayəyədək hazırkı surədə dörd yuxu haqqında danışıldı: Yusifin öz yuxusu, məhbusların yuxusu, Misir padşahının yuxusu. Birinci yuxu Yusif üçün çətinlik, digər yuxular isə onun üçün izzət gətirdi. Tövratda deyilir: “Padşah bir dəfə yuxuda gördü ki, arıq inəklər kök inəkləri yeyir və yaşıl sünbüllərin yanında qurumuş sünbüllər var.[1]

● Əzizi-Misrin həmin Misir padşahı, yoxsa başqa bir saray adamı olması ilə bağlı müxtəlif fikirlər var.

● “Rövzeyi-kafi” kitabında deyilir ki, üç növ yuxu var: İlahi müjdə olan yuxu, şeytanın qorxu yaratdığı yuxu, yorğunluq və pərişanlıqdan yaranan yuxu.[2]

◊ **Bildirişlər**

1. Allah zalım bir padşahın yuxu görməsi ilə (bir şərtlə ki, bu yuxunu Yusif təbir etsin) bir milləti qıtlıqdan xilas edir.
2. Misir padşahı öz heyrətamiz yuxusunu bir neçə dəfə görmüşdü. (Təkrar gerçəkliyin sübutu üçündür.)
3. Əşya və heyvanların röya aləmində müəyyən simvolları var. (Məsələn, arıq inək qıtlıq simvoludur, kök inək bolluq simvoludur.)
4. Rəislər və qüdrət sahibləri cüzi acı xatirə ilə (pis bir yuxu ilə) qorxuya düşürlər ki, məbada qüdrət əllərindən alınmış olsun.
5. Hakimlər də ağıllı insanlarla məşvərətə ehtiyaclıdırlar.
6. Yuxu təbiri üçün bu işi bilənə müraciət olunmalıdır. Hər adamın təbirinə inanmaq olmaz.

● Ayə 44:

﴿قَالُواْ أَضْغَاثُ أَحْلاَمٍ وَمَا نَحْنُ بِتَأْوِيلِ الأَحْلاَمِ بِعَالِمِينَ﴾

**“(Padşahın ətrafındakılar) dedilər: “Bunlar qarışıq yuxulardır və biz qarışıq yuxuların təbirini bilmirik.”**

◊ **Nöqtələr**

● “Zəğs” sözünün cəm forması olan “əzğas” sözü qarışdırmaq, “ziğs” sözü isə qarışıq çubuq dəstəsi mənasını bildirir. “Əhlam” dedikdə qarışıq yuxu

---

1 “Təfsire-Əl-Mizan”
2 “Təfsire-Nurus-Səqəleyn”

nəzərdə tutulur. “Əzğasu əhlam” isə təbirçinin yoza bilmədiyi pərakəndə yuxu mənasını bildirir.

◊ **Bildirişlər**

1. Öz bilməzliyinizə və cəhalətinizə don geyindirməyin. (Saray adamları yuxunun təbirini bilmədiklərindən “şahın yuxusu qarışıqdır” söylədilər)

2. Bir çox yuxular pərakəndə görünsə də təbir olunur.

3. İş mütəxəssisə tapşırılmalıdır. (Mütəxəssis yuxunu təbir edir, qeyri-mütəxəssis yuxunu qarışıq sayır.)

● Ayə 45:

﴾وَقَالَ الَّذِي نَجَا مِنْهُمَا وَادَّكَرَ بَعْدَ أُمَّةٍ أَنَاْ أُنَبِّئُكُم بِتَأْوِيلِهِ فَأَرْسِلُونِ﴿

**“O iki nəfərdən xilas olan kəs bir müddət sonra (Yusifi) xatırladı və (Əzizi-Misrə) dedi: “Məni (Yusifin ardınca) göndərin, sizi (yuxunun təbirindən) xəbərdar edim.”**

◊ **Nöqtələr**

● “Ummət” dedikdə insan toplumu nəzərdə tutulsa da, burada həmin söz günlər (müddətlər) mənasında işlədilmişdir.[1]

◊ **Bildirişlər**

1. Yaxşılıq gec ya tez öz təsirini göstərir.

2. Təkcə ehtiyaclı olanda dostları xatırlamayaq. (Yuxu təbirinə ehtiyac yarandıqda Yusif yada düşdü.)

3. Məqama çatmaq adətən keçmişi insanın yadından çıxarır.

4. Başqalarını bir işə yönəldən kəs sanki özü həmin işi görmüşdür.

5. Yusifin zindan yoldaşı onun təbirinə o qədər inanırdı ki, padşaha öz tərəfindən qəti vəd verdi.

6. Agah insanları cəmiyyətə tanıtdıraq ki, xalq onlardan bəhrələnə bilsin.

7. Bəzi mütəxəssislər tənhalığa çəkilir. Onları yaddan çıxarmayın.

8. Ustadı hüzura gətirmək yox, onun hüzuruna getmək lazımdır.

● Ayə 46:

﴾يُوسُفُ أَيُّهَا الصِّدِّيقُ أَفْتِنَا فِي سَبْعِ بَقَرَاتٍ سِمَانٍ يَأْكُلُهُنَّ سَبْعٌ عِجَافٌ وَسَبْعِ سُنبُلاَتٍ خُضْرٍ وَأُخَرَ يَابِسَاتٍ لَّعَلِّي أَرْجِعُ إِلَى النَّاسِ لَعَلَّهُمْ يَعْلَمُونَ﴿

**“(Şahın göndərdiyi şəxs zindana daxil olub dedi:) Ey Yusuf! Ey doğru danışan insan! Yeddi kök inəyi yeddi arıq inəyin yeməsi və yeddi**

---

1 “Təfsire-Kəbir”, “Təfsire-Əl-Mizan”

**yaşıl sünbüllə digər yeddi qurumuş sünbül haqqında bizə bir söz de ki, xalqın yanına qayıdım. Ola bilsin ki, onlar (yuxunun sirrindən) agah olalar.”**

◊ **Nöqtələr**

● Danışdığı sözü, rəftarı və etiqadı bir-birini təsdiq edən şəxsə “siddiq” deyilir. Yusifin zindan yoldaşı onun söz və rəftarına şahid olduğundan, digər tərəfdən onun təbirlərinin gerçəkliyini gördüyündən Yusifi “siddiq” çağırarmışlar.

Allah-təala həzrət İbrahimi «siddiq» adlandırmış və onu özünə “xəlil”, dost seçmişdir.[1] Allah Məryəmi “Siddiqə” adlandıraraq seçmişdir.[2] Allah-təala Yusifi də siddiq saymış və ona hər şey əta etmişdir.[3] Allah İdrisi “Siddiq” adlandıraraq ona böyük məqam vermişdir.[4] Siddiq dərəcəsində olmayanlara bu dərəcədən olanlarla yaxınlıq tapşırılmışdır.[5]

● “Siddiq” həzrət Peyğəmbərin (s) həzrət Əliyə (ə) verdiyi ləqəblərdəndir.[6]

● Ayədəki “xəbərdar olalar” ifadəsi, çox ehtimal ki, xalqın Yusifin məqamından xəbər tutmasına işarədir. Yəni “xalqa tərəf qayıdım ki, onlar sənin hansı məqamda olduğunu bilsinlər.”

◊ **Bildirişlər**

1. İstəkdən öncə qarşı tərəfin kamilliyini yada salmaq yaxşı işdir.
2. Öz istəklərimizlə müsbət keçmişli, siddiq və doğruçu insanlara müraciət edək.
3. Hökumət alimlərin və mütəxəssislərin biliyinə ehtiyaclıdır.

● Ayə 47:

﴿قَالَ تَزْرَعُونَ سَبْعَ سِنِينَ دَأَبًا فَمَا حَصَدتُّمْ فَذَرُوهُ فِي سُنبُلِهِ إِلاَّ قَلِيلاً مِّمَّا تَأْكُلُونَ﴾

**“(Yusif cavab olaraq) dedi: Yeddi il ard-arda əkin, yığdığınızı - yediyiniz az hissə istisna olmaqla - sünbüldə saxlayın.”**

◊ **Nöqtələr**

---

1 Bax: “Məryəm”, 41; “Nisa”, 125
2 Bax: “Maidə”, 75; “Ali-İmran”, 42
3 Bax: “Yusuf”, 46; “Yusuf”, 56
4 Bax: “Məryəm”, 56; “Məryəm”, 57
5 Bax: “Nisa”, 69
6 “Təfsire-Ətyəbul-bəyan”; “Təfsire-Kəbir”

● Yusif zindan yoldaşının onu unutmasından gileylənməyərək, yuxunun təbiri üçün heç bir şərt qoymadan təbirə başladı. Cəmiyyətin ehtiyacı olan vaxtda biliyi gizləmək pak insanların kərəmindən uzaqdır.

● Yusif yuxunu təbir etməkdən əlavə, aydın bir proqram bəyan etməklə qıtlıqla mübarizə yolunu göstərdi. Bu yolla məlum olurdu ki, Yusif yuxu təbirindən əlavə müdiriyyət gücünə də malik idi.

● Bu ayədə əkinçilik, ehtiyac azuqə siyasəti, məsrəfdə qənaət mövzularına da işarə olunmuşdur.

◊ **Bildirişlər**

1. Öz qurucu proqramlarımızı minnət qoymadan, umacaqsız təqdim edək.

2. Cəmiyyəti xilas etmək üçün şəxsi problemlərə göz yummaq lazımdır. (Yusif zindanda olması ilə bağlı bir söz demədi. O, xalqı çətinlikdən qurtarmaq barədə düşünürdü.)

3. Böhranın həlli və çətin vəziyyətdə cəmiyyətin idarəsi hökumətin əsas vəzifələrindəndir.

4. Hökumətlər qıtlıq və quraqlığı öncədən müəyyənləşdirməlidir. Bolluq əyyamında tədbir görməklə qarşıdakı çətinliklər yüngülləşdirilməlidir.

5. Şərait münasib olduqda həmin şəraitdən son dərəcə bəhrələnmək lazımdır.

6. Qarşıda böhran olduqda istehsal və işin tutumunu artırmaq lazımdır.

7. İlahi insanlar xalqın rifahı haqqında düşünməlidirlər. Uzun müddətli və qısa müddətli planlar hazırlanmalıdır.

8. Proqramlaşdırma və müdiriyyətdə zaman çox mühüm amildir.

9. Vəziyyətin müəyyənləşdirilməsi kafi deyil, proqram hazırlamaq lazımdır.

10. İstehsalda proqramlaşdırma, qənaət və ehtiyat toplanması zəruridir. (Geri qalmış cəmiyyət bu mərhələləri nəzərə almadan məsrəf edir.)

11. İstehsal və istehlaka dövlət nəzarəti böhranlı vəziyyətlərdə zəruri bir işdir.

12. Buğda sünbüldə qaldıqda ömrü uzanır.

13. Planlaşdırma vasitəsilə qıtlıq, zəlzələ və sel kimi təbii hadisələrlə mübarizə aparmaq olar.

14. Gələcəklə bağlı planlaşdırma və idarəçilik Allaha təvəkkül və Onun qarşısında təslimçiliklə zidd deyil. (Tədbir tökməklə təqdirin qarşısını alaq.)

15. Nəzərdə tutulmuş plan reallaşma imkanına malik olmalıdır. (Haqqında danışılan dövrdə ən yaxşı yol buğdanı sünbüldə saxlamaq idi.)

16. Hər aclıq pis olmur. Nəzərdə tutulan qıtlıq Yusifin hakimiyyəti üçün müqəddimə oldu, qənaət və xalqın daha artıq fəaliyyətinə zəmin yaratdı.

17. Gələcəyin nəzərə alınması və uzun müddətli proqramlar hazırlanması cəmiyyətin üzləşdiyi iqtisadi çətinliklərlə mübarizədə müdiriyyət şərtidir.

18. Bugünkü qənaət sabahkı ehtiyacsızlıq, bugünkü israf sabahkı möhtaclıqdır.

19. Həqiqət kafirlərin yuxusu vasitəsilə də bəyan oluna bilər. Belə bir yuxunun cəmiyyətin hifzi üçün göstəriş olması mümkündür.

20. Bu gün sabah üçün daha səylə çalışmaq lazımdır.

● Ayə 48:

﴾ثُمَّ يَأْتِي مِن بَعْدِ ذَلِكَ سَبْعٌ شِدَادٌ يَأْكُلْنَ مَا قَدَّمْتُمْ لَهُنَّ إِلاَّ قَلِيلاً مِّمَّا تُحْصِنُونَ﴿

**“Sonra onun ardınca yeddi il çətin gələr, xalq onlar üçün öncədən yığdığınızı yeyər, yalnız cüzi bir miqdar saxlayarsınız.”**

● Ayə 49:

﴾ثُمَّ يَأْتِي مِن بَعْدِ ذَلِكَ عَامٌ فِيهِ يُغَاثُ النَّاسُ وَفِيهِ يَعْصِرُونَ﴿

**“Sonra onun ardınca bir il gələr ki, həmin ildə xalqa yağış nazil olar (qıtlıq müşkülü başa çatar). Həmin ildə xalq (bolluq olduğundan) sıxılmış şirə götürər.”**

◊ **Nöqtələr**

● “Yuğasun nas” tərkibi “ğəvs” sözündən götürüldükdə “xalqa Allah tərəfindən yardım olunar”, “ğəys” sözündən götürüldükdə isə “yağış yağar və acı hadisələr başa çatar” mənasını bildirir.[1]

● Yuxudakı yeddi kök və arıq inək, yeddi yaşıl və quru sünbül Yusif tərəfindən on dörd il bolluq və qıtlıq kimi təbir olundu. 15-ci ildə yağış nazil olması və bolluq yaranması padşahın yuxusunda görünməmişdi, Yusifin Allah tərəfindən bəyan etdiyi qeybi bir xəbər idi. Bu xəbərlə onun peyğəmbərliyinin elanı üçün zəmin yarandı.

● Cəmiyyətdə işlək bir müdiriyyətin şərtləri var: xalqın etimadı, sədaqət, elm və bilik, düzgün öngörmə, xalqın itaəti (çünki Yusifin planını həyata keçirən xalq idi).

◊ **Bildirişlər**

1. Hazırlıq məqsədi ilə xalqı gələcək çətinliklərdən xəbərdar edək.

2. Çətinlik dövrü üçün ehtiyat toplamaq və proqram hazırlamaq dəyərli bir işdir.

3. Gələcəyi düşünmək və proqram hazırlamaq milləti hadisələr böhranından xilas edə bilər.

4. Məsrəfdə əkin və sərmayə üçün ehtiyat saxlayın.

5. Çətin şəraitdə əsas dayaqları və sərmayələri qorumaq lazımdır.

6. Qida maddələrinin xarab olmaması üçün onların saxlanma və dəyişmə üsullarını öyrənək.

7. Çətinlikdən sonra asanlıq gəlir.

---

1 “Təfsire-Əl Mizan”

8. İnsanların çətinliyə dözə bilməsi üçün onlara gələcəklə bağlı ümid verək.

9. Hava və yağıntının öncədən müəyyənləşdirilməsi (proqnozlaşdırılması) əkinçiliyin planlaşdırılmasında faydalı işdir.

10. Yuxular insanı gələcək hadisələrdən xəbərdar edib, onun üçün qurtuluş rəmzi ola bilər.

11. Bizim məntəqəmizdən və ölkəmizdən olmayan insanların da problemlərini aradan qaldırmaq üçün çalışaq. (Yusifin planı öz məntəqəsi üçün nəzərdə tutulmamışdı.)

12. Elm və bilik hökumətlərin inkişaf və davam, cəmiyyətlərin əmin-amanlıq və rifah rəmzidir. (Yusifin qəhətlik və quraqlıqla mübarizə planları onun bilik və düşüncəsindən danışır.)

● Ayə 50:

﴿وَقَالَ الْمَلِكُ ائْتُونِي بِهِ فَلَمَّا جَاءهُ الرَّسُولُ قَالَ ارْجِعْ إِلَى رَبِّكَ فَاسْأَلْهُ مَا بَالُ النِّسْوَةِ اللاَّتِي قَطَّعْنَ أَيْدِيَهُنَّ إِنَّ رَبِّي بِكَيْدِهِنَّ عَلِيمٌ﴾

**“Padşah dedi: “Onu mənim yanıma gətirin.” Elə ki, şahın elçisi onun yanına gəldi (Yusif) dedi: “Ağanın yanına qayıt və ondan soruş ki, əllərini kəsən qadınların macərası nə oldu? Həqiqətən, mənim Rəbbim onların hiyləsindən agahdır.”**

◊ **Nöqtələr**

● Yusif padşahın yuxusunu təbir etməklə və ölçülü bir proqram irəli sürməklə qeyd-şərtsiz və təmənnasız sübut etdi ki, o adi bir məhbus deyil, fövqəladə və alim bir insandır.

● Şahın elçisi Yusifin yanına gəldiyi vaxt Yusif azadlıq xəbərinə dərhal müsbət cavab vermədi. O, keçmişdə haqqında qaldırılmış işin yenidən araşdırılmasını istəyirdi. Çünki şahın əfvi ilə azad olmaq onun ürəyincə deyildi. Yusif günahsızlığını sübuta yetirmək və şaha onun rejimində nə qədər ədalətsizlik olduğunu anlatmaq istəyirdi.

● Hədisdə oxuyuruq: Həzrət Peyğəmbər (s) buyurdu: “Yusifin səbrinə heyranam. Əzizi-Misr yuxu təbirinə ehtiyac duyduğu vaxt Yusif bu təbirin müqabilində azadlıq tələb etmədi. Amma onu azad etmək istədikdə zindandan çıxmayıb, üzərindəki böhtanın götürülməsini istədi.[1]

● Ola bilsin ki, Yusif Əzizi-Misrin hörmətini gözləmək xatirinə onun zövcəsinin adını çəkmədi, sadəcə qonaqlıq məclisinə işarə etdi.

◊ **Bildirişlər**

---

1 “Təfsire-Ətyəbul-bəyan”

1. Məmləkətin ehtiyaclı olduğu və zindana salınmış düşüncə sahibləri cinayətə yol verməmişlərsə, dövlətin yardımı ilə azad edilməlidirlər.

2. Düşünən beyinlərdən istifadədə yubanmaq olmaz.

3. Hakimlər düşüncəli, tədbirli və böyük insanlara ehtiyaclıdırlar.

4. Əgər Allah istəsə, padşahı zindandakı qula möhtac edər.

5. Yusif Misir padşahını özü üçün ağa saymırdı.

6. Kafir olsalar belə, tabeçiliklərində olanların yanında rəhbər və hakimlərə hörmətlə yanaşmaq lazımdır.

7. Azadlığı hər qiymətə almaq olmaz. Günahsızlığın sübutu azadlıqdan mühümdür.

8. Azadlıq yox, özünə qarşı ittihamların araşdırılmasını istəyən məhbus pakdır.

9. Yusif öncə xalqın zehnini təmizlədi, sonra məsuliyyəti qəbul etdi.

10. Abır-həyanı və şəxsiyyəti qorumaq vacibdir.

11. Qeyri-ilahi hakimlərdən kömək istəməyə icazə verilmir.

12. Həssas məqamlarda kimlərinsə şəxsiyyətini qorumaq xatirinə haqqı gizlətmək olmaz.

13. Qadınların əllərini kəsməsi əhvalatının Yusif tərəfindən xatırladılmasının səbəbi bu əhvalatın ümumiliyi və inkaredilməzliyi ola bilər.

14. Yusifin həbsi qurğusunda bütün qadınların rolu oldu.

15. Əxlaqi günahları və məsələləri örtülü surətdə bəyan edək.

16. Düşmənin hiyləsi böyük olsa da Allah bütün hiylələrdən xəbərdardır və Öz dostlarını qoruyur.

● Ayə 51:

﴿قَالَ مَا خَطْبُكُنَّ إِذْ رَاوَدتُّنَّ يُوسُفَ عَن نَّفْسِهِ قُلْنَ حَاشَ لِلّهِ مَا عَلِمْنَا عَلَيْهِ مِن
سُوءٍ قَالَتِ امْرَأَةُ الْعَزِيزِ الآنَ حَصْحَصَ الْحَقُّ أَنَاْ رَاوَدتُّهُ عَن نَّفْسِهِ وَإِنَّهُ لَمِنَ
الصَّادِقِينَ﴾

**“(Padşah qadınlara) dedi: “Yusifdən kam almaq istədiyiniz vaxt məqsədiniz nə idi?” Qadınlar dedilər: “Aman Allah, biz onun heç bir pisliyini bilmirik.” Əzizin zövcəsi dedi: “İndi həqiqət aşkarlandı. Mən ondan kam almaq istədim və şəksiz, o doğru danışanlardandır.”**

◊ **Nöqtələr**

● “Xətəbə” dedikdə mühüm bir iş üçün dəvət olunmaq nəzərdə tutulur. Xətib xalqı böyük bir hədəfə doğru dəvət edən şəxsdir. “Həssə” sözündən olan “həshəsə” haqqı batildən ayırmaq mənasını bildirir.[1]

---

1 “Təfsire-Ətyəbul-bəyan”

● Bu macərada ilahi qanunlardan biri gerçəkləşir. İlahi təqvaya xatir qurtuluş əldə olunur: “Hər kəs Allahdan çəkinsə, Allah ona gözləmədiyi yerdən çıxış yolu qərar verər və ona ruzi yetirər.”[1]

◊ **Bildirişlər**

1. İş ikiqat düyünə düşəndə ölkənin birinci adamı özü işi araşdırmalı və məhkəmə təşkil etməlidir.

2. Müttəhimi dəvət edin ki, özünü müdafiə etsin. Mühakimədə hətta Züleyxa da iştirak edirdi.

3. Acılıqların ardınca şirinliklər gəlir.

4. Misir qadınları nəinki Yusifin günahsızlığını etiraf etdilər, hətta onda heç bir pislik görmədiklərini bildirdilər.

5. Həqiqət nə vaxtsa üzə çıxır.

6. Bağlı işlərin və həqiqətlərin aydınlaşması üçün zamana ehtiyac var.

7. Vicdanlar bir gün oyanıb etiraf edər. Necə ki, cəmiyyətin və mühitin təzyiqi üsyankarları etirafa vadar edir. (Əzizin zövcəsi bütün qadınların Yusiflə bağlı etirafına şahid olduqda özü də etiraf etməyə məcbur oldu.)

8. Əzizi-Misir istəyirdi ki, Züleyxa ilə Yusif arasındakı hadisə məxfi qalsın. Amma Allah bunu bütün aləmə və həmişəlik aşkarladı. Bununla da Yusifin paklığı həmişəlik sübuta yetdi.

9. Allah istəyən vaxt düşmən özü qurtuluş vasitəsi olur və ittihamı geri götürür.

● Ayə 52:

﴿ذَلِكَ لِيَعْلَمَ أَنِّي لَمْ أَخُنْهُ بِالْغَيْبِ وَأَنَّ اللّهَ لاَ يَهْدِي كَيْدَ الْخَائِنِينَ﴾

**“(Yusif dedi:) Bu (qadınların etirafı) onun üçün idi ki, (Əziz) mənim gizlində ona xəyanət etmədiyimi bilsin. Şübhəsiz, Allah xainlərin hiyləsinə yol verməz.”**

◊ **Nöqtələr**

● Bu ayənin Yusifin və ya Əzizi-Misrin zövcəsinin sözü olması ilə bağlı iki rəy var. Bəzi təfsirçilər onu Yusifin, bəziləri isə Züleyxanın sözünün davamı sayırlar. Amma ayənin mənasına nəzər saldıqda aydın olur ki, bu sözlər Züleyxaya məxsus deyil. Çünki günahsız bir şəxsi illər uzunu zindanda saxlamaqdan böyük xəyanət ola bilməzdi.

● Yusif bu sözlərlə zindanda yubanmasının səbəbi kimi hadisənin yenidən araşdırılmasını və heysiyyətinin təsdiqini göstərir.

◊ **Bildirişlər**

1. Kərəmi olan şəxs intiqam almağa çalışmır. Onu yalnız həqiqətin üzə çıxması maraqlandırır.

2. Düşüncələrdən sui-zənni uzaqlaşdıraq.

---

1 “Təlaq”, 2-3

3. Hər hansı bir kişinin həyat yoldaşına qarşı pis fikir o kişiyə qarşı xəyanətdir.

4. Kafirə qarşı xəyanət də bəyənilməmişdir.

5. Aşkarda və gizlində xəyanətə yol verməmək gerçək iman nişanəsidir.

6. Xain insan öz işi xatirinə xilafına don geyindirib plan cızır.

7. Yusif padşahın nəzərinə çatdırmaq istəyirdi ki, hadisələrdə təyinedici amil Allahın iradəsi və qanunlarıdır.

8. Xain insan nəticə əldə edə bilmir və onu xoş aqibət gözləmir. Bəli! Əgər biz pak olsaq, Allah imkan verməz ki, pak olmayanlar bizi hörmətdən salsınlar.

9. Xainlərin uğursuzluğu və rüsvayçılığı ilahi qanunlardandır.

## CÜZ 13

● Ayə 53:

﴿وَمَا أُبَرِّئُ نَفْسِي إِنَّ النَّفْسَ لأَمَّارَةٌ بِالسُّوءِ إِلاَّ مَا رَحِمَ رَبِّيَ إِنَّ رَبِّي غَفُورٌ رَّحِيمٌ﴾

**“Mən nəfsimə bəraət qazandırmıram. Çünki insanın nəfsi, şübhəsiz, daim pisliyə əmr edir. Yalnız Rəbbim rəhm etsə (belə olmaz). Həqiqətən, mənim Rəbbim bağışlayan və mehribandır.”**

◊ **Nöqtələr**

● Quranda nəfsə aid bir neçə hal bəyan olunmuşdur. O cümlədən:

1. Əmmarə nəfs; bu nəfs insanı çirkinliyə sövq edir. Bu nəfs ağıl və iman vasitəsi ilə cilovlanmasa, insanı birdəfəlik süquta uğradır.

2. Ləvvamə nəfs; ləvvamə nəfsə malik olan insan yol verdiyi nöqsanlara görə özünü məzəmmət edir, tövbə qılır, üzr istəyir. “Qiyamət” surəsində bu növ nəfs xatırlanmışdır.

3. Mütməinnə nəfs; yalnız peyğəmbərlərdə, övliyalarda və həqiqətən onlar tərəfindən tərbiyələnmiş insanlarda belə bir nəfs olur. Onlar bu nəfs sayəsində bütün vəsvəsə, hadisələrdən qalib çıxır və yalnız Allaha bağlı olurlar.

● Yusif bu ilahi sınaqda xəyanət etməməsini və üzüağ çıxmasını Allahın lütf və rəhmi bilir. O insan təbiətinə malik bir fərd olaraq özünü paka çıxarmır.

● Çoxsaylı rəvayətlərdə nəfsin təhlükələrindən danışılır, nəfsdən razılıq ağılın fəsad nişanəsi və şeytanın ən böyük tələsi sayılır.[1] İmam Səccad “Şakkin” münacatında nəfsin 15 təhlükəsini bəyan edir. Bu təhlükələrdən xəbərdar olmaq faydalıdır.

◊ **Bildirişlər**

1. Heç vaxt özümüzə bəraət qazandırıb, nəfsimizi pak göstərməyək.

2. Kamillik şərti budur ki, bütün insanlar səni kamil saysalar da, sən özünü kamil saymayasan. Həzrət Yusifin macərasında qardaşları, Əzizi-Misrin zövcəsi, şahid, padşah, şeytan, zindandakılar hər biri Yusifin kamalına şəhadət versələr də, Yusif özünə bəraət qazandırmır.

3. Nəfs istəyinin təhlükəsi ciddi təhlükədir, onu yüngül saymayın. Ayədə 4 növ təkiddən istifadə olunmuşdur (“İnnə”, “Lam” təkidi, mübaliğə siğəsi, ismiyyə cümləsi).

4. Peyğəmbərlər məsum olsalar da, insani meyillərə malikdirlər.

5. İnsan özünə qarşı yönəlmiş böhtanlar müqabilində iffətini qorumalı, həm də nəfsin təhlükəsini etiraf edib, Allaha pənah aparmalıdır.

6. Nəfs öz istəklərini təkrarlayır ki, insanı bədbəxt etsin.

---

1 “Ğürərul-hikəm”

7. İnsan Allahın lütfündən məhrum olsa, təbii şəkildə mənfi işlərə meyl göstərəsidir.

8. Qurtuluşun əsası yalnız Allahın rəhmətidir. İnsan özbaşına buraxılarsa, süqut edər.

9. Yusif Allahın xüsusi tərbiyəsi altında idi. “Rəbbi” sözü ayədə təkrarlanır.

10. Tərbiyəçi rəhmət və bəxşiş sahibi olmalıdır.

11. İlahi rəhmətə çatmaq üçün bağışlanmaq müqəddimədir. Ayədə öncə bağışlanma sifəti qeyd olunur.

12. İstənilən bir təhlükəyə baxmayaraq, Allahın rəhmətindən ümidimizi üzməyək.

● Ayə 54:

﴿وَقَالَ الْمَلِكُ ائْتُونِي بِهِ أَسْتَخْلِصْهُ لِنَفْسِي فَلَمَّا كَلَّمَهُ قَالَ إِنَّكَ الْيَوْمَ لَدَيْنَا مِكِينٌ أَمِينٌ﴾

**“Padşah dedi: «Yusifi mənim yanıma gətirin ki, onu özümə məxsus (müşavir) qərar verim.» Onunla danışarkən dedi: «Həqiqətən, sən bu gün bizim yanımızda böyük məqama maliksən və etibarlı bir fərdsən.»”**

◊ **Nöqtələr**

● “Lisanul-ərəb”də deyilir: İnsan öz sirlərini birinə açsa və onu öz işlərinə qatsa, “istəxləsəhu” deyilir.

● Yusif zindandan çıxdığı vaxt zindanın qapısına bir neçə cümlə yazır. Bu cümlələr zindanın simasını açıqlayır: “Zindan dirilərin qəbristanlığı, qəm-qüssə evi, dostların sınaq və düşmənlərin şəmatət (pisliyə sevinmə) məhəllidir.”[1]

● Padşah Yusifin sədaqət və əmanətdarlığını hiss etdikdə və xəyanət görmədikdə onu özü üçün seçdi. Bəs Allah bəndədən xəyanət görməsə nə edər?! Əlbəttə ki, onu Özü üçün seçər![2]

● Padşah “lədəyna” sözü ilə elan etdi ki, Yusifin təkcə onların qəlbində yox, həm də onların hakimiyyətində yeri var və bütün məsullar ona itaət etməlidirlər.

● Elm gücü və etibarlılıq yanaşı olduqda dəyərlidir. Etibarlı insanın heç bir imkanı yoxdursa, bir iş görə bilmir və əgər imkanlı insan etibarlı deyilsə, xalqın malına, namusuna təcavüz edir.

Həzrət Əli (ə) canişin təyin etdiyi vaxt Malik Əştərə buyurur: “İşçiləri tanıyıb seçdikdən sonra onlara ehtiyaclarını ödəyəcək qədər maaş ver.”[3]

◊ **Bildirişlər**

1. Allah istəsə dünənki məhbusu bu günün hökmranı edər.

---

1 “Təfsire-Məcməul-bəyan”

2 Bax: “Taha”, 13; “Taha”, 41

3 “Nəhcül-bəlağə”, x. 53

2. İnsanların xidmətlərini dəyərləndirmək və onlara təşəkkür etmək lazımdır. (Yusif yuxu təbirinə görə azad edildi.)

3. Müşrik və kafirlər də mənəvi kamillikdən ləzzət alırlar. Kamillik sevgisi bütün insanlarda mövcuddur.

4. Mühüm və aparıcı məqamlarda əyləşmək üçün müdiriyyət bacarığı ilə yanaşı sevilmək və qəbul olunmaq da mühümdür. (Yusif öz iffəti, tədbiri və təbirləri sayəsində xüsusi bir məhəbbət qazandı. Bu səbəbdən padşah onu özü üçün seçdi.)

5. Paklıq, əmanət, sədaqət, iffət padşahları da təvazöyə məcbur edir.

6. Nə qədər ağzını açmamış kişi,
Nə yaxşı, nə yaman – bilinməz işi.

7. Seçim vaxtı birbaşa müsahibələr də faydalıdır.

8. Böyük vəzifələrə təyinat zamanı bəzən nəzərdə tutulmuş şəxsi məmləkətin birinci şəxsi danışdırmalıdır.

9. Böyük və aparıcı vəzifələri ləyaqətli və imtahandan çıxmış insanlara tapşırın.

10. Sədaqətli və etibarlı insan kafirlər arasında da möhtərəm olur.

11. Misir qadınları Yusifin gözəlliyini görüb özlərini itirdilər və əllərini kəsdilər. Misir padşahı isə Yusifin etibarını və paklığını görüb Misir mülkünü onun ixtiyarına verdi. Əgər Yusifin bütün kamillikləri aşkar olsaydı, ona hansı münasibət göstərərdilər?

12. Bir şəxsin güc və sədaqətinə əmin olduğunuz vaxt ona iş tapşırmaqda yubanmayın.

13. Ölkə məsulunun xüsusi müşaviri təqvalı, tədbirli, plan hazırlaya bilən və əmanətdar bir şəxs olmalıdır.

14. Etibarlı və işbilən adamlara vəzifə verərkən qətiyyətli olun.

15. Etibarlı görüb inandığınız insana imkan verin.

16. Yusif qeyd-şərtsiz qüdrətə çatdı.

17. İmkanlı və etibarlı olmaq yanaşı şəkildə zəruridir.

● Ayə 55:

﴿قَالَ اجْعَلْنِي عَلَى خَزَآئِنِ الأَرْضِ إِنِّي حَفِيظٌ عَلِيمٌ﴾

**“Mənə bu yerin xəzinələrini tapşır. Çünki mən hifz edən və bilənəm.”**

◊ **Nöqtələr**

● **Sual:** Nə üçün Yusif məsuliyyət tələb etdi? Başqa sözlə, nə üçün rəyasət istədi?

**Cavab:** Yusif Misir padşahının yuxusuna əsasən xalq üçün təhlükə hiss edirdi. Özünü layiq bildiyindən bu təhlükələrin aradan qaldırılması üçün məsuliyyətin qəbuluna hazırlığını bildirdi.

● **Sual:** Nə üçün Yusif özünü tərifləndi?

Məgər Quran insanın özünü təriflənməsini pisləmirmi?[1]

**Cavab:** Yusifin öz qabiliyyət və imkanlarını dilə gətirməsinin səbəbi lovğalıq və sui-istifadə yox, qarşıdakı çətinliklərin aradan qaldırılması idi.

● **Sual:** Nə üçün Yusif kafir hökumətlə həmkarlıq etdi? Məgər Quran belə bir həmkarlığa qarşı çıxmırmı?[2]

**Cavab:** Yusifin məqsədi zalım hakimi himayə etmək yox, xalqı çətinlikdən qurtarmaq idi. Yusif bir kəlmə olsun yalan danışmadı. Siyasətçilər adətən təhlükə zamanı xalqı atıb aradan çıxırlar. Amma Yusif xalqı hifz etmək fikrində idi. O, zalım rejimi aradan götürə bilməsə də müəyyən dəyişikliklər apara bildi. İmkan həddində azğınlığın qarşısını almaq zəruridir. O, işlərin bir hissəsini ələ alıb fəaliyyətə başladı.[3]

"Təfsire-Nümunə"də deyilir: "Əhəm və mühüm" prinsipi ağıl və şəriətin qəbul etdiyi bir prinsipdir. Bu prinsipə əsasən işlər əhəmiyyət dərəcəsinə görə fərqlənir. İki mühüm iş arasında biri o birindən daha mühüm ola bilər. Şirk hakimiyyətində iştirak etməyə icazə verilmir. Amma bir milləti qıtlıqdan qurtarmaq daha mühümdür. Bu səbəbdən də Yusif siyasi məsuliyyəti yox, iqtisadi məsuliyyəti öz öhdəsinə götürdü. İmam Riza (ə) buyurur: "Xəzinə məsuliyyətini öhdəyə götürmək zərurəti yarandıqda Yusif özünü təklif etdi."[4]

Əli ibn Yəqtin imam Kazimin (ə) tövsiyəsi ilə Bəni-Abbas hökumətində vəzirliyi qəbul etdi. Hakimiyyətdəki ilahi insanlar məzlumlar üçün sığınacaq ola bilərlər. İmam Sadiq (ə) buyurur: "Hökumət işinin kəffarəsi din qardaşlarının ehtiyaclarını ödəməkdir."[5]

İmam Rizadan (ə) soruşurlar ki, nə üçün Riza Məmunun canişinliyini qəbul edib? Həzrət buyurur: "Yusif peyğəmbər idi, bununla belə müşrik hakimiyyətdə iştirakı vardı. Mən isə peyğəmbər canişiniyəm və müsəlmanlıq iddiasında olan şəxsin hökumətində iştirakım var. Əgər mən bu məsuliyyəti qəbul etməyə məcbur olmuşamsa, Yusif məsələnin mühümlüyünü nəzərə alaraq azad şəkildə həmin məsuliyyəti qəbul edib."[6]

● Yusif məqama çatdığı vaxt valideynləri ilə görüş yox, xəzinənin məsuliyyətini istədi. Çünki valideynlərlə görüş daxili hisslərin tələbidirsə, xalqın qurtuluşu ictimai bir vəzifədir.

● İmam Sadiq (ə) zahidlik iddiasında olan bir qrupa buyurdu: "Yusif peyğəmbər haqqında nə düşünürsünüz? O Misir padşahından xəzinənin məsuliyyətini istədi. Bütün ölkəni və Yəmənədək ətrafı öz ixtiyarına götürdü... Eyni zamanda, bu işi ona eyb tutan bir kəs görmədik."[7]

---

1 Bax: "Nəcm", 32
2 Bax: "Hud", 113
3 "Təfsire-fi zilalil-Quran"
4 "Təfsire-Nurus-Səqəleyn"
5 "Vəsailuş-şiə", c. 12, s. 139
6 "Vəsailuş-şiə", c. 12, s. 146
7 "Təfsire-Nurus-Səqəleyn"

● İmam Rizadan (ə) nəql olunmuş bir rəvayətdə deyilir: Həzrət Yusif (ə) 7 il müddətində taxıl topladı və ehtiyat yığdı. İkinci 7 ildə qıtlıq oldu və ehtiyata yığılmış taxıl tədricən xalqın istifadəsinə verildi. Yusif diqqət və etibarla Misir ölkəsini bədbəxtlikdən qurtardı. O, 7 illik qıtlıq dövründə heç vaxt doyunca yemədi. Məqsədi acları yaddan çıxarmamaq idi.[1]

● "Məcməul-bəyan" və "Əl-Mizan" təfsirlərində Yusifin əməli haqqında belə deyilir: Elə ki, qıtlıq başladı, həzrət Yusif taxılı birinci il qızıl-gümüşə, ikinci il qaş-daşa, üçüncü il mal-qaraya, dördüncü il qullara, beşinci il evlərə, altıncı il əkin sahələrinə, yeddinci il xalqın özünə dəyişdi. Yeddinci il başa çatdıqda Misir padşahına dedi: "Bütün xalq və onların sərmayələri mənim ixtiyarımdadır. Amma Allahı şahid tuturam və sən də şahid ol ki, bütün xalqı azad edib, var-dövlətini onlara qaytarıram. Sənin taxt-tacını da, möhürünü də sənə verirəm. Hakimiyyət mənim üçün xalqın qurtuluş vasitəsi idi. Xalqla ədalətli rəftar et."

Padşah Yusifin bu sözlərini eşidib özünü onun qarşısında o qədər kiçik hiss etdi ki, "əşhədu ən la ilahə illəllah və ənnəkə rəsuluhu", mən də iman gətirdim, amma sən hakim olmalısan" deyə söylədi.

● Fərdləri seçərkən Quran meyarlarından istifadə edək. Quranda "həfiz və əlim" məqamlarından əlavə, meyarlar da zikr olunmuşdur. O cümlədən: iman, insanın keçmişi, hicrət, fiziki və elmi qüdrət, ailə əsası, cihad və mübarizə.[2]

◊ **Bildirişlər**

1. Zəruri olan məqamda könüllü şəkildə məsuliyyət qəbul olunmalıdır.

2. Peyğəmbərlik hökumət və siyasətdən ayrı deyil. Dəyanət də siyasətdən ayrı sayılmamalıdır.

3. Layiqli insanlardan istifadə edərkən onların şəxsi marağı nəzərə alınmalıdır.

4.Öncə ləyaqət qazanmaq, sonra məsuliyyət tələb etmək lazımdır.

5. Bir işdə məharətiniz varsa özünüzə inanın və məsuliyyət istəyin.

6. İnsan özündən aşağı pillədə fəaliyyət göstərənlərə nəzarət etməli, etibarlı müşavirlərə qarşı diqqətli olmalıdır.

7. Hansı məntəqədə olmaq əsas deyil. Yusif misirli deyildi, amma Misir hökumətində məsuliyyət daşıyırdı.

8. Zəruri hallarda ləyaqəti bəyan etmək təvəkkül və ixlasa zidd deyil.

9. Padşahın Yusifdəki iki xüsusiyyəti (qüdrət və etibar) və Yusifin özündəki iki sifəti (hifz edən və bilən) bəyan etməsində layiqli işçinin xüsusiyyətləri ilə bağlı nəticə çıxarmaq olur. Belə ki, layiqli işçi qüdrətli, etibarlı, hifz edən və mütəxəssisdir.

10. Məsrəflə bağlı planlaşdırmada və bu işə nəzarətdə gələcək nəslin payı qorunmalıdır.

---

1 "Təfsire-Məcməul-bəyan"

2 Bax: "Səcdə", 18; "Vaqiə", 10-11; "Ənfal", 72; "Bəqərə", 247; "Məryəm", 28; "Nisa", 95

● Ayə 56:

﴿وَكَذَلِكَ مَكَّنِّا لِيُوسُفَ فِي الأَرْضِ يَتَبَوَّأُ مِنْهَا حَيْثُ يَشَاء نُصِيبُ بِرَحْمَتِنَا مَن نَّشَاء وَلاَ نُضِيعُ أَجْرَ الْمُحْسِنِينَ﴾

**“Biz bu sayaq Yusifə o torpaqlarda qüdrət verdik ki, orada istədiyi yerdə olsun. Biz öz rəhmətimizi istədiyimiz kəsə çatdırarıq və yaxşı əməl sahiblərinin mükafatını zay etmərik.”**

● Ayə 57:

﴿وَلَأَجْرُ الآخِرَةِ خَيْرٌ لِّلَّذِينَ آمَنُواْ وَكَانُواْ يَتَّقُونَ﴾

**“Şübhəsiz, iman gətirib, daim təqva yolunu gedənlər üçün axirət mükafatı daha yaxşıdır.”**

◊ **Nöqtələr**

● Bu iki ayədə həzrət Yusif yaxşı əməl sahibi, mömin və müttəqi kimi vəsf olunur.

● Bu surənin mətni boyunca Allahın iradəsi ilə xalqın iradəsini müqayisə etmək olar. Yusifin qardaşları istədilər ki, Yusifi quyuya atıb qula çevirməklə xar etsinlər, amma Əzizi-Misr onun haqqında dedi: “Onu əziz tutun.” Əzizin arvadı Yusifi günaha batırmaq istədi, amma Allah onu qorudu. Bəziləri Yusifi zindana salmaqla onun müqavimətini qırmaq, alçaltmaq istədilər, amma Allah onu əziz tutdu və Misir hakimiyyətini onun ixtiyarına qoydu.

● İmam Sadiq (ə) buyurur: “Yusif hürr və azad bir insan idi. Qardaşlarının həsədi, quyuya atılması, qadınların şəhvəti, zindan, böhtan, rəyasət və qüdrət ona təsir göstərmədi.”[1]

● Axirət mükafatı dünya mükafatından üstündür. Çünki axirət mükafatı məhdud deyil, puça çıxmır, məkan baxımından məhdud deyil, hesaba gəlmir, bəla və xəstəliyi yoxdur.[2]

◊ **Bildirişlər**

1. Pak və təqvalı insanları izzətə çatdırmaq Allahın qanunudur.
2. Yusifə qüdrət verən Misir padşahı yox, Allah Özü idi.
3. İdarəçilik haqqı hakimiyyət şənindəndir.
4. Böhranlı vəziyyətlərdə hökumətlər ümumi faydalar xatirinə xalqın azadlığını məhdudlaşdıra bilərlər.
5. Yusifin ixtiyar çərçivəsi geniş idi.
6. Qüdrət haqq əhlinin əlində rəhmət, batil əhlinin əlində zərər-ziyandır.
7. İlahi dünya görüşündə mükafatsız heç bir iş yoxdur.
8. Xalqın hüquqlarının pozulmasının səbəbi ya cəhalətdir, ya paxıllıqdır, ya zəiflikdir, ya da.... Amma Allah-təalada bu sifətlərin heç biri yoxdur.

---

1 “Təfsire-Nurus-Səqələyn”

2 Bax: “Zumər”, 34; “Furqan”, 76; “Zumər”, 74; “Zumər”, 10; “Vaqiə”, 19

9. Dünyəvi hakimiyyət və gücə çatmaq xeyir əmələ, iman və təqvaya zidd deyil. Yəni saleh, imanlı və təqvalı insan da hakim ola bilər.

10. Allahın təqdiri nizam və qanuna uyğundur.

11. Bütün işlər Allahın müqəddəratından asılı olsa da, hikmət sahibi olan Allah kimsəyə səbəbsiz yerə qüdrət vermir.

12. Salehlər dünya həyatından əlavə, axirət həyatında da mükafata çatacaqlar.

13. Xeyir əməl sahibi olan insan bu dünyada mükafat və məqam əldə etməsə nigaran olmasın. Çünki əsas hədəf axirətdir.

14. Axirət mükafatı ilə müqayisədə dünyəvi hakimiyyət əhəmiyyətsiz bir şeydir.

15. Maddi imkanlar və zahiri hakimiyyət ilahi insanlar üçün önəmli deyil. Onlar üçün ən mühümü axirət həyatıdır.

16. Allah Öz rəhmətini təqva ardınca gedənlərə nazil edir.

17. Yalnız təqva ilə müşayiət olunan iman səmərəlidir. Günahkar möminin isə aqibəti qaranlıqdır.

18. İnsan xarakterində kök atmış təqva dəyərlidir.

19. Axirət mükafatlarından faydalanmaq üçün iman və təqva şərtdir.

20. Təqva imanda ən uca mərhələ və mərtəbədir.

● Ayə 58:

﴿وَجَاء إِخْوَةُ يُوسُفَ فَدَخَلُواْ عَلَيْهِ فَعَرَفَهُمْ وَهُمْ لَهُ مُنكِرُونَ﴾

**“(Kənan məntəqəsinə qıtlıq hakim oldu və azuqə əldə etmək üçün) Yusifin qardaşları (Misirə) gəldilər. (Qardaşlar) onun (Yusifin) hüzuruna daxil oldular. Həmin vaxt onları tanıdı, amma onlar Yusifi tanımadılar.”**

◊ **Nöqtələr**

●Yusifin öncədən gördüyü kimi, xalq 7 il bolluq içində yaşadı. Amma növbəti 7 ildə qıtlıq və quraqlıq hakim oldu. Qıtlıq Misirdən Fələstin və Kənanadək genişləndi. Yəqub öz övladlarına dedi: “Buğda əldə etmək üçün Misirə yola düşün.” Onlar Misirə daxil olub öz məqsədlərini bildirmək istədilər. Yusif müraciət edənlərin arasında qardaşlarını gördü. Amma qardaşları Yusifi tanımadılar. Çünki Yusifin quyuya atıldığı gündən onun Misirdə hakimiyyətə çatdığı vaxtadək 23 ilə yaxın zaman keçmişdi. Yusif quyudan çıxanda növcavan idi. O, Əzizin evində bir neçə il xidmətçi oldu, neçə illər də zindanda qaldı. Onun zindandan çıxdığı gündən 7 il ötmüşdü, qardaşları isə qıtlıq və quraqlıq illərində Misirə gəlmişdilər.

◊ **Bildirişlər**

1. Qıtlıq zamanı dövlət xalqın yaşaya bilməsi üçün pay sisteminə keçməlidir. Hər kəs öz payını almaq üçün özü müraciət etməlidir. Əks-təqdirdə, başqaları onun adından sui-istifadə edə bilər. Qardaşlar bir nəfər nümayəndə də göndərə bilərdilər, amma onlar hamılıqla gəldilər.

2. Qıtlıq illərində başqa bir məntəqə sizdən yardım istəsə, öz köməyinizi əsirgəməyin.

3. Ehtiyac zamanı sakit oturmayın. Hətta başqa ölkələrdən də yardım alın.

4. Bəzən zalım məzluma möhtac olur. (Dağ dağa yox, insan insana rast gəlir.)

5. Hətta Misirdən olmayanlar da Yusiflə asanlıqla görüşə bilirdilər. (Hökumət başçıları proqram tərtib edib, xalqın qəbula düşməsi üçün şərait yaratmalıdırlar.)

6. Uşaqlıq dövrünün xatirələri yaddaşda iz salır və unudulmur. (Qardaşları Yusifdən ayrılarkən yaşlı idilər. Yusif isə onları uşaq yaşında görmüşdü. Bu səbəbdən də Yusif onları tanıdı, amma onlar Yusifi tanımadılar.)

● Ayə 59:

﴿وَلَمَّا جَهَّزَهُم بِجَهَازِهِمْ قَالَ ائْتُونِي بِأَخٍ لَّكُم مِّنْ أَبِيكُمْ أَلاَ تَرَوْنَ أَنِّي أُوفِي الْكَيْلَ وَأَنَاْ خَيْرُ الْمُنزِلِينَ﴾

**"Yusif onların yükünü hazır etdikdən sonra dedi: "Atabir qardaşınızı mənim yanıma gətirin. Görürsünüzmü ki, mən peymanəni (ölçü qabını) doldurub verirəm və ən yaxşı süfrə sahibiyəm."**

◊ **Nöqtələr**

● Yusif demədi ki, mənim qardaşımı gətirin, dedi ki, atadan bir qardaşınızı gətirin. Məlum olur ki, söhbət zamanı qardaşları Yusifi tanımırdılar. Onlar Yusifə bildirdilər ki, biz İbrahim nəslindən olan Yəqubun övladlarıyıq. Atamız qoca kişidir. Onun övladını canavar yediyindən qəm-qüssə içindədir. İllər uzunudur ki, ağlar vəziyyətdə bir küncdə oturub. Qardaşlarımızdan birini də onun xidmətində qoymuşuq. Əgər mümkün olsa, ata və qardaşımızın da payını ver, xoşhallıqla geri qayıdaq... Yusif göstəriş verdi ki, 10 dəvə yükünə iki yük də əlavə olunsun.

● Yusif qardaşlarının diqqətini cəlb etmək üçün dedi: Mən ən yaxşı süfrə sahibiyəm... Qardaşları ona meyl etdilər. Amma xalqın cəzb olunması üçün Allahın çox təbiri var. Məsələn: O ən yaxşı ruzi verəndir, O ən yaxşı bağışlayandır, O ən yaxşı nicat verəndir, O ən yaxşı tədbir tökəndir, O ən yaxşı varisdir, O ən yaxşı hakimdir.[1]

Bununla belə, xalqın böyük bir hissəsi cəzb olunmur.

◊ **Bildirişlər**

1. Yusif ehtiyata toplanmış ərzağın paylanmasına şəxsən nəzarət edirdi.

2. Yusifin düzgün müdiriyyəti sayəsində nəinki Misir əhli əziyyət çəkmədi, hətta ətrafdan gələnlərə də kömək olundu.

3. Həm sirr saxlamaq, həm də doğru danışmaq lazımdır.

4. Yardım göstərən şəxs, müəssisə və ya ölkə xeyir məqsədlə hansısa şərtlər qoya bilər.

---

1 Bax: "Cumuə", 11; "Əraf", 155; "Əraf", 89; "Ənfal", 30; "Ənbiya", 89; "Yunus", 109

5. Böhran və qıtlıq dövründə də ədalətsizlik və əskik satmaq qadağandır.
6. Müamilədə malın qədəri müəyyən olunmalıdır.
7. Pisliyə yaxşılıqla cavab verək. (Yusif ona zülm etmiş qardaşlarının payını əskiltmədi.)
8. İşçilərin əskik satması və ya ədaləti əsl məsulun ayağına yazılır.
9. Yusifin dövründə Misirdə taxıl məhsulları peymanə (ölçü qabı) ilə ölçülüb satılırdı.
10. Ümumi payı bölən məsullar ədalətli olmalıdırlar.
11. Əlimizdəki imkanlar vasitəsi ilə intiqam almayaq.
12. Qonaqpərvərlik peyğəmbərlərin xüsusiyyətlərindəndir.
13. Məntəqənizə gələn müsafir və karvanlara hətta qıtlıq dövründə belə hörmət göstərin.

● Ayə 60:

﴿فَإِن لَّمْ تَأْتُونِي بِهِ فَلاَ كَيْلَ لَكُمْ عِندِي وَلاَ تَقْرَبُونِ﴾

**“Əgər həmin qardaşınızı mənim yanıma gətirməsəniz, məndən heç bir peymanə (taxıl) almazsınız və mənə yaxınlaşmayın.”**

◊ **Bildirişlər**

1. Müdiriyyətdə həm məhəbbətə, həm də hədəyə ehtiyac var. Öncə müjdə və məhəbbət, sonra hədə və inzibat.
2. Sui-istifadəyə zəmin yaratmayaq. (Müraciət edənlər müraciət edə bilməyənlərin payını alsa, bu qaydadan sui-istifadə olunar.)
3. Qanunu tətbiq edərkən qardaşlar, ailə və başqaları arasında ayrıseçkiliyə yol vermək olmaz. (Hər şəxsin öz payı var və özü bu payı əldə etməlidir.)
4. Hədələyərkən deyilənləri tam icra etmək zəruri deyil. (Yusif o şəxs deyildi ki, qardaşları qıtlıqdan ölsün.)
5. Proqramların həyata keçirilməsində qətiyyət rəhbərlik şərtidir.

● Ayə 61:

﴿قَالُواْ سَنُرَاوِدُ عَنْهُ أَبَاهُ وَإِنَّا لَفَاعِلُونَ﴾

**“(Qardaşları Yusifə) dedilər: “Onu atasından israrla istəyəcəyik, bu işi hökmən görəcəyik.”**

◊ **Nöqtələr**

● “Müravidə” dedikdə ardıcıl xahiş və ya yalanla müşayiət olunan müraciət nəzərdə tutulur.

● Qardaşların sözündən həsəd qoxusu gəlirdi. Onlar “atamız” əvəzinə “atası” sözünü işlətdilər. Surənin əvvəlində də qardaşların arasında bu sayaq söhbət getmişdi. Onlar deyirdilər ki, ata bizim üçündür, amma o Yusif və qardaşını bizdən çox sevir.

◊ **Bildirişlər**

1. Oğul atanın icazə və razılığı ilə səfərə çıxa bilər.

2. Yusifin qardaşları bilirdilər ki, ataları Benyaminin onlarla getməsini istəmir.

3. Yusifin əhvalatından sonra Yəqub Benyamini özündən kənara buraxmırdı. Onu atasından ayırmaq asan iş deyildi.

● Ayə 62:

﴿وَقَالَ لِفِتْيَانِهِ اجْعَلُواْ بِضَاعَتَهُمْ فِي رِحَالِهِمْ لَعَلَّهُمْ يَعْرِفُونَهَا إِذَا انقَلَبُواْ إِلَى أَهْلِهِمْ لَعَلَّهُمْ يَرْجِعُونَ﴾

**“(Yusif) öz qulamlarına dedi: “Onların ödədiklərini yüklərinin içinə qoyun. Ailələrinə qayıtdıqda onu görsünlər. Bu ümidlə ki, (növbəti dəfə) geri qayıdalar.”**

◊ **Nöqtələr**

● Həzrət Yusif ötən ayələrdə “sadiq, möhsin, müxlis” kimi adlarla vəsf olunurdu. Şübhəsiz ki, o, ata və qardaşlarına beytül-malı bağışlamamışdı. Verdiyi malın pulunu çox güman ki, şəxsi hesabından ödəmişdi.

● Yusif pulu qaytardı ki, ikinci dəfə səfərə çıxmağa onların pulu olsun. Bundan əlavə, pulun qaytarılması səmimiyyət nişanəsi idi. Yusif onlara bildirmək istəyirdi ki, qardaşlarını istəməkdə pis məqsədi yoxdur. Pulun gizli şəkildə yükün arasına qoyulmasının səbəbi bu işin minnətsiz görülməsi və həmin məbləği oğrulardan qorumaq idi.

● Dünən qul və xidmətçi olan Yusif qul və xidmətçi sahibi idi. O, qardaşları ilə görüş zamanı intiqam almadı, gileylənmədi, kin saxlamadı. Sərmayələrini qaytarmaqla onlara qarşı olan sevgisini bildirdi.

◊ **Bildirişlər**

1. Layiqli müdir və rəhbərin planı yaradıcı olmalıdır.
2. Pislikləri yaxşılıqlarla aradan qaldıraq.
3. Sileyi-rəhm—yəni müamilə yox, kömək etmək!
4. Ehtiyaclı ata və qardaşlardan pul almaq kəramətdən uzaqdır.
5. Yusif pulun qoyulmasını bir neçə nəfərə tapşırdı ki, hansısa qul düşünməsin ki, Yusif bu məbləği özü üçün götürür.
6. Başqalarına imkan həddində gizli yardım göstərin.
7. İntiqam və kin-küdurətdən uzaq olaq. Hədiyyə verməklə gələcək rabitələri quraq.
8. İnsanları yenidən görmək üçün puldan keçmək lazımdır.
9. İnsanların qəlbini cəzb etmək üçün ən yaxşı vasitə onlara yaxşılıq etməkdir.
10. Məsullar öz işçilərini yetərincə məlumatlandırmalıdırlar ki, yaxşı rəhbər ola bilsinlər. (Yusif yükə pul qoydurduqda bildirdi ki, bu işdə məqsəd onların yenidən qayıtmasıdır.)
11. Proqram hazırlayarkən işin nəticəsinə tam əmin olmaq zəruri deyil.

● Ayə 63:

﴿فَلَمَّا رَجَعُوا إِلَى أَبِيهِمْ قَالُواْ يَا أَبَانَا مُنِعَ مِنَّا الْكَيْلُ فَأَرْسِلْ مَعَنَا أَخَانَا نَكْتَلْ وَإِنَّا لَهُ لَحَافِظُونَ﴾

**"Atalarının yanına qayıtdıqda dedilər: "Ey ata, bizə pay verilməsi qadağan oldu. Qardaşımızı bizimlə göndər ki, payımızı ala bilək. Biz hökmən onu qoruyacağıq."**

◊ **Bildirişlər**

1. Yəqub ailə-övladı üzərində hakim idi.
2. Övlada əmr edib qadağa qoymaq atanın haqqıdır.
3. Benyamin atasının icazəsi olmadan səfərə çıxmazdı.
4. Bir şeyi almaq və ya etimad qazanmaq üçün mərhəmət hislərindən faydalanaq.
5. Günahkarın daxili bir nigarançılığı olduğundan danışığında ardbaard təkid edir.

● Ayə 64:

﴿قَالَ هَلْ آمَنُكُمْ عَلَيْهِ إِلاَّ كَمَا أَمِنتُكُمْ عَلَى أَخِيهِ مِن قَبْلُ فَاللّهُ خَيْرٌ حَافِظًا وَهُوَ أَرْحَمُ الرَّاحِمِينَ﴾

**"(Yəqub) dedi: "Qardaşını sizə etibar etdiyim kimi onu da sizə etibar edimmi? (Sizə yox, Allaha etibar edirəm.) Allah ən yaxşı qoruyandır və rəhm edənlərin ən rəhimlisidir."**

◊ **Nöqtələr**

● **Sual:** Oğlanları etibar qazanmadığı halda nə üçün Yəqub o biri övladını onların ixtiyarına verdi?

**Cavab:** Fəxr Razi bu mövzu ilə bağlı müxtəlif ehtimallar irəli sürür. Əvvəla, qardaşlar birinci işləri ilə atalarının məhəbbətini qazana bilməmişdilər.[1] İkincisi, qardaşlar Benyaminə qarşı bir o qədər də həsəd aparmırdılar. Üçüncüsü, qıtlıq və quraqlıq xüsusi şərait yaratdığından bu səfər zəruri ola bilərdi. Dördüncüsü, əvvəlki hadisədən uzun vaxt keçmişdi və bu hadisə unudula bilərdi. Beşincisi, Allah bu məsələ ilə bağlı Yəquba təsəlli verdi.

● 12-ci ayədə bildirilirdi ki, Yəqub oğlanlarını etibarlı bilib Yusifi onlara tapşırdı, nəticədə onu əldən verdi və gözləri kor oldu. Benyaminə münasibətdə

---

[1] Yəni, qardaşlar Yusifi yox etməklə boşluq yaratmaq, bir növ Yusif olmadıqda atalarının onları sevəcəyini düşünürdülər. Amma bu hərəkət baş tutmadı və Yusif olmadığı illərdə onlar atanın məhəbbətini yox, nifrətini qazandılar. Deməк, birinci müvəffəqiyyətsizlikdən sonra onlar heç vaxt belə bir işə əl atıb Benyamini də məhv etmək fikrinə düşməzdilər.

isə Yəqub Allaha təvəkkül etdi və dedi: “Allah ən yaxşı qoruyandır.” Nəticədə güc tapdı, gözləri açıldı, ayrılığa son qoyuldu.

◊ **Bildirişlər**

1. Mənfi keçmişə malik insana dərhal etimad göstərmək olmaz.

2. Keçmişin acı xatirəsi insanı gələcək hadisələrdən qoruyur.

3. Bir dəfə uğursuzluğa düşdükdə, əlimiz işdən soyumasın. Yəqub Allaha təvəkkül etməklə növbəti dəfə ikinci oğlunu qardaşlarına təhvil verdi.

4. Yusifin qardaşları özlərini etibarlı sayırdılar. Amma Yəqub xatırlatdı ki, ən yaxşı qoruyan Allahdır.

5. Zahiri və maddi amillərə bir o qədər də arxayın olmayaq. Yalnız Allaha təvəkkül edək.

6. Allahın misilsiz rəhmətinə diqqət və Ona təvəkkül etməklə həyat hadisələrinin istiqbalına çıxaq.

7. Mərhəmət hifz etmə qaynağıdır.

● Ayə 65:

﴿وَلَمَّا فَتَحُواْ مَتَاعَهُمْ وَجَدُواْ بِضَاعَتَهُمْ رُدَّتْ إِلَيْهِمْ قَالُواْ يَا أَبَانَا مَا نَبْغِي هَـذِهِ بِضَاعَتُنَا رُدَّتْ إِلَيْنَا وَنَمِيرُ أَهْلَنَا وَنَحْفَظُ أَخَانَا وَنَزْدَادُ كَيْلَ بَعِيرٍ ذَلِكَ كَيْلٌ يَسِيرٌ﴾

**“Elə ki, yüklərini açdılar, gördülər ki, sərmayələri onlara qaytarılıb. Dedilər: “Ey ata başqa nə istəyək?! Bu bizə qaytarılmış sərmayəmizdir. Biz ailəmizin qidasını hazırlayar və qardaşımızı qoruyarıq. Onu aparmaqla bir dəvə yükü də artırarıq. Bu pay (Əziz üçün) əhəmiyyətsiz bir paydır.”**

◊ **Nöqtələr**

● Ayə belə mənalandırıla bilər: Gətirdiyimiz miqdar bəs etməz, ikinci dəfə getsək, daha çox gətirərik.

● “Nəmir” dedikdə qida maddələri nəzərdə tutulur. “Nəmiru əhləna”, yəni ailənizə qida çatdırarıq.

● “Nəzdadu kəylə bəir” cümləsindən məlum olur ki, hər nəfərə bir dəvə yükü pay düşürdü. Hər adam özü şəxsən gedib bu payı almalı idi.

◊ **Bildirişlər**

1. Yəqubun övladları atalarının yanında yaşayırdılar. Onlar ailənin ruzisini qazanmaq üçün səy göstərirdilər.

2. Yusifin hünəri təkcə insan olmaqda yox, həm də insan tərbiyə etməkdə idi.

3. Yusif həsədçi və ona xəyanət etmiş qardaşlarına gizlində hədiyyə verirdi ki, onların qayıdışı üçün şərait yaratsın. Quran buyurur ki, pisliyi yaxşılıqla dəf edin.

3. Əgər Yusif öncədən pul almasaydı, alıcılar özünü alçaldılmış sayardılar. Hədiyyə məqsədi varsa öncə pulu almaq, sonra ağıllı şəkildə qaytarmaq lazımdır.

4. Əgər bir quşu tutmaq istəyirsinizsə, bir qədər dən səpin. (Yusif onların yükünün dəyərini qaytardı ki, geri dönmələri üçün maraq yaratsın.)

5. Kişi ailənin qidasını verməyə borcludur.
6. Qıtlıq şəraitində ərzaq payı bölüşdürmək Yusif yoludur.

● Ayə 66:

﴿قَالَ لَنْ أُرْسِلَهُ مَعَكُمْ حَتَّى تُؤْتُونِ مَوْثِقًا مِّنَ اللّهِ لَتَأْتُنَّنِي بِهِ إِلاَّ أَن يُحَاطَ بِكُمْ فَلَمَّا آتَوْهُ مَوْثِقَهُمْ قَالَ اللّهُ عَلَى مَا نَقُولُ وَكِيلٌ﴾

**“(Ata) dedi: “Allaha and içib, hamınızın başına bir hadisə gəlməsə onu yanıma qaytaracağınıza möhkəm söz verməsəniz, heç vaxt onu sizinlə göndərməyəcəyəm. Elə ki, möhkəm söz verdilər, (ata) dedi: “Allah dediklərimizə vəkildir.”**

◊ **Nöqtələr**

● “Məvsiq” dedikdə arxayınlıq yaradan şey başa düşülür. Bu, əhd, and, nəzir ola bilər.

◊ **Bildirişlər**

1. Sırf qohumluq münasibəti ilə kifayətlənməyin, müqavilələri möhkəmləndirin.
2. Allaha iman, Ona and, Onunla əhd ən möhkəm dayaqdır.
3. Bir şəxsdən pis söz və rəftar gördükdə növbəti dəfə müqaviləni möhkəmləndirin.
4. Övladlarınızı başqalarına asanlıqla qoşub yola salmayın.
5. Müqavilələrdə gücünüzün fövqündəki hadisələri öncə görün. (Gücdən yuxarı vəzifə qadağandır.)
6. Qanuni və hüquqi müqavilələr Allaha təvəkkülü yadınızdan çıxarmasın.

● Ayə 67:

﴿وَقَالَ يَا بَنِيَّ لاَ تَدْخُلُواْ مِن بَابٍ وَاحِدٍ وَادْخُلُواْ مِنْ أَبْوَابٍ مُّتَفَرِّقَةٍ وَمَا أُغْنِي عَنكُم مِّنَ اللّهِ مِن شَيْءٍ إِنِ الْحُكْمُ إِلاَّ لِلّهِ عَلَيْهِ تَوَكَّلْتُ وَعَلَيْهِ فَلْيَتَوَكَّلِ الْمُتَوَكِّلُونَ﴾

**“(Yəqub) dedi: “Ey mənim oğlanlarım, (Misirə çatdığınız vaxt hamınız) bir qapıdan daxil olmayın. (Xalqın diqqətini cəlb etməmək üçün) ayrı-ayrı qapılardan daxil olun. (Mən bu tövsiyə ilə) Allah tərəfindən olanı (müqəddəratı) sizdən uzaqlaşdıra bilmərəm. Hökm yalnız Allaha**

**məxsusdur. Yalnız Ona təvəkkül edirik. Bütün təvəkkül edənlər (də) Ona təvəkkül etməlidirlər.”**

◊ **Nöqtələr**

● Həzrət Yəqub övladlarının Misirə səfəri zamanı dörd tövhid nöqtəsini qeyd edir:

1. “Ma uğni ənkum” – yəni mən bu tapşırıqla Allahın müqəddəratından olan bir şeyi sizdən uzaqlaşdıra bilmərəm.

2. “İlla ən yuhatə bikum” – yəni hamınızın başına təsəvvür etmədiyiniz bir hadisə gəlsə, bu, istisnadır.

3. “Fəllahu xəyru hafizən” – yəni Allah ən yaxşı qoruyandır.

4. “Ələyhi fəlyətəvəkkəl” – yəni Ona təvəkkül etsinlər.

Bəli, Allahın rəsulunun diqqəti bütünlüklə Allah və tövhiddə idi. Yəqubun övladları isə səfər vaxtı deyirdilər: “Biz öz qardaşımızı hifz edərik.” Bu danışıqlarda xalis müvəhhidlə adi fərdlər arasındakı fərq gözəl şəkildə aşkarlanır.

◊ **Bildirişlər**

1. Atanın məhəbbəti hətta xətakar övladlara münasibətdə də aradan götürülmür.

2. Övladların salamatlığını qorumaq üçün tədbir lazımdır.

3. Tövsiyə edən kəs alim və agahdırsa, itaət edən şəxs üçün göstərişin fəlsəfəsini bilmək zəruri deyil.

4. Səfər qabağı məqam moizə üçün ən yaxşı vaxtdır. Yəqub səfər astanasında övladlarına ayrı-ayrı qapılardan daxil olmağı tövsiyə etdi.

5. Həssas münasibətlərin, sui-zənlərin və gözdəymələrin qarşısını alın. Gənclərdən ibarət bir dəstənin biganə bir məntəqəyə daxil olması sui-zənn və pis baxış amilidir.

6. Allahın güc və qüvvətinin yalnız bir fəzaya aid olduğunu düşünməyin. Allah insana istənilən bir yolla yardım göstərə bilər.

7. Qadağan etməklə kifayətlənməyin, həll yolu da göstərmək lazımdır.

8. Məqsədə çatmaq üçün müxtəlif yollardan istifadə etmək lazımdır.

9. Yaxşı müdir proqram hazırlamaqdan əlavə ehtimalları nəzərə almalıdır. Çünki insan öz işində müstəqil deyil. Yəni bütün hesabatlara baxmayaraq Allahın iradəsi həlledicidir. İş tam şəkildə bizim hesabatlarımızdan asılı deyil.

10. Allahın qəti yazısı qarşısında təslim olmaqdan başqa yol yoxdur.

11. Varlıq aləminin mütləq hakimi Allahdır.

12. Allaha təvəkküllə dəvənin ayağı bağlanar.

13. Həm ehtiyat və hesabat, həm də Allaha təvəkkül zəruridir.

14. Allahdan qeyrisinə təvəkkül etməyin. Çünki Allah yetərlidir və ən üstün vəkildir.[1]

15. Yəqub həm özü təvəkkül etdi, həm də ətrafındakıları təvəkkülə həvəsləndirdi.

---

1 Bax: “Nisa”, 81; “Ali-İmran”, 173

● Ayə 68:

﴿وَلَمَّا دَخَلُواْ مِنْ حَيْثُ أَمَرَهُمْ أَبُوهُم مَّا كَانَ يُغْنِي عَنْهُم مِّنَ اللّهِ مِن شَيْءٍ إِلاَّ حَاجَةً فِي نَفْسِ يَعْقُوبَ قَضَاهَا وَإِنَّهُ لَذُو عِلْمٍ لِّمَا عَلَّمْنَاهُ وَلَكِنَّ أَكْثَرَ النَّاسِ لاَ يَعْلَمُونَ﴾

**“Atalarının göstərdiyi yerdən daxil olsalar da, bu iş Allahın iradəsi qarşısında onlara heç bir fayda vermədi. Yalnız Yəqubun qəlbində olan ehtiyat yerinə yetmiş oldu. (Ayrı-ayrı qapıdan daxil olmağın faydası gözdəymədən qorunmaları və xüsusi ilə Benyaminin Yusifə yetişməsi oldu.) Əlbəttə ki, (Yəqub) ona öyrətdiklərimizə xatir elmə sahib idi. Amma xalqın çoxu agah deyil.”**

◊ **Nöqtələr**

● Yəqubun yerinə yetmiş qəlb arzusunun nə olması ilə bağlı müxtəlif ehtimallar var:

1. Benyaminin Yusifə çatması, oğurluqda ittiham bahasına olsa belə, Yusifin tənhalıqdan qurtarması.

2. Ata ilə oğulun görüşünün tezləşməsi.

3. Nəticəyə zamin olmadan vəzifənin yerinə yetirilməsi; Yəqubun istəyi bu idi ki, işin əvvəlində səhlənkarlığa yol verilməsin və oğlanları bir qapıdan daxil olmasın. Bununla belə, gələcəkdə olası işlər Allahın əlindədir.

◊ **Bildirişlər**

1. Adi təcrübələr insanı tərbiyələndirir və o, böyüklərin sözünü qəbul edir.

2. Ataya itaət zəruri və dəyərlidir.

3. İnsanların ədəbsizliyindən danışanda onların ədəblərini də yaddan çıxarmayın. (Əgər Yusifin qardaşları öncə atalarının azdığını bildirirdilərsə, sonradan onun əmrinə təslim oldular.)

4. Yalnız Allahın iradəsi olduqda hesabatlar, proqramlar fayda verir. Allah istəməsə, tədbirlər də əbəsdir.

5. Yəqub bir sıra məsələlərdən və sirlərdən agah idi. Amma onları danışmağı məsləhət bilmirdi.

6. Övliyaların dua və istəyi qəbul olur.

7. Peyğəmbərlərin elmi Allah tərəfindəndir.

8. Xalqın çoxu həqiqi alimləri tanımır.

9. Xalqın çoxu səbəb və amillərə göz dikir, Allahın hakimiyyətindən və Ona təvəkkülün zəruriliyindən xəbərsiz qalır.

10. Çoxluq haqlılıq, azlıq nahaqlıq demək deyil.

● Ayə 69:

﴿وَلَمَّا دَخَلُواْ عَلَى يُوسُفَ آوَى إِلَيْهِ أَخَاهُ قَالَ إِنِّي أَنَاْ أَخُوكَ فَلاَ تَبْتَئِسْ بِمَا كَانُواْ يَعْمَلُونَ﴾

**“(Qardaşları) Yusifin yanına gəldikləri vaxt o, qardaşına (Benyaminə) yanında yer verib dedi: “Həqiqətən, mən sənin qardaşınam, onların gördüyü iş səni qəmləndirməsin.”**

◊ **Nöqtələr**

● Təfsirlərdə deyilir ki, Yəqubun övladları Misirə gəldikləri vaxt Yusif onları qonaq etdi. Hər iki nəfərə bir tabaq çörək verildi. Axırda Benyamin tək qaldı. Yusif onu yanında oturtdu. Sonra hər iki nəfərə bir otaq verildi. Yenə Yusif Benyamini öz otağında saxladı. Benyamin qardaşlarının vəfasızlığından və illərcə əvvəl Yusifə qarşı törətdikləri cinayətdən danışdı. Məhz bu yerdə Yusifin səbir kasası daşdı və o dedi: “Nigaran olma, mən həmin Yusifəm.” Söz elə təkidlə deyildi ki, başqa bir ehtimal üçün (məsələn, “mən sənə qardaş kimiyəm”) yer qalmadı.

● “Fəla təbtəis bima kanu yə`məlun” cümləsi iki cür mənalandırıla bilər: Ya “qardaşlarının keçmiş əməlləri səni qəmləndirməsin”, ya “qulamlar səni saxlamaq üçün peymanəni yükünə qoyacaqlar, bu səni nigaran etməsin.”

◊ **Bildirişlər**

1. Dünənədək öz qüdrəti ilə qürrələnən qardaşlar indi ərzaq əldə etmək üçün tam təvazö ilə Yusifin hüzuruna yetişməli idilər.

2. Deyilən söz gizli və aşkar olmaqla bölünə bilər. Yusif sözlərini Benyaminə gizli şəkildə söylədi. (Hər sözün yeri, hər nöqtənin məqamı var.)

3. Bəzi məsələlərdən yalnız xüsusi adamları xəbərdar etmək olar.

4. Nemətə çatdıqda ötən acılıqları yaddan çıxarın. (Yusiflə Benyamin nəhayət görüşdülər, keçmişdəki nigarançılıqları unutmaq lazım gəldi.)

5. Hər hansı bir planı həyata keçirməzdən öncə, bu proqramdan əziyyət çəkəsi insanları ruhi baxımdan hazırlamaq lazımdır. (Benyaminə deyildi ki, o, oğru adı ilə saxlanılacaq, bundan nigaran olmasın.)

● Ayə 70:

﴿فَلَمَّا جَهَّزَهُم بِجَهَازِهِمْ جَعَلَ السِّقَايَةَ فِي رَحْلِ أَخِيهِ ثُمَّ أَذَّنَ مُؤَذِّنٌ أَيَّتُهَا الْعِيرُ إِنَّكُمْ لَسَارِقُونَ﴾

**“Elə ki, qardaşlarının yükünü hazırladı, bir su qabını qardaşının (Benyaminin) xurcununa qoydu. Sonra səslədi: Ey karvan əhli! Şübhəsiz siz oğrusunuz.”**

◊ **Nöqtələr**

● “Siqayə” su içilən qaba deyilir. “Rəhl” dedikdə dəvənin üstünə qoyulan xurcun və xurcun kimi ləvazimatlar nəzərdə tutulur. Ərzaq daşıyan karvanlar “iyr” adlanır.[1]

● Xurcuna qab qoymaqla Benyamini saxlamaq planı Yusifin birinci tapıntısı deyildi. O bir dəfə taxılın pulunu qardaşların yükündə qoymaqla onları ikinci dəfə geri qaytara bildi. Bu dəfə isə qardaşını yanında saxlamaq üçün onun yükünə qiymətli bir qab gizlətdi.

● Həzrət Yusif birinci dəfə qardaşlarının yükünə onların pulunu qulamlar vasitəsi ilə qoydusa, ikinci dəfə qiymətli qabı şəxsən özü Benyaminin yükündə gizlətdi. (Çünki məsələ məxfi idi..

● Təfsirlərdə deyilir ki, Yusif Benyaminlə xəlvəti görüşdüyü vaxt ondan soruşdu ki, qardaşının yanında qalmaq istəyir, yoxsa yox? Benyamin razılıq verdi. Amma yada saldı ki, qardaşları onu geri qaytaracaqlarına söz veriblər. Yusif dedi: “Mən sənin qalmağın üçün plan hazırlayaram”. Demək Yusif Benyaminin razılığı ilə bu planı cızmışdı.

● **Sual:** Nə üçün bu macərada günahsız insan oğurluqda ittiham olunur?

**Cavab:** Yusif Benyamini öz yanında saxlamaq üçün bu oğurluq planını cızmışdı. Benyamin qardaşının yanında qalmaq xatirinə bu planla razılaşmışdı. Qardaşlar öncə narahat olsalar da, axtarışdan sonra onların üzərindən ittiham götürüldü. Yükü yoxlayanlar Yusifin planından xəbərsiz olduqlarından təbii şəkildə fəryad çəkirdilər.

● Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Başqalarının islahı və ixtilafın aradan götürülməsi üçün deyilən yalan yalan sayılmır.” Sonra həzrət hazırkı ayəni xatırlatmışdır.[2]

◊ **Bildirişlər**

1. Bəzən xeyir məqsədlə səhnə qurmaq, mühüm bir məsələ üçün günahsız adamı öncədən xəbərdar etməklə oğurluqda ittiham etmək olar.[3]

2. Əgər dəstədə bir nəfər xilafkar olsa, xalq bütün dəstəni xilafkarlıqda ittiham edər.

● Ayə 71:

﴿قَالُواْ وَأَقْبَلُواْ عَلَيْهِم مَّاذَا تَفْقِدُونَ﴾

**“(Yusifin qardaşları) məmurlara üz tutub dedilər: “Siz nə itirmisiniz?”**

● Ayə 72:

﴿قَالُواْ نَفْقِدُ صُوَاعَ الْمَلِكِ وَلِمَن جَاء بِهِ حِمْلُ بَعِيرٍ وَأَنَاْ بِهِ زَعِيمٌ﴾

---

1 “Mufrədat”
2 “Təfsire-Nurus-Səqəleyn”
3 “Təfsire Əl-Mizan”

**“Dedilər: “Şaha məxsus qabı itirmişik. Onu tapıb gətirənə bir dəvə yükü veriləcək, mən buna zaminəm.”**

◊ **Nöqtələr**

● “Suvaə” və “siqayə” sözləri eyni mənada işlədilmişdir. Belə bir ölçü qabı ilə həm su içilir, həm taxıl ölçülür. Bütün bunlar qənaət, bəhrələnmə və bir neçə məqsədlə istifadə nişanəsidir. “Suva” dedikdə bir sa (təqribən 3 kq.) buğda tutumu olan qab nəzərdə tutulur.

● “Himl” dedikdə yük nəzərdə tutulur. “Həml” sözü də yük mənasındadır. Amma bu, buluddakı yağış, bətndəki övlad kimi gizli yükdür.[1]

● “Limən caə bihi himlu bəir”, yəni kim belə etsə, filan mükafatı verərəm. Fiqh dilində bu iş “cualə” adlandırılmışdır və uzun keçmişə malik bir qanundur.

◊ **Bildirişlər**

1. Qardaşlar “maza təfqidunə” deməklə bildirdilər ki, oğurluq sübuta yetməmiş kimsə ittiham olunmamalıdır.
2. Mükafat təyin etmək qədim bir üsuldur.
3. Mükafat fərd və dövrə münasib olmalıdır. Qıtlıq dövründə ən yaxşı mükafat bir dəvə yükü taxıldır.
4. Zamin konkret və tanınmış bir adam olmalıdır.
5. Zamin mötəbər bir şəxs olmalıdır.
6. Arxayınlıq yaratmaq üçün zəmanət verilməsinin tarixi keçmişi var.

● Ayə 73:

﴿قَالُواْ تَاللّهِ لَقَدْ عَلِمْتُم مَّا جِئْنَا لِنُفْسِدَ فِي الأَرْضِ وَمَا كُنَّا سَارِقِينَ﴾

**“Dedilər: “And olsun Allaha, siz bilirsiniz ki, biz bu məmləkətə fəsad üçün gəlməmişik və heç vaxt oğurluq etməmişik.”**

◊ **Nöqtələr**

● Yusifin qardaşları dedilər ki, onların bu məntəqəyə oğurluq üçün gəlmədikləri qarşı tərəfə məlumdur. Bəs qarşı tərəf bunu haradan bilirdi? Bu barədə bir neçə ehtimal var: Ola bilsin ki, bu barədə məmurlara Yusif işarə etmişdir. Məntəqəyə daxil olan vaxt onların yoxlanıb seçilməsi ehtimalı da var. Bəli, xüsusi ilə böhranlı şəraitdə məmləkətə daxil və xaric olan heyətlər diqqətlə nəzarətdən keçirilməli, səfərdə pis məqsədin olmadığına əminlik yaranmalıdır.

◊ **Bildirişlər**

1. Müsbət keçmiş bəraət üçün nişanədir.
2. Misirin təhlükəsizlik xidməti güclü və bacarıqlı idi. Onlar bilirdilər ki, bu karvan fəsad üçün gəlməyib.
3. Oğurluq yer üzündəki fəsad nümunələrindəndir.

● Ayə 74:

---

1 “Mufrədat-Rağib”

﴿قَالُواْ فَمَا جَزَآؤُهُ إِن كُنتُمْ كَاذِبِينَ﴾

**“(Yusifin məmurları) dedilər: “Əgər yalan desəniz, onun cəzası nədir?”**

◊ **Nöqtələr**

● Belə görünür ki, bu sualı həzrət Yusif ünvanlamışdır. O bilirdi ki, qardaşları Kənan məntəqəsinin qanunlarına və həzrət Yəqubun baxışına əsasən nəzər bildirəcəklər.

◊ **Bildirişlər**

1. Günahkara cəza təyin edərkən onun vicdanını mühakiməyə çağırın.

● Ayə 75:

﴿قَالُواْ جَزَآؤُهُ مَن وُجِدَ فِي رَحْلِهِ فَهُوَ جَزَاؤُهُ كَذَلِكَ نَجْزِي الظَّالِمِينَ﴾

**“Dedilər: “Cəzası belədir ki, peymanə (qab) kimin yükündən tapılsa, o özü oğurluğun cəriməsidir. (Girov və ya qul kimi peymanə sahibinin ixtiyarına verilməlidir.) Biz (Kənan əhli) zalımı belə cəzalandırırıq.”**

◊ **Bildirişlər**

1. Bəzi qövmlər arasında oğurluğun cəzası oğrunun qul edilməsidir. “Məcməul-bəyan” təfsirində deyilir ki, oğrunun cəzası bir il qul qalmaqdır.

2. Qanunda istisna və ayrıseçkilik yoxdur. Oğurluq edən qul olacaq.

3. Günahı anlatmaq, qanunun və cəzanın bəyanı ilə müttəhimin etirazına cavab verin.

4. Dəlillər o qədər güclü olmalıdır ki, müttəhim özü ittihamı rahatlıqla qəbul etsin.

5. Toplum arasında xilafkar olması bütün toplumun xilafkar olmasını göstərmir.

6. Xarici ölkədə xilafa yol vermiş kəs öz ölkəsinin qanunları əsasında cəzalandırıla bilər.

7. Oğurluq sitəmkarlığın bariz nümunəsidir.

● Ayə 76:

﴿فَبَدَأَ بِأَوْعِيَتِهِمْ قَبْلَ وِعَاء أَخِيهِ ثُمَّ اسْتَخْرَجَهَا مِن وِعَاء أَخِيهِ كَذَلِكَ كِدْنَا لِيُوسُفَ مَا كَانَ لِيَأْخُذَ أَخَاهُ فِي دِينِ الْمَلِكِ إِلاَّ أَن يَشَاء اللّهُ نَرْفَعُ دَرَجَاتٍ مِّن نَّشَاء وَفَوْقَ كُلِّ ذِي عِلْمٍ عَلِيمٌ﴾

**“Qardaşının yükündən öncə o biri qardaşların yükünü axtarmağa başladı. Sonra qabı qardaşının yükündən çıxardı. Biz Yusif üçün bu sayaq tədbir tökdük. Çünki Misir şahının qanununa əsasən Yusif qardaşını tutub saxlaya bilməzdi. Yalnız Allahın istəyi ilə (bu iş mümkün idi). Biz**

**istədiyimiz kəsi yuxarı dərəcələrə qaldırarıq. Hər bir elm sahibinin fövqündə daha biliklisi var.”**

◊ **Nöqtələr**

● “Kəyd” sözü təkcə məhkum olunmuş mənasında yox, həm də plan mənasında işlədilmişdir.

● Axtarış zamanı Benyamin məsələdən xəbərdar olduğu üçün narahat deyildi. Macəranın mətnində onun etiraz etməsi haqqında məlumat yoxdur. Şübhə doğurmamaq üçün axtarış aparanlar başqalarının yükündən başladılar. Nəhayət, növbə Benyaminə çatdı və qab onun yükündən çıxdı. Öncəki qərara əsasən, o, Misirdə qalmalı oldu. Bu, ilahi plan idi. Yusif Misirin hazırkı qanununa əsasən oğrunu girov saxlaya bilməzdi.

◊ **Bildirişlər**

1. Təhlükəsizlik məmurları elə hərəkət etməlidirlər ki, şəkk-şübhə yaranmasın. Axtarış zamanı Benyamindən yox, başqalarından başladılar.)

2. İşçilərin fəaliyyətinə məsullar cavabdehdirlər. (Zahirdə Yusifin şəxsən axtarış aparmadığı fikri yaransa da, Quran onun axtarışa başladığını bildirir.)

3. Hakim ittiham olunanların malında axtarış apara bilər.

4. Düşüncə, tapıntı, çarə Allahın qeybi yardımlarındandır.

5. Yusifin planları Allah tərəfindən ilham olunurdu.

6. Benyaminin Yusif yanında olması Yusifin xeyrinə idi.

7. Hətta qeyri-ilahi hökumətlərdə qanuna hörmət və riayət lazımdır.

8. Başçılar da qanuna vəfalı olmalı, onu pozmamalıdırlar. (Yusif Misir qanunlarına əməl etdiyindən qardaşını əsassız yerə saxlamadı).

9. Mənəvi məqamların dərəcələri və mərtəbələri var.

10. Elm və agahlıq üstünlük səbəbidir.

11. Bəşəriyyətin elmi məhduddur.

● Ayə 77:

﴿قَالُواْ إِن يَسْرِقْ فَقَدْ سَرَقَ أَخٌ لَّهُ مِن قَبْلُ فَأَسَرَّهَا يُوسُفُ فِي نَفْسِهِ وَلَمْ يُبْدِهَا لَهُمْ قَالَ أَنتُمْ شَرٌّ مَّكَانًا وَاللّهُ أَعْلَمُ بِمَا تَصِفُونَ﴾

**“(Qardaşlar) dedilər: “Əgər o oğurluq etsə (təəccüblü deyil), çünki bundan öncə də onun qardaşı oğurluq edib.” Yusif (bu böhtanı) qəlbində saxladı. (Narahat olsa da, onların üzünə vurmadı.) Dedi: “Sizin mövqeyiniz daha pisdir. Allah sizin vəsfinizi (böhtanınızı) daha yaxşı bilir.”**

◊ **Bildirişlər**

1. Müttəhim ya ittihamı rədd edib “mən oğru deyiləm” deyir, ya da işinə don geyindirib “nə çox oğru” söyləyir.

2. Həsədçi insan hətta on illər ötəndən sonra da zərbə vura bilər.

3. Qardaşın xasiyyəti qardaşa təsir göstərir. (Ananın əxlaqı övlada təsirlidir. Benyamin və Yusif bir anadan dünyaya gəlmişdilər).

4. Məhəbbət olmayan yerdə ittiham tez qəbul olunur. (Yükdən qabın çıxması Benyaminin oğurluq etməsinə dəlil deyildi. Amma qardaşlar Benyamini sevmədiklərindən dərhal ittihamı qəbul etdilər.)

5. Məhəbbət olmayan yerdə kiçik səhv böyük günah kimi göstərilir.

6. Məqsədə çatmaq üçün acı sözlərə dözmək lazım gəlir.

7. Bəziləri özlərini qorumaq üçün başqalarına böhtan atırlar.

8. Geniş qəlb rəhbərlik rəmzidir.

9. Hislərə uyub sirri açmayaq. (Yusif sirri açmamaq xatirinə qardaşlarının oğurluq ittihamına cavab vermədi.)

10. İfşa etmək zərərli də ola bilər.

11. Qardaşların həsədi, yalançılığı və nahaq ittihamı Yusifin "sizin mövqeyiniz daha pisdir" sözlərinin səbəblərindən idi.

12. Benyamin qabı oğurlamış olsaydı belə, qardaşları ondan da pis idi. Çünki onlar öz qardaşlarını oğurlamışdırlar.

● Ayə 78:

﴿قَالُواْ يَا أَيُّهَا الْعَزِيزُ إِنَّ لَهُ أَبًا شَيْخًا كَبِيرًا فَخُذْ أَحَدَنَا مَكَانَهُ إِنَّا نَرَاكَ مِنَ الْمُحْسِنِينَ﴾

**"(Qardaşları) dedilər: Ey Əziz! Həqiqətən, onun qoca bir atası var. Onun yerinə bizdən birimizi saxla. Həqiqətən, sənin yaxşı əməl sahibi olduğunu görürük."**

◊ **Nöqtələr**

●Yusifin qardaşları Benyaminin saxlanacağına əmin olduqdan sonra atalarına verdikləri vəd və Yusifin başına gətirdikləri iş səbəbindən geriyə qayıtmağa çətinlik çəkdilər. Onlar dil tökərək Əzizin qəlbini ələ almağa çalışdılar.

◊ **Bildirişlər**

1. İlahi müqəddərat hər bir daş qəlbli və sitəmkar insanı müəyyən olmuş gündə diz çökdürər.

2. Nəfspərəstlərin xar etmək istədiyi təqvalıları Allah izzətə çatdırar.

3. Yusif hətta əvvəldə olduğu zaman onun xarakterindəki xeyirxahlıq parlaq görünürdü.

4. Dövrün eniş-yoxuşu və müxtəlif dəyişiklikləri yaxşı əməl sahiblərini dəyişmir. (Yusif bütün yerlərdə və bütün şəraitlərdə xeyir əməl sahibi kimi vəsf olunur.)

● Ayə 79:

﴿قَالَ مَعَاذَ اللّهِ أَن نَّأْخُذَ إِلاَّ مَن وَجَدْنَا مَتَاعَنَا عِندَهُ إِنَّآ إِذًا لَّظَالِمُونَ﴾

**"(Yusif) dedi: "Malımızı tapdığımız kəsdən başqasını tutmağımızdan Allaha pənah! Çünki bu halda, şübhəsiz, zalımlardan olarıq."**

◊ **Nöqtələr**

● Yusifin sözlərinə diqqət yetirdikdə məlum olur ki, Benyamini oğru kimi tanıtdırmaq istəmir. Yusif demir ki, Benyamin oğrudur. Deyir ki, itən şey onun yükündə idi.

● Əgər Yusif Benyaminin əvəzinə bir başqa qardaşı saxlasaydı, qardaşlar Benyaminlə bir oğru kimi rəftar edərdilər. Saxlanılan adam isə nahaq yerə saxlandığını düşünərdi.

◊ **Bildirişlər**

1. Qaydalara hamı əməl etməlidir, qanunu pozmaq hətta Əzizi-Misrə də qadağandır.
2. Xeyir əməl sahibi qanunu pozmaz.
3. Qazi hislərin təsiri altına düşməməlidir.
4. Mühakimə həssas işdir, bu işdə Allaha pənah aparmaq lazımdır.
5. Yusif iki məqamda Allaha pənah aparır: Züleyxa ilə tək qaldıqda və mühakimə yürüdüləndə.
6. Qanunu pozmaq zülmdür (onun-bunun istəyi ilə qanunu pozmaq olmaz).
7. Günahsız insan günahkarın yerinə cəzalandırılmamalıdır. O hətta özü razı olsa da, buna yol vermək olmaz.

● Ayə 80:

﴿فَلَمَّا اسْتَيْأَسُواْ مِنْهُ خَلَصُواْ نَجِيًّا قَالَ كَبِيرُهُمْ أَلَمْ تَعْلَمُواْ أَنَّ أَبَاكُمْ قَدْ أَخَذَ
عَلَيْكُم مَّوْثِقًا مِّنَ اللّهِ وَمِن قَبْلُ مَا فَرَّطتُمْ فِي يُوسُفَ فَلَنْ أَبْرَحَ الأَرْضَ حَتَّىَ
يَأْذَنَ لِي أَبِي أَوْ يَحْكُمَ اللّهُ لِي وَهُوَ خَيْرُ الْحَاكِمِينَ﴾

**“Yusifdən əllərini üzdükdən sonra pıçıldaşaraq kənara çəkildilər. Böyükləri dedi: “Bilmirsinizmi ki, atanız onu qaytarmağınız üçün sizdən ilahi əhd alıb? Bundan öncə də Yusifə münasibətdə səhlənkarlıq etmişdiniz. Atam mənə icazə verməmiş və ya Allah haqqımda hökm çıxarmamış buradan gedən deyiləm. O, hakimlərin ən üstünüdür.”**

◊ **Nöqtələr**

● “Xələsu” – yəni öz dəstələrini başqalarından ayırdılar. “Nəciyyən” – yəni pıçıldaşmağa başladılar. “Xələsu nəciyyən” – yəni nə edəcəklərini müəyyənləşdirmək üçün məhrəmanə məclis qurdular.

◊ **Bildirişlər**

1. Müraciət və istəklər sizi ilahi hökmlərin icrasından və qətiyyətdən uzaqlaşdırmasın.
2. İnsan günaha yol verdikdə başqaları ondan uzaqlaşır, hətta qohumluq əlaqələrini də nəzərə almırlar.

3.Bir gün həmin qardaşlar özlərinə güvənmiş halda məşvərət edirdilər ki, Yusifi aradan necə götürsünlər. Bu gün isə çarəsizlik içində pıçıldaşırdılar ki, Benyamini necə azad etsinlər.

4. Ata olmayan yerdə ailənin məsuliyyəti böyük qardaşın üzərinə düşür.

5. Ailədə və cəmiyyətdə yaş mövqeləri nəzərə alınmalıdır.

6. Acı hadisələr zamanı böyüklər daha çox məsuliyyət daşıyır və daha çox xəcalət çəkirlər.

7. Əhd-peymanı yerinə yetirmək lazımdır.

8. Ciddi və möhkəm müqavilələr sui-istifadə yolunu bağlayır.

9. Xəyanət və cinayət sağlam vicdanları ömrün sonunadək incidir.

10. Məqsədə çatmaq üçün tərifləmək qədim üsullardandır.

11. Qürbət xəcalətdən yaxşıdır.

12. Allaha münasibətdə xoşgüman olaq.

● Ayə 81:

﴿ارْجِعُواْ إِلَى أَبِيكُمْ فَقُولُواْ يَا أَبَانَا إِنَّ ابْنَكَ سَرَقَ وَمَا شَهِدْنَا إِلاَّ بِمَا عَلِمْنَا وَمَا كُنَّا لِلْغَيْبِ حَافِظِينَ﴾

**“(Böyük qardaş dedi: Mən burada qalıram, amma) siz atanızın yanına qayıdın, deyin ki, ey ata, həqiqətən, oğlun oğurluq edib və biz bildiyimizdən başqa bir şeyə şəhadət vermədik. Qeybi qoruyan (bilən) deyildik.”**

◊ **Bildirişlər**

1. İnsan özünü sevəndir. Çoxlu taxıl əldə etmək istədikdə dedilər: “Qardaşımızı bizimlə göndər.” Bu gün isə onu ittiham edirlər: “Sənin oğlun oğurluq edib.” Onlar “bizim qardaşımız” yox, “sənin oğlun” dedilər.

2. Bilmədən şəhadət vermək olmaz.

3. Müqavilələrdə öncədən görünməyən hadisələr üçün əlavələr qeyd olunmalıdır.

4. Öz üzrümüzü aşkar bəyan edək.

● Ayə 82:

﴿وَاسْأَلِ الْقَرْيَةَ الَّتِي كُنَّا فِيهَا وَالْعِيْرَ الَّتِي أَقْبَلْنَا فِيهَا وَإِنَّا لَصَادِقُونَ﴾

**“(Əgər sözümüzə inanmırsansa) olduğumuz kənddən, gəldiyimiz karvandan soruş. Şübhəsiz, biz doğru danışırıq.”**

◊ **Nöqtələr**

● “Qəryə” dedikdə təkcə kənd yox, yaşayış məntəqəsi, inzibati ərazi də nəzərdə tutula bilər. “Qəryə” həm şəhər, həm də kənd ola bilər. “Vəsəlil-qəryə”, yəni “qəryə” əhlindən soruş.

● Ərzaq daşıyan karvana “iyr” deyilir.

● Yusifin qardaşları atalarına Yusifi canavarın yeməsi haqqında danışarkən əllərində dəlil yox idi. Amma bu əhvalatda iki dəlil göstərdilər: Misir əhlindən sual və karvan əhlindən sual. Ötən macəranın nəqlindəki "ləv" sözü şəkk-şübhə nişanəsidir. Bu səhnənin bəyanında isə qətiyyət bildirən "innə" hissəsindən istifadə olunur.

◊ **Bildirişlər**

1. Mənfi keçmiş insanın sözünün qəbul olunmasında ona ömür boyu problem yaradır.

2. İddianın sübutu üçün gözü ilə görən şahidin məlumatı daha mötəbərdir.

3. Böyük bir cəmiyyətin yalan üçün ümumi razılığa gəlməsi mümkünsüzdür.

● Ayə 83:

﴿قَالَ بَلْ سَوَّلَتْ لَكُمْ أَنفُسُكُمْ أَمْرًا فَصَبْرٌ جَمِيلٌ عَسَى اللّهُ أَن يَأْتِيَنِي بِهِمْ
جَمِيعًا إِنَّهُ هُوَ الْعَلِيمُ الْحَكِيمُ﴾

**"(Yəqub) dedi: (Belə deyil,) əslində nəfsiniz bu məsələni sizin gözünüzdə bəzəmişdir. Gözəl səbir (lazımdır), ümid var ki, Allah bütün qardaşları birlikdə mənim yanıma gətirsin. Çünki O, həqiqətən agahdır və hikmət sahibidir."**

◊ **Nöqtələr**

● Qardaşları Yusifin qana bulaşdırılmış köynəyini zahirdə qəmgin olan halda atalarının yanına gətirdikləri vaxt belə dedilər: "Yusifi canavar yedi." Həzrət Yəqub buyurdu: "Nəfsiniz bu işi gözünüzdə gözəlləşdirmişdir, mən gözəl səbir yolunu tuturam." Həzrət Yəqub iki sevimli övladından ayrıldığı vaxt da həmin cümləni təkrarlayır. Amma birinci macərada Yusifin qardaşları xəyanət etmişdisə, ikinci macərada xəyanət yox idi. Bəs nə üçün Yəqub hər iki halda eyni tərzdə danışır?

"Əl-Mizan" təfsirində belə deyilir: "Yəqub" demək istəyir ki, bu iki qardaşın uzaqlığı da sizin Yusiflə bağlı əvvəlki hərəkətinizin davamıdır. Yəni bütün bu səhnələr əvvəlki çirkin işdən törənib. Yəqubun məqsədi bu ola bilər ki, özünü təqsirsiz bilən qardaşlar əslində təqsirkardırlar. Çünki: Nə üçün qabın Benyaminin yükündən çıxdığını gördükdə onu oğru kimi tanıdılar? Bəlkə başqa biri bu qabı həmin yükə qoyubmuş? Nə üçün tez qayıdıb gəldilər? Onlar qalıb məsələni araşdırmalı idilər. Nə üçün oğurluğa cəza kimi girov götürülməsinə razılaşdılar?[1]

"Əl-Mizan" təfsirində deyilənlər daha münasibdir. Çünki qabın Benyaminin yükündə tapılması bütün xalqın onu oğru saymasına səbəb olmuşdu. Böyük qardaş isə məsələni araşdırmaq üçün Misirdə qalmışdı. Girov

---

1 "Təfsire-Nümunə"

məsələsinə gəldikdə isə həmin məntəqədə uyğun günahın cəzası girov idi. Deməmk, üç məsələdən heç birində nəfsin rolu olmayıb.

● Bəzən səbri doğuran çarəsizlik olur. Necə ki, cəhənnəm əhli deyir: “Səbir etməyin bizim qurtuluşumuz üçün təsiri yoxdur.” Bəzən səbir agah şəkildə Allahın razılığına təslimçilik məqsədi ilə yaranır. Cihad meydanında səbir bu qəbildəndir. Dünyada səbir əslində zöhddür. Günah qarşısında səbir təqvadır. Şəhvət qarşısında səbir iffətdir. Haram mal qarşısında səbr pəhrizdir.

● İnsan bəzən şeytanın təsirindən, bəzən dünya zinətinə bağlılıqdan çirkinliyi gözəl görür. Bəzən də bu işin səbəbi nəfs olur.[1]

◊ **Bildirişlər**

1. Nəfs günaha don geyindirmək üçün çirkin işləri insana gözəl göstərir.
2. Səbir ilahi insanların səciyyəsidir. Allaha təslimçilik və Onun razılığına xilaf sözlə müşayiət olunmayan səbir isə gözəl səbirdir.
3. Heç vaxt Allahın qüdrətindən ümidimizi üzməyək.
4. Yəqub üç övladının (Yusif, Benyamin, böyük qardaş) sağ olduğuna əmin idi və onlarla görüşə ümid edirdi.
5. Allahın qüdrəti üçün təzə və ya köhnə müşkülün həlli eynidir. Allah qardaşları bir yerə toplamağa qadirdir.
6. Mömin insan acı hadisələri Allahın hikməti kimi qəbul edir.
7. Allahın elm və hikmət əsasında iş görməsinə iman və diqqət insanı çətin hadisələr qarşısında səbirli və dözümlü edir.

● Ayə 84:

﴿وَتَوَلَّى عَنْهُمْ وَقَالَ يَا أَسَفَى عَلَى يُوسُفَ وَابْيَضَّتْ عَيْنَاهُ مِنَ الْحُزْنِ فَهُوَ كَظِيمٌ﴾

**“Yəqub övladlarından üz döndərdi və dedi: “Heyif Yusifdən.” Öz səsini uddu, dərddən iki gözü ağardı (kor oldu).”**

◊ **Nöqtələr**

● “Əsəf” dedikdə qəzəblə müşayiət olunan qəm-qüssə nəzərdə tutulur. Yəqubun gözündə yaş, dilində “ya əsəfa”, qəlbində qəm vardı.

● İmam Baqir (ə) buyurur: “Atam Əli ibn Hüseyn (ə) Kərbəla hadisəsindən ötən 20 ildə hər münasibətlə ağlayırdı. Bu göz yaşlarının səbəbini soruşdular. Buyurdu: “Yəqubun 11 övladı vardı. Bir oğlu sağ ola-ola uzaq düşdükdə ağlamaqdan gözlərini itirdi. Mən isə atam, qardaşlarım, Peyğəmbər ailəsindən 17 nəfərin şəhid olduğunu gözümlə görmüşəm. Axı necə ağlamayım?”

◊ **Bildirişlər**

1. Həsəd bir ömür təhqirlə müşayiət olunur.
2. Qardaşlar Yusifi aradan götürməklə atalarının məhəbbətinə sahib olmaq istəyirdilər, amma həsəd onları atalarının qəzəbinə düçar etdi.

---

1 “Ənfal”, 48; “Yunus”, 24

3. Yəqub bilirdi ki, o biri oğluna zülm olunmayıb. Yusifə zülm olunmasına heyfsilənirdi.

4. Qəm-qüssə və göz yaşı bəzən korluğa səbəb olur.

5. Göz yaşı, yanğı və eşq üçün mərifətə, ünvanı tanımağa ehtiyac var. (Yəqub Yusifi tanıdığı üçün dərddən kor oldu.)

6. Müsibətin əhəmiyyəti müsibət görən insanın şəxsiyyətindən asılıdır. (Yusifə olunan zülm başqalarına olunan zülmdən fərqlənir. Ayədə digər iki qardaşın yox, Yusifin adı çəkilir.)

7. Əzizlərdən uzaqlığa görə ağlamaq, qəm-qüssə çəkmək olar.

8. İnsanın səbrinin həddi var, bir gün səbir kasası daşa bilər.

9. Qəzəbi udmaq ilahi insanların səciyyəsi və bəyənilmiş işdir.

10. Qəm-qüssənin hirsi udmaq və səbirlə ziddiyyəti yoxdur.

● Ayə 85:

﴿قَالُواْ تَاالله تَفْتَأُ تَذْكُرُ يُوسُفَ حَتَّى تَكُونَ حَرَضًا أَوْ تَكُونَ مِنَ الْهَالِكِينَ﴾

**“(Yəqubun övladları atalarına) dedilər: “And olsun Allaha, sən daim Yusifi düşünürsən. Axır xəstələnib əldən düşəcək, məhv olub gedəcəksən.”**

◊ **Nöqtələr**

● “Hərəz” eşq və ya qəm-qüssənin üzdüyü insana deyilir.

◊ **Bildirişlər**

1. Yusif kimi insanlar heç zaman unudulmamalıdır. (Allahın övliyaları Nüdbə duasında dövrün Yusifini çağırıb ağlayırlar.)

2. Nə qədər sevdiyinizi bilmək istəsəniz, onu nə qədər xatırladığınızı nəzərdən keçirin.

3. Yusifi tanıyan elə yanır ki, adi insanlar onu dərk etmirlər.

4. Ruhi və psixoloji məsələlər cismə təsir göstərir. (Ayrılıq insanı öldürə bilər, müsibət isə daha ağırdır.)

5. Atanın məhəbbəti adi bağlılıqlardan fərqlənir.

● Ayə 86:

﴿قَالَ إِنَّمَا أَشْكُو بَثِّي وَحُزْنِي إِلَى اللّهِ وَأَعْلَمُ مِنَ اللّهِ مَا لاَ تَعْلَمُونَ﴾

**“(Yəqub) dedi: “Mən nalə və hüznümlə yalnız Allaha şikayət edirəm və Allahdan (Onun lütfündən) sizin bilmədiyinizi bilirəm.”**

◊ **Nöqtələr**

● “Bəss” dedikdə şiddətli hüzn nəzərdə tutulur. Belə bir hüznün şiddətindən sanki hüzn sahibi onu bəyan edə bilmir.

● Həzrət Adəm öz işinə görə Allah dərgahına nalə etdi[1], həzrət Əyyub öz xəstəliklərinə[2], həzrət Musa yoxsulluğuna[3], həzrət Yəqub isə övladlarının fərağına görə Allaha üz tutdu.

◊ **Bildirişlər**

1. İnsanın psixoloji durumuna mənfi təsir göstərən, sağlamlığını təhlükəyə atan sükut və ya onun insanlıq məqamını alçaldan haqq qarşısında ah-nalə məzəmmət olunur. Allaha üz tutub ah-nalə çəkməyin isə eybi yoxdur.

2. Müvəhhid insan öz dərdini yalnız Allaha ərz edir.

Əl açmalı olsan üz tut Allaha,
Ondan başqa kimdir kərəm sahibi?!
Eməti tükənməz, kərəmi sonsuz,
Əliboş qaytarmaz kimsəni Rəbbi.

3. Zahirə aldanan insanlar hadisələri rahatlıqla ötürür. Dərin baxışlı insanlar isə hadisələrin qiyamətədək davamını görürlər.

4. Başqaları üçün qaranlıq qalan bir sıra məsələlər Yəquba aşkar idi. Yəqub Yusifin sağ olmasından, Allahla bağlı həqiqətlərdən və onun sifətlərindən agah idi.

5. “Ma la tə`ləmun” – yəni “siz bilmədiyinizi”cümləsi Yusifin Yəqub tərəfindən təbir olunan yuxusuna işarə ola bilər.

● Ayə 87:

﴿يَا بَنِيَّ اذْهَبُواْ فَتَحَسَّسُواْ مِن يُوسُفَ وَأَخِيهِ وَلاَ تَيْأَسُواْ مِن رَّوْحِ اللّهِ إِنَّهُ لاَ يَيْأَسُ مِن رَّوْحِ اللّهِ إِلاَّ الْقَوْمُ الْكَافِرُونَ﴾

**“Ey oğlanlarım! (Növbəti dəfə Misirə) gedin və Yusiflə qardaşını axtarın. Allahın rəhmətindən ümidinizi üzməyin. Həqiqət budur ki, kafir qövmdən qeyrisi Allahın rəhmətindən ümidini üzməz.”**

◊ **Nöqtələr**

● “Təhəssəs” dedikdə hiss yolu ilə bir şeyi axtarmaq nəzərdə tutulur. “Təcəssəs” pislikləri axtarmaq, “təhəssəs” yaxşılıqları axtarmaqdır.

● Rağibin təbirincə, “rəvh” və “ruh” can, ruh mənasını bildirir. Amma “rəvh” sözü bəzən qurtuluş və rəhmət mənasında işlədilir. Müşküllər, düyünlər açıldıqca insana sanki yeni bir ruh üfürülür.

“Tibyan” təfsirində deyilir: “Ruh” sözü “rih” sözündəndir. Xəfif meh insanı rahatlaşdırdığı kimi, ilahi rəhmət də insanı şadlandırır.

● Rəvayətlərə əsasən Allahın rəhmətindən naümid olmaq böyük (kəbirə) günahlardandır[4].

---

1 Bax: “Əraf”, 23
2 Bax: “Ənbiya”, 83
3 Bax: “Qəsəs”, 24
4 “Mən la yəhzuruhul-fəqih”

◊ **Bildirişlər**

1. Ata öz övladları ilə rabitəni birdəfəlik kəsə bilməz.

2. Mərifət əldə etmək, bir şeyi tanımaq üçün hərəkətə ehtiyac var.

3. İlahi lütfün əldə olunması ilə tənbəllik bir araya sığmır.

4. Allahın övliyaları həm özləri məyus olmur, həm də başqalarını ümidsizlikdən çəkindirirlər.

5. Ümidsizlik küfr nişanəsidir. Məyus olmuş insan Allahın qüdrətinin başa çatdığını düşünür.

● Ayə 88:

﴿فَلَمَّا دَخَلُواْ عَلَيْهِ قَالُواْ يَا أَيُّهَا الْعَزِيزُ مَسَّنَا وَأَهْلَنَا الضُّرُّ وَجِئْنَا بِبِضَاعَةٍ مُّزْجَاةٍ
فَأَوْفِ لَنَا الْكَيْلَ وَتَصَدَّقْ عَلَيْنَآ إِنَّ اللّهَ يَجْزِي الْمُتَصَدِّقِينَ﴾

**“(Növbəti dəfə) Yusifin yanına gəldikləri vaxt dedilər: “Ey Əziz! Qıtlıq bizi və ailəmizi ağuşuna alıb və (buğda almaq üçün) az (əvəz) mal gətirmişik. (Buna baxmayaraq) bizim payımızı bütöv ver və bizə bağışla. Çünki Allah kərəm və bəxşiş sahiblərinə mükafat verir.”**

◊ **Nöqtələr**

● “Bizaət” dedikdə dəyər, əvəz, pul kimi ödənən mal nəzərdə tutulur. “Əzca” kökündən olan “muzcat” sözü rədd etmək mənasını bildirir. Satıcılar adətən az ödənişi, qiyməti qaytarmadığından, bu ödənc “bizaətin muzcat” adlandırırlar.

● Bəzi təfsirçilər deyirlər: Ayədə Benyaminin geri qaytarılması istəyi “təsəddəq ələyna” (“bizə bağışla”) cümləsi ilə ifadə olunmuşdur.

● Rəvayətdə deyilir: “Yəqub Yusifə yazdığı məktubda onun haqqında xoş sözlər deyir, Kənandakı qıtlıq haqqında danışır, Benyaminin azadlığını istəyir, övladının oğurluq etmədiyini bildirir. O bu məktubu qardaşları vasitəsi ilə Yusifə göndərir. Yusif qardaşlarının yanında məktubu oxudu, öpdü və gözlərinin üstünə qoydu. Onun göz yaşları libasının üstünə düşürdü. Hələ ki, Yusifi tanımayan qardaşları heyrətə gəlmişdilər. Atalarına qarşı belə bir ehtiramın səbəbi nə idi? Onların qəlbində yavaş-yavaş ümid işığı közərirdi. Yusifin gülüşünü gördükdə, “olmaya bu Yusifdir” deyə düşündülər.[1]

◊ **Bildirişlər**

1. Yəqub üçün mühüm olan Yusif idi. Övladlarını isə buğda düşündürürdü.

2. Təhqir edənlər bir gün təhqir olunur. Bir gün gücü ilə öyünən, “biz güclüyük, qardaşımız oğrudur, atamız aşkar azğınlıqdadır” deyən övladlar əskilərək ağız açdılar.

---

1 “Təfsire-Nümunə”

3. Kömək istəyərkən xüsusi qaydalara əməl olunmalıdır. Yardım göstərənin haqqında xoş söz, insanın öz halını və ehtiyacını bəyan etməsi, büdcə azlığı, yardım göstərəcək şəxsdə maraq oyatmaq, yoxsulluq və ehtiyac:

*Şir dönüb olursa bir tülkü məzac,*
*Səbəb ehtiyacdır, yalnız ehtiyac.*

● Ayə 89:

﴿قَالَ هَلْ عَلِمْتُم مَّا فَعَلْتُم بِيُوسُفَ وَأَخِيهِ إِذْ أَنتُمْ جَاهِلُونَ﴾

**“(Yusif) dedi: “Bildinizmi nadan olduğunuz vaxt Yusif və onun qardaşı ilə nə etdiniz?!”**

◊ **Nöqtələr**

● Bir sualda həm müsbət, həm də mənfi məqsədlər ola bilər. Yusif öz qardaşlarına onların əməllərini xatırlatdı. Mümkündür ki, o, macəradan xəbərdar olduğunu bildirmək istəyirdi. Bu sual başqa məqsədlə də ünvanlana bilərdi. Yəni “siz pislik etdiniz, tövbə edin.” Yusif öz sualı ilə məclisdə iştirak edən Benyamini sakitləşdirmək istəyə bilərdi. Yusifin məqsədi qardaşlarının məzəmməti də ola bilər. O öz sualı ilə anlatmaq istəyə bilər ki, bir bu qədər cinayətdən sonra bəxşiş gözləmək yersizdir.

Yuxarıdakı ehtimallardan ilk üç ehtimal Yusifin şəxsiyyətinə uyğundur. Yusifin qardaşlarını məzəmmət edərək öz izzətini göstərmək istəməsi onun kəraməti ilə bir araya sığmır. O özünə qarşı oğurluq ittihamını eşitsə də bu ittihama cavab vermir, sadəcə, “siz daha pis mövqedəsiniz” deyir.

● Cəhalət təkcə bilməmək yox, nəfs istəklərinin qələbəsi, bir növ diqqətsizlikdir. Günahkar insan nə qədər alim olsa da, cahildir. Çünki diqqətsizdir və cəhənnəm odunu satın alır.

◊ **Bildirişlər**

1. Xəta və günahların qeyd dəftəri bir gün açılacaq.
2. Böyük qəlbli insanlar qarşı tərəfin gördüyü xilaf işin xırdalıqlarına varmırlar.
3. Qüdrətə çatdıqda məzlumları yaddan çıxarmayın.
4. Geniş qəlblilik odur ki, xətakara üzr yolu göstərilsin.

● Ayə 90:

﴿قَالُواْ أَإِنَّكَ لَأَنتَ يُوسُفُ قَالَ أَنَاْ يُوسُفُ وَهَـذَا أَخِي قَدْ مَنَّ اللّهُ عَلَيْنَا إِنَّهُ مَن يَتَّقِ وَيِصْبِرْ فَإِنَّ اللّهَ لاَ يُضِيعُ أَجْرَ الْمُحْسِنِينَ﴾

**“Yoxsa sən Yusifsən? Dedi: Mən Yusifəm, bu da mənim qardaşımdır. Həqiqətən, Allah bizə minnət qoydu. Çünki hər kəs təqva və səbir yolunu seçsə, həqiqətən, Allah xeyir iş görənlərin mükafatını zay etməz.”**

◊ **Nöqtələr**

● Yəqubun məktubunu oxuyarkən Əzizi-Misrin ağlaması vaxt ötdükcə qardaşları daha çox təəccübləndirirdi. Əziz Yusifin macərasını haradan bilirdi? Doğrusu, onun qiyafəsi Yusifə çox oxşayırdı. Yoxsa o Yusif özüdür? Düşündülər ki, özündən soruşsaq yaxşıdır. Görəsən Yusif olmasa bizi divanə saymazlarmı? Əgər Yusif olsa xəcalətimizdən nə edərik? Bu həyəcan qardaşların bütün vücudunu bürümüşdü. Nəhayət, sükutu "sən Yusifsənmi?" sualı ilə pozdular.

Həmin məqamda hansı səhnə yarandı? Bu səhnədəki xəcaləti, şadlığı, göz yaşını, qucaqlaşmanı hansı rəssam təsvir edə bilər? Bunu yalnız Allah bilir!

● Xalqın inkişaf və tərbiyəsi üçün stimul yaratmaq, onların suallarını cavablandırmaq lazımdır. Yusifin qardaşlarında daim axtarış və sual vermək həvəsi vardı. Soruşurdular ki, nə üçün Benyaminin gətirilməsi israr olunub? Nə üçün qab onların yükündə tapıldı? Nə üçün pulumuz qaytarıldı? Bu şəxs Yusifin əhvalatını haradan bilir? Yoxsa bir daha bizə pay verməyəcək? Bütün bu həyəcanlar zirvəyə çatdığı vaxt soruşdular: "Yoxsa sən Yusifsən?" Yusif buyurdu: "Bəli..."

● İmam Sadiq (ə) buyurur: "Həqiqətən, həzrət Mehdidə (ə) Yusif sünnəsi var... Allah ona özünü tanıtdırmağa izn verməyənədək xalq o həzrəti tanımaz."[1]

◊ **Bildirişlər**

1. Dövrün ötməsi, acılı-şirinli hadisələr rabitələri və bilikləri dəyişir.
2. Allahın övliyaları ixtiyarlarında olan bütün nemətləri Allahdan bilirlər.
3. Səbir və təqvanın mükafatı dünyada da verilir.
4. Yalnız hadisələr, həsəd, şəhvət, təhqir, zindan, mənfi təbliğat sınağından keçmiş insanlar hakim olmağa layiqdirlər.
5. Münasib məqamlardan təbliğ üçün istifadə edin. (Qardaşlar xəcalətli vəziyyətə düşdükdə və Yusifin sözlərini qəbul etməyə hazır olduqda Yusif onları dəvət etdi.)
6. Allahın lütfü hikmət və ölçü əsasındadır.
7. Səbir və təqva izzət zəminidir.
8. Təqva və səbir xeyir əməl sahiblərinin xüsusiyyətlərindəndir.
9. Salehlərin hakimiyyəti ilahi sünnətlərdən biridir.

● Ayə 91:

﴿قَالُواْ تَاللّهِ لَقَدْ آثَرَكَ اللّهُ عَلَيْنَا وَإِن كُنَّا لَخَاطِئِينَ﴾

**"(Qardaşlar) dedilər: "And olsun Allaha, Allah səni bizdən üstün edib, həqiqətən, biz xətakar olmuşuq."**

◊ **Nöqtələr**

● "İsar" dedikdə insanın başqalarını özündən üstün tutması başa düşülür. Yusifin qardaşları yanlış təfəkkür səbəbindən xilaf işə əl atdılar. Onlar Yusifi

1 "Bihar", c. 12, s. 283

quyuya atmaq qərarına gəldilər. Allah da Öz növbəsində onları elə bir sıxıntıya saldı ki, qarınlarını doyurmaq üçün ağız açdılar. Nəhayət, etiraf etdilər ki, planları zaya çıxıb. Sonra həmin yanlış təfəkkür gerçəkliyin qəbulu ilə əvəz oldu.

● Yusifin qardaşları bir neçə dəfə "təllah" formasında and içmişdilər:

1. «And olsun Allaha ("təllah"), özünüz bilirsiniz ki, biz sizin məmləkətinizə fəsad və oğurluq üçün gəlməmişik.»

2. Atalarına dedilər: "And olsun Allaha ("təllah"), sən daim Yusif-Yusif deyirsən".

3. "Atacan, and olsun Allaha ("təllahi"), sən Yusifə ifrat bağlanaraq azğınlığa düçar olmusan".

4. "Yusifə dedilər: "And olsun Allaha ("təllahi"), Allah səni bizdən üstün edib."

◊ **Bildirişlər**

1. Əgər həsəd səbəbindən başqalarının kamilliyini, üstünlüyünü etiraf etməsək, nə vaxtsa məcbur qalıb həmin həqiqətləri etiraf edəsiyik.

2. Allahın iradəsi qarşısında dayanmaq olmaz.

3. Qüdrətli vaxtımızda özümüzü elə aparmayaq ki, zəif vaxtımızda xəcalət çəkək.

4. Günahın etirafı insanın bağışlanması üçün zəminə yaradır.

● Ayə 92:

﴿قَالَ لاَ تَثْرَيبَ عَلَيْكُمُ الْيَوْمَ يَغْفِرُ اللّهُ لَكُمْ وَهُوَ أَرْحَمُ الرَّاحِمِينَ﴾

**"(Yusif ) dedi: Bu gün sizə heç bir məzəmmət yoxdur. Allah sizi bağışlayar. O, mehribanların ən mehribanıdır."**

◊ **Nöqtələr**

● "Təsrib" məzəmmət, günah saymaq və çoxlu danlaq mənalarını bildirir.

● Məkkənin fəthi günü müşriklər Kəbəyə sığınmışdılar. Ömər dedi: "Biz bu gün intiqam alacağıq." Peyğəmbər (s) buyurdu: "Bu gün mərhəmət günüdür." Sonra müşriklərdən soruşdu: "Bu gün mənim haqqımda fikriniz nədir?" Dedilər: "Xeyirdir, sən bizim kərəm sahibi olan qardaşımızsan."

Həzrət Peyğəmbər (s) buyurdu: "Bugünkü sözüm Yusifin sözüdür." Ömər dedi: "Mən öz sözümə görə peşmanam".[1]

● Həzrət Əli (ə) buyurmuşdur: "Düşmənə qalib gələndə qələbənin şükrü olaraq düşməni bağışla."[2]

● Hədisdə oxuyuruq: «Gənc insanın qəlbi daha kövrək olur. (Sonra bu ayəni oxuyub buyurdu): Yusif qardaşlarından gənc olduğu üçün onları dərhal bağışladı.»[3]

---

1 "Təfsire-Qurtubi"
2 "Nəhcül-bəlağə", h. 11
3 "Bihar", c. 12, s. 28

◊ **Bildirişlər**

1. Geniş qəlb rəyasət vasitəsidir.

2. Günaha yol vermiş insan etiraf etdikdə, onu utandırmayın, üzrünü qəbul edin.

3. Birini bağışlayanda bunu elan edin ki, başqaları da onu məzəmmət etməsin.

4. Yusif günahkar qardaşlarının tərbiyəsinə başladı. Biz də belə edək.

5. İnsanları dərhal bağışlamaq lazımdır.

6. Qüdrətə çatan zaman bağışlamaq övliyalıq səciyyəsidir.

7. Qəlbigenişliyi Yusifdən öyrənək. O həm öz haqqını bağışladı, həm də Allahdan qarşı tərəfin bağışlanmasını dilədi.

8.Bəndə bağışlayan yerdə mehribanların ən mehribanı olan Allahdan əfvdən başqa nə gözləmək olar?!

9. Peşman olanları bağışlamaq ilahi işdir.

10. Hətta illər uzunu Yusif və Yəqubu əziyyətə salanlar Allah tərəfindən bağışlana bilir.

11. Məzlumun zalımı bağışlaması zalımın Allah tərəfindən bağışlanması üçün zəmin yaradır. Amma həmin insanların bağışlanmasında Allahın mərhəməti də şərtdir.

12. Allahın "ərhəmər-rahimin" adı ilə vəsfi dua və tövbə qaydalarındandır.

● Ayə 93:

﴿اذْهَبُواْ بِقَمِيصِي هَذَا فَأَلْقُوهُ عَلَى وَجْهِ أَبِي يَأْتِ بَصِيرًا وَأْتُونِي بِأَهْلِكُمْ أَجْمَعِينَ﴾

**"(Yusif dedi:) Mənim bu köynəyimi aparın və onu atamın üzünə çəkin ki, gözü açılsın. Kiminiz varsa mənim yanıma gətirin."**

◊ **Nöqtələr**

● Həzrət Yusifin əhvalatından bir neçə yerdə onun köynəyinə işarə olunur:

a) Qardaşlar Yusifin köynəyini yalançı qana bulayıb atalarının yanına apardılar ki, «Yusifi canavar yedi.»

b) Köynək arxadan cırıldı və günahın açılmasına səbəb oldu.

v) Köynək gözü görməyən Yəqubun sağalmasına səbəb oldu.

● Yusifə aid köynək gözü görməyənin gözünü açırsa, demək, Allah övliyalarının qəbirləri, divarları, qapıları, oradakı parçalar və bütün başqa şeylər şəfa səbəbi ola bilər.

● Yusiflə tanışlıq mərhələləri, Yusifdən üzr istənilməsi və onun əfvi, Allahdan bağışlanma mövzuları nəzərdən keçirildi. Amma hələ ki, qardaşlarının günahı səbəbindən kor olmuş ata mövzusu qarşıdadır. Bu ayədə həmin müşkülün həlli yolu göstərilir.

Ayədə Yusifin dilindən deyilir ki, «mənim qana batırılmış köynəyimi atamın yanına aparan kəs köynəyimi aparsın, atamın qəlbini narahat etdiyi kimi, bu köynəyi aparmaqla onu sevindirsin.»

● Rəvayətdə deyilir: Yusif qardaşlarını hər səhər-axşam süfrəsində əyləşdirirdi. Onlar xəcalət çəkirdilər. Qardaşlar onlar üçün ayrıca süfrə salınmasını istədilər. Bildirdilər ki, sənin çöhrən bizi utandırır! Yusif belə cavab verdi: "Amma mən sizinlə birlikdə olmaqdan, bir süfrədə təam yeməkdən iftixar duyuram. Bir vaxt xalq məni görəndə deyərdi ki, 20 dirhəmlik qulu izzətə çatdıran Allah pakdır. Amma bu gün sizin varlığınız mənim üçün izzətdir. Qoy xalq bilsin ki, mən əsl-nəsəbsiz deyiləm. Mənim sizin kimi qardaşlarım, Yəqub kimi atam var. Amma qərib düşmüşəm."[1]

● Nəql edirlər ki, müalicə üçün İraqdan Tehrana gələn mərhum Ayətullah-üzma Hacı Şeyx Əbdül-Kərim Hairi Yəzdi bir gecə Qumda qalır. Görüşünə gələnlər ondan xahiş edirlər ki, öz elmi hövzəsini İraqdan Quma köçürsün. Çünki Qum Əhli-beyt (ə) hərəmi, xanım Məsumənin (s) dəfn olunduğu torpaqdır. Alim istixarə edir və bu ayə gəlir: "Kiminiz varsa, mənim yanıma gətirin."

◊ **Bildirişlər**

1. Allahın övliyalarına aid olan əşyalar təbərrük ola bilər. (Yusifin köynəyi atasının görməyən gözlərini açdı.)

2. Nəfs istəkləri ilə mübarizə aparıb qalib gələn insanın hətta libası da müqəddəs ola bilər.

3. Xeyir tapmaq üçün müqəddəs əşyanı görmək kifayət deyil, ona toxunmaq lazımdır.

4. Qəm-qüssə və şadlığın gözün işığına təsiri var. Ola bilsin ki, bu səbəbdən yaxşı övlad "qürrətul-əyn", yəni «gözün nuru» adlandırılmışdır. (Əlbəttə ki, belə bir qənaət məsələyə ecaz yox, təbii yolla yanaşmadan hasil olmur.)

5. Vüsal qocanın qəlbini dirildir, korun gözünə işıq verir.

6. Möcüzə və kəramət verilməsində yaş şərt deyil. (Oğulun köynəyi atanın gözlərinə şəfa verir.)

7. Yusif qeyb elminə malik idi. Əks-təqdirdə, köynəyin tutulmuş gözə şəfa verəcəyini bilməzdi.

8. Allah bir gün Yəqubu qəmləndirən köynəyi sonralar onun üçün şadlıq səbəbi qərar verdi.

9. İmkanlı övladlar imkansız qohumlarına, xüsusi ilə yaşlı ata-analarına himayə göstərsinlər.

10. İctimai şərait əməli olaraq vəzifəyə təsir göstərir.

(Həmin şəraitdə Yusifin yaxınlarına yardım göstərməsi üçün onlar Misrə gəlməli idilər.)

11. Başqalarının haqlarını pozmadan yaxınlara yardım etmək lazımdır.

---

1 "Təfsire-Kəbir"

12. Yerdəyişmə və hicrətin bir çox təsirləri var. O cümlədən: acı xatirələr aradan götürülür.

13. Ailə üzvləri və yaxın insanlar imkan olan halda bir-birinə yaxın yaşasınlar.

14. Yusif o qədər mərhəmətli idi ki, qardaşları hövsələdən çıxırdı. Nəhayət, onu quyuya atdılar. Amma Yusif bütün qardaşlarını və ailəsini yanına dəvət etdi.

15. Qohumlar xətaya yol versələr də onlarla rabitə kəsilməməlidir.

16. Ayrılıq əzabı çəkmiş insanlar üçün rifah zikrində olmaq lazımdır.

17. Ən yaxşı lütf hamıya şamil olan lütfdür.

● Ayə 94:

﴿وَلَمَّا فَصَلَتِ الْعِيرُ قَالَ أَبُوهُمْ إِنِّي لَأَجِدُ رِيحَ يُوسُفَ لَوْلاَ أَن تُفَنِّدُونِ﴾

**"Elə ki, karvan yola düşdü, ataları dedi: "Həqiqətən Yusifin qoxusunu duyuram. Əlbəttə ki, əgər məni yüngülbeyin saymasanız!"**

◊ **Nöqtələr**

● "Fəsələt" dedikdə aralanmaq nəzərdə tutulur. "Fəsələtil-iyru" – yəni karvan Misirdən aralandı. "Fənəd" kökündən olan "tufənnidun" sözü düşüncə zəifliyi mənasını bildirir.

● Yəqub narahat idi ki, ətrafındakılar onu yüngülbeyin sayarlar. Amma çox təəssüf ki, İslam Peyğəmbərinin (s) ətrafında olanların bəziləri ona bu sayaq eyb tutdular. Həzrət Peyğəmbər (s) ölüm ayağında ikən kağız-qələm istədi. O, müsəlmanları gələcəkdə mümkün azğınlıqdan qoruyacaq tapşırıqlar vermək istəyirdi. Yanındakı səhabələrdən biri dedi: "Peyğəmbər (s) sayıqlayır." Beləcə, ona yazmaq imkanı verilmədi.

● **Sual:** Necə olur ki, yalnız Yəqub Yusifin qoxusunu duyur?

**Cavab:** Bir çox işlər peyğəmbərlər üçün mümkün olduğu halda bizim üçün mümkün deyil. Məsələn, peyğəmbər vəhyi dərk edir, biz isə yox. Xəndək döyüşü zamanı müsəlmanlar xəndək qazarkən Peyğəmbər (s) külüngdən qopan qığılcımı görüb buyurdu: "Bu qığılcımda imperatorların süqutunu gördüm." Amma bəzi zəif imanlı müsəlmanlar dedilər: "Peyğəmbər (s) qorxudan şəhər ətrafında xəndək qazır, amma sonra hər çınqıdan sonra bir hökumətin süqutunu vəd edir!"

● Mərhum Xoyi "Nəhcül-bəlağə"nin şərhində deyir: Məsum imamlar üçün nurdan bir sütun var. Allahın iradəsi ilə imam bu sütuna baxıb gələcəyi görür, bəzən isə adi insanlar kimi olur.

*Misirdən köynəyin ətrin duyarkən*
*Kənan quyusunu görmədin nədən?*
*Dedi: - "Bil, halımız şimşəyə bənzər –*
*Bəzən peyda olar, bəzən gizlənər.*

*Arabir süzürük ərşin qatını,*
*Bəzən də görmürük ayaq altını".*

● Olsun ki, "Yusifin qoxusu" dedikdə Yusif haqqında təzə bir xəbər nəzərdə tutulur. Bugünkü dünyamızda uyğun hadisə "telepatiya" adlanır. Telepatiya məlumatın uzaqdan ötürülməsidir. Bu hadisə artıq elmi gerçəklik kimi qəbul olunur. Yəni, yaxın bağlılığa malik olan insanlar və ya xüsusi ruhi qüvvəsi olanlar dünyanın bir başında olan hadisədən dünyanın o biri başında xəbər tuturlar. Bir şəxs imam Baqirdən (ə) soruşdu: «Bəzən heç bir səbəb olmadan o qədər qəmlənirəm ki, ətrafımdakılar onu hiss edirlər». İmam buyurdu: "Müsəlmanlar bir həqiqətdən yaradıldıqları üçün dünyanın bir başında bir müsəlman bədbəxtliklə üzləşdiyi vaxt, dünyanın o biri başında başqa bir müsəlman qəmlənir."[1]

● Elə hesab etsək ki, qoxunu yalnız burunla duymaq olur, Yəqubun Yusifin qoxusunu almasını möcüzə olaraq qəbul etməliyik. İraq İrana hücum edən vaxt mərhum İmamın göstərişi ilə xalq cəbhələrdə hazır oldu. Mən də "Müslim ibn Əqil" əməliyyatında 90 yaşlı Ayətullah Əşrəfi İsfahaninin xidmətində idim. Mərhum alim hücum gecəsi bir neçə dəfə buyurdu: "Behişt qoxusunu duyuram." Amma mən bu qoxunu ala bilmirdim!

Bəli, 90 il elm, təqva, zöhd, gecə ibadəti yolunu getmiş insan başqalarının hiss etmədiyini hiss edə bilər. Onun "mən dördüncü mehrab şəhidi olacağam" deyə buyurduğu öngörənlik də həqiqətə çevrildi! (Münafiqlər 2 il ara verməklə Ayətullah Mədənini, Səduqini, Dəstğeybi və Əşrəfi İsfahanini cümə namazında və ya cümə namazına gedərkən yolda şəhadətə yetirdilər.)

Əlbəttə ki, behişt qoxusu dedikdə, irfani bir qoxu da nəzərdə tutula bilər. Məsələn, münacatın şirinliyindən danışırıq. Əlbəttə ki, bu, mənəvi bir şirinlikdir. Bu təbii bir qoxu olsa da, hər insan bunu duymaq gücündə deyil. Məsələn, tezlikli radio dalğalarını yalnız xüsusi tezlikli radiolar tuta bilir.

◊ **Bildirişlər**

1. İnsan batini paklıqla mənəvi həqiqətləri dərk edə bilər. Amma həqiqətlərin dərki məhduddur. İnsan yalnız müəyyən məkan və zamanda bu halı yaşaya bilər. Bu səbəbdən də Yəqub karvan aralandıqdan sonra Yusifin köynəyinin qoxusunu duydu.
2. Özümüz həqiqətləri dərk edə bilmiriksə, başqalarının belə bir məqamını inkar etməyək.
3. Yalnız bəzi insanlarda həqiqəti eşitmək tutumu var. Çoxları bu halı səfehlik kimi dəyərləndirirlər.
4. Alimlər üçün nadanlar arasında yaşamağın əzab-əziyyəti var.

● Ayə 95:

﴿قَالُواْ تَاللّهِ إِنَّكَ لَفِي ضَلاَلِكَ الْقَدِيمِ﴾

---

1 "Təfsire-Nümunə"

**“(Ona) dedilər: And olsun Allaha, sən keçmişdəki yanlışlıqdasan.”**

◊ **Nöqtələr**

● Bu surənin 8-ci ayəsində oxuduq ki, qardaşlar öz ataları haqqında dedilər: “Atamız Yusifə və onun qardaşına yersiz məhəbbəti səbəbindən aşkar azğınlıqdadır.” Burada isə belə deyilir: “Sən keçmişdəki yanlışlıqdasan.”

● Adi insanlar Allahın övliyalarını öz ağılları səviyyəsində dəyərləndirib hökm etməməlidirlər ki, bu iş mümkün olası deyil. Həzrət Əli (ə) buyurur: “İnsanlar bilmədikləri işlə müxalifdirlər.”[1]

◊ **Bildirişlər**

1. Həzrət Yəqub və Yusif öz təəccüblü xəbərlərinə görə and içmədilər, qardaşlar isə müxtəlif məqamlarda and içirdilər.[2] Bəli, peyğəmbərlər kimi hərəkət edərək imkan həddində and içməmək lazımdır.

2. Ata-babaların işini öz arşınınla ölçmə. (Qardaşlar atalarını öz düşüncələri əsasında azğın sayırdılar.)

3. Yəqub Yusifdən ayrıldığı gündən sonadək onun sağ olmasına inanırdı və bunu öz ətrafındakılara bildirirdi.

● Ayə 96:

﴿فَلَمَّا أَن جَاء الْبَشِيرُ أَلْقَاهُ عَلَى وَجْهِهِ فَارْتَدَّ بَصِيرًا قَالَ أَلَمْ أَقُل لَّكُمْ إِنِّي أَعْلَمُ مِنَ اللّهِ مَا لاَ تَعْلَمُونَ﴾

**“Müjdə gətirən şəxs (Yusifin köynəyini gətirən qardaş) çatan kimi köynəyi Yəqubun çöhrəsinə sürtdü. Yəqubun gözü açıldı və dedi: Sizə demədimmi ki, həqiqətən, mən Allahdan (Allahın lütfündən) sizin bilmədiyiniz bir şey bilirəm.”**

◊ **Nöqtələr**

● Gözün ağarması dedikdə onun nurunun azalması başa düşülür. “Bəsirən” dedikdə isə nurla dolu olmaq başa düşülür. Məlum olur ki, qəm-qüssə və şadlığın insanın necə görməsinə təsiri var. Amma məqsəd mütləq korluq olsa, Yəqubun gözünün açılması Quranın isbat etdiyi bir möcüzədir.

● Dünyanın eniş-yoxuşu var. Yusifin qardaşları bir gün onun ölüm xəbərini gətirdilər, o biri gün hakim olması ilə müjdə verdilər.

◊ **Bildirişlər**

1. Peyğəmbər elminin qaynağı ilahi elmdir.

2. İlahi peyğəmbərlər Allahın vədlərinə əmindirlər.

3. Yəqub öz övladlarından fərqli olaraq, Yusifin sağ olduğuna inanırdı və bu ayrılığın sona çatacağına əmin idi.

---

1 “Nəhcül-bəlağə”, h. 172

2 Bax: ayə 73, 85, 91, 95

4. Qeyri-saleh övlad atanın korluğuna, saleh övlad isə gözünün açılmasına səbəb olur.

5. Təbiət qanunlarına Allahın iradəsi hakimdir.

6. Övliyaların libası və onlara aid olan başqa şeylər təsirli ola bilər.

7. Xalqın xoşlamadığı bir çox işlər faydalı ola bilər. Qıtlıq xoşagəlməz hal olsa da, bu vaxt Yusifin azadlığına, günahsızlığının sübutuna, hakimiyyətə çatmasına, Yəqubla görüşməsinə səbəb oldu.

● Ayə 97:

﴿قَالُواْ يَا أَبَانَا اسْتَغْفِرْ لَنَا ذُنُوبَنَا إِنَّا كُنَّا خَاطِئِينَ﴾

**"(Övladlar) Dedilər: Ey ata! Bizim günahlarımız üçün (Allahdan) bağışlanma dilə. Həqiqətən, biz xətakar olmuşuq."**

● Ayə 98:

﴿قَالَ سَوْفَ أَسْتَغْفِرُ لَكُمْ رَبِّي إِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيمُ﴾

**"(Yəqub) dedi: Tezliklə Rəbbimdən sizin üçün bağışlanma diləyərəm. Həqiqətən, O Özü bağışlayan və çox mehribandır."**

◊ **Nöqtələr**

● Yəqubun övladları təkallahçı (müvəhhid) olub atalarının uca məqamından xəbərdar idilər. Onlar atalarını əqidə baxımından yox, Yusifə bağlılıq baxımından azğın sayırdılar.

● Zalım üçün 3 gün var: qüdrət günü, möhlət günü və peşmanlıq günü.

Məzlum üçün də 3 gün var: zülmə düşdüyü həsrət günü, çarə axtardığı heyrət günü, dünya və axirətdə qurtuluş günü.

● Bir gün atalarını azğınlıqda ittiham edən övladlar sonradan xətakar olduqlarını etiraf etdilər.

● "Məcməul-bəyan" və "Ətyəbul-bəyan" təfsirlərində bildirilir ki, həzrət Yəqub övladlarına dua etmək üçün cümə axşamını və ya cümə gününü gözləyirdi.

◊ **Bildirişlər**

1. Zülm zillət sahibidir. Qardaşları Yusifi quyuya atan gün sevinc içində idilər, sonra isə hər şey əksinə dəyişdi.

2. Günahların bağışlanması üçün Allahın övliyalarına təvəssül, onları vasitəçi qərar vermək caizdir.

3. Atanın duasında xüsusi təsir var. Tövbə heç vaxt gec deyil.

4. Tövbə üçün heç vaxt gec deyil.

5. Günahların etirafı bağışlanma üçün zəmindir.

6. Dua üçün saatların imtiyazı var.

7. Atanın öz övladlarına duasının xüsusi təsiri var.

8. Ata kinli olmamalı, övladlarının səhvini bağışlamağı bacarmalıdır.

9. Günahkar peşman olduğu vaxt onu danlamayın.

10. Günahkara Allahın mərhəməti ilə ümid verək.

11. Dua və təvəssülün qəbulunu səbirlə gözləyək.

12. Həzrət Yəqub öz haqqından keçdi və Allahın haqqı ilə bağlı övladlarına dua etdi.

13. Böyük günaha yol verənlər də Allahın lütfündən məhrum edilməyiblər. İki ilahi peyğəmbəri uzun illərdə incidənlərin də bağışlanmasına ümid var.

● Ayə 99:

﴿فَلَمَّا دَخَلُواْ عَلَى يُوسُفَ آوَى إِلَيْهِ أَبَوَيْهِ وَقَالَ ادْخُلُواْ مِصْرَ إِن شَاء اللّهُ آمِنِينَ﴾

**“Elə ki, Yusifin yanına gəldilər, o öz ata-anasına yanında yer verdi və dedi: Allahın izni ilə əmin-amanlıq içində Misirə daxil olun.”**

◊ **Nöqtələr**

● Yusif öz valideynlərini qarşılamaq üçün şəhər kənarında xeymə qurub gözünü yola tikmişdi. O, ata-anasını izzət və ehtiramla Misirə gətirmək arzusunda idi. Təbii ki, Yusifin ata-anası və qardaşları səfərə hazırlaşdıqları vaxt Kənanda qovğa vardı. Xalq neçə illər ötəndən sonra Yusifin salamatlıq xəbərini almış Yəqubun gözlərinin açılmasını və övladı ilə görüşə can atmasını maraqla izləyirdi. Bu ata və oğulun sevincinə onlar da şərik idilər. Xüsusi ilə Yusifin Misirdə xəzinədar və hakim olması, qıtlıq illərində onlara yardım göstərməsi hamını məmnun edirdi.

● “Əbəvəyhi” sözündən məlum olur ki, Yusifin anası da sağ olmuşdur. Amma bir sual cavabsız qalır ki, nə üçün bütün dastan boyu ananın göz yaşlarından danışılmır və bu məsələnin üzərindən sükutla keçilir?

● Rəvayətlərdə deyilir ki, Yəqub israrla Yusifdən öz macərasını danışmasını istədi. Yusif qardaşlarının onu bir quyunun başına gətirib, zorla köynəyini çıxartdıqlarını dedikdə Yəqub huşunu itirdi. Ayıldıqda söhbəti davam etdirməsini istədi. Amma Yusif dedi: “Atacan, səni İbrahim, İsmail və İshaqın haqqına and verirəm, məni danışmağa məcbur etmə!” Yəqub qəbul etdi.[1]

◊ **Bildirişlər**

1. Qonağı şəhərə daxil olmamış qarşılamaq yaxşı bir işdir. Şəhərdən kənarda Yəqubun istiqbalı üçün mərasim hazırlanmışdı və Yusif orada xeymə qurmuşdu.

2. Vəzifə və məqam diqqətimizi valideynə ehtiramdan yayındırmamalıdır.

3. Hətta ölkənin birinci şəxsi məmləkətin təhlükəsizliyindən danışarkən “inşallah” deməli və Allahın lütfünü yaddan çıxarmamalıdır. Çünki Allah istəməyincə, əmin-amanlıq ola bilməz. Bəzi tayfalar təhlükədən qaçmaq üçün ağır daşlardan evlər tikdilər. Amma Allahın qəzəbi onların əmin-amanlığını pozdu.[2]

---

1 “Təfsire-Nümunə”; “Təfsire-Məcməul-bəyan”

2 Bax: “Hicr”, 82, 83

4. Yaşayış yeri seçərkən mühüm məsələlərdən biri həmin yerin əmin-amanlığıdır.

5. Əgər Yusif kimilər hakim olsa, əmin-amanlıq da olar.

● Ayə 100:

﴿وَرَفَعَ أَبَوَيْهِ عَلَى الْعَرْشِ وَخَرُّواْ لَهُ سُجَّدًا وَقَالَ يَا أَبَتِ هَذَا تَأْوِيلُ رُؤْيَايَ مِن قَبْلُ قَدْ جَعَلَهَا رَبِّي حَقًّا وَقَدْ أَحْسَنَ بَي إِذْ أَخْرَجَنِي مِنَ السِّجْنِ وَجَاء بِكُم مِّنَ الْبَدْوِ مِن بَعْدِ أَن نَّزغَ الشَّيْطَانُ بَيْنِي وَبَيْنَ إِخْوَتِي إِنَّ رَبِّي لَطِيفٌ لِّمَا يَشَاء إِنَّهُ هُوَ الْعَلِيمُ الْحَكِيمُ﴾

**"(Yusif) ata-anasını taxta qaldırdı. Amma onlar hamısı onun qarşısında əyilib səcdə etdilər. (Yusif) Dedi: "Ey ata, əvvəlki yuxumun təbiri budur. Şübhəsiz, Rəbbim onu gerçəkləşdirdi. Doğrudan da, məni zindandan qurtarmaqla ehsan etdi. Şeytan mənimlə qardaşlarımın arasını vurandan sonra (Allah) sizi biyabandan (Kənandan Misirə) gətirdi. Həqiqətən, Rəbbim istədiyinə lütf sahibidir. Doğrudan da, O, biləndir və hikmət sahibidir."**

◊ **Nöqtələr**

● "Ərş" sultanın oturduğu taxta deyilir. "Xərru" yerə yıxılmaq, "bədv" səhra, "nəzəğə" fəsad məqsədi ilə işə başlamaq mənalarını bildirir.

● "Lətif" Allahın adlarındandır. Yəni Allahın qüdrəti örtülü işlərə də nüfuz edir. Yusifin həyatında yalnız Allahın qüdrəti ilə açılması mümkün olan düyünlər vardı.

● Yusif Kəbə kimi olmuşdu. Ata-anası və qardaşları ona üz tutub kəramətinə görə Allaha səcdə etdilər. Yəqub və Yusif Allahın peyğəmbərləri olduğundan, bu səcdəni Allahdan qeyrisinə aid etmək olmaz. Bu səcdə pərəstiş yox, təvazö əlaməti də ola bilərdi. Belə bir məqsədlə Yusifə səcdənin heç bir eybi yox idi.

◊ **Bildirişlər**

1. İstənilən bir məqama yüksəldikdə valideynlərinizi özünüzdən üstün bilin. Daha çox əziyyət çəkən insan daha əziz sayılmalıdır.

2. Peyğəmbərlər də hakimiyyət taxtına oturmuşlar.

3. Həqiqi hakimlərə ehtiram və təvazö zəruridir.

4. Ata və qardaşlarının Yusifə səcdəsi onun yuxusunu təbir etdi.

5. Allah hikmət sahibidir, bəzən uzun illərdən sonra bir duanı qəbul edir və yuxunu gerçəkləşdirir.

6. Planlar Allahın iradəsi ilə gerçəkləşir. Bəli, Yusif səbir və dözümdən danışmır, Allahı bütün işlərin əsl səbəbkarı kimi tanıyır.

7. Allah övliyalarının yuxusu həqiqətdir.

8. Vasitələrdən faydalanarkən Allahdan qəflətdə qalmayaq. Yusifin də həyatında onu yüksək məqama çatdıran vasitələr vardı. Amma o, “Rəbbim mənə ehsan etdi” deyirdi.

9. Bir-birinizlə rastlaşarkən arxada qalmış acılıqlardan danışmayın. Yusifin atasına ilk sözü Allaha şükür oldu. O, arxada qalmış acı hadisələri danışmaq istəmədi.

10. Qəlbi geniş olaq və qonağın qəlbinə dəyməyək. (Ayədə Yusif zindandan çıxmağı haqqında danışsa da, quyudan çıxmağı haqqında bir söz demir və qardaşlarını utandırmır.)

11. İntiqam yox, güzəşt əhli olaq. Yusif deyir ki, şeytan vəsvəsə etməsəydi, qardaşlarım pis olmazdı.

12. Allahın övliyaları zindana düşüb-çıxmağı tövhid və rübubiyyət yoluna aid bilirlər.

13. Çətinliyin sonu qurtuluşdur.

14. Bədəvilik (səhra həyatı) dəyər yox, zərurətdir.

15. Valideynin övladla birlikdə yaşaması Allahın lütfüdür.

16. Həzrət Yusifin dövründə Misirdə şəhər, Kənanda isə kənd həyatı hökm sürürdü.

17. İnkişaf və üstün həyat üçün səfər etmək lazımdır.

18. Xalis mömin hadisələrdən gileylənmir və bütün nemətləri Allah tərəfindən bilir.

19. Qardaşlar və ailə üzvləri bilməlidirlər ki, şeytan daim onların arasında ixtilaf salmaq üçün çalışır.

20. Özünüzü üstün saymayın. Yusif demir ki, şeytan onları aldatdı. Deyir ki, şeytan mənimlə onlar arasında maneə oldu. Yəni söhbətdə özünü də bir tərəf kimi qeyd edir.

21. Əhvalatı əvvəlində Yəqub, sonunda isə Yusif şeytanın düşmənçiliyindən danışır.

22. Allahın işləri müdara və lütflə müşayiət olunur.

23. Acılı-şirinli bütün hadisələr Allahın elm və hikmətinə əsaslanır.

24. Bir insanı bağışladıqdan sonra onu növbəti dəfə utandırmayın. Yusif qardaşlarını bağışladığından, söhbət əsnasında quyu məsələsini xatırlatmır.

25. Əhvalatı əvvəlində Yəqubun, sonunda Yusifin Allahın alim və hikmət sahibi olmasını xatırlaması diqqət çəkir.

● Ayə 101:

﴿رَبِّ قَدْ آتَيْتَنِي مِنَ الْمُلْكِ وَعَلَّمْتَنِي مِن تَأْوِيلِ الأَحَادِيثِ فَاطِرِ السَّمَاوَاتِ
وَالأَرْضِ أَنتَ وَلِيِّي فِي الدُّنُيَا وَالآخِرَةِ تَوَفَّنِي مُسْلِمًا وَأَلْحِقْنِي بِالصَّالِحِينَ﴾

**“(Yusuf dedi:) Pərvərdigara, Sən mənə hökumətdən (bəhrə) verdin, yuxuların təbirini öyrətdin. Ey göyləri və yeri yaradan, dünya və axirətdə mənim mövlam yalnız Sənsən. Məni müsəlman olaraq dünyadan apar və salehlərə qovuşdur.”**

◊ **Nöqtələr**

● Allahın övliyaları öv izzət və qüdrətlərinə baxdıqda dərhal Allahı xatırlayır və deyirlər: “Pərvərdigara, nə varsa Səndəndir.” Yusif də belə etdi. Söhbəti atasından dolandırıb diqqətini Allaha yönəltdi. Allah Misirin hakimiyyətini iki nəfərə verdi: bu hökuməti özününkü bilən Firona və onu Allahınkı bilən Yusifə.

● İbrahimin təvəkkül tərzi onun övladlarında da özünü göstərirdi. İbrahim dedi: “Mən məxluqatın Rəbbinə təsliməm.” Sonra onun nəvəsi Yəqub övladlarına vəsiyyət etdi ki, dünyadan müsəlman gedin.[1] Hazırkı ayədə isə Yəqubun övladı müsəlman olaraq ölməyi Allahdan diləyir. İbrahim salehlərdəndir[2] və Yusif ona qovuşmaq istəyir.

● Allahın daim qoruduğu, elm və hakimiyyət verdiyi, təhlükədən hifz etdiyi Yusif yenə də öz aqibətindən nigarandır. Vay olsun qüdrət, var-dövlət və elmi hiyləgərliklə əldə edənlərə! Necə olacaq belələrinin aqibəti?!

● Allah-təala həzrət Adəmə adlar öyrətdi.[3] Həzrət Davuda zireh toxumaq təlim olundu.[4] Süleymana quşların dili təlim olundu.[5] Yusifə təbir elmi əta edildi. İslam Peyğəmbərinə (s) isə əvvəllərin və axırların elmləri təlim olundu.[6]

◊ **Bildirişlər**

1. Hakimiyyət bəxşişi Allahın rübubiyyət şənindəndir.
2. Hakimiyyət düşüncə, var-dövlət, qüdrət, ətraf və plan çəkməklə əldə olunmur. Hakimiyyətin əldə olunmasında əsas amil Allahın iradəsidir.
3. Allah tərbiyə məqsədi ilə əta edib, geri alır.
4. Hakimiyyət savadsızların yox, alimlərin haqqıdır. Yusifin elmi onun hakimiyyətə çatması üçün vasitə oldu.
5. İstənilən bir məqamda özünüzü Allaha tapşırın.
6. Allah lütf etməsə, qüdrət, hakimiyyət və siyasət insanın dindən çıxması üçün zəmin olar.

(Yusif quyuda bir, zindanda başqa bir dua oxuyurdu. Hakimiyyətə çatdıqdan sonra isə belə dua edirdi: “Pərvərdigara, müsəlman olaraq ölüm.”)

7. Allahın həqiqi bəndələri izzət və qüdrət zirvəsində olduqları vaxt ölüm və qiyaməti unutmur, öz vəzifələrini yerinə yetirirlər. Necə ki, onun zövcəsi

---

1 Bax: “Bəqərə”, 132
2 Bax: “Bəqərə”, 130
3 Bax: “Bəqərə”, 31
4 Bax: “Ənbiya”, 80
5 Bax: “Nəml”, 16
6 Bax: “Nisa”, 113

Fironun sarayında qiyamət barədə düşünür və deyirdi: “Pərvərdigara! Behiştdə mənə Öz yanında yer ver.”[1]

8. Allahın əzəməti təkcə bizə verdiyi nemətlərə görə deyil. O bütün varlıq aləminin yaradıcısıdır.

9. Yusif xalqa hakim olması ilə yox, Allahın ona hakim olması ilə fəxr edirdi.

10. Xoş aqibət və işdə möhkəmlik həmin işə başlamaqdan daha mühümdür. Peyğəmbərlər xoş aqibət üçün dua edirdilər: “Məni Sənə təslim olmaqda ölən günədək möhkəm et.”[2]

11. Duada öncə Allahın nemətlərini yada salın, sonra öz istəyinizi bəyan edin.

12. Qüdrətə çatdığınız vaxt Allahla münacatı yaddan çıxartmayın.

13. Həzrət Yusif ən keşməkeşli anlarda Allahı unutmaz, Onunla münacat edərdi.

14. Düzgün və ədalətli hakimlik üçün elm və biliyə ehtiyac var.

15. Dua və münacatlarda təkcə dünya malı fikrində olmayın.

16. Allahın qüdrət və elmi ilə müqayisədə insanın qüdrət və elmi əhəmiyyətsizdir. Allah bütün varlıq aləminə hakimdir.

17. Göylərin və yerin yaradıcısı olan Allah insanı bəlalar quyusundan çıxarıb ən yüksək dərəcələrə çatdıra bilər.

18. Bugünkü imanınızla qürrələnməyin. Bu imanı sonadək qorumaq mühümdür.

19. İmanın nəhayəti Allah qarşısında təslimçilikdir.

20. Xeyir aqibət Allahın Öz bəndələrinə əta etdiyi ən üstün nemətdir.

21. Heç bir mükafat əbədi qalmır.

22. Pak insanların arzusu imanla ölmək və salehlər zümrəsinə qatılmaqdır.

23. Dünyaya bağlı olmayan insanlar hakimiyyəti xidmət və islah üçün istəyirlər.

24. Salehlərə axirətdə ən yüksək məqam verilər. (Yusif salehlərə qatılmaq arzusunda idi.)

## *YUSİFİN SİMASI*
## *(MÜVƏFFƏQ BİR RƏHBƏRİN XÜSUSİYYƏTLƏRİ)*

Həzrət Yusifin əhvalatının sonunda onun simasını nəzərdən keçiririk:

1. Acı və şirin hallarda Allaha kamil diqqət;
2. İstənilən bir qrupun azğın xəttindən üz döndərmək;
3. Öndə gedənlərin doğru yolunu izləmək;
4. Son nəfəsədək Allahın razılığı yolunda möhkəmlik;
5. Rəqiblər qarşısında vüqar;
6. Hadisələr qarşısında səbir;

---

1 “Təhrim”, 11
2 “Təfsire-Əl Mizan”

7. Paklıq və təqvanı rifahdan üstün tutmaq;
8. Biganələr qarşısında məxfilik;
9. Əhatəli elm;
10. Gözəl və fəsahətli bəyan;
11. Ailə möhkəmliyi;
12. Fərqli düşünənlərlə müdara;
13. İxlas;
14. Başqalarının hidayətinə şövq;
15. Planlaşdırma və yaradıcılıq;
16. Təvazö və sadəlik;
17. Əfv və güzəşt;
18. Qəlbi genişlik;
19. Əmanətdarlıq;
20. Qonaqpərvərlik.

● Ayə 102:

﴿ذَلِكَ مِنْ أَنبَاء الْغَيْبِ نُوحِيهِ إِلَيْكَ وَمَا كُنتَ لَدَيْهِمْ إِذْ أَجْمَعُواْ أَمْرَهُمْ وَهُمْ يَمْكُرُونَ﴾

**“(Ey peyğəmbər,) bu (əhvalat) sənə vəhy etdiyimiz qeybi xəbərlərdəndir. Onlar öz işlərində müttəfiq olanda və hiylə Quranda sən onların yanında deyildin.”**

◊ **Bildirişlər**

1. Peyğəmbərlər vəhy vasitəsi ilə qeyblə tanış olurlar.
2. Peyğəmbərlər bütün qeybi xəbərləri bilmirlər.
3. Allah istəməyən halda nə xalqın qərarının, nə onların icmasının, nə də qurğularının təsiri yoxdur.
4. Ardıcıl və əlaqəli hadisələrdə əsas və başlanğıc nöqtəni nəzərdən qaçırmayın. Yusifin əhvalatının mehvəri onu aradan götürmək qurğusu idi.

● Ayə 103:

﴿وَمَا أَكْثَرُ النَّاسِ وَلَوْ حَرَصْتَ بِمُؤْمِنِينَ﴾

**“(Ey peyğəmbər,) sən çox istəsən də insanların çoxu iman gətirən deyil.”**

◊ **Nöqtələr**

● “Hirs” dedikdə bir şeyi çox istəmək və onu ələ gətirmək üçün səy nəzərdə tutulur.

◊ **Bildirişlər**

1. Dəfələrlə xalqın əksəriyyəti dini etiqad baxımından Quran tərəfindən tənqid olunmuşdur.
2. Peyğəmbərlər insanların hidayəti üçün canıyananlıq, iştiyaq göstərmişlər.

3. Hərisliyin müsbət yönümü də var. (Peyğəmbər insanların iman gətirməsinə hərislik göstərirdi.)

4. Xalqın əksəriyyətinin anlaqsızlığı və iman gətirməməsi dinin təbliğinə və haqqın bəyanına mane ola bilməz.

5. Xalqın əksəriyyətinin iman gətirməməsi peyğəmbərlərin yox, iman gətirmək istəməyənlərin təqsirindəndir.

● Ayə 104:

﴾وَمَا تَسْأَلُهُمْ عَلَيْهِ مِنْ أَجْرٍ إِنْ هُوَ إِلاَّ ذِكْرٌ لِّلْعَالَمِينَ﴿

**“Sən buna görə onlardan heç bir mükafat istəmirsən. O, (risalət və Quran) məxluqat üçün yalnız öyüd-nəsihətdir.”**

◊ **Nöqtələr**

● İslam Peyğəmbəri (s) də digər peyğəmbərlər kimi insanların hidayəti müqabilində onlardan mükafat istəmirdi. Çünki hər hansı umacaq dəvətin qəbul olunmasını çətinləşdirir. “Tur” surəsinin 40-cı ayəsində oxuyuruq: “Xalqdan muzd istəyirdinmi ki, bunu ödəmək onlara ağır olsun?!” Başqa bir ayədə Əhli-beyt sevgisi risalət muzdu kimi təqdim olunur.[1] Hansı ki, Əhli-beytə (ə) itaət Peyğəmbərə (s) yox, xalqın özü üçün faydalıdır. Çünki Quranın bir ayəsində belə buyurulur: “Mənim mükafatım yalnız Allaha aiddir.”[2] Bəli, Əhli-beyti sevib, onlara itaət edənlər Allaha və Peyğəmbərə (s) itaət edirlər.

● Quran zikrdir (yəni xatırlatmadır). Çünki Quran ilahi ayələri, nemətləri və sifətləri, keçmişi və gələcəyi, süqut və izzət amillərini, qiyamət səhnələrini, varlıq aləminin əzəmətini, tarix yaradan şəxsiyyətlərin həyatını xatırladır.

● Quran maarifi və onun hökmləri öyrənilәsi və yadda saxlanılası bir həqiqətdir. Çünki “Zikr” dedikdə zehndə hazır olan və yaddan çıxarılmayan elm və mərifət nəzərdə tutulur.

◊ **Bildirişlər**

1. Təbliğatçılar da peyğəmbərlər kimi xalqdan nəsə ummamalıdırlar.
2. Əvəz və mükafat almaq yox, onu istəmək pisdir.
3. Quran maarifi fitridir və bütün xalq ondan bəhrələnə bilir. İnsan bir şeyi bildiyi, amma unutduğu halda zikrin yeri var.
4. Peyğəmbərlərin işi xatırlatmaq və fitrətləri oyatmaqdır.
5. İslam Peyğəmbərinin (s) risaləti ümumbəşəri.
6. Xalqın bir dəstəsinin, hətta əksəriyyətinin eyni bir vaxtda və məkanda iman gətirməməsi dini təbliğatçını məyus etməməlidir. Əgər bir məntəqədə insanlar iman gətirmədilərsə, başqa bir məntəqədə təbliğ olunmalıdır.

● Ayə 105:

---

1 Bax: “Şura”, 23
2 “Şura”, 23

﴿وَكَأَيِّن مِّن آيَةٍ فِي السَّمَاوَاتِ وَالأَرْضِ يَمُرُّونَ عَلَيْهَا وَهُمْ عَنْهَا مُعْرِضُونَ﴾

**"Göylərdə və yerdə nə çox nişanələr ki, onların yanından üz çevirmiş halda keçərlər."**

◊ **Nöqtələr**

● Bu ayə İslam Peyğəmbəri (s) və bütün həqiqi rəhbərlərə təsəlli verir. Əgər xalq əmr və tapşırıqlara etinasızlıq göstərirsə, nigaran olmaq lazım deyil. Onlar (əksəriyyət) Allahın təbiət və yaranışdakı qüdrət və hikmət nişanələri ilə daim rastlaşırlar, amma bir an belə düşünmürlər. Zəlzələlər, günəş və ay tutulmaları, şimşək, ulduzlar, kəhkəşanlar, bir sözlə hər şey göz qabağındadır. Amma onlar üz çevirirlər.

● "Yəmurrunə ələyha" cümləsi 3 cür mənalandırılır:

1. İnsanların ilahi ayələrinin yanından ötüşüb onları müşahidə etməsi;

2. İnsanların ötüb keçməsi dedikdə yerin hərəkəti nəzərdə tutulur. Çünki yer hərəkət etdikcə insan göy aləmini seyr edir.[1]

3. Göy nişanələrinin seyri, insanın kosmik gəmilərə süvar olması və bu peyklərin səmada hərəkəti ilə bağlı öngörənlikdir.[2]

● Üz çevirmək qəflətdən də təhlükəlidir. İnsan bəzən daimi rabitədə olduğu çoxsaylı nişanələri nəinki yaddan çıxarır, hətta bilərəkdən onlardan üz çevirir.

◊ **Bildirişlər**

1. Bütün varlıq aləmi allahşünaslıq nişanəsi və rəmzidir.

2 İnsan inadkar olsa heç bir nişanəni qəbul etməz.

3. Dərin düşüncə ilə müşayiət olunmayan səthi baxış hidayət və tərbiyə üçün zəmin deyil.

4. Elm təklikdə bəs etmir, iman əldə etmək üçün haqqın qəbulu da lazımdır.

5. Əhvalatın "əhsənul-qəsəs", yəni gözəl əhvalat olması bəs deyil. Ən mühümü bu böyük dərsləri qəbul edib işə salmaq üçün hazırlıqdır.

● Ayə 106:

﴿وَمَا يُؤْمِنُ أَكْثَرُهُمْ بِاللّهِ إِلاَّ وَهُم مُّشْرِكُونَ﴾

**"Onların çoxu Allaha şərik qoşmadan iman gətirməz (imanları xalis deyil)."**

◊ **Nöqtələr**

● İmam Riza (ə) buyurur: "Bu ayədə şirk dedikdə küfr və bütpərəstlik yox, Allahdan qeyrisinə diqqət nəzərdə tutulur.[3]

Nəql olunur ki, imam Sadiq (ə) buyurmuşdur: "Şirk insanda qaranlıq gecədə qara daş üstə yeriyən qara qarışqadan da məxfi hərəkət edir."[1]

---

1 "Təfsire Əl-Mizan"
2 "Səfərnameye-Hacı Ayətullah Safi"
3 "Təfsire-Nümunə"

İmam Baqir (ə) buyurur: "İnsanlar ibadətdə müvəhhid (təkallahçı) olsalar da, itaətdə Allahdan qeyrisini şərik qoşurlar."[2] Digər rəvayətlərdə oxuyuruq ki, bu ayədə şirk dedikdə nemətə qarşı şirk nəzərdə tutulur. Məsələn, insan dilinə gətirir ki, işimi filankəs düzəltdi, əgər filankəs olmasaydı məhv olardıq.[3]

◊ **Bildirişlər**

1. İmanın mərtəbələri var. Şirk qatqısı olmayan xalis iman azdır.

● Xalis möminlik nişanələri:

1. İnfaq edərkən kimsədən mükafat və təşəkkür gözləməmək.[4]
2. İbadətdə Allahdan qeyrisinə bəndəlik etməmək.[5]
3. Təbliğdə Allahdan qeyrisindən əvəz gözləməmək.[6]
4. Evlənmək məsələsində yoxsulluqdan qorxmamaq və Allaha təvəkkül etməklə evlənmək.[7]
5. Xalqla rəftarında Allahın razılığından savay hər şeyi kənara qoymaq.[8]
6. Düşmənlə qarşılaşdıqda yalnız və yalnız Allahdan qorxmaq.[9]
7. Allah qədər kimsəni sevməmək.[10]
8. Ticarətdə, həyat fəaliyyətində Allahı unutmamaq.[11]

## *● MÜŞRİK*
## *(ŞƏRİK QOŞAN, XALİS OLMAYAN) MÖMİNİN NİŞANƏLƏRİ:*

1. İzzəti başqalarından gözləmək.[12]
2. Yaxşı işi pis işə qatmaq.[13]
3. Başqaları ilə rəftarda partiya və dəstə təəssübü çəkmək.[14]
4. İbadətdə diqqətsizlik və riyakarlıq.[15]
5. Döyüşdə xalqdan qorxmaq.[16]
6. Ticarət və dünya işlərində daha çox əldə etmək meyli.[17]
7. Din və dünya seçimində dünyanı götürüb Peyğəmbəri (s) tənha qoymaq.[1]

---

1 "Səfinətul-bihar", c. 1, s. 697
2 "Kafi", c. 2, s. 292
3 "Təfsire-Nümunə"
4 Bax: "İnsan", 9
5 Bax: "Kəhf", 110
6 Bax: "Hud", 29
7 Bax: "Nur", 32
8 Bax: "Ənam", 91
9 Bax: "Əhzab". 39
10 Bax: "Bəqərə", 165
11 Bax: "Nur", 37
12 Bax: "Nisa", 139
13 Bax: "Tövbə", 102
14 Bax: "Muminun", 53
15 Bax: "Maun", 5-6
16 Bax: "Nisa", 77
17 Bax: "Təkasur", 1

● Ayə 107:

﴿أَفَأَمِنُواْ أَن تَأْتِيَهُمْ غَاشِيَةٌ مِّنْ عَذَابِ اللّهِ أَوْ تَأْتِيَهُمُ السَّاعَةُ بَغْتَةً وَهُمْ لاَ يَشْعُرُونَ﴾

**“Görən (iman gətirməyənlər) ilahi əzabın onları bürüyəcəyindən və ya Qiyamətin qəfildən bərpa olacağından amandadırlarmı?”**

◊ **Nöqtələr**

● “Ğaşiyə” dedikdə cəmiyyət və ya fərdi əhatə edən əzab nəzərdə tutulur.

◊ **Bildirişlər**

1. Kimsə özünü sığortalanmış saymasın.

2. İnsanın doğru yolu tutması üçün onun ilahi əzabı mümkün sayması kifayətdir. Məsələ bundadır ki, bəziləri belə bir ehtimal da vermir.

3. Allahın qəzəbi əhatəlidir və bu əzabdan qaçmaq mümkünsüzdür.

4. İnsanın bədbəxt olması üçün cüzi əzab bəsdir.

5. Qiyamətin yada salınması tərbiyə amilidir.

● Ayə 108:

﴿قُلْ هَـذِهِ سَبِيلِي أَدْعُو إِلَى اللّهِ عَلَى بَصِيرَةٍ أَنَاْ وَمَنِ اتَّبَعَنِي وَسُبْحَانَ اللّهِ وَمَا أَنَاْ مِنَ الْمُشْرِكِينَ﴾

**“(Ey peyğəmbər! Sən də) de: «Bu mənim yolumdur.» Mən və mənə tabe olan hər kəs bəsirətli halda Allaha doğru dəvət edirik. Allah pakdır və mən müşriklərdən deyiləm.”**

◊ **Nöqtələr**

● Tövhidə dəvət edən insan xof kütləsindən fərqlənir. Ötən iki ayədə dedik ki, xalqın əksəri xalis iman gətirmir. Din təbliğatçısı isə “mən müşriklərdən deyiləm” deyə bilməlidir.

◊ **Bildirişlər**

1. Peyğəmbərlərin yolu aydındır və hamının tanıyacağı şəkildə göz qabağındadır.

2. Haqq yolun yolçuları öz mövqelərini açıq şəkildə, qorxu-hürküsüz bəyan etməlidirlər.

3. Rəhbər xalqı özünə doğru yox, Allaha doğru çağırmalıdır.

4. Rəhbərin kamil bəsirəti olmalıdır.

5. Xalqı gözü bağlı, məlumatlandırmadan bir işə dəvət etmək olmaz.

6. Peyğəmbərin hər bir ardıcılı xalqı bəsirət və agahlıqla Allaha doğru dəvət edən təbliğatçı olmalıdır.

---

1 Bax: “Cumuə”, 11

7. Allahı hər növ şirk və şərikdən pak tanıtdırmaq təbliğ mehvəridir.
8. Din təbliğatçısı şirkdən uzaq, xalis şəxs olmalıdır.
9. İslam dininin əsası tövhid və şirkdən uzaqlıqdır.

● Ayə 109:

﴿وَمَا أَرْسَلْنَا مِن قَبْلِكَ إِلاَّ رِجَالاً نُّوحِي إِلَيْهِم مِّنْ أَهْلِ الْقُرَى أَفَلَمْ يَسِيرُواْ فِي الأَرْضِ فَيَنظُرُواْ كَيْفَ كَانَ عَاقِبَةُ الَّذِينَ مِن قَبْلِهِمْ وَلَدَارُ الآخِرَةِ خَيْرٌ لِّلَّذِينَ اتَّقَواْ أَفَلاَ تَعْقِلُونَ﴾

**“Səndən öncə abadlıq əhlindən olan, özlərinə də vəhy etdiyimiz kişilər göndərdik. Özlərindən əvvəlkilərin aqibətini görmək üçün yer üzünü gəzmədilərmi? Şübhəsiz, təqva yolunu seçənlər üçün axirət evi daha üstündür. Yoxsa düşünmürsünüz?”**

◊ **Nöqtələr**

● Peyğəmbərlərin müxalifləri dəfələrlə irad tuturdular ki, nə üçün peyğəmbərlər onlar kimi adi insandırlar? Görünür, İslam Peyğəmbərinin (s) dövründə də xalq bu sayaq suallar ünvanladığından bu ayədə həm cavab verilir, həm də xəbərdarlıq olunur.

◊ **Bildirişlər**

1. Bütün peyğəmbərlər kişi cinsindən olmuşlar. Çünki kişinin təbliğ, hicrət və səy göstərmə imkanı daha çoxdur.
2. Peyğəmbərlərin elmi vəhy yolu ilə əldə olunur, bir növ “lədunni”, zatidir.
3. Peyğəmbərlər insan nəslindən olmuş və insanlar arasında yaşamışlar. (Onlar nə mələk, nə guşənişin, nə də rifah əhli olmuşlar).
4. Hərəkət və səfər məqsədli olmalıdır.
5. Birbaşa müşahidə həqiqəti əldə etməyin ən münasib üsullarındandır.
6. Yer üzündə hərəkət və səyahət, tarixdən xəbərdarlıq və ibrət dərsi götürülməsi hidayət və tərbiyə üçün faydalıdır.
7. Qədim əsərlər gələcək nəsillərin baxıb ibrət götürməsi üçün hifz olunmalıdır.
8. Peyğəmbərlərin göndərilməsi, vəhyin nazil olması, inadkar müxaliflərin məhvi tarixi reallığa çevrilmiş ilahi sünnələrdəndir.

9. Kafirlər peyğəmbərlərlə müxalifətçilikdən heç nə qazanmırlar və dünyada qəhr-qəzəbə düçar olurlar. Təqva əhli isə dünyadan üstün olan axirətə yol tapır.

10. Bəşərin ağıl və düşüncəsinin işə salınması Quran və peyğəmbərlik məqsədlərindəndir.

11. Ağıl və düşüncə insanı peyğəmbər məktəbinə doğru irəli aparır.

● Ayə 110:

﴿حَتَّى إِذَا اسْتَيْأَسَ الرُّسُلُ وَظَنُّواْ أَنَّهُمْ قَدْ كُذِبُواْ جَاءهُمْ نَصْرُنَا فَنُجِّيَ مَن نَّشَاء وَلاَ يُرَدُّ بَأْسُنَا عَنِ الْقَوْمِ الْمُجْرِمِينَ﴾

**“(Peyğəmbərlərin dəvəti və düşmənlərin müxalifəti davam edirdi) o vaxta qədər ki, peyğəmbərlər (xalqın hidayətindən) ümidlərini üzəcək hala gəldilər və kafirlər güman etdilər ki, (əzab haqqında) onlara yalan deyilmişdir. Həmin vaxt yardımımız onlara yetişdi. İstədiyimiz kəslər nicat tapdı. Amma əzabımız günahkar qövm üzərindən götürülməz.”**

◊ **Nöqtələr**

● Tarix boyu peyğəmbərlər xalqın hidayətindən ümidlərini üzənədək ardıcıl və israrlı şəkildə haqqa dəvət etmişlər. İnadkar müxaliflər də öz müqavimətlərindən əl çəkməmişlər. Deyilənlərin bəzi nümunələrini nəzərdən keçirək:

a) Peyğəmbərlərin məyus olması: Həzrət Nuh xalqı ardıcıl şəkildə uzun illər dəvət etdikdən sonra yalnız az bir qisim iman gətirdi. Allah ona buyurdu: “İman gətirənlərdən savay qövmündən bir başqası iman gətirməyəcək.”[1] Nuh ümidsizliyini göstərən nifrinində deyir: “Bunlardan yalnız günahkar və kafirlər doğulacaq.”[2] Hud, Saleh, Şüeyb, Musa, İsanın həyat və fəaliyyətində də xalqın iman gətirməməsindən doğan ümidsizlik nəzərə çarpır.

b) Xalqın peyğəmbərlərə bədgümanlığı: kafirlər peyğəmbərlərin hədələrini uydurma hesab edirdilər. “Hud” surəsinin 27-ci ayəsində oxuyuruq: “Elə düşünürük ki, siz yalançısınız.” Başqa bir ayədə Firon Musaya dedi: “Həqiqətən, sənin ovsunlandığını güman edirəm.”[3]

v) Allahın yardımı: Quran ilahi yardımı Allahın Özü üçün vacib etdiyi haqq sayır.[4] Bəli, Allah möminlərə yardımı Özü üçün zəruri etmişdir. Digər bir yerdə oxuyuruq: “Biz Huda və möminlərə nicat verdik.”[1]

---

1 “Hud”, 36
2 “Nuh”, 27
3 “İsra”, 101
4 “Rum”, 47

Günahkarların ilahi qəhr-qəzəbdən qurtulmaması ilə bağlı buyurulur: “Allah bir qövmə qəhr etsə, dönüş yoxdur.”[2]

◊ **Bildirişlər**

1. Daşqəlblilik və inadkarlıq insanda elə bir həddə çata bilər ki, peyğəmbər də ondan ümidini üzər.

2. Xoşgümanlığın, hövsələnin də həddi vardır.

3. Gücünüzü çıxarsız işlərə sərf etməyin, bəzi insanlardan gözünüzü çəkin.

4. Günahkarlara möhlət verib onların əzabını təxirə salmaq ilahi sünnələrdəndir. Peyğəmbərlər məyus olanadək günahkarlara möhlət verildi.

5. İlahi əzabın təxirə düşməsi günahkarların cürət və təkzibinə səbəb olur.

6. İlahi qəhr-qəzəbin nazil olma şərti peyğəmbərin xalqdan ümidini üzməsidir.

7. Peyğəmbərlərə ilahi yardımın da öz vaxtı var.

8. Peyğəmbərlər və həqiqi möminlər ilahi qəzəbə gəlmirlər.

9. Həm qəhr və əzab, həm də lütf və yardım Allahın əlindədir.

10. İnsanın qəzəbə gəlməsi və ya nicat tapması onun öz əlindədir.

11. Allahın istək və iradəsi qanuna əsaslanır.

12. Allah yolunda çıxılmaz vəziyyət yoxdur.

13. Heç bir güc Allahın qəhr-qəzəbinə maneə ola bilməz.

14. Peyğəmbərlərin himayəsi, günahkarların məhvi ilahi sünnədir.

● Ayə 111:

﴿لَقَدْ كَانَ فِي قَصَصِهِمْ عِبْرَةٌ لِّأُوْلِي الأَلْبَابِ مَا كَانَ حَدِيثًا يُفْتَرَى وَلَكِن تَصْدِيقَ
الَّذِي بَيْنَ يَدَيْهِ وَتَفْصِيلَ كُلِّ شَيْءٍ وَهُدًى وَرَحْمَةً لِّقَوْمٍ يُؤْمِنُونَ﴾

**“Həqiqətən, onların əhvalatında düşüncə sahibləri üçün ibrət var. Bu, uydurulmuş bir söz deyil, əksinə ondan əvvəl gələni, hər şeyi aydınladanı, iman gətirənlər üçün hidayət və rəhmət olanı (səmavi kitabı) təsdiq edəndir.”**

◊ **Nöqtələr**

● “İbrət” və “təbir” sözləri ötüb-keçmək mənasını bildirir.”Yuxu təbiri” dedikdə, röyadan gerçəkliyə keçid nəzərdə tutulur. “İbrət” isə görünən və eşidilənlərdən görünməyən və eşidilməyənlərə keçid mənası daşıyır.

● “Qəsəsihim” sözü bütün peyğəmbərlərin dastanlarına işarə ola bilər. Burada Yusifin, Yəqubun, Yusifin qardaşlarının, Əzizi-Misrin əhvalatı nəzərdə tutula bilər. Məqsəd surədəki acı və şirin hadisələr də ola bilər.

◊ **Bildirişlər**

1. Əhvalatı imtiyazlı edən onun ibrətamiz olmasıdır.

---

1 “Hud”, 58

2 “Rəd”, 11

2. Həzrət Yusif ona qarşı yönəlmiş hiylələrə, çətinliklərə baxmayaraq izzət və qüdrətə çatdığı kimi, İslam Peyğəmbəri (s) də bütün maneələri adlayaraq izzət və qüdrətə çatdı.

3. Yalnız düşüncə sahibləri nəql olunan əhvalatlardan öyüd-nəsihət götürürlər.

4. Quran əhvalatlarından ibrət götürülməsi bir dövrə aid zərurət deyil.

5. Quran əhvalatları göz qabağında olan ibrətamiz gerçəkliklərin bəyanıdır.

6. Düzgün və gerçək danışığın dərin təsiri var.

7. Quran digər səmavi kitablarla tərəfdardır.

8. Quran insanın bütün ehtiyaclarını bəyan edir.

9. Quranda heç bir azğınlıq qatqısı yoxdur və sırf hidayətdir.

10. Yalnız iman əhli Quranın hidayət və rəhmətindən bəhrələnir.

11. Bir məsələni dəyərləndirib ibrət götürmək üçün ağıla ehtiyac var. İlahi nur və rəhmətə çatmaq üçün isə həm də iman lazımdır.

12. Yusifin əhvalatı həqiqət axtaranlar üçün dəlil, düşüncə sahibləri üçün ibrət, iman əhli üçün hidayət və rəhmət səbəbidir.

## “RƏD” SURƏSİ

***(SURƏ: 13; CÜZ: 13; AYƏLƏRİN SAYI: 43)***

***“RƏD” SURƏSİNİN SİMASI***

Məkkədə nazil olmuş bu surə 43 ayədən ibarətdir. Surənin 13-cü ayəsində göy gurultusu (“rəd”) haqqında danışıldığından surə bu adla adlandırılmışdır.

Surədə Quranın əzəməti, tövhid, göylərin və yerin yaradılışı, ayın və günəşin tabe edilməsi, meyvələrin və otların yaranışı, məad və ilahi ədalət, xalqın məsuliyyəti, əhdə vəfa, sileyi-rəhm (yaxınlara ehsan), səbir və güzəşt, Allaha iman sayəsində həqiqi aramlıq əldə olunması, Peyğəmbərə (s) müxalif olanların acı aqibəti mövzularına yer verilmişdir.

بسم الله الرحمن الرحيم

**Bağışlayan və mehriban Allahın adı ilə**

● Ayə 1:

﴿المر تِلْكَ آيَاتُ الْكِتَابِ وَالَّذِي أُنزِلَ إِلَيْكَ مِن رَّبِّكَ الْحَقُّ وَلَكِنَّ أَكْثَرَ النَّاسِ لاَ يُؤْمِنُونَ﴾

**“Əlif, lam, mim, ra. O, (səmavi) kitabın ayələridir. Rəbbin tərəfindən sənə nazil olan haqdır. Amma xalqın çoxu iman gətirməz.”**

◊ **Bildirişlər**

1. Quran olduqca əzəmətli bir kitabdır.
2. Səmavi kitab xalqın tərbiyəsi üçün nazil olmuşdur.
3. Quranda batilə yol yoxdur.
4. Quran çoxluq yox, haqlılıq mehvəridir. Xalqın əksərinin Qurana diqqətsizliyi və ona iman gətirməməsi bu kitabın batil olmasını göstərmir.
5. Xalqın əksəri haqpərəst deyil.
6. Rəhbər bilməlidir ki, xalqın çoxu ona iman gətirməz. Belə olsa, daha ciddi hazırlıqla bu məsələyə yanaşar.

● Ayə 2:

﴿اللّهُ الَّذِي رَفَعَ السَّمَاوَاتِ بِغَيْرِ عَمَدٍ تَرَوْنَهَا ثُمَّ اسْتَوَى عَلَى الْعَرْشِ وَسَخَّرَ الشَّمْسَ وَالْقَمَرَ كُلٌّ يَجْرِي لأَجَلٍ مُّسَمًّى يُدَبِّرُ الأَمْرَ يُفَصِّلُ الآيَاتِ لَعَلَّكُم بِلِقَاء رَبِّكُمْ تُوقِنُونَ﴾

**"Səmaları görə bilməyəcəyiniz sütunlarla ucaldan, ərşə hakim olan, hər biri müəyyən zamanadək dövr edən günəşi və ayı tabe edən Allahdır. O, tədbir tökür, Öz ayələrini aşkar bəyan edir ki, bəlkə Rəbbinizlə görüşə əminliyə çatasınız."**

◊ **Nöqtələr**

● Quranda səmaların Allah tərəfindən saxlandığını bəyan edən bir sıra ayələr var. O cümlədən: "Həqiqətən Allah göyləri və yeri süqutdan hifz edir. Əgər süquta uğrasa, Ondan savay kimsə saxlaya bilməz"[1]; "Allah göylərin yerə süqutunun qarşısını alır."[2]

● Əllamə Təbatəbai "Əl-Mizan" təfsirində deyir: "Ayədəki "təfsil" sözü səma cisimləri və yerin parçalanmasını bildirir. İnsan bu sayaq parçalanmanı müşahidə etməklə qiyamət günü insanların dəstələrə bölünməsini anlayır.

● "Əmd" sözü "əmud" sözünün cəm forması olub sütunlar, dayaqlar mənasını bildirir.

● Həzrət Əlidən (ə) soruşulur ki, Allah-təala bütün məxluqun hesabını necə aparır? Həzrət buyurur: "Bütün məxluqata ruzi verdiyi kimi!"[3]

◊ **Bildirişlər**

1. Göylər möhkəm dayaqlar üzərindədir. Bir şeyi görməmək həmin şeyin olmaması demək deyil. İmam Riza (ə) buyurur: "Sütunlar var, amma siz onları görmürsünüz."
2. Günəş də hərəkətdədir.
3. Səma cisimləri üçün onların hərəkəti miqdarında vaxt bölgüsü aparılır.
4. Varlıq aləminə ilahi təqdir hakimdir.
5. Ayələri aydınlaşdırmaq Allah üçün çətin deyil. (İstər təşrii ayələr olsun, istərsə də təkvini).
6. Varlıq nizamı məqsədlidir. Məadsız, ölümdən sonrakı həyatsız yaranış mənasız olardı.
7. Məadın dəlili elə tövhidin dəlilidir. Yaradan, tədbir tökən Allah Qiyaməti də bərpa edəcək.

● Ayə 3:

---

1 "Fatir", 41
2 "Həcc", 65
3 "Təfsire-Kəbire-Fəxr-Razi"

﴿وَهُوَ الَّذِي مَدَّ الأَرْضَ وَجَعَلَ فِيهَا رَوَاسِيَ وَأَنْهَارًا وَمِن كُلِّ الثَّمَرَاتِ جَعَلَ فِيهَا زَوْجَيْنِ اثْنَيْنِ يُغْشِي اللَّيْلَ النَّهَارَ إِنَّ فِي ذَلِكَ لَآيَاتٍ لِّقَوْمٍ يَتَفَكَّرُونَ﴾

**"Yeri döşəyən, onda dağlar və çaylar qərar verən, hər meyvədən cüt (erkək-dişi) halda müəyyənləşdirən Allah Odur. O, gündüzü gecə ilə örtər. Şübhəsiz, bu işdə düşünən insan üçün nişanələr var."**

◊ **Nöqtələr**

● Ötən ayə səmalar haqqında idi. Bu ayə isə yer və onun nemətləri haqqındadır.

● "Rəvasiyə" "rasiyə" sözünün cəm forması olub sübut mənasını bildirir. Bu səbəbdən də sabit və möhkəm dağlara "rəvasi" deyilmişdir. İstər "zövc", istərsə də "zövcan" sözləri erkək və dişi mənasında işlənilir.

● Təbiətşünas alim Linney 18-ci əsrdə bitkilərin arasındakı "zövciyyət" qanununu", yəni bitkilərin erkək-dişi olmasını kəşf etmişdir. Amma İslam 1400 il öncə həmin məsələni açıqlamışdır. Əlbəttə ki, insanlar hələ keçmişdə xurma kimi bitkilərin erkək-dişi olmasını bilirdi. Bütün bitki aləmində belə bir cütlüyün mövcudluğu isə ilk dəfə Quran tərəfindən elan olundu.

● Bitkilərdə erkək və dişi bəzən bir ağac və ya bir çiçəkdə, bəzən isə iki ağac və ya iki çiçəkdə olur.[1]

● "Məddəl-ərzə" dedikdə olsun ki, torpağın su altından çıxması nəzərdə tutulur. Rəvayətlərdə bu məsələ "dəhvəl-ərz" adı ilə yada salınır. Bu ehtimal müasir dövrün elmi müddəalarına uyğundur. Torpaqla bağlı hazırkı elmi tədqiqatlar yerin öncə su altında olduğunu bildirir.

● Varlıq nizamı zövciyyət (cütlük) prinsipinə əsaslanır: bitkilərdə zövciyyət;[2] heyvanlarda zövciyyət;[3] insanda zövciyyət;[4] hər şeydə zövciyyət.[5]

◊ **Bildirişlər**

1. Yer hikmət və tədbir əsasında döşənmişdir. (Yerin genişliyi, onun üzərində dağların mövcudluğu tarazlığı saxlamış və insanların bəhrələnməsi üçün amil olmuşdur. Əgər bütün yer üzü hamar və ya dağlıq olsaydı, yaşamaq üçün şərait qalmazdı.)

2. Dağlar su ehtiyatı mənbəyi, çaylar suyun paylanma vasitəsidir. Həm dağlar, həm də çaylar insanların yer üzündə yaşaya bilməsi üçün zəmin yaradır.

3. Gecə və gündüzün ardıcıllığı və bir-birini əvəz etməsi həyat amilidir. (Əks təqdirdə ya yer üzü od tutub yanar, ya da soyuqdan donardı.)

4. Təbiət aləmi yataq otağı yox, dərs sinfidir.

---

1 "Təfsire-Furqan"
2 "Hədd" surəsi
3 "Şura" 11
4 "Rum", 21
5 "Zariyat", 49

● Ayə 4:

﴿وَفِي الأَرْضِ قِطَعٌ مُّتَجَاوِرَاتٌ وَجَنَّاتٌ مِّنْ أَعْنَابٍ وَزَرْعٌ وَنَخِيلٌ صِنْوَانٌ وَغَيْرُ صِنْوَانٍ يُسْقَى بِمَاء وَاحِدٍ وَنُفَضِّلُ بَعْضَهَا عَلَى بَعْضٍ فِي الأُكُلِ إِنَّ فِي ذَلِكَ لآيَاتٍ لِّقَوْمٍ يَعْقِلُونَ﴾

**“Yer üzündə bir-birinə yaxın qitələr, hamısı eyni bir su ilə suvarılan, növbənöv üzümü olan bağlar, əkinəcəklər, oxşar və oxşar olmayan xurma bağları vardır. Yemək üçün bəzi meyvələri bəzilərindən üstün etdik. Həqiqətən, bunda düşünən insanlar üçün qəti dəlillər var.”**

◊ **Nöqtələr**

● “Sinvan” dedikdə gövdədən ayrılan budaq nəzərdə tutulur. Həmin söz ayədə oxşar mənasını bildirir.

◊ **Bildirişlər**

1. Yer üzü bir-birinə qonşu qitələrdən ibarətdir. Hər bir qitənin özünəməxsus xüsusiyyətləri var.
2. Meyvələrin rəng, dad, ətir və forma baxımından müxtəlifliyi Allahın qüdrət nişanələrindəndir.
3. Allah meyvələri çeşidli qərar vermişdir, əks təqdirdə bir suyun dadı bir cürdür.
4. Qonşuluq eynilik dəlili deyil. Məhsuldarlıq üstünlük ölçüsüdür.
5. Adi insanlar çeşidli qidalarla yalnız qarnını doydursa, düşüncə sahibləri növbənöv nemətlərlə öz iman ruhlarını da gücləndirirlər.

● Ayə 5:

﴿وَإِن تَعْجَبْ فَعَجَبٌ قَوْلُهُمْ أَئِذَا كُنَّا تُرَابًا أَئِنَّا لَفِي خَلْقٍ جَدِيدٍ أُوْلَئِكَ الَّذِينَ كَفَرُواْ بِرَبِّهِمْ وَأُوْلَئِكَ الأَغْلاَلُ فِي أَعْنَاقِهِمْ وَأُوْلَئِكَ أَصْحَابُ النَّارِ هُمْ فِيهَا خَالِدونَ﴾

**“Əgər təəccüb edirsənsə, təəccüblü onların sözləridir. (Deyirlər ki,) torpaq olduqdan sonra yenidənmi yaradılacağıq? Onlar Rəbbinə küfr edən kəslərdir. Onlardır boyunlarında zəncir olanlar, onlardır əbədi qalacaqları oda həmdəm olanlar.”**

◊ **Nöqtələr**

● Ayədə Peyğəmbərə (s) xitabən buyurulur: “Xalqın peyğəmbərliyi inkar etməsinə təəccüblənmə. Çünki onlar Mənim qüdrətimə, ölüləri diriltməyimə də təəccüb edirlər, buna inanmırlar”.

● Məadı, ölümdən sonrakı həyatı inkar edənlər dəlil göstərmirlər, sadəcə, bu işi mümkünsüz sayırlar. Cavab olaraq, Quran ilahi ədalət və hikməti Qiyamət

dəlili göstərməkdən əlavə, müxtəlif məqamlarda qiyaməti inkar edənlərə cavab vermişdir:

Ayələrdən birində buyurulur: “Əgər siz Qiyamətin baş verməsinə şəkk edirsinizsə, öz ilkin yaranışınızı, sizi torpaq və nütfədən necə yaratdığımızı yada salın.”[1]

Digər bir ayədə buyurulur: “Ey peyğəmbər, xalqa de ki, sizi ilk dəfə yaradan kəs qiyamətdə yenidən xəlq edəcək.”[2]

◊ **Bildirişlər**

1. Məadın inkarı ilahi qüdrət, ədalət və hikmətin inkarıdır. Bu isə küfrdür.

2. Məadı inkar edən insan yalnız dünya həyatını düşündüyündən maddiyyat bəlasına, nəfspərəstliyə, cəhalət və xurafata düçar olar. Belə bir insan axirətdə də ilahi əzab zənciri ilə buxovlanar.

3. Qiyamətdə buxov və zəncir inkarçıların boynuna vurulmur ki, onu çıxara bilələr. Bu zəncir onların boyunlarına elə yeriyir ki, onu açmaq mümkünsüz olur.

4. Məadı inkar edən insan ilahi qəhr-qəzəbdən qurtulmaq üçün ehtiyat görmədiyindən, əzabda əbədi qalır.

● Ayə 6:

﴿وَيَسْتَعْجِلُونَكَ بِالسَّيِّئَةِ قَبْلَ الْحَسَنَةِ وَقَدْ خَلَتْ مِن قَبْلِهِمُ الْمَثُلاَتُ وَإِنَّ رَبَّكَ
لَذُو مَغْفِرَةٍ لِّلنَّاسِ عَلَى ظُلْمِهِمْ وَإِنَّ رَبَّكَ لَشَدِيدُ الْعِقَابِ﴾

**“Rəhmət və yaxşılıqdan öncə səndən tələsərək əzab və pislik istəyirlər. Halbuki onlardan öncə əzablar mövcud olmuşdur. Həqiqətən, Rəbbin xalqın bütün zülmlərinə baxmayaraq onlara qarşı mərhəmətlidir. Şübhəsiz, Rəbbin ağır cəzalandırandır.”**

◊ **Nöqtələr**

● “Məsulat” dedikdə insanın sorağına gələn əzab nəzərdə tutulur.

● Bəzən inadkarlıq elə bir həddə çatır kı, insan ölümə razı olur, amma haqqı qəbul etmir. Qurani-məciddə bu növ ruhiyyənin nümunələrinə işarə olunur. Məsələn, kafirlər deyirlər: “Pərvərdigara! Əgər bu Quran haqdırsa və Sənin tərəfindəndirsə, ya göydən üstümüzə daş yağdır, ya bizi dərdli əzaba düçar et.”[3]

1 “Həcc”, 5
2 “Yasin”, 79
3 “Ənfal”, 32

Başqa bir ayədə buyurulur: "Əgər biz bu Quranı ərəbdən qeyrisinə nazil etsəydik və peyğəmbər onu xalqa qiraət etsəydi, iman gətirməz, onu qəbul etməzdilər."[1]

Başqa bir ayədə kitab əhlinin kafirlərə və bütpərəstlərə belə dediyi nəql olunur: "Sizin yolunuz İslam yolundan üstündür." Halbuki kitab əhli İslama müşriklərdən daha yaxındır, amma inadkarlıq onları haqqı deməkdən çəkindirir."[2]

● Bəzilərinin ilahi əzaba doğru tələsməsinin müəyyən səbəbləri ola bilər:

a) Keçmişdəkilərin tarixinin unudulması, ilahi qəhr-qəzəbə qarşı inamsızlıq;

b) Başqalarına həsəd; tarixi mənbələrdə bildirilir ki, həzrət Əli (ə) imamətə çatdığı vaxt onun bu məqamına dözə bilməyən bir şəxs ölüm arzuladı. "Məaric" surəsinin nazil olma şəni haqqında danışılarkən həmin nöqtəyə işarə olunmuşdu.

v) Nakamlıq, məyusluq, tam çıxılmaz vəziyyətə yetişmək.

q) Hətta can bahasına istehza, inkarçılıq.

● Quran buyurur: "Əgər Allah-təala insanları pis işlərinə görə dərhal cəzalandırası olsa, yer üzündə kimsə qalmaz. Amma o lütf göstərərək səbir edir ki, bəlkə insanlar tövbə edə."[3]

◊ **Bildirişlər**

1. İnsan inadkarlıq səbəbindən elə süqut edir ki, ölməyə razı olur, lakin haqqı qəbul etməyə yox!
2. Keçmişdəkilərin tarixi ən yaxşı nümunədir.
3. Allahın qəhr-qəzəbini zarafat saymayın. Keçmişdə baş verənlərə qarşı diqqətli olun.
4. Xalqın tələsməsinə baxmayaraq, möhlət vermək Allahın sünnəsidir.
5. İnadkar insanlar üçün də tövbə və qayıdış yolu açıqdır.
6. Allah-təala insanların bütün pisliklərinə baxmayaraq onları sevir.
7. Allahın lütfü Onun qəhr-qəzəbindən öndə gəlir.
8. Qorxu və ümid yanaşı olduqda inkişafa gətirir.
9. Allahın qəhr-qəzəbi və lütfü Onun rübubiyyət məqamındandır.

● Ayə 7:

﴿وَيَقُولُ الَّذِينَ كَفَرُواْ لَوْلآ أُنزِلَ عَلَيْهِ آيَةٌ مِّن رَّبِّهِ إِنَّمَا أَنتَ مُنذِرٌ وَلِكُلِّ قَوْمٍ هَادٍ﴾

**"Küfr edənlər deyirlər: «Nə üçün Rəbbi tərəfindən ona dəlil nazil olmayıb?» (Ey peyğəmbər,) sən yalnız qorxudansan və hər bir qövm üçün yol göstərən var."**

◊ **Nöqtələr**

● İbn Abbasdan nəql olunub ki, həzrət Peyğəmbər (s) mübarək əlini sinəsinə qoyub buyurdu: "Mən qorxudanam." Sonra həzrət Əliyə (ə) işarə ilə buyurdu: "Sən hidayət edənsən..."[1]

---

1 "Şuəra", 198, 199
2 "Nisa", 51
3 "Nəhl", 61; bax: "Fatir", 45

◊ **Bildirişlər**

1. Kafirlərin Allah və Onun Rəsulundan (s) yersiz istəkləri var. (Onlar öz nəfs istəklərinə uyğun nişanə və möcüzələr istəyirlər).

2. Bəhanəçi insan Allahın xitabına və müraciətinə layiq deyil. Allah kafirlərin sözünü cavabsız qoyur, peyğəmbərə müraciət edir.

3. Tərbiyədə həm hədəyə, həm də nəsihətə ehtiyac var.

4. Cahil cəmiyyəti müjdələməkdən çox qorxutmaq zəruridir. (Quranda 120 dəfədən çox "qorxut" əmri verilir.)

5. Peyğəmbərlərin əsas işi yersiz istəklər əsasında möcüzə göstərmək yox, nəsihət və xəbərdarlıqdır.

6. Bir daha peyğəmbər gəlməsə də, Allah höccəti hamıya tamamlayır, yer üzü heç vaxt höccətsiz qalmır.

7. Peyğəmbərlər təkcə şərqə məxsus deyil.

8. Hazırkı dövrdə də imamımız və hidayətçimiz olmalıdır. ("Məcməul-bəyan" və "Kənzuld-dəqaiq" təfsirlərində bildirilir ki, "had" dedikdə məsum imamlar nəzərdə tutulur.)

● Ayə 8:

﴿اللّهُ يَعْلَمُ مَا تَحْمِلُ كُلُّ أُنثَى وَمَا تَغِيضُ الأَرْحَامُ وَمَا تَزْدَادُ وَكُلُّ شَيْءٍ عِندَهُ بِمِقْدَارٍ﴾

**"Allah hər bir dişinin (qarnında) daşıdığını, bətnlərin cəzb etdiyini (nütfə kimi), onların artırdıqlarını (cəzb mərhələsindən sonra) bilir. Onun yanında hər şeyin miqdar və ölçüsü var."**

◊ **Nöqtələr**

● Bu ayədə öncə Allahın hər bir dişinin daşıdığından xəbərdarlığı bəyan olunur. Sonra bətnlərə malik olan mövcudlara işarə edilir.

● "Ğəyz" dedikdə (nütfəni) udmaq mənası başa düşülür. Yəni Allah bətnin özünə cəzb etdiyi, orada dəyişikliyə uğrayan, inkişaf edib artan sudan agahdır.

◊ **Bildirişlər**

1. Allah bütün mövcudların bətnində olandan xəbərdardır.

2. Allahın elmi cüzi məsələləri də əhatə edir. (O, bətndəkinin irqindən, sifətindən, istedadlarından, formasından və cinsindən agahdır.)

3. Körpənin təkamül və ya tənəzzülündə bətnin mühüm rolu var.

4.Mövcudların yaranış nizamı miqdar və ölçü əsasında dəqiqdir.

(Əgər hamiləlik müddəti az və ya çox olarsa, körpə vaxtından əvvəl düşərsə və ya əkiz olarsa, körpədə eybəcərlik olarsa, bütün bu əyər-əskikliklər hesabsız və təsadüfi deyil.)

● Ayə 9:

---

1 "Təfsire-Kəbir", c. 19, s. 14

﴿عَالِمُ الْغَيْبِ وَالشَّهَادَةِ الْكَبِيرُ الْمُتَعَالِ﴾

**“O, qeyb və aşkardan agahdır, böyük və uca mərtəbəlidir.”**

◊ **Nöqtələr**

● İnsan üçün qeyb və aşkar arasında fərq var. Yaradan Allah üçün isə qeyb və aşkar arasında fərq yoxdur.

● İmam Sadiq (ə) “alimul-ğeybi vəş-şəhadəti” cümləsi haqqında buyurur: “Qeyb olmamış, şəhadət isə olmuş şeydir.”[1]

◊ **Bildirişlər**

1. Allah bütün kamilliklərə münasibətdə böyükdür, istənilən bir nöqsan və eybdən pakdır.

● Ayə 10:

﴿سَوَاء مِّنكُم مَّنْ أَسَرَّ الْقَوْلَ وَمَن جَهَرَ بِهِ وَمَنْ هُوَ مُسْتَخْفٍ بِاللَّيْلِ وَسَارِبٌ بِالنَّهَارِ﴾

**“Sizlərdən birinin gizli, birinin aşkar danışması, birinin gecədə gizlənməsi, digərinin gündüz aşkar hərəkət etməsi Onun üçün eynidir.”**

◊ **Nöqtələr**

● Zahirdə əvvəlki ayənin izahı və tamamlanmasından ibarət olan bu ayə Allahın elmini tanıtdıran ayələrdəndir. Bəli, Allah insanların kiçik və böyük, aşkar və gizli əməllərindən, hətta niyyətlərindən də xəbərdardır. Allahın belə bir elmə sahib olmasına iman ən üstün həya və təqva amili, ən böyük tərbiyə vasitəsi ola bilər. Çünki Allahın əhatəli elmi xeyir əməl sahiblərini təşviq edir, pis əməl sahibləri üçün xəbərdarlıq olur. Maraqlıdır ki, Allah bu ayədə gizli sözlərdən, məxfi işlərdən, gecə baş verənlərdən xəbərdar olmasını önə çəkir.

● “Sarib” dedikdə axar su nəzərdə tutulur. Amma gündüz iş ardınca gedən insan da “sarib” adlandırılır.

◊ **Bildirişlər**

1. Allahın elmi hər şeyi əhatə edir. (Bir şey haqqında çox, bir şey haqqında az bilmək bizə məxsus sifətdir.)

● Ayə 11:

---

1 “Təfsire-Bürhan”

﴿لَهُ مُعَقِّبَاتٌ مِّن بَيْنِ يَدَيْهِ وَمِنْ خَلْفِهِ يَحْفَظُونَهُ مِنْ أَمْرِ اللّهِ إِنَّ اللّهَ لاَ يُغَيِّرُ مَا بِقَوْمٍ حَتَّى يُغَيِّرُواْ مَا بِأَنْفُسِهِمْ وَإِذَا أَرَادَ اللّهُ بِقَوْمٍ سُوءًا فَلاَ مَرَدَّ لَهُ وَمَا لَهُم مِّن دُونِهِ مِن وَالٍ﴾

**“İnsan üçün onu öndən və arxadan ardıcıl olaraq Allahın əmrindən hifz edən mələklər var. Həqiqətən, bir qövm öz halını dəyişməyincə Allah o qövmün halını dəyişməz. Allah bir qövmə zərər istəsə, onun üçün heç bir dönüş yoxdur. Ondan başqa qarşısında heç bir dost, hami yoxdur.”**

◊ **Nöqtələr**

● “Müəqqibat” sözündəki “ta” hərfi “əlamət” sözündə olduğu kimi mübaliğə üçündür. Ona görə də “yəhfəzunəhu” kişi cinsində işlədilmişdir. “Müəqqibat” dedikdə insanın təqibi yox, mələklərin gecə-gündüz ardıcıl gəlişi nəzərdə tutulur.

● “Əmrillah” dedikdə Allahın qəhr və əzabı nəzərdə tutulmamışdır. Mələklərin insanı Allahın cəzasından qoruması mənasız bir işdir. “Əmrillah” dedikdə Allahın məxluqu olan təbiət hadisələri nəzərdə tutulur. Əlbəttə ki, bu hadisələr də Allahın istək və iradəsindən asılıdır.

● Ayə və rəvayətlərdə bir çox mələklər yada salınır. Onlar arasında insanın canını qoruyan, işləri qeydə alan, insanı Allahın iradəsi ilə qətiləşməmiş təhlükələrdən qoruyan mələklər var. Rəvayətlərdən məlum olur ki, Allahın qəti iradəsi yetişdikdə hifz edən mələklər öz işini dayandırıb insanı Allahın qəti əcəlinin ixtiyarına verir. Deməк, Allahın əmr və göstərişi iki növdür: qəti və qeyri-qəti. Mələklər insanı yalnız qeyri-qəti hadisələrdən qoruyur. Əlbəttə ki, bu sayaq mühafizə insanın ixtiyarını əlindən almır. İnsanların və ümmətlərin taleyi onların öz əlindədir.

● Mələklər insanın həm canını, həm də əməl  və rəftarını hifz edir. Onlar insanın iman və düşüncəsini şeytanın vəsvəsələrindən qoruyur. “Yəhfəzunəhu” həm ruha, həm də cismə aiddir.

● İmam Səccad (ə) bu ayəyə işarə ilə buyurur: “Neməti dəyişən günahlar bunlardır: xalqa zülm, Allaha naşükürlük, insanın adət etdiyi xeyir işlərin boşlanması.”[1]

● Bu ayə ayrı-ayrı insanlara yox, bəşər cəmiyyətinə aiddir. Yəni saleh cəmiyyət Allahın bərəkətinə çatır, azğın cəmiyyət Allahın qəhr-qəzəbinə düçar olur. Amma bu qayda saleh fərd və qeyri saleh fərdə münasibətdə ödənmir. Saleh bir insan imtahan olaraq çətinliyə düşə bilər və ya qeyri saleh insan möhlət alaraq azad buraxıla bilər.

◊ **Bildirişlər**

1. Allah insanı özbaşına buraxmır.
2. İlahi mələklərdən bir dəstəsi insanların mühafizidir.

---

1 “Təfsire-Nurus-Səqəleyn”

3. Allah insanı bilərəkdən özü üçün vücuda gətirdiyi hadisələrdən yox, gözlənilməz hadisələrdən hifz edir.

4. Növbənöv təhlükələr və hadisələr insanı əhatə etmişdir.

5. Allah əta etdiyi neməti geri almır, xalq özü nemətə qarşı naşükürlüklə onu əldən verir.

6. Şans, bəxt, fal və nücum sorağınca getməyin, sizin taleyiniz Allahın əlindədir.

7. Nə qədər ki, insan nemətə qarşı küfr etməyib, Allah onu qoruyur. Yalnız nemətə qarşı küfrdən sonra insan ilahi lütfdən məhrum qalır, özbaşına buraxılır.

8. Zahiri nemətlərdən faydalanma nəfsani kamilliklər və batini hallardan asılıdır.[1]

9. Allahın istəyi bütün istəklərin fövqündədir.

● Ayə 12:

﴿هُوَ الَّذِي يُرِيكُمُ الْبَرْقَ خَوْفًا وَطَمَعًا وَيُنْشِئُ السَّحَابَ الثِّقَالَ﴾

**“Qorxu və ümid üçün sizə şimşəyi göstərən və ağır buludlar yaradan Odur.”**

◊ **Nöqtələr**

● Şimşək və göy gurultusu bir tərəfdən qəfil yağıntı, sel, xarabalıq, yanğın törətməklə insanları qorxuya salır, digər bir tərəfdən yağış vasitəsi ilə bitki aləmini suvarır, havanı təravətləndirmək və paklıq yaratmaqla onları sevindirir.

◊ **Bildirişlər**

1. Zahirdə şimşək, göy gurultusu və yağışın təbii amilləri olsa da, bütün amillərin qaynağı Allah-təaladır.

2. Fizika və kimya qanunlarının kəşfi bizim Allaha imanımızı zəiflətməməlidir. Çünki təbiət və onun qanunları Allahın məxluqudur.

● Ayə 13:

﴿وَيُسَبِّحُ الرَّعْدُ بِحَمْدِهِ وَالْمَلاَئِكَةُ مِنْ خِيفَتِهِ وَيُرْسِلُ الصَّوَاعِقَ فَيُصِيبُ بِهَا مَن يَشَاء وَهُمْ يُجَادِلُونَ فِي اللّهِ وَهُوَ شَدِيدُ الْمِحَالِ﴾

**“Göy gurultusu Ona sitayişlə və mələklər Onun qorxusundan təsbih, tərif deyir. O, şimşəyi endirir ki, istədiyinə zərbə vursun. Halbuki, onlar Allah barəsində höcətləşirlər və O, (Allah) ağır cəza verəndir.”**

◊ **Nöqtələr**

● Quran baxımından bütün varlıq aləmi Allaha tərif söyləməkdədir. Bu təsbih (tərif) həm də elm, şüur və seçim əsasındadır. Maraqlı burasıdır ki, Quran

---

1 Bax: “Əraf”, 96

bu məsələləri düşüncələri cəlb edəcək və inamsızlıqlara xətt çəkəcək bir tərzdə bəyan edir. O cümlədən:

1. “Səbbih” və “yusəbbih” kimi həmin mənanı aşkar təsdiqləyən sözlər;

2. Çoxsaylı surələrdə bu məsələnin təkrarı;

3. Surənin əvvəlində, «Bismillah»dan dərhal sonra mövcudların təsbihi məsələsinin bəyanı;

4. Bütün varlığın qünut və xüzusu[1] ; ulduzların və otların səcdəsi[2] ; göy və yerin itaəti[3] ; namaz və təsbihdə mövcudların agahlığı.[4]

5. İnsana xitab olunur ki, o, mövcudların təsbihini dərk etmir.[5]

● “Mihal” “hiylə” sözündən olub istənilən növ gizli çarə axtarmaq mənasını bildirir. Çarə tapmaq üçün elm və qüdrətə ehtiyac var. Bu səbəbdən də təfsirçilər “şədidul-mihal” ifadəsini “şədidul-quvvə və əzab” kimi mənalandırmışlar.

● Quranın bəzi ayələrində Allahın təsbihi və həmdi yanaşı zikr olunur.[6] Rüku və səcdənin zikrində də bu sözlər yanaşı işlədilir.

● Sünnə əhlindən nəql olunmuş çoxsaylı rəvayətlərdə bildirilir ki, İslam Peyğəmbəri (s) göy gurultusu eşitdiyi vaxt sözünü saxlayar, dua edərmiş. Həzrət başqalarını da belə rəftar etməyə çağırmışdır.[7]

●Bəzən şimşək ilahi cəza olur və Səmud qövmü kimi günahkar qövmlərə nazil edilir.[8]

◊ **Bildirişlər**

1. Göy gurultusu da mələk kimidir. O da agahlıqla, şüurla təsbih deyir. Bu səbəbdən də “rəd” (göy gurultusu) və “mələk” sözləri yanaşı zikr olunmuşdur.

2. Mələklərin təsbihi allahpərəstlik və Allah qorxusuna əsaslanır.

3. Şimşək və şimşək vurması təsadüfi bir iş deyil. Bu hadisə Allahın istəyi ilə, Onun qanunları əsasında baş verir.

4. İnadkar insan üçün şimşək kimi təhlükəli şey yoxdur.

5. Allaha qarşı hiylə və höcət fikrinə düşməyin. Onunla qarşı-qarşıya dayanmaq mümkünsüzdür.

6. Bəzən tədbir və hiylə müsbət yönümə malik olur. Bəzi insanlara qarşı ən ciddi tədbirlər görülməli və proqramlar hazırlanmalıdır.

● Ayə 14:

---

1 Bax: “Bəqərə”, 116;
2 Bax: “Ər-Rəhman”, 6
3 Bax: “Fussilət”, 11
4 Bax: “Nur”, 41
5 Bax: “İsra”, 44
6 Bax: “İsra”, 44
7 “Təfsire-Dürrül-Mənsur”
8 Bax: “Fussilət”, 17

﴿لَهُ دَعْوَةُ الْحَقِّ وَالَّذِينَ يَدْعُونَ مِن دُونِهِ لاَ يَسْتَجِيبُونَ لَهُم بِشَيْءٍ إِلاَّ كَبَاسِطِ كَفَّيْهِ إِلَى الْمَاء لِيَبْلُغَ فَاهُ وَمَا هُوَ بِبَالِغِهِ وَمَا دُعَاء الْكَافِرِينَ إِلاَّ فِي ضَلاَلٍ﴾

**"Yalnız Onu çağırmaq haqdır. Ondan başqa çağırdıqları onlara heç bir cavab verməz. Onların vəziyyəti ağzına su çatdırmaq üçün əlini suya doğru açan kəsin vəziyyəti kimidir. Kafirlərin dua və istəkləri azğınlıqdan başqa bir şey deyil."**

◊ **Nöqtələr**

● Allaha pərəstişə dəvət, yalnız Onu həlledici bilmək və Ondan başqalarına bağlanmamaq Quranda dəfələrlə xatırladılmışdır. Məsələn: "Əgər insan yalnız Məndən istəsə, Mən hökmən ona cavab verərəm"[1]; "Əgər başqalarının sorağına getsə, istədiyini onlardan diləsə, bilsin ki, onlar eşitmirlər və əgər eşitsələr də, cavab verməzlər."[2]

● Məhdud imkanlı insan hadisələrlə dolu həyatında etibarlı bir sığınacağa ehtiyaclıdır. Peyğəmbərlər insana həqiqi sığınacağı tanıtdırırlar. Amma başqalarının (azğın qüvvələrin) yardımları ya alçaltma, ya istismar, ya da təbliğat və mövqenin qorunması məqsədini daşıyır. Əslində onların saya salmadığı yalnız insandır.

● İnsan fitrətən haqqa təşnədir və həqiqət istəyindədir. Amma həqiqətə aparan yolu itirir. Allaha iman, eşq, Onunla ünsiyyət, Ona dua və istəkdən savay heç bir şey gözü doymayan insanı sirab etmir. Çünki Allahdan qeyrisi ("dunillah") yalnız ilğımdır və Allahdan qeyrisindən istəmək hədərdir.

◊ **Bildirişlər**

1. Allahdan qeyrisinin sorağınca getməyin, Ondan qeyrilərinin əlindən heç nə gəlmir.

2. İnsanların şirk qaynağı onların batil təsəvvür və təxəyyülüdür.

3. Allahı ixlasla, səmimi çağıran insan əliboş qaytarılmır. İnsanı əliboş qoyan onun Allahdan qeyrilərinə üz tutmasıdır.

● Ayə 15:

﴿وَلِلّهِ يَسْجُدُ مَن فِي السَّمَاوَاتِ وَالأَرْضِ طَوْعًا وَكَرْهًا وَظِلالُهُم بِالْغُدُوِّ وَالآصَالِ﴾

**"Göylərdə və yerdə olan hər kəs istər-istəməz öz kölgəsi ilə Allaha səcdə edir."**

◊ **Nöqtələr**

---

1 "Bəqərə", 186
2 "Fatir", 14

● Şüurlu mövcuda münasibətdə “mən” (hər kəs), şüursuz varlığa münasibətdə “ma” (hər şey) sözləri işlədilir. Amma bu ayəyə oxşar başqa ayələrdə “ma” sözü işlədilmişdir.[1] Belə bir nəticə əldə olunur ki, bu ayədə də məqsəd bütün mövcudların səcdəsidir. Aydın məsələdir ki, kölgənin ağlı yoxdur.

● Kölgələrin səcdəsi dedikdə kölgənin yerə düşməsi nəzərdə tutula bilər.

● “Usul” sözünün cəm forması olan “asal” (o da “əsl” kökündən olan “əsil” sözünün cəmidir) sözü günün sonu mənasını bildirir.

◊ **Bildirişlər**

1. Varlıq aləmi Allaha itaət edib səcdəyə qatılırsa, nə üçün biz belə etməyək?
2. Səcdə Allaha məxsusdur.
3. Möminlər həvəslə səcdəyə düşürsə, başqaları ehtiyac səbəbindən təvazö göstərməyə məcbur olurlar.
4. Bir mövcud Allah yolunu tutduqda onun əsərləri də bu yola yönəlir.
5. Mövcudların səcdəsi daimidir.

● Ayə 16:

﴿قُلْ مَن رَّبُّ السَّمَاوَاتِ وَالأَرْضِ قُلِ اللّهُ قُلْ أَفَاتَّخَذْتُم مِّن دُونِهِ أَوْلِيَاء لاَ يَمْلِكُونَ لِأَنفُسِهِمْ نَفْعًا وَلاَ ضَرًّا قُلْ هَلْ يَسْتَوِي الأَعْمَى وَالْبَصِيرُ أَمْ هَلْ تَسْتَوِي الظُّلُمَاتُ وَالنُّورُ أَمْ جَعَلُواْ لِلّهِ شُرَكَاء خَلَقُواْ كَخَلْقِهِ فَتَشَابَهَ الْخَلْقُ عَلَيْهِمْ قُلِ اللّهُ خَالِقُ كُلِّ شَيْءٍ وَهُوَ الْوَاحِدُ الْقَهَّارُ﴾

**“De ki, göylərin və yerin Rəbbi kimdir? De ki, Allahdır. De ki, bəs nə üçün Ondan qeyrilərini hami götürmüsünüz? De ki, görməyənlə görən bir-birinə bərabərdirmi? Məgər qaranlıqlar və aydınlıqlar eynidirmi? Yoxsa Allaha Onun kimi yaradan və yaratdığı onlara oxşar görünən şəriklərmi qərar verdilər? De ki, Allah hər şeyin xaliqidir və Odur yeganə qalib.”**

◊ **Nöqtələr**

● Məsələnin sual-cavab şəklində bəyanı təbliğ, tərbiyə və təlim üsullarından biridir. Quran bu üsula çox diqqət yetirmişdir.

● Rəvayətdə deyilir: Allaha qarşı şirk qara daş üzərində qaranlıq gecədə qara qarışqanın hərəkəti kimi məxfidir.[2] “Bu iş Allahın və filankəsin hesabına başa gəlib” demək həmin şirkin nümunələrindəndir.

◊ **Bildirişlər**

1. Müşriklər ifrat təəssüb səbəbindən ən aydın dəlillərə də cavab vermirlər. Bu səbəbdən də peyğəmbər özü öz sualını cavablandırmalıdır.

---

1 Bax: “Nəhl”, 49

2 “Bihar”, c. 72, s. 93

2. Kafirlər Allahın yalnız xaliqliyini qəbul edirlər.[1] Allahdan qeyrilərini isə müdəbbir (idarə edən) sayırlar.

3. Özünə bir xeyir verə bilməyən və özündən bir zərəri uzaqlaşdırmaqda aciz olan insana istənilən bir adla Allah əvəzində itaət edilməməlidir.

4. Haqqı gördüyü halda qəbul etməyən kəsin bəsirət gözü kordur, ətraf fəzası zülmətdir.

5. Allahdan qeyri kimsə bir şey yaratmayıb ki, yaranmışlara münasibətdə səhvə yol verək.

● Ayə 17:

﴿أَنزَلَ مِنَ السَّمَاء مَاء فَسَالَتْ أَوْدِيَةٌ بِقَدَرِهَا فَاحْتَمَلَ السَّيْلُ زَبَدًا رَّابِيًا وَمِمَّا يُوقِدُونَ عَلَيْهِ فِي النَّارِ ابْتِغَاء حِلْيَةٍ أَوْ مَتَاعٍ زَبَدٌ مِّثْلُهُ كَذَلِكَ يَضْرِبُ اللّهُ الْحَقَّ وَالْبَاطِلَ فَأَمَّا الزَّبَدُ فَيَذْهَبُ جُفَاء وَأَمَّا مَا يَنفَعُ النَّاسَ فَيَمْكُثُ فِي الأَرْضِ كَذَلِكَ يَضْرِبُ اللّهُ الأَمْثَالَ﴾

**“Allah səmadan su nazil etdi, çaylar (hövzələr) öz tutumunca dolub daşdı, sel özü ilə köpük apardı. Zinət və ya bir əşya düzəltmək üçün odda əritdiklərindən selin köpüyü kimi köpük yarandı. Allah haqqı batildən bu sayaq ayırır. Köpük kənara çəkildi, xalq üçün faydalı olan isə yerdə qaldı. Allah bu sayaq misallar çəkər.”**

◊ **Nöqtələr**

● Bu ayədə batili tanıtdırmaq üçün iki misal çəkilir: suyun üzərindəki köpük, dəmir əridilərkən onun üzərində yaranan köpük.

● Batil köpük kimidir. Çünki müvəqqətidir, haqq sayəsində üzə çıxır, haqqın üzünü örtür, görüntüsü var, dəyəri yox, nə susuzu sirab edir, nə də onda bitki cücərir, vəziyyət aramlaşdıqda məhv olur, üzdə səs-küylüdür, içi isə boş və dəyərsizdir. Digər ayələrdə də bu məsələyə işarə olunmuşdur: “Batili haqla döyəcləyək”[2]; “Allah batili məhv edər”[3]; “Batil dünya və axirətdə puçdur”[4]; “Haqq gəldi, batil getdi”[5].

---

1 Bax: “Ənkəbut”, 61
2 “Ənbiya”, 18
3 “Şura”, 24
4 “İsra”, 81
5 “İsra”, 81

● Misal vasitəsi ilə əqli məsələlər hiss olunur, məqsədə çatma yolu ilə qısalır, məsələ ümumiləşir, inadkarlar, yerində oturur. Bu səbəbdən də Quran misal üslubundan istifadə etmişdir.

◊ **Bildirişlər**

1. Allahın feyzi tükənməzdir və hər kəs öz istedadı həddində bəhrələnir.

2. Zəruri və rifah üçün vasitələrin düzəldilməsi istiqamətində səy bəyənilmişdir.

3. Hadisələr sobasında qatqılar üzə çıxır, haqq batildən seçilir.

4. Batilin mövcudluğu üçün xüsusi məkan və zəminə ehtiyac yoxdur (köpük həm selin, həm də əridilmiş filizin üzərində zahir olur).

5. Batilin mənbəsi haqq və həqiqətin bulaşdığı qatqılardır.

6. Haqq və batil birlikdədir, amma sonda batil puç olub gedir.

7. Xalqın faydası haqdadır.

8. Haqq müvəqqəti deyil.

9. Xalq üçün faydalı olan sərvət, bilik, dost və hakimiyyət davamlıdır.

10. Allah tərəfindən nazil olan hər şey yağış kimi xalis və haqdır. Amma həqiqətə maddiyyat qatıldıqda bulaşıqlıq yaranır, köpük və batilin üzə çıxması üçün zəmin hazırlanır.

● Ayə 18:

﴿لِلَّذِينَ اسْتَجَابُواْ لِرَبِّهِمُ الْحُسْنَى وَالَّذِينَ لَمْ يَسْتَجِيبُواْ لَهُ لَوْ أَنَّ لَهُم مَّا فِي الأَرْضِ جَمِيعًا وَمِثْلَهُ مَعَهُ لاَفْتَدَوْاْ بِهِ أُوْلَئِكَ لَهُمْ سُوءُ الْحِسَابِ وَمَأْوَاهُمْ جَهَنَّمُ وَبِئْسَ الْمِهَادُ﴾

**“Rəbbini eşidən kəslər üçün ən yaxşı mükafat var. Amma Onun dəvətini qəbul etməyənlər bütün yer üzündə olana və onun oxşarına malik olsaydılar, bütün bunları (əzabdan qurtarmaq üçün) şübhəsiz, fidyə verərdilər. Onlar üçün çətin hesab var, onların yeri cəhənnəmdir. Necə də pis yerdir!”**

◊ **Nöqtələr**

● Qurandan məlum olur ki, qiyamətdə insanlar üçün bir neçə növ hesab var:

1. Bir dəstənin hesabı yüngüldür.[1]

2. Bir dəstə insanla dəqiq hesab aparılar.[2]

3. Bəziləri sorğu-sualsız cəhənnəmə gedər və onların mühakiməyə, mizana ehtiyacları yoxdur.[3]

4. Bir dəstə isə sorğu-sualsız behiştə gedər.[1]

---

1 Bax: “İnşiqaq”, 8
2 Bax: “Talaq”, 8
3 Bax: “Kəhf”, 105

● Çoxsaylı rəvayət və hədislərdən məlum olur ki, xalqla güzəştlə dolananların hesabı yüngül, xalqla çətin dolananların hesabı ağır olur. Müşriklər cəhənnəmə, səbir əhli behiştə hesabsız daxil olar. (Müəllifin "Məad" kitabında müxtəlif sorğu növləri araşdırılmışdır.)

● Quranda istəyin qəbul olması məsələsi qarşılıqlıdır. Yəni istəyinin Allah tərəfindən qəbul olunmasını gözləyən kəs Allahın dəvətini qəbul etməlidir.[2] Allah, Onun rəsulu sizi həyatverici məktəbə doğru çağırdıqda müsbət cavab verin ki, Allah da sizin dualarınızı qəbul etsin.[3]

### *DƏVƏT MÖVZUSUNDA SÖHBƏT*

● Dəvət mövzusu müxtəlif baxımlardan diqqəti cəlb edir:

1. Haqqa dəvət edənlər:

a) Peyğəmbərlər;[4]

b) Möminlər;[5]

v) Cinlər.[6]

Batilə dəvət edənlər:

a) Küfr başçıları;[7]

b) Şeytan;[8]

v) Müşriklər.[9]

2. Dəvət mövzusu: Həyat, doğru yol, bağışlama, behişt, qurtuluş.[10]

3. Müxaliflərin rəftarları:

a) Böhtan, sahirlik, şairlik, kahinlik, divanəlik, yalançılıq, hakimiyyət istəyi;[11]

b) Hədə;[12]

v) Təhqir;[13]

q) Şəkk;[14]

d) Fitnə və savaş.[15]

4. Dəvətin qəbul olunmamasının səbəbləri: təqlid, təəssüb, təkəbbür, nəfs istəkləri.[1]

---

1 Bax: "Zumər", 10
2 Bax: "Ənfal", 24
3 Bax: "Ənbiya", 88; "Ali-İmran", 195
4 Bax: "Yusuf", 108; "Ali-İmran", 153; "Əhzab", 46
5 Bax: "Ali-İmran", 104
6 Bax: "Əhqaf", 31
7 Bax: "Qəsəs", 41
8 Bax: "Loğman", 21; "İbrahim", 22
9 Bax: "Bəqərə", 221
10 Bax: "Ənfal", 24; "Muminun", 73; "Bəqərə", 221; "Yunus", 25; "Ğafir", 41
11 Bax: "Əraf", 109; "Ənbiya", 5; "Tur", 29; "Qələm", 51; "Əraf", 66; "Muminun", 24
12 Bax: "Hud", 91; "Ənfal", 30
13 Bax: "Ənbiya", 36
14 Bax: "Əraf", 75
15 Bax: "Ənfal", 30

5. Qəbulun mükafatı: mükafat, həyat, gözəllik.[2]

◊ **Bildirişlər**

1. Ən üstün şeylər möminlərin intizarındadır.
2. Qiyamət günü çatdığı vaxt cərimə və fidyəyə yer qalmır.
3. Allahın dəvəti meyl və rəğbətlə qəbul olunmalıdır.

● Ayə 19:

﴿أَفَمَن يَعْلَمُ أَنَّمَا أُنزِلَ إِلَيْكَ مِن رَبِّكَ الْحَقُّ كَمَنْ هُوَ أَعْمَى إِنَّمَا يَتَذَكَّرُ أُوْلُواْ الأَلْبَابِ﴾

**“Məgər Rəbbin tərəfindən sənə nazil olanın haqq olduğunu bilənlə görməyən kəs eynidirmi? Həqiqətən, yalnız düşüncə sahibləri öyüd götürür.”**

◊ **Nöqtələr**

● Ötən ayədə peyğəmbərlərin həyatverici dəvətini qəbul edənlər haqqında danışıldı. Bu və bundan sonrakı ayələrdə dəvəti qəbul etməyin təsirlərinə işarə olunur.

● İnsanda fitrət, əql, elmi beyni (mərkəzi) var. Bəzən adət-ənənə, xurafat və nəfs istəkləri bu mərkəzin üstünə pərdə çəkir. Bu səbəbdən də insan daim adı çəkilən mərkəzlərə diqqətli olmalıdır.[3]

### *QURANDA DÜŞÜNCƏ SAHİBLƏRİNİN SİMASI*

● “Ulul-əlbab” (düşüncə sahibləri) ifadəsi Quranda 16 dəfə, müxtəlif vəsflərlə bəyan olunmuşdur. O cümlədən:

1. Hökmlərin əsrarını anlayarlar;[4]
2. Gələcəyi nəzərə alarlar;[5]
3. Dünyanı dayanacaq yox, keçid sayarlar;[6]
4. Tarixdən ibrət götürərlər;[7]
5. Yetərli məntiqi qəbul edərlər;[8]
6. Gecə namazı və ibadət əhlidirlər.[9]

◊ **Bildirişlər**

1. Quran həqiqətdən xəbərsiz insanı kor sayır.

---

1 Bax: “Qəsəs”, 50
2 Bax: “Nisa”, 173; “Ənfal”, 24; “Rəd”, 18
3 “Təfsire-Furqan”
4 Bax: “Bəqərə”. 179
5 Bax: “Bəqərə”, 197
6 Bax: “Ali-İmran”, 191
7 Bax: “Yusuf”, 111
8 Bax: “Zumər”, 18
9 Bax: “Zumər”, 9

2. Cin insan fitrətinə uyğundur. Qəfləti aradan qaldırmaq üçün yalnız xəbərdarlıq lazımdır.

3. İnsanı səmavi kitabın həqiqətinə yetirməyən ağıl ağıl deyil.

4. Faydalı elm düşüncə və zikr məhsuludur.

5. Sağlam ağıl və saf fitrət əldə etmək üçün günah və qəflətdən qurtulmaq lazımdır.

● Ayə 20:

﴿الَّذِينَ يُوفُونَ بِعَهْدِ اللّهِ وَلاَ يِنقُضُونَ الْمِيثَاقَ﴾

**“(Düşüncə sahibləri) ilahi əhdə vəfa qılan və əhdi pozmayan kəslərdir.”**

◊ **Nöqtələr**

● “Əhdillah” dedikdə həm fitri, həm əqli, həm şəri, həm də insanlar arasındakı əhdlər nəzərdə tutulur. Haqq-ədalətə eşq fitri əhd, varlıq aləminin, yaranış və məadın həqiqətlərinin dərki əqli əhd, vacib hökmlərə əməl, haramlardan çəkinmək şəri əhd, insanlar arasındakı hər hansı müqavilə insanlararası əhd sayılır. Allah insanlara haqq əsasında öz aralarında bağladıqları əhdə əməl etməyi vacib buyurmuşdur.[1]

● Ən mühüm ilahi əhdlərdən biri səmavi rəhbərlərin imamətidir. Həzrət İbrahim çoxsaylı sınaqlardan sonra imamət məqamına çatıb, Allahdan övladları üçün belə bir məqam istədi. Allah imamət məqamının mahiyyətini aydınlaşdırmaq üçün belə buyurdu: “Mənim əhdim (imamət) zalımlara yetişməz.”

● “Misaq” dedikdə insanın qəlbdən əmin olduğu bir şey nəzərdə tutulur. İlahi rəhbərin varlığı insanın qəlbinə və ruhuna aramlıq verdiyindən “misaq” nümunələrindən sayılmışdır.

●Valideynə hörmət, əmanətin qaytarılması kimi əhdə vəfadarlıq təkcə İslamda deyil, həm də insan haqlarındandır. Çünki hər bir düşüncəli insan bu vəzifələrə əməl etməlidir.

◊ **Bildirişlər**

1. Düzgün və sağlam düşüncə insanı Allah dininə vəfalı edir.

2. Əhdə vəfa ağıl və düşüncə nişanələrindəndir.

3. İctimai müqavilələrə hörmət düşüncə sahibi olan mömininin xüsusiyyətlərindəndir.

● Ayə 21:

1 “Təfsire-Nümunə”

﴿وَالَّذِينَ يَصِلُونَ مَا أَمَرَ اللّهُ بِهِ أَن يُوصَلَ وَيَخْشَوْنَ رَبَّهُمْ وَيَخَافُونَ سُوءَ الحِسَابِ﴾

**“(Düşüncə sahibləri) Allahın əmri ilə birləşməli olanları birləşdirən, Rəbbinin hüzurunda və sorğu-sualın çətinliyindən qorxan kəslərdir.”**

◊ **Nöqtələr**

● Rəvayətlərdə deyilir ki, birləşdirilməsi Allah tərəfindən əmr olunan həqiqət sileyi-rəhm, yəni ailə bağlılıqlarının qorunması, o cümlədən məktəb bağlılıqlarının hifz olunması, səmavi rəhbərlə daimi və dərin rabitə, vilayət xəttinə itaətdir.[1]

● Əsrimizdə ötəri bir baxışla görmək olar ki, yer üzünün ən böyük və ən mühüm sərmayəsinə - neftə, bir milyard insanın vəhdət nöqtəsi olan Kəbəyə, ən üstün məktəb və məntiqə malik olmalarına baxmayaraq, müsəlmanlar ilahi rəhbər məsələsinə biganə qaldıqlarından dünyanın zalım güclərinin sıxıntısı altındadırlar. “Bəqərə” surəsinin 27-ci ayəsində buyurulur: “Allahla əhd bağladıqdan sonra onu pozanlar, birləşdirilməsi Allah tərəfindən əmr olunmuşu parçalayanlar, yer üzündə fitnə-fəsad törədənlər, məhz belələri ziyana uğrayanlardır!” Yalnız qohumluq əlaqələrinin kəsilməsi ilə yer üzünü fitnə-fəsadın bürüməsi inandırıcı görünmür. Şübhəsiz ki, əsas bəla ilahi rəhbərə itaətsizlikdədir. Məhz bu səbəbdən müsəlmanlar zalım qüvvələrin pəncəsinə düşmüş, müsəlman məmləkətlərini fəsad və yoxsulluq bürümüşdür.

● Allahın qorunmasını əmr etdiyi rabitələr çeşidli və çoxdur. O cümlədən: alimlərlə elmi rabitələr[2]; xalqla ictimai rabitələr[3]; valideynlə mənəvi rabitələr[4]; yoxsullarla iqtisadi rabitələr[5]; cəmiyyətin idarəçiliyində düşüncə rabitələri[6]; vilayətlə, rəhbərlə siyasi rabitələr[7]; möminlərlə hərtərəfli rabitələr[8]; Allahın övliyaları ilə mənəvi rabitələr[9].

### *SİLEYİ-RƏHM (QOHUMLARLA ƏLAQƏ, QOHUMLARA EHSAN)*

● Sileyi-rəhm dedikdə təkcə görüşmək nəzərdə tutulmur. Maddi yardımlar da sileyi-rəhm nümunələrindəndir. İmam Sadiq (ə) buyurur: “İnsanın var-

---

1 “Təfsire-Safi”
2 Bax: “Nəhl”, 43
3 Bax: “Ali-İmran”, 200
4 Bax: “Bəqərə”, 83
5 Bax: “Bəqərə”, 245
6 Bax: “Ali-İmran”, 159
7 Bax: “Nisa”, 59
8 Bax: “Hucurat”, 10
9 Bax: “Əhzab”, 21

dövlətində zəkatdan əlavə, başqalarının haqqı var." Sonra imam bu ayəni oxumuşdur.[1] Ola bilsin ki, imam başqalarının haqqı dedikdə xümsü nəzərdə tutmuşdur.

● Allah-təalanın sileyi-rəhm həqiqətini Öz adı ilə yanaşı zikr etməsi bu həqiqətin əhəmiyyətini yetərincə işıqlandırır.[2]

● "Ərham", yəni "qohumlar" dedikdə təkcə ailə və yaxınlar yox, həm də bütün fərdlərin qardaş olduğu İslam cəmiyyəti nəzərdə tutulur.[3] Bu söz möminlərin atası olan həzrət Peyğəmbər (s) və həzrət Əliyə (ə) də şamil olunur. Həzrət Peyğəmbər (s) buyurur: "Mən və Əli ümmətin atasıyıq."[4]

● İmam Sadiq (ə) dünyadan köçmək astanasında ikən göstəriş verdi ki, onun üzünə ağ olmuş qohumlara hədiyyə verilsin. Həzrət bu işinə görə məzəmmət olunduqda yuxarıdakı ayəni oxudu.[5] Bizə belə öyrədilmişdir ki, qarşı tərəfin bizə məhəbbəti və xoş gümanlığı sileyi-rəhm şərti deyil.

● "Yəxşəvnə Rəbbəhum" və "yəxafunə suəl hisab" ifadələri haqqında danışarkən deməliyik ki, "xəşyət" və "xovf" sözləri bəzən eyni mənanı bildirsə də, əslində fərqli mənalara malikdir. "Xəşyət" dedikdə hörmət və qarşı tərəfin əzəmətindən doğan qorxu, "xof" dedikdə isə istənilən bir qorxu və iztirab nəzərdə tutulur. Hər hansı acı hadisə ilə bağlı "xəşyət" sözü işlədilmir. İnsan soyuqdan və xəstəlikdən qorxusunu "xəşyət" sözü ilə ifadə etmir. Belə çıxır ki, "xəşyət" alimlərə, "xof" isə bütün xalqa aid olan haldır. Quranda buyurulur: "Yalnız alimlərin Allahdan qorxusu ("xəşyəti") var."[6]

◊ **Bildirişlər**

1. Əqidə məktəbi və ilahi bağlılıqların qorunması həqiqi ağıl nişanəsidir.
2. Biz Allah əmrinə əsasən yaxınlarımızla bağlılıqda olmalı və onların bu bağlılıqda maraqlı olub-olmadıqlarını nəzərə almamalıyıq.
3. Qohumlarla görüşdə günahdan, o cümlədən göz günahından çəkinin.
4. Həm Allahın əzəmətindən, həm də Onun cəzasından qorxun.
5. Qohumlarla əlaqəni kəsmək Qiyamət hesabını ağırlaşdıran səbəbdir.

● Ayə 22:

---

1 "Təfsire-Safi"
2 Bax: "Nisa", 1
3 Bax: "Hucurat", 10
4 "Bihar", c. 23, s. 295
5 "Təfsiri-Nurus-Səqələyn"
6 "Fatir", 28

﴿وَالَّذِينَ صَبَرُواْ ابْتِغَاء وَجْهِ رَبِّهِمْ وَأَقَامُواْ الصَّلاَةَ وَأَنفَقُواْ مِمَّا رَزَقْنَاهُمْ سِرًّا وَعَلاَنِيَةً وَيَدْرَؤُونَ بِالْحَسَنَةِ السَّيِّئَةَ أُوْلَئِكَ لَهُمْ عُقْبَى الدَّارِ﴾

**"Düşüncə sahibləri Rəbbinin diqqətini cəlb etmək üçün səbir edən, namazı bərpa edən, verdiyimiz ruzidən gizlində və aşkarda infaq edən, pisliyi yaxşılıqla paka çıxaran kəslərdir. Axirət sarayı onlara məxsusdur."**

◊ **Nöqtələr**

● Səbir dedikdə təkcə çətinliklərə dözmək nəzərdə tutulmur. Səbir ibadətdə, günahla mübarizədə, müsibətə düşdükdə dözüm göstərməkdir. İtaətdə təslimçilik, qürurdan uzaqlıq, nemətlər qarşısında məst olmamaq səbir nümunələridir.

● "Vəchi-Rəbbihim" dedikdə Allahın diqqətinin cəlb olunması və razılığı başa düşülür.

● Namazın bərpası ilahi əhd nümunələrindəndir. Bu həqiqət rəvayətlərdə də təsdiqlənir.

● Səbir və namaz Allahla, infaq və yaxşılıq xalqla rabitədir.

● İnfaqın dərəcələri var:

Birinci addım – Allahın fəzl və bəxşişlərindən bağışlamaq;[1]

İkinci addım – Halal qazancdan bağışlamaq;[2]

Üçüncü addım – Sevimli şeylərdən bağışlamaq;[3]

Dördüncü addım – İsar (ehtiyac duyulanı bağışlamaq).[4]

● "Əl-Mizan"da buyurulur ki, "uqbəddar" dedikdə dünyada xeyir aqibət nəzərdə tutulur. Amma bu sözü hər iki dünyada xeyir aqibətə aid etmək olar.

● Pisliyi yaxşılıqla aradan götürmək odur ki, möminlərdən biri xoşagəlməz bir iş gördükdə ona göz yumaq. Əlbəttə ki, söhbət zalım və günahkar fərdlərdən getmir. Zülm və fəsad əhlinə qarşı onların özü kimi cavab vermək lazımdır. İslam əxlaq, mərhəmət, güzəşt dini olsa da, müəyyən məqamlarda ürəyiyumşaqlıq göstərməmək tapşırılır.[5]

● Quranın güzəşt, mərhəmət, qorxu, səbir, infaqla bağlı buyruqlarından məlum olur ki, bu məktəb əhatəli məktəbdir. Və kamil insanlar həm öz əhdlərinə sadiqdirlər, həm də bütün rabitələrini hifz edirlər. Onlar böyük təqvaya sahibdirlər, guşənişinlik əvəzinə bütün meydanlarda fəal iştirak edirlər.

◊ **Bildirişlər**

1. Yalnız Allah üçün və Onun yolunda olan səbir və sabitlik dəyərlidir. (Təəssübkeşlik və inadkarlıq, məsələyə birtərəfli yanaşma qəbul olunmazdır.)

---

1 Bax: "Bəqərə", 254
2 Bax: "Bəqərə", 267
3 Bax: "Ali-İmran", 92
4 Bax: "Həşr", 9
5 Bax:"Nur", 2

2. Söhbət təkcə namaz qılmaqdan yox, namazın bərpa olunmasından gedir. Yəni namazın qaydalarına, şərtlərinə, namazla bağlı hədd və göstərişlərə əməl olunmalıdır.

3. Başqalarına yardım göstərmədən Allahla saxlanılan rabitə məqbul deyil. Başqalarına yardım dedikdə təkcə maddi yardım nəzərdə tutulmur.

4. İnfaqınızla (başqalarına göstərdiyiniz yardımla) qürrələnməyin. Nə verirsinizsə Allahdandır.

5. İşdə niyyət Allahın razılığıdırsa, bu işin aşkar və ya gizli görünməsi mühüm deyil.

6. Hikmət tələb edir ki, bəzi köməklər aşkar, bəzi köməklər isə məxfi çatdırılsın.

7. Günahı tövbə, pis işi yaxşı iş, zülmü güzəşt, təhqiri salam, əzabı sədəqə, cəfanı yardım, istibdadı məşvərət, zalım qüvvələrin və şeytanın vilayətini haqq vilayətlə aradan qaldıraq.

8. Dünya və axirətdə xoş aqibət düşüncə sahiblərinə məxsusdur.

● Ayə 23:

﴿جَنَّاتُ عَدْنٍ يَدْخُلُونَهَا وَمَنْ صَلَحَ مِنْ آبَائِهِمْ وَأَزْوَاجِهِمْ وَذُرِّيَّاتِهِمْ وَالمَلاَئِكَةُ يَدْخُلُونَ عَلَيْهِم مِّن كُلِّ بَابٍ﴾

**“Özlərinin, saleh ataları, zövcələri və övladlarından hər kəsin daxil olacağı əbədi bağlar var. Mələklər hər bir qapıdan (təbrik üçün) onların yanına gələr.”**

◊ **Nöqtələr**

● Quranda müxtəlif məqamlarda işlədilmiş 137 “cənnat” və “cənnət” sözlərindən yalnız 11-i Ədn cənnətlərinə aiddir. “Dürrül-Mənsur”da nəql olunmuş bir hədisə görə, ədn cənnəti dedikdə xüsusi bir behişt (bağ) nəzərdə tutulur.[1]

Həzrət Peyğəmbər (s) buyurur: “Hər kəs mənim ölümüm və həyatım kimi ölüm və həyat istəyirsə və mənim behiştim olan Ədn cənnətlərinə daxil olmağı arzulayırsa Əli ibn Əbu-Talib və onun övladlarını özünə rəhbər və imam qərar verməlidir. Onlar elm və düşüncədə ən üstün insan və xalqı doğru yola çağıran ən üstün hadidirlər.” [2]

● Quranda dəfələrlə bəyan olunur ki, bir ailədən olan saleh insanlar behiştdə birlikdə qalasıdırlar. Onlar bir-birləri ilə söhbətdən ləzzət alacaqlar. Əlbəttə ki, ayədə yalnız atanın, onun zövcəsinin və övladlarının adının çəkilməsi bu lütfün yalnız onlara aid olduğunu göstərmir. Allahın bu lütfü ailənin digər saleh fərdlərinə, bacılara, qardaşlara da aiddir. Ayədə ananın qeyd olunmamasının səbəbi onun atanın zövcəsi olması da ola bilər. Bacı və qardaş

1 “Təfsiri-Furqan”
2 “Təfsire-Nurus-Səqəleyn”

atanın övladları olduğundan onların da adı xüsusi qeyd olunmamış qala bilər. Əmi və bibinin atanın nəslindən sayılması mümkündür.

● İlahi ayələrdən məlum olur ki, mələklər dünya və axirətdə bütün hallarda insanla əlaqəlidirlər. Onlar bəzən insana salam göndərir, bəzən onun bağışlanmasını diləyir, ölüm məqamı və bərzəxə daxil olarkən ona təlqin edirlər. Mələklər "səlamun ələykum" deməklə insanların canını alır.[1] Mələklər axirətdə də dörd bir yandan möminləri salamlayırlar.

● Behiştdə 8 qapının olması zikr edilir. Bu say son ayələrdə "ulul-əlbab" - düşüncə sahiblərinə aid sadalanmış vəsflərin sayı qədərdir. Sanki bu 8 sifətdən hər biri üçün behiştdə bir qapı müəyyənləşdirilmişdir. Düşüncə sahiblərinə aid olan hər bir sifət insan üçün onu əbədi səadətə aparacaq bir yol açır.

● Ata və övladlar, ər və arvadların heç də hamısı behiştdə bir yerdə olmayacaqlar. Çünki Qiyamət günündə qohumluq əlaqəsi təsirsizdir.[2] Həmin gün hər kəsin taleyi onun əməllərindən asılıdır.[3] Həmin gün insanın taleyini müəyyənləşdirən yalnız və yalnız onun səy və təlaşıdır.[4] Deməh, yalnız ləyaqətli insanlar qohumluq əlaqələri səbəbindən bir yerdə ola bilərlər. Yəni ləyaqətli ata, ləyaqətli zövcə və ləyaqətli övladlar behiştdə bir yerə toplana bilərlər. "Ğafir" surəsinin 7, "Tur" surəsinin 21-ci ayələrində də həmin məsələyə işarə olunur.

◊ **Bildirişlər**

1. Behiştə daxil olmaq üçün saleh olmaq şərtdir.

2. Behişt ailəsi elə bir ailədir ki, onun üzvləri haqq yolda bir-birinə bağlı və səmimidirlər.

3. İslamda daxili hislərə diqqət mühüm məsələdir. Ləyaqətli insan üçün ailədən uzaqda olan ən gözəl məkan belə darıxdırıcı gəlir.

● Ayə 24:

﴿سَلاَمٌ عَلَيْكُم بِمَا صَبَرْتُمْ فَنِعْمَ عُقْبَى الدَّارِ﴾

**"(Mələklər behişt əhli ilə görüşən zaman onlara deyərlər:) səbir etdiyinizə görə sizə salam olsun. Axirət evi necə də gözəldir!"**

◊ **Nöqtələr**

● Quranın misilsiz imtiyazlarından biri ən dərin mənaya malik məsələlərin ən sadə və müxtəsər şəkildə bəyan olunmasıdır. Qısa və mənalı ifadələrdən biri də "səlamun ələykum" ifadəsidir. Bu mənalı və səlis ifadənin tarixi həzrət İbrahim, Nuh və Adəmə yetişir.[5]

● Salam Allahın adlarından biridir. Salam Allahın Peyğəmbərə "mübarək olsun" müraciəti, Behişt əhlinə təbriki, mələklərin zümzüməsi, bütün

---

1 Bax: "Əhzab", 43; "Ğafir", 7; "Ğafir", 8; "Fussilət", 30; "Nəhl", 32
2 Bax: "Muminun", 101
3 Bax: "Muddəssir", 38
4 Bax: "Nəcm", 39
5 Bax: "Saffat", 79; "Saffat", 120

müsəlmanlar arasında beynəlmiləl söz, behişt əhlinin dünya və axirətdə şüarı, xaliq və məxluq zikri, giriş və çıxış nidası, bütün məktubların başlanğıcı, ölüyə və diriyə, böyüyə və kiçiyə ünvanlanan sözdür. Salamın cavabını almaq vacibdir.

● Salamın mahiyyəti ehtiram, təbrik, dua, Allah tərəfindən mübarəklikdir.[1] Biz namazın sonunda salam verməklə tarix boyu irq, yaş, cins, sərvət, məqam, dil, zaman imtiyazlarını aradan götürür, Allahın bütün saleh bəndələri ilə rabitə qurur və onlara salam göndəririk.

● Rəvayətdə deyilir: "Xalqın bir dəstəsi behiştə sorğu-sualsız gedər. Mələklər bunun səbəbini soruşduqda onlara bildirilər ki, biz dünyada Allaha itaətə, çətinliklərə səbir edirdik. Mələklər bu cavabı eşidib onları salamla qarşılayarlar."[2]

● İmam Sadiq (ə) buyurmuşdur: "Biz səbir əhliyik. Amma şiələrimiz bizdən də səbirlidir. Çünki biz nəyə səbir etdiyimizi bildiyimiz halda onlar nəyə səbir etdiklərini bilmirlər."[3]

## *SƏBİRLƏ BAĞLI BƏZİ NÖQTƏLƏR*

1. Səbirin mənşə və qaynağının Allah tərəfindən olduğuna inanın.[4]
2. Səbirlilikdə məqsədimiz yaxşı tanınmaq və ya başqa bir şey yox, Allahın razılığı olsun.[5]
3. Səbir peyğəmbər xüsusiyyətlərindəndir.[6]
4. Səbir behiştin açarıdır.[7]
5. Bəlalar və ilahi sınaqlar zamanı səbir insan şəxsiyyətinin məhəyi, haqq və səbir əhlinin çöhrəsinin işıqlanmasıdır.[8]
6. Səbir Allahın salavatını əldə etmək səbəbidir.[9]

(Peyğəmbər və onun Əhli-beytinə (ə) salavat göndərilməsinin səbəblərindən biri onların səbirdə öncüllüyü ola bilər.)

7. Baş bədən üçün necədirsə, səbir də iman üçün o cürdür. Bu oxşatma Peyğəmbər (s) buyruğuna əsaslanır.[10]
8. Səbir Behişt əhlinin dərəcə mizanıdır.[11]
9. Səbirin dərəcələri var. Hədisdə deyilir ki, müsibətə səbirin 300, itaətə səbirin 600, günah qarşısında səbirin 900 dərəcəsi var.[12]

---

1 Bax: "Yasin", 58
2 "Təfsire-Qurtubi"
3 "Təfsire-Safi"
4 Bax: "Nəhl", 127
5 Bax: "Muddəssir", 7
6 Bax: "Ənbiya", 85
7 Bax: "Bəqərə", 214
8 Bax: "Muhəmməd", 31
9 Bax: "Bəqərə", 157
10 "Bihar", c. 9, s. 203
11 Bax: "Furqan", 75; "İnsan", 12
12 "Bihar", c. 71, s. 92

10. Bütün Quran boyu yalnız səbir əhli üçün hesabsız mükafatdan danışılır.[1]

11. Qurani-məcid səbrlə yanaşı şükrü də qeyd edir. İşarə olunur ki, çətinliklər də bir nemətdir.[2]

12. Səbir imam Hüseynin (ə) öz (övladı imam Səccada (ə)) vəsiyyətidir.[3]

13. Bəzi məqamlarda bir neçə növ səbir nəzərə çarpır. Məsələn, həzrət İbrahim İsmaili qurban edərkən həm itaət və təslimçilik, həm də müsibətlərə müqavimət üçün səbrə ehtiyac olur.

◊ **Bildirişlər**

1. Bütün kamilliklərin qaynağı səbirdir. (Səbir düşüncə sahibləri üçün 8 nişanə və kamilliyin sonunda bəyan olunur. Mələklər də öz gəlişi üçün möminlərin səbrini əsas sayırlar.)

2. Daxil olarkən salam verməк mələklərin qaydasıdır.

3. Behişt "darus-səlam", yəni salam evidir. Çünki behiştdə mələklər behişt əhlinə hər tərəfdən salam verər.

4. Dözümlü və çalışqan insanlara ehtiram göstərək.

5. İlahi nizamda  hətta danışıq, salam və təbrik hikmət əsasındadır, boşboğazlıq deyil.

● Ayə 25:

﴿وَالَّذِينَ يَنقُضُونَ عَهْدَ اللّهِ مِن بَعْدِ مِيثَاقِهِ وَيَقْطَعُونَ مَآ أَمَرَ اللّهُ بِهِ أَن يُوصَلَ وَيُفْسِدُونَ فِي الأَرْضِ أُوْلَئِكَ لَهُمُ اللَّعْنَةُ وَلَهُمْ سُوءُ الدَّارِ﴾

**"(Birinci dəstə ilə yanaşı) Allahla möhkəm əhddən sonra onu pozanlar, Allah tərəfindən birləşdirilməsi əmr olunanı qıranlar, yer üzündə fəsad törədənlər var. Onlar üçün lənət və pis mənzil var."**

◊ **Nöqtələr**

● Quranda düşüncə sahiblərinin əhdə vəfa, Allah tərəfindən birləşdirilməsi əmr olunan vəfa ilə bağlı yaxşı və bariz sifətlərin ziddinə malik bir dəstədən danışılır. Yəni onlar əhd-peymanı pozur, birləşdirilməsi əmr olunanı qırırlar. Ona görə də beləları üçün "Suud-dar", yəni pis mənzil nəzərdə tutulmuşdur.

● Quranda dəfələrlə fərdlərin yer üzündə fəsadından danışılır. Fəsadçı kimi tanınanlardan biri də Firondur.[1] Əkin və nəslin məhvi[2], təfriqə və qətl yer

---

1 Bax: "Zumər", 10
2 Bax: "İbrahim", 5
3 "Bihar", c. 70, s. 164

üzündə fəsad nümunələrindəndir. Quranda yer üzündə fəsad törədənlər üçün ölüm, dar, bədən üzvünün kəsilməsi, sürgün kimi cəzalar nəzərdə tutulur. Quran bildirir ki, qəlbində göylə getmək və fəsad törətmək olan insanlar Allahın lütfündən məhrumdurlar.

● İmam Səccad (ə) öz övladına belə vəsiyyət edir: "Sileyi-rəhmdən üz çevirənlərlə dostluq və yoldaşlıqdan çəkin. Çünki Quranda onların lənətləndiyini görmüşəm."[3]

◊ **Bildirişlər**

1. Tərbiyə və təbliğ üsullarından biri müqayisədir.
2. Bütün azğınlıqların başlanğıc nöqtəsi insanın öz Rəbbindən ayrılmasıdır.
3. Sileyi-rəhmin tərk olunması kəbirə (böyük) günahlardandır. Çünki bu günaha görə əzab vəd olunmuşdur.
4. İnsanın fəsadı hər yerə sirayət edir.

● Ayə 26:

﴿اللّهُ يَبْسُطُ الرِّزْقَ لِمَنْ يَشَاء وَيَقَدِرُ وَفَرِحُواْ بِالْحَيَاةِ الدُّنْيَا وَمَا الْحَيَاةُ الدُّنْيَا فِي الآخِرَةِ إِلاَّ مَتَاعٌ﴾

**"Allah istədiyi kəsin ruzisini artırar və ya əskildər. (İnsanlar) dünya həyatına heyrandırlar. Halbuki dünya həyatı axirətlə müqayisədə bir dəfə kam almaqdan başqa bir şey deyil."**

◊ **Nöqtələr**

● Bu ayədə ruzinin artırılıb-əskildilməsi Allaha aid edilsə də, aydın məsələdir ki, Allah hikmət əsasında iş görür. Bəzi ayə və rəvayətlərdə uyğun rəftarın bəzi səbəbləri açıqlanmışdır. Məsələn, günah insana ayrılmış ruzinin dəyişməsinə səbəb ola bilər. Kumeyl duasında oxuyuruq: "Pərvərdigara, nemətləri dəyişən günahlarımı bağışla."

● Bəzən imtahan məqsədi ilə insanın ruzi payı dəyişdirilir.[4] Allah-təala buyurur ki, Biz sizi hər vaxt malınızı almaqla imtahana çəkirik. Bəzən insan başqalarının haqqını kəsdiyi üçün məhrum edilir. "Qələm" surəsindəki əhvalatı

---

1 Bax: "Qəsəs", 4
2 Bax: "Bəqərə", 205
3 "Bihar", c. 74, s. 196

4 Bax: "Bəqərə", 155

xatırlayaq. Məhz həmin səbəbdən ayədə işarə olunan bağ yanıb külə dönür. Bəzən yetimlərə diqqətsizlik insanın ruzisini azaldır.[1]

● Mühüm odur ki, ruzi artdıqda biz həddimizi aşıb hər şeyi unutmamalıyıq, ruzi azaldıqda hər şeydən ümidimizi üzməməliyik. İlahi nizam şans və bəxt yox, hikmət və sınaq əsasında müəyyənləşdirilmiş nizamdır.

◊ **Bildirişlər**

1. Ruzi Allahın əlindədir. İnsanın ruzisi onun zirəkliyindən, ikiüzlülüyündən, vəfasızlığından, rabitələri kəsməsindən yox, infaq və bəxşişindən asılıdır.

2. Az ruzi də hikmət əsasında müəyyənləşdirilir.

3. Dünya kiçik olsa da, öz tərəfdarlarını aldadır.

4. Dünya kiçik, cüzi, ötəridir. Ona könül verməyək.

● Ayə 27:

﴿وَيَقُولُ الَّذِينَ كَفَرُواْ لَوْلاَ أُنزِلَ عَلَيْهِ آيَةٌ مِّن رَّبِّهِ قُلْ إِنَّ اللّهَ يُضِلُّ مَن يَشَاء
وَيَهْدِي إِلَيْهِ مَنْ أَنَابَ﴾

**“Kafirlər deyirlər: «Nə üçün Rəbbi tərəfindən ona (biz istədiyimiz) möcüzə nazil olmayıb?» De ki, həqiqətən, Allah istədiyiin azdırar, Ona üz tutub tövbə edəni Özünə doğru hidayət edər.”**

◊ **Nöqtələr**

● Hər bir peyğəmbər öz iddiasını isbat etmək üçün Allah tərəfindən möcüzə adlandırılan bir nişanəyə malik olmalıdır. Amma haqqı qəbul etmək fikrində olmayan inadkar insanlar Peyğəmbərdən (s) öz istəklərinə uyğun möcüzə gözləyirdilər. Onlar inadkarlığı bir kənara qoysaydılar, əlbəttə ki, Quran özü böyük bir möcüzə idi.

● Bəzən su və qida xəstə insana zərərli olur. Əslində isə su və qida zərərli deyil və həmin şəxslər xəstə olduqları üçün zərər çəkirlər. Ruhi baxımdan xəstələr də fiziki baxımdan xəstələr kimidir. Onlar Allah ayələrinə münasibətdə narahatlıq duyurlar. Həqiqətlə qarşılaşan kimi onlardakı inadkarlıq ruhu oyanır, hidayətə arxa çevirirlər. “Yuzillu”, yəni “azdırar” təbirinin mənası elə budur!

1 Bax: “Fəcr”, 17

## *HİDAYƏT VƏ ZƏLALƏT (DOĞRU YOLA YÖNƏLTMƏ VƏ AZDIRMA) MÖVZULARINDA SÖHBƏT*

● İlahi hidayət iki növdür: ibtidai və təkmili.

İbtidai hidayət bütün xalqa aiddir.[1] Məsələn, müəllim ilk dərslərdə mövzunu bütün şagirdlər üçün eyni səviyyədə izah edir. Bir müddət sonra ciddi və çalışqan şagirdlərə daha çox diqqət göstərilir.[2]

Amma Quran bəzilərinin haqqında belə buyurur: "İlahi ayələrdən elə bir ayə nazil olmadı ki, onlar həmin ayədən üz döndərməyələr"[3]; "Əgər Biz kitabı səmadan kağız üzərində göndərsək, onlar öz əlləri ilə ona toxunsalar, yenə deyərlər ki, bu sehrdir"[4]; "İstənilən bir möcüzəni görsələr iman gətirməyəcəklər."[5]

Lütf əlini götürməkdən, qəlblərinə zəlalət möhürü vurmaqdan başqa nə çarə var? Hər halda Allah hikmət və ədalət sahibidir. Onun bütün işləri və istəkləri ədalət, hikmət, lütf və diqqət əsasında təfsir olunur.

Əgər Allah buyurursa ki, "istədiyimi hidayət edərəm", bu istəyi əsassız saymamalıyıq. Məsələn, bir ayədə hidayət üçün iman şərt sayılır.[6] Başqa bir ayədə doğru yol getməklə Allahın razılığını qazanmaq hidayət zəminəsi kimi tanıtdırılır.[7]

Allahın bir insanı azdırmasının səbəbi isə həmin şəxsin israf və şəkk-şübhəyə uğramasıdır.[8]

Əgər bir qabın ağzı yuxarı olsa ona yağış yığılar. Əgər qabı ağzı aşağı qoysaq, nə qədər yağış yağsa da, bu qaba dolası deyil. Beləcə, ruhunun qapısı maddiyyata açılmış insan ilahi mənəviyyat yağışından məhrum qalır. [9]

◊ **Bildirişlər**

1. İnadkar kafirlər addımbaşı yeni bir möcüzə istəyirlər. Möcüzəyə münasibətdə tərəddüdün səbəbi möcüzənin özü yox, həmin şəxslərin daxilindəki inadkarlıqdır.

2. İlahi sünnə, qanun bütün insanların hidayətini nəzərdə tutur.[10] Amma bir insan əyri yolu tutduqda Allah həmin azğınlığı ona cəza qərar verir.

3. Haqq qarşısında mütilik hidayət açarıdır.

4. Xalqın hidayəti Allahın əlində olsa da, Allah yalnız özünü hazırlamış, ləyaqət əldə etmiş insanları hidayət edir.

---

1 Bax: "İnsan", 3
2 Bax: "Muhəmməd", 17
3 "Ənam", 4
4 "Ənam", 7
5 "Ənam", 25
6 Bax: "Təğabun", 11
7 Bax: "Maidə", 16
8 Bax: "Ğafir", 34
9 Bax: "Nəhl", 107
10 Bax: "Ləyl", 12

● Ayə 28:

﴿الَّذِينَ آمَنُواْ وَتَطْمَئِنُّ قُلُوبُهُم بِذِكْرِ اللّهِ أَلاَ بِذِكْرِ اللّهِ تَطْمَئِنُّ الْقُلُوبُ﴾

**“(Hidayət olanlar) o kəslərdirlər ki, iman gətirmiş və qəlbləri Allahın zikri ilə aramlıq tapmışdır. Bilin ki, yalnız Allahın zikri ilə qəlblər aramlaşır.”**

◊ **Nöqtələr**

● Allahın zikri dedikdə, bunun yalnız dildə xatırlanması nəzərdə tutulmur. Əlbəttə ki, Allah zikrinin bariz nümunələrindən biri dil zikridir. Mühüm məsələ bütün hallarda , xüsusi ilə günah məqamında Allahı yada salmaqdır.

● Allah zikrinin (Allahı yada salmağın) bir sıra bərəkətləri var. O cümlədən: Allahın nemətini yada salmaq şükür amilidir, Allahın qüdrətini yada salmaq təvəkkül səbəbidir, Allahın lütflərini yada salmaq Ona məhəbbət səbəbidir, Onun qəhr-qəzəbini yada salmaq Ondan qorxu amilidir. Onun əzəmət və böyüklüyünü yada salmaq Onun qarşısında mütilik səbəbidir, Onun aşkar və gizlindən xəbərdar olduğunu yada salmaq həya və paklıq səbəbidir, Onun əfv və kərəmini yada salmaq ümid və tövbə səbəbidir, Onun ədalətini yada salmaq təqva və pəhrizkarlıq amilidir.

● İnsanın istəkləri sona çatmır və o, mütləq kamal istəyindədir. Amma Allahdan savay hər şey məhdud olduğundan, insan Allahdan qeyrilərinə üz tutduqda aramlıq tapmır. Allah zikri ilə aramlıq tapanlar isə cüzi dünya nemətləri ilə kifayətlənirlər.

● Namaz Allahın zikri və aramlıq səbəbidir.[1]

● Allah zikrinin aramlıq vasitəsi olması belə izah edilə bilər ki, özünü Allah hüzurunda görən insanın qəlbi rahatlaşır. Necə ki, həzrət Nuh ilahi kəlam vasitəsi ilə aramlıq tapmışdı.[2] İmam Hüseyn (ə) kiçik oğlu Əli-Əsğərin (ə) şəhadəti zamanı Allahı zikr etməklə sakitləşdi. “Ərəfə” duasında isə belə deyilir: “Ey zikr edənləri zikr edən!”

● **Sual:** Quranın bir ayəsində Allah zikri aramlıq vasitəsi sayılmışsa da, başqa bir ayədə Allahı zikr edən möminin qəlbinin lərzəyə gəldiyi bildirilir.[3] Aramlıq və lərzə bir araya sığırmı?

**Cavab:** Aramlıq və lərzənin eyni zamanda mövcudluğunu təsəvvür etmək üçün bəzi misallar çəksək faydalı olar:

a) Bəzən insan müəyyən hazırlıqlar səbəbindən bir işin baş verəcəyindən əmin olur. Amma eyni zamanda nəticəyə görə nigaran qalır. Peşəkar cərrah üçün sadə cərrahiyyə əməliyyatı aparmaq sadə bir işdir. O öz işinə arxayındır. Amma tanınmış bir şəxsiyyət üzərində əməliyyat aparmalı olduqda, o narahatlıq hissi keçirir.

---

1 Bax: “Taha”, 14
2 Bax: “Hud”, 37
3 Bax: “Ənfal”, 2

b) Valideynlərin vücudu övladlara həm rahatlıq verir, həm də onlarda müəyyən qədər qorxu yaradır.

v) Bəzən insan qarşısındakı maneənin onun üçün yalnız imtahan olduğunu bildikdə rahatlaşır. Amma bu imtahandan çıxıb-çıxmayacağını bilmədiyindən nigarançılıq hissi keçirir.

q) Mömin insanlar Quran ayələrini oxuyarkən əzab, cəhənnəm və Allahın qəzəbindən danışan ayələrə çatdıqda bədənləri lərzəyə gəlir. Mərhəmət və behişt ayələrini oxuduqda isə şirindil rahatlıq onların qəlbini bürüyür. İmam Səccad (ə) "Əbu-Həmzə" duasında belə ərz edir: "Nə vaxt öz günahlarımı və Sənin ədalətini və qəhr-qəzəbini yadıma salıramsa, nalə çəkirəm. Amma elə ki, Sənin lütf və əfvin yadıma düşür, ümidvar oluram." "Əl-Mizan" müəllifi Quranın "Zumər" surəsinin 23-cü ayəsini deyilənlərə dəlil göstərir. Yəni insan öncə nigaran olur, tədricən aramlığa çatır.

● Allah zikrindən uzaq insan üçün aramlıq yoxdur. Aram olmayan həyat isə iztirablıdır.[1]

## *ARAMLIQ VƏ TƏSKİNLİK AMİLLƏRİ*

● Əminlik və aramlıq əldə etməyin bir sıra amilləri var. Bu amillər arasında agahlıq və elm öndə gəlir:

- Zərrəcə əməlinin də hesaba çəkiləcəyini bilən insan səy və fəaliyyətə maraqlı olur;[2]
- İlahi lütf və rəhmət əsasında xəlq olunduğunu bilən insan ümidvar olur;[3]
- Sitəmkarların Allah tərəfindən izləndiyini bilən insan aramlıq tapır;[4]
- Allahın hikmət və elm sahibi olduğunu və heç bir mövcudu boş yerə yaratmadığını bilən insan bədbin olmur;
- Qarşısındakı yolun aydın, gələcəyinin keçmişindən üstün olduğunu bilən insanın qəlbi arxayın olur;[5]
- İmam və rəhbərinin kamilliyini, Allah tərəfindən seçildiyini, hər bir günahdan pak olduğunu bilən insan aramdır;[6]
- Yaxşı işlərinə tam və ya 700 qat artıq əvəz alacağını, pis işlərinə görə başa-baş cəzalandırılacağını bilən insan məmnun qalır;[7]
- Allahın xeyir əməl sahiblərini sevdiyini bilən insan yaxşı işlərindən təsəlli tapır;[8]
- Yaxşı işlərinin aşkarlanacağını, pis işlərinin gizli saxlanacağını bilən insan şad olur.

---

1 Bax: "Taha", 124
2 Bax: "Zilzal", 7
3 Bax: "Hud", 119
4 Bax: "Fəcr", 14
5 Bax: "Əla", 17
6 Bax: "Bəqərə", 124
7 Bax: "Bəqərə", 261
8 Bax: "Bəqərə", 195

### *İZTİRAB VƏ NİGARANLIQ AMİLLƏRİ*

● Əsrimizin ən çox yayılmış xəstəliklərindən biri iztirab və narahatlıqdır. Guşənişinlik, özünə qapılmaq, özünə inamsızlıq, özünü heç saymaq kimi əlamətlərə malik bu xəstəliyin bir sıra dəlilləri var. O cümlədən:

- Narahat insan ətrafındakı vəziyyəti öz meylinə uyğun görmədikdə pərişan olur. Əslində isə hansısa istəklərimizə çata bilmədiyimiz üçün başqa istəklərimizdən əl çəkib təslim olmamalıyıq;

- Narahat insan öz-özlüyündə düşünür ki, nə üçün insanlar onu sevmir? Halbuki hamının sevgisini qazanmaq mümkünsüzdür. Hətta Allah və mələklərin də düşmənləri var. İnsan hamıdan sevgi umacağında olmamalıdır;

- Pərişan insan elə düşünür ki, hamı pisdir. Hansı ki, belə deyil. Allah insan haqqında bu sayaq düşünən mıələklərə qətiyyətlə cavab verir;

- Pərişan insan güman edir ki, bütün narahatlıqların səbəbi xaricdədir. Hansı ki, sıxıntının əsas səbəbi öz reaksiyamız, xasiyyət və rəftarlarımızdır;

- İztirab keçirən insan işə başlayanda nigarandır, qorxu və tənhalıq hiss edir. Həzrət Əli (ə) belə bir halı aradan qaldırmaq üçün buyurur: "Qorxduğun işə doğru get, qəlbindəki qorxu nəzərdə tutulan işin qorxusundan böyükdür;

- İztirab keçirən şəxs narahatdır ki, gələcək necə olacaq? Bu xəstəliyi Allaha təvəkkül və səylə müalicə etmək olar;

- İnsan bəzi işlərdə uğursuzluğa düçar olduqda bütün işlərin uğursuz başa çatacağını düşünüb narahat olur;

- İnsan davamsız fərd və güclərə istinad etdiyindən, istinadgahı lərzəyə gəldikdə özü də iztirab keçirir;

- Bir çox pərişanlıq və iztirabların səbəbi zəhmətlərin dəyərləndirilməməsi, günah, ölüm qorxusu, ailənin "bacarmazsan, bilməzsən" deyə inamsızlıq yaratması, tələsik mühakimələr, yersiz istəklər, yanlış təsəvvürlərdir. Bu pərişanlıq və iztirab Allahı, Onun qüdrətini, mərhəmətini və lütfünü yada salmaqla aradan qaldırıla bilər. Mərhum İmam (r.ə.) çox mühüm vəsiyyətnaməsinin sonunda buyurur: "Mən aram qəlblə, arxayın ürəklə, şad halda ilahi fəzlə ümidvar ruhla dünyanı tərk edib gedirəm."

◊ **Bildirişlər**

1. İman və Allaha əminlik gerçək peşmanlıq nişanəsidir.
2. Xatircəmliklə olmayan iman kamil və yetərli deyil.
3. Allahı dildə zikr etmək bəs etmir, qəlb əminliyi də lazımdır.
4. Yalnız Allahın zikri qəlbin aramlıq səbəbidir.

Bu gün zər və zora (pula və gücə) malik olanlar çoxdur. Amma qəlb aramlığını hər adam əldə edə bilmir.

● Ayə 29:

﴾الَّذِينَ آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ طُوبَى لَهُمْ وَحُسْنُ مَآبٍ﴿

**"İman gətirib saleh işlər görənlərin xoş halına! Onların gözəl aqibəti var."**

◊ **Nöqtələr**

● İnsanlar dörd qisimdir:

a) Həm imanı, həm də saleh əməli olan möminlər;

b) Nə imanı, nə də saleh əməli olan kafirlər;

v) İmanı olduğu halda saleh əməldən uzaq olan fasiqlər (günahkarlar);

q) İman gətirmədiyi halda zahirən yaxşı iş görən münafiqlər.

●Ayədəki "tuba" sözü ya "buşra" kimi məsdərdir, ya da "ətyəb" sözünün qadın cinsi forması olub "ən üstün" mənasını bildirir. Ayədə "ən üstün" sözü üçün xüsusi bir nümunə göstərilməmişdir. Ona görə də bu söz ən üstünlərin hamsına şamil olunur. Rəvayətlərdə bildirilir ki, Tuba kökü Peyğəmbər (s) və Əlinin (ə) evində olan, budaqları möminlərə kölgə salan bir ağacdır.[1] Belə bir izahatda bütün paklıq və xeyirlərin səmavi rəhbərlərə itaət kölgəsində olması nəzərdə tutula bilər.

● Dar düşüncəli insanlar Peyğəmbəri (s) Fatiməyə (s) daha çox nəvaziş göstərdiyi üçün qınayanda həzrət buyurdu: "Merac gecəsi behiştə aparıldığım vaxt mən Tuba ağacının meyvəsindən yedim və Fatimənin vücudu o meyvədən yoğrulmuşdur. Mən behişt qoxusunu duymaq istədiyim vaxt qızım Fatiməni iyləyirəm."[2]

● İmansız və saleh əməldən uzaq insanların kam alması dərin və davamlı deyil. Həzrət Əli (ə) buyurur: "Bir ləzzətdən sonra ki od gələcək, bu ləzzətdə xeyir yoxdur."[3]

◊ **Bildirişlər**

1. Şirin dünya həyatı və xoş axirət aqibəti iman və saleh əməldən asılıdır.

2. Yalnız axirət xoşbəxtliyi ilə sonuclanan və əbədi səadətə mane olmayan dünya ləzzətləri dəyərlidir.

● Ayə 30:

﴿كَذَلِكَ أَرْسَلْنَاكَ فِي أُمَّةٍ قَدْ خَلَتْ مِن قَبْلِهَا أُمَمٌ لِّتَتْلُوَ عَلَيْهِمُ الَّذِي أَوْحَيْنَا إِلَيْكَ وَهُمْ يَكْفُرُونَ بِالرَّحْمَنِ قُلْ هُوَ رَبِّي لا إِلَهَ إِلاَّ هُوَ عَلَيْهِ تَوَكَّلْتُ وَإِلَيْهِ مَتَابِ﴾

**"Bu sayaq Biz səni özündən əvvəl ümmətlər ötüb getmiş bir ümmət arasında peyğəmbərliyə göndərdik. Sənə vəhy etdiyimizi onlara tilavət etməlisən. Onlar Rəhman Allaha küfr edərlərsə, de ki, O mənim Rəbbimdir, Ondan başqa məbud yoxdur, yalnız Ona təvəkkül etmişəm, qayıdışım da yalnız Ona doğrudur."**

◊ **Nöqtələr**

---

1 "Bihar", c. 8, s. 117-120
2 "Bihar", c. 8, s. 188
3 "Bihar", c. 41, s. 104

● İslam Peyğəmbəri (s) ərəb ümmətinə məbus olmuşsa da, Quran ayələri aşkar bəyan edir ki, o bütün ümmətlərin peyğəmbəridir.[1]

◊ **Bildirişlər**

1. Peyğəmbərlərin besəti ilahi sünnə, Allahın lütf və rəhməti əsasındadır.
2. Hər bir qövmə təbliğ və həmin qövmün tərbiyəsi üçün onların tarixinə nəzər salmaq lazımdır.
3. Peyğəmbərlərin vəzifəsi ilahi vəhyi xalqa bəyan etməkdir.
4. Təsirlərə müqavimət göstərin və öz əqidənizi müdafiə edin.
5. Allaha təvəkkül kafirlər qarşısında müqavimət amilidir.
6. Allahın rübubiyyəti, yeganəliyi, sığınacaq olması və Ona doğru qayıdışımız imanımızın dəlillərindəndir.

● Ayə 31:

﴿وَلَوْ أَنَّ قُرْآنًا سُيِّرَتْ بِهِ الْجِبَالُ أَوْ قُطِّعَتْ بِهِ الأَرْضُ أَوْ كُلِّمَ بِهِ الْمَوْتَى بَل لِّلّهِ الأَمْرُ جَمِيعًا أَفَلَمْ يَيْأَسِ الَّذِينَ آمَنُواْ أَن لَّوْ يَشَاءُ اللّهُ لَهَدَى النَّاسَ جَمِيعًا وَلاَ يَزَالُ الَّذِينَ كَفَرُواْ تُصِيبُهُم بِمَا صَنَعُواْ قَارِعَةٌ أَوْ تَحُلُّ قَرِيبًا مِّن دَارِهِمْ حَتَّى يَأْتِيَ وَعْدُ اللّهِ إِنَّ اللّهَ لاَ يُخْلِفُ الْمِيعَادَ﴾

**“Əgər Quran vasitəsi ilə dağlar hərəkətə gəlsə, torpaq parça-parça olsa, Onun vasitəsi ilə ölülər dilə gəlsə (yenə iman gətirməzlər). Bütün işlər Allahın əlindədir. Məgər möminlər (daşqəlblilikdən) məyus olmayıblarmı?! Əgər Allah istəsəydi, hökmən bütün xalqı yola gətirərdi və küfr edənlərə gördükləri işin cəzası olaraq daim sarsıdıcı müsibət yetirərdi. Ya da Allahın vədi gəlib çatınca həmin müsibət onların evlərinin kənarına nazil olardı. Həqiqətən, Allah Öz vədinə xilaf çıxmaz.”**

◊ **Nöqtələr**

● Bu ayə kafirlərin inadkarlığının son həddini bəyan edir. Ayə “Ənam” surəsinin 111-ci ayəsinin oxşarıdır. Həmin ayədə buyurulur: “Əgər Biz onların özünə mələk göndərsək, ölülər onlarla danışsa və hər şey onların qarşısında məhşur olsa (hüzura gətirilsə), yenə iman gətirməyəcəklər.”

● Quran dağlardan da möhkəmini tərpətmiş, cismi ölülərdən də aşağısını diriltmişdir. Bu səmavi kitab ölmüş qəlblərə, cahil ərəb qövmünə həyat verdi. Əgər dağları tərpədəcək, ölüləri dirildəcək kitab varsa, o, Qurandır.[2]

● İmam Kazimin (ə) buyruğuna əsasən, Quranda elə elm və rəmzlər var ki, onların vasitəsi ilə təbiətin işinə qarışmaq mümkündür.[3]

---

1 Bax: “Səba”, 28
2 “Təfsiri-Safi”
3 “Təfsiri-Kənzud-Dəqaiq”

◊ **Bildirişlər**

1. Bütün xalqın iman gətirəcəyini gözləməyin.

2. İnadkarlıq bəşər cəmiyyətinin sağalmaz xəstəliyidir. (Əgər bir şəxs haqq axtarsa, onun iman gətirməsi üçün bir möcüzə bəs edər).

3. İslam dünyagörüşündə bütün işlər Allahdandır.

4. Möcüzə inadkar insanların təklif və həvəsi əsasında yox, Allahın iradəsi əsasında gerçəkləşir.

5. Allahın istəyi insanların məcburi yox, ixtiyari hidayətidir. Başqa ayələrdə də bu nöqtəyə işarə olunur.[1]

6. Kafirlər ölkələrinə və sərhədlərinə Allah tərəfindən vurulacaq zərbə intizarında olmalıdırlar.

7. Allahın qəhr-qəzəbi təkcə axirətə aid deyil.

8. Bəzən moizə və dəlillərlə çıxış bəs etmir, qəhr-qəzəbə də ehtiyac olur.

9. Bəlaların nazil olmasının səbəbi öz əməllərimizdir.

10. İlahi xəbərdarlıqlar bəzən birbaşa özümüzə, bəzən isə dolayısı ilə ətrafımızdakılara və ətraf məntəqələrə ünvanlanır.

11. Başqalarına ünvanlanmış əzabdan ibrət dərsi götürək.

12. Heç vaxt Allahın vədlərinə, hədə və müjdələrinə şəkk etməyək.

● Ayə 32:

﴿وَلَقَدِ اسْتُهْزِئَ بِرُسُلٍ مِّن قَبْلِكَ فَأَمْلَيْتُ لِلَّذِينَ كَفَرُواْ ثُمَّ أَخَذْتُهُمْ فَكَيْفَ كَانَ عِقَابِ﴾

**“Həqiqətən, səndən əvvəlki peyğəmbərlərə də istehza olundu. Amma Mən küfr edənlərə möhlət verdim. Sonra onları (qəzəbimlə) yaxaladım. Gör Mənim cəzam necə oldu!”**

◊ **Bildirişlər**

1. Peyğəmbərlərin tarixi ilə tanışlıq çətinliklərlə mübarizədə səbir və dözüm amilidir.

2. Allahın elçilərini məsxərə edən kəs kafirdir.

3. Möhlət verilməsi Allahın qəti və həmişəlik sünnəsi, qanunudur. (Mömin Allahın möhlət fürsətindən tövbə və saleh əməl üçün bəhrələnməlidir. Kafirlər isə möhlət dövründə öz günahları üzərində israr göstərirlər.)

4. Allahın möhləti bizi qürrələndirməsin, Onun qəhr-qəzəbi gözlənilmədən yetişir.

5. Bir şəxsə müəyyən iş tapşırdıqda onu həmin işin təhlükə və çətinliklərindən xəbərdar edin və ona ruhiyyə verin.

● Ayə 33:

---

1 Bax: “Bəqərə”, 256

﴿أَفَمَنْ هُوَ قَآئِمٌ عَلَى كُلِّ نَفْسٍ بِمَا كَسَبَتْ وَجَعَلُواْ لِلّهِ شُرَكَاء قُلْ سَمُّوهُمْ أَمْ
تُنَبِّئُونَهُ بِمَا لاَ يَعْلَمُ فِي الأَرْضِ أَم بِظَاهِرٍ مِّنَ الْقَوْلِ بَلْ زُيِّنَ لِلَّذِينَ كَفَرُواْ مَكْرُهُمْ
وَصُدُّواْ عَنِ السَّبِيلِ وَمَن يُضْلِلِ اللّهُ فَمَا لَهُ مِنْ هَادٍ﴾

**“Görən, hər kəsə, onun əməlinə hakim və nəzarətçi olan (ibadətə layiqdir, yoxsa qurama bütlər?) Onlar Allaha şəriklər qoşdular. De ki, onların adını çəkin. Allaha yer üzündə Onun tanımadığı şəriklərdənmi xəbər verirsiniz? Yoxsa boş sözlər (danışırsınız?) Ola bilsin ki, küfr edənlər üçün onların məkrləri zinətli göstərilmişdir və (haqq) yoldan uzaqlaşdırılmışlar. Allahın azdırdığı kəs üçün heç bir yol göstərən yoxdur.”**

◊ **Nöqtələr**

● “Allah Qaimdir” dedikdə Onun bütün işlərə müdiriyyəti, təminatçılığı, mühafizəsi, nəzarəti, qeydiyyatçılığı nəzərdə tutulur.

◊ **Bildirişlər**

1. Allah suallar vasitəsi ilə insanın ağıl və fitrətini mühakiməyə çağırır. Çünki ağıl və fitrət şirkə uyğun deyil.
2. Alim, vahid və qəyyum olan Allahdan uzaq düşən kəs şirk və çoxallahlıq girdabına yuvarlanır.
3. Bütpərəstlik və şirk o qədər əsassız və məntiqsizdir ki, uydurulmuş məbudların ad və xüsusiyyətlərini açıqlamaq olmur.
4. Ola bilsin ki, müşriklər də bütləri qəlbən qəbul etmirlər.
5. Şirk də bir növ küfrdür.
6. Azğınlıqların cilvələndiyi insan haqq və tərbiyə yolundan uzaq düşür.
7. Öz plan və tədbirlərimizlə qürrələnməyək.

● Ayə 34:

﴿لَّهُمْ عَذَابٌ فِي الْحَيَاةِ الدُّنْيَا وَلَعَذَابُ الآخِرَةِ أَشَقُّ وَمَا لَهُم مِّنَ اللّهِ مِن وَاقٍ﴾

**“Onlar üçün dünya həyatında əzab var. Şübhəsiz, axirət əzabı daha ağırdır və Allahın qarşısında onları hifz edəcək kimsə yoxdur.”**

◊ **Nöqtələr**

● Axirət əzabı daha ağırdır. Çünki qiyamətdə vasitələr aradan götürülər, əsl-nəsəbin və qohumluğun səmərəsi olmaz, fidyə (cərimə) qəbul edilməz, (insan canını qurtarmaq üçün bütün yaxınlarını, hətta bütün dünyanı fəda etməyə hazır olar), üzr istəmək faydasızdır, dostlar bir-birini boşlayar, bu əzab davamlı və həmişəlikdir, bu əzab yüngülləşməz, bu əzab həm ruha,həm də cismə aiddir.[1]

1 Bax: “Bəqərə”, 166; “Muminun”, 101; “Məaric”, 11, 16; “Ğafir”, 52; “Məaric”, 10; “Bəqərə”, 162; “Duxan”, 49

◊ **Bildirişlər**

1. Allaha şərik qoşan insan dünyada da əzab çəkər.
2. Şəfaət (əfv üçün vasitəçilik) müşriklərə tətbiq olmaz.

● Ayə 35:

﴿مَّثَلُ الْجَنَّةِ الَّتِي وُعِدَ الْمُتَّقُونَ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ أُكُلُهَا دَآئِمٌ وِظِلُّهَا تِلْكَ عُقْبَى الَّذِينَ اتَّقَواْ وَّعُقْبَى الْكَافِرِينَ النَّارُ﴾

**“Müttəqilərə (təqvalılara, pəhrizkarlara) vəd olunmuş behişt (elədir ki,) altından çaylar axır. (Bu bağların) meyvələri və kölgəsi daimidir. Budur təqva yolunu seçən insanların aqibəti! Kafirlərin sonu oddur.”**

◊ **Nöqtələr**

● Quranın təlim-tərbiyə üsullarından biri fərdlər, hallar, nəhayət haqq və batil arasında müqayisə və ölçü aparmaqdır. Ötən ayədə müşriklərin gələcəyi haqqında danışıldığından bu ayədə təqvalı insanların aqibətindən söz açılır. Məqsəd insanların bu iki yolu müqayisə edib daha yaxşı dərk etməklə özünə yol seçə bilməsidir.

● Behişt kölgələri daimidir. Behiştdə də günəş, ağaclar və kölgələr var. Amma bu kölgələr dünyadakı kimi vaxt ötdükcə artıb-azalmır. Behişt kölgələri daimidir və eyni bir ölçüdədir.

● **Sual:** “Dəhr” surəsinin 13-cü ayəsində oxuyuruq: “Möminlər behiştdə nə günəş görər, nə də dalayan soyuq.” Bəs hansı əsasla yuxarıdakı ayədə kölgədən danışılır?

**Cavab:** Günəşi görməmək dedikdə onun istisindən əziyyət çəkməmək nəzərdə tutulur. Əslində günəş işıq verən bir mənbə kimi mövcuddur. İşıq olan yerdə, təbii ki, günəş də olacaq.

◊ **Bildirişlər**

1. Behiştlə bağlı dərk etdiklərimiz yalnız behiştin oxşarıdır. Əslində bizim kimi məhdudlar behişti olduğu kimi dərk edə bilməz.
2. Behişt nemətləri üçün zaman və məkan məhdudiyyətləri yoxdur, bu nemətlər təravətini itirmir, hər hansı təsirdən korlanmır.
3. Behiştin dəyəri təqvadır və boş yerə kimsəyə verilmir. Dünyada müvəqqəti pəhrizin mükafatı daimi axirət ləzzətidir.
4. Fərdlərin zahirini əsas götürməyin, çünki işin sonu mühümdür.
5. Mömin insan təqvalı olmalıdır. Çünki kafir sözü təqvalı sözünün antonimi kimi işlənir.

● Ayə 36:

﴿وَالَّذِينَ آتَيْنَاهُمُ الْكِتَابَ يَفْرَحُونَ بِمَا أُنزِلَ إِلَيْكَ وَمِنَ الأَحْزَابِ مَن يُنكِرُ بَعْضَهُ قُلْ إِنَّمَا أُمِرْتُ أَنْ أَعْبُدَ اللّهَ وَلا أُشْرِكَ بِهِ إِلَيْهِ أَدْعُو وَإِلَيْهِ مَآبِ﴾

**“Kitab verdiyimiz kəslər sənə nazil etdiyimizə sevinərlər. Bəzi dəstələrdə elələri var ki, onun (Quranın) bir hissəsini inkar edirlər. De ki, həqiqətən, mənə Allaha pərəstiş etmək və şərik qoşmamaq əmr olunub. Yalnız Ona doğru dəvət edirəm və qayıdışımız Ona doğrudur.”**

◊ **Nöqtələr**

● Bu ayə də digər ayələr kimi[1] sağlam, açıq qəlbli fərdləri, haqqı qəbul edən kitab əhlini mədh edir və buyurur: “Həqiqi kitab əhli haqqa meyillidir, yersiz ayrıseçkiliklərdən çəkinir, İslam və Quran ayələri ilə ünsiyyətdə olduqda sevinib iman gətirirlər.

◊ **Bildirişlər**

1. Əsas məsələ ayələrin qəbulu olsa da, şadlıq içində qəbul etmək daha mühümdür.
2. İlahi göstərişlərin bəzilərinə yox, hamısına iman gətirmək zəruridir.
3. Kor-koranə firqəbazlıq haqpərəstlik qarşısında böyük bəla və təhlükədir.
4. Haqqın inkarına qarşı qətiyyət göstərilməlidir.
5. Xalis bəndəlik dəlili budur ki, taleyimizi və gələcəyimizi Allahdan asılı bilək.
6. Tövhid, nübuvvət və məad bütün səmavi dinlərin müştərək prinsipləridir.

● Ayə 37:

﴿وَكَذَلِكَ أَنزَلْنَاهُ حُكْمًا عَرَبِيًّا وَلَئِنِ اتَّبَعْتَ أَهْوَاءهُم بَعْدَ مَا جَاءكَ مِنَ الْعِلْمِ مَا لَكَ مِنَ اللّهِ مِن وَلِيٍّ وَلاَ وَاقٍ﴾

**“Bu sayaq Biz onu aydın hökm surətində ərəbcə nazil etdik. Şübhəsiz, sənə çatan bilikdən sonra onların həvəslərinə tabe olsan, Allah qarşısında heç bir yardımçın və hifz edənin yoxdur.”**

◊ **Nöqtələr**

● “Hukm” sözü ayədə üç mənada işlədilə bilər: haqla batil arasında hakim, fasilə qoyan, ilahi hökmlər və hikmət.

◊ **Bildirişlər**

1. Peyğəmbərlərin besəti və səmavi kitabların nazil olması Allahın hikmət dolu sünnəsidir.
2. Vəhy bildirişi xalq dilində olmalıdır.
3. İlahi göstərişlər aydın və anlaşıqlıdır.
4. Başqalarının nəfs istəklərinin təmini həvəspərəstlikdən daha pisdir.
5. Elm təklikdə insanı xoşbəxt etmir. Bəziləri elmə yiyələnsələr də, xurafata və xalqın həvəslərinə meyl göstərir.
6. Agah insanların məsuliyyəti daha çoxdur.
7. Həqiqi elm Qurandır.

---

1 Bax: “Qəsəs”, 52, “Bəqərə”, 120, “Əraf”, 159

8. Allahın kimsə ilə qohumluq əlaqəsi yoxdur. Hətta peyğəmbərlər yoldan çıxsa, Allah tərəfindən tənbeh olunarlar.

9. İnsan azğınların razılığını əldə edən kimi ilahi yardımları əldən verir.

● Ayə 38:

﴿وَلَقَدْ أَرْسَلْنَا رُسُلاً مِّن قَبْلِكَ وَجَعَلْنَا لَهُمْ أَزْوَاجًا وَذُرِّيَّةً وَمَا كَانَ لِرَسُولٍ أَن يَأْتِيَ بِآيَةٍ إِلاَّ بِإِذْنِ اللّهِ لِكُلِّ أَجَلٍ كِتَابٌ﴾

**“Əlbəttə, Biz səndən öncə (də) peyğəmbərlər göndərmişik. Onlar üçün zövcələr və övladlar qərar verdik. Bütün peyğəmbərlər yalnız Allahın izni ilə möcüzə gətirirlər. Hər bir zaman və dövr üçün kitab var.”**

◊ **Nöqtələr**

● İmam Sadiq (ə) buyurmuşdur: “Biz həzrət Məhəmmədin (s) övladlarıyıq, anamız Fatimədir (s). Allah başqa peyğəmbərlərə nə vermişsə, həzrət Məhəmmədə (s) də ondan vermişdir.” Sonra imam hazırkı ayəni tilavət etmişdir.”[1]

◊ **Bildirişlər**

1. Peyğəmbərlərin besəti ilahi qanunlardandır.

2. Peyğəmbərlər də başqaları kimi həyat sürmüş, ailə-övlad sahibi olmuşlar.

3. Peyğəmbərlərin möcüzəsi kiminsə istəyi əsasında yox, Allahın izni və iradəsi ilə gerçəkləşir.

4. İlahi qanunların nazil olmasında zamanın rolu var.

● Ayə 39:

﴿يَمْحُو اللّهُ مَا يَشَاء وَيُثْبِتُ وَعِندَهُ أُمُّ الْكِتَابِ﴾

**“Allah istədiyini məhv, istədiyini isbat edir. “Ummul-kitab” (“Kitab anası”) yalnız Ona məxsusdur.”**

◊ **Nöqtələr**

● İlahi müqəddərat mövzusunda söhbət:

Ayə və rəvayətlərdən belə məlum olur ki, ilahi müqəddərat (yazı, qəza-qədər) iki növdür:

1. Bəzi işlər daim məsləhət olduğundan onların qanunu da daimidir. Məsələn: “Bizim sözümüzdə dəyişikliyə yer yoxdur.”[2]; “Hər şeyin Allahın yanında dəqiq hesab-kitabı var. Bu sayaq müqəddərat lövhi-məhfuzda qeyd

---

1 “Bihar”, c. 24, s. 265

2 “Qaf”, 29

olunmuşdur."[1]; "Yalnız Allaha yaxın olanlar Onun izni ilə bundan (yazıdan) xəbər tuta bilərlər."[2]

2. Qeyri-qəti və müəyyənləşməsi xalqın əməl və rəftarından asılı olan işlər. Məsələn: günah ardınca tövbə edildikdə əfv məsləhətdir; bəlanı aradan qaldırmaq üçün sədəqə vermək məsləhətdir; zülm və sitəm fəsad törətdiyindən ilahi qəhr-qəzəblə nəticələnir... Yəni Allah-təala varlıq nizamının idarəsində Öz elm və hikmətinə əsaslanaraq şəraiti dəyişib yaranış və qanunları əvəzləyə bilər. Aydın məsələdir ki, belə bir dəyişiklik Allahın Öz əvvəlki tədbirindən peşman olması səbəbindən deyil. Bu dəyişikliklər hikmət əsasında, şəraitin dəyişməsi ilə, bir işin başa çatması ilə gerçəkləşir.

Qurani-məciddə bu məsələ ilə bağlı bir çox nümunələr var. Həmin nümunələrdən bəzilərini nəzərdən keçirək:

a) Dua edin, qəbul edim".[3] İnsan yalvarış və dua ilə xeyir istəyinə çata bilər, öz taleyini dəyişər.

b) İlahi qanun hər yerdə sabit deyil."[4] Allah zəruri şəraitin yaranması ilə yeni bir proqram vücuda gətirər.

v) "O (Allah) hər gün bir işdədir."[5]

q) "Azğın yol tutduqlarından Allah da onları azdırdı."[6]

d) "İman və təqva ilə ilahi qəhr-qəzəb yolu lütf və bərəkətlə əvəz olar."[7]

e) "Qövmlər öz taleyini dəyişməyincə, Allah onların taleyini dəyişməz".[8]

ə) "Tövbə edib iman gətirən və saleh iş görənlərin pisliyini Allah yaxşılığa çevirər."[9]

j) "Əgər siz dönsəniz, Biz də dönərik."[10]

● **Sual:** Əgər Allahın elmi zatidirsə, dəyişə bilməz. Demək, Onun elmində olan həyata keçir. Allahın elmində olan iş həyata keçməsə cəhalət sayılmazmı?

**Cavab:** Allahın elmi səbəblər nizamına əsaslanır. Belə ki, Allah elminə əsasən hər yol bir nəticəyə aparır. Allahın elmi səbəblər elmindən ayrı deyil.

### *"BƏDA" NƏDİR?*

Sünnə əhlinin şiələrə qarşı iradlarından biri budur ki, şiələr "bəda" məsələsinə inanırlar. Sünnilər elə güman edirlər ki, şiələr "bəda" dedikdə ilahi elmdə dəyişikliyi nəzərdə tuturlar. Halbuki şiələr ilahi elmin dəyişilməzliyinə inanır və "bəda" dedikdə öz gümanlarının dəyişməsini nəzərdə tuturlar.

---

1 "Bəqərə", 162
2 "Mutəffifin", 20-21
3 "Ğafir", 60
4 "Təlaq", 1
5 "Ər-Rəhman", 29
6 "Səff", 5
7 "Əraf", 69
8 "Rəd", 11
9 "Furqan", 70
10 "İsra", 8

Yaranışda bəda qanunun nəsxi (dayandırılması) kimidir. Bəzən qanuna baxdıqda onun daimi olduğunu təsəvvür edirik. Amma sonradan məlum olur ki, qanun dəyişilmişdir. Əlbəttə ki, belə bir dəyişiklik peşmanlıq və ya cəhaləti göstərmir. Sadəcə, şərait dəyişdiyindən qanunu dəyişmək lazım gəlir. Məsələn, həkim xəstənin durumuna uyğun nüsxə yazır. Xəstənin halı dəyişdikdə nüsxə də təzələnir. Bəda növü olan nəsxi (ayələrdəki hökmün dayandırılmasını) bütün şiə və sünni firqələri qəbul edir. Demək, eyni mahiyyəti daşıyan bəda da qəbul olunmalıdır. Şiələr bədanı Allahın peşmanlığı kimi yox, öz cəhalətləri kimi qəbul edirlər.

### *BƏDA NÜMUNƏLƏRİ*

1. İbrahimin əhvalatı ilə tanış olduqda öncə belə düşünürdük ki, Allah İsmailin qanının yerə tökülməsini istəyir. Amma sonradan məlum oldu ki, Allahın istəyi oğulun qətlə yetirilməsi yox, atanın sınağa çəkilməsi olmuşdur.

2. Biz Allahın həzrət Musaya vədindən belə başa düşürük ki, münacat dövrü 30 gecədir. Sonradan məlum oldu ki, bu dövr 40 gecə imiş və Allah sınaq məqsədi ilə həmin dövrü iki mərhələdə elan etmişdir. Öncə 30 gün, sonra10 gün.

3. Biz elə güman edirdik ki, Beytül-Müqəddəs müsəlmanlar üçün həmişəlik qiblədir. Amma ayələr əsasında qiblə dəyişdi və məlum oldu ki, daimi qiblə Kəbə olmuşdur.

4. Allahın qəhr-qəzəb nişanələri görünəndə hətta həzrət Yunus əmin olmuşdu ki, ilahi qəzəb kafir qövmü məhv edəcək, buna görə də xalqın arasından çıxmışdı. Amma xalq iman gətirdi və Allahın qəzəbi sovuşdu.[1]

Bütün hallarda bəda Allah üçün cəhalət sayıla bilməz. Çünki Allah öncədən bilirdi ki, İsmailin qanı axıdılmayacaq, həzrət Musanın münacat müddəti 40 gecədir, daimi qiblə Kəbədir, Yunus qövmü nicat tapacaq. Amma insanlar göstəriş və hadisələrin zahirindən başqa cür güman edirdilər. Demək, Allahın elmində heç bir dəyişiklik olmamışdır. Sadəcə, məsələyə bizim baxışımız və münasibətimiz dəyişmişdir.

Şiələrin qəbul etdiyi mənada bəda inancının bir sıra tərbiyəvi təsirləri var. Məsələn, insan ömrünün son anınadək şəraitin dəyişəcəyinə ümid edir, təvəkkül ruhiyyəsi dirçəlir, zahiri görüntülərə əsir olmur, qeyb və ilahi qüdrətə iman güclənir. Bədaya inanan insan tövbə, sədəqə, münacat və dua ilə hadisələr və ilahi qəzəb yolunu dəyişmək istəyir.

● İmam Sadiq (ə) buyurur: "Allah-təala bütün peyğəmbərlərdən tövhidlə yanaşı bəda imanı üçün əhd almışdır." Digər bir hədisdə oxuyuruq: "Bir şəxs düşünsə ki, Allah öncə bilmədiyi bir məsələni bildikdən sonra yeni təqdir müəyyənləşdirib, belə bir şəxsdən üz çevirin."[2]

◊ **Bildirişlər**

1. Yaranış və ya qanunçuluq (təkvini və ya təşrii) nizamını dəyişmək Allahın istəyindən asılıdır.

---

1 Bax: "Yunus", 98

2 "Təfsiri-Nümunə"

2. Allah yaranışı özbaşına buraxmamışdır.

3. Varlıq aləminə hakim qanunları dayandırmaq və ya davam etdirmək Allahın əlindədir.

4. Allahın bir işi dayandırması və ya davam etdirməsi hikmət və elmə əsaslanır.

5. Varlıq aləminin bütün hadisələrinin qeyd olunduğu kitabı var.

● Ayə 40:

﴾وَإِن مَّا نُرِيَنَّكَ بَعْضَ الَّذِي نَعِدُهُمْ أَوْ نَتَوَفَّيَنَّكَ فَإِنَّمَا عَلَيْكَ الْبَلاَغُ وَعَلَيْنَا الْحِسَابُ﴿

**“Ey peyğəmbər, işin nəticəsini görmək fikrində olma, çünki onlara vəd etdiyimizin bir hissəsini sənə göstərsək də, ya səni dünyadan aparsaq da, (bil ki, Biz Öz vədlərimizi yerinə yetirəcəyik). Beləcə, sənin vəzifən yalnız təbliğdir. Hesab çəkmək yalnız Bizim işimizdir.”**

◊ **Bildirişlər**

1. Allahın müsəlmanlara lütfündən və ya kafirlərə qəhr-qəzəbindən müşahidə olunanlar ilahi vədlərin gerçəkləşməsindən yalnız bir hissəsidir.

2. Hətta möhtərəm peyğəmbər kimi fərdlərin ölümü ilahi vədlərin gerçəkləşməsinə mane olmur və bu vədlər nəzərdə tutulduğu vaxt gerçəkləşir.

3. Bəzən təbliğin təsirləri təbliğçi gedəndən sonra üzə çıxır. Demək, vəzifəmizi yerinə yetirərkən dərhal nəticə gözləməməliyik. Çünki təxir işin baş verməyəcəyini göstərmir.

4. İlahi cəzalar əsassız və hesabsız deyil.

● Ayə 41:

﴾أَوَلَمْ يَرَوْاْ أَنَّا نَأْتِي الأَرْضَ نَنقُصُهَا مِنْ أَطْرَافِهَا وَاللّهُ يَحْكُمُ لاَ مُعَقِّبَ لِحُكْمِهِ وَهُوَ سَرِيعُ الْحِسَابِ﴿

**“(Hamının hesabı Bizim öhdəmizədir və Biz sürətlə hesab çəkəcəyik.) Məgər görmədinmi, Biz torpağın sorağınca gəlir və daim tərəflərindən onu əskildirik?! Allah hökm edir və Onun hökmünü dəyişən kəs yoxdur. O hamı ilə tez hesab çəkər.”**

◊ **Nöqtələr**

●Müxtəlif rəvayətlərdə bildirilir ki, yerin tərəflərdən azaldılması alimlərin ölümü, çatışmazlığı nəzərdə tutulur.[1]

◊ **Bildirişlər**

1. Tarixdən və keçmişdəkilərin aqibətindən ibrət götürək, Allahın vəd və xəbərdarlıqlarına şəkk etməyək.

2. Hakimiyyətlərin və şəxsiyyətlərin ömrü Allahın istəyi ilə başa çatır.

3. Allahın hakimiyyəti və hökmü yenilməzdir.

4. Bütün şəxsiyyətlər və güclər tədricən yer üzündən götürülər. Allahın qüdrəti isə sabit və davamlıdır.

● Ayə 42:

﴿وَقَدْ مَكَرَ الَّذِينَ مِن قَبْلِهِمْ فَلِلّهِ الْمَكْرُ جَمِيعًا يَعْلَمُ مَا تَكْسِبُ كُلُّ نَفْسٍ وَسَيَعْلَمُ الْكُفَّارُ لِمَنْ عُقْبَى الدَّارِ﴾

**"Əlbəttə, onlardan əvvəlkilər məkr işlətdilər. (Bunun faydası olmadı, çünki) bütün tədbirlər və məkrlər Allahın ixtiyarındadır. O kimin nə kəsb etdiyini bilir və kafirlər tezliklə biləcəklər ki, axirət evi kimindir."**

◊ **Nöqtələr**

● Quran insanın bütün diqqətini Allaha yönəltmək və Allahdan qeyrilərindən ümidi üzmək üçün insanı Allahdan yayındıracaq bütün yolları bağlayır. Məsələn buyurulur: "Əgər izzət qazanmaq üçün başqalarının yanına getsən, bil ki, bütün izzət Allah üçündür." Digər bir yerdə buyurulur: "Bütün qüdrətlər Allaha aiddir." Bu ayədə isə bütün tədbirlərin Allaha aid olduğu bəyan edilir. Beləcə, insana anladılır ki, izzət, qüdrət və siyasətə çatmaq üçün başqalarına bağlanmasınlar.

● Allahın ixtiyarında olan ən üstün məkr nümunələrindən biri azğınlara möhlət verməkdir. Bu möhlət səbəbindən onlar elə düşünürlər ki, tutduqları yol doğrudur. Halbuki Allah Quranda bu möhlətin məhəbbət nişanəsi olmadığını dəfələrlə qeyd edir. Bildirilir ki, azğınlara verilən möhlətin səbəbi onların yükünün daha da ağırlaşdırılmasıdır.

◊ **Bildirişlər**

1. Dini rəhbərlər müxaliflərin məkrinə görə nigaran olmasınlar. Tarix boyu peyğəmbərlərə qarşı bu sayaq hiylələr işlədilmişdir.

2. Son söz kimindir? Tarixdən ibrət götürək.

3. Bütün tədbirlər və təsirlər Allahın əlindədir, başqalarının sorağına getməyək.

4. İnsanın Allaha qarşı məkri mənasızdır. Çünki məkr və hiylə qarşı tərəf xəbərsiz olduqda səmərə verir. Allah isə hamının işindən xəbərdardır.

---

1 "Təfsiri-Nurus-Səqəleyn"; "Ənbiya" surəsinin 44-cü ayəsi də bu ayənin oxşarıdır.

● Ayə 43:

﴿وَيَقُولُ الَّذِينَ كَفَرُواْ لَسْتَ مُرْسَلاً قُلْ كَفَى بِاللّهِ شَهِيدًا بَيْنِي وَبَيْنَكُمْ وَمَنْ عِندَهُ عِلْمُ الْكِتَابِ﴾

**“Küfr edənlər deyirlər: «Sən Allahın rəsulu deyilsən.» De ki, Allahım və kitab elmi olan kəsin şahidliyi mənimlə sizin aranızda kafidir.”**

◊ **Nöqtələr**

● Bu surənin ilk ayəsində oxuduq ki, xalqın əksəri iman gətirməsə də, Peyğəmbərə (s) nazil olan haqdır. Bu son ayədə də oxuyuruq ki, kafirlər Peyğəmbərin (s) risalətini (peyğəmbərliyini) inkar edirlər. Bu münasibəti doğuran batil əhlinin son həddə çatmış inadkarlığıdır.

● Əgər həzrət Süleymanın kitab elmindən bir hissəsinə sahib olan köməkçisi bir göz qırpımından tez Səba mələkəsinin taxtını gətirə bilirsə, kitab elminə tamamilə sahib olan kəs hansı qüdrətdə olar!

● Rəvayətlərə əsasən “kitab elminə sahib olan kəs” dedikdə həzrət Əli (ə) və peyğəmbər Əhli-beyti (ə) nəzərdə tutulmuşdur.[1]

◊ **Bildirişlər**

1. Allahın himayəsinə inam təkzib və təhqirlər qarşısında ən yaxşı dayaqdır.

2. İlahi kitabdan xəbərdarlıq insanın məqamını o qədər ucaldır ki, onun şahidliyi Allahın şahidliyi ilə yanaşı qeyd olunur.

3. Bəzən bir şəxsin şəhadəti minlərlə insanın inkarından üstün olur. (Əsas kəmiyyət yox, keyfiyyətdir).

1 “Təfsiri-Kənzud-Dəqaiq”

## “İBRAHİM” SURƏSİ

### *(SURƏ: 14; CÜZ: 13; AYƏLƏRİN SAYI: 52)*

### *“İBRAHİM” SURƏSİNİN SİMASI*

Məkkədə nazil olmuş bu surə 52 ayədən ibarətdir. Amma surənin Bədr döyüşündə öldürülənlərə həsr olunmuş 28-29-cu ayələri Mədinədə nazil olmuşdur. Surədə Peyğəmbərin (s) risalətindən, həzrət İbrahimin moizə, müjdə və dualarından danışılır. Rəvayətlərə əsasən, bu surənin tilavətinin bir sıra bərəkətləri, faydaları vardır. Surəni tilavət edən şəxs bəladan, yoxsulluqdan və divanəlikdən amandadır.

Surədə həzrət İbrahim haqqında danışıldığından o, “İbrahim” adlandırılmışdır. Bu surə də əvvəlki “Yunus”, “Hud”, “Yusuf” surələri kimi “əlif, lam, ra” müqəttəə hərfləri ilə başlayır. Bu surələrin ilk ayəsi Quranı vəsf edir.

﴾بسم الله الرحمن الرحيم﴿

**Bağışlayan və mehriban Allahın adı ilə**

● Ayə 1:

﴾الَر كِتَابٌ أَنزَلْنَاهُ إِلَيْكَ لِتُخْرِجَ النَّاسَ مِنَ الظُّلُمَاتِ إِلَى النُّورِ بِإِذْنِ رَبِّهِمْ إِلَى صِرَاطِ الْعَزِيزِ الْحَمِيدِ﴿

**“Əlif, lam, ra. (Bu,) xalqı Rəbbinin izni ilə zülmətlərdən nura, qüvvət sahibi olan, həmd-sənaya layiq Allaha doğru yönəltməyin üçün sənə nazil etdiyimiz bir kitabdır.”**

◊ **Nöqtələr**

● İnsanların zülmətlərdən nura çıxarılması mövzusu Quranda dəfələrlə təkrarlanmışdır. Belə bir yönəltmə bəzən Allaha, bəzən Peyğəmbərə (s), bəzən də kitaba aid edilir.[1]

● Küfr, təfriqə, cəhalət, şirk v şəkkə uğramış insan çaş-baş qaldığından bütün bu hallar qaranlığa bənzədilmişdir.

● Nur görmə, oyanış, hərəkət və inkişaf vasitəsidir. Bütün bu səciyyələr isə səmavi kitabda və Allah yolunda mövcuddur.

◊ **Bildirişlər**

1. İnsanların hidayəti üçün Quran təklikdə bəs etmir. Bu işdə ilahi rəhbərə də ehtiyac var.

1 Bax: “Bəqərə”, 257; “İbrahim”, 5

2. Səmavi kitabların və peyğəmbərlərin göndərilməsi fəlsəfəsi bəşəriyyəti cəhalət zülmətindən elm nuruna, küfr zülmətindən iman nuruna, təfriqə zülmətindən vəhdət nuruna, günah zülmətindən təqva nuruna çıxarmaqdır.

3.Zülmətlər çoxdur, nur isə bir. Haqq birdir, batil isə çox. (Ayədə "nur" sözü tək, "zülmət" sözü isə cəm formada işlədilmişdir.)

5. Peyğəmbərlər və səmavi kitablar hidayət vasitəsidir. Hidayət yalnız Allahın izni ilə əldə olunur.

6. Allahın yolu qüdrət, yüksəliş və kamal yoludur.

● Ayə 2:

﴿اللّهِ الَّذِي لَهُ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الأَرْضِ وَوَيْلٌ لِّلْكَافِرِينَ مِنْ عَذَابٍ شَدِيدٍ﴾

**"Bir Allah ki, göylərdə və yerdə olan Onundur. Şiddətli əzaba görə vay kafirlərin halına!"**

◊ **Bildirişlər**

1. Dünyanı yaratmış və varlığın sahibi olan kəsin qanun və məktəbinə tabe olmaq mümkündür.

2. Hər şeyin sahibi olan Allahın inkarı Allaha yox, kafirlərə zərərdir.

● Ayə 3:

﴿الَّذِينَ يَسْتَحِبُّونَ الْحَيَاةَ الدُّنْيَا عَلَى الآخِرَةِ وَيَصُدُّونَ عَن سَبِيلِ اللّهِ وَيَبْغُونَهَا عِوَجًا أُوْلَئِكَ فِي ضَلاَلٍ بَعِيدٍ﴾

**"(Kafirlər) o kəslərdir ki, dünya həyatını axirət həyatından üstün tutur, (xalqı) Allah yolundan çəkindirir, azdırmaq istəyirlər. Onlar dərin bir azğınlıq içindədir."**

◊ **Nöqtələr**

● Allahın yolunun bağlanması dedikdə təkcə bir-iki iş nəzərdə tutulmur. Yetərsiz təbliğat, aşkar günah, fəsad və qəflət vasitələrinin yayılması, şübhə yaratmaq, ixtilaf yaratmaq, azdırıcı nəşrlər və filmlər, həqiqi dini pis tanıtdırmaq, ləyaqətsiz insanları din nümunəsi kimi təqdim etmək və onlarla bu kimi başqa işlər Allah yolunun bağlanması nümunələrindəndir.

● Dünyadan ləzzət almaq olar, amma dünyanı axirətdən üstün tutmaq təhlükəlidir. Çünki dünyapərəstlik ibadətə, infaqa, cihada, halal qazanca, sədəqəyə və dini vəzifələrin yerinə yetirilməsinə mane olur.

◊ **Bildirişlər**

1. Dünyapərəstlik küfr, dinlə mübarizə və zillət üçün zəmindir.

2. Azğınlıqların qaynağı insanın öz əməlidir.

3. İnsan ixtiyar sahibidir, bir yolu o birindən üstün tutub seçim apara bilər. (Amma seçdiyi yol onu zillətə də apara bilər.)

4. Kafirlər üç mərhələ keçirir: əvvəlcə özlərini dünyapərəstliklə aldadırlar; sonra öz əməlləri ilə başqalarını yoldan çıxarırlar; daha sonra var gücləri ilə haqpərəstlərin yolunu əyirlər.

5. Kafirlərin ruhiyyəsi azğınlığa meyl amilidir.

6. Azğınlıqların dərəcələri və mərhələləri var. Azğınlıq dərinləşdikcə haqqa qayıdış çətinləşir.

● Ayə 4:

﴿وَمَا أَرْسَلْنَا مِن رَّسُولٍ إِلاَّ بِلِسَانِ قَوْمِهِ لِيُبَيِّنَ لَهُمْ فَيُضِلُّ اللّهُ مَن يَشَاء وَيَهْدِي مَن يَشَاء وَهُوَ الْعَزِيزُ الْحَكِيمُ﴾

**"Bütün peyğəmbərləri öz qövmünün dilində danışan (halda) göndərdik ki, xalq üçün bəyan edə bilsin. Allah istədiyini (ləyaqətsizi) azdırar, istədiyini (ləyaqətlini) hidayət edər. Odur qüvvə və hikmət sahibi."**

◊ **Nöqtələr**

● Ayədə "qövmün dili" dedikdə təkcə dil və lüğət nəzərdə tutulmur. Bəzən bir şəxs xalqın dilində danışsa da, onu anlayan olmur. Ayədə xalqın başa düşəcəyi bir dil nəzərdə tutulmuşdur. Peyğəmbərlər ilahi vəhyi xalqa anlada biləcək şəkildə danışmışlar. Başqa bir ayədə buyurulur: "Biz Quranı sənin dilinlə asan etdik."[1] Həzrət Musa da sözlərinin anlaşılması üçün Allahdan diləyir ki, dilindəki düyün açılsın.[2]

● Bəzi təfsirçilər deyirlər: "Yəşa" ("istədiyini") feli Allaha yox, xalqa aiddir. Yəni Allah yalnız o insanları azdırır ki, onlar özləri bu istəkdədir. Eyni zamanda, hidayət istəyində olanlar hidayət olunur. Quranda buyurulur: "Hər dəstəyə getdiyi yolda yardım edirik."[3]

● Peyğəmbərin öz qövmünün dilində təbliğ etməsi dinin ümumbəşəriliyinə zidd deyil. Vəhy zahirən bir dildə olsa da, mahiyyət baxımından bütün bəşəriyyətə məxsusdur. Quranda tapşırılır ki, bir qrup insan dini dərindən öyrənmək və hicrət etməklə dini hökmləri başqalarına da öyrətməlidir.

◊ **Bildirişlər**

1. Peyğəmbərlər öz dövrlərindəki xalqların mədəniyyət və dili ilə tanış olmuş, onların anlayacağı tərzdə təbliğ etmişlər.

2. Allah haqqı tam bəyan etməklə höccəti tamamlayır və bəhanəyə yer qalmır.

3. Dini rəhbərin xalqla əlaqəsi sevgili, səmimi və bilavasitə əlaqədir.

4. Təbliğ sadə və aydın şəkildə olmalı, bütün xalq tərəfindən dərk edilməlidir.

5. Allah yalnız hikmət əsasında doğru yola yönəldir və azdırır.

---

1 "Məryəm", 97
2 "Taha", 27, 28
3 "İsra", 20

● Ayə 5:

﴿وَلَقَدْ أَرْسَلْنَا مُوسَى بِآيَاتِنَا أَنْ أَخْرِجْ قَوْمَكَ مِنَ الظُّلُمَاتِ إِلَى النُّورِ وَذَكِّرْهُمْ
بِأَيَّامِ اللّهِ إِنَّ فِي ذَلِكَ لآيَاتٍ لِّكُلِّ صَبَّارٍ شَكُورٍ﴾

**“Həqiqətən, Musanı möcüzələrlə göndərdik (və ona dedik:) qövmünü zülmətlərdən nura çıxar, Allahın günlərini onlara xatırlat. Həqiqətən, bu işdə səbri, müqaviməti və şükrü çox olanlar üçün ilahi qüdrət nişanələri var.”**

◊ **Nöqtələr**

● Rəvayətlər həzrət Mehdinin (ə) zühur gününü, rəcət və qiyamət günlərini “əyyamullah” (“Allahın günləri”) təbirinin nümunəsi kimi təqdim edir.[1]

◊ **Bildirişlər**

1. Peyğəmbərin möcüzəsi olmalıdır.
2. Peyğəmbərlərin ümumi məqsədləri eynidir. Allah-təala bu surənin əvvəlki ayəsində İslam Peyğəmbərinə (s), bu ayədə isə həzrət Musaya müraciətlə buyurur: “Xalqı qaranlıqlardan xaric edin və nura yönəldin.”
3. Peyğəmbərə tapşırılan ilk ünvan onların öz qövmüdür.
4. Allahın sitəmkarlara qəhr-qəzəbinin yada salınması və keçmişdəkilərə lütfünə diqqət xalqın zülmətlərdən qurtuluş yoludur.
5. Tarixə diqqət insanda səbir və şükür üçün zəmin yaradır. Keçmişin müsibətlərini və acılıqlarını yada salmaq insanı şükrə vadar edir. Ümmətlərin möhkəmliyinə və uğuruna diqqət insanı səbir və müqavimətə dəvət edir.
6. Bütün günlər Allahın günüdür. Amma ilahi qüdrətin təcəlla etdiyi günün öz yeri var. (Kafirlərə qəhr-qəzəbin, möminlərə lütfün təcəllası.)

7 Allah günlərinin xatirəsi üçün keçirilən bayram mərasimləri caizdir. (Çaşqın vəhhabi firqəsi bu mərasimləri caiz saymır.)

8. Mömin insan çətinliklərdə səbir, rifahda şükür yolunu tutur.
9. Səbir həqiqətin dərki üçün zəmindir.

● Ayə 6:

﴿وَإِذْ قَالَ مُوسَى لِقَوْمِهِ اذْكُرُواْ نِعْمَةَ اللّهِ عَلَيْكُمْ إِذْ أَنجَاكُم مِّنْ آلِ فِرْعَوْنَ
يَسُومُونَكُمْ سُوءَ الْعَذَابِ وَيُذَبِّحُونَ أَبْنَاءكُمْ وَيَسْتَحْيُونَ نِسَاءكُمْ وَفِي ذَلِكُم بَلاء
مِّن رَّبِّكُمْ عَظِيمٌ﴾

**“(Yada sal) o zaman ki, Musa öz qövmünə dedi: “Allahın sizə verdiyi neməti yada salın. Bir vaxt fironçular sizə ən pis əzab verdiyi, oğlanlarınızın başını kəsdiyi, qadınlarınızı (kənizlik üçün) sağ saxladığı**

---

1 “Nurus-Səqələyn”

**zaman (Allah) sizi onların əlindən xilas etdi. Bu işlərdə Rəbbiniz tərəfindən böyük sınaq vardı.”**

◊ **Bildirişlər**

1. Acı və şirin hadisələri, azadlıq və işgəncə dövrünü müqayisə etməklə Allahın nemətlərinin qədrini bilin.
2. Uğurları özümüzdən yox, Allahdan bilək.
3. Azadlıq ən mühüm ilahi nemətlərdəndir.
4. Peyğəmbərlərin ən mühüm işi zalım qüvvələrlə mübarizə, məhrumların və zəiflərin qurtuluşudur.
5. Zalım qüvvələrin hakimiyyətinin qorunmasında saray əhlinin xüsusi rolu var.
6. Sınaq və bəla tərbiyə məqsədi daşıyır və ilahi rübubiyyət şənindəndir.

● Ayə 7:

﴿وَإِذْ تَأَذَّنَ رَبُّكُمْ لَئِن شَكَرْتُمْ لَأَزِيدَنَّكُمْ وَلَئِن كَفَرْتُمْ إِنَّ عَذَابِي لَشَدِيدٌ﴾

**“(Xatırla) o zaman ki, Rəbbiniz elan etdi: Həqiqətən, əgər şükür etsəniz, hökmən sizin üçün artırarıq. Əgər nankorluq etsəniz, həqiqətən, Mənim əzabım ağırdır.”**

◊ **Nöqtələr**

● Hazırkı ayə Quranın nemətə şükür və nankorluqla bağlı ən aydın ayəsidir. Azadlıq və ilahi hökumətin təşkili ilə bağlı bəyan olunmuş ayədən sonra həzrət Musanın rəhbərliyinə işarə olunur. Belə məlum olur ki, ilahi hökumət və səmavi rəhbər ən mühüm nemətlərdəndir. Nankorluq edənləri ağır əzab gözləyir.

● Nemətə şükrün mərhələləri var: qəlb şükrü (bütün nemətləri Allahdan bilək); dil şükrü (məsələn, “əlhəmdulillah” deməklə şükür etmək); əməli şükür (insan şükür olaraq ibadət edir, canını və malını Allahın razılığı və xalqa xidmət yolunda həsr edir).

● İmam Sadiq (ə) buyurmuşdur: “Nemətin şükrü günahdan uzaqlıqdır.” Həzrət başqa bir məqamda buyurur: “Şükür odur ki, insan bütün nemətin Allah tərəfindən olduğunu qəbul etsin. (Özünün və ya başqalarının zirəkliyini, elmini, əqlini və səyini əsas saymasın). Allahın ona verdiyindən razı qalsın, Allahın nemətlərindən günah yolda istifadə etməsin. Həqiqi şükür odur ki, insan Allahın nemətlərindən haqq yolda bəhrələnir”[1]

● İlahi nemətlər müqabilində nə qədər şükür etsək də, bu şükürlər cüzidir və dilə gətiriləsi deyil. Sədinin təbirincə:

*Bəndə odur təqsirini anlayıb*
*Üz tuta dərgahına Allahının.*

---

1 “Təfsiri-Nümunə”

*Yoxsa ki, Allahına layiq qədər*
*Yox dəyəri tövbəsinin, ahının.*

Hədisdə oxuyuruq ki, Allah Musaya belə vəhy etdi: "Mənim şükür haqqımı yerinə yetir." Musa dedi: "Bu iş mümkün deyil. Çünki hər şükür kəlməsi üçün başqa bir şükrə ehtiyac var." Allah-təala vəhy etdi: "Sənin bu etirafın, hər şeyin Mənə aid olduğunu bilməyin ən yaxşı şükürdür."[1]

Rəvayətlərə əsasən, insanlara təşəkkür etməyən kəs, Allaha da təşəkkür etməmişdir.[2]

● Allahın nemətini qeyri-ilahi yolda sərf etmək nankorluq və küfr üçün zəminədir. Quranda buyurulur: "Allahın nemətini küfrə dəyişənlər..."[3]

◊ **Bildirişlər**

1.Şükrün nemət üçün vasitə olması ilahi bir sünnədir və bu sünnə qəti şəkildə elan olunmuşdur.

Şükür qılsan nemət artası hökmən
Nankor olsan nemət çıxası əldən.

2. Allah şəxsən ehtiyac duyduğundan yox, bizim tərbiyəmiz üçün şükrü zəruri edib.

3. Şükür vasitəsi ilə nəinki nemətlər artır, hətta biz özümüz də inkişaf edir, yüksəlirik.

4. Nankorluğun cəzası təkcə nemətlərin kəsilməsi deyil. Bəzən geri alınmayan nemət də bədbəxtçilik səbəbi olur və insan tədricən süqut edir.

● Ayə 8:

﴿وَقَالَ مُوسَى إِن تَكْفُرُواْ أَنتُمْ وَمَن فِي الأَرْضِ جَمِيعًا فَإِنَّ اللّهَ لَغَنِيٌّ حَمِيدٌ﴾

**"Musa (Bəni-İsrailə) dedi: "Əgər siz və yer üzünün bütün sakinləri küfr etsəniz (Allaha bir ziyan toxunmaz), çünki Allah (zatən) ehtiyacsızdır və sitayişə layiqdir."**

◊ **Bildirişlər**

1. Dəvət və təbliğdə iş yalvarış həddinə çatmamalıdır.

2. Öz imanımız və əməlimizlə Allaha minnət qoymayaq. Allah bizim iman və əməlimizə ehtiyaclı deyil.

3. İnsanın iman və küfrü, şükür və nankorluğu Allahın zatına təsirsizdir.

---

1 "Təfsiri-Nümunə"
2 "Bihar", c. 71, s. 44
3 "İbrahim", 28

*Küfrə düçar olsa bütün kainat*
*Haqqın ətəyinə düşməz bircə qat.*

● Ayə 9:

﴿أَلَمْ يَأْتِكُمْ نَبَأُ الَّذِينَ مِن قَبْلِكُمْ قَوْمِ نُوحٍ وَعَادٍ وَثَمُودَ وَالَّذِينَ مِن بَعْدِهِمْ لاَ
يَعْلَمُهُمْ إِلاَّ اللّهُ جَاءتْهُمْ رُسُلُهُم بِالْبَيِّنَاتِ فَرَدُّواْ أَيْدِيَهُمْ فِي أَفْوَاهِهِمْ وَقَالُواْ إِنَّا
كَفَرْنَا بِمَا أُرْسِلْتُم بِهِ وَإِنَّا لَفِي شَكٍّ مِّمَّا تَدْعُونَنَا إِلَيْهِ مُرِيبٍ﴾

**"Sizdən əvvəlki Nuh, Ad, Səmud qövmlərinin və onlardan sonrakı qövmlərin xəbəri sizə çatmayıbmı? Onlardan yalnız Allah xəbərdardır. Peyğəmbərləri onların sorağına möcüzələrlə gəldi. Amma onlar əllərini ağızlarına tutub («susun!» işarəsi verməklə) deyirdilər: "Biz sizinlə göndərilənləri inkar edirik və bizi dəvət etdiyiniz şeyə qarşı şəkk-şübhə içindəyik."**

◊ **Nöqtələr**

● Bu ayə hazırkı surənin 5-ci ayəsində bəyan olunmuş Allahın günlərinin xatırladılması və həmin günlərə diqqət nümunələrindəndir.

● Şeyx Tusi "Tibyan" təfsirində bildirir ki, "şəkk" "rəyb"dən fərqlənir. Şəkk təbii bir şübhədir, rəyb isə sui-zənn və böhtanla müşayiət olunan şəkdir.

● Həqiqətin araşdırılması və qəbulu üçün zəmin olan şəkk faydalı şəkdir. Aşkar dəlillərə, möcüzələrə qarşı şəkk isə inadkarlıqdır, dağıdıcı şəkdir və insanı haqqın qəbulundan saxlayır.

● "Fəraddu əydiyəhum fi əfvahihim", yəni "əllərini ağızlarına tutdular" cümləsi bir neçə cür mənalandırıla bilər:

a) Müxaliflər əllərini haqpərəstlərin ağzına tutmaqla onların səsini boğurdular.

b) Peyğəmbərlərin möcüzə və dəlilləri o qədər möhkəm idi ki, xalqın əli ağzında qalmışdı, yəni onların deməyə sözləri yox idi.

v) Peyğəmbərlərin müxalifləri qəzəbdən əllərini gəmirirdilər.

q) Müxaliflər peyğəmbərlərin hüzurunda əllərini ağızlarına aparmaqla moizə-nəsihəti dayandırmağı işarə edirdilər.

◊ **Bildirişlər**

1. Allah tərəfindən tarixə və cəmiyyətə sabit qanunlar hakim kəsilmişdir. Tarixin bir hissəsi ilə tanış olmaqla növbəti hissəsi üçün ibrət dərsi götürmək mümkündür.

2. Bəşər tarixinin müəyyən hissələri məchul və qaranlıqdır.

3. Bütün peyğəmbərlərin möcüzəsi olmuşdur.

4. Kafirlər şəxsən peyğəmbərlə düşmən deyildilər, onların düşmənçiliyi dinə ünvanlanmışdır.

5. Kafirlər heç bir araşdırma aparmadan dinə şübhə edirlər. Bu şübhənin əsasını bədbinlik və inadkarlıq təşkil edir.

● Ayə 10:

﴿قَالَتْ رُسُلُهُمْ أَفِي اللّهِ شَكٌّ فَاطِرِ السَّمَاوَاتِ وَالأَرْضِ يَدْعُوكُمْ لِيَغْفِرَ لَكُم مِّن ذُنُوبِكُمْ وَيُؤَخِّرَكُمْ إِلَى أَجَلٍ مُّسَـمًّى قَالُواْ إِنْ أَنتُمْ إِلاَّ بَشَرٌ مِّثْلُنَا تُرِيدُونَ أَن تَصُدُّونَا عَمَّا كَانَ يَعْبُدُ آبَآؤُنَا فَأْتُونَا بِسُلْطَانٍ مُّبِينٍ﴾

**«Peyğəmbərləri (cavab olaraq) dedilər: "Allaha - göylərin və yerin yaradanına şəkmi var?! (Belə bir əzəmətə malik olan varlığın xaliqə ehtiyacı yoxdurmu?) O sizi (haqqa) dəvət edir ki, günahlarınızdan keçsin, müəyyən günədək sizə möhlət versin." (Kafirlər) dedilər: "Siz bizdən fərqli insan deyilsiniz (heç bir imtiyazınız yoxdur). Siz bizi babalarımızın pərəstiş etdiyindən uzaqlaşdırmaq istəyirsiniz. (Əgər belə deyilsə,) bizə aşkar dəlil və möcüzə gətirin."»**

◊ **Nöqtələr**

● Ötən ayədə kafirlər peyğəmbərlərə dedilər:"Siz bizi (Allahın yoluna) çağırırsınız." Bu ayədə isə peyğəmbərlər onlara deyir: "Allah sizi çağırır." Yəni peyğəmbərlər öz tərəflərindən özlərinə tərəf yox, Allah tərəfindən Allaha tərəf dəvət edirdi.

● Zəməxşəri və Mərağinin dediklərinə əsasən, Quran möminlərin bütün günahlarının bağışlanacağını vəd edir. Başqalarının isə yalnız bəzi günahları bağışlana bilər.

◊ **Bildirişlər**

1. Allaha etiqad fitri və aşkar etiqaddır və bu etiqada münasibətdə şəkk yersizdir.
2. Əql və fitrətlə yanaşı məhəbbət və dəvət də lazımdır.
3. Din insanı çirkinlikdən paklığa dəvət edir.
4. Allah insanın günahlarının bağışlanması istəyindədir.
5. Tövbə və Allaha itaət insanın əcəlini təxirə salan səbəbdir.
6. Allah öz mərhəməti səbəbindən doğru yola dəvət edir və lütf edərək insana ömrünün sonunadək möhlət verir.
7. Hər bir insanın ömrü öncədən müəyyənləşdirilmişdir.
8. Milli və irqi təəssübkeşlik haqqın qəbuluna mane olur.
9. İnsanın əqidə və inamına ailə mühüm təsir göstərir.
10. Haqq qarşısında inadkarlıq və itaətsizlik çarəsiz dərddir. Bütün peyğəmbərlər xalqın sorağına möcüzə ilə gəlmişlər. Amma bəziləri inadkarlıq səbəbindən peyğəmbərlərdən öz həvəslərinə uyğun yeni möcüzə istəyirdilər.

● Ayə 11:

﴿قَالَتْ لَهُمْ رُسُلُهُمْ إِن نَّحْنُ إِلاَّ بَشَرٌ مِّثْلُكُمْ وَلَكِنَّ اللّهَ يَمُنُّ عَلَى مَن يَشَاء مِنْ عِبَادِهِ وَمَا كَانَ لَنَا أَن نَّأْتِيَكُم بِسُلْطَانٍ إِلاَّ بِإِذْنِ اللّهِ وَعلَى اللّهِ فَلْيَتَوَكَّلِ الْمُؤْمِنُونَ﴾

**“Peyğəmbərləri onlara cavab olaraq dedilər: “(Bəli,) biz sizdən fərqli bəşər deyilik. Amma Allah Öz bəndələrindən istədiyinə minnət qoyur (və onu peyğəmbər seçir). Allahın izni olmadan sizə möcüzə gətirmək bizim işimiz deyil. Belə isə, möminlər yalnız Allaha təvəkkül etməlidirlər.”**

◊ **Nöqtələr**

● Bu ayədə Allahın istədiyi kəsə minnət qoyub onu peyğəmbər seçməsi bildirilsə də, Allah hikmət sahibidir və kimdə böyük məsuliyyət üçün tutum və ləyaqət olduğunu bilir. “Allah Öz risalətini harada qərar verəcəyini daha yaxşı bilir.”[1]

● Kafirlər və müşriklərin peyğəmbərlərə əsasən etibarı ilə iki sözü var:

1. Siz də bizim kimi insansınız;

2.Bizim təklif etdiyimiz möcüzəni gətir.

Bu ayədə yuxarıdakı iki fikrə münasibət bildirilir: peyğəmbərlər qeyd edirlər ki, sizin kimi insan olduğumuzu qəbul edirik, amma Allah bizə minnət qoyaraq vəhy göndərib. Bu da qeyd olunur ki, möcüzələr xalqın istəyi əsasında göndərilmir və peyğəmbərlərin haqqı yoxdur ki, Allahın izn vermədiyi möcüzəni gətirsinlər.

◊ **Bildirişlər**

1. İnsanların zahiri görünüşcə oxşarlığı onların daxili oxşarlığının dəlili deyil.

2. Peyğəmbərlər və tərbiyəçilər dəvət etdikləri insanlarla eyni şəraitdə olmalıdırlar. (Bəziləri peyğəmbərlərin adi insan olmasını onlar üçün zəif nöqtə saysalar da, əslində bu nöqtə onlar üçün imtiyaz idi. Əgər peyğəmbərlər başqaları kimi ehtiyaclı, nəfs istəklərinə malik və bəşəri çətinlikləri yaşayan insanlardan olmasaydılar, həqiqi tərbiyəçi və nümunə ola bilməzdilər.)

3. Peyğəmbərlər özlərini böyütmür və deyirdilər: “Biz də sizin kimi insanıq.”

4. Nübuvvət (peyğəmbərlik) məqamı Allahın hədiyyəsi və minnətidir.

5. Möcüzə xalqın yox, Allahın istəyi əsasında göndərilir. (Hətta xalq möcüzə istəməsə də, peyğəmbərlər möcüzə gətirirlər.)

6. Təvəkkül iman şərtidir.

7. Müxaliflərin inadkarlığı və inkarı möminləri yormur. Onlar Allaha təvəkkül etməklə öz yollarını gedirlər.

1 “Ənam”, 124

● Ayə 12:

﴿وَمَا لَنَا أَلاَّ نَتَوَكَّلَ عَلَى اللّهِ وَقَدْ هَدَانَا سُبُلَنَا وَلَنَصْبِرَنَّ عَلَى مَا آذَيْتُمُونَا وَعَلَى اللّهِ فَلْيَتَوَكَّلِ الْمُتَوَكِّلُونَ﴾

**“Allah bizi (səadət) yollarımıza hidayət etdiyi vaxt nə üçün Ona təvəkkül etməyək?! Şübhəsiz, bizə rəva bildiyiniz hər bir əziyyətə qarşı müqavimət göstərəcəyik. Təvvəkül əhli yalnız Allaha təvəkkül etməlidir.”**

◊ **Nöqtələr**

● «Təvəkkül» dedikdə vəkil tutmaq nəzərdə tutulur. Vəkildə 4 şərt olmalıdır: bilik, əmanətdarlıq, qüdrət və məhəbbət. Bu şərtlər Allahdan savay kimsədə tam şəkildə yoxdur. Beləsə, Ona təvəkkül edək.

● İmam Riza (ə) buyurur: “Allaha iman gətirmək sayəsində kimsədən qorxmamaq təvəkkülün sərhəddidir.”[1]

◊ **Bildirişlər**

1. Hidayət edən Allah himayə də göstərir. Beləsə, Ona təvəkkül edək.
2. Peyğəmbərlərin yolu elə Allahın yoludur.[2]
3. Allah yolunu getmək üçün çətinliklərə dözmək şərtdir.
4. Həm Allaha təvəkkül etmək, həm də müxaliflər qarşısında səbirli olub onlara müqavimət göstərmək lazımdır.
5. Mömünə nə qədər işgəncə verilsə də, öz əqidə və əməlindən əl çəkməz.
6. Yalnız dayağı olan kəs səbir edə bilər.

● Ayə 13:

﴿وَقَالَ الَّذِينَ كَفَرُواْ لِرُسُلِهِمْ لَنُخْرِجَنَّكُم مِّنْ أَرْضِنَآ أَوْ لَتَعُودُنَّ فِي مِلَّتِنَا فَأَوْحَى إِلَيْهِمْ رَبُّهُمْ لَنُهْلِكَنَّ الظَّالِمِينَ﴾

**“Kafirlər öz peyğəmbərlərinə dedilər: «Biz, şübhəsiz, dinimizi qəbul etməsəniz, sizi öz torpağımızdan çıxararıq.» Rəbləri onlara vəhy etdi ki, Biz, hökmən, sitəmkarları məhv edərik.”**

◊ **Nöqtələr**

● **Sual:** Əgər peyğəmbərlər besətdən öncə müşrik deyildilərsə, nə üçün kafirlər onları öz ayinlərinə qayıtmağa dəvət edirdilər?

**Cavab:** Əvvəla, kafirlər peyğəmbərlərin onların tabeçiliyinə qayıtmasını nəzərdə tuta bilərlər. Yəni kafirlər deyirdilər ki, sizin imanınız varsa da, bizə qarşı qiyam qaldırmamalı və bizim yolumuzdan çıxmamalısınız.

İkincisi, “Ud” sözü “ila” şəkilçisi ilə işlənmiş olsaydı, ilkin halətə qayıdış mənasını bildirərdi. Amma bu söz “fi” şəkilçisi ilə işləndiyindən nəzərdə tutulan

---

1 “Təfsiri-Nurus-Səqəleyn”
2 Bax: “Yusuf”, 108

ilkin hala qayıdış yox, sadəcə dəyişiklikdir. Yəni əqidənizi dəyişin və bizim ayini qəbul edin.

Üçüncüsü, şirkə qayıdış dedikdə, peyğəmbərlərin özlərinin yox, onların ətrafındakıların qayıdışı nəzərdə tutula bilər.

◊ **Bildirişlər**

1. Bütün peyğəmbərlər müxaliflərin müqaviməti ilə qarşılaşmışlar.
2. Hədə və sürgün məntiqsiz zorluların siyasətidir.
3.Kafirlər istəmirlər ki, möminlərin müstəqil şəxsiyyəti olsun.
4. Hədəyə hədə ilə cavab verilməlidir.
5.Fəlakətin səbəbi küfr yox, zülmdür.
6. Zülm davamsızdır, zalımın sonu puçdur.

● Ayə 14:

﴿وَلَنُسْكِنَنَّكُمُ الأَرْضَ مِن بَعْدِهِمْ ذَلِكَ لِمَنْ خَافَ مَقَامِي وَخَافَ وَعِيدِ﴾

**“Həqiqətən, sitəmkarlardan (onların həlakından) sonra sizi həmin torpaqda sakin edəcəyik. Bu Mənim məqamımdan çəkinən, vədimdən qorxanlar üçündür.”**

◊ **Nöqtələr**

● Allah-təala vəd etmişdir ki, sitəmkarları məhv edib, Öz övliyalarını qüdrətə çatdıracaq. Bu vəd hələ ki tam gerçəkləşmədiyindən imam Mehdinin (ə) zühuru dövründə həyata keçəcək.

● Qurani-Kərim dəfələrlə vəd etmişdir ki, Allahın övliyaları yer üzünə hakim olacaq və onların düşmənləri aradan götürüləcək. Bu məqamda üç halı xatırlayırıq:

a) “Həqiqətən, Bizim qoşunumuz qalibdir.”[1]

b) “Bizim peyğəmbərlərə sözümüz qətidir. Onlar qalibdirlər.”[2]

v) “Mənim saleh bəndələrim yer üzünə varis olacaq.”[3] Hər halda haqqın batil üzərində qələbəsi və övliyaların əli ilə ilahi hökumətin təşkili Quranın qəti və təkrar vədlərindəndir.

● İlahi zat xeyir və yaxşılıqların qaynağıdır və sevgiyə layiqdir. “Möminlər Allahı daha çox sevirlər.”[4] Gerçək qorxu səbəbi Allahın məqamıdır.

Bəli! Əgər sizin dostunuz hakim olsa və işiniz məhkəməyə düşsə, hakimin sizə dost olmasına baxmayaraq onun ədalətə əsaslanan mühakiməsindən qorxarsınız.

◊ **Bildirişlər**

---

1 “Saffat”, 173
2 “Saffat”, 171-172
3 “Ənbiya”, 105
4 “Bəqərə”, 165

1. Kafirlər yer üzünü öz qüdrətlərinin nümayişi üçün meydan sayırlar. Onlar unudurlar ki, yer üzünün hakimiyyəti peyğəmbərlərə və möminlərə məxsusdur.

2. Allah Öz övliyalarına qələbə vəd etmişdir.

3. Peyğəmbərlər təkcə hökmlərin bəyanı və moizə üçün yox, həm də hakimiyyət üçün gəlmişlər.

4. Təqva sitəmkarlaq üzərində qələbə şərtidir.

5. Təsirlərdən yox, Allahın hədələrindən qorxun.

● Ayə 15:

﴿وَاسْتَفْتَحُواْ وَخَابَ كُلُّ جَبَّارٍ عَنِيدٍ﴾

**“(Peyğəmbərlər və möminlər) fəth və qələbə intizarında idilər. Bütün inadkar zalımlar isə məhrum oldular.”**

● Ayə 16:

﴿مِّن وَرَآئِهِ جَهَنَّمُ وَيُسْقَى مِن مَّاء صَدِيدٍ﴾

**“Bunların (inadkar zalımların) aqibəti cəhənnəmdir və onlara qoxumuş, çirkin su içirilər.”**

◊ **Nöqtələr**

● “Vəra” dedikdə aqibət, son başa düşülür.

● Bütün peyğəmbərlər qələbə intizarında olmuşlar. Nuh deyirdi: “Pərvərdigara! Mən məğlubam, yardım göstər.”[1] Başqa peyğəmbərlər də Allahdan fəth və qələbə istəmişlər. Onlar deyirlər: “Pərvərdigara! Bizimlə qövmümüz arasında haqq əsasında hökm et.”[2] Kafirlər isə müsəlmanlara belə deyirdilər: “Siz deyirsiniz ki, bir gün qalib gələcəksiniz. Bəs həmin gün nə vaxt çatacaq?”[3] Məhz bu məqamda Qurani-Kərim peyğəmbərlərin qələbəsindən, kafirlərin məğlubiyyətindən və onların düçar olacağı əzabdan söz açır. Kafirlərə qətiyyətlə elan olunur ki, müsəlmanların qalib gələcəyi gün yaxındadır.

● Cəhənnəm əhlinin içdiyi maye yanğı gətirir. Bir çox Quran ayələri bu həqiqəti bəyan edir:

a) “Onlara içlərini parça-parça edən qaynar su içirilər”[4]

b) “Mis kimi ərimiş su ilə qarşılanarlar, onun hərarəti üzlərini bişirər.”[5]

Behişt əhli isə şirin sulu çeşmələr başında yaşayar. Onlar Allahın hazırladığı saf süd və baldan istifadə edərlər və bütün ilahi nemətlərdən bəhrələnərlər.[1]

---

1 Bax: “Qəmər”, 10
2 Bax: “Əraf”, 89
3 Bax: “Səcdə”, 28
4 “Muhəmməd”, 15
5 “Kəhf”, 29

● Tarixi mənbələrdə bildirilir: Bir gün Bəni-Üməyyə zalımlarından olan Vəlid ibn Yəzid ibn Əbdül-Məlik öz gələcəyindən xəbər tutmaq üçün Quran açdı. O “vəstəftəhu...” ayəsini görüb qəzəbləndi və Quranı cırdı. Sonra belə bir məzmunda şer yazdı: “Ey Quran, sən məni inadkar zalım sayıb hədələyirsən? Bəli, mən həmin inadkar zalımam. Mən bu gün səni cırıram ki, qiyamətdə bu işi gördüyümə şahid durasan.”[2]

● Ayə 17:

﴿يَتَجَرَّعُهُ وَلاَ يَكَادُ يُسِيغُهُ وَيَأْتِيهِ الْمَوْتُ مِن كُلِّ مَكَانٍ وَمَا هُوَ بِمَيِّتٍ وَمِن وَرَآئِهِ عَذَابٌ غَلِيظٌ﴾

**“Onu (çirkin suyu) qurtum-qurtum içər. Halbuki onu içmək ləzzətli deyil. Hər tərəfdən sorağına ölüm gələr, amma o öləsi deyil. Ondan sonra şiddətli əzab var.”**

◊ **Nöqtələr**

● Bu ayədə cəhənnəm əhlinin əzabı təsvir olunur:

a) Cəhənnəm əhlinin əzabını artırmaq üçün onların əzabı zərrə-zərrə yetişər.

b) Növbənöv əzablar cəhənnəm əhlini ölüm həddinə çatdırsa da, onlar ölməz.

v) Əzabların çətin döngələri var və çətinlik getdikcə artır.

● Quran qiyamət əzabını “əlim”, “şədid”, “ğəliz”, “əzim” təbirləri ilə vəsf edir. Bütün bunlar əzabın şiddət və əzəmətini göstərir.

● Həzrət Peyğəmbər (s) buyurur: “Şərab içən insanın namazı 40 gün qəbul olmaz. Belə bir insana Allahın qoxumuş cəhənnəm suyu içirməsi rəvadır.”[3]

◊ **Bildirişlər**

1. Cəhənnəm əzabı tədrici və daimidir.
2. Cəhənnəm əhli üçün ölüm yoxdur, cəhənnəm əzabı ölümlə başa çatmır.
3. Cəhənnəm əzabı getdikcə artır.

● Ayə 18:

﴿مَّثَلُ الَّذِينَ كَفَرُواْ بِرَبِّهِمْ أَعْمَالُهُمْ كَرَمَادٍ اشْتَدَّتْ بِهِ الرِّيحُ فِي يَوْمٍ عَاصِفٍ لاَّ يَقْدِرُونَ مِمَّا كَسَبُواْ عَلَى شَيْءٍ ذَلِكَ هُوَ الضَّلاَلُ الْبَعِيدُ﴾

---

1 Bax: “İnsan”, 21

2 “Təfsiri-Nümunə”

3 “Təfsiri-Məcməul-bəyan”

**“Allaha qarşı küfr edənlər (onların əməlləri) tufanlı bir gündə bərk küləyin sovurduğu külə bənzəyir. Onlar əldə etdiklərinin bir zərrəsini belə qorumağa qadir deyillər. Bu həmin uzaq və dərin azğınlıqdır.”**

◊ **Nöqtələr**

● Ötən ayələrdə inadkar zalımların düşdüyü zərər və məhrumiyyətdən danışıldı. Bu ayədə isə həmin zərərlər izah olunur.

● Allah möminlərin pisliklərini, tövbə edərlərsə, yaxşılığa və savaba çevirər.[1] Amma kafirlərin pis əməlləri onların yaxşı əməllərini puça çıxarar.[2]

● Quranın bir çox ayələrində kafirlərin əməllərinin puça çıxmasından danışılır. “Biz onların əməllərini gətirər və puç edərik.”[3] Başqa bir ayədə oxuyuruq: “Qiyamətdə kafirlər üçün mizan qurular.”[4] Ola bilsin ki, ayədə həmin nöqtəyə işarə olunmuşdur.

◊ **Bildirişlər**

1. Kafirlərin əməlləri sonu küldən başqa bir şey olmayan bir oddur.
2. Kafirlərin əməlləri sizi heyrətə gətirməsin. Bu əməllər puç və səmərəsizdir.
3. Kafir tövbə və qurtuluşdan uzaqdır.
4. Küfr yaxşı əməlləri də bada verir.

● Ayə 19:

﴿أَلَمْ تَرَ أَنَّ اللّهَ خَلَقَ السَّمَاوَاتِ وَالأَرْضَ بِالْحقِّ إِن يَشَأْ يُذْهِبْكُمْ وَيَأْتِ بِخَلْقٍ جَدِيدٍ﴾

**“Allahın göyləri və yeri haqq olaraq yaratdığını görmədinmi? Əgər istəsə, sizi aparar və (yerinizə) yeni bir xalq gətirər.”**

● Ayə 20:

﴿وَمَا ذَلِكَ عَلَى اللَّهِ بِعَزِيزٍ﴾

**“Bu (dəyişiklik) Allah üçün çətin deyil.”**

◊ **Nöqtələr**

● Quran dəfələrlə buyurmuşdur: “Biz göyləri və yeri boş yerə, oyun-oyuncaq olaraq yaratmadıq.”[5] Digər bir ayədə buyurulur: “Bəli, kafirlərdir ki, varlıq aləminin yaranışını məqsədsiz, puç sayırlar.”[6]

---

1 Bax:: “Furqan”, 70
2 Bax: “Əraf”, 147
3 Bax: “Furqan”, 23
4 “Kəhf”, 105
5 “Duxan”, 38
6 “Sad”, 27

◊ **Bildirişlər**

1. Göylərin və yerin yaranışı hikmət, məsləhət, müsbət məqsəd əsasında gerçəkləşmişdir.

2. Varlığımıza görə qürrələnməyək, Allahın buna ehtiyacı yoxdur.

3. Varlıq və onun davamı Allahın istək və iradəsinə bağlıdır.

4. İnsansız aləm əbəsdir. Göylərin və yerin yaranışının əbəs olmaması üçün bir dövrün insanları aparılsa da, onların yerinə başqaları gətirilər.[1]

● Ayə 21:

﴿وَبَرَزُواْ لِلّهِ جَمِيعًا فَقَالَ الضُّعَفَاء لِلَّذِينَ اسْتَكْبَرُواْ إِنَّا كُنَّا لَكُمْ تَبَعًا فَهَلْ أَنتُم مُّغْنُونَ عَنَّا مِنْ عَذَابِ اللّهِ مِن شَيْءٍ قَالُواْ لَوْ هَدَانَا اللّهُ لَهَدَيْنَاكُمْ سَوَاء عَلَيْنَآ أَجَزِعْنَا أَمْ صَبَرْنَا مَا لَنَا مِن مَّحِيصٍ﴾

**«(Qiyamət günü xalq) hamılıqla Allahın hüzurunda zahir olar. Zəiflər təkəbbürlülərə deyərlər: "Biz (dünyada) sizə tabe idik. (Bu gün) Allahın əzabından bir şeyi bizdən uzaqlaşdıra bilərsinizmi?" (Onlar cavab olaraq) deyərlər: "Əgər Allah bizi əzabdan qurtuluşa yönəltsə, hökmən biz sizi doğru yola çəkərik. Bizim üçün fəryad çəkməklə səbir etmək arasında fərq yoxdur. Bizim üçün heç bir xilas yolu mövcud deyil."»**

◊ **Nöqtələr**

● "Bərəzu" dedikdə xaric olmaq mənası anlaşılır. Qoşun sıralarından önə çıxıb döyüş üçün hazırlığını bildirən şəxs "mübariz" adlanır.

● Xalq adətən öz hakiminin əqidəsində olsa da, İslam müdiriyyət sistemində müdirə mütləq itaət vacib deyil.[2]

◊ **Bildirişlər**

1. Qiyamətdə xalq Allahın hüzuruna birlikdə çıxar.

2. Kor-koranə təqlid və itaətin sonu peşmançılıqdır.

3. Cəhənnəm əhli bütün əzabın yox, əzabın bir hissəsinin yüngülləşməsini diləyər.

4. Cəmiyyətin rəhbərlərinin doğru və ya əyri yolda olması, xalqın xoşbəxtlik və ya bədbəxtliyini təyin edən mühüm amildir.

5. Günahkar rəhbərlərin qiyamətdə ruhi əzablarından biri öz tabeçiliklərində olanlar qarşısında zəifliklərini və bədbəxtliklərini etiraf etmələridir.

---

1 "Təfsiri-Əl Mizan"

2 "Bihar", c. 10, s. 227

6. Dünyada “bizim üçün moizə edib-etməməyinizin fərqi yoxdur” deyənlər Qiyamətdə belə deyərlər: “Bizim üçün fəryad çəkib-çəkməməyin fərqi yoxdur. Bütün hallarda əzaba düçarıq.”[1]

7. İlahi mühakimə və cəzadan qaçmaq mümkünsüzdür.

8. Qiyamətdə xalq arasında çox söz-söhbət olar.[2]

9. Qiyamətdə kimsə Allahın əzabına mane ola bilməz.

● Ayə 22:

﴿وَقَالَ الشَّيْطَانُ لَمَّا قُضِيَ الأَمْرُ إِنَّ اللّهَ وَعَدَكُمْ وَعْدَ الْحَقِّ وَوَعَدتُّكُمْ فَأَخْلَفْتُكُمْ وَمَا كَانَ لِيَ عَلَيْكُم مِّن سُلْطَانٍ إِلاَّ أَن دَعَوْتُكُمْ فَاسْتَجَبْتُمْ لِي فَلاَ تَلُومُونِي وَلُومُواْ أَنفُسَكُم مَّا أَنَاْ بِمُصْرِخِكُمْ وَمَا أَنتُمْ بِمُصْرِخِيَّ إِنِّي كَفَرْتُ بِمَآ أَشْرَكْتُمُونِ مِن قَبْلُ إِنَّ الظَّالِمِينَ لَهُمْ عَذَابٌ أَلِيمٌ﴾

**“Mükafat və cəza başa çatdıqdan sonra (şeytan) cəhənnəm əhlinə (məzəmmətlə) deyər: “Həqiqətən, Allah sizə doğru vəd verdi, mən isə sizə verdiyim vədə xilaf çıxdım. Mən sizə hakim deyildim. Yalnız sizi dəvət etdim və siz qəbul etdiniz. Belə isə məni yox, özünüzü məzəmmət edin. (Bu gün) nə mən sizin dadınıza çatanam, nə də siz mənim dadıma çatansınız. Bundan öncə məni Allaha şərik qoşmağınızdan zara gəlmişəm. Şübhəsiz, zalımlar üçün dərdli əzab var.”**

◊ **Nöqtələr**

● Günahkar qiyamətdə çabalayar ki, öz günahlarına şərik tapsın və xətalarını başqasının boynuna atsın. O bəzən “pis yoldaş məni azdırdı”, bəzən “azğın rəhbər məni yoldan çıxardı”, bəzən “şeytan məni aldatdı” deyər.[3] Şeytan isə belə cavab verər: “Məni məzəmmət etməyin, mənim işim yalnız vəsvəsə və dəvət olub. Azğınlığınız özünüzdəndir.”

● Şeytanın insana hakim olmamasını Allah da təsdiqləyir. Allah-təala buyurur ki, şeytan mənim xalis bəndələrimə hakim deyil.[4]

◊ **Bildirişlər**

1. Allahın vədləri haqdır və gerçəkliyə uyğundur.

2. Şeytan öz vədləri ilə insanı aldadır.[5]

3. Şeytan insanı məcbur etmir, onun işi vəsvəsə və dəvətdir.

---

1 Bax: “Şuəra”, 136
2 Bax: “Ğafir”, 47
3 Bax: “Furqan”, 29; “Səba”, 31
4 Bax: “Hicr”, 42
5 Bax: “Nisa”, 120

4. Hətta şeytan belə günahkar insanı məzəmmət edir.

5. Məzəmmət insanın azadlığını göstərən dəlillərdəndir. Əgər insan məcbur olsaydı, məzəmmət edilməzdi.

6. Günahınızı şeytanın boynuna atmayın.

7. Batil rəhbərlər və onlara tabe olanlar bir-birlərindən üz döndərərlər. Şeytan insanların günahına şərik olmasından imtina edər. Yolunu azmış ardıcıllar isə öz rəhbərlərinə deyərlər: “Əgər dünyaya qayıtmağımız üçün fürsət olsaydı, biz də sizdən üz çevirərdik.”[1]

8. Allahdan qeyrisinə itaət şirkdir.

9. Şeytanın dəvətlərini qəbul etməsi insanın özünə və əqidə məktəbinə zülmdür.

● Ayə 23:

﴿وَأُدْخِلَ الَّذِينَ آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ
خَالِدِينَ فِيهَا بِإِذْنِ رَبِّهِمْ تَحِيَّتُهُمْ فِيهَا سَلاَمٌ﴾

**“İman gətirib saleh işlər görənlər ağacları altından çaylar axan bağlara daxil olarlar. Onlar öz Rəblərinin izni ilə orada həmişəlik qalarlar. Onların bir-birinə xoşgəldini “salam” olar.”**

◊ **Nöqtələr**

● Qiyamətdə haraya baxsan salamdır: behişt əhlinə Allahın salamı, möminlərə mələklərin salamı, behişt əhlinin bir-birinə salamı.[2]

● Bəzən bir yerə insan özü gedirsə, bəzən də onu xüsusi dəbdəbə ilə aparırlar. Bu ayədə Allah-təala bildirir ki, behişt əhli behiştə adi şəkildə daxil olmaz, onları hörmətlə, dəbdəbə ilə apararlar.[3] Amma cəhənnəm əhlinin əzaba doğru işgəncə ilə aparılacağı bildirilir: “Onu tutun, bağlayın, sonra da cəhənnəmə atın.”[4]

● Cəhənnəm əhli bir-birinə nifrət edir, bir-birini lənətləyir. Behişt əhli isə bir-birini salamlayır.

● Behiştdə müxtəlif arxlar var: su arxı, süd arxı, behişt içkisi arxı, bal arxı.[5]

◊ **Bildirişlər**

1. Xeyir əməl sahibi olan möminlər daim behiştdə qalacaqlar.

2. Behişt əhli didişmə və nifrət yox, səfa-səmimiyyət və salam əhlidir.

---

1 Bax: “Bəqərə”, 167
2 Bax: “Yasin”, 58; “Zumər”, 73
3 Bax: “Zumər”, 72
4 “Haqqə”, 30-31
5 Bax: “Muhəmməd”, 15

● Ayə 24:

﴿أَلَمْ تَرَ كَيْفَ ضَرَبَ اللّهُ مَثَلاً كَلِمَةً طَيِّبَةً كَشَجَرةٍ طَيِّبَةٍ أَصْلُهَا ثَابِتٌ وَفَرْعُهَا فِي السَّمَاء﴾

**“Allahın necə məsəl çəkdiyini görmədinmi? Pak, xoş söz kökü möhkəm, budaqları səmada pak bir ağac kimidir.”**

◊ **Nöqtələr**

● “Şəcərətin təyyibə”, yəni pak ağacın müəyyən səciyyələri var: inkişaf, bol bəhrə, kölgə, möhkəmlik, daimi səmərə. Müvəhhid (təkallahçı) insan da daim səydədir, onun danışıq və əməllərində imanının əsərləri görünür. Onun etiqadı mövsümi yox, daimidir və başqalarını imana, xeyir əmələ dəvət edir.

● Rəvayətlərdə və təfsirlərdə “kəlimətən təyyibə” ilə bağlı bir çox nümunələr zikr olunur: tövhid, iman, düzgün əqidə, səmavi rəhbər və vəfalı tərəfdarlar. Bəli, tövhid insanın fitrətində və ruhunun dərinliyində qərarlaşmış sabit bir bünövrədir. Tövhidin insanın bütün əməllərinə, danışıqlarına və düşüncələrinə təsiri var. Belə bir insan hər vaxt, bütün eniş-yoxuşlarda iman meyvəsindən bəhrələnə bilər.

● Tövhid ağacının sabit kökü var. Hədələr, qurğular, acılı-şirinli hadisələr, zalım qüvvələr bu ağacı yerindən tərpədə bilmir. Rəvayətlərdə bu ağac Peyğəmbər və onun Əhli-beyti kimi təfsir olunur. Bu səbəbdən də, Məhəmməd (s) dini və onun Əhli-beytinin yolu bir bu qədər düşmən qarşısında genişlənməkdə, dünyanı bürüməkdədir.

◊ **Bildirişlər**

1. Quranın məsələlərinə diqqətli olaq.
2. Həqiqi əqidə pak sözdür. (“Kəlimətən təyyibə”) Bu sözün kökü sabit möminlərin qəlbindədir. Möminləri bu əqidədə qoruyub saxlamaq Allahın lütflərindəndir.[1]
3. Haqq söz möhkəm, davamlı və dəyişməzdir.

● Ayə 25:

﴿تُؤْتِي أُكُلَهَا كُلَّ حِينٍ بِإِذْنِ رَبِّهَا وَيَضْرِبُ اللّهُ الأَمْثَالَ لِلنَّاسِ لَعَلَّهُمْ يَتَذَكَّرُونَ﴾

**“(Pak ağac) Rəbbinin izni ilə daim meyvə verir. Allah xalq üçün misallar çəkir, ola bilsin ki, yada salıb öyüd götürələr.”**

◊ **Nöqtələr**

---

1 Bax: “İbrahim”, 27

● Allah və Ona imandan savay nə varsa fanidir.[1] Fani olan şey daim səmərə verə bilməz. Yalnız Allah rənginə boyanmış eşq əbədidir.[2] Bəli, Allahın rəngi sabitdir və digər rənglər solub gedəsidir.[3]

● İman ağacı daim səmərə verir. Mömin daim Allahı xatırlayır, istər rifah, istər sıxıntıda, istər xoş, istər qəmli anlarda, istər varlılıqda, istər yoxsulluqda öz vəzifəsini yerinə yetirməyə çalışır. Mömin insan zalımların hədələrinə müqaviməIə cavab verir, təbliğ edərkən kimsədən umacağı olmur, qəzəblənəndə Allahın razılığı üçün qəzəbini udur, evlənərkən Allaha təvəkkül edir.[4]

Mömin bəndə Allaha yaxınlıq məqsədi ilə ibadət edir, yoxsulluğa düşdükdə varlılara üz tutub yaltaqlanmır.[5]

Bəli, Allah-təalaya iman meyvəsi hər an dünya və axirətdə insanı kama çatdıran ağac kimidir. Amma var-dövlət, vəzifə, övlad və digər dünya nemətləri yalnız bir neçə günlük meyvə verən ağaca bənzəyir. Bu meyvələr həm də çox azdır. Bəzən isə var-dövlət, vəzifə və övlad insana mənəvi əzabdan savay bir şey vermir.[6]

◊ **Bildirişlər**

1. İman ağacı daim səmərə verir. Mömin üçün payız, xəzan yoxdur.

2. Təşbeh və təmsil xalqın diqqətini bir məsələyə yönəltmək üçün Quranın faydalandığı üsuldur.

● Ayə 26:

﴿وَمَثلُ كَلِمَةٍ خَبِيثَةٍ كَشَجَرَةٍ خَبِيثَةٍ اجْتُثَّتْ مِن فَوْقِ الأَرْضِ مَا لَهَا مِن قَرَارٍ﴾

**“Çirkin söz (etiqad) yerdən qoparılmış və heç bir davamı olmayan çirkin ağac kimidir.”**

◊ **Nöqtələr**

● “İctisas” sözü “kökündən qoparmaq” mənasını bildirir.

● Qatqılı və azğın əqidələrin, sözlərin və insanların nə kökü, nə meyvəsi, nə gülü, nə gözəlliyi, nə ətri, nə möhkəmliyi, nə kölgəsi, nə də inkişafı var. Onlar başqalarının yolu üstə tikandan başqa bir şey deyildirlər.

◊ **Bildirişlər**

1. Müqayisə təlim-tərbiyə üsullarından biridir.

2. Şirkin və Allahdan uzaq istənilən bir şeyin sabitliyi və davamı yoxdur.

3. Batil əqidələrin yosun kimi dərində kökü yoxdur. Ona görə də düzgün gövdə və əsasdan məhrumdur.

---

1 Bax: “Qəsəs”, 88
2 Bax: “Nəhl”, 96
3 Bax: “Bəqərə”, 138
4 Bax: “Qələm”, 32; “Yunus”, 72; “Ali-İmran”, 134; “Nur”, 32
5 Bax: “Ənam”, 162
6 Bax: “Tövbə”, 55

● Ayə 27:

﴿يُثَبِّتُ اللّهُ الَّذِينَ آمَنُواْ بِالْقَوْلِ الثَّابِتِ فِي الْحَيَاةِ الدُّنْيَا وَفِي الآخِرَةِ وَيُضِلُّ اللّهُ الظَّالِمِينَ وَيَفْعَلُ اللّهُ مَا يَشَاء﴾

**“Allah dünya və axirətdə iman əhlini sabit sözlə (əqidə ilə) möhkəmləndirər. Allah sitəmkarları (lütfündən məhrum edib özbaşına buraxar,) azdırar. Allah (ədalət və hikmət əsasında) istədiyini edər.”**

◊ **Bildirişlər**

1. İlahi yardımlardan bəhrələnmə insanın hansı yolu seçməsindən asılıdır.

2. Allahın yardımı olmasa, insan nəfs istəklərinin, zalım qüvvələrin qarşısında davam gətirməyib süqut edər.

3. İman əhli məntiq baxımından möhkəmdir və maddi, dünyəvi məktəblərin qarşısında əzmlə dayanır.

4. İnsan iman gətirsə, Allah tərəfindən sığortalanır. Batil məktəbə üz tutan insan isə Allah tərəfindən özbaşına buraxılır.

5. Batil məktəblərin qəbulu insanın özünə və haqq məktəbinə zülmüdür.

6. Allahın qəzəbi insanın seçdiyi yoldan asılıdır.

● Ayə 28:

﴿أَلَمْ تَرَ إِلَى الَّذِينَ بَدَّلُواْ نِعْمَةَ اللّهِ كُفْرًا وَأَحَلُّواْ قَوْمَهُمْ دَارَ الْبَوَارِ﴾

**“Allahın nemətini küfrə dəyişən və öz qövmünü bədbəxtlik evinə aparan kəsləri gördünmü?”**

● Ayə 29:

﴿جَهَنَّمَ يَصْلَوْنَهَا وَبِئْسَ الْقَرَارُ﴾

**“(Onlar) cəhənnəmə daxil olarlar. (Cəhənnəm) necə də pis məkandır.”**

◊ **Nöqtələr**

● “Bəvar” dedikdə fəlakətə aparan rövnəqçilik və kasadçılıq nəzərdə tutulur.[1]

---

1 “MüfRədat-Rağib”

● Kafirlər və müşriklər Allahın böyük nemətlərini küfrə dəyişdilər: Tövhid neməti əvəzində şirki seçdilər, pak fitrəti qoyub babalarının azğın yoluna üz tutdular, xurafatı ilahi vəhydən üstün tutdular, səmavi rəhbər nemətinə qarşı nankorluq göstərdilər və zalım qüvvələrə tabe oldular.

● Çoxsaylı rəvayətlərdə oxuyuruq: Şiə imamları buyurmuşlar: "And olsun Allaha, "dəyişdirilmiş nemətlər" bizim vücudumuzdur. İnsanlar bizi boşlayıb, başqa rəhbərlərin sorağına getdilər."[1]

● Bu ayəyə oxşar başqa ayələr də var.[2]

◊ **Bildirişlər**

1. Allahın nemətlərini və ayələrini istənilən bir şəkildə dəyişmək və təhrif etmək küfrdür.

2. Azğın rəhbərlər bütün cəmiyyəti bədbəxtliyə aparır, xalqı cəhənnəmə sürükləyirlər.

● Ayə 30:

﴿وَجَعَلُواْ لِلّهِ أَندَادًا لِّيُضِلُّواْ عَن سَبِيلِهِ قُلْ تَمَتَّعُواْ فَإِنَّ مَصِيرَكُمْ إِلَى النَّارِ﴾

**"(Azğın başçılar) Xalqı Allahın yolundan yayındırmaq üçün Ona şəriklər qoşdular. Kam alın, şübhəsiz, işinizin sonu oddur."**

◊ **Nöqtələr**

● Bəziləri varlıq aləminin yaranışında, bəziləri isə nemətlərə münasibətdə Allaha şərik qoşurlar. Onlar sağlamlıqlarını, elmlərini, güclərini, izzətlərini, var-dövlətlərini öz hünərlərinin bəhrəsi sayırlar. Amma tezliklə anlayırlar ki, azğınlığa düçar olublar.

◊ **Bildirişlər**

1. Nemətə münasibətdə ən böyük nankorluq Allaha şərik qoşmaq və xalqı doğru yoldan azdırmaqdır.

2. Bəzən şirkin mənbəyi zalım qüvvələr olur. Bəzən də bütlərin öz cazibəsi çaşqınlığa aparır.[3]

3. Allah bəzilərini özbaşına buraxır.

4. Kafirlər dünyadan kam alsalar da, onların axirəti yoxdur.

5. Hər rifah ilahi mərhəmət sayılmamalıdır. Bəzən rifah ilahi qəzəb üçün müqəddimə ola bilər.

● Ayə 31:

﴿قُل لِّعِبَادِيَ الَّذِينَ آمَنُواْ يُقِيمُواْ الصَّلاَةَ وَيُنفِقُواْ مِمَّا رَزَقْنَاهُمْ سِرًّا وَعَلانِيَةً مِّن قَبْلِ أَن يَأْتِيَ يَوْمٌ لاَّ بَيْعٌ فِيهِ وَلاَ خِلاَلٌ﴾

---

1 "Məcməul-bəyan"
2 "Qəsəs", 41; "Kəhf", 98
3 Bax: "İbrahim", 35, 36

**“(Ey peyğəmbər,) mənim iman gətirmiş bəndələrimə de ki, heç bir alış-verişin və dostluğun olmayacağı gün çatmamış namazı bərpa etsinlər, onlara verdiyim ruzidən gizlində və aşkarda infaq etsinlər.”**

◊ **Nöqtələr**

● Aşkar infaq (yardım göstərmək) ətrafdakıların tərbiyəsi, başqalarının təşviqi və böhtandan yaxa qurtarmaq üçün təsirli amildir. Gizli infaq isə təkamül və xalislik amilidir. Amma bəzi təfsirçilər belə deyirlər: Aşkar infaq dedikdə, xüms və zəkat kimi vacib ödənclər nəzərdə tutulur. Məxfi infaq isə sədəqə kimi müstəhəb yardımlara aiddir.

● Həm aşkar, həm də gizli infaqın müsbət təsirləri olsa da, gizli infaq daha üstündür. Hazırkı ayədə gizli infaq ifadəsi öncə zikr olmuşdur.

◊ **Bildirişlər**

1. Əmr vermək üçün öz şəxsiyyətinizi dəyərləndirin.

Allaha bəndəlik möminlər üçün iftixar nişanıdır.

2. Təkcə qəlb imanı bəs etmir, namaz, infaq və saleh əməl də lazımdır.

3. İslam kompleks bir dindir. Allahla rabitə və məhrumlara yardım bir-biri üçün qəbul şərtidir.

4. İnfaq təkcə mal-mülkə aid deyil. Nəyimiz varsa, ondan infaq etməliyik. (Elmimizdən, sərvətimizdən, şəxsiyyətimizdən və qüdrətimizdən.)

5. İnfaq Allahın ruzi etdiyindən, yəni halal maldan olmalıdır.

6. İnfaq bəzən gizli, bəzən aşkar həyata keçməlidir.

7. Fürsətlərdən istifadə edin.

8. Əgər ticarət fikrindəsinizsə, Allahla dünyada müamilə edin. Çünki Qiyamətdə heç bir alış-veriş yoxdur.

9. Pul-para, partiya mənsubiyyəti ilə Qiyamət əzabından qurtarmaq olmaz.

● Ayə 32:

﴿اللّهُ الَّذِي خَلَقَ السَّمَاوَاتِ وَالأَرْضَ وَأَنزَلَ مِنَ السَّمَاء مَاء فَأَخْرَجَ بِهِ مِنَ الثَّمَرَاتِ رِزْقًا لَّكُمْ وَسَخَّرَ لَكُمُ الْفُلْكَ لِتَجْرِيَ فِي الْبَحْرِ بِأَمْرِهِ وَسَخَّرَ لَكُمُ الأَنْهَارَ﴾

**“Göyləri və yeri yaradan, səmadan su nazil edən, onunla sizə ruzi üçün meyvələr yetişdirən, əmri ilə dənizdə hərəkət etməyiniz üçün gəmiləri sizə ram edən, çayları ixtiyarınızda qoyan Allahdır.”**

◊ **Nöqtələr**

● Bu ayədə su məsələsinə üç baxımdan yanaşılmışdır:

a) Yağış suyu: Bu su bitkilərin suvarılması vasitəsi, onların həyat qaynağı, havanın təmizlənmə və dəyişmə səbəbidir.

b) Dəniz suyu: Bu su dəniz heyvanlarının həyatını təmin edir, ən üstün və ucuz nəqliyyat vasitəsi olan gəmilərin hərəkət vasitəsidir, od və yağışın mənbəsidir.

v) Çay suyu: Bu su vasitəsi ilə susuz məntəqələrə su çatdırılır.

● Allah ötən ayədə namaz və infaq məsələsinə toxundu. Bu ayədə isə buyurulur ki, Allah sizə hər şey verib, nə üçün infaqda süstlük göstərirsiniz?

● "Təsxir" dedikdə həm günəş və ay kimi mənbələrdən bəhrələnmə, həm də gəmi və çayların ram edilməsi, insanın onlara hakimliyi kimi kamil hakimiyyət mənası nəzərdə tutulur.

◊ **Bildirişlər**

1. Allahın nemətlərini tanımaq ən üstün Allahşünaslıq yoludur. Bu yol ümumi dərketmə, eşq, stimul, ibadətlə müşayiət olunur.
2. Allahın bütün nemətləri arasında su ən mühüm nemətlərdəndir.
3. Varlıq aləmi insan üçün yaradılmışdır.
4. Maddi vasitələrin rolu olsa da bütün amillər Allahın əmrinə tabedir.
5. İnsan təbiətə hakimdir.

● Ayə 33:

﴿وَسَخَّر لَكُمُ الشَّمْسَ وَالْقَمَرَ دَآئِبَينِ وَسَخَّرَ لَكُمُ اللَّيْلَ وَالنَّهَارَ﴾

**"(Allah) daim hərəkətdə olan günəş və ayı, eləcə də, gecə və gündüzü sizin üçün ram etdi."**

◊ **Nöqtələr**

● "Dəb" sözündən olan "daibəyn" sözü "sabit" adət mənasını bildirir. Marağı öz təfsirində bildirir ki, "daibəyn" daim hərəkətdə olma mənasını ifadə edir.

Günəş daim hərəkətdə olan enerji mənbəyidir. Bu mənbə insanın yaratdığı enerji mənbələrindən fərqli olaraq yanacaq çatışmazlığından və ya təmir üçün dayanmır. Əgər günəş bir an olmasa, yer üzü hansı hala düşər? Bəşəriyyətin, bitki aləminin, heyvanların həyatını günəşsiz təsəvvür etmək mümkünsüzdür. İşıq və istilikdən məhrum olmuş təbiət çox böyük müsibətlərlə üzləşə bilər.

*Buludlar, günəş, ay durmadan işdə,*
*Oyan, səninçündür atılan addım.*
*Yaranmış mütidir haqqın sözünə,*
*İnsafmı asi tək çəkilsin adın?!*

◊ **Bildirişlər**

1. Təkcə yer və onun nemətləri yox, hətta səma və səma cisimləri onun ehtiyaclarına münasib yaradılmışdır.

● Ayə 34:

﴿وَآتَاكُم مِّن كُلِّ مَا سَأَلْتُمُوهُ وَإِن تَعُدُّواْ نِعْمَتَ اللّهِ لاَ تُحْصُوهَا إِنَّ الإِنسَانَ لَظَلُومٌ كَفَّارٌ﴾

**“Allah Ondan istədiyiniz hər şeyi vermişdir. Allahın nemətlərini saysanız, onları diqqətlə hesaba ala bilməzsiniz. Həqiqətən, insan çox sitəmkar və nankordur.”**

◊ **Nöqtələr**

● “Nəhl” surəsinin 18-ci ayəsində oxuyuruq: “Allahın nemətlərini saymaq istəsəniz, bacarmazsınız. Həqiqətən, Allah bağışlayan və mehribandır.”

● Ötən ayələrdə oxuduq ki, azğın rəhbərlər xalqı Allahdan qeyrisinə doğru dəvət edirlər. Bu ayədə isə deyilir ki, Allahdan qeyrisinin əlindən bir şey gəlməsə də, insanın bütün olanları bir Allaha məxsus olsa da, insan diqqətsiz və naşükürdür.

● “Ədd” dedikdə saymaq, “ehsa” dedikdə heç nəyi ötürmədən diqqətlə saymaq nəzərdə tutulur.

◊ **Bildirişlər**

1. İstehsal vasitələri insanın ixtiyarındadır. (Su, torpaq, günəş işığı ...) Bu sahədə mövcud olan istənilən bir çatışmazlıq yetərsiz müdiriyyətdən yaranır.

2. Bəşəriyyəti yaratmış Allah onun ehtiyaclarının ödənməsi üçün düzgün yol müəyyənləşdirmişdir. Amma insan bu ehtiyacları günah yolla təmin etməyə çalışır.

3. İnsan möhtac bir varlıqdır.

4. İnsanda ilahi nemətləri saymaq qüdrəti yoxdur. Bu halda həmin nemətlərin şükrünü yerinə yetirmək əlçatmaz görünür.

5. İlahi nemətlərdən düzgün istifadə etməyən insan çox zalım və nankordur.

● Ayə 35:

﴿وَإِذْ قَالَ إِبْرَاهِيمُ رَبِّ اجْعَلْ هَـذَا الْبَلَدَ آمِنًا وَاجْنُبْنِي وَبَنِيَّ أَن نَّعْبُدَ الأَصْنَامَ﴾

**“(Xatırla) o zaman ki, İbrahim dedi: Pərvərdigara! Bu şəhəri (Məkkəni) əmin-aman qərar ver, məni və övladlarımı bütlərə pərəstişdən uzaq et.”**

◊ **Nöqtələr**

● Bu və sonrakı ayələrdə həzrət İbrahimin böyük ruhundan danışan dualar bəyan olunur. Ola bilsin ki, bu dualar səbəbindən surə “İbrahim” adlandırılmışdır.

● İbrahim Məkkə üçün iki məqamda dua etdi. İsmail və Hacəri həmin torpağa gətirdiyi vaxt dedi: “Pərvərdigara! Bu şəhəri əmin-aman qərar ver.” Bir

toplum insan Məkkəyə gəlib orada sakin olduğu vaxt İbrahim ikinci dəfə dua etdi və Allahdan bu yer üçün əmin-amanlıq istədi.

● **Sual:** İbrahimin bütün nəsli bu duaya görəmi müvəhhid oldu?

**Cavab:** Dua bir amildir. Nuhun oğlunun əhvalatını unutmayın.

● **Sual:** Növbəti ayələrdə Məkkə əkin üçün yararsız yer sayıldığı halda nə üçün İbrahim Məkkəni şəhər kimi qeyd edir?

**Cavab:** Ola bilsin ki, nəzərdə tutulan qəbilələr Məkkədə məskunlaşdıqdan sonra həmin yer şəhər adlandırılmışdır. İbrahimin duası da həmin vaxta aid ola bilər. Yaxud belə deyə bilərik ki, bir məntəqənin şəhər sayılması üçün onun torpaqlarının əkinə yararlı olması şərt deyil. Məkkə indi də şəhərdir və əkin üçün yararsızdır.

● **Sual:** Həzrət İbrahim tövhid qəhrəmanı olduğu halda nə üçün şirkdən uzaq olmaq məqsədi ilə Allaha dua edirdi?

**Cavab:** İslam Peyğəmbəri də daim doğru yolda olmasına baxmayaraq hər namazda Allahdan doğru yol üçün hidayət diləyirdi. Bir insan doğru yolda olmasına əmindirsə də büdrəmədən qorxmalı və Allahdan yardım diləməlidir.

● Məkkənin əmin-amanlığı dedikdə bu prinsipi təmin edən qanun nəzərdə tutulur. Tarix boyu Məkkənin hücumlara məruz qaldığı hamıya məlumdur. Bu şəhərdə xeyli qan axıdılmışdır. İslam Peyğəmbərinin (s) və onun yoldaşlarının ən ağır günləri Məkkəyə təsadüf edir.

İmam Hüseyn (ə) Məkkə əmin-aman olmadığından bu şəhəri tərk edir. Amma ilahi qanun həmin məntəqə üçün əmin-amanlıq nəzərdə tutur.

◊ **Bildirişlər**

1. Düzgün düşüncə və əqidə üçün edilən dua ən üstün duadır.
2. İbadət mərkəzlərində əmin-amanlıq olmalıdır.
3. Əmin-amanlıq, asayiş həyat üçün zəruri şərtdir.
4. Cəmiyyətin rəhbərləri xalqın asayişi fikrində olmalıdır.
5. Əmin-amanlıq günah və əyyaşlıq azadlığı üçün deyil. Əmin-amanlıq ibadət üçün müqəddimə olmalıdır.[1]
6. Hətta tövhid qəhrəmanı İbrahim üçün də şirk təhlükəsi vardı.
7. Duada ətrafımızdakıları, xüsusi ilə övladlarımızı yada salaq.

● Ayə 36:

﴾رَبِّ إِنَّهُنَّ أَضْلَلْنَ كَثِيرًا مِّنَ النَّاسِ فَمَن تَبِعَنِي فَإِنَّهُ مِنِّي وَمَنْ عَصَانِي فَإِنَّكَ غَفُورٌ رَّحِيمٌ﴿

**“Pərvərdigara! Həqiqətən, bütlər insanların çoxunu azdırmışdır. Mənə itaət edən, şübhəsiz, məndəndir. Mənə müxalif olan (bilsin ki, tövbə etsə) həqiqətən, Sən bağışlayan və mehribansan.”**

◊ **Nöqtələr**

---

1 Bax: “Nur”, 55

● **Sual:** Necə ola bilər ki, daşdan və ağacdan düzəldilmiş bütlər insanı azdırsın?

**Cavab:** Əvvəla, büt təkcə cansız cisimlər deyil. Bəzən insanlar və zalım hakimlər də büt olur. İkincisi, sənət və bər-bəzək əşyalarının da cazibəsi var. Üçüncüsü, bəzən insan cəhalət səbəbindən daş və ağacı da qiymətli sayır.

● Əgər bu ayəni əvvəlki ayə ilə birlikdə mənalandırsaq müsbət nəticə əldə edərik. Ötən ayədə İbrahim dedi: “Pərvərdigara, övladlarımı bütpərəstlikdən uzaq et.” Bu ayədə isə deyilir: “Müvəhhid və mənə tabe olan kəs məndəndir.” Bu baxımdan, bütün müvəhhidlər (təkallahçılar) İbrahim məktəbinin övladları sayılır. Həzrət Peyğəmbər (s) buyurur: “Mən və Əli bu ümmətin məktəb atalarıyıq.” Müşrik isə peyğəmbər övladı olmasına baxmayaraq rədd olunur.[1]

● Həzrət Əli (ə) buyurur: “Həqiqətən, Allaha itaət edən kəs Muhəmmədə (s) qohum olmasa da, onun dostudur. Allaha itaətsizlik göstərən kəs Peyğəmbərin (s) qohumu olsa da, onun düşmənidir.”[2]

◊ **Bildirişlər**

1. Büt yonma kimi sənət işi azğınlıq səbəbi ola bilər, çünki bütlər bir çoxlarını azdırır.
2. Dindarlıq şüarla ölçülmür. Əsl dindarlıq üçün saleh əməl və göstərişlərə itaət şərtdir.
3. Səmavi rəhbərlər və mömin xalq arasında məktəb bağlılığı mövcuddur.
4. Peyğəmbərlər hətta öz müxaliflərinə də qayğı göstərmiş, onları məyus etməmişlər.
5. Peyğəmbərin göstərişinə qarşı müxaliflik Allahla müxalifikdir.

● Ayə 37:

﴿رَّبَّنَا إِنِّي أَسْكَنتُ مِن ذُرِّيَّتِي بِوَادٍ غَيْرِ ذِي زَرْعٍ عِندَ بَيْتِكَ الْمُحَرَّمِ رَبَّنَا لِيُقِيمُواْ الصَّلاَةَ فَاجْعَلْ أَفْئِدَةً مِّنَ النَّاسِ تَهْوِي إِلَيْهِمْ وَارْزُقْهُم مِّنَ الثَّمَرَاتِ لَعَلَّهُمْ يَشْكُرُونَ﴾

**“Pərvərdigara! Mən öz övladlarımdan (birini) otsuz vadidə, Sənin evinin kənarında sakin etdim. Pərvərdigara! (Belə etdim ki,) namazı bərpa etsinlər. İnsanların bir dəstəsinin qəlbini onlara doğru meyilləndir. Onlara meyvələrindən ruzi ver ki, bəlkə şükür edələr.”**

◊ **Nöqtələr**

● Allah İbrahimə onun qoca yaşlarında İsmaili ata etdiyi vaxt göstəriş verdi ki, bu uşağı və anasını Məkkədə sakin etsin. İbrahim Allahın əmrinə tabe oldu və sonra onlar üçün dua etdi.

---

1 Bax: “Hud”, 46
2 “Bihar”, c. 67, s. 25

● İmam Baqir (ə) buyurmuşdur: “Biz Peyğəmbər Əhli-beyti İbrahim övladlarındanıq. Xalqın qəlbində bizə meyl var.” Sonra həzrət hazırkı ayəni oxumuşdur.

● Kəbə — susuz-otsuz məntəqədə yerləşmişdir və bu şərait xalq üçün sınaqdır. Həzrət Əli (ə) “Qasiə” xütbəsində belə buyurur: “Əgər Kəbə xoş suyu və havası olan məntəqədə yerləşsəydi, xalq ziyarətə Allaha xatir gəlməzdi.”

● Peyğəmbərlərin duası qəbul olur.[1] Kəbə hər cür meyvəsi olan asayişli bir yerdir. İmam Baqir (ə) buyurur: “Dünyanın şərqində və qərbində olan hər bir meyvə Məkkədə tapılar.”

◊ **Bildirişlər**

1. Peyğəmbərlərə namaz və ibadət əsasında məskən seçilmişdir.
2. Dindarlıq bəzən qəriblik, hicrət, ailədən uzaqlıq və maddi imkanlardan məhrumluqla müşayiət olunur.
3. Həzrət İbrahimin dövründə də Kəbə və onun ətrafı möhtərəm idi və bu məntəqədə bəzi məhdudiyyətlər hökm sürürdü.
4. İbrahimin hərəkətinin mehvər və məqsədi namazdır.
5. Namaz əhli elmli olmalıdır.
6. Ötən dinlərdə də namaz hökmü olmuşdur.
7. Qəlblərin meyli Allahın əlindədir.
8. Hər adamda övliyalara sevgi ləyaqəti yoxdur.
9. İlahi insanlar dünyanı ali məqsədlər üçün istəyirlər.

● Ayə 38:

﴿رَبَّنَا إِنَّكَ تَعْلَمُ مَا نُخْفِي وَمَا نُعْلِنُ وَمَا يَخْفَى عَلَى اللّهِ مِن شَيْءٍ فَي الأَرْضِ وَلاَ فِي السَّمَاء﴾

**“Pərvərdigara! Həqiqətən, Sən bizim gizli və aşkar işlərimizi bilirsən. Yerdə və göydə Allaha gizli bir iş yoxdur.”**

◊ **Nöqtələr**

● Bir halda ki, hər şey Allaha aydındır, Onun elmi bütün işləri əhatə edir, Onun hüzurunda günaha yol verməməli, yalnız Onun razılığı əsasında məxluqu ilə rəftar etməliyik.

◊ **Bildirişlər**

1. Allahın hüzurunda aşkarla gizlinin fərqi yoxdur.
2. Yerlə göy Allahın elmində eynidir.

● Ayə 39:

1 Bax: “Qəsəs”, 57

﴿الْحَمْدُ لِلّهِ الَّذِي وَهَبَ لِي عَلَى الْكِبَرِ إِسْمَاعِيلَ وَإِسْحَقَ إِنَّ رَبِّي لَسَمِيعُ الدُّعَاء﴾

**“Qoca vaxtımda İsmail və İshaqı mənə ata etmiş Allaha həmd olsun. Şübhəsiz, Rəbbim duaları eşidəndir.”**

◊ **Nöqtələr**

● İsmail və İshaq Allahın xüsusi nemətlərindən idi. Çünki:

a) Bu övladlar həzrət İbrahimin duası ilə vücuda gəlmişdi;

b) Bu uşaqlar atalarının qoca vaxtında dünyaya gəldilər;

v) Onlar saleh övladlar idilər;

q) Onlar növbəti peyğəmbər silsiləsi üçün başlanğıc oldular.

Əsas məsələ övladın salehliyidir. Bu övladların kənizdən və ya azad qadından olmasının fərqi yoxdur. (İsmail kənizdən, İshaq isə azad qadından doğulmuşdu).

◊ **Bildirişlər**

1. İlahi nemətləri zikr edərkən Allaha təşəkkür edək.
2. Allaha qəbul olmuş dualarımıza görə şükür edək.
3. Övlad Allahın hədiyyəsidir.
4. Allahın iradə və qüdrəti qarşısında heç bir maneə yoxdur. Allah istəsə qoca da övlad sahibi ola bilər.
5. Allaha təşəkkür edərkən nemətləri ayrı-ayrı zikr edək.
6. Duaların qəbulu Allahın sünnəsidir.

● Ayə 40:

﴿رَبِّ اجْعَلْنِي مُقِيمَ الصَّلاَةِ وَمِن ذُرِّيَّتِي رَبَّنَا وَتَقَبَّلْ دُعَاء﴾

**“Pərvərdigara! Məni və nəslimdən olanları namazı bərpa edənlərdən qərar ver. Pərvərdigara! Mənim duamı qəbul et.”**

● Ayə 41:

﴿رَبَّنَا اغْفِرْ لِي وَلِوَالِدَيَّ وَلِلْمُؤْمِنِينَ يَوْمَ يَقُومُ الْحِسَابُ﴾

**“Pərvərdigara! Hesab bərpa olacaq gün məni, ata-anamı və mömінləri bağışla.”**

◊ **Nöqtələr**

● Bu surədə həzrət İbrahim haqqında hazırkı ayəyədək oxuduqlarımız İbrahimin 7 istəyi haqqında məlumat verir: Məkkənin asayişi, bütpərəstlikdən uzaqlıq, həzrət İbrahimin övladları və məktəbinə münasibətdə möminlərin diqqəti, İbrahim övladlarının meyvələrdən bəhrələnməsi, namazın bərpası üçün yardım, duaların qəbulu, İbrahimin özü, ata-anası və möminlər üçün bağışlanma diləməsi.

● “Valid” dedikdə yalnız həqiqi ata başa düşülür. “Əb” sözü isə atadan əlavə əmi, qaynataya da aid ola bilər. İbrahimin valideynləri mömin olduqlarından o bu ayədə valideynlərinə dua edir. Amma başqa ayələrdə “əb” sözü ilə İbrahimin əmisinə işarə olunmuşdur. İbrahimin əmisi müşrik olduğundan həzrət ondan üz çevirmişdir.

● “Bəqərə” surəsinin 133-cü ayəsində oxuduq ki, Yəqubun övladları atalarının “məndən sonra nəyə pərəstiş edərsiniz” sualına belə cavab verdilər: “Biz sənin və ataların İbrahim və İsmailin Rəbbinə sitayiş edərik.” İsmail Yəqubun əmisi olsa da, “əb” sözü ilə xatırlanır.

◊ **Bildirişlər**

1. İbrahimin dualarda Allaha “Rəbb” sözü ilə müraciət etməsi bu sözün duada böyük əhəmiyyət daşıdığını göstərir. Duada bu sayaq müraciət etmək dua qaydalarından sayıla bilər.

2. Özünüzün və övladlarınızın namazı bərpa etməsi üçün Allahdan yardım diləyin.

3. Namaz həzrət İbrahimin dualarının mehvəri olmuşdur.

4. Peyğəmbərlərin risaləti dinin bərpası olsa da, namazın bərpası ilə bağlı edilən dua namazın dinin siması olmasını göstərir.

5. Namazın bərpası rəhbərlik nümunəsidir. Həzrət İbrahim iki yerdə öz nəslini xatırladır: namazın bərpası məsələsində; imam təyin olunduqdan sonra nəsli üçün rəhbərlik məqamı istədiyi vaxt.[1]

6. Duada nə özünüzü, nə də başqalarını yaddan çıxarmayın.

7. İnsan həm əvvəlki, həm də sonrakı nəsli haqqında düşünməlidir.

8. Duada yaxınlar başqalarından öndə gəlir.

9. Duada özünüzün, övladlarınızın və cəmiyyətin qiyamət sorğusu fikrində olun.

● Ayə 42:

﴿وَلاَ تَحْسَبَنَّ اللّهَ غَافِلاً عَمَّا يَعْمَلُ الظَّالِمُونَ إِنَّمَا يُؤَخِّرُهُمْ لِيَوْمٍ تَشْخَصُ فِيهِ الأَبْصَارُ﴾

**“Elə düşünmə ki, Allah sitəmkarların gördüyü işdən xəbərsizdir. Həqiqətən, O belələrinin hesabını gözlərinin bərələcəyi günədək təxirə salır.”**

◊ **Nöqtələr**

● **Sual:** Allah ədalətli və qüdrətli olduğu halda nə üçün sitəmkarların qarşısını almır?

**Cavab:** Allah həm adildir, həm qadirdir, həm də sitəmkarların əməllərindən xəbərdardır. Cəzalarının təxirə salınmasının səbəbi isə dünyada kamil mükafat və ya cəza verməyin mümkünsüzlüyüdür. Allahın qanunu,

1 Bax: “Bəqərə”, 124

sünnəsi budur ki, bəndələrinə möhlət verir, tövbə etdikdə onları bağışlayır, tövbə etmədikdə qiyamət günü cəzalandırır.

◊ **Bildirişlər**

1. Tələsik mühakimə yürütməyin, Allahı xəbərsiz saymayın.

2. Sitəmkarlara möhlət verilməsi Allahın günahkarlardan xəbərsizliyini və ya onlardan razılığını göstərmir.

3. Möhlət vermək Allahın qaydasıdır.

Buna görə zalımın qarşısında susmaq və məyus olmaq yox, ilahi vəzifəyə əməl etmək lazımdır. Allah zalımların intizarındadır.

4. İlahi cəza və mükafat üçün vaxt bölgüsü aparılmışdır.

5. Qiyamət günü o qədər qorxuludur ki, həmin gün gözlər bərələr.

● Ayə 43:

﴿مُهْطِعِينَ مُقْنِعِي رُءُوسِهِمْ لاَ يَرْتَدُّ إِلَيْهِمْ طَرْفُهُمْ وَأَفْئِدَتُهُمْ هَوَاء﴾

**“(Elə bir gün ki, günahkarlar dəhşətdən) başlarını qaldırıb durar, gözlərini qırpa bilməzlər. Onların qəlbi boşdur (ümidsizdirlər).”**

◊ **Nöqtələr**

● “Muhtiinə” sözü bir neçə cür mənalandırılmışdır: boyun qaçırmaq, sürət götürmək, zillətlə baxmaq. Bu ayədə hər üç məna nəzərdə tutula bilər.

● Ayə 44:

﴿وَأَنذِرِ النَّاسَ يَوْمَ يَأْتِيهِمُ الْعَذَابُ فَيَقُولُ الَّذِينَ ظَلَمُواْ رَبَّنَا أَخِّرْنَا إِلَى أَجَلٍ قَرِيبٍ نُّجِبْ دَعْوَتَكَ وَنَتَّبِعِ الرُّسُلَ أَوَلَمْ تَكُونُواْ أَقْسَمْتُم مِّن قَبْلُ مَا لَكُم مِّن زَوَالٍ﴾

**«Xalqı əzab soraqlarına gələcək günlə qorxut. Zülm edənlər deyəcək: “Pərvərdigara! Bizə qısa bir müddət möhlət ver ki, dəvətini qəbul edək, peyğəmbərlərinə tabe olaq.” (Onlara deyilər:) Bundan öncə and içib zavala gəlməyəcəyini deyən siz deyildinizmi?»**

◊ **Nöqtələr**

● Ötən ayələrə əsasən belə görünür ki, bu ayə də Qiyamət haqqındadır. Amma “əxxirna ila əcəlin qəribin...” cümləsindən belə anlaşılır ki, ayədə dünyadakı ilahi əzab nəzərdə tutulmuşdur. Çünki əzabın təxiri, Allahın dəvətinin qəbulu və peyğəmbərlərə itaət qiyamətə yox, dünyaya aiddir.

● Qiyamətdə də dünyaya qayıdış istəyi olur. Ayələrdən birində cəhənnəm əhlinin dilindən deyilir: “Fəlakətdən qurtulmaq üçün bir yol varmı?”[1]; “Bizi dünyaya qaytar, saleh iş görək.”[2]; “Pərvərdigara! Bizi cəhənnəmdən xaric et, yaxşı işlər görək.”[3]

◊ **Bildirişlər**

1. Xəbərdarlıq və hədə azğınların tərbiyə və hidayət üsullarındandır.
2. Quranın xəbərdarlıqları bütün insanlara aiddir.
3. Günahkarlar bir gün peşman olarlar, amma əldən çıxmış fürsət geri qayıtmaz.
4. İlahi əzab nazil olan məqamda qurtuluş və tövbə yolu bağlanar.

● Ayə 45:

﴿وَسَكَنتُمْ فِي مَسَاكِنِ الَّذِينَ ظَلَمُواْ أَنفُسَهُمْ وَتَبَيَّنَ لَكُمْ كَيْفَ فَعَلْنَا بِهِمْ وَضَرَبْنَا لَكُمُ الأَمْثَالَ﴾

**“Özünə sitəm qılanların məskənlərində də oldunuz. Onlarla necə rəftar etdiyimiz sizə aydın oldu. Hələ sizin üçün məsəllər də çəkdik. (Nə üçün ibrət götürmədiniz?)”**

◊ **Bildirişlər**

1. Bir çox insanlar keçmişdəkilərin taleyindən ibrət götürmürlər. Onlar keçmişdəkilərin yerində oturduqları halda hər şeyi unutmuşlar.
2. Allah höccəti tamamlayır, bəhanələri kəsir. (O həm keçmiş ümmətlərin düçar olduğu əzabı bəyan edir, həm də müxtəlif misallarla məsələni aydınlaşdırır.)
3. Tarix və cəmiyyətə ilahi qanunlar hakimdir.

● Ayə 46:

﴿وَقَدْ مَكَرُواْ مَكْرَهُمْ وَعِندَ اللّهِ مَكْرُهُمْ وَإِن كَانَ مَكْرُهُمْ لِتَزُولَ مِنْهُ الْجِبَالُ﴾

**“Həqiqətən, onlar bütün hiylələrini işə saldılar. Amma onların məkr və hiyləsi Allaha məlumdur. Onların məkri ilə dağlar yerindən qopan deyil.”**

◊ **Nöqtələr**

---

1 “Ğafir”, 11
2 “Səcdə”, 12
3 “Fatir”, 37

● Allah həm onların hiylələrindən xəbərdardır, həm onların hiylələrinin cəzasını verəcək, həm onların məkrini puça çıxara bilər, ya da özlərinə qaytarar.

◊ **Bildirişlər**

1. Sitəmkarlar qüdrət və qüvvət sahibi olsalar da, sonda Allahın qəzəbinə düçar olarlar.

● Ayə 47:

﴿فَلاَ تَحْسَبَنَّ اللّهَ مُخْلِفَ وَعْدِهِ رُسُلَهُ إِنَّ اللّهَ عَزِيزٌ ذُو انْتِقَامٍ﴾

**"Düşünməyin ki, Allah peyğəmbərlərinə verdiyi vədə xilaf çıxar. Şübhəsiz, Allah yenilməzdir və intiqam sahibidir."**

◊ **Nöqtələr**

● İnsan öz qəlbindəki kin səbəbindən intiqam alırsa, Allahın intiqamı Onun ədalət və hikmətinə əsaslanır.

◊ **Bildirişlər**

1. Təhlükəli məqamlarda zəruri xəbərdarlıqlar olunmalıdır.

2. İlahi yardımların təxiri sizdə tərəddüd yaratmasın.

3. İnsanın ağıl və fitrəti olsa da, vəhydən faydalanmadıqda azğınlığa düçar olur.

4. Allah kafirlərə və sitəmkarlara möhlət verərkən vədinə xilaf çıxmır. Möhlət vermək Allahın sünnə və hikmətidir.

5. Qüdrət sahibi olan Allah nə üçün vədinə xilaf çıxmalıdır?!

● Ayə 48:

﴿يَوْمَ تُبَدَّلُ الأَرْضُ غَيْرَ الأَرْضِ وَالسَّمَاوَاتُ وَبَرَزُواْ للّهِ الْوَاحِدِ الْقَهَّارِ﴾

**"(Qiyamət) Elə bir gündür ki, yer başqa bir yerlə, səmalar başqa səmalarla əvəz olar və hamı yeganə, qalib Allahın hüzurunda dayanar."**

◊ **Nöqtələr**

● Qurani-Kərimin müxtəlif ayələrində Qiyamət günü yerin haldan-hala düşəcəyi bildirilir. Həmin gün yerdə şiddətli bir lərzə yaranacaq, dağlar yerindən qopacaq, didilmiş yun tək səpələnəcək.[1] Həmin gün yer üzü saf və hamar müstəvi şəklini alacaq.[2] Səmaların dəyişikliyi isə günəşin sönməsi və ərş nizamının pozulması ilə müşayiət olunacaq. Hər halda, mövcud nizamın sonu var.

◊ **Bildirişlər**

1. Bütün yaranmışlar öz əməllərinin cavabını vermək üçün növbəti dəfə dirildiləcəklər.

2. Qiyamətdə sitəmkarlara mərhəmət yeri yoxdur.

---

1 "Zilzal", 1

2 Bax: "Taha", 105, 106

● Ayə 49:

﴿وَتَرَى الْمُجْرِمِينَ يَوْمَئِذٍ مُّقَرَّنِينَ فِي الأَصْفَادِ﴾

**“Həmin gün günahkarların buxov və zəncirlərlə bir-birinə bağlandığını görərsən.”**

● Ayə 50:

﴿سَرَابِيلُهُم مِّن قَطِرَانٍ وَتَغْشَى وُجُوهَهُمُ النَّارُ﴾

**“Onların libasları qətrandır və üzlərini atəş bürümüşdür.”**

◊ **Nöqtələr**

● Əzab-əziyyət içində olan insan başqalarının fəryadını eşitdikdə daha çox əziyyət çəkir. Şadlıq o zaman ləzzətlidir ki, şad bir cəmiyyət arasında olasan. Quran buyurur: “Biz həmfikir fərdləri bir yerə toplayarıq, günahkarlar cəhənnəmdə, xeyir əməl sahibləri behiştdə cəm olar.[1] Cəhənnəm əhli haqqında deyilir: “Sitəmkarlar özləri kimi olan zövcələri ilə birlikdə cəhənnəmə gedərlər.”[2] Digər bir ayədə oxuyuruq: “Həmin gün çaşqın abid öz xəyali, uydurma məbudu ilə birlikdə cəhənnəmə atılar.”[3] “Təkvir”surəsinin 7-ci ayəsində də uyğun nöqtələrə işarə olunur.

● “Əsfad” dedikdə məhbusların ayağına vurulan böyük taxta parçası nəzərdə tutulur.

Qətran müəyyən ağaclardan alınan maddədir. Qətran əridilib möhkəmləndikdən sonra dəvənin dəri xəstəliyini sağaltmaq üçün istifadə olunur. Bu maddə pis qoxuludur və şölələnmə qabiliyyətinə malikdir.[4]

● Qiyamət əzablarından biri günahkarların qandallanması və zəncirlənməsidir.[5]

● Günahkarlar ya günahkarlarla, ya şeytanlarla bir-birinə zəncirlənər. Onların əllərinin, ayaqlarının, boyunlarının bir-birinə zəncirlənməsi də nəzərdə tutula bilər.

◊ **Bildirişlər**

1. Quran Qiyaməti elə təsvir edir ki, sanki bu səhnə gözlərimiz önündə qurulmuşdur.
2. Günahkarlar göz qarşısında cəzalanır.
3. Əməllərimizə təcəssüm gözü ilə baxsaq, bəlkə də açıq-saçıq şəhvət yaradan libasların pis qoxulu, qaynar libaslara çevriləcəyi nəticəsinə gələrik.

---

1 Bax: “Tur”, 21
2 “Saffat”, 23
3 “Şüəra”, 94
4 “Təfsiri-Nümunə”
5 Bax: “Haqqə”, 30; “Ğafir”, 71

● Ayə 51:

﴿لِيَجْزِي اللّهُ كُلَّ نَفْسٍ مَّا كَسَبَتْ إِنَّ اللّهَ سَرِيعُ الْحِسَابِ﴾

**“(Günahkarlar cəzalandırılar ki,) Allah hər kəsə gördüyü işin əvəzini versin. Çünki Allah tez hesab çəkəndir.”**

◊ **Bildirişlər**

1. Kimsə cəzasız qalmaz.
2. Heç bir iş dünyada cavabsız qalmır.
3. İlahi cəza və mükafat öz əməllərimizə əsaslanır.

● Ayə 52:

﴿هَـذَا بَلاَغٌ لِّلنَّاسِ وَلِيُنذَرُواْ بِهِ وَلِيَعْلَمُواْ أَنَّمَا هُوَ إِلَـهٌ وَاحِدٌ وَلِيَذَّكَّرَ أُوْلُواْ الأَلْبَابِ﴾

**“Bu (Quran) xalq üçün elə bir bildiriş və nəsihətdir ki, onun vasitəsi ilə xəbərdar olsunlar və bilsinlər ki, həqiqətən, O, yeganə məbuddur. Düşüncə sahibləri də öyüd götürsünlər.”**

◊ **Nöqtələr**

● “İbrahim” surəsinin ilkin və son ayələri Quran və risalətin hidayətə təsirindən danışır. Birinci ayədə xalqın zülmətlərdən nura çıxarılması, son ayədə Quranın nəsihət olması məsələsinə toxunulur.

◊ **Bildirişlər**

1. Quran təbliğ qaynağıdır və təbliğatçılar bu qaynaqdan faydalanmalıdırlar.
2. Quran tövhid kitabıdır və bu kitab vasitəsi ilə müvəhhid tərbiyə olunmalıdır.
3. Təkcə bildiriş bəs etmir, qorxutmaq da lazımdır. (Bəli, təbliğdə məqsəd qorxutmaqdır.)
4. Bilmək bəs etmir, diqqət və xatırlatma da lazımdır.
5. Quranla ünsiyyət insanın mərifət və məlumatını artırır, həm də öyüd-nəsihətlə onu xeyir əməllərə təşviq edir.
6. Quran bütün insanlar üçün öyüd-nəsihətdir. Amma yalnız düşüncə sahibləri ondan öyüd götürür. Bəli, əgər Quranın öyüdlərini qəlbən dinləsək, müvəhhid və agah insan olarıq. İnşallah!

## “HİCR” SURƏSİ

***(SURƏ: 15; CÜZ: 14; AYƏLƏRİN SAYI: 99)***

***“HİCR” SURƏSİNİN SİMASI***

Bu surənin 99 ayəsi var. Məşhur xəbərə görə bu surə hicrətdən öncə Məkkədə Peyğəmbərə (s) nazil olmuş 52-ci surədir.

“Hicr” həzrət Saleh qövmündən danışan 80-cı ayədən götürülmüşdür.

Kafirlərin Quran və Peyğəmbərə (c) qarşı böhtanları və məsxərələri, onlara münasibətdə səbir və güzəşt hazırkı surənin əsas mövzularındandır. Bu surədə həzrət Xədicə və həzrət Əbu-Talibin vəfatından sonra müxaliflərin hücumları qarşısında bir növ Peyğəmbərə (s) təsəlli verilir.

﴿بسم اللَّه الرحمن الرحيم﴾

**Bağışlayan və mehriban Allahın adı ilə**

● Ayə 1:

﴿الَر تِلْكَ آيَاتُ الْكِتَابِ وَقُرْآنٍ مُّبِينٍ﴾

**“Əlif, lam, ra; odur kitabın ayələri, aydın və aydınladan Quran.”**

● Ayə 2:

﴿رُّبَمَا يَوَدُّ الَّذِينَ كَفَرُواْ لَوْ كَانُواْ مُسْلِمِينَ﴾

**“Nə çoxdur küfr etmiş kəslər ki, müsəlman olmalarını arzu edərlər.”**

◊ **Nöqtələr**

● “Təfsiri-Təbəri” və “Təfsiri-Məcməul-bəyan”da hazırkı surənin 2-ci ayəsi ilə bağlı bir hədis nəql olunmuşdur. Hədisdə deyilir ki, Qiyamətdə kafirlər cəhənnəmə düşmüş müsəlmanlara deyər : “Siz də bizim kimi cəhənnəm əhli oldunuz və İslam sizə nicat vermədi.” Halbuki günahkar müsəlmanlar bir müddət sonra cəhənnəmdən qurtularlar. Kafirlər isə həmişəlik cəhənnəmdədir. Onlar deyərlər ki, «kaş biz də müsəlman olaydıq.»

● Tarizdə oxuyuruq: Rum qeysəri İslam Peyğəmbərinin (s) məktubunu aldıqdan sonra İslama iman gətirmək istədi. Amma hakimiyyətin əlindən çıxacağından qorxdu.[1]

◊ **Bildirişlər**

1. Quran çox uca məqama malik olsa da, ondan istifadə asandır. Çünki həm yazıya alınıb, həm də oxunması mümkündür.

1 “Məkatibur-rəsul”, c. 1, s.112

2. Quranın buyruqları aydındır, o, haqla batilin sərhəddini bəyan edir.

3. Gələcəkdə ucalıq İslamındır, kafirlər həsrət çəkəsidirlər. (Bu gün İslamı məsxərəyə qoyanlar gələcəkdə peşman olasıdır. Bir çox kafirlər İslam arzusunda olsalar da, zalım hakimin və ya pozğun mühitin əsiridirlər.)

● Ayə 3:

﴿ذَرْهُمْ يَأْكُلُواْ وَيَتَمَتَّعُواْ وَيُلْهِهِمُ الأَمَلُ فَسَوْفَ يَعْلَمُونَ﴾

**“Onları rahat burax ki, yeyib-içsinlər, bəhrələnsinlər, arzuları başlarını qatsın. Tezliklə (biganəliklərinin nəticəsini) anlayacaqlar.”**

◊ **Nöqtələr**

● “Zərhum” cümləsi ilə kafirlərin öz başlarına buraxılması məsələsi bəyan olunur. Bunun səbəbi onların azğınlığıdır. Yoxsa Allah-təala öncədən bütün insanların hidayəti üçün peyğəmbərlər göndərmiş, heç kimi özbaşına buraxmamışdır. Bu məsələyə Quranda dəfələrlə toxunulur: “Onları öz başlarına buraxırıq ki, azğınlıqlarına başları qatılsın.”;[1] “Onlara azğınlıqlarında möhlət verərik.”[2]

● İnsanı yaşadan arzusudur. Əgər onun arzuları əlindən alınsa, fəaliyyətindən düşər. İslamda bəzi arzular tənqid olunmuşdur: uzun-uzadı arzu, əməldən çox olan arzu, əməlsiz arzu, insanın başını qatan arzu, pis iş və ya pis insanlardan xeyir əldə etmək arzusu.

● Həzrət Peyğəmbər (s) buyurur: “Mən sizin üçün iki şeydən qorxuram: biri sizi haqdan uzaqlaşdıracaq nəfs istəklərinə itaət, digəri axirəti yadınızdan çıxaracaq uzun-uzadı arzular.” “Kumeyl” duasında oxuyuruq: “Uzun-uzadı arzular insanı xeyir əldə etməkdən məhrum qoyur.”

◊ **Bildirişlər**

1. Təbliğ və tərbiyədə vaxtınızı ləyaqətsiz insanlara sərf etməyin.

2. İnsan bəzən küfrdə elə qərq olur ki, peyğəmbərlərin dəlil və xəbərdarlıqları da onu oyatmır.

3. İnsanı qəflətdə saxlayan, onun başını qatan arzular yersizdir. Amma insanı işə təşviq edən arzular yaxşıdır.[3]

4. Allahın verdiyi möhləti Onun lütf və mərhəmət nişanəsi saymayaq. (Bəzən həkim xəstənin adamlarına deyir: “Bu xəstəni rahat buraxın, istədiyini yesin. Çünki iş-işdən keçib.)

● Ayə 4:

﴿وَمَا أَهْلَكْنَا مِن قَرْيَةٍ إِلاَّ وَلَهَا كِتَابٌ مَّعْلُومٌ﴾

---

1 “Ənam”, 110
2 “Bəqərə”, 15
3 Bax: “Kəhf”, 46

**"Yazısı məlum olmamış (əcəli çatmamış) heç bir məntəqə əhlini həlak etmədik."**

◊ **Bildirişlər**

1. Dünyapərəstlərin eyş-işrətinin sonu var.

2. Allah istəsə kafirləri bir anda məhv edər. Amma ilahi proqram və qanuna əsasən fürsət verilir, iş təxirə salınır.

3. Allahın möhlət verməsi bizi qürrələndirməsin.

4. Cəmiyyət və tarixin də qanunu, vaxt bölgüsü və əsasları var.

● Ayə 5:

﴿مَّا تَسْبِقُ مِنْ أُمَّةٍ أَجَلَهَا وَمَا يَسْتَأْخِرُونَ﴾

**"Heç bir ümmət öz əcəlindən nə qabağa düşə bilər, nə də arxada qala bilər."**

◊ **Nöqtələr**

● İnsan iki növ əcəl və hadisə ilə qarşılaşa bilər. Qəti və qeyri-qəti. Qeyri-qəti əcəl dua, sədəqə və xeyir işlərlə dəyişə bilər. Qəti əcəl isə dəyişməzdir.

◊ **Bildirişlər**

1. Təkcə fərdlər yox, həm də ümmətlər və onların tarixi üçün vaxt bölgüsü və əcəl var.

2. Fərd və ümmətlərin varlığı və davamı Allahın əlindədir. İnsan Allahın müəyyənləşdirdiyi qəti proqramların vaxtını dəyişə bilməz.

● Ayə 6:

﴿وَقَالُواْ يَا أَيُّهَا الَّذِي نُزِّلَ عَلَيْهِ الذِّكْرُ إِنَّكَ لَمَجْنُونٌ﴾

**"Kafirlər dedilər: "Ey zikr nazil olan kəs! Həqiqətən sən divanəsən."**

● Ayə 7:

﴿لَّوْ مَا تَأْتِينَا بِالْمَلائِكَةِ إِن كُنتَ مِنَ الصَّادِقِينَ﴾

**"Əgər doğru danışanlardansansa, nə üçün mələkləri yanımıza gətirmirsən?"**

◊ **Nöqtələr**

● "Məcnun" sözü ağılsızlıq mənasını bildirmir. Bu söz daha çox cin toxunmuş adama aid edilir. Necə ki, "divanə" sözü div toxunmuş mənasını daşıyır. Cahiliyyət dövründə elə düşünürdülər ki, şairlər cinlərlə əlaqədə olduqlarından şer söyləyə bilirlər.

Bu iki ayədə kafirlərin Peyğəmbərə (s) qarşı təhqir, məsxərə, böhtan və şübhələri onların dilindən müxtəlif təkidlər şəklində bəyan olunur. Onların Peyğəmbərə (s) "ya Peyğəmbər" əvəzinə "ey o kəs ki," şəklində müraciətləri bir

növ təhqirdir. Vəhyə inanmayan kafirlərin onu “zikr” kimi qeyd etməsi bir növ məsxərədir. Şübhəsiz ki, Peyğəmbəri (s) divanə adlandırmaq böhtandır. “Əgər doğru danışanlardansansa” təbiri onların peyğəmbərə qarşı şəkk-şübhələrini göstərir. Bundan əlavə, ayədəki “innə” şəkilçisi “lam” hərfi (“innəkə lə-məcnun”); eləcə də, ismi cümlə forması kafirlərin azğın söz və əqidələrindəki təkid nişanələridir.

◊ **Bildirişlər**

1. Bəzilərinin nəzərində mənəviyyata diqqət yetirmək divanəlikdir.
2. Kafirlər peyğəmbərlərin vəhy qaynaqlı sözlərini qəbul etmədilər.
3. Kafirlər mələk nazil olmasını Peyğəmbərin (s) sədaqət nişanəsi sayırlar. Amma bu, sadəcə bir bəhanə idi. Çünki Quranın başqa bir yerində belə buyurulur: “Biz mələkləri onların yanına gətirsək də ölülər onlarla dirilib danışsa da, hər şeyi gözləri qarşısına gətirsək də, yenə iman gətirməzlər.”

● Ayə 8:

﴿مَا نُنَزِّلُ الْمَلائِكَةَ إِلاَّ بِالحَقِّ وَمَا كَانُواْ إِذًا مُّنظَرِينَ﴾

**“Biz mələkləri yalnız haqq olaraq göndəririk və o halda artıq kafirlərə möhlət verilməz. (Allahın qəzəbi onları dərhal yaxalayar.)”**

◊ **Nöqtələr**

● Quran ayələrindən məlum olur ki, Peyğəmbərdən möcüzə göründüyü vaxt xalq etinasızlıq göstərsə, ya dərhal ilahi qəzəb nazil olar, ya da bu qəzəb bir müddət təxirə salınar. Amma bu möcüzəni xalq tələb etmiş olsa, möcüzədən sonra təslim olmayan həmin xalq dərhal ilahi qəzəbə düçar olar və onlara heç bir möhlət verilməz. Bu sayaq möcüzəyə nümunə olaraq xalqın tələbi ilə Salehin dağdan dəvə çıxarmasını, həzrət İsadan «Səma süfrəsi» istəyini göstərmək olar.

● Ötən ayədə kafirlər möhtərəm Peyğəmbərdən (s) mələk istədilər. Bu ayə cavab verir ki, mələk layiqli insanlara nazil olur və ləyaqətsiz insanlara mələk nazil olması batildir.

◊ **Bildirişlər**

1. Mələk onun-bunun həvəsi əsasında nazil olmur. Mələklər yalnız haqq əsasında göndərilirlər.
2. Möhlət verilməsində də qanunauyğunluq var. Əgər xalq öz dili ilə möcüzə istəyib, möcüzədən sonra tabe olmursa, heç bir möhlətdən söhbət gedə bilməz.

● Ayə 9:

﴿إِنَّا نَحْنُ نَزَّلْنَا الذِّكْرَ وَإِنَّا لَهُ لَحَافِظُونَ﴾

**“Həqiqətən, Biz Özümüz Quranı nazil etdik və şübhəsiz, Biz onu qoruyarıq.”**

◊ **Nöqtələr**

● Altıncı ayədə kafirlər deyirdilər: “Peyğəmbərə nazil olan zikrin qaynağı məlum deyil.” Bu ayədə isə belə buyurulur: “Şəkk etməyin, şübhəsiz, ona zikr və Quran nazil edən Biz özümüzük.” Əgər kafirlər Peyğəmbəri (s) təkidlə divanə sayırdılarsa, Allah daha artıq təkidlə Quranın nazil olmasını və qorunmasını Öz müqəddəs zatına aid edir.

● Bu qısa ayədə ərəb dilini bilənlərin anlayacağı beş təkid növündən istifadə olunmuşdur.

● Ayədə bildirilir ki, Quranda heç bir dəyişiklik və təhrif olmamışdır. Bu sayaq müddəalar başqa ayələrdə də var: “Heç bir batilin heç bir cəhətdən Qurana yolu yoxdur.”[1] Quranın təhrifə uğradığını bildirən rəvayətlər ya uydurmadır, ya məna təhrifidir ki, həqiqi Quranşünas olan Əhli-beytdən kənar şəxsi rəy əsasında təfsirdən yaranan təhrifi nəzərdə tutur.

Bəli, Allah Quranı qoruyacağını vəd etmişdir. Müsəlmanlar da ilk gündən Quranı qorumuş, onun yazıya alınmasında və hifzində ciddilik göstərmişlər. Hətta Quran təlimi qadınlar üçün mehriyyə təyin olunmuşdur. Müxtəlif insanlar vəhyi qələmə almaqla məşğul olmuşlar. Onlardan biri də həzrət Əlidir (ə). Əhli-beyt imamları xalqı məhz həzrət Əlinin (ə) yazdığı Qurana dəvət etmişlər. Səqəleyn hədisində oxuyuruq: “Peyğəmbər buyurur:”Mən sizin aranızda iki qiymətli şey qoyub gedirəm: biri Quran, digəri Əhli-beyt. Bu iki şey heç vaxt bir-birindən ayrılmaz. Əgər hər ikisinə sarılsanız, heç vaxt azmayacaqsınız.” Digər bir tərəfdən, necə ola bilər ki, sabit risalətə malik peyğəmbərin kitabı dəyişmiş olsun.

*Mustafaya vəd edibdir Rəbbimiz;*
*Sən gedər olsan da getməz vəhyimiz.*
*Hafizəm, qoymam kitabdan söz düşə,*
*Artırıb əskiltmələr keçməz işə.*

● Quranın təhrif olunmaması ilə bağlı yüzlərcə kitab, məqalə yazılmış, böyük şiə alimləri tərəfindən araşdırmalar aparılmışdır. Çox təəssüf ki, şiələr Quranın təhrif olunmasına inancda suçlanırlar. Əslində isə belə deyil!

● Quran zikrdir. Zikr və Qurandan uzaqlıq insanı bədbəxt edir.[2] Quran zikrdir və qəlblər yalnız Allahı zikr etməklə aramlıq tapır.[3]

◊ **Bildirişlər**

1. Quran nə insan, nə də mələk tərəfindən gətirilib.
2. Quran həmişəlik hifz olunar.
3. Quranın istənilən bir təhrifdən qorunması Quranın öngörənliklərindən və İslamın imtiyazlarındandır.
4. Quran zikrdir. Bu kitabda Allah, nemətlər, keçmişlərin tarixi və Qiyamət yada salınır.

---

1 “Fussilət”, 42
2 Bax: “Taha”, 124
3 Bax: “Rəd”, 28

5. Böhtan və təhqirlərə möhkəm cavab verilməlidir.

● Ayə 10:

﴿وَلَقَدْ أَرْسَلْنَا مِن قَبْلِكَ فِي شِيَعِ الأَوَّلِينَ﴾

**“Həqiqətən, Biz səndən öncə keçmiş qövmlərə (peyğəmbərlər) göndərdik.”**

● Ayə 11:

﴿وَمَا يَأْتِيهِم مِّن رَّسُولٍ إِلاَّ كَانُواْ بِهِ يَسْتَهْزِؤُونَ﴾

**“Onlar üçün elə peyğəmbər gəlmədi ki, ona istehza etməmiş olsunlar.”**

◊ **Nöqtələr**

● “Şiyəi” dedikdə hansısa bağlılığa malik ümmət, dəstə nəzərdə tutulur. Bu bağlılıq həm haqq, həm də batil əsasında ola bilər.[1]

● Onların istehza etməkdə məqsədləri ya Peyğəmbərin (s) tək qalması üçün onu hörmətdən salmaq, ya da Peyğəmbər (s) qarşısındakı acizliklərini ört-basdır etmək idi. Onlar ya Peyğəmbərin (s) sadə həyat tərzinə, ya yoxsul ardıcıllarına, ya da xurafat ənənələrini aradan qaldırmasına istehza edirdilər.

◊ **Bildirişlər**

1. İstehza dalğası qarşısında fərdləri möhkəmləndirmək lazımdır.
2. Tarixə və keçmişdəkilərin çətinliklərinə diqqət insanı dözümlü edir.
3. Məsxərəyə qoyulmayan peyğəmbər olmamışdır.
4. İstehza kafirlərin Peyğəmbərə (s) qarşı daimi gedişlərindən olmuşdur. (Məntiqsiz insanın əlindən yalnız istehza gəlir).

● Ayə 12, 13:

﴿كَذَلِكَ نَسْلُكُهُ فِي قُلُوبِ الْمُجْرِمِينَ لاَ يُؤْمِنُونَ بِهِ وَقَدْ خَلَتْ سُنَّةُ الأَوَّلِينَ﴾

**“Bu sayaq (höccəti tamamlamaq üçün Quranı) günahkarların qəlbinə yeridirik. (Amma) onlar buna iman gətirmirlər. Qədim kafirlərin də sünnə və yolu belə olmuşdur.”**

● Ayə 14, 15:

---

1 Bax: “Saffat”, 83; “Ənam”, 159

﴿وَلَوْ فَتَحْنَا عَلَيْهِم بَابًا مِّنَ السَّمَاء فَظَلُّواْ فِيهِ يَعْرُجُونَ لَقَالُواْ إِنَّمَا سُكِّرَتْ أَبْصَارُنَا بَلْ نَحْنُ قَوْمٌ مَّسْحُورُونَ﴾

**“Əgər onların üzünə göydən bir qapı açsaq ki, durmadan onunla yuxarı qalxsınlar, şübhəsiz, deyərlər ki, həqiqətən, bizim gözümüz bağlanıb, bəlkə də sehrlənmiş bir qövmük.”**

◊ **Nöqtələr**

● Bir neçə ayə əvvəl oxuduq ki, kafirlər Peyğəmbərdən (s) mələk gətirməsini istəyirdilər. Bu surənin 14-cü ayəsində buyurulur ki, hətta göydən qapı açılsa, səmaya qalxıb mələkləri görsələr, yenə iman gətirməyəcəklər. Çünki onların mələk görmək istəyi yalnız bir bəhanədir. İnadkar şəxs gördüyünü də inkar edir. Digər bir ayədə buyurulur ki, səmadan kağız üzərində kitab nazil olsaydı və onlar bu kitabı əllərinə alsaydılar da, yenə inkar edər, bu işi sehr sayardılar.[1]

● Bəzi təfsirçilər deyirlər: “Nəslukuhu” dedikdə təkzib və istehzanın kafirlərin qəlbinə yeridilməsi nəzərdə tutulur. Quran təbirincə, onların qəlbi daşlaşmışdır və hidayət qabiliyyətlərini itirmişlər.

◊ **Bildirişlər**

1. İnsanların hidayətinə münasibətdə Allahın sünnəsi eynidir.

2. Allah höccəti tamamlayır, haqqı insanların qəlbinə və ruhunun dərinliyinə çatdırır. Bundan sonra onlar həqiqətdən xəbərsiz olduqlarını deyə bilməzlər.

3. Günah hidayət və nəsihətin qəbulu yolunda maneədir.

4. Haqqın qəbulu üçün onu eşitmək bəs etmir. İnsanın iman gətirməsi üçün iradə, təvazö və mütiliyə ehtiyac var.

5. Səmada Allahın iradəsi ilə hər bir insanın üzünə açıla biləsi qapılar var.

6. İnadkarlıq haqqın tanınmasına mane olur. İnadkar insan gördüyünü də inkar edir.

7. İnadkarlıq sağalmaz dərddir və getdikcə ağırlaşır. Belələri əlamətlər gördükdə “Gözlərim sehrlənib” deyirlər. Sonra isə bütün vücudlarının sehrləndiyini iddia edirlər.

● Ayə 16:

﴿وَلَقَدْ جَعَلْنَا فِي السَّمَاء بُرُوجًا وَزَيَّنَّاهَا لِلنَّاظِرِينَ﴾

**“Həqiqətən, Biz səmada bürclər yaratdıq və onları baxanlar üçün zinət qərar verdik.”**

◊ **Nöqtələr**

---

1 Bax: “Ənam”, 7

● “Burc” sözünün cəm forması olan “buruc” sözü əslində zühur mənası bildirir. Zinətini göstərən qadın belə adlanır. Xüsusi görünüşə malik qəsr, saray və tikiliyə bürc deyilir. Bu ayədə səma cisimləri və ya onların mənzilləri bürcə oxşadılır.

● Yerin günəş ətrafında dövr etməsindən “məntəqətul-buruc” adlı xəyali bir dairə yaranır. Bu dairə 12 hissəyə bölünmüşdür və hər bir hissə üçün ulduzlar qeyd olunmuşdur. Ulduz toplumunun formasına münasib olaraq onlara ad verilmişdir. İranın şəmsi təqvimində adlar bu ulduzların adı ilə adlanır. Məsələn, fərvərdin, ordibeheşt, xordad... Ərəb dilində ulduzlar həməl (qoç), sur (buğa), couza (əkizlər), sərətan (xərçəng), əsəd (şir), sunbulə (qız), mizan (tərəzi), əqrəb, qövs (oxatan), cədi (oğlaq), cəlv (dolça), hut (balıq) adlandırılmışdır.

◊ **Bildirişlər**

1. Səma cisimləri və onların müxtəlif orbitlərdə hərəkəti tövhid və Allahşünaslıq əsərlərindəndir.

2. Səma cisimləri də yaradılmışdır.

3. Zinət və gözəllik yaranış prinsiplərindəndir və Allah-təala göyləri xəlq edərkən bu prinsipə riayət etmişdir.

4. Göy də yer kimi insan üçün yaradılmışdır.

● Ayə 17:

﴿وَحَفِظْنَاهَا مِن كُلِّ شَيْطَانٍ رَّجِيمٍ﴾

**“Onları hər qovulmuş şeytandan hifz etdik.”**

● Ayə 18:

﴿إِلاَّ مَنِ اسْتَرَقَ السَّمْعَ فَأَتْبَعَهُ شِهَابٌ مُّبِينٌ﴾

**“Yalnız oğurluq qulaq asan istisnadır ki, onu da aşkar bir şəhab (ulduz) təqib edər.”**

◊ **Nöqtələr**

● “İstiraq” sözü “oğurluq” mənasını bildirir. “İstərəqəs səmə” dedikdə söz oğurluğu nəzərdə tutulur.

● “Təfsiri-fi zilal” və “Təfsiri-Mərağі” mənbələrində oxuyuruq: Biz şeytanın necə söz oğurladığının mahiyyətini bilmirik.” Amma Fəxr-Razi və Alusi öz təfsirlərində belə deyirlər: “Asiman dedikdə gördüyümüz səma, şəhab dedikdə səmada sürətlə hərəkət edən daşlar nəzərdə tutulur. Bəziləri isə səma dedikdə şeytanın üzünə bağlı olan ilahi ərş aləminin nəzərdə tutulduğunu bildirirlər. Ayədən belə bir məna da anlaşıla bilər: mənəviyyat səmasında parlaq çöhrələr, nümunələr və rəhbərlər qərar tutur. Həqiqətlər şeytanın vəsvəsələrindən hifz olunur. Əgər bir şeytansifət vəsvəsə etsə, möhkəm dəlil və məntiqlə ona hücum olunar, onların bidət və vəsvəsələri zikr əhlinin elm və dəlil şəhabları ilə məhv olunar.

◊ **Bildirişlər**

1. Zinətli səmalar qorunmalıdır. Onları hifz etmək isə yalnız Allahın işidir.

2. Səmalar tədbir tökən mələklərin mərkəzidir. Tədbir mərkəzi hifz olunmalıdır.

3. Şeytan təkcə İblis deyil.

4. Şeytan özbaşına uzaqlaşıb getmir. Onu rədd etmək lazımdır.

5. Gizli dinləmə və söz oğurluğu şeytan işidir.

6. Casusla sərt rəftar olunmalıdır.

7. Harada şeytansifətlər meydana çıxsa, cəmiyyətin ziyalıları elm şəhabı ilə onları təqib etməlidirlər.

8. Vəsvəsə və şeytənətlərə aşkar və dərhal cavab verilməlidir. (“Saffat” surəsinin 8-ci ayəsində bildirilir ki, şeytan hərtərəfli rədd edilməlidir. Yoxsa şəklini dəyişib başqa bir yolla üzə çıxar.)

● Ayə 19:

﴿وَالأَرْضَ مَدَدْنَاهَا وَأَلْقَيْنَا فِيهَا رَوَاسِيَ وَأَنبَتْنَا فِيهَا مِن كُلِّ شَيْءٍ مَّوْزُونٍ﴾

**“Yer üzünü döşədik, onda möhkəm dağlar qərar verdik. Hər şeydən ölçülmüş və qədərincə yetişdirdik.”**

● Ayə 20:

﴿وَجَعَلْنَا لَكُمْ فِيهَا مَعَايِشَ وَمَن لَّسْتُمْ لَهُ بِرَازِقِينَ﴾

**“Orada sizin və ruzi verəni olmadığınız (kəs) üçün yaşayış vasitəsi qərar verdik.”**

◊ **Nöqtələr**

● “Əl qəyna” yaratmaq, “rəvasiyə” möhkəm, “məayişə” yaşayış vasitəsi mənasını bildirir.

◊ **Bildirişlər**

1. İlahi nemətlərdən biri yer üzünün genişliyi və hamarlığıdır. (Əks-təqdirdə, əkinçilik və bir çox başqa işlər çətinliklə yerinə yetirilərdi.)

2. Yerin döşənməsi, dağların və nəbatat aləminin yaranışı təsadüfi deyil.

3. Məsələlər xüsusi mizan və qanun əsasında yaradılmışdır.

4. Yer hər növ bitkinin inkişafı üçün hazırdır.

5. Yer, dağlar və nəbatat insan üçün yaradılmışdır.

6. Allah bütün mövcudların ruzisini, hətta sizin təmin etmək gücündə olmadığınız varlıqların təminatını Öz öhdəsinə götürmüşdür.

● Ayə 21:

﴿وَإِن مِّن شَيْءٍ إِلاَّ عِندَنَا خَزَائِنُهُ وَمَا نُنَزِّلُهُ إِلاَّ بِقَدَرٍ مَّعْلُومٍ﴾

**“Mənbə və xəzinəsi Bizdə olmayan heç nə yoxdur. Biz müəyyən miqdardan artıq göndərmirik.”**

◊ **Nöqtələr**

● Çoxsaylı ayələrdə mövcudların yaranışında ölçü məsələsinə işarə olunmuşdur.[1]

● "Şura" surəsinin 27-ci ayəsində oxuyuruq ki, əgər Allah bəndələrinin ruzisini hədsiz artırsa, onlar təcavüzə əl atarlar. Bu səbəbdən də Allah məsləhət bildiyi qədər hər kəsə əta edir. Hazırkı ayədə də həmin nöqtəyə işarə olunur.

● Xəzinə dedikdə güc çatan səbəblər, ünsürlər və imkanlar nəzərdə tutula bilər. Allah hər bir mövcudun ixtiyarında belə bir qüvvə qərar vermişdir.

● "İn min şəyin illa indəna xəzainuhu", yəni "xəzinəsi Bizdə olmayan şey yoxdur" cümləsi bütün yaranmışlara aiddir. Məsələn, görmə, eşitmə gücü də Allahın yanındadır. Görmə və eşitmə xəzinəsindən müəyyən miqdarda bizə əta olunur. Məsələn, Allah istəsə, bizə elə bir eşitmə qüvvəsi verər ki, yer kürəsinin əks tərəfindəki qarışqanın ayaq səsini eşidərik. Müasir nəbatat elmində kəşf olunub ki, hər bir bitkinin xüsusi çəkisi var. Bu xüsusi çəki artıb-azaldıqda həmin bitki yaşaya bilmir.

● Nazilolma bəzən yağışın nazil olması kimi yuxarı məkandan, bəzən də dəmirin nazil olması kimi yuxarı məqamdan baş tutur. Bu ayədə oxuyuruq ki, nemətlərin ölçü və hesabı var, onların hər birinin miqdarı məlumdur. Digər ayə və rəvayətlərdə isə bu bildirişin amilləri bəyan olunur. İnsanların səyi ruzi təyinində təsirli ola bilər. Yaxşı əxlaq, ali təhsil, genişqəlblilik, xoşniyyət, canıyananlıq, salehlərin duası məlum miqdara təsir göstərə bilər.

◊ **Bildirişlər**

1. Varlığın Allahın ixtiyarında olan mənbəsi var. Bu mənbənin yalnız bir hissəsi əlimizə çatır və biz həmin hissədən xəbər tuturuq.
2. Varlıqda ölçüsüz yaradılmış bir şey yoxdur.
3. Allahın xəzinələri çoxdur və Onun rəhməti tədricən nazil olur. ("Tənzil" dedikdə tədrici nüzul nəzərdə tutulur.)
4. İlahi xəzinələr daimidir. Çünki Allah yanında olan şey dəyişməzdir.[2]
5. Allahdan qeyrisinə üz tutmayaq. Çünki istədiyimiz hər bir şeyin mənbəyi Allahın yanındadır.
6. Bir şeyin olması ondan istifadə üçün bəs etmir. Məsrəfdə hikmət, tutum və onlarla başqa şərt nəzərə alınmalıdır.
7. Varlığın bəşər tərəfindən kəşf olunmamış mənbələri mövcuddur.

● Ayə 22:

﴿وَأَرْسَلْنَا الرِّيَاحَ لَوَاقِحَ فَأَنزَلْنَا مِنَ السَّمَاء مَاء فَأَسْقَيْنَاكُمُوهُ وَمَا أَنتُمْ لَهُ بِخَازِنِينَ﴾

**"Küləkləri (buludları və bitkiləri) bara gətirmək üçün göndərdik. Səmadan su nazil etdik. Beləcə, yağışın xəzinədarı olmadığınız və onu ehtiyat üçün saxlaya bilmədiyiniz halda sizi onunla sirab etdik."**

---

1 O cümlədən: "Təlaq", 3; "Rəd", 8; "Furqan", 2.
2 Bax: "Nəhl", 96

◊ **Nöqtələr**

● “Ləvaqih” sözü buludların bara gətirilməsi mənasını bildirir. Müsbət və mənfi yüklü buludların birləşməsi yolu ilə buludlar, toxumların ötürülməsi yolu ilə bitkilər bara gəlir.

● “Zariyat” surəsinin 41-ci ayəsində oxuyuruq ki, bulud bəzən bəhrəli, bəzən bəhrəsiz olur. “Nur” surəsinin 43-cü ayəsində bildirilir: “Görmürsənmi, Allah pərakəndə buludları sövq edir, sonra bir-birinə birləşdirir, sonra yenidən parçalayır. Görmürsənmi, onların arasından yağış gəlir?”

● İnsan suyu nə buludlarda saxlaya bilər, nə də yağış yağdıqdan sonra hövzələrdəki buxarlanmanın qarşısını alar.

◊ **Bildirişlər**

1. Varlıq aləmini idarə edən Odur.
2. İnsan ən zəruri ehtiyaclarını toplayıb saxlamaqda acizdir.
3. Su neməti sirab olmaq nemətindən fərqlidir.

(İnsanın su içdikdən sonra susuzluğunun yatması sudan əlavə bir nemətdir. Bəzən insan su içsə də, onun susuzluğu yatmır.)

● Ayə 23:

﴿وَإِنَّا لَنَحْنُ نُحْيِي وَنُمِيتُ وَنَحْنُ الْوَارِثُونَ﴾

**“Əlbəttə, bu Bizik ki, dirildirik və öldürürük. Bu Bizik ki, (hamı öləndən sonra) varis oluruq.”**

● Ayə 24:

﴿وَلَقَدْ عَلِمْنَا الْمُسْتَقْدِمِينَ مِنكُمْ وَلَقَدْ عَلِمْنَا الْمُسْتَأْخِرِينَ﴾

**“Şəksiz, Biz sizdən olan əvvəlkiləri bilirik və gələcəkdəkilərdən də agahıq.”**

● Ayə 25:

﴿وَإِنَّ رَبَّكَ هُوَ يَحْشُرُهُمْ إِنَّهُ حَكِيمٌ عَلِيمٌ﴾

**“Həqiqətən, onların hamısını məhşur edəcək kəs, sənin Rəbbindir. Çünki O, hikmət sahibidir və biləndir.”**

◊ **Nöqtələr**

● Təfsirçilər “mustəqdimin” və “mustəxirin” təbirləri ilə bağlı nümunələr zikr etmişlər. O cümlədən: dünyadan gedənlər və həyatda qalanlar, cəbhə aşiqləri və müxaliflər, camaat namazında birinci cərgədə dayananlar və sonuncu cərgədə dayananlar.

Bəziləri camaat namazında birinci cərgədə dayanmağa yubanmamaq üçün evlərini satışa qoyur, məscidin yaxınlığında ev almaq istəyirdilər. Ayədə buyurulur ki, Biz belə fərdləri tanıyırıq.

◊ **Bildirişlər**

1. Ölüm və həyat yalnız Onun əlindədir. Hamı köçüb gedəsidir. Yaxşı olar, öz əməlimizlə həqiqi varis üçün yaxşı bir irs qoyaq.

2. Zamanın ilahi elmə təsiri yoxdur. Onun elmi keçmişi, indini və gələcəyi əhatə edir.

3. Qiyamətin bərpası, mükafat və cəza verilməsi Allahın rübubiyyət şənindəndir.

4. Qiyamət üçün dəlil Allahın hikmətidir. (Əgər zərrələr torpağa, torpaq qidaya, qida nütfəyə, nütfə insana çevrilirsə və ölümü dadmaqla insan yenidən torpaq olursa, bu hərəkət hikmətsiz ola bilməz.)

5. Qiyamətdə keçmişdəkilər və indikilər birlikdə məhşurlar olar. Allah hamının əməlindən, hər bir fərdin niyyətindən tam xəbərdardır.

● Ayə 26:

﴿وَلَقَدْ خَلَقْنَا الإِنسَانَ مِن صَلْصَالٍ مِّنْ حَمَإٍ مَّسْنُونٍ﴾

**“Həqiqətən, Biz insanı quru, dəyişmiş və qoxumuş qara gildən (torpaqdan) yaratdıq.”**

● Ayə 27:

﴿وَالْجَآنَّ خَلَقْنَاهُ مِن قَبْلُ مِن نَّارِ السَّمُومِ﴾

**“İnsandan öncə yandırıcı və öldürücü oddan cini yaratdıq.”**

◊ **Nöqtələr**

● Quru, bişməmiş gil “səlsal” adlanır. Belə bir gili üfürdükdə ondan fit səsi gəlir.[1] «Həmə» dedikdə qara gil, “məsnun” dedikdə dəyişmiş mənaları anlaşılır. İnsan orqanizminə zəhər kimi təsir göstərən isti külək “səmum” adlanır.

● Bu ayə ya ilk insanın, yəni həzrət Adəmin yaranışına işarədir[2], ya da insanın torpaqdan keçən təkamül yolunu göstərir. “Kəhf” surəsinin 37-ci ayəsində oxuyuruq ki, insan torpaq, nütfə, insan mərhələlərini keçmişdir.[3]

● Quran leksikonunda cin Allah tərəfindən xitab olunan vəzifəli bir mövcuddur. Bu mövcud Quranı anlayır. “Cin” surəsinin ilk ayəsində oxuyuruq: “Cinlərdən bir qrupu Quranı dinlədilər.” Cinlərin də insan kimi şəhvəti var. Quranda bakirə behişt qadınları haqqında danışılarkən buyurulur ki, onlara nə

---

1 Təfsiri-Əl-Mizan”
2 Bax: “Sad”, 76
3 Bax: “Kəhf”, 37

insan, nə də cin toxunub.[1] Bu ayəyə əsasən, cin insandan əvvəl xəlq olunub. Çünki İblis cin tayfasındandır. O da sair kafirlər kimi cəhənnəmə gedər.[2]

● Ayə 28:

﴿وَإِذْ قَالَ رَبُّكَ لِلْمَلاَئِكَةِ إِنِّي خَالِقٌ بَشَرًا مِّن صَلْصَالٍ مِّنْ حَمَإٍ مَّسْنُونٍ﴾

**"(Yada sal) o vaxt ki, Rəbbin mələklərə dedi: "Həqiqətən, Mən qara, quru və pis qoxulu gildən bəşər xəlq edərəm."**

◊ **Nöqtələr**

● "Bəşər" sözünün lüğətdəki mənası dərinin zahiridir. Canlılar arasında yalnız insanın dərisi görünür. Digər canlıların dərisi tüklə örtülüdür.

◊ **Bildirişlər**

1. Mələklər insandan öncə yaradılıb. (Çünki Allah insanı yaratmamışdan öncə bu barədə mələklərlə danışırdı.)

2. İnsan torpaqdan, maddiyyatdan xəlq olunub. Bu səbəbdən də maddiyyata meyillidir.

● Ayə 29:

﴿فَإِذَا سَوَّيْتُهُ وَنَفَخْتُ فِيهِ مِن رُّوحِي فَقَعُواْ لَهُ سَاجِدِينَ﴾

**"Bunu biçimli və möhkəm düzəldib Öz ruhumdan üfürəndə ona səcdə edin."**

● Ayə 30:

﴿فَسَجَدَ الْمَلآئِكَةُ كُلُّهُمْ أَجْمَعُونَ﴾

**"Mələklər hamılıqla səcdə etdilər."**

● Ayə 31:

﴿إِلاَّ إِبْلِيسَ أَبَى أَن يَكُونَ مَعَ السَّاجِدِينَ﴾

**"Yalnız İblis səcdə edənlərlə olmaqdan çəkindi."**

◊ **Nöqtələr**

● Allahın ruhunun insana üfürülməsi onun cana gəlib nəfəs alması deyil. Çünki heyvanlar da nəfəs alır. Əslində məqsəd insana yaradıcılıq, iradə, elm kimi sifətlərin əta olunmasıdır. Ruh şərafətlilik baxımından Allaha aid edilir. Məsələn, "Beytullah" dedikdə "Allahın evi" nəzərdə tutulur. Əslində isə Allah evə ehtiyacsızdır və belə bir ad evi şərafətləndirmək xatirinə verilir.

---

1 Bax: "Ər-Rəhman", 73
2 Bax: "Hud",119

● Mələklərin Adəmə səcdəsi rəsmiyyət xatirinə yox, insan nəsli qarşısında təvazö xatirinə idi. Yəni mələklər də bəşəriyyətin xidmətindədir.[1]

◊ **Bildirişlər**

1. İnsan kamil və biçimli yaradılmışdır.

2. İnsana Allahın ruhu üfürüldüyündən mələklər ona səcdəyə çağırıldılar.

İnsanlığa şərəf ruhudur Onun,
Düşünmə payı var bəzəkli donun.

3. İnsan ikiyönümlü mövcuddur: maddi yönüm və mənəvi yönüm. Onun üçün hər iki yönümdən kamillik var.

4. İnsan Allahın bəzi sifətlərinin təcəlla məhəllidir.

5. Mənəviyyatın maddi bədənə, miniyə ehtiyacı var.

6. Səcdə edənlərlə bir cərgədə dayanmaq istəməyənlərdə İblis ruhu var.

7. Səcdə və rüku dəyər olsa da, başqa namaz qılanlarla birlikdə yerinə yetirilən rüku və səcdə daha kamil dəyərə malikdir.

● Ayə 32:

﴿قَالَ يَا إِبْلِيسُ مَا لَكَ أَلاَّ تَكُونَ مَعَ السَّاجِدِينَ﴾

**“(Allah) buyurdu: “Ey İblis! Sənə nə olub ki, səcdə edənlərlə birlikdə deyilsən?”**

● Ayə 33:

﴿قَالَ لَمْ أَكُن لِّأَسْجُدَ لِبَشَرٍ خَلَقْتَهُ مِن صَلْصَالٍ مِّنْ حَمَإٍ مَّسْنُونٍ﴾

**“(İblis) dedi: “Mən quru, qara və pis qoxulu gildən yaratdığın bəşərə səcdə edəsi deyiləm.”**

● Ayə 34, 35:

﴿قَالَ فَاخْرُجْ مِنْهَا فَإِنَّكَ رَجِيمٌ وَإِنَّ عَلَيْكَ اللَّعْنَةَ إِلَى يَوْمِ الدِّينِ﴾

**“(Allah) buyurdu: “Elə isə, mələklər cərgəsindən xaric ol. Həqiqətən, sən qovulmuş və rədd olunmuşsan. Şübhəsiz, qiyamət gününədək sənə lənət olacaq.”**

◊ **Bildirişlər**

1. Mühakimə apararkən təkcə öz elminizə istinad etməyin. Günahkarı danışdırın, sual-cavabla onun günahının kökünü, günahkarın ruhiyyəsini aydınlaşdırın. Günahkar öz günahını etiraf etməlidir.

1 “Təfsiri-Əl-Mizan”

2. Əgər bir insanda təkəbbür ruhiyyəsi yaransa, mühit və digər amillər onun hidayətinə kömək etməz. (İblis mələklər arasında idi və ilahi bir fəzada qərar tutmuşdu. Amma inadkarlıq və təkəbbür səbəbindən rədd olundu.)

3. İrqi ayrıseçkilik İblisə aid düşüncədir.

4. Səcdə etməməkdən də pisi ilahi əmr qarşısında qürur və təkəbbürdür.

5. Günahdan da pisi günaha don geyindirməkdir. (Şeytan öz günahına don geyindirir.)

6. Qürur və təkəbbür qədəm qoyan yerdə ilahi nur və ruhdan əsər qalmaz. Şeytan insanın torpaq heykəlini görmüşdü. Halbuki Allah ilahi ruhu səbəbindən insana səcdə əmri vermişdi.

7. Allahın göstərişləri məcburiyyətə səbəb ola bilməz.

8. Təkəbbür nəinki insanı ucaltmır, əksinə, təkəbbürlü insan alçalır. Təkəbbür səbəbindən insanın öncəki ibadətləri puça çıxır.

9. Allahın aydın əmr və göstərişləri qarşısında araşdırma aparmaq və mövqe bildirmək caiz deyil. “Onun önündə səcdəyə düşün” əmri qarşısında “Onu quru, qara və qoxumuş gildən yaratmısan” etirazı yersizdir.

10. Bir anlıq itaətsizlik və təkəbbür əbədi ixraca səbəb oldu.

11. Təkəbbürlü insan daim Allahın lənətinə düçardır.

● Ayə 36, 37:

﴿قَالَ رَبِّ فَأَنظِرْنِي إِلَى يَوْمِ يُبْعَثُونَ قَالَ فَإِنَّكَ مِنَ الْمُنظَرِينَ﴾

**“(İblis) dedi: “Pərvərdigara! Mənə xalq (qiyamətdə) ayağa qaldırılana qədər möhlət ver. (Allah) buyurdu: “Həqiqətən, sən möhlət alanlardansan.”**

● Ayə 38:

﴿إِلَى يَوْمِ الْوَقْتِ الْمَعْلُومِ﴾

**“(Amma qiyamət gününədək yox,) məlum bir günədək.”**

◊ **Nöqtələr**

● Şeytan qiyamət gününədək lənətləndiyini anladıqda həmin günədək möhlət istədi. Amma nə üçün möhlət istədiyini bildirmədi. Möhlət vermək Allahın sünnəsi, qanunu olduğundan şeytan da möhlət aldı. Amma istədiyi kimi qiyamət gününədək yox, Allaha məlum olan bir günədək! Bəzi təfsirçilərin nəzərincə, şeytan bəşər və vəzifə olan günədək möhlət aldı.

◊ **Bildirişlər**

1. Günahkarlara möhlət vermək Allahın qanunudur.

2. Məsləhət olduqda günahkarların da istəyi qəbul olur. Şeytanın möhlət istəyinə müsbət cavab verildi.

● Ayə 39:

﴿قَالَ رَبِّ بِمَآ أَغْوَيْتَنِي لأُزَيِّنَنَّ لَهُمْ فِي الأَرْضِ وَلأُغْوِيَنَّهُمْ أَجْمَعِينَ﴾

**“(İblis) dedi: “Pərvərdigara! Məni azdırdığın üçün mən də yer üzündə onlara (pislikləri) cilvələndirərəm və hamını aldadaram.”**

● Ayə 40:

﴿إِلاَّ عِبَادَكَ مِنْهُمُ الْمُخْلَصِينَ﴾

**“Yalnız ixlaslı (xalis) bəndələrindən başqa!”**

◊ **Nöqtələr**

● Allah kimsəni azdırmır. Yalnız öz istəyi ilə azğınlıq yolunu seçənlər özbaşına buraxılır. Allahın insanı özbaşına buraxması ən böyük cəzadır. İblis öz istək və iradəsi ilə təkəbbür və inadkarlıq göstərdiyindən Allah onu özbaşına buraxdı. “Əğvəytəni” sözü həmin mənanı bildirir. Yəni inadkarlığıma görə məni lütfündən məhrum etdiyin üçün əlimdən gələni edəcəyəm.

● İblis bilirdi ki, insanlardan bir dəstəsi Allahın seçilmişləri olacaq. Yəni İblis nübüvvət və imaməti də qəbul etmişdi. “Rəbbi bima əğvəytəni” (Pərvərdigara, məni azdırdığın üçün) təbirindən aydın olur ki, şeytan Allahı qəbul edirdi. Onun qiyamət gününədək möhlət istəməsi məada da inandığını bildirir. Onun eybi təkəbbürlü olması, təslimçilik ruhiyyəsindən məhrumluğu idi. Deməк, elm və iman təklikdə bəs etmir. Allahın lütfünə layiq olmaq üçün əməl, təslimçilik və bəndəlik lazımdır.

◊ **Bildirişlər**

1. İblis və iblissifətlər öz eyblərini Allahın ayağına yazırlar
2. Şeytanın azdırma üsulu çirkinliyi gözəl göstərməkdir.
3. Pak və ixlaslı insanlar şeytanın tələsindən amandadırlar. (Əlbəttə ki, insanın ixlasla yanaşı Allahın lütfünə də ehtiyacı var. Çünki “müxləs” dedikdə Allahın seçilmişi nəzərdə tutulur.)

● Ayə 41:

﴿قَالَ هَذَا صِرَاطٌ عَلَيَّ مُسْتَقِيمٌ﴾

**«(Allah) buyurdu: “Bu, (ixlaslıların qurtuluşu) Öz öhdəmdə olan doğru bir yoldur.”»**

● Ayə 42:

﴿إِنَّ عِبَادِي لَيْسَ لَكَ عَلَيْهِمْ سُلْطَانٌ إِلاَّ مَنِ اتَّبَعَكَ مِنَ الْغَاوِينَ﴾

**“Həqiqətən, sənə tabe olan azğınlar istisna olmaqla, Mənim bəndələrim üzərində hökmün yoxdur.”**

◊ **Nöqtələr**

● Ötən ayədə İblis dedi ki, mən ixlaslı insanlardan savay hamını azdıraram. Allah bu ayədə buyurur ki, xalis bəndələrimə hakim olmamağın Mənim doğru yolum, sünnəmdir. Yəni Allah onları qorumağa Özü zamin dayanmışdır və bu, Onun qanunudur. Şeytan ixlaslılardan kənarda dayanmayıb, sadəcə, onlara bata bilmir.

● **Sual:** Əgər İblis seçilmiş insanlara yol tapa bilmirsə, nə üçün Adəm onun vəsvəsəsi ilə qadağan olunmuş meyvədən yedi?

**Cavab:** İblisin seçilmiş insanlarda tamahı var və onlara vəsvəsə edir. Amma seçilmiş insanlara yaxşı işi unutdura bilsə də, onları azğınlığa sürükləməkdə acizdir. (Adəmin qadağan olunmuş meyvədən yeməsi "tərki-ovla", yəni yaxşı bir işdən çəkinmək idi.)

◊ **Bildirişlər**

1. Allahın təslim olmuş bəndələri üzərində Şeytanın hökmü yoxdur.

2. İnsan öz istəyi ilə İblisin ardınca gedir.

3. Əgər ibadət və təqva vasitəsi ilə Allahın bəndələri zümrəsinə qatılsaq sığortalanmış olarıq.

4. Şeytanın işi hakimlik yox, vəsvəsədir. (Qiyamətdə İblis xalqın etirazına cavab olaraq deyər ki, mənim sizim üzərinizdə hakimiyyətim olmayıb, yalnız sizi dəvət etmişəm.)

● Ayə 43:

﴿وَإِنَّ جَهَنَّمَ لَمَوْعِدُهُمْ أَجْمَعِينَ﴾

**"Əlbəttə, cəhənnəm onların hamısına vəd olunmuş yerdir."**

● Ayə 44:

﴿لَهَا سَبْعَةُ أَبْوَابٍ لِّكُلِّ بَابٍ مِّنْهُمْ جُزْءٌ مَّقْسُومٌ﴾

**"Onun (cəhənnəmin) yeddi qapısı var. Hər qapı üçün azğınlardan bir hissəsi ayrılmışdır."**

◊ **Nöqtələr**

● Cəhənnəmin yeddi qapısı bu qapıların çoxluğuna işarə oluna bilər. İnsanın cəhənnəmə düşməsinin bir çox səbəbləri var. "Loğman" surəsinin 27-ci ayəsində buyurulur: "Əgər ağaclar qələm, yeddi dərya mürəkkəb olsa, Allahın sözlərini yaza bilməzlər." Bu ayə Allahın məxluqlarının çoxluğuna işarədir.

◊ **Bildirişlər**

1. Həm behişt, həm də cəhənnəmin öz yolları var.

("Nəhcül-bəlağə"də oxuyuruq ki, mücahidlər üçün behiştin xüsusi qapısı var.)

2. Cəhənnəmin də behişt kimi təbəqələri və mərtəbələri var. Hər bir insan öz günahına uyğun cəzalandırılar.

● Ayə 45, 46:

﴿إِنَّ الْمُتَّقِينَ فِي جَنَّاتٍ وَعُيُونٍ ادْخُلُوهَا بِسَلاَمٍ آمِنِينَ﴾

**"Həqiqətən, müttəqilər (təqvalılar) bağlarda və çeşmə başındadırlar. (Onlara xitab olunar:) Salamatlıq və əmin-amanlıqla bağlara daxil olun."**

● Ayə 47:

﴿وَنَزَعْنَا مَا فِي صُدُورِهِم مِّنْ غِلٍّ إِخْوَانًا عَلَى سُرُرٍ مُّتَقَابِلِينَ﴾

**“Biz onların qəlblərindəki hər növ kini çıxarıb atdıq. (Nəticədə) taxtlarda qardaşcasına üzbəüz əyləşərlər.”**

● Ayə 48:

﴿لاَ يَمَسُّهُمْ فِيهَا نَصَبٌ وَمَا هُم مِّنْهَا بِمُخْرَجِينَ﴾

**“Orada onlara heç bir əziyyət verilməz, oradan çıxarılası deyillər.”**

◊ **Nöqtələr**

● “Ğill” dedikdə məxfi surətdə olan nüfuz nəzərdə tutulur. Deməkk, pis sifət insanda məxfi şəkildə kök atır. “Sərir” sözü taxt mənasını bildirir. Bu söz “sürur”, “şadlıq” sözündəndir. Məlum olur ki, taxta söykənmək şadlıq səbəbindəndir.

● Bu ayələrdə behişt əhli üçün 8 mükafat qeyd olunur: Bağlar, çeşmələr, salamatlıq, əmin-amanlıq, kin-küdurətin aradan götürülməsi, qardaşlıq, üzbəüz taxtlar, istənilən bir əziyyət və cadudan uzaqlıq.

● Əvvəlki ayədə oxuduq ki, Allahın seçilmişlərindən savay bütün xalq şeytan vəsvəsələrinin hücumuna məruz qalır. Bu ayədə buyurulur ki, əgər insan təqva mərhələsinə qədəm qoyub müxlis, (ixlaslı, xalis) mərhələsinə çatmasa, yenə bir sıra ilahi nemətlərə yetişər.

● Mühüm məsələ bütün nemətlərin bir yerdə toplanmasıdır. Dünyada bağ olan yerdə çeşmə, çeşmə olan yerdə bağ olmur. Bəzən həm çeşmə, həm də bağ olan yerdə salamatlıq və ya əmin-amanlıq olmur. Bəzən də səmimiyyətdən savay bütün nemətlər bir yerə toplanır. Belə də olur ki, bütün nemətlərlə yanaşı bir sıra çətinliklərlə rastlaşırıq. Qiyamətdə isə belə deyil. Qiyamətdə maddi, mənəvi, ictimai, psixoloji baxımdan bütün nemətlər əbədi olaraq bir yerə toplanmışdır.

◊ **Bildirişlər**

1. Müjdə ilə yanaşı xəbərdarlıq edilməsi tərbiyədə zəruri prinsiplərdəndir.

2. Bir neçə günlük dünyada günahdan uzaqlıq əbədi xoşbəxtliklə nəticələnir.

3. Behişt nemətləri çeşidli və çoxsaylıdır.

4. Behişt nemətlərində nöqsan yoxdur. Çeşməli bağ, əmin-amanlıqla birlikdə salamatlıq, səmimi qardaşlıq, davamlı rahatlıq behişt səciyyələrindəndir.

5. Behişt nemətləri əhatəlidir. Bu nemətlər həm bağ və çeşmə kimi maddi, həm də əmin-amanlıq və səmimiyyət kimi mənəvidir. Ən əsası isə bu nemətlərdə Allahın razılığı, təbriki və salamı var.

6. Kin-küdurət qardaşlıqla bir araya sığmır. Öncə kin aradan götürülməli, sonra qardaşlıq gerçəkləşməlidir

7. Küskünlük və narazılıq, dözümsüzlük bir tərəfin haqq, o biri tərəfin batil olmasını göstərmir. (Bəzən hər ikisi behişt əhli olan və eyni bir müqəddəs hədəfə doğru hərəkət edən iki şəxs məsələyə müxtəlif prizmalardan yanaşır.

Onlardan biri o birinin işini batil sayır, qarşı tərəfə dözümsüzlük göstərir. Qiyamətdə Allahın iradəsi ilə bu sayaq kin-küdurətlər aradan qaldırılar.)

8. Kin-küdurəti aradan qaldırmaq üçün Allahdan yardım almaq lazımdır.

9. Pis sifət buxov və zəncir kimi insanı əsir edir.

10. Behişt əhli üçün müxtəlif dərəcələrdən olmaq problem yaratmır.

● Ayə 49:

﴿نَبِّئْ عِبَادِي أَنِّي أَنَا الْغَفُورُ الرَّحِيمُ﴾

**“(Ey peyğəmbər,) bəndələrimə bildir ki, həqiqətən, Mən Özüm çox bağışlayan və mehribanam.”**

● Ayə 50:

﴿وَ أَنَّ عَذَابِي هُوَ الْعَذَابُ الأَلِيمَ﴾

**“Əlbəttə ki, Mənim əzabım da dərdli bir əzabdır.”**

◊ **Nöqtələr**

● Quran bu ayələrdə xalqı 4 qismə bölür: İblisin hakim ola bilmədiyi ixlaslılar (peyğəmbər və övliyalar); Behişt əhli olan müttəqilər (təqvalılar); peyğəmbərlər tərəfindən əfv olunduğu bildirilən tövbə etmiş günahkarlar; dərdli əzabla qorxudulmuş qatı günahkarlar.

◊ **Bildirişlər**

1. İlahi rəhmət ən böyük və ən üstün bildirişdir. (“Nəbə” dedikdə mühüm xəbər nəzərdə tutulur.)

2. Günahkarlar da Allahın bəndələridirlər.

3. Allahın lütfünə münasibətdə şəkk-şübhəyə yol verməyin.

4. Allahın bağışlaması lütfü və mehribanlıqla müşayiət olunur. O təkcə bağışlamır, həm də lütf edir.

5. Allahın bəxşiş və lütf dərin və ardıcıldır. (“Ğəfur” və “Rəhim” adları dərinlik və təkrar nişanəsidir.)

6. Allahın lütf və rəhməti Onun qəzəbindən öndə gəlir.

7. Allahın rəhmətinə görə qürrələnməyək. Çünki Onun əzabı da dərdlidir.

● Ayə 51, 52, 53:

﴿وَنَبِّئْهُمْ عَن ضَيْفِ إِ بْرَاهِيمَ إِذْ دَخَلُواْ عَلَيْهِ فَقَالُواْ سَلامًا قَالَ إِنَّا مِنكُمْ وَجِلُونَ

قَالُواْ لاَ تَوْجَلْ إِنَّا نُبَشِّرُكَ بِغُلامٍ عَلِيمٍ﴾

**“Onlara İbrahimin qonaqları haqqında xəbər ver. Onun yanına gəlib salam verdikləri vaxt İbrahim dedi: “Həqiqətən, biz sizdən qorxuruq.” Dedilər: “Qorxma, biz səni bilikli olan oğul övladla müjdələyirik.”**

● Ayə 54:

﴿قَالَ أَبَشَّرْتُمُونِي عَلَى أَن مَّسَّنِيَ الْكِبَرُ فَبِمَ تُبَشِّرُونَ﴾

**«İbrahim dedi: “Qocalıq gəlib çatdığı vaxt mənə belə bir müjdəmi verirsiniz?” Gör nə ilə müjdə verirsiniz?!»**

● Ayə 55:

﴿قَالُواْ بَشَّرْنَاكَ بِالْحَقِّ فَلاَ تَكُن مِّنَ الْقَانِطِينَ﴾

**«(Qonaqlar) dedilər: “Biz səni haqq olaraq müjdələyirik. Ümidini itirənlərdən olma.”»**

● Ayə 56:

﴿قَالَ وَمَن يَقْنَطُ مِن رَّحْمَةِ رَبِّهِ إِلاَّ الضَّآلُّونَ﴾

**«(İbrahim) dedi: “Azğınlardan savay Rəbbinin rəhmətindən kim məyus olar?!”»**

◊ **Nöqtələr**

● Allahın rəhmət və qəzəb nümunələrindən biri həzrət İbrahimin qonaqlarının əhvalatıdır. Mələklər bir yandan onu oğlu olacağı ilə müjdələyir, digər tərəfdən Lut qövmünün həlak olacağını xəbər verirlər.

● “Zəyfi” dedikdə həm bir, həm də bir neçə qonaq nəzərdə tutula bilər.

● Allah-təala bir dəfə həzrət İbrahimə kənizindən (Hacərdən) bir oğlan övlad verdi. Onun adı İsmail qoyuldu. Hazır müjdə isə İbrahimin Sara adlı arvadı ilə bağlıdır. Allah Saradan İbrahimə İshaqı verdi. Ayələrdə İsmailin həlimliyi, İshaqın elmi önə çəkilir.[1]

◊ **Bildirişlər**

1.Tarixin acı və şirin hadisələrindən ibrət götürək. (Tarixlərin ən üstünü peyğəmbərlərin həyatı, tarixi ən gözəl nəql edənlər isə peyğəmbərlər özləridirlər.)

2. Mələklər bəzən Allahın iradəsi ilə insan şəklinə düşür və təmasda ola bilirlər.

3. Salam vermək tarix boyu ilahi bir ədəb olmuşdur.

4. Peyğəmbərlərin elm və biliyi məhduddur və Allahın izni ilə şərtlənir. (Həzrət İbrahim qonaqlarını görəndə əvvəlcə tanımayıb qorxdu.)

---

1 Bax: “Saffat”, 101

5. Acı xəbərləri şirin xəbərlərlə yanaşı bəyan edək. (İmam Baqirin (ə) buyruğuna əsasən, Lut qövmünün həlak olma xəbərinin acılığı övlad xəbərinin şirinliyi ilə aradan götürüldü.)[1]

6. Allahın qüdrətinə təəccübün tövhid inancı ilə ziddiyyəti yoxdur. (Hazırkı ayələrdə həzrət İbrahimin, "Hud" surəsində onun zövcəsi Saranın təəccübü qeyd olunur.)[2]

7. Təhlükə və hadisə baş verməmiş xəbərdarlıq lazımdır.

8. Peyğəmbərlər ilahi ədəblə tərbiyələndirilirlər.

9. Peyğəmbərlərin isməti ilə ilahi xəbərdarlıq arasında ziddiyyət yoxdur.

10. Allahın qadağası bəzən xilaf əməlin baş verməsini göstərmir. Qadağada məqsəd israf işin qarşısının alınması da ola bilər.

11. Ümidsizlik dərdini Allahın rəhmət və rübubiyyətini yada salmaqla müalicə edək.

12. Allahın elminə, qüdrətinə və rəhmətinə əmin olanlar heç vaxt ümidlərini üzmürlər. (Namazda həzər qıldığımız yolunu azmışların bir dəstəsi də ümidsizlərdir.)

● Ayə 57:

﴿قَالَ فَمَا خَطْبُكُمْ أَيُّهَا الْمُرْسَلُونَ﴾

**"Sonra İbrahim dedi: "Ey (ilahi) elçiləri, sizin işiniz nədir?"**

● Ayə 58:

﴿قَالُواْ إِنَّا أُرْسِلْنَا إِلَى قَوْمٍ مُّجْرِمِينَ﴾

**"Dedilər: "Biz günahkar bir qövmə doğru göndərilmişik (onları həlak etməliyik)."**

◊ **Bildirişlər**

1. Mələklər öz vəzifələrini yerinə yetirməmişdən öncə ilahi rəhbəri xəbərdar edirdilər.

2. Mələklər Allahın məmurlarıdırlar. Onlar möminlərə dua edir[3], günahkrlara Allahın qəhr-qəzəbini gətirirlər.

3. Mərtəbələr silsiləsinə riayət olunmalıdır. Məsələ Lut qövmünə aid olsa da, mələklər öncə həzrət İbrahimə, sonra həzrət Luta məlumat verdilər, çünki həzrət Lut həzrət İbrahimin hakimiyyəti altında idi.

4. Günahkarlara təkcə axirətdə cəza verilmir.

5. Günah hamını əhatə etdikdə və tövbə qılınmadıqda Allahın qəhr-qəzəbi labüddür.

---

1 "Təfsiri-Safi"

2 Bax: "Hud", 72

3 Bax: "Ğafir",7

6. Həyatın acı və şirin hadisələri bir-birinə qatışmışdır. (Öncə övlad müjdəsi verildi, sonra Lut qövmünün həlak olacağı bildirildi.)

● Ayə 59:

﴿إِلاَّ آلَ لُوطٍ إِنَّا لَمُنَجُّوهُمْ أَجْمَعِينَ﴾

**“Yalnız Lut ailəsi istisnadır. Biz hökmən onların hamısını fəlakətdən xilas edərik.”**

● Ayə 60:

﴿إِلاَّ امْرَأَتَهُ قَدَّرْنَا إِنَّهَا لَمِنَ الْغَابِرِينَ﴾

**“Yalnız (Lutun) zövcəsi istisnadır. Biz təqdir etmişik ki, o, (əzabda) qalanlardan olsun.”**

● Ayə 61, 62:

﴿فَلَمَّا جَاء آلَ لُوطٍ الْمُرْسَلُونَ قَالَ إِنَّكُمْ قَوْمٌ مُّنكَرُونَ﴾

**“Elə ki, (ilahi) mələklər Lut ailəsinin sorağına gəldilər, (Lut) dedi: “Siz tanış olmayan bir qövmsünüz.”**

◊ **Nöqtələr**

● “Ğabir” sözünün cəm forması olan “ğabirin” sözü (geridə) qalmış mənasını bildirir. Torpaqdan qalmış hissə (toz) “qubar” adlanır.

● Həzrət İbrahim və həzrət Lut mələklərlə ilk görüşdə onları tanımadılar. Bu mələklər xoş çöhrəli gənclər qiyafəsində həzrət Luta qonaq olmuşdular. Həzrət Lut cəmiyyətdəki fəsad səbəbindən bu sayaq qonaqlara görə nigaran oldu.

◊ **Bildirişlər**

1. Peyğəmbərlərin həqiqi ardıcılları dünya cəzalarından da sığortalanmışlar.

2. Həzrət Lutun zövcəsinin onunla müxalifəti insanın iradə azadlığına yetərli dəlil ola bilər. Bəli, insan mühitin hökmü altında deyil.

3. İqtisadi asılılıq ideoloji mədəniyyət asılığı üçün əsas deyil. (Lutun arvadı Lutun çörəyini yeyir və onun düşüncəsinin əksinə çıxırdı.)

4. Peyğəmbər məktəbində əsas məsələ bağlılıq yox, ləyaqətdir. Göründüyü kimi, Lutun arvadı da Allahın qəzəbinə gəldi. (Ailə bağlılıqları ilahi hədəflərin icrasına mane olmamalıdır.)

5. Ailə işlərində müvəffəqiyyət ictimai işlərdə müvəffəqiyyət şərti deyil. (Lutun arvadı evdə ona müxalif idisə, bayırda Lutu qəbul edənlər vardı.)

6. Peyğəmbərlərin də ailə həyatında nakamlıqlar olub.

7. İlahi insanların hesabı onların ailəsindəki ləyaqətsiz fərdlərin hesabından ayrıdır.

8. Allahın qəhr-qəzəbi və əzabının hesabı və proqramı var.

9. Günahkarların cəzalandırılması ilə bağlı ilahi qanun yaxınla uzağa, qadınla kişiyə, tanınmışla tanınmamışa fərq qoymur.

10. Qeyb elmi peyğəmbərin öz əlində deyil. (Həzrət Lut mələkləri tanımadı.)

● Ayə 63, 64:

﴿قَالُواْ بَلْ جِئْنَاكَ بِمَا كَانُواْ فِيهِ يَمْتَرُونَ وَأَتَيْنَاكَ بَالْحَقِّ وَإِنَّا لَصَادِقُونَ﴾

**«(Mələklər) dedilər: "Əslində biz sənə onların şübhə etdiklərini gətirmişik. Biz haqq olaraq sənin yanına gəlmişik və şübhəsiz, doğru danışanlardanıq."»**

● Ayə 65:

﴿فَأَسْرِ بِأَهْلِكَ بِقِطْعٍ مِّنَ اللَّيْلِ وَاتَّبِعْ أَدْبَارَهُمْ وَلاَ يَلْتَفِتْ مِنكُمْ أَحَدٌ وَامْضُواْ حَيْثُ تُؤْمَرُونَ﴾

**"Gecənin bir vaxtı ailəni hərəkət etdir və özün onların arxasınca get. Heç biriniz (arxaya) baxmayın, əmr olunan yerə gedin."**

● Ayə 66:

﴿وَقَضَيْنَا إِلَيْهِ ذَلِكَ الأَمْرَ أَنَّ دَابِرَ هَؤُلاء مَقْطُوعٌ مُّصْبِحِينَ﴾

**"Bu qəti əmri Luta çatdırdıq: Sübh çağı bu qrupun kökü kəsilər."**

◊ **Nöqtələr**

● Quranda dəfələrlə bəyan olunur ki, kafirlər ilahi əzabın tezləşməsi istəyi ilə peyğəmbərə müraciət edirdilər.[1] Onlar bütün xəbərdarlıqları zarafat sayır, Allahın istər dünya, istər axirətdə əzab verəcəyinə şübhə ilə yanaşırdılar. Allah bu ayələrdə bəyan edir ki, kafirlərin şübhə etdikləri qəhr-qəzəb hökmən gələcək.

● "Qətə" sözünün cəm forması olan "qitin" sözü "gecənin ötüb keçmiş əsas hissəsi" mənasını bildirir.

◊ **Bildirişlər**

1. Allahın xəbərdarlıq və hədələrini zarafat saymayın.

2. İlahi cəzalar haqq-ədalətə və günahkarların əməlinə əsaslanır.

3. Kafirlərin qəflətindən möminlərin qurtuluşu üçün istifadə edin.

4. Döyüş və hicrət zamanı rəhbər xalqın ən zəif hissəsi ilə yanaşı hərəkət etməlidir ki, mömin dəstədən geri qalmasın, düşmən dəstəyə isə qoşulmasın.

5. Qəti, ciddi və irəliyə doğru hərəkət etmək lazımdır.

6. Peyğəmbərlər Allahın nəzəri və göstərişi altında hərəkət etmişlər.

---

1 Bax: "Əraf", 70

7. Mühüm hadisələr zamanı Allahın lütfü köməyə ləhzə-ləhzə gəlir.
8. Allah kafirləri həlak etməmiş peyğəmbərləri xəbərdar edir.
9. Allah bir anda bir tayfa və dəstəni məhv etməyə qadirdir.

● Ayə 67:

﴿وَجَاء أَهْلُ الْمَدِينَةِ يَسْتَبْشِرُونَ﴾

**“Şəhər əhli (Lutun qonaqlarına hücum üçün) şadlıq içində gəldi.”**

● Ayə 68, 69:

﴿قَالَ إِنَّ هَؤُلاء ضَيْفِي فَلاَ تَفْضَحُونِ وَاتَّقُوا اللّهَ وَلاَ تُخْزُونِ﴾

**“Lut dedi: “Həqiqətən, bunlar mənim qonaqlarımdır. Məni rüsvay etməyin. Allahdan qorxun və məni alçaltmayın.”**

● Ayə 70:

﴿قَالُوا أَوَلَمْ نَنْهَكَ عَنِ الْعَالَمِينَ﴾

**“(Günahkarlar) dedilər: “Məgər biz sənə xalqı (qorumağı, qonaq saxlamağı) qadağan etmədikmi?!”**

◊ **Nöqtələr**

● Rəvayətdə nəql olunur ki, Lutun gözəl qonaqları haqqında günahkarlara onun arvadı xəbər verdi. Onlar çirkin məqsədlə Lutun evinə hücum etdilər. Amma Allah onları hər hansı pis addımdan öncə məhv etdi.[1]

◊ **Bildirişlər**

1. Pisliyə qadağa qoyarkən («nəhy əz münkər» zamanı) qəlbə yatan və insani sözlərdən istifadə edin.
2. Abır-həyanın böyük dəyəri var.
3. Qonağa hörmətsizlik ev sahibinə hörmətsizlikdir.
4. Günahkar cəmiyyətdə günahkarlar özlərini haqlı sayır və iddiaçı oluralr edir.
5. Günahkar cəmiyyətdə ilahi insanlar öz mal-mülklərini sərf etmək haqqına malik deyillər.

● Ayə 71:

---

1 “Təfsiri-Marağı”

﴿قَالَ هَؤُلاء بَنَاتِي إِن كُنتُمْ فَاعِلِينَ﴾

**"(Lut) dedi: "Əgər sizin bir məqsədiniz varsa, onlar mənim qızlarımdır. (Onlarla evlənin və həmcinsbazlıqdan çəkinin.)"**

◊ **Nöqtələr**

● **Sual:** Məgər Lut öz qızlarını kafirlərə ərə verə bilərdimi?

**Cavab:** Ola bilsin ki, Lut qızlarını onlara ərə verməmişdən öncə onların iman gətirəcəyini nəzərdə tuturdu. Belə də ola bilər ki, həmin dövrdə kafirlərlə izdivac qadağan olmamışdır.

◊ **Bildirişlər**

1. Günahdan çəkindirmək üçün öncə qanuni və halal yolları göstərin.

2. Yaxşılığa əmr və pisliyə qadağada («əmr be məruf» və «nəhy əz münkərdə»), günahın qarşısını alanda özümüzdən maya qoyaq (qarşı tərəfin günahından çəkinməsi üçün şərait yaradaq).

3. Peyğəmbər məktəbi ləzzətləri haram edib, istəkləri öldürmək yox, daxili meyilləri düzgün istiqamətdə yönəltmək məqsədindədir.

● Ayə 72:

﴿لَعَمْرُكَ إِنَّهُمْ لَفِي سَكْرَتِهِمْ يَعْمَهُونَ﴾

**"(Ey peyğəmbər,) canına and olsun ki, onlar öz məstlikləri içində çaşıb qalmışdılar."**

● Ayə 73:

﴿فَأَخَذَتْهُمُ الصَّيْحَةُ مُشْرِقِينَ﴾

**"Beləcə, günəş doğan vaxt öldürücü səs onları bürüdü."**

● Ayə 74:

﴿فَجَعَلْنَا عَالِيَهَا سَافِلَهَا وَأَمْطَرْنَا عَلَيْهِمْ حِجَارَةً مِّن سِجِّيلٍ﴾

**"Həmin şəhəri alt-üst etdik, başlarına bərk gil daşlar yağdırdıq."**

◊ **Nöqtələr**

● "Umr" və "əmr" sözləri eyni mənanı bildirir. Amma and içərkən "əmr" sözündən istifadə olunur.[1]

1 "Təfsiri-Əl Mizan"

● Quranda yalnız İslam Peyğəmbərinin (s) canına and içilmişdir. (Amma Məraği belə deyir: “Canına and olsun” təbiri Lutun canına and içmiş mələklərə aiddir.)

● “Əməh” sözündən olan “yəməhun” sözü heyrət, çaşqınlıq mənasını bildirir. “Muşriqin” dedikdə sübh işığına daxil olmaq nəzərdə tutulur.

● Daş yağdırılmasında məqsəd şəhər alt-üst olarkən canını qurtaranların və ya bütün şəhərin məhv edilməsi ola bilər.

◊ **Bildirişlər**

1. Peyğəmbərin (s) canına and içmək olar.

2. Günah və azğınlıq insanın ağıl və huşunu əlindən alıb, onu anlaqsız vəziyyətə sala bilər.

3. Dünya məstliyini səmadan gələn səs aradan götürməlidir.

4. Güclü səs bir şəhəri alt-üst edə bilər.

5. Allah hər şeyə qadirdir. O, səmadan rəhmət yağışı yağdırdığı kimi, daş yağdırıb, əzab da nazil edə bilər.

6. Səs, şəhərin alt-üst olması və daş yağdırılması həmcinsbazlıq (livat) günahı üçün nəzərdə tutulmuş üç növ əzabdır.

● Ayə 75:

﴿إِنَّ فِي ذَٰلِكَ لَآيَاتٍ لِّلْمُتَوَسِّمِينَ﴾

**“Həqiqətən, bu əhvalatda işarəni anlayanlar və itigözlər üçün aydın nişanələr var.”**

● Ayə 76, 77:

﴿وَإِنَّهَا لَبِسَبِيلٍ مُّقِيمٍ إِنَّ فِي ذَٰلِكَ لَآيَةً لِّلْمُؤْمِنِينَ﴾

**“O məmləkət (viranlıqları) yol kənarında qərar tutub. Həqiqətən, bu macərada möminlər üçün aydın nişanələr var.”**

◊ **Nöqtələr**

● “Mutəvəssim” dedikdə ən kiçik əsərdən həqiqəti dərk edən, yəni fərasətli və agah insan nəzərdə tutulur. Rəvayətlərdə bildirilir ki, “mutəvəssimin” dedikdə Peyğəmbər (s) və onun Əhli-beyti nəzərdə tutulmuşdur.

● Bir şəxs imam Sadiqə (ə) dedi: “Bir məsələm var.” Həzrət buyurdu: “İstəyirsənmi nə soruşacağını deyim?” Həmin şəxs təəccüblə soruşdu: “Zehnimdə nə olduğunu haradan bilirsiniz?” Həzrət buyurdu: “Bittəvəssum”, sonra hazırkı ayəni tilavət etdi.[1]

● Ola bilsin ki, ayədə Allahın qəhr-qəzəbinin təkcə Lut qövmünə aid olmaması nəzərə çatdırılır. Bildirilir ki, Allahın qəhr-qəzəbi tarixin bütün cinayətkarları üçün sabit bir sünnə, qanundur.[2]

---

1 “Təfsiri-Nurus-Səqəleyn”

2 “Təfsiri-Ətyəbul-bəyan”

◊ **Bildirişlər**

1. Tarixi hadisələrdə düşüncəli möminlər üçün nişanələr, adi möminlər üçün nişanə var.

2. Keçmiş qövmlərin əsərləri və qalıqlarının hifzi gələcəkdəkilər üçün ibrətdir.

● Ayə 78:

﴿وَإِن كَانَ أَصْحَابُ الأَيْكَةِ لَظَالِمِينَ﴾

**"Həqiqətən, Əykə məmləkətinin əhli sitəmkar idi."**

● Ayə 79:

﴿فَانتَقَمْنَا مِنْهُمْ وَإِنَّهُمَا لَبِإِمَامٍ مُّبِينٍ﴾

**"Belə ki, onlardan intiqam aldıq. Həqiqətən, (viran olmuş) bu iki məntəqə gözləriniz qarşısında aşkardır."**

◊ **Nöqtələr**

● "Əykə" dedikdə meşə, sıx ağaclıq nəzərdə tutulur. Əykə əshabı isə həzrət Şüeybin qövmüdür. Bu iki qövm Hicaz və Şam arasında saf suyu və havası, sıx ağacları olan bir məntəqədə yaşayırdı.

● Bir rəvayətdə həzrət Peyğəmbərdən (s) nəql olunur ki, Mədyən əshabı və Əykə əshabı iki ümmət idi. Şüeyb hər iki əshabın peyğəmbəri idi. Bu ümmətlərin hər ikisi küfr etdi. Amma müxtəlif əzaba düçar oldular.[1]

● Bizim Allahdan tələbimiz yoxdur və Onun verdikləri haqq yox, bəxşişdir. İlahi cəza isə belə deyil. Allahın qəhr-qəzəbini gətirən öz günahlarımız olduğundan haqqımız olan cəzadan danışılarkən "intiqam" sözündən istifadə olunur.

◊ **Bildirişlər**

1. Sitəmkarlar bilsinlər ki, onların zülm-sitəmindən tarix boyu başqalarına danışılasıdır.

2. Yol çəkərkən çalışaq ki, tarixi hadisələrdən danışan yerlər müsafirlərin gözləri qarşısında olsun.

● Ayə 80:

﴿وَلَقَدْ كَذَّبَ أَصْحَابُ الحِجْرِ الْمُرْسَلِينَ﴾

**"Həqiqətən, Hicr əhli (Səmud qövmü) də peyğəmbərləri təkzib etdilər."**

---

1 "Təfsiri-Furqan", c. 4, s. 103

● Ayə 81, 82, 83:

﴿وَآتَيْنَاهُمْ آيَاتِنَا فَكَانُواْ عَنْهَا مُعْرِضِينَ وَكَانُواْ يَنْحِتُونَ مِنَ الْجِبَالِ بُيُوتًا آمِنِينَ فَأَخَذَتْهُمُ الصَّيْحَةُ مُصْبِحِينَ﴾

**“Biz Öz nişanələrimizi onlara göstərdik, amma onlar Bizim nişanələrimizdən üz çevirdilər. Onlar dağların qoynunda əmin-aman evlər yonub düzəltdilər. (Amma sonda) sübh çağı ölümcül səs onları yaxaladı.”**

● Ayə 84:

﴿فَمَا أَغْنَى عَنْهُم مَّا كَانُواْ يَكْسِبُونَ﴾

**“Əldə etdikləri karlarına gəlmədi.”**

◊ **Nöqtələr**

● “Hicr” Səmud qövmünün yaşadığı şəhərin adıdır. Ümumi şəkildə yaşayış yeri “hicr” adlanır. “Hicr” əslində ananın qucağı mənasını bildirir. “Hicri-İsmail”, “hucrə” sözləri “hicr” sözündəndir.[1] Surənin adı bu ayədən götürülmüşdür.

● “Mursəlin” sözündən belə anlaşılır: Hicr əshabının həzrət Salehdən başqa bir peyğəmbərləri olmuşdur. Bəziləri deyirlər ki, bir peyğəmbərin təkzibi bütün peyğəmbərlərin təkzibi olduğundan “mursəlin” sözü cəm formadadır.

● “Səyhə” dedikdə ildırım nəzərdə tutulur.[2]

◊ **Bildirişlər**

1. Bütün peyğəmbərlərin möcüzəsi olmuşdur.
2. İnadkar insanlar düşünmək üçün özlərinə macal vermirlər.
3. Haqqa arxa çevirmək və ilahi insanlara etinasızlıq göstərmək bəziləri üçün adətdir.
4. Daşdan tikilmiş evlərinizin möhkəmliyi ilə qürrələnməyin. Allahın iradəsi qarşısında uçulub dağılasıdır.

● Ayə 85:

﴿وَمَا خَلَقْنَا السَّمَاوَاتِ وَالأَرْضَ وَمَا بَيْنَهُمَا إِلاَّ بِالْحَقِّ وَإِنَّ السَّاعَةَ لآتِيَةٌ فَاصْفَحِ الصَّفْحَ الْجَمِيلَ﴾

**“Biz göyləri və yeri, onların arasında olanı yalnız haqq olaraq yaratdıq. Şübhəsiz, qiyamət saatı çatasıdır. Beləsə, (büdrəmələrə) yaxşıca göz yum.”**

---

1 “Təfsiri-Məcməul-bəyan”
2 “Təfsiri-Məcməul-bəyan”

● Ayə 86:

﴿إِنَّ رَبَّكَ هُوَ الْخَلاَّقُ الْعَلِيمُ﴾

**“Həqiqətən, sənin Rəbbin yaradan və biləndir.”**

◊ **Nöqtələr**

● “Səfhə” sözündən olan “səfh” sözü üz, çöhrə mənasını bildirir. “Fəsfəhis səfhə”, yəni bağışlayaraq üzünü yana çevir. İmam Riza (ə) «gözəl səfh» təbirini cəzalandırmadan bağışlamaq mənasında təfsir etmişdir.[1]

◊ **Bildirişlər**

1. Yaranış məqsədlidir və məqsəd haqdır.
2. Xilqət üçün hədəf var və bu yol məada aparır.
3. Əgər kafirləri tənbeh etmək üçün gücünüz yoxdursa, nigaran olmayın, qarşıda qiyamət var.
4. Əxlaqi məsələlərin, güzəşt və əfvin əsasını yaranış və məada iman, düzgün hədəf seçimi təşkil etməlidir.
5. Bir halda ki, Qiyamət haqdır, hamı ilə hesab çəkiləcək, kafirlərin hiylə və inadlarına görə narahat olma, onları əfv et.
6. Əfv fərmanı verən tərbiyəçi, xaliq və alim Allahdır. (Əfv və güzəştin fərd və cəmiyyətin ruhunda, xalqın cəzb və inkişafında necə müsbət təsirə malik olduğunu Allah bilir. Buna görə də əfv göstərişi sizə ağır gəlməsin.)

● Ayə 87:

﴿وَلَقَدْ آتَيْنَاكَ سَبْعًا مِّنَ الْمَثَانِي وَالْقُرْآنَ الْعَظِيمَ﴾

**“Həqiqətən, Biz sənə təkrarlanan yeddi ayəni (“Həmd” surəsini) və böyük Quranı verdik.”**

◊ **Nöqtələr**

● Şiə və sünni rəvayətlərində bildirilir ki, “Səbən minəl-məsani” ifadəsi “Həmd” surəsinə işarədir. Çünki bu surə hər namazda iki dəfə oxunur. Rəvayətlərdə Allah-təalanın belə buyurduğu nəql olunur: “Mən “Həmd” surəsini Özümlə bəndəm arasında iki hissəyə böldüm. Onun yarısı Mənə, yarısı bəndəmə aiddir.(“Bismillahdan” “Maliki yəvmid-din”ə qədər Allaha, “İyyakə nəbudu” cümləsindən sonadək bəndəyə aiddir.) Bəziləri “məsani” sözünün Qurana işarə olduğunu bildirir. “Səbən minəl-məsani” dedikdə Quranın yeddi ayəsi nəzərdə tutulur. Bu isə “Həmd” surəsidir. Dəlil olaraq “Zumər” surəsinin 23-cü ayəsi göstərilir. Yəni Allah ən üstün hədisi nazil etdi. Elə bir kitab ki, ayələri mütəşabeh, həmahəng və təkrarlanandır.

1 “Təfsiri-Nümunə”

● Möhtərəm Peyğəmbər (s) buyurur: “Allahın Quran əta etdiyi kəs başqasına daha üstün şey verildiyini təsəvvür etsə, Quranı kiçik saymışdır və əslində kiçik olan qeyri-Quranı böyük qəbul etmişdir.”

◊ **Bildirişlər**

1. Qanun vermək Yaradanın haqqıdır. Qanun yaranış nizamına uyğun gəlməlidir.

2. Tərbiyəvi məsələlərdə təkrar mühümdür. (Ayələrin, sözlərin, dastanların, ilahi sifətlərin, əzab və məad ayələrinin, ümmətlərin taleyinin, ilahi lütflərin, ilahi göstərişlərin, Quran tilavətinin təkrarı.)

3. “Həmd” surəsi yeddi ayədən ibarət olsa da Quran çəkisindədir.

● Ayə 88:

﴿لاَ تَمُدَّنَّ عَيْنَيْكَ إِلَى مَا مَتَّعْنَا بِهِ أَزْوَاجًا مِّنْهُمْ وَلاَ تَحْزَنْ عَلَيْهِمْ وَاخْفِضْ جَنَاحَكَ لِلْمُؤْمِنِينَ﴾

**“(Ey peyğəmbər!) Kafirlərdən olan qruplar üçün ləzzət qərar verdiyimiz şeyə göz dikmə, onlara görə qəm yemə, möminlərə məhəbbət ağuşunu aç.”**

◊ **Nöqtələr**

● Qadağa bəzən günahdan öncə, xəbərdarlıq məqsədi ilə bəyan olunur. Möhtərəm peyğəmbərlər kafirlərin dünyasına heç vaxt rəğbət göstərmədilər. Bu səbəbdən də Allahın qadağası xəbərdarlıq mahiyyəti daşıyır. Möminlərə kafirlərin dünyasına göz dikməmək əmri verilir.

● Başqalarının əlində olana göz dikən şəxsin qəm-qüssəsi artar, onun narahatlığına çarə tapılmaz.”[1]

● Quranın Peyğəmbər (s) və möminlərə ciddi tapşırıqlarından biri iman əhli ilə mülayim, mərhəmətli və səbirli rəftardır. “Daim Rəbbini çağıran kəslərə qarşı səbirli davran.”[2]; “İman əhli möminlərə qarşı təvazökar, bir-birləri ilə mehribandırlar.”[3]

● “Əzvac” sözü həm kişi, həm də qadına aiddir. Burada xalqın və kafirlərin zümrələri də nəzərdə tutula bilər.[4]

◊ **Bildirişlər**

1. Başqalarının imkanlarına göz yumub öz imkanlarınıza arxalanın. İxtiyarında Quran olan şəxs kafirlərin dünyasına könül verməz.

2. Dünya nemətlərinə təslim olmayın. (“Çünki dünya həm cüzidir, həm də ötəridir. Dünya kimsə üçün açılmamış bir qönçədir.)

---

1 “Təfsiri-Safi”
2 “Kəhf”, 28
3 Bax: “Maidə”, 54; “Fəth”, 29
4 “Təfsiri-əl Mizan”

3. Göz dikmək insanın qəlbində məhəbbət və bağlılıq yaradır. Əsir olmamaq üçün baxmamağa çalışın. Günah və azğınlığın qarşısını ilk addımda almaq lazımdır.

Aman göz əlindən, könül əlindən,
Göz görəni könül sevəsi hökmən.

4. Yalnız özü maddiyyata əsir olmayanlar xalqı mənəviyyata sövq edə bilərlər.

5. Dünya ardınca qaçanların çoxu ona çatmır.

6. Hidayət ləyaqəti olmayanlara görə qəm çəkmək lazım deyil.

7. Dünya və dünyapərəstlərə qarşı təvazö və mülayimliyə yol verilməməlidir. Dindarlarla xoş rəftar isə davamlı olmalıdır.

8. Rəhbər və tərbiyəçi xalqa qarşı mülayim və mərhəmətli olmalıdır.

● Ayə 89:

﴿وَقُلْ إِنِّي أَنَا النَّذِيرُ الْمُبِينُ﴾

**“De ki, mən, həqiqətən, aşkar qorxudanam.”**

◊ **Bildirişlər**

1. Möminlərlə mülayim rəftar, müxaliflərlə qətiyyət zəruridir.
2. Bəzən bilavasitə xəbərdarlıq olunmalıdır.
3. Küfr qarşısında hədə və xəbərdarlığa ehtiyac var.
4. Xəbərdarlıq dərhal və ciddi olmalıdır.

● Ayə 90, 91:

﴿كَمَا أَنزَلْنَا عَلَى المُقْتَسِمِينَ الَّذِينَ جَعَلُوا الْقُرْآنَ عِضِينَ﴾

**“İlahi ayələri parçalayanlara göndərdiyimiz kimi (onlara da əzab göndərərik). Onlar ki, Quranı parça-parça etdilər! (Xeyirlərinə olanı qəbul edib, qalanını boşladılar).”**

◊ **Nöqtələr**

● “Muqtəsimin” sözü təfsirlərdə 3 cür mənalandırılmışdır. Həcc əyyamında qüvvələrini Məkkəyə giriş yollarında paylaşdırıb müsafirlərə Məhəmmədin (s) kahin, sehrbaz, divanə olduğunu çatdıran küfr başçıları; Quranı hissə-hissə bölüb, hər hissənin oxşarını hazırlamağı öhdəsinə götürmüş dəstə; Quranın bir hissəsinə əməl edib, digər hissəsini boşlayanlar.

● “İzin” sözü ya “izzə” sözünün cəm forması olub höcətləşmə, ya da “üzv” sözündən olub, hissə-hissə bölmək mənasını verir.

◊ **Bildirişlər**

1. Tarixdən ibrət götürək.
2. Günahların cəzasına münasibətdə ilahi sünnələr, qanunlar sabit və dəyişməzdir.
3. Səmavi kitabı hissə-hissə bölənlərin cəzası Allahın qəhr-qəzəbidir.

4. Ləyaqətsiz insanlar tərəfindən səmavi kitabın təhrifi və hissələrə bölünməsi təzə iş deyil. (Yalnız Quranı tam şəkildə qəbul edən insan mömindir.)[1]

5. Məbada, Quranın fiqhi ayələrini öyrənib, qalan hissəsini boşlayaq!

● Ayə 92:

﴿فَوَرَبِّكَ لَنَسْأَلَنَّهُمْ أَجْمَعِينَ﴾

**“And olsun Rəbbinə, (qiyamət günü) Biz onların hər birini sorğuya çəkəcəyik.”**

● Ayə 93:

﴿عَمَّا كَانُوا يَعْمَلُونَ﴾

**“Gördükləri iş haqqında (soruşulacaq).”**

◊ **Bildirişlər**

1. Kafirlərin dünya cəzası onların axirət cəzasını aradan qaldırmır.
2. Sorğu-sual tərbiyə şərtidir.
3. Qiyamətdə sorğu-sual və hesaba diqqət, hamıdan, bütün işlər barəsində soruşulacağına əminlik insanı oyadan amillərdəndir.
4. Peyğəmbərin vəzifəsi xəbərdarlıqdır, xalqdan sorğu-sual isə Allaha aiddir.

● Ayə 94, 95:

﴿فَاصْدَعْ بِمَا تُؤْمَرُ وَأَعْرِضْ عَنِ الْمُشْرِكِينَ إِنَّا كَفَيْنَاكَ الْمُسْتَهْزِئِينَ﴾

**“Sənə əmr olunanı bəyan et və müşriklərdən üz döndər (onlara etina göstərmə). Həqiqətən, Biz səni istehza edənlərdən (onların şərindən) qorumaq üçün bəsik.”**

● Ayə 96:

﴿الَّذِينَ يَجْعَلُونَ مَعَ اللّهِ إِلهًا آخَرَ فَسَوْفَ يَعْمَلُونَ﴾

**“Allahla yanaşı başqa məbud qərar verənlər tezliklə həqiqəti anlayacaqlar.”**

◊ **Nöqtələr**

● «Səd» dedikdə yarmaq, aşkar etmək mənası başa düşülür.

---

1 “Ali-İmran”, 7

● Möhtərəm Peyğəmbər (s) 3 il xalqa gizli şəkildə təbliğ etdi. “Sənə əmr olanı aşkarla” ayəsi nazil olduqdan sonra o öz dəvətini aşkarlayıb xalqa buyurdu: “Əgər mənim dəvətimi qəbul etsəniz, dünya və axirətin hökumət və izzəti sizindir.” Amma onlar həzrəti məsxərəyə qoydular və Peyğəmbərin (s) əmisi Əbu-Talibin yanına gedib şikayət etdilər ki, Məhəmməd bizim cavanlarımızı aldadır. Onlar Peyğəmbərə (s) dəvətindən əl çəkməsi müqabilində pul, qadın və məqam təklif etdilər. Həzrət Peyğəmbər (s) öz əmisinə buyurdu: “Əmican, mənim sözüm ilahi vəhydir və heç vaxt bundan əl çəkmərəm!” Kafirlər Əbu-Talibdən Məhəmmədi (s) satın almaq istəsələr də, Əbu-Talib onların bu istəyini qəbul etmədi.[1]

◊ **Bildirişlər**

1. Təbliğin mərhələləri var. Təbliğ bəzən aşkar, təqiyyə üçün məxfi olur.
2. Təbliğatçı müxaliflərin hay-küyünə məhəl qoymamalıdır.
3. Bir insana ağır iş tapşırarkən onu himayə və təmin etməlisiniz.
4. Allahın himayəsi qətidir.
5. Haqq və məntiqi söz heç vaxt müxalifsiz olmur.
6. Əgər onlar səni məsxərəyə qoysalar, nigaran olma, çünki onlar Allahın da hörmətini saxlamırlar.
7. Allahdan qeyrilərinin sorağınca gedənlər öz səhvlərini anlayacaqlar.

● Ayə 97:

﴾وَلَقَدْ نَعْلَمُ أَنَّكَ يَضِيقُ صَدْرُكَ بِمَا يَقُولُونَ﴿

**“(Ey Peyğəmbər!) Əlbəttə, Biz bilirik ki, onların dedikləri (sözlər) sənin köksünü sıxır.”**

● Ayə 98:

﴾فَسَبِّحْ بِحَمْدِ رَبِّكَ وَكُن مِّنَ السَّاجِدِينَ﴿

**“(Güc tapmaq üçün) Rəbbini pak bilərək həmd-səna ilə yad et və səcdə edənlərdən ol.”**

● Ayə 99:

﴾وَاعْبُدْ رَبَّكَ حَتَّى يَأْتِيَكَ الْيَقِينُ﴿

**“Yəqinə (ölümə) çatanadək Rəbbinə pərəstiş et.”**

◊ **Nöqtələr**

---

1 “Təfsiri-Kənzud-dəqaiq”

● Təfsirçilərin nəzərincə bu ayədəki “yəqin” sözü ölüm, yəni bəşər üçün ən yəqin iş kimi dəyərləndirilməlidir. “Müddəssir” surəsinin 46-cı ayəsində kafirlərin dilindən deyilir: “Biz məadı ölüm anınadək təkzib edirdik.” Əslində “yəqin” “ölüm” mənasını bildirmir. Amma ölüm insanın yəqinliyə çatması üçün zəminədir. Çünki ölüm zamanı bütün pərdələr kənara çəkilir və insan gerçəkliyə əmin olur.

● Bəzi çaşqınlar bu ayəni əsas götürərək deyirlər ki, yəqinə çatdıqdan sonra ibadətə ehtiyac yoxdur! Onlar unudurlar ki, bu ayədə İslam Peyğəmbərinə (s) xitab olunur. Belə ki, Peyğəmbər (s) ilk gündən yəqinə çatmışdı. O, kafirlərin hədələrinə belə cavab verdi: “Əgər ayı bir, günəşi o biri əlimə versəniz, yenə də öz vəzifəmdən əl çəkmərəm.” Amma həzrət belə bir yəqinliklə ömrünün son günlərinədək ibadət etdi.

◊ **Bildirişlər**

1. Əgər bilsək ki, Allah bütün əziyyətlərimizi görür, müşküllərə asanlıqla dözərik.

2. Bütün insanların, hətta peyğəmbərlərin tutumu məhduddur.

3. Bəzən inadkarlıq qəlbigeniş insanları belə sıxıntıya salır.

4. Döyüşlərdə Peyğəmbərin (s) qəlbi sıxılmadı. Amma düşmənin sözləri ona əziyyət verirdi.

5. Ruhi sıxıntının əlacı namaz, səcdə, Allaha həmd-sənadır.

(İbn Abbas deyir: “Peyğəmbər (s) qəmləndiyi vaxt namaz qılardı.)[1]

6. İbadətdən də mühümü onun davamlı olmasıdır.

7. Haqqa bəndəliyin davamlılığı yəqin yaranmasına səbəb olur.

---

1 “Təfsiri-Nümunə”

## “NƏHL” SURƏSİ

***(SURƏ: 16; CÜZ: 14; AYƏLƏRİN SAYI: 128)***

***“NƏHL” SURƏSİNİN SİMASI***

Qurani-Kərimin 128 ayədən ibarət olan 16-cı surəsində bal arısının yaranışına işarə olunduğundan bu surə “nəhl” adlandırılmışdır.

Quran təşrii (cəmiyyətə aid) kitab olsa da, onun bir çox surələri təkvini (təbiətə aid) adlarla adlandırılmışdır. Məsələn, “nəcm” (ulduz), “şəms” (günəş), “fil”, “ənkəbut” (hörümçək), “nəhl” (arı). Bu adlar göydə və yerdəki, kiçik və ya böyük bütün mövcudların Allahın qüdrəti müqabilində eyni olmasını göstərir. Şəriət kitabı təbiət kitabı əsasında formalaşmışdır. Bu iki kitab eyni bir mənbədən qaynaqlanır.

Bu surənin başqa bir adı “nemət”dir. Çünki bu surədə 15-dən çox nemət adı çəkilir.

Tövhid və məadın dəlilləri, cihad hökmləri, müşriklərin hədələnməsi, zülm və günahın, əhdi pozmağın, bidətlərin, şeytani vəsvəsələrin qadağası və ilahi nemətlərin zikri bu surənin mövzularındandır.

Mərhum Əllamə Təbatəbainin nəzərincə, surədəki ayələrin nazil olma şənindən belə anlaşılır ki, surənin ilk 40 ayəsi Məkkə dövrünün axırlarında, qalan 88 ayəsi isə Mədinəyə hicrətin ilk vaxtlarında nazil olmuşdur.

﴿بسم الله الرحمن الرحيم﴾

**Bağışlayan və mehriban Allahın adı ilə**

● Ayə 1:

﴿أَتَى أَمْرُ اللّهِ فَلاَ تَسْتَعْجِلُوهُ سُبْحَانَهُ وَتَعَالَى عَمَّا يُشْرِكُونَ﴾

**“Allahın əmri gəldi (tezliklə gələcək). Belə isə ona tələsməyin. O, şərik qoşduğunuz hər şeydən pak və üstündür.”**

● Ayə 2:

﴿يُنَزِّلُ الْمَلآئِكَةَ بِالْرُّوحِ مِنْ أَمْرِهِ عَلَى مَن يَشَاء مِنْ عِبَادِهِ أَنْ أَنذِرُواْ أَنَّهُ لاَ إِلَهَ إِلاَّ أَنَاْ فَاتَّقُونِ﴾

**“Allah mələkləri əmrindən olan vəhylə bəndələrindən istədiyi kəsə nazil edər: “Xalqa xəbərdarlıq edin ki, Məndən başqa məbud yoxdur, yalnız Məndən çəkinsinlər. (Əmrimə qarşı çıxmasınlar.)”**

◊ **Nöqtələr**

● Ayənin əsas mövzusu kafirlərin ilahi qəhr-qəzəbə tələsməsi olsa da, “Allahın əmri tezliklə gələcək” cümləsi təkcə qəhr-qəzəb əmrinə yox, bütün ilahi fərmanlara aiddir. Cihad, imam Mehdinin (ə) zühur göstərişi, qiyamətin bərpa əmri uyğun əmrlərdəndir. Bütün bu işlərə münasibətdə tələsmək olmaz.

● “Ruh” Allahın yaxın mələklərindən biridir. Onun adı Quranda ayrıca, “məlaikə” sözü ilə yanaşı çəkilir.[1] Amma ayədə iki söz arasında “vav” əvəzinə “ba” şəkilçisinin işlənməsindən məlum olur ki, bu ayədə “Ruh” dedikdə sözün lüğətdəki mənası nəzərdə tutulmuşdur. Nəzərdə tutulan halda ayə belə mənalandırıla bilər: “Allah mələkləri istədiyi bəndələrinə həyat vasitəsi ilə nazil edər.” Başqa bir ayədə “Ruh” dedikdə Quran nəzərdə tutulmuşdur.[2]

◊ **Bildirişlər**

1. Allahın əmrləri qətidir və ilahi qəhr-qəzəbin gerçəkləşməsi labüddür.
2. Allah Öz vədlərinə əməl edir.
3. Allahın işlərinə münasibətdə tələsməyin. Allahın işi hikmətə əsaslanır və öz vaxtında gerçəkləşəsidir.
4. Vəhy mələyinin nazil olması, vəhy və onu qəbul edənin mahiyyəti Allahın iradəsindən xaricdə deyil.
5. Risalət (peyğəmbərlik) qazanılmır, əta olunur. (İqtisabi yox, intisabidir.)

Əlbəttə ki, Allah hikmət sahibidir və kimsəni boş yerə peyğəmbərlik məqamına qaldırmır.[3]

6. İlahi vəhyi qəbul etməyin ilkin şərti peyğəmbərlərin bəndəlik ruhu olmuşdur.
7. Peyğəmbərlərin vəzifələri arasında xalqa xəbərdarlıq öndə gəlir.
8. Əqidələrin əsası tövhid, saleh əməlin əsası təqvadır.
9. Təqva və paklıq tövhid sayəsində məna kəsb edir.

● Ayə 3:

﴿خَلَقَ السَّمَاوَاتِ وَالأَرْضَ بِالْحَقِّ تَعَالَى عَمَّا يُشْرِكُونَ﴾

**“O, göyləri və yeri haqq əsasında yaratdı. O, onların şərik qoşduqlarından üstündür.”**

● Ayə 4:

1 Bax: «Nəbə», 37; “Məaric”, 4
2 Bax: “Şura”, 52; “Ənfal”, 24
3 Bax: “Ənam”, 124

﴿خَلَقَ الإِنسَانَ مِن نُّطْفَةٍ فَإِذَا هُوَ خَصِيمٌ مُّبِينٌ﴾

**“O, insanı nütfədən yaratdı. O isə aşkar şəkildə (Allahla) düşmənçilik edir.”**

◊ **Nöqtələr**

● Bu surənin 4-cü ayəsi “Yasin” surəsinin 77-78-ci ayələrinə oxşayır. Həmin ayələrdə deyilir ki, insan nütfədən yaradıldı, amma elə qürrələndi ki, Bizə qarşı düşmənçiliyə qalxdı və “bu çürümüş sümüklər yenidən necə diriləcək?” deyə etiraz etdi; o sanki öz ilkin yaranışını unutmuşdu.

● Digər ayələrdə, o cümlədən, “Mursəlat” surəsinin 20-ci ayəsində insanın yaradıldığı nütfə “alçaq su” kimi təbir olunur. Bəs necə olur ki, “alçaq su” “aşkar düşmənə” cevrilir?

◊ **Bildirişlər**

1. Göylərin və yerin yaranışı boş yerə deyil, haqqa əsaslanır.
2. Yaranışda hansı büt və ya məbud Allaha şərik ola bilər?!
3. Şirklə mübarizə ciddi və davamlı olmalıdır.
4. İnsan o qədər qürurlu və təkəbbürlüdür ki, Allahına qarşı düşmənçiliyə qalxır.

● Ayə 5:

﴿وَالأَنْعَامَ خَلَقَهَا لَكُمْ فِيهَا دِفْءٌ وَمَنَافِعُ وَمِنْهَا تَأْكُلُونَ﴾

**“O, dördayaqlıları yaratdı. Onlar sizin üçün istilik və bəhrələnmə vasitəsidir, onlardan (ətindən və südündən) yeyirsiniz.”**

● Ayə 6:

﴿وَلَكُمْ فِيهَا جَمَالٌ حِينَ تُرِيحُونَ وَحِينَ تَسْرَحُونَ﴾

**“Onları örüşdən gətirməyinizdə və örüşə aparmağınızda sizin üçün ləzzət var.”**

◊ **Nöqtələr**

● “Təsrəhun” mal-qaranı otlağa, örüşə göndərmək mənasını bildirir. “Turihun” dedikdə isə mal-qaranın örüşdən geri qayıtması nəzərdə tutulur.

● Heyvanların insanlara bir çox faydaları var. Heyvanların südü və əti qida üçün, dərisi və yunu ayaqqabı və libas üçün, beli yük üçün, ayaqları şum üçün, ifrazatı gübrə üçün istifadə olunur. Heyvanlarda bir bu qədər bərəkət olduğu halda onlar insana olduqca az zəhmət verirlər.

● Rəvayətlərdə ən yaxşı iş kimi əkinçilik, ardınca heyvandarlıq göstərilir. Bir şərtlə ki, vaxtlı-vaxtında zəkat ödənsin, məhrumlar yaddan çıxarılmasın.

◊ **Bildirişlər**

1. Dördayaqlılar insan üçün yaradılmışdır.

2. Nemətlərə diqqət insanda yaradana eşq və bəndəlik ruhunu canlandırır.

3. Vegetarianlıq (ətyeməzlik) dəyər deyil. Allah heyvanların əti ilə qidalanmanı onların faydalarından sayır.

4. Cəmiyyətin rövnəqi onun istiqlalındadır, özünü təmin edə bilməsində, istehsal və heyvandarlığın genişlənməsindədir.

5. Gözəllik və zinət fərd və cəmiyyətin təbii ehtiyaclarındandır.

6. Cəmiyyətin gözəlliyi onun yerində saymasında yox, səy və hərəkətindədir. Fərdin yox, bütünlüklə cəmiyyətin hərəkəti mühümdür.

7. Gözəllik qarını doyurmaqda yox, xalqın xidmətində dayanmaqdadır. Gözəllik başlı-başına buraxılmaqda yox, ağıllı çobanın nəzarəti altında olmaqdır.

● Ayə 7:

﴿وَتَحْمِلُ أَثْقَالَكُمْ إِلَى بَلَدٍ لَّمْ تَكُونُواْ بَالِغِيهِ إِلاَّ بِشِقِّ الأَنفُسِ إِنَّ رَبَّكُمْ لَرَؤُوفٌ رَّحِيمٌ﴾

**“Onlar sizin yüklərinizi ağır əziyyətsiz çatdıra bilməyəcəyiniz şəhərə daşıyırlar. Həqiqətən, sizin Rəbbiniz rəuf (rəfətli) və mehribandır.”**

◊ **Bildirişlər**

1. Dördayaqlılar təkcə insanı yox, onun yükünü də daşıyırlar.

2. Dördayaqlılar nə qədər güclü olsalar da, Allahın qüdrəti ilə ram olmuşlar.

3. Dördayaqlılar bəşəriyyət üçün rifah səbəbidir. (Bir nemətin dəyərini anlamaq üçün bir anlıq həmin nemətin olmamasını təsəvvür etmək lazımdır.)

4. Allah bəşəriyyətə borclu deyil, bütün nemətləri öz lütf və mərhəməti əsasında əta edir.

● Ayə 8:

﴿وَالْخَيْلَ وَالْبِغَالَ وَالْحَمِيرَ لِتَرْكَبُوهَا وَزِينَةً وَيَخْلُقُ مَا لاَ تَعْلَمُونَ﴾

**“Atları, qatırları və ulaqları sizin süvar olmağınız və sizə zinət üçün yaratdı. O sizin bilmədiyiniz şeylər də yaradır.”**

◊ **Nöqtələr**

● "Xəyl" sözü təkəbbür mənasını bildirir. Bu söz ayədə at mənasında işlədilmişdir. Sanki ata süvar olarkən böyüklük, təkəbbür hissi yaranır.

● "Biğal" sözü qatır mənasını bildirir. Qatır atla ulağın cütləşməsi nəticəsində yaranır. "Himar" sözünün cəm forması olan "həmir" sözü ulaqlar mənasında işlədilmişdir.

◊ **Bildirişlər**

1. Yük və müsafir daşınması bəşəriyyətin ilkin ehtiyaclarındandır. Allah bu iş üçün heyvanlar xəlq etmişdir.

2. Miniyə süvar olmaq rifah, asayiş, bir növ zinət sayılır.

3. Zinət bəşəriyyətin fitri ehtiyaclarındandır.

4. Minik öncə hərəkət, sonra zinət üçün nəzərdə tutulmalıdır. (Təəssüf ki, bəziləri yalnız dəbdəbə xatirinə nəqliyyat vasitəsi əldə edirlər.)

5. Allah varlıq aləmində istədiyini edə bilir.

6. Əslində bugünkü nəqliyyat vasitələri (avtomobil, qatar, təyyarə, gəmi) bəşəriyyətin yox, Allahın məxluqlarıdır.

● Ayə 9:

﴾وَعَلَى اللّهِ قَصْدُ السَّبِيلِ وَمِنْهَا جَآئِرٌ وَلَوْ شَاء لَهَدَاكُمْ أَجْمَعِينَ﴿

**"Orta yol (doğru yolu göstərmək) Allahın öhdəsinədir. Əyri yollar da var. Allah istəsə hamınızı (məcburi şəkildə) doğru yola yönəldər. (Amma məcburi işin faydası yoxdur. Allahın sünnəsi, qanunu insanları azad buraxmaqdır.)**

◊ **Nöqtələr**

● Xalqın tərbiyəsi və hidayəti Allahın Özü üçün vacib saydığı işlərdəndir.[1]

● "Qəsd" dedikdə orta hədd nəzərdə tutulur. "Qəsdus-səbil" dedikdə isə orta, doğru yol mənası başa düşülür. Loğman öz oğluna orta yerişi tövsiyə edir.[2]

◊ **Bildirişlər**

1. Maddi nemətlərlə yanaşı ən mühüm mənəvi nemət olan hidayətə diqqət yetirək.

2. Allah yalnız doğru yola yönəldir. Əyri yollar isə bizim öz seçimimizdir.

3. Allah insanların məcburi surətdə iman gətirməsini istəmir. Əgər Allah istəsəydi, hamını məcburi şəkildə hidayət edərdi. Demək, xalqın bir

---

1 Bax: "Ləyl", 12
2 Bax: "Loğman", 19

hissəsinin yolunu azması Allahın iradəsi üzərində qələbə və ya Onun acizliyi sayılmamalıdır.

4. Allah insanı yol seçimində azad buraxmışdır.

● Ayə 10:

﴾هُوَ الَّذِي أَنزَلَ مِنَ السَّمَاءِ مَاءً لَّكُم مِّنْهُ شَرَابٌ وَمِنْهُ شَجَرٌ فِيهِ تُسِيمُونَ﴿

**“Sizin üçün səmadan su endirən Odur, içdiyiniz Ondandır. (Heyvanlarınızı) otardığınız otlar da Ondandır.”**

◊ **Nöqtələr**

● “İsamət” sözündən olan “tusimunə” sözü çəmənlikdə heyvanların otarılması mənasını bildirir. “Şəcər” sözünün ərəb dilində həm otlara, həm ağaclara, həm də kolluqlara aid olan ümumi mənası var. Məsələn, “Saffat” surəsinin 146-cı ayəsində balqabaq (boranı) haqqında danışılarkən “şəcərə” sözü işlədilmişdir.

◊ **Bildirişlər**

1. Yağışın yağması təsadüfi deyil, Allahın iradəsi ilə gerçəkləşir.
2. Yağış insanların bəhrələnməsi üçün nazil olur.
3. Eyni bir sudan insan da, bitki də, heyvan da istifadə edir.

● Ayə 11:

﴾يُنبِتُ لَكُم بِهِ الزَّرْعَ وَالزَّيْتُونَ وَالنَّخِيلَ وَالأَعْنَابَ وَمِن كُلِّ الثَّمَرَاتِ إِنَّ فِي ذَلِكَ لآيَةً لِّقَوْمٍ يَتَفَكَّرُونَ﴿

**“Allah həmin su vasitəsi ilə sizin üçün əkinəcəklər, zeytun, xurma, üzüm və hər növ meyvə cücərdir. Həqiqətən, düşünən insanlar üçün bu işdə aşkar nişanələr var.”**

◊ **Nöqtələr**

● Müxtəlif meyvələr və otlar sırasından Allah zeytun, xurma və üzümü yada salır. Mütəxəssislərin nəzərincə, insan orqanizmi üçün zeytun, xurma və üzüm qədər faydalı meyvə çox azdır.[1] Quranın “Nur” surəsinin 35-ci ayəsində zeytun “mübarək ağac” kimi xatırlanır və onun yağına işarə olunur.

◊ **Bildirişlər**

1. Cücərtmək əkinçinin yox, Allahın işidir.

---

1 “İlk universitet və son Peyğəmbər (s), c. 7

2. Müxtəlif növ otlar, ağaclar və meyvələr insan üçün yaradılmışdır.

3. Məhsul və bəhrə dayanacaq yox, keçid, məqsəd yox, yol göstəricisidir.

4. Görmək və bilmək bəs etmir, varlıq aləmi haqqında düşünmək zəruridir.

● Ayə 12:

﴿وَسَخَّرَ لَكُمُ اللَّيْلَ وَالْنَّهَارَ وَالشَّمْسَ وَالْقَمَرَ وَالْنُّجُومُ مُسَخَّرَاتٌ بِأَمْرِهِ إِنَّ فِي ذَلِكَ لآيَاتٍ لِّقَوْمٍ يَعْقِلُونَ﴾

**“O (Allah) gecə və gündüzü, günəş və ayı sizə xidmət və bəhrə vermək üçün qərarlaşdırdı. Ulduzlar Onun əmri ilə ram olmuşlar. Əlbəttə, bu işdə düşünən qrup üçün Onun qəti nişanələri var.”**

◊ **Nöqtələr**

● Günəş və ayın tabe edilməsi dedikdə, insanların onlardan bəhrələnməsi nəzərdə tutulur. Əlbəttə ki, milçək yaratmaqda aciz olan insan günəş və ayı özünə tabe edə bilməz. Allah Öz lütfü ilə günəş və ayı bəşəriyyətin xidmətində qərar vermişdir.

◊ **Bildirişlər**

1. İstər göy, istərsə də yer - bütün varlıq aləmi insan üçün yaradılmışdır.

2. Varlıq aləmi Allahın tabeçiliyində və nəzarəti altındadır.

3. Varlıq aləmindən Allahın əmri ilə bəhrələnmək olar.

4. Varlıq nizamı tövhid sinfidir.

5. Varlıq aləmindəki nizam yalnız düşüncə əhlinin inkişafı üçün səbəb olur. Darbaxış və adi insanlar bu nizamdan nəticə çıxara bilmirlər.

● Ayə 13:

﴿وَمَا ذَرَأَ لَكُمْ فِي الأَرْضِ مُخْتَلِفًا أَلْوَانُهُ إِنَّ فِي ذَلِكَ لآيَةً لِّقَوْمٍ يَذَّكَّرُونَ﴾

**“Yer üzündəki müxtəlif əlvanlıqları da sizin üçün yaratdı. Əlbəttə, bu yaranmışlarda öyüd götürənlər üçün ibrət və aydın nişanələr var.”**

◊ **Bildirişlər**

1. Allah müxtəlif rəngləri insan üçün yaratmışdır.

2. Varlıq aləmindəki çeşidli rənglər Allahın qüdrət və hikmət nişanəsidir. Zavodun istehsal etdiyi malların çeşidinin çoxluğu onun istehsal gücünü göstərir.

3. Rənglər arasındakı fərqlər fərdlərin və məhsulların bir-birindən seçilməsi üçün ilahi nemətdir.

● Ayə 14:

﴿وَهُوَ الَّذِي سَخَّرَ الْبَحْرَ لِتَأْكُلُواْ مِنْهُ لَحْمًا طَرِيًّا وَتَسْتَخْرِجُواْ مِنْهُ حِلْيَةً تَلْبَسُونَهَا وَتَرَى الْفُلْكَ مَوَاخِرَ فِيهِ وَلِتَبْتَغُواْ مِن فَضْلِهِ وَلَعَلَّكُمْ تَشْكُرُونَ﴾

**“Dənizdən təzə ət yeməyiniz, taxmaq üçün zinət şeyləri çıxarmağınız üçün onu sizə ram edən Allahdır. Dənizin sinəsini yarıb gəmilərin getdiyini görürsən. (Allah bu cür etdi ki,) Onu fəzl və lütfünü arayasınız və bəlkə, (bundan sonra) şükür edəsiniz.”**

◊ **Nöqtələr**

● İnsanın həyatında dənizin mühüm rolu var. Dənizin suyu buxar, bulud və yağış qaynağıdır. Dənizin dibi insanı ən ləziz balıqlarla təmin edir, onun səthi ən ucuz nəqliyyat vasitəsidir. Bütün bunlar Allahın tədbir və qüdrəti sayəsində başa gəlir və insanın bu sahədə heç bir rolu yoxdur.

● “Məvaxir” dedikdə sağdan və soldan yarmaq mənası anlaşılır.

◊ **Bildirişlər**

1. Dənizlər bütün əzəmət və coşqunluğu ilə ram edilmiş və insanın xidmətinə verilmişdir.

2. Dəniz təzə və sağlam ətlə təmin edən ən mühüm mənbədir.

3. Allah insanın təkcə su və qida kimi ilkin ehtiyaclarını yox, həm də zinət istəklərini belə təmin etmişdir.

4. Dəniz ən üstün təbii zinətləri insana hədiyyə edir.

5. Ümumi qanuna əsasən, haramlığına xüsusi dəlil olmayan dəniz heyvanı halal sayılır.

6. Ətin təzəliyi də bir dəyərdir.

7. İnsan çalışmalı olsa da, ruzi verən Allahdır.

8. Ləzzətlər də məqsədli olmalıdır.

● Ayə 15:

﴿وَأَلْقَى فِي الأَرْضِ رَوَاسِيَ أَن تَمِيدَ بِكُمْ وَأَنْهَارًا وَسُبُلاً لَّعَلَّكُمْ تَهْتَدُونَ﴾

**“Və yer (zəlzələ ilə və öz oxu və günəş ətrafındakı hərəkətinin pozulması nəticəsində) sizi titrətməsin deyə, onda möhkəm və sabit dağlar saldı. Və həmçinin çayları və yolları bəlkə (dünyəvi məqsədlərinizə və Allahın əzəmətinə) yol tapasınız (deyə qoydu).”**

◊ **Nöqtələr**

● Dağlar yerin tarazlıqda və aram qalmasına kömək edir. “Məyd” dedikdə sağa-sola hərəkət və iztirab nəzərdə tutulur. “Ən təmidə bikum”,

yəni sizin üçün aramlıq səbəbidir və yerin silkələnməsinin qarşısını alır. Həzrət Əli (ə) dağlar barəsində belə buyurur: “Allah yerin tərpənişini böyük dağlar və möhkəm daşlarla sabitləşdirdi.”[1] Dağlar yerdə kök ataraq onun çatlarına yerimişdir.

● Yerin iztirabının möhkəm dağlara ehtiyacı olduğu kimi, yer üzü sakinlərinin iztirabının da möhkəm və ilahi insanlara ehtiyacı var. Belə insanlar cəmiyyət üçün aramlıq səbəbidir. Rəvayətlərdə deyilir: “Allah yer əhlini iztirabdan qurtarmaq üçün Peyğəmbər (s) Əhli-beytini yer üzündə sütun qərar vermişdir.”[2]

● İnsanın həyatında dağların mühüm rolu var. Onların qoynunda toplanmış qar kütləri yazda yağışlar üçün mənbə olur. Dağlar müxtəlif formaya malik olduqlarından müsafirlər üçün yol nişanı kimi istifadə edilir. Bir anlıq təsəvvür edin ki, bütün yer üzü hamardır!

◊ **Bildirişlər**

1. Dağlar kor-koranə təsadüf yox, hikmətli tədbir məhsuludur.

2. Dağlar sabit və möhkəm olduğundan yeri və onun sakinlərini iztirabdan qoruya bilir. (Bəli, cəmiyyəti yalnız sabitqədəm və möhkəm şəxs iztirabdan qurtara bilər.)

3. Dağların qoynundakı enişlər suyun çaylarda axımına səbəb olur.

4. Dağlar ilk baxışdan yol üstə maneə kimi görünsə də, əslində yol göstəricisidir.

5. Dağlar həm zahiri, həm də mənəvi hidayət səbəbidir.

(Dağlar biyabanlarda ən yaxşı yol göstəricisi, eləcə də, allahşünaslıq və Allahın əzəmətinə diqqət yoludur.)

● Ayə 16:

﴿وَعَلامَاتٍ وَبِالنَّجْمِ هُمْ يَهْتَدُونَ﴾

**«Digər nişanələr (qərar verildi) və onlar ulduzlar vasitəsi ilə yol taparlar.»**

◊ **Nöqtələr**

● Düzənliklərdə hərəkət və yolu tapmaq üçün əlamətlərə ehtiyac var. Allah bu ayədə gündüz və gecə yol göstərən iki əlamətə işarə edir.

● Təkcə düzənlikdə yol tapmaq üçün yox, həm də haqqı batildən seçmək üçün əlamətlərə ehtiyacımız var. İslam Peyğəmbəri (s) özündən sonra əlamətlər qeyd etdi. Tərəddüddə qalan insanlar bu əlamətlərə nəzər salmaqla haqqı tanımalıydılar. Bu əlamətlərdən birincisi həzrət Zəhradır (s). İslam Peyğəmbəri (s) qızı Zəhra (Fatimə) (s) haqqında buyurur: “Onun razılığı mənim razılığım, onun qəzəbi mənim qəzəbimdir.” Həzrət

---

1 “Nəhcül-bəlağə”, x. 91

2 “Təfsiri-Nurus-Səqəleyn”

Peyğəmbərin (s) təqdim etdiyi digər bir əlamət Əbuzər Qəffaridir. İslam Peyğəmbəri (s) onun haqqında buyurur: “Səmanın kölgə saldığı ən doğru şəxs Əbuzərdir.” Əbuzərin kimi himayə etməsinə diqqətli olmalıyıq. Bu böyük insanı kim sürgün etdi? Digər bir əlamət Əmmar Yasirdir. Həzrət Peyğəmbər (s) buyurur: “Əmmarın qatili azğın qrupdur.” Xalq şahid oldu ki, Əmmar Siffeyn döyüşündə Müaviyə qoşunu tərəfindən öldürüldü. Peyğəmbərdən (s) sonra haqqın ən aşkar əlaməti imam Hüseyn (ə) olmuşdur. Həzrət Peyğəmbər (s) Hüseyn (ə) haqqında buyurur: “Hüseyn məndəndir, mən də Hüseyndən.” İmam Sadiq (ə) buyurur: “Biz əlamətlərik.”

● Ulduzlar da qibləni müəyyənləşdirmək üçün vasitədir. Heç bir əlamət olmayan dənizlərdə və səhralarda ən yaxşı əlamət ulduzlardır.

◊ **Bildirişlər**

1. Necə ola bilər ki, insanların dünyəvi baxımdan hidayəti (doğru yola yönəldilməsi) üçün əlamətlər müəyyənləşdirən Allah onların mənəvi hidayətinə diqqət yetirməsin?

2. İslam nücum, ulduzşünaslıq elminə diqqət ayırır.

● Ayə 17:

﴿أَفَمَن يَخْلُقُ كَمَن لاَّ يَخْلُقُ أَفَلا تَذَكَّرُونَ﴾

**“Məgər yaradan yaratmayan kimidir? Yoxsa öyrənmir, öyüd götürmürsünüz?”**

◊ **Nöqtələr**

● “Nəhl” surəsinin hazırkı ayəyədək beş ayəsində ilahi nemətlər sadalanır. Bu ayədə ümumi bir nəticə əldə olunur və sual şəklində bəyan olunur ki, yaradan kəs yaratmaq qüdrəti olmayan bütlər və zalım qüvvələr kimi ola bilərmi? Hansı əsasla Allahın yox, uydurma məbudların sorağınca gedirsiniz?

◊ **Bildirişlər**

1. Təbliğ prosesində cüzi məsələlərdən başlanılmalı, sonradan külli məsələlərə keçilməlidir. Əvvəlcə nümunələri bəyan edin, sonra ümumi nəticə çıxarın. Yalnız on beş ayədə Allahın nemətləri yada salındıqdan sonra Onun misilsiz Yaradan olması önə çəkilir.

2. Təbliğ zamanı qarşı tərəfin vicdanını mühakiməyə çəkin, ağıl və fitrətini oyadın.

3. Ağıl və vəhy bir-birinə uyğundur. Quran nə bəyan edirsə, ağıl onu bəyan edir.

4. Yaranış başa çatmamışdır, davam etməkdədir.

5. Bütün insanların daxilində allahşünaslıq və allahpərəstlik var. Bu meylləri oyatmaq üçün yalnız xatırlatmaq lazımdır.

● Ayə 18:

﴿وَإِن تَعُدُّواْ نِعْمَةَ اللّهِ لاَ تُحْصُوهَا إِنَّ اللّهَ لَغَفُورٌ رَّحِيمٌ﴾

**“Allahın nemətlərini saymaq istəsəniz saya bilməzsiniz. Həqiqətən, Allah bağışlayan və mehribandır.”**

◊ **Nöqtələr**

● “İbrahim” surəsinin 33-cü ayəsi də bu ayənin oxşarıdır. Amma bu ayənin sonu “Həqiqətən, Allah bağışlayan və mehribandır” cümləsi ilə bitirsə, nəzərə çatdırılan ayə “Həqiqətən, insan zalım və nankordur” cümləsi ilə başa çatır. Bəli, nemət Allahın lütf və rəhmət nişanəsidir. Amma insan nankorluq göstərir, özünə və cəmiyyətə zülm edir.

● Allahın nemətlərini sayıb qurtarmaq mümkünsüz olsa da, bu nemətləri xatırlamaq lazımdır. “Zuha” surəsinin 11-ci ayəsində buyurulur: “Rəbbinin sənə olan nemətlərindən danış.” Nemətlərin xatırlanması “Əminullah” ziyarətnaməsində də qeyd olunur.

● Əgər insan ilahi nemətləri saymaqda gücsüzdürsə, təbii ki, bu nemətlərin şükrünü yerinə yetirməkdə daha çox acizdir.

*Əlindən, dilindən gələn qədəri*
*Şükr qıl, düşünmə yoxdur əsəri.*
*Bəndə təqsirini ərz etsə Haqqa,*
*Əlbət ki, mərhəmət gələr sorağa.*
*Şübhəsiz, Allaha layiqli qədər,*
*Şükr üçün kimsədə tapılmaz təpər.*

◊ **Bildirişlər**

1. İlahi nemətləri sayıb qurtarmaq olmaz.
2. Bildiyinizə görə şükür edin, bilmədiyinizə görə Allah keçər.

● Ayə 19:

﴿وَاللّهُ يَعْلَمُ مَا تُسِرُّونَ وَمَا تُعْلِنُونَ﴾

**“Allah sizin gizlətdiklərinizi və aşkarladıqlarınızı bilir.”**

◊ **Bildirişlər**

1. Allahın elmi istər aşkar, istər gizli – bütün işləri əhatə edir.
2. Əgər Allahın bizim bütün işlərimizdən xəbərdar olduğunu bilsək, təqva yolunu seçərik.
3. Allah bizim niyyət və məqsədlərimizdən də xəbərdardır.

● Ayə 20:

﴿وَالَّذِينَ يَدْعُونَ مِن دُونِ اللّهِ لاَ يَخْلُقُونَ شَيْئًا وَهُمْ يُخْلَقُونَ﴾

**“Allahın əvəzində çağırdıqları kəslər heç nə yaratmamışlar və özləri də yaradılmışlar.”**

● Ayə 21:

﴿أَمْواتٌ غَيْرُ أَحْيَاء وَمَا يَشْعُرُونَ أَيَّانَ يُبْعَثُونَ﴾

**“Onlar diri yox, ölüdürlər və nə vaxt ayağa qaldırılacaqlarını bilmirlər.”**

◊ **Nöqtələr**

● Bütpərəstlər bütləri insan şəklində düzəltdiklərindən onları şüur sahibi sayırdılar. Ona görə də Allah bu ayədə bütləri diri və şüurlu mövcudlara münasibətdə olduğu kimi ölülər adlandırır.

● Cahil üçün məsələni təkrarlamaq lazımdır. Bu məqsədlə “yaratmamışlar” sözü ilə yanaşı “yaradılmışlar”, “ölüdürlər” sözü ilə yanaşı “diri deyildirlər” sözləri zikr olunmuşdur.

◊ **Bildirişlər**

1. Bütlərin nə qüdrəti, nə həyatı, nə elmi, nə də şüuru var. (Hansı ki, elm, qüdrət və həyat pərəstiş şərtidir.)
2. Qeyri-ilahi məbudlar hər nədirsə də ölüdürlər.
3. Qiyamətdə hətta bütlər də səhnəyə gətirilər.[1]

● Ayə 22:

﴿إِلَهُكُمْ إِلَهٌ وَاحِدٌ فَالَّذِينَ لاَ يُؤْمِنُونَ بِالآخِرَةِ قُلُوبُهُم مُّنكِرَةٌ وَهُم مُّسْتَكْبِرُونَ﴾

**“Sizin məbudunuz yeganə məbuddur. Axirətə imanı olmayanların qəlbləri yana çevrilmişdir və onlar təkəbbür əhlidirlər.”**

◊ **Nöqtələr**

● Ötən ayələrdə qeyri-ilahi məbudların yarada bilməməsi və bixəbərliyi qeyd olundu. Bu ayədə isə deyilir ki, sizin həqiqi məbudunuz bir olan Allahdır.

● “Kibr” dedikdə özünü böyük bilmək nəzərdə tutulur. “Təkəbbür” isə kibr təsirlərinə əməl etməkdir. İnsanın hansısa vasitələrlə öz böyüklüyünü sübuta yetirmək istəməsi “istikbar” sözü ilə ifadə olunur.

---

1 Bax: “Ənbiya”, 98

● Rəvayətlərdə deyilir ki, imam Hüseyn (ə) yoxsulların yanından keçərkən onlar təam yeyirdilər. Onlar həzrəti süfrəyə dəvət etdilər. İmam (ə) onlarla yanaşı əyləşdi və təamlarından dadıb buyurdu: “Allah təkəbbürlüləri sevmir.”[1]

◊ **Bildirişlər**

1. Ölümdən sonrakı həyatı – məadı inkar etmək əslində yaranışı inkar etməkdir. Tövhid və məad bir-birinə bağlı prinsiplərdir.

2. Küfrün qaynağı cəhalət yox, kibrdir. Nəzərdə tutulan - həqiqətdən xəbərsizlik yox, həqiqətin inkarıdır.

3. Axirətə iman təkəbbür və istikbarı aradan qaldırır.

● Ayə 23:

﴿لاَ جَرَمَ أَنَّ اللّهَ يَعْلَمُ مَا يُسِرُّونَ وَمَا يُعْلِنُونَ إِنَّهُ لاَ يُحِبُّ الْمُسْتَكْبِرِينَ﴾

**“Şübhəsiz, Allah onların gizlətdiklərini və aşkarladıqlarını bilir. Həqiqətən, O, təkəbbürlüləri sevmir.”**

◊ **Nöqtələr**

● “Cərm” dedikdə meyvəni ağacdan kəsmək və ya qoparmaq nəzərdə tutulur. “Lə cərəmə”, yəni məsələ qətidir və şübhə yeri yoxdur.

● Bu ayə kafirləri hədələyir ki, Allah onların işlərindən agahdır. Eləcə də, möminlərə müjdə verilir ki, Allah onların düşmənlərinin vəziyyətindən agahdır və onları cəzalandırmağa qadirdir.

● Ayə 24:

﴿وَإِذَا قِيلَ لَهُم مَّاذَا أَنزَلَ رَبُّكُمْ قَالُواْ أَسَاطِيرُ الأَوَّلِينَ﴾

**“Onlardan “Rəbbiniz nə nazil edib?” soruşulduqda “keçmişlərin əfsanələridir” deyə cavab verərlər.”**

◊ **Nöqtələr**

● “Əsatir” sözü ya “usturə” sözünün cəm forması olub hekayə və xurafat əfsanə mənasını bildirir, ya da “əstar” sözünün cəm forması olub əsas nüsxənin surətinin sətirləri mənasını bildirir. Bu söz Quranda 9 dəfə kafirlərin dilindən nəql olunmuşdur. Bütün hallarda “əvvəlin” sözü ilə yanaşı işlənmişdir. Yəni “bu sözlər təzə deyil və əvvəlkilərin quramalarıdır.”

● Bugünkü sosioloqların da bəziləri dini cəhalət və xurafatdan qaynaqlanmış cərəyan sayırlar. Bu söz həm də həqiqi dinin üsulunda yer tapmış və həqiqi dinlə heç bir əlaqəsi olmayan xurafatlara işarə ola bilər.

---

1 “Təfsiri-Nurus-Səqəleyn”

◊ **Bildirişlər**

1. Peyğəmbərlərin və səmavi kitabların göndərilməsi xalqın hidayət və tərbiyəsi ilə bağlı Allahın rübubiyyət şənindəndir.

2. Təkəbbürlü insanların xasiyyəti qarşı tərəfi təhqir etməkdir. Onlar bəzən əqidə məktəbini, bəzən rəhbəri, bəzən də bütöv bir ümməti təhqir edirlər.

3 Quranın müəyyən bir hissəsi əhvalatlardan ibarət olsa da, bunlar kitab nazil olan xalqın tanımadığı qövmlər və peyğəmbərlər haqqındadır. Bu sayaq əsaslı məlumatları keçmişlərin uydurması saymağa əsas nədir?!

● Ayə 25:

﴿لِيَحْمِلُواْ أَوْزَارَهُمْ كَامِلَةً يَوْمَ الْقِيَامَةِ وَمِنْ أَوْزَارِ الَّذِينَ يُضِلُّونَهُم بِغَيْرِ عِلْمٍ
أَلاَ سَاء مَا يَزِرُونَ﴾

**“Onlar qiyamət günü həm öz günah yüklərini bütünlüklə, həm də bilmədən yoldan çıxardıqlarının günah yükünün bir hissəsini çiyinlərinə almalıdırlar. Bilin ki, necə də pis bir yük götürürlər.”**

◊ **Nöqtələr**

● Bu ayədə dünya həyatında yalan təbliğatla xalqı doğru yoldan azdıran küfr başçılarına aiddir. Çünki onlar qiyamətdə həm öz küfrlərinin günahını, həm də yoldan çıxardıqlarının günahını çiyinlərinə alarlar. Rəvayətdə oxuyuruq: Əyri yol qoyan kəs bütün azanların cəzasına şərikdir. Yaxşı yol qoyan kəs isə bu yolu gedənlərin mükafatına öz payından bir şey azaldılmadan şərik olar.

◊ **Bildirişlər**

1. Küfr və zillət rəhbərlərinin günahında heç bir güzəşt olmaz.

2. Başqalarını günaha dəvət edən insan onların cəzasına da şərikdir.

3. Küfr başçıları öz günah paylarını bütünlüklə, öz ardıcıllarının günah payının isə bir hissəsini öhdələrinə götürərlər.

4. Bir çox azğınlıqların səbəbi cəhalətdir. Düşmən xalqın cəhalətindən istifadə edib, xalqı doğru yoldan azdırır.

5. Günah yükdür, özü də çox pis bir yük.

● Ayə 26:

﴿قَدْ مَكَرَ الَّذِينَ مِن قَبْلِهِمْ فَأَتَى اللّهُ بُنْيَانَهُم مِّنَ الْقَوَاعِدِ فَخَرَّ عَلَيْهِمُ
السَّقْفُ مِن فَوْقِهِمْ وَأَتَاهُمُ الْعَذَابُ مِنْ حَيْثُ لاَ يَشْعُرُونَ﴾

**“Həqiqətən, onlardan əvvəlkilər hiylə qurdular. Allahın qəhr-qəzəbi onların binalarının sütunları sorağına gəldi. Başlarının**

**üzərindəki dam uçub töküldü və ilahi əzab gözləmədikləri yerdən yetişdi.”**

◊ **Nöqtələr**

● Bu ayə həm fitnəkarlara xəbərdarlıq, həm də Peyğəmbərə (s) təsəllidir.

◊ **Bildirişlər**

1. Haqq yolda daim qurğular qurulmuşdur.
2. Dinin bünövrəsi təhlükədə olduqda Allah Özü işə qarışır.
3. Din və məzhəb müxalifləri bilsinlər ki, onlar Allahla qarşı-qarşıya durmuşlar.
4. Harada dinin bünövrəsi təhlükədədirsə (ötən ayələrdə kafirlər vəhyi əsatir sayırdılar), müxaliflərlə bünövrəli rəftar edilməlidir.
5. Düşmənlə səthi yox, fundamental mübarizə aparılmalıdır ki, onların bütün ideoloji təşkilatları aradan götürülsün.
6. Allahın cəzaları təkcə axirətə aid deyil.
7. Bəzən insanın canını qorumalı olan möhkəm bina onun üçün gora çevrilir.
8. Allahın qəhr-qəzəbinin zaman və məkanını öncədən müəyyənləşdirmək mümkünsüzdür.

● Ayə 27:

﴿ثُمَّ يَوْمَ الْقِيَامَةِ يُخْزِيهِمْ وَيَقُولُ أَيْنَ شُرَكَآئِيَ الَّذِينَ كُنتُمْ تُشَاقُّونَ فِيهِمْ قَالَ الَّذِينَ أُوتُواْ الْعِلْمَ إِنَّ الْخِزْيَ الْيَوْمَ وَالْسُّوءَ عَلَى الْكَافِرِينَ﴾

**“Allah qiyamət günü onları xar və rüsvay edəcək. O buyurar: “Haqqında höcətləşdiyiniz şəriklərim haradadır?” Alimlər deyər: “Həqiqətən, bu gün zillət və rüsvayçılıq kafirlər üçündür.”**

◊ **Nöqtələr**

● Quran baxımından elm və cəhalət bilmək və bilməməkdən daha geniş mənaya malikdir. Bir insan oxuyub-yazmağı bacarmasa da, elm və həqiqət əsasında düşünüb hərəkət edirsə, o, əsl alimdir. Əksinə, bütün elmlərdən xəbərdar olan bir şəxs yanlış əməl edirsə, o, əsl cahildir. Şirk və bütpərəstlik düşüncəsi cəhalət nişanəsidir. Necə ki, Lut qövmünün çirkin əməllərinin kökü cəhalət sayılır. Bu ayədə “Utul-ilmə” dedikdə küfr və şirkə qarşı dayanmış elm adamları nəzərdə tutulur. Yəni həqiqi elm insanı tövhid və imana çatdırır.

◊ **Bildirişlər**

1. Günahkarlar əsasən qiyamətdə cəzalandırılırlar. Dünyadakı bədbəxtlik onların axirət bədbəxtliyinin müqəddiməsidir.
2. Dünyada möminləri xar sayanlar özləri qiyamətdə xar olar.

3. Dünyada kimin ardınca gedirsənsə, qiyamətdə də bu ardıcıllığın cavabını verməlisən.

4. Qiyamət mühakiməsində müşriklərin deməyə sözləri yoxdur.

5. İnsanı iman və saleh əmələ aparan həqiqi elm Allahın hədiyyəsidir.

● Ayə 28:

﴿الَّذِينَ تَتَوَفَّاهُمُ الْمَلائِكَةُ ظَالِمِي أَنفُسِهِمْ فَأَلْقَوُاْ السَّلَمَ مَا كُنَّا نَعْمَلُ مِن سُوءٍ بَلَى إِنَّ اللّهَ عَلِيمٌ بِمَا كُنتُمْ تَعْمَلُونَ﴾

**“Mələklər özlərinə sitəm qılanların canlarını aldıqda onlar itaətlə baş əyər (aldadaraq deyərlər:) “Biz heç bir pis iş görməmişik.” Elə deyil! Şübhəsiz, Allah gördüyünüz işlərdən agahdır.”**

● Ayə 29:

﴿فَادْخُلُواْ أَبْوَابَ جَهَنَّمَ خَالِدِينَ فِيهَا فَلَبِئْسَ مَثْوَى الْمُتَكَبِّرِينَ﴾

**“Əbədi qalacağınız cəhənnəmin qapılarından daxil olun. Həqiqətən, təkəbbürlülərin yeri necə də pisdir.”**

◊ **Nöqtələr**

● Mələklər kafirlərin canlarını alarkən onlar həm İslamı qəbul, həm də öz çirkin keçmişlərini inkar edirlər. Amma nə həmin imanın, nə də həmin inkarın faydası var. Çünki hər iki iş məcburiyyət üzündən edilir. Allah onların işlərindən agahdır.

◊ **Bildirişlər**

1. Ölüm yoxluq yox, ruhun cisimdən ayrılmasıdır.

2. İşi vasitə ilə həyata keçirmək Allahın sünnəsi, qanunudur.

3. Küfr və şirk şəxsin öz insanlığına zülmüdür.

4. İnsan bir gün məcbur qalaraq təslim olur.

5. Canvermə məqamı mömin və kafir üçün həssas bir məqamdır.[1]

6. Cəhənnəmin müxtəlif qapıları var, hər günahkar bir qapıdan daxil olur.

---

1 Bax: “Nəhl”, 32

7. Küfrün kökü təkəbbür ruhiyyəsidir.

● Ayə 30:

﴿وَقِيلَ لِلَّذِينَ اتَّقَوْاْ مَاذَا أَنزَلَ رَبُّكُمْ قَالُواْ خَيْرًا لِّلَّذِينَ أَحْسَنُواْ فِي هَذِهِ
الدُّنْيَا حَسَنَةٌ وَلَدَارُ الآخِرَةِ خَيْرٌ وَلَنِعْمَ دَارُ الْمُتَّقِينَ﴾

**“Müttəqilərə deyilir: “Rəbbiniz nə nazil edib?” Deyərlər: “Xeyir (nazil etmişdir).” Yaxşılıq edənlər üçün dünyada yaxşılıq var. Şübhəsiz, axirət evi daha üstündür. Pəhrizkarların yeri necə də yaxşıdır!”**

◊ **Nöqtələr**

● İlkin İslam dövründə Məkkəyə gələnlər Quran və Peyğəmbərin (s) adını eşidib, “Rəbbiniz nə nazil edib?” deyə soruşardılar. Müşriklər onlara “Bu, keçmişlərin əsatiridir” deyərdilər. Möminlər isə Allahdan xeyir nazil olduğunu bildirərdilər.

● Duada Allahdan yaxşılıq istəyən insan özü saleh əməl sahibi olmalıdır.

◊ **Bildirişlər**

1. Həqiqi mühakimənin pak ruh və pəhrizkarlığa ehtiyacı var.

2. Quran bir kəlmə ilə tanıtdırılır. (“Xeyir” xoşbəxtliyin qaynağıdır. Yüz söz əvəzinə bir söz!) Quran xeyir və yaxşılığa dəvət edir.

3. Xeyir əməl sahibləri hər iki dünyada xeyirə çatar.

4. İlahi mükafat insanın əməllərinə münasib olur.

● Ayə 31:

﴿جَنَّاتُ عَدْنٍ يَدْخُلُونَهَا تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ لَهُمْ فِيهَا مَا يَشَآؤُونَ
كَذَلِكَ يَجْزِي اللّهُ الْمُتَّقِينَ﴾

**“(Ağaclarının) altından çaylar axan daimi bağlara (cənnətlərə) daxil olacaqsınız. Onlar üçün orada istədikləri şey mövcuddur. Allah təqva əhlinə bu sayaq mükafat verər.”**

◊ **Bildirişlər**

1. Behiştdə müxtəlif və çoxsaylı bağlar var.

2. Behişt bağları daim yaşıldır. Bu bağlarda xəzan və quraqlıq yoxdur.

3. Dünyanın haram ləzzətlərindən çəkinməyin mükafatı sonsuz axirət ləzzətləridir.

4. “İstədikləri şey” təbirinin əhatəsi daha genişdir. Çünki insan bəzən nəfs və göz üçün ləzzəti olmayan irfan və mənəviyyat məqamı diləyir.

5. Yaxşı əməl sahiblərini mükafatlandırmaq Allahın sünnəsi, qanunudur.

● Ayə 32:

﴿الَّذِينَ تَتَوَفَّاهُمُ الْمَلآئِكَةُ طَيِّبِينَ يَقُولُونَ سَلامٌ عَلَيْكُمُ ادْخُلُواْ الْجَنَّةَ بِمَا كُنتُمْ تَعْمَلُونَ﴾

**“(Şirk və günah çirkinliyindən) pak olanlara onların canını alan mələklər deyər: “Salam olsun sizə! Gördüyünüz işlərin mükafatı olaraq behiştə daxil olun.”**

◊ **Nöqtələr**

● Küfr və şirk əhli haqqında olan ötən ayələrə əsasən, “təyyibin” sözü şirk və günahdan uzaq olan təqva əhlinə işarədir. “Təyyib” dedikdə istənilən kin və qatqıdan uzaqlıq, kamillik və xeyir əməllə zinətlənmə nəzərdə tutulur.

◊ **Bildirişlər**

1. Bəzilərinin cəzalandırılması və ya mükafatlandırılması ölüm anından başlayır. Rəvayətlərdə deyilir ki, qəbir ya cəhənnəm dərəsi, ya behişt bağıdır.

2. Ölüm yoxluq yox, ruhun çıxarılmasıdır.

3. Mələklər Allahın məmurlarıdırlar. Allahın hər iş üçün məmurları vardır.

4. Pak insanların ölümü mələklərin salamı ilə müşayiət olunur.

5. Salam vermək mələklərin şüarı və ərş ədəbidir. (Salamda dua, salamatlıq, əmin-amanlıq var.)

6. Behişti bəhanəyə yox, bahaya (dəyərinə) verirlər.

● Ayə 33:

﴿هَلْ يَنظُرُونَ إِلاَّ أَن تَأْتِيَهُمُ الْمَلآئِكَةُ أَوْ يَأْتِيَ أَمْرُ رَبِّكَ كَذَلِكَ فَعَلَ الَّذِينَ مِن قَبْلِهِمْ وَمَا ظَلَمَهُمُ اللّهُ وَلكِن كَانُواْ أَنفُسَهُمْ يَظْلِمُونَ﴾

**“Yoxsa kafirlər (ruhlarını çıxaracaq) mələklərin Rəbbinin əmrinin soraqlarına gəlməsindən başqa bir şeymi gözləyirlər?! Onlardan əvvəlkilər də belə etdilər. Allah onlara zülm etmədi, amma onlar özlərinə zülm edirdilər.”**

◊ **Nöqtələr**

● “Bəqərə” surəsinin 210-cu, “Ənam” surəsinin 158-ci ayələri də bu ayənin oxşarıdır.

● Peyğəmbərin nəsihətindən oyanmayanlar Allahın əzab qamçısından oyanarlar. Amma bunun nə faydası?!

◊ **Bildirişlər**

1. Kafirlər Allahın qəhr-qəzəbini görməyincə öz küfrlərindən əl çəkməzlər.

2. Allahın dünyadakı qəhr-qəzəbi intiqam üçün yox, tərbiyə üçündür.

3. Şirk, küfr və təkəbbürçülük cərəyanı tarix boyu fəal olmuşdur.

4. İlahi əzab bizə zülm deyil. Zülm öz əməllərimizdir.

5. Küfr və təkəbbür öz insanlığımıza zülmdür.

6. Zülm və tüğyanın davamı təhlükəlidir.

7. Höccət tamamlandıqdan, peyğəmbərlər və kitablar göndərildikdən sonra əzabın gəlişi zülm yox, məhz ədalətdir.

● Ayə 34:

﴿فَأَصَابَهُمْ سَيِّئَاتُ مَا عَمِلُواْ وَحَاقَ بِهِم مَّا كَانُواْ بِهِ يَسْتَهْزِؤُونَ﴾

**“Gördükləri pis işlərin cəzasına çatdılar, məsxərəyə qoyduqları (əzab) onları bürüdü.”**

◊ **Nöqtələr**

● “Səyyiat” dedikdə kiçik günahlar nəzərdə tutulur. “Nisa” surəsinin 31-ci ayəsində oxuyuruq: “Qadağan olunmuş böyük günahlardan çəkinsəniz, kiçik günahlarınızın üstünü örtərik.” Deməli, insana dünyada verilən cəza onun pis əməllərinin bir hissəsinə cavabdır. Əsas cəza isə qiyamətdədir.

● “Haqə bihim” dedikdə məsxərəyə qoyduqları əzabın onları bürüməsi nəzərdə tutulur.

◊ **Bildirişlər**

1. Pis əməllərin acı tüstüsü insanın öz gözünə dolur.

2. Başqalarını məsxərəyə qoymağın cəzası elə bu dünyada insana yetişir.

3. Başqalarını məsxərəyə qoysaq, özümüz çətinliyə düşərik.

● Ayə 35:

﴿وَقَالَ الَّذِينَ أَشْرَكُواْ لَوْ شَاء اللّهُ مَا عَبَدْنَا مِن دُونِهِ مِن شَيْءٍ نَّحْنُ وَلا آبَاؤُنَا وَلاَ حَرَّمْنَا مِن دُونِهِ مِن شَيْءٍ كَذَلِكَ فَعَلَ الَّذِينَ مِن قَبْلِهِمْ فَهَلْ عَلَى الرُّسُلِ إِلاَّ الْبَلاغُ الْمُبِينُ﴾

**“Müşriklər dedilər: “Əgər Allah istəsəydi nə biz, nə də bizim atalarımız Ondan qeyrisinə pərəstiş etməz, Onun hökmü olmadan heç nəyi haram saymazdıq.” Onlardan əvvəlkilər də belə rəftar edirdilər. Məgər peyğəmbərlərin aşkar bəyandan savay nə vəzifəsi var?!”**

◊ **Nöqtələr**

● “Cəbr” (“məcburiyyət”) məsələsi müşriklər tərəfindən uydurulmuş bir məsələ idi. Onlar deyirdilər ki, Allah istəsəydi, biz Ondan qeyrisinə pərəstiş etməz, müşrik olmazdıq. Bu nöqtələr “Ənam” surəsinin 148-ci, “Zuxruf” surəsinin 10-cu ayəsində də qeyd olunmuşdur.

● **Sual:** Xalqın azğınlığının qarşısının alınmaması Allahın razılıq nişanəsi deyilmi?

**Cavab:** Xeyr! Çünki Allah xalqın hidayəti üçün vasitələr müəyyənləşdirmiş, peyğəmbərlər və kitablar göndərmişdir. Təbii ki, azğınlıq istəyən belə etməzdi. Amma kimsə iman gətirməyə də məcbur edilməmişdir. Çünki məcburi iman dəyərsizdir.

◊ **Bildirişlər**

1. Küfr və şirkdən də təhlükəlisi bu iki şeyə don geyindirib, onları Allaha aid etməkdir.
2. Müşriklər arasında da “cəbrilik” (“məcburiyyət”) əqidəsi olmuşdur.
3. Azğınlar özlərindən əlavə, ata-babalarının da işinə don geyindirirlər.
4. Bir çox insanlar ağına-bozuna baxmadan ata-babalarının əqidəsini qəbul edirlər.
5. Haram şeyləri halal etməyə icazə verilmədiyi kimi, halal şeyləri də haram etmək caiz deyil.
6. Azğınlar tarix boyu pis işlərini yaxşıya yozmaqla, don geyindirməklə məşğul olmuşlar.
7. Təbliğ yetərli və aydın olmalıdır.
8. Peyğəmbərlərin vəzifəsi xalqı məcburi şəkildə imana yönəltmək yox, dəvət və təbliğdir.

● Ayə 36:

﴿وَلَقَدْ بَعَثْنَا فِي كُلِّ أُمَّةٍ رَّسُولاً أَنِ اعْبُدُواْ اللّهَ وَاجْتَنِبُواْ الطَّاغُوتَ فَمِنْهُم مَّنْ هَدَى اللّهُ وَمِنْهُم مَّنْ حَقَّتْ عَلَيْهِ الضَّلالَةُ فَسِيرُواْ فِي الأَرْضِ فَانظُرُواْ كَيْفَ كَانَ عَاقِبَةُ الْمُكَذِّبِينَ﴾

**“Həqiqətən, Biz hər ümmət arasında bir peyğəmbər seçdik ki, (xalqa desin:) «Allaha pərəstiş edin və zalım hakimlərdən, Tağutdan uzaq olun.» Xalqın bir dəstəsi Allah tərəfindən hidayət olunanlardır.**

**Bəziləri isə azğınlığa layiqdir. Yer üzündə səfərə çıxın ki, təkzib edənlərin işinin aqibətini görəsiniz.”**

◊ **Nöqtələr**

● “Umm” kökündən olan “ümmət” sözü ardıcıllıq mənasını bildirir. Hər hansı şəkildə birliyi olan topluma “ümmət” deyilir. Bu söz Quranda 64 dəfə işlədilmişdir.

● “Tağut” “tüğyan” sözünün mübaliğəsidir. Quranda tüğyan və itaətsizlik səbəbi olan şeytan, sitəmkar, təkəbbürlü şəxs, bütlər tağut adlandırılmışdır. Bu söz həm tək, həm də cəmə münasibətdə işlədilir.

● Allah bütün insanlar üçün hidayət vasitələri göndərmişdir. Kimi qəbul edib hidayət olunur, kimi inkar edib yolunu azır. Deməli, hidayət Allahdan, azğınlıq isə bizdəndir. Bir misal çəkək: yer daim işıq saçan günəşin ətrafında dövr edir. Onun günəşə tərəf olan hissəsi işıqlanır, əks tərəfi qaranlıq qalır. Yer kürəsinin işığı günəşdən, qaranlığı isə özündəndir.

Hər halda Allah ləyaqətini itirməmiş insanın azğınlığını Özünə aid etmir. Quranda buyurulur ki, Allah yalnız fasiqləri, həddi aşanları cəzalandırır.

◊ **Bildirişlər**

1. Peyğəmbərlər bir irqə, bir məntəqəyə, bir qəbiləyə göndərilməmişlər.
2. Peyğəmbərlərin proqramlarında tövhidə dəvət və Tağutdan uzaqlıq birinci pillədə dayanır.
3. Allahpərəstlik zalım hakimlərə tabeçiliklə bir araya sığmır.
4. İnsan ibadət və Allaha bağlılıqla zalımlara qarşı mübarizə gücü əldə edir.
5. Allah insana yol seçimində azadlıq vermişdir.
6. İnsanın seyr və səfəri ibrət üçün olmalıdır.
7. Tarixdə qanunauyğunluq var, cəmiyyətə hakim qanunlar sabitdir.
8. Quran bəşəriyyəti məqsədli səyahətə dəvət edir.

● Ayə 37:

﴿إِن تَحْرِصْ عَلَى هُدَاهُمْ فَإِنَّ اللّهَ لاَ يَهْدِي مَن يُضِلُّ وَمَا لَهُم مِّن نَّاصِرِينَ﴾

**“(Ey peyğəmbər!) Onların hidayətinə (doğru yola gəlməsinə) hərislik göstərsən də, şübhəsiz, Allah azdırdığı kəsi hidayət etməz. Onlar üçün heç bir yardımçı yoxdur.”**

◊ **Nöqtələr**

● Əvvəlki ayənin: “Bir dəstənin inkar və küfr səbəbindən yolunu azması qətidir,” ardınca bu ayədə Peyğəmbərə (s) xitabən buyurulur:

“Onlara can yandırma, sənin canıyananlığın əbəsdir. Çünki Allah onların qəlbini möhürləmişdir və hidayət olası deyillər.”

● Bəzən problem təbliğatçıda yox, xalqın qabiliyyətində olur, Peyğəmbər məsumdur, onun zəif nöqtəsi yoxdur, ən üstün əxlaqa malikdir və canıyanandır. Bununla belə xalq onu qəbul etmir.

◊ **Bildirişlər**

1. İnsan bəzən o qədər süqut edir ki, dünyada hidayət, axirətdə qurtuluş qabiliyyətini itirir.

2. Təbliğatçı bilməlidir ki, bir qrup insan heç bir məntiqi qəbul etmir. Belələrinin iman gətirməsini gözləməyə dəyməz.

3. Şəfaət üçün insanın ləyaqəti olmalıdır və şəfaətdən hər kəs bəhrələnə bilmir.

● Ayə 38:

﴿وَأَقْسَمُواْ بِاللّهِ جَهْدَ أَيْمَانِهِمْ لاَ يَبْعَثُ اللّهُ مَن يَمُوتُ بَلَى وَعْدًا عَلَيْهِ حَقًّا وَلكِنَّ أَكْثَرَ النَّاسِ لاَ يَعْلَمُونَ﴾

**“Ən şiddətli şəkildə Allaha and içdilər ki, hər kəs ölərsə, Allah onu diriltməyəcək. Bəli, (ölülərin dirildiləcəyi) Allahın haqq vədidir. Amma xalqın çoxu bilməz.”**

◊ **Nöqtələr**

● İmam Sadiqdən (ə) nəql olunmuş bir rəvayətə əsasən, rəcət (İmam Mehdinin (ə) qiyamı dövründə bir dəstə insanın dirildilməsi) bu ayənin nümunələrindəndir. Amma şiə müxalifləri bu həqiqəti inkar edirlər.

◊ **Bildirişlər**

1. And sədaqət və düzlük nişanəsi olmaya da bilər.

2. Cəhalət və küfrdən də pisi bu iki iş üzərində isrardır.

3. Tövhid məsələsini məad məsələsindən ayırmaq cahiliyyətə aid əqidədir.

4. Qiyamət və ilahi vəd yeri cəza və mükafat üçündür.

5. Qiyamətdə ölülərin dirildilməsi həqiqətdir.

6. Məadı inkar etməyin kökü cəhalətdir.

● Ayə 39:

﴿لِيُبَيِّنَ لَهُمُ الَّذِي يَخْتَلِفُونَ فِيهِ وَلِيَعْلَمَ الَّذِينَ كَفَرُواْ أَنَّهُمْ كَانُواْ كَاذِبِينَ﴾

**“(Ölülərin dirildilməsi) xalqın ixtilafda olduğu məsələni aydınlaşdırmaq və küfr edənlərin özlərinin yalançı olduqlarını bilmələri üçündür.”**

◊ **Nöqtələr**

● Kafirlər Allahın birliyini, peyğəmbərlərin haqlılığını, qiyamətin bərpasını, əməllərin hesaba çəkilməsini qəbul etmir, bu məsələlərə şübhə ilə yanaşırdılar. Ayədə buyurulur ki, qiyamətdə bütün bu məsələlər aydınlaşar və anlayarlar ki, dünyadakı əqidələri puç olub. Amma bunun nə faydası?!

◊ **Bildirişlər**

1. Qiyamət günü bütün həqiqətlərin aydınlaşdığı gündür.
2. Küfr yalan və inkar üzərində qurulmuşdur.

● Ayə 40:

﴿إِنَّمَا قَوْلُنَا لِشَيْءٍ إِذَا أَرَدْنَاهُ أَن نَّقُولَ لَهُ كُن فَيَكُونُ﴾

**“(Ölüləri diriltmək Bizim üçün çətin deyil, çünki) bir iş görmək istəsək, həqiqətən, həmin iş üçün sözümüz yalnız “ol” deməkdir. O da (yubanmadan) vücuda gələr.”**

◊ **Nöqtələr**

● Allah-təala bu ayədə “sözümüz”, “Yasin” surəsinin 82-ci ayəsində “əmrimiz” təbirlərini işlədir. Deməli, Allahın əmr və sözü Onun istək və iradəsindən ibarətdir.

● Ayədə bildirilir ki, Allah bir işin olması üçün yalnız “ol” əmrini verir. Əslində isə Allahın bir işi görmək üçün söz deməyə ehtiyacı yoxdur. “Ol” sözünün bəyanında məqsəd hadisəni dərk edə biləcəyimiz şəkildə anlatmaqdır.

● İnsan öz zehnində təsəvvür yaratmaq üçün bunu istəsə bəs edir. Allahın isə bir şeyi yaratmaq üçün istəyi kifayətdir.

◊ **Bildirişlər**

1. Əgər istənilən bir iş Allahın bir istəyi ilə baş verirsə, hansı əsasla məada şəkk etməliyik?!
2. Allah mövcudları hər hansı tərkibləri dəyişməklə yox, sadəcə yoxdan var edir.

● Ayə 41:

﴿وَالَّذِينَ هَاجَرُواْ فِي اللّهِ مِن بَعْدِ مَا ظُلِمُواْ لَنُبَوِّئَنَّهُمْ فِي الدُّنْيَا حَسَنَةً وَلَأَجْرُ الآخِرَةِ أَكْبَرُ لَوْ كَانُواْ يَعْلَمُونَ﴾

**“Sitəm gördükdən sonra Allah yolunda hicrət edənlərə, şübhəsiz ki, həmin dünyada gözəl bir məskən verəcəyik. Əgər bilsəydilər, əlbəttə ki, axirət mükafatı daha böyükdür.”**

● Ayə 42:

﴿الَّذِينَ صَبَرُواْ وَعَلَى رَبِّهِمْ يَتَوَكَّلُونَ﴾

**“(Onlar) Səbir yolunu tutanlar və Rəbblərinə təvəkkül edənlərdir.”**

◊ **Nöqtələr**

● Quran müxtəlif ayələrdə hicrət və onun dünya və axirət təsirləri haqqında danışır. Necə ki, “Nisa” surəsinin 100-cu ayəsində buyurulur: “Hər kəs Allah yolunda hicrət etsə, yer üzündə çox geniş bir məskən tapar.”

● Bu ayədə “hacəru fillah” təbiri işlədilmişdir. Bu isə “Allah yolunda hicrət” təbirindən daha dəqiqdir.

◊ **Bildirişlər**

1. Dinini yaymaq və ya hifz etmək, eləcə də, canını qorumaq üçün vətənindən, mal-mülkündən keçib hicrət edənlər müvəffəq olur.

2. Əgər zalımla qarşı-qarşıya gəlmək gücü yoxdursa, onun hakimiyyətini qəbul etmək yox, hicrət etmək lazımdır.

3. Hicrət düşmən qarşısında qələbə, səbir və təvəkkül rəmzidir.

4. Sitəmkarlar qarşısında biganələrə yox, imanınıza, təvəkkül və müqavimətinizə arxalanın.

5. Hicrət çətinliklərinə dözmədən qurtuluş əldə olunmur.

● Ayə 43:

﴿وَمَا أَرْسَلْنَا مِن قَبْلِكَ إِلاَّ رِجَالاً نُّوحِي إِلَيْهِمْ فَاسْأَلُواْ أَهْلَ الذِّكْرِ إِن كُنتُمْ لاَ تَعْلَمُونَ﴾

**“Biz səndən öncə də yalnız vəhy etdiyimiz (mələk və ya digər mövcud yox) kişilər göndərdik. (Onlar sənin gəlişinə təəccüb edirlər. Onlara de ki,) əgər (öyrənə) bilmirsinizsə, zikr əhlindən soruşun.”**

◊ **Nöqtələr**

● Bu ayə bəşər düşüncəsinin qəbul etdiyi ümumi bir prinsipi bəyan edir. Bu prinsip alim və mütəxəssislərə müraciətdir. Yəni nəyi bilmirsinizsə, həmin işin mütəxəssislərindən soruşun. Əlbəttə ki, dini məsələlərdə "zikr əhlinin" ən bariz nümunəsi Peyğəmbər (s) Əhli-beytidir. Bu məzmunda şiə və sünni rəvayətləri çoxdur.[1]

● Təbəri, İbn-Kəsir və Alusi də öz təfsirlərində zikr əhlinin Peyğəmbər (s) Əhli-beytinə işarə olduğunu bildirirlər.

● "Bihar" kitabının 23-cü cildində 172-ci səhifəsindən başlayaraq 60-a yaxın rəvayətdə bu barədə danışılır. Məsum imamlar buyururlar: "And olsun Allaha, «Əhli-zikr» bizik və xalq öz suallarını bizdən soruşmalıdır."

◊ **Bildirişlər**

1. Bütün ilahi peyğəmbərlər mələk yox, insan cinsindən olmuşlar.
2. Bütün peyğəmbərlər yetkin və şücaətli kişilər olmuşlar. (Baxmayaraq ki, bəziləri, məsələn İsa və Yəhya uşaq yaşında peyğəmbərliyə çatmışlar.)
3. İlahi vəhyin bir insana nazil olması təəccüblü deyil. Bu, bəşərin hidayəti üçün nəzərdə tutulmuş ilahi sünnədir.
4. Cəhalət olan yerdə soruşub öyrənmək vəzifədir.
5. Dini məsələləri dinlə səthi tanışlığı olanlardan yox, din bilicilərindən soruşmaq lazımdır.
6. İnsanın bildiyi şeyi soruşmasının mənası yoxdur. Yalnız fikrini dəyişmək istəyən şəxs belə edə bilər.
7. Əgər zikr əhlindən soruşmaq zəruridirsə, cavabı da qəbul etmək zəruridir. Əks təqdirdə sual vermək mənasızdır.
8. Müstəqil öyrənə bilmədiyimiz şeyi soruşaq. Axtarış aparmadan sual vermək düzgün deyil. Ayədə deyilmir ki, bilmədiyinizi soruşun, deyilir ki, öyrənə bilmədiyinizi soruşun.

● Ayə 44:

﴿بِالْبَيِّنَاتِ وَالزُّبُرِ وَأَنزَلْنَا إِلَيْكَ الذِّكْرَ لِتُبَيِّنَ لِلنَّاسِ مَا نُزِّلَ إِلَيْهِمْ وَلَعَلَّهُمْ يَتَفَكَّرُونَ﴾

**"(Biz səndən öncəki peyğəmbərləri) möcüzə və kitabla (göndərdik). Sənə zikri (Quranı) nazil etdik ki, xalq üçün onlara nazil olanı aydın bəyan edəsən. Ola bilsin ki, düşünələr."**

◊ **Nöqtələr**

1 "Mulhəqati-ihqaqul-həqq", s. 482

● “Bəyyinat” dedikdə peyğəmbərliyin aşkar dəlilləri və möcüzələri nəzərdə tutulur. “Zəbur” sözünün cəm forması olan “zubur” sözü səmavi kitab mənasını bildirir.

● Ayə iki növ vəhyə işarə ola bilər: hamı üçün nəzərdə tutulmuş vəhy və Quranın təfsir və bəyanı üçün nəzərdə tutulmuş vəhy. İkinci növ vəhy Peyğəmbərə (s) məxsusdur. Yəni “Biz sənə zikr nazil etdik ki, xalqa nazil olmuş Quran təfsirini bəyan edəsən.”

◊ **Bildirişlər**

1. Peyğəmbərlərin həm möcüzələri, həm də kitabları olub. Bununla xalqın haqqı batildən seçməkdə yanlışlığa düçar olmaması nəzərdə tutulub.

2. Peyğəmbərlərin həm “bəyyinə” - əqli dəlilləri, həm də “zubur” - nəqli dəlilləri olub.

3. Quran şəxsən Peyğəmbərə (s) nazil olsa da, bu kitabda bütün xalqa müraciət olunur.

4. Quran bir dəfə Peyğəmbərə (s) bütövlükdə nazil olmuşdur. İkinci dəfə bu səmavi kitab tədricən nazil olmuş və xalq bu işdən xəbərdar olmuşdur. (Ərəb dilində, “inzal” dedikdə - birdəfəyə, “tənzil” dedikdə tədrici nazil olma nəzərdə tutulur.)

5. Quran Peyğəmbərin (s) bəyanına ehtiyaclıdır. Quranı sünnə və rəvayətlərdən ayırmaq caiz deyil.

6. Peyğəmbərin (s) vəzifəsi Quranı bəyan etmək, xalqın vəzifəsi deyilənləri düşüncə əsasında qəbul etməkdir.

7. Quran zikrdir. Bu zikr insanın diqqətini artırır və onu qəflətdən oyadır.

● Ayə 45:

﴿أَفَأَمِنَ الَّذِينَ مَكَرُواْ السَّيِّئَاتِ أَن يَخْسِفَ اللّهُ بِهِمُ الأَرْضَ أَوْ يَأْتِيَهُمُ الْعَذَابُ مِنْ حَيْثُ لاَ يَشْعُرُونَ﴾

**“Pislikləri hiylə ilə həyata keçirənlər Allahın onları yerə gömməsindən və ya gözləmədikləri yerdən ilahi əzaba düçar olmalarından amandadırlarmı?”**

● Ayə 46:

﴿أَوْ يَأْخُذَهُمْ فِي تَقَلُّبِهِمْ فَمَا هُم بِمُعْجِزِينَ﴾

**“Səy göstərdikləri zaman əzabın onları qəfil yaxalamasından qorxmurlarmı? Belə ki, o əzabı uzaqlaşdırmağı bacarmazlar.”**

● Ayə 47:

﴿أَوْ يَأْخُذَهُمْ عَلَى تَخَوُّفٍ فَإِنَّ رَبَّكُمْ لَرَؤُوفٌ رَّحِيمٌ﴾

**“Əzab onları təşviş içində olduqları halda yaxalamazmı? Əlbəttə, sizin Rəbbiniz rəuf (rəfətli) və mehribandır.”**

◊ **Nöqtələr**

● Allah-təala bu ayələrdə din əleyhinə qurğu Quranlar üçün 4 növ əzabdan danışır: yer əzabı, göy əzabı, qəfil əzab, ruhi əzab.

◊ **Bildirişlər**

1. Yalnız höccət tamamlandıqdan, bəhanəyə yer qalmadıqdan sonra ilahi əzab nazil olur. (Ötən ayələrdə peyğəmbərlik mövzusu bəyan olunduqdan sonra bu ayədə müxaliflər hədələnir.)

2. Fitnədən əl çəkmək üçün ilahi əzab ehtimalı bəs edir.

3. Din əleyhinə çalışanlar bilsinlər ki, Allahın elm və qüdrəti qarşısında onların qurğuları puçdur.

4. Allahın qəhr-qəzəbinin vaxtını, yerini və növünü müəyyənləşdirib aradan çıxmaq mümkünsüzdür.

5. Heç bir fərd və amil ilahi qəzəbin qarşısını ala bilməz.

6. Əzab qəfildən və istənilən bir şəraitdə nazil olur. (İstər səfərdə, istər vətəndə, istər yuxuda, istər oyaq vaxt...)

7. Bəzən əzab olaraq qorxu və dəhşət müəyyənləşir və bu hal insanın məhvinə səbəb olur.

8. İnsanın tövbə etməsi üçün əzabı təxirə salıb möhlət vermək Allahın lütfüdür.

9. Allahın qəhr-qəzəbi və tənbehi də tərbiyə və mərhəmət xarakterlidir.

● Ayə 48:

﴿أَوَ لَمْ يَرَوْاْ إِلَى مَا خَلَقَ اللّهُ مِن شَيْءٍ يَتَفَيَّأُ ظِلاَلُهُ عَنِ الْيَمِينِ وَالْشَّمَآئِلِ سُجَّدًا لِلّهِ وَهُمْ دَاخِرُونَ﴾

**“Allahın yaratdığı şeylərin sağdan və soldan kölgələrinin səcdə edən halda döşəndiyini görmürlərmi?!”**

◊ **Nöqtələr**

● İstənilən bir növ kölgə “zill”, günortadan sonra isə “fəy” adlanır.

● “Daxir” dedikdə müti hal, “yəmin” və “şimal” dedikdə isə günün sübh və qürub kimi iki tərəfi nəzərdə tutula bilər.

● Kölgə yerə döşənmiş halda olduğundan onun haqqında səcdə sözü işlənə bilər. Ümumiyyətlə, təkvini (təbii) baxışda bütün mövcudlar Allahın qarşısında səcdədədirlər.

◊ **Bildirişlər**

1. Təkcə əşya yox, onun kölgə kimi müxtəlif xüsusiyyətləri də Allah qarşısında mütidir.

2. İlahi yaranmışların və onlarda baş verən dəyişikliklərin nəzərdən keçirilməsi Quranın tapşırıqlarındandır.

3. Varlıq aləmindəki əşya, hətta onun kölgəsi Allaha səcdədədirsə, nə üçün insan boyun əyməsin?

4. Biz dərk etməsək də, varlıq aləmi düşüncəli şəkildə itaət göstərir. (Fəxr Razinin təbirincə, "daxirun" təbiri şüurlu mövcudlara münasibətdə işlədilir.)

● Ayə 49:

﴾وَلِلّهِ يَسْجُدُ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الأَرْضِ مِن دَآبَّةٍ وَالْمَلآئِكَةُ وَهُمْ لاَ يَسْتَكْبِرُونَ﴿

**"Göylərdə və yerdə olan canlılar, həm də mələklər yalnız Allaha səcdə edər və təkəbbür göstərməzlər."**

● Ayə 50:

﴾يَخَافُونَ رَبَّهُم مِّن فَوْقِهِمْ وَيَفْعَلُونَ مَا يُؤْمَرُونَ﴿

**"Onlar hakim və əhatə edən Allahdan qorxar, Onun əmrlərini yerinə yetirərlər."**

◊ **Nöqtələr**

● "Dabbə" dedikdə bir məkandan digərinə hərəkət edən canlı nəzərdə tutulur. Bu söz insana, heyvana və cinə aid edilir. Mələklər isə bu dairəyə aid deyil.

● Göydə və yerdə olan bütün mövcudların səcdəsi dedikdə, ya onların təbiət qanunları qarşısında təslimçiliyi, ya da şüurlu səcdəsi nəzərdə tutulur. Bizim düşüncəmizə sığmasa da, ayələrin zahirindən ikinci məna təsdiqlənir.

● Əgər Allah qarşısında bütün mövcudlar da mələklər kimi səcdədədirsə, nə üçün biz insanlar səcdə etməyək?!

*Hökmünə müti olub hamı itaətdə ikən,*
*İnsaf olmaz çəkinib haqqa boyun əyməyəsən.*

◊ **Bildirişlər**

1. Varlıq aləmi yalnız vahid Allahın qarşısında müti dayanıb səcdə edir.

2. Göylərdə də diri və hərəkətdə olan mövcudlar var.[1]

3. Mələklər Allah qarşısında tam təslimdirlər.

4. İnsan Allahdan öz günahlarına görə qorxursa, mələklər yalnız Onun məqam və əzəmətindən çəkinirlər.[2]

5. Mələklərin nə ruhunda, nə də əməlində təkəbbür var.

6. İlahi göstərişlərdən boyun qaçırmağın kökü təkəbbürdür. Bu kök qırıldıqda əməl başlayar.

7. Mələklər Allahın məmurlarıdır və vəzifə daşıyırlar.

● Ayə 51:

﴾وَقَالَ اللّهُ لاَ تَتَّخِذُواْ إِلهَيْنِ اثْنَيْنِ إِنَّمَا هُوَ إِلهٌ وَاحِدٌ فَإيَّايَ فَارْهَبُونِ﴿

**“Allah buyurdu: “İki məbud götürməyin. Yalnız Odur yeganə məbud. Belə isə, yalnız Məndən qorxun.”**

◊ **Nöqtələr**

● “İki məbud götürməyin” əmrindən belə bir nəticə çıxmır ki, üç məbud götürmək olar. Azın qadağasında çoxun da qadağası var. Bu təbirdə başqa məqsəd də ola bilər: müşriklər belə düşünürdülər ki, bir məbud yaradır, digər məbud isə idarə edir. Onlar idarə edən məbuda ibadət edirdilər.[3]

● Bir neçə ayə öncə müşriklərin “Əgər Allah istəsəydi, biz müşrik olmazdıq” bəhanəsi yada salındı. Bu ayədə isə belə deyilir: “Allah sizə şirki qadağan etmişdir.” Bəs necə ola bilər ki, Allah kiminsə müşrik olmasını istəsin?!

◊ **Bildirişlər**

1. Tərbiyə prosesində öncə xurafatlı düşüncə tərzini aradan qaldırmaq lazımdır. Yalnız bundan sonra haqq söz təsir edə bilər.

2. İki məbuda ibadət batildirsə, ikidən çox məbuda ibadət haqq ola bilməz.

3. Yaradan və idarə edən kimi iki məbuda etiqad (xeyir və şər, Hörmüz və Əhrimən) batildir.

4. Batilin inkarı və haqqın sübutu üçün təkid lazımdır.

5. Allahdan qeyrisindən qorxmaq şirkdir.

● Ayə 52:

﴾وَلَهُ مَا فِي الْسَّمَاوَاتِ وَالأَرْضِ وَلَهُ الدِّينُ وَاصِبًا أَفَغَيْرَ اللّهِ تَتَّقُونَ﴿

---

1 Bax: “Şura”, 29

2 Bax: “Naziat”, 40

3 “Təfsiri-Əl-Mizan”

**“Göylərdə və yerlərdə olan Onundur. Pərəstiş və itaət daim Onun üçündür. Yoxsa Allahdan qeyrisindənmi qorxursunuz?”**

◊ **Nöqtələr**

● Ayədə “din” deyərkən pərəstiş və bəndəlik nəzərdə tutulmuşdur. Din və məzhəbin qəbulunda pərəstiş və bəndəlik şərtdir. “Vasib” dedikdə daimilik və şiddət nəzərdə tutulur. Bu təbirlə “Saffat” surəsinin 9-cu ayəsində də rastlaşırıq.

◊ **Bildirişlər**

1. Hər bir mövcud üçün xüsusi rəbb nəzərdə tutan xurafi əqidənin əksinə olaraq göylərdə və yerdə olan bütün varlıqların Allahı birdir.
2. Yalnız bir olan Xaliqin qarşısında pərəstiş və bəndəlik caizdir.
3. Şəriət və qanunçuluq varlıq aləminin sahibi olan kəsin haqqıdır. Varlığı yaradan onun qanunlarını da bəyan etməlidir.
4. Şirkin heç bir dəlili və izahatı yoxdur.

● Ayə 53:

﴿وَمَا بِكُم مِّن نِّعْمَةٍ فَمِنَ اللّهِ ثُمَّ إِذَا مَسَّكُمُ الضُّرُّ فَإِلَيْهِ تَجْأَرُونَ﴾

**“İxtiyarınızda olan bütün nemətlər Allahdandır. Əgər bir nigarançılıq və ya bəlaya düçar olsanız, yalnız Ona yalvarasınız.”**

● Ayə 54:

﴿ثُمَّ إِذَا كَشَفَ الضُّرَّ عَنكُمْ إِذَا فَرِيقٌ مِّنكُم بِرَبِّهِمْ يُشْرِكُونَ﴾

**“Amma elə ki, Rəbbiniz sizi nigarançılıq və möhnətdən qurtarır, qəfildən bir dəstəniz Ona şərik qoşur. (Başqa səbəbləri və fərdləri bəlanın aradan qaldırılmasında iştirakçı sayır.)**

◊ **Nöqtələr**

● “Zurr” dedikdə nemətin itirilməsindən yaranan nigarançılıq nəzərdə tutulur. “Təcərun” sözü nalə, yalvarış mənasını bildirir.

● Bu ayənin məzmunu digər ayələrdə də təkrarlanmışdır:”Dənizin ortasında təhlükəyə düşdükdə Ondan başqa xəyalınızda olanlar məhv olur. Amma elə ki, sizi sahilə çatdırdı, üz çevirib nankorluq edirsiniz.”[1]

● Həzrət Peyğəmbər (s) buyurur: “Allahın nemətlərinin yalnız yemək və geyimdən ibarət olduğunu düşünən kəs həm səhlənkarlıq edib, həm də Allahın qəhr-qəzəbinə yaxınlaşıb.”[2]

◊ **Bildirişlər**

---

1 “İsra”, 67
2 “Təfsiri-Nurus-Səqəleyn”

1. İlahi nemətləri öz səy, təhsil və müdiriyyətinizin nəticəsi, bəxt və ya təsadüf saymayın.

2. Bütün nemətlər, hətta əhəmiyyətsiz saydığınız şeylər sizə Allahın iradəsi ilə verilmişdir.

3. Həm nemətlər Ondandır, həm də təhlükələr zamanı yeganə sığınacaq Odur.

4. Bəla və çətinlik allahpərəstlik fitrətini oyadır.

5. İnsan zəifdir və azacıq bir müsibətlə üzləşdiyi zaman çarəsiz qalır.

6. Nemətlər Allahdandır, çətinlik və zərərlər isə özümüzdən.

7. Allaha iman və yalvarış davamlı olmalı, müvəqqəti xarakter daşımamalıdır.

8. Rifah və asayiş Allahdan qəflət və şirkə meyl zəminidir.

9. Allaha diqqət fitri olduğundan hamıya aiddir. Şirk isə yalnız bəzilərinə aiddir.

10. Bəla və müsibətlərin Allahdan savay bir varlıq tərəfindən aradan götürüldüyünü düşünmək şirkdir.

● Ayə 55:

﴿لِيَكْفُرُواْ بِمَا آتَيْنَاهُمْ فَتَمَتَّعُواْ فَسَوْفَ تَعْلَمُونَ﴾

**“(Nemət və çətinliklərin aradan qaldırılması kimi) onlara verdiyimizə nankorluq üçün belə edirlər. Ləzzət alın, tezliklə biləcəksiniz (nankorluq və şirkinizin cəzası nədir).”**

◊ **Nöqtələr**

● Ötən ayələr və hazırkı ayə ilahi dəvət və tərbiyə yolunu göstərir: Allah yeganədir, hər şeyin sahibidir, mürəbbidir, nemət verəndir, fəryada yetişəndir... Yenədəmi başqalarının sorağına gedək?!

◊ **Bildirişlər**

1. Şirkin sonu Allaha qarşı küfr və Onun nemətlərinə qarşı nankorluqdur.

2.Allahdan qeyrisinə bağlılıq Onun nemətlərinə qarşı nankorluqdur.

3. Xalq daim nankorluq etsə də, Allah Öz nemətlərini kəsmir.

4. Küfr qatqılı ləzzətlərin sonu ilahi qəhr-qəzəbdir. “İbrahim” surəsinin 30-cu ayəsində də bu nöqtəyə işarə olunur.

● Ayə 56:

﴿وَيَجْعَلُونَ لِمَا لاَ يَعْلَمُونَ نَصِيبًا مِّمَّا رَزَقْنَاهُمْ تَاللّهِ لَتُسْأَلُنَّ عَمَّا كُنتُمْ تَفْتَرُونَ﴾

**“(Müşriklər) onlar üçün müəyyənləşdirdiyimiz ruzi payından heç nə bilməyən bütlər üçün ayırırlar. And olsun Allaha, hökmən iftira yaxdığınız şeylərlə bağlı sorğuya çəkiləcəksiniz.”**

● Ayə 57:

﴿وَيَجْعَلُونَ لِلّهِ الْبَنَاتِ سُبْحَانَهُ وَلَهُم مَّا يَشْتَهُونَ﴾

**“Onlar Allah üçün qızlar qərar verirlər. (Mələkləri Allahın qızları sayırlar.) Halbuki O (övladı olmaq sifətindən) pakdır. Özlərinə isə istədiklərini (oğlanları aid edirlər).”**

◊ **Nöqtələr**

● “Ənam” surəsinin 136-cı ayəsində buyurulur ki, bütpərəstlər əkin və mal-qaradan bütlər üçün pay ayırırlar. Ola bilsin ki, bu ayədə həmin nöqtəyə işarə olunmuşdur. Mərhum Əllamə Təbatəbainin nəzərincə, ayədə xalqın nemətlərin nazil olmasına və bəlaların dəfinə münasibətdə Allahdan-qeyrilərinin rolunu önə çəkməsindən danışılır.

● Müşriklər mələkləri Allahın qızları sayırdılar. “Zuxruf” surəsinin 19-cu ayəsində buyurulur: “Onlar Rəhmanın (Allahın) bəndələri olan mələkləri qadın bildilər.” Onların bu əqidəsində 3 büdrəmə vardı:

a) Allaha övlad aid edirdilər;

b) Mələklərin qadın cinsindən olduğunu bildirirdilər;

v) Özləri üçün əskiklik saydıqları qızları Allaha aid edirdilər.[1]

◊ **Bildirişlər**

1. Nəyimiz varsa Ondandır. Ondan qeyrisinə pay ayırsaq, cavab verəsiyik.

2. Çaşqınlar da Allahın maddi mənfəətlərindən faydalanır.

3. Könül verdiyiniz zahiri və bəşəri vasitələrin ruzi yolundan və bəlaların dəfindən xəbəri yoxdur.

4. Nemətlərin hətta bir hissəsini Allahdan qeyrisinə aid etmək şirkdir.

● Ayə 58:

﴿وَإِذَا بُشِّرَ أَحَدُهُمْ بِالأُنثَى ظَلَّ وَجْهُهُ مُسْوَدًّا وَهُوَ كَظِيمٌ﴾

**“Həmin müşriklərin birinə qızının olması xəbər verilsə, qəzəbini udduğu halda çöhrəsi qüssədən qaralar.”**

● Ayə 59:

---

1 Bax: “İsra”, 40

﴿يَتَوَارَى مِنَ الْقَوْمِ مِن سُوءِ مَا بُشِّرَ بِهِ أَيُمْسِكُهُ عَلَى هُونٍ أَمْ يَدُسُّهُ فِي التُّرَابِ أَلاَ سَاء مَا يَحْكُمُونَ﴾

**"Ona verilən acı xəbərə görə xalqın arasından çıxıb gizlənər. (Qərara gələ bilməz ki, bu qızı xəcalət içində saxlasın, yoxsa onu torpağa basdırsın? Bilin ki, çox pis mühakimə aparırlar."**

◊ **Nöqtələr**

● Cahil ərəblərin qız övlada nifrətlərinin səbəbləri vardı:

a) Qızın heç bir iqtisadi və istehsal rolu yox idi və ailə üçün yük sayılırdı.

b) Qəbilənin taleyini təyin edən döyüşlərdə qız övladın nə vuruşmaq, nə də müdafiə olunmaq qüdrəti vardı.

v) Döyüşlərdə qızlar əsir düşür və düşmənin təcavüzünə məruz qalırdılar.

● Cahiliyyət təfəkkürünün ziddinə olaraq İslam qadına böyük dəyər verdi: İslam Peyğəmbəri (s) buyurur: "Qızlar necə də yaxşı övladdırlar."[1] Allah-təala Peyğəmbərin (s) də nəslini qızı Fatimədən davamlandırdı.

İmam Sadiq (ə) qız övladı olduğu üçün narahatlıq keçirən bir şəxsə buyurdu: "Sən yaxşı bilirsən, yoxsa Allah?" Həmin şəxs dedi: "Allah." İmam buyurdu: "Allah sənin üçün yaxşı nədirsə onu seçib və sənə qız əta edib."[2]

◊ **Bildirişlər**

1. Qız övladı və qadını əskik saymaq cahil və xurafi bir düşüncədir.

2. Övladın dünyaya gəlişi müjdə olsa da, xurafat bu müjdəni zillət səbəbi sayır.

3. Çöhrənin qaralması ilə müşayiət olunan qəzəbin udulmasının nə dəyəri var?! (Özü də xurafat əqidəsinə görə qəzəb!)

4. Xurafat və batil əqidə ailənin xoşbəxtliyi üçün təhlükədir.

5. Bəzən ən böyük cinayətlər ən müqəddəs şüarlar altında gerçəkləşir. (Şəxsiyyəti qorumaq adı ilə övlad diri-diri gora gömülür.)

6. Səmavi dinlər qız və qadınla bağlı xurafat əqidəsini məhkum edir.

● Ayə 60:

﴿لِلَّذِينَ لاَ يُؤْمِنُونَ بِالآخِرَةِ مَثَلُ السَّوْءِ وَلِلّهِ الْمَثَلُ الأَعْلَىَ وَهُوَ الْعَزِيزُ الْحَكِيمُ﴾

---

1 "Bihar", c. 104, s. 94

2 "Vəsail", c. 15, s. 103

**“Axirətə iman gətirməyənlər üçün pis məsəl var. Ən üstün məsəl Allah üçündür. Qüvvət və hikmət sahibi Odur.”**

◊ **Nöqtələr**

● **Sual:** Hazırkı surənin 74-cü ayəsində buyurulur ki, Allah üçün məsəl çəkməyin. Bəs bu ayə necə izah olunur?

**Cavab:** Allah üçün məsəl çəkməmək dedikdə onu bir şeyə oxşatmamaq başa düşülür. Ən üstün məsəl dedikdə sifətlərin Allaha aid olması nəzərdə tutulur.

◊ **Bildirişlər**

1. Bütün çirkinliklərin və pisliklərin qaynağı Qiyamətin inkarıdır.
2. Ən üstün kamilliklər Allaha aiddir.
3. İnsanın gözəlliyi onun imanındadır. İmansızlıq çirkinliklərin köküdür.
4. Allahın qüvvət və qüdrəti Onun hikmətindən ayrı deyil.

● Ayə 61:

﴿وَلَوْ يُؤَاخِذُ اللّهُ النَّاسَ بِظُلْمِهِم مَّا تَرَكَ عَلَيْهَا مِن دَآبَّةٍ وَلَكِن يُؤَخِّرُهُمْ إلَى أَجَلٍ مُّسَمًّى فَإِذَا جَاء أَجَلُهُمْ لاَ يَسْتَأْخِرُونَ سَاعَةً وَلاَ يَسْتَقْدِمُونَ﴾

**“Əgər Allah insanları etdikləri zülmə görə cəzalandırsaydı, yer üzündə heç bir canlı qalmazdı. Amma onların cəzasını müəyyən vaxtadək təxirə salar. Elə ki, əcəlləri çatdı, onu bir saat sonraya ata bilməz, bir saat irəli çəkə bilməzlər.”**

◊ **Nöqtələr**

● Ümumi qanunçuluğa əsasən əzab təxirə salınırsa da, bəzən Allah başqalarına ibrət olsun deyə sitəmkarları cəzalandırır. Lut, Nuh və Səmud qövmünün başına gələnlər buna misal ola bilər.

● **Sual:** Nə üçün ayədə insanın günahına görə bütün canlıların məhv olunması bildirilir?

**Cavab:** Ayədəki “dabbə” sözü ya təkcə insana aiddir, ya da insan nəslinin məhvi ilə bütün canlıların məhvi nəzərdə tutulur. Çünki bütün digər canlılar insana xatir yaradılmışdır.

● İmamdan soruşurlar ki, nə üçün bəzi ölülərin gözü açıq, bəzilərininki bağlı olur? Həzrət buyurur: “Çünki əcəl gələndə gözləri açıq olanlar onu bağlamağa, gözləri bağlı olanlar da onu açmağa fürsət tapmırlar.”

● Bəzi zülmlərin təhlükəsi və təsiri çox böyükdür və bütün canlı aləm üçün qorxuludur. Quranda buyurulur: “Qorxun o günahlardan ki, onun ağrısı yalnız sitəmkarları bürüməz.”

◊ **Bildirişlər**

1. İlahi cəza öz zülmümüzdən qaynaqlanır.

2. Zülm-sitəm ev yıxandır və bəşər nəslinin varlığını hədələyir.

3. Möhlət vermək və cəzanı təxirə salmaq Allahın sünnəsi, qanunudur.

Allahın işində təxir olsa da, ləğv yoxdur. İlahi əzabın gec-tezi var, amma ləğv olunmaz.

4. Allahın möhlətinin sonu var.

5. Allah Öz lütfü əsasında insanların tövbəsi üçün möhlət verir. Bu möhlət sizi qürrələndirməsin.

6. Sitəmkarların azad buraxılması onların haqlı olduğunu göstərmir.

7. Əcəl dəyişməzdir.

● Ayə 62:

﴿وَيَجْعَلُونَ لِلّهِ مَا يَكْرَهُونَ وَتَصِفُ أَلْسِنَتُهُمُ الْكَذِبَ أَنَّ لَهُمُ الْحُسْنَى لاَ جَرَمَ أَنَّ لَهُمُ الْنَّارَ وَأَنَّهُم مُّفْرَطُونَ﴾

**“Müşriklər özləri üçün bəyənmədiklərini Allaha aid edirlər. Yalan olaraq deyirlər ki, ən gözəl olanlar onlar üçündür. Həqiqətən, onlar üçün olan oddur və onlar (oda doğru) öncüldürlər.”**

◊ **Nöqtələr**

● Bu ayə bir neçə ayə öncə bəyan olunmuş xurafi təfəkkürə işarə edir. Qız övladı özləri üçün əskik sayan müşriklər mələkləri Allahın qızları sayırdılar. Onlar oğlan övladı iftixar hesab edir və onu qızdan üstün nemət kimi tanıtdırırdılar.

◊ **Bildirişlər**

1. Özümüz üçün bəyənmədiyimiz şeyləri Allaha aid etməyək.

2. İnsan bəzən xəyala o qədər uyur ki, özünü başqalarından üstün sayır. Ona elə gəlir ki, onu başqalarının aqibətindən xoş aqibət gözləyir. Bu sayaq fərdlər başqa ayələrdə də tanıtdırılır.[1]

● Ayə 63:

﴿تَاللّهِ لَقَدْ أَرْسَلْنَا إِلَى أُمَمٍ مِّن قَبْلِكَ فَزَيَّنَ لَهُمُ الشَّيْطَانُ أَعْمَالَهُمْ فَهُوَ وَلِيُّهُمُ الْيَوْمَ وَلَهُمْ عَذَابٌ أَلِيمٌ﴾

**“And olsun Allaha, həqiqətən, Biz səndən qabaq da ümmətlərə peyğəmbərlər göndərdik. Şeytan onların (müşriklərin) əməllərini onlara gözəl göstərdi. (Şeytan) bu gün də onların hamisidir. Onlar üçün dərdli əzab var.”**

---

1 Bax: “Kəhf”, 104; “Fussilət”, 50

◊ **Nöqtələr**

● Ayə İslam Peyğəmbərinə (s) təsəlli verir ki, xalqın diqqətsizliyi və arxa çevirməsi onu narahat etməsin. Çünki bütün peyğəmbərlər bu sayaq fərdlərlə üzləşmişlər.

◊ **Bildirişlər**

1. Tarix və keçmiş qövmlərlə tanışlıq səbir və dözüm amilidir, ibrət dərsidir.

2. Allah Öz adına and içir.

3. Peyğəmbərlərin besəti ilahi bir cərəyan, sünnə olmuşdur.

4. Çirkinlikləri gözəl göstərmək, azğınlıqlara don geyindirmək şeytanın nüfuz yoludur.

5. Şeytanın yaratdığı görüntüləri qəbul etmək ona itaətin müqəddiməsidir.

6. Şeytanın hakimiyyəti bir anlıq deyil. O hər gün hakimiyyət dairəsini genişləndirməyə çalışır.

7. Şeytanın hakimiyyəti yalnız dünyaya aiddir və qiyamətdə onun əlindən bir iş gəlmir.

● Ayə 64:

﴾وَمَا أَنزَلْنَا عَلَيْكَ الْكِتَابَ إِلاَّ لِتُبَيِّنَ لَهُمُ الَّذِي اخْتَلَفُواْ فِيهِ وَهُدًى وَرَحْمَةً لِّقَوْمٍ يُؤْمِنُونَ﴿

**“Biz sənə yalnız ixtilafda olduqları məsələləri onlara aydınlaşdırmağın üçün Kitab nazil etdik. Bu Kitab iman gətirən qövm üçün hidayət və rəhmət səbəbidir.”**

◊ **Bildirişlər**

1. Quranın nazil olmasında məqsəd haqqı batildən ayırmaqdır.

2. İxtilafların səbəbi Peyğəmbər (s) göstərişlərindən uzaqlıqdır.

3. Allah peyğəmbərlər vasitəsi ilə höccəti tamamlayır, bəhanələri kəsir.

4. Quran həm haqla batil arasında mühakimə kitabı, həm tərbiyə vasitəsi, həm də ilahi rəhmət əldə etmək vasitəsidir.

5. İlahi hidayət və rəhmət əldə etmək üçün insan özündə səadət zəmini yaratmalıdır.

● Ayə 65:

﴿وَاللّهُ أَنزَلَ مِنَ الْسَّمَاء مَاء فَأَحْيَا بِهِ الأَرْضَ بَعْدَ مَوْتِهَا إِنَّ فِي ذَلِكَ لآيَةً لِّقَوْمٍ يَسْمَعُونَ﴾

**“Allah səmadan su nazil etdi, onun vasitəsi ilə ölmüş torpağı diriltdi. Əlbəttə bunda eşidənlər üçün aydın nişanələr var.”**

◊ **Nöqtələr**

● Ötən ayədə qəlblərin oyanış səbəbi olan kitabın nazil olması haqqında danışıldı. Bu ayədə torpağın oyanış səbəbi olan yağışın nazil olması qeyd edilir.

◊ **Bildirişlər**

1. Təbiət hadisələri təsadüfi deyil, Allahın iradəsi əsasında gerçəkləşir.
2. Torpaq da insan kimi ölür, dirilir.
3. İlahi proqramlar adi və təbii vasitələrlə həyata keçir.
4. Su torpağın və torpaqda olanların həyat qaynağıdır.
5. Allahın təbiətdə idarəçiliyi tövhid məktəbidir.
6. Ən üstün allahşünaslıq yolu ilahi ayələri dinləmək və öyüd götürməkdir.

● Ayə 66:

﴿وَإِنَّ لَكُمْ فِي الأَنْعَامِ لَعِبْرَةً نُّسْقِيكُم مِّمَّا فِي بُطُونِهِ مِن بَيْنِ فَرْثٍ وَدَمٍ لَّبَنًا خَالِصًا سَآئِغًا لِلشَّارِبِينَ﴾

**“Şübhəsiz, dördayaqlılarda (davarda) sizin üçün ibrət var. Biz sizi onların içində olan həzm olmuş qida ilə qan arasındakı, içmək üçün dadlı südlə sirab edirik.”**

◊ **Nöqtələr**

● Allah yalnız səma qatları arasından həyat səbəbi olan su yox, həm də heyvanların daxilindən həyat səbəbi olan süd çıxarır.

● “Fərs” dedikdə həzm olunmuş qida nəzərdə tutulur. “İbrət” dedikdə cəhalətdən çıxmaq vasitəsi başa düşülür.

● “Ənam” sözü cəm formada olsa da, “butunihi” sözü tək halda işlədilmişdir. Çünki bütün dördayaqlılar yox, onlardan bir vahidi nəzərdə tutulur.

● Süd həm su, həm də qida yerinə işlədilən kamil bir qidadır. Bu nemət bədənin bütün ehtiyaclarını ödəyir. Rəvayətdə oxuyuruq ki, süd

əqli artırır, zehni gücləndirir, gözlərə işıq verir, qəlbi qüvvətləndirir, beli bərkidir, yaddaşsızlığı azaldır.

● Dördayaqlılar insanın təkcə maddi ehtiyaclarını yox, həm də bir sıra mənəvi ehtiyaclarını ödəyir.

Necə ola bilər ki, otdan süd çıxaran Allah qiyamətdə torpaqdan insanı çıxara bilməyə?! Necə ola bilər ki, qanla həzm olmuş qida arasından xalis süd hasil edən Allah saleh əməli qeyri-saleh əməldən seçə bilməyə?!

● Otun südə çevrilməsi üçün dördayaqlının orqanizmində ayırıcı, mikroböldürücü, təhlükəli maddələri zərərsizləşdirici, şirinləşdirici, qızdırıcı, yağlayıcı, rəngləyici qurğulara ehtiyac var. Necə ola bilər ki, neftayırma zavodunun mühəndisə ehtiyacı olsun, amma süd istehsal edən qurğunun yaradana ehtiyacı olmasın?!

● Müxlis insan o insandır ki, eniş-yoxuşlardan, ictimai-siyasi cərəyanlardan, müxtəlif dostlar arasından keçdikdə onların rəngini götürməsin.

● Hər hansı halal içkini dadlı edən onun saflığıdır. Su istənilən bir qatqıdan təmiz olduqda içməli olur.

● Su təkcə insan üçün yox, bütün canlılar üçün tamlı olmalıdır.

Müasir dünyada belə bir faktla rastlaşırıq ki, özünü sivil adlandıran ölkələr istifadə vaxtı ötmüş ərzaqları yoxsul ölkələrə göndərirlər.

● Südün insan tərəfindən istifadəsi onu göstərir ki, heyvanı xəlq edib onun daxilində süd qərar verən kəs elə bizi də yaradan və ehtiyaclarımızı bilən kəsdir.

● Həzrət Əli (ə) "Nəhcül-bəlağə"nin 25-ci məktubunda zəkat toplayan məsula belə yazır: "Zəkat toplamağa gedəndə bəzi qaydalara əməl etməlisən. O cümlədən: heyvanın döşündə balası üçün bir qədər süd saxlamalı, heyvanı balasından ayırmamalı, yolda yorğun heyvana istirahət verməli, heyvanı otdan-sudan məhrum qoymamalısan."

● Heyvanı kötəkləmək, uzun dırnaqlı barmaqlarla sağmaq, heyvandan həddindən artıq istifadə etmək, heyvana zülm etmək qadağandır. Quranda oxuyuruq ki, həzrət Süleyman - cin və ins onun hökmü altında olan bu əzəmətli şəxs - heyvanlara mərhəmət göstərər, mübarək əlini onların boynuna və ayağına çəkərmiş."[1]

◊ **Bildirişlər**

1. Heyvanda süd istehsalı sistemi, bu südün həzm olmuş qida ilə qan arasından xaric olması insan üçün ibrət dərsidir.

● Ayə 67:

---

1 Bax: "Sad", 33

﴿وَمِن ثَمَرَاتِ النَّخِيلِ وَالأَعْنَابِ تَتَّخِذُونَ مِنْهُ سَكَرًا وَرِزْقًا حَسَنًا إِنَّ فِي ذَلِكَ لآيَةً لِّقَوْمٍ يَعْقِلُونَ﴾

**“Siz xurma və üzüm ağaclarının meyvəsindən həm içki, həm də gözəl ruzi hazırlayırsınız. Əlbəttə, bu işdə düşünən qövm üçün aydın nişanələr var.”**

◊ **Nöqtələr**

● “Sukr” dedikdə ağılın itirilməsi nəzərdə tutulur. “Səkər” isə “sukr” üçün mənşədir.

● Ötən iki ayədə su və süd kimi iki təbii içkidən danışıldı. Bu ayədə meyvələrdən alınan içkilərə işarə olunur. Nə qədər ki, insan dünyanın işinə qatılmayıb, su və süd kimi lətif içkilər hasil olur. Elə ki, insan işə qatıldı, bəzən gözəl ruzi, bəzən isə fəsad törədən məstedici şərab hazırlanır.

◊ **Bildirişlər**

1. Məstlik gətirən istənilən bir şey gözəl ruzi sayılmır.

2. Allah nə yaratmışsa gözəl yaratmışdır. Allahın yaratdıqlarından yaxşı və pis yolda istifadə etmək isə bizə aiddir.

3. Meyvələrin yaranışında diqqəti Allaha yönəldən nişanələr var: Meyvələrin rəngi, dadı, xüsusiyyətləri, qısamüddətli və uzunmüddətli faydaları, tərkibləri, insanın ehtiyaclarını ödəməsi, tədarük həddi, tədarük məhəlli ilə sakinləri arasındakı nisbət, insanın bu nemətləri əldə etməsi, bu nemətlərin əldə olunmasında istifadə edilən vasitələr.

● Ayə 68:

﴿وَأَوْحَى رَبُّكَ إِلَى النَّحْلِ أَنِ اتَّخِذِي مِنَ الْجِبَالِ بُيُوتًا وَمِنَ الشَّجَرِ وَمِمَّا يَعْرِشُونَ﴾

**“Rəbbin bal arısına vəhy etdi ki, bəzi dağlarda, ağaclarda və insanların tikdiyi örtülü yerlərdə yuva qur.”**

◊ **Nöqtələr**

● “Vəhy” dedikdə sürətli, məxfi işarə və ötürmə nəzərdə tutulur. Vəhy sözü həm peyğəmbərlərə olan ilahi vəhyə, həm də müəyyən meyillərə işarədir. Hazırkı ayəni buna misal göstərmək olar. İlahi ilham mənasındakı vəhyə “Qəsəs” surəsinin 7-ci ayəsini misal göstərmək olar: “Allah Musanın anasına ilham etdi.” “Ənam” surəsinin 121-ci ayəsində də vəhy ilham mənasında işlədilmişdir. Həmin ayədə söhbət şeytanın vəsvəsələrindən gedir.

◊ **Bildirişlər**

1. Heyvanlardakı səy, hərəkət və məskən seçmələri onların daxillərində Allah tərəfindən qoyulmuş meyl əsasındadır.

2. Ən yaxşı bal dağlıq ərazilərdəki arıların balıdır. Bu bal dağ çiçəkləri və otlarından çəkilir. (Arı yuvalarının kənarında yerləşdirilən şəkərdən çəkilən bal – bal keyfiyyətlərinə malik deyildir.)

● Ayə 69:

﴿ثُمَّ كُلِي مِن كُلِّ الثَّمَرَاتِ فَاسْلُكِي سُبُلَ رَبِّكِ ذُلُلاً يَخْرُجُ مِن بُطُونِهَا
شَرَابٌ مُّخْتَلِفٌ أَلْوَانُهُ فِيهِ شِفَاء لِلنَّاسِ إِنَّ فِي ذَلِكَ لآيَةً لِّقَوْمٍ يَتَفَكَّرُونَ﴾

**“Sonra bütün meyvələrdən ye, Rəbbinin yolunu mütiliklə adla. Onların (arıların) qarınlarından insanlar üçün şəfa olan rəngarəng maye çıxır. Əlbəttə, bunda (bal arısının həyatında) düşünən insanlar üçün ibrət var.”**

◊ **Nöqtələr**

● Ötən ayələrdə və bu ayədə Allah canlılardan alınan həyati əhəmiyyətə malik iki mayeni yada saldı: süd və bal.

● Ötən iki ayədə insanların meyvələrdən içki hazırladığı bildirildi. Heyvan isə meyvələrdən şəfaverici bal hazırlayır.

● Allahın məqsədli və hikmətli nizamında qəflət və işsizlik mənfurdur. Ona görə də Quran harada yeməkdən danışırsa, bu bəyanın kənarında hansısa məsuliyyəti qeyd edir. O cümlədən: “yeyin və layiqli iş görün”, “yeyin və başqalarını da yedirdin”, “yeyin və Allaha şükür edin”, “yeyin və israf etməyin”.[1]

Bu ayədə də Allah bal arasına yemək göstərişi verir. Amma bu göstəriş də hansısa məqsəd və məsuliyyətlə müşayiət olunur.

● Allahın övliyaları alçaqlıqlardan çəkinib, ucalıqları seçən “nəhl” kimidir. Onlar ilahi maarifdən istifadə edir, Rəbbinin yolunu mütiliklə izləyirlər. Onların nəfəslərindən hikmət və mənəvi şirinlik xaric olur.

◊ **Bildirişlər**

1. Heyvanlar ilahi göstərişlər əsasında hərəkət edirlər. Onların hərəkəti daxili meyillər formasında müşahidə olunur.

2. Bal müxtəlif meyvələrin cövhəridir.

3. Heyvanların təkcə məskən və qida seçimi yox, bütün işləri Allah tərəfindən müəyyənləşdirilmişdir.

4. Heyvanların Allah tərəfindən müəyyənləşdirilmiş hərəkəti müti hərəkətdir.

---

1 Bax: “Muminun”, 51; “Həcc”, 28; “Bəqərə”, 172; “Ənam”, 141

5. Kiçik arının orqanizmində bal hazırlayan müəssisənin mövcudluğu yaranış möcüzəsidir.

6. Təbii bal müxtəlif rənglərdə olur. (Balın ağ, sarı və qırmızı rəngdə olmasının səbəbi çiçəklərin rəngarəngliyi ola bilər.)

7. Otlarda və güllərdə müalicə xüsusiyyətləri var. Bal vasitəsi ilə bir çox dərdlərə şəfa tapılır. (Əlbəttə ki, bal müəyyən dərdlərin şəfasıdır. Çünki ayədə "şifaun" sözü qeyri-müəyyən formada işlənmişdir.)

8. Arı kimi kiçik bir varlığın yuva qurması, mum hazırlaması, bal hazırlaması, eyni zamanda zəhər hazırlaması Allahın qüdrət nişanələrindəndir.

9. Bütün dərslər və ibrətlər düşüncə əhli üçündür. Bir ömür baldan istifadə etdiyi halda bu barədə bir neçə dəqiqə düşünməyənlər var.

● Ayə 70:

﴿وَاللّهُ خَلَقَكُمْ ثُمَّ يَتَوَفَّاكُمْ وَمِنكُم مَّن يُرَدُّ إِلَى أَرْذَلِ الْعُمُرِ لِكَيْ لاَ يَعْلَمَ بَعْدَ عِلْمٍ شَيْئًا إِنَّ اللّهَ عَلِيمٌ قَدِيرٌ﴾

**"Allah sizi yaratdı, sonra canınızı alar. Sizdən bəziləri ömrün ən alçaq dövrünə (qocalığa) qaytarılar. Belə ki, bildikdən sonra (bir çox məsələləri unudar və) bir şey bilməz. Əlbəttə, Allah bilən və qüdrətlidir."**

◊ **Nöqtələr**

● "Rəzil" sözündən olan "ərzəl" sözü alçaq və dəyərsiz mənasını bildirir. İnsan ömrünün ən alçaq dövrü zəiflik və yaddaşsızlığın zirvə həddinə çatdığı dövrdür.[1]

● Qocalıq dövründə yaddaşsızlıq adi insanlara aiddir. Allahın həzrət Nuh, həzrət Mehdi (ə) kimi övliyaları ömür boyu məsuliyyət daşımışlar. Onlarda heç vaxt qəflət, süstlük və yaddaşsızlıq görünməmişdir.

◊ **Bildirişlər**

1. Ölüm və həyat Onun əlindədir.

2. Ömrün agahlıqla müşayiət olunan hissəsi faydalı və dəyərlidir. Yaddaşsızlıq və qəflət dolu ömür dəyərsizdir.

3. Uzun ömür hamı üçün nəzərdə tutulmayıb.

4. İnsanda qüdrət və zəiflik, elm və cəhalət, agahlıq və qəflət arası baş verən dəyişikliklər Allahın tədbir və elmi əsasındadır.

● Ayə 71:

---

1 "Həcc" surəsinin 5-ci ayəsində də bu məsələyə işarə olunur.

﴿وَاللّهُ فَضَّلَ بَعْضَكُمْ عَلَى بَعْضٍ فِي الْرِّزْقِ فَمَا الَّذِينَ فُضِّلُواْ بِرَآدِّي رِزْقِهِمْ عَلَى مَا مَلَكَتْ أَيْمَانُهُمْ فَهُمْ فِيهِ سَوَاء أَفَبِنِعْمَةِ اللّهِ يَجْحَدُونَ﴾

**“Allah ruzi baxımından sizlərdən bəzisini digərlərindən üstün etmişdir. Üstün edilənlər öz ruzilərini tabeçiliklərində olanlara verməzlər ki, hamı bərabər olsun. Yoxsa Allahın nemətini inkar edirsiniz?”**

◊ **Nöqtələr**

● Bəzi rəftarların müxtəlif hallarda fərqli təsirləri var. Məsələn, başqalarına mərhəmət bəyənilmiş işdir. Amma bəzən şairin təbirincə:

İti dişli qurda olunan hörmət
Qoyunlara qarşı böyük cinayət.

Bəzilərinə elm öyrətmək sərxoş insanın əlinə bıçaq vermək kimidir. Ədalətli rəftar hər yerdə, hamıya münasibətdə bir dəyərdir və ədalətə riayət olunması heç vaxt pis sayılmır. Amma bütün xalqın istedad və şərait baxımdan eyni dərəcədə müəyyənləşməsi ədalət deyil. Əgər bütün insanlar nemətlərdən eyni dərəcədə bəhrələnsəydilər, işə təyinat, qarşılıqlı yardım və həmkarlıq kimi ictimai zərurətlər aradan götürülərdi. Quran “Zuxruf” surəsinin 32-ci ayəsində buyurur: “İnsanlardan bəzisini bəzilərindən üstün etdik ki, biri o birini işə götürsün.”

● Ruziyə münasibətdə insanlar arasındakı fərq Allahın hikmətli proqramlarındandır. Bütün insanlar eyni dərəcədə bəhrələnsəydilər, mənəvi kamilliklər üzə çıxmazdı. Məsələn, səxavət, səbir, isar, himayə, şəfqət, təvazö və bu kimi başqa səciyyələr yalnız insanlar arasında fərq olduqda ortaya çıxır.

● Ayə başqa şəkildə də mənalandırıla bilər: varlı insanların öz imkanlarını tabeçiliklərində olanlarla bölüşməməsi xəsislik ünvanında tənqid olunur. Ayədə belə bir məna da nəzərdə tutula bilər ki, bəzi nemətləri başqaları ilə bölüşmək mümkünsüzdür. Məsələn, insan öz gözəlliyini, ağlını, yetkinliyini, sevimliliyini, nüfuzlu danışığını başqaları ilə necə bölüşsün?! Bütün bu fərqlər təkamül rəmzidir və Allahın nemətlərindən biridir.

● Bəzən insan zülm, haqqı tapdamaq, istismar yolu ilə kama çatır. İslam bu sayaq gəlirləri haram sayır. Bəzən isə ruzi Allahın lütfü olaraq halal yolla artır. Məsələn, iki nəfər şəxs balıqçılıqla məşğuldur. Onlardan birinin toruna yüzlərlə, o birinə isə bir neçə balıq düşür. Belə məqamda varlılıqla yoxsulluq Allah tərəfindən müəyyənləşir. Məqsəd varlını var, yoxsulu yoxsulluq vasitəsi ilə sınağa çəkib onların istedadlarını üzə çıxarmaqdır. Bu işdə heç bir mənfi yönüm yoxdur. Ayədə bu sayaq hallar nəzərdə tutula bilər.

● Əbuzər nəql edir ki, həzrət Peyğəmbər (s) buyurdu: "Öz qullarınıza münasibətdə bərabərliyi gözləyin. Onlar sizin qardaşlarınızdır. Öz geyindiyinizdən onlara geyindirin, öz yediyinizdən onlara yedirin."[1]

● Rəvayətdə oxuyuruq: "Bəziləri var-dövlət, bəziləri isə yoxsulluq vasitəsi ilə islah olur. Buna görə də hikmət sahibi olan Allahın iradəsinə razı olun."

◊ **Bildirişlər**

1. Ruzi təkcə zirəklikdən asılı deyil.[2]

2. İnsan öz imkanlarını tabeçiliyində olanlarla bölüşmək istəmir. Bəs nə üçün daşı, ağacı Allaha şərik qərar verir?

3. Başqalarına biganəlik, onlara yardımdan imtina nankorluqdur.

● Ayə 72:

﴿وَاللّهُ جَعَلَ لَكُم مِّنْ أَنفُسِكُمْ أَزْوَاجًا وَجَعَلَ لَكُم مِّنْ أَزْوَاجِكُم بَنِينَ وَحَفَدَةً وَرَزَقَكُم مِّنَ الطَّيِّبَاتِ أَفَبِالْبَاطِلِ يُؤْمِنُونَ وَبِنِعْمَتِ اللّهِ هُمْ يَكْفُرُونَ﴾

**"Allah sizin üçün öz cinsinizdən zövcələr qərar verdi. Zövcələrinizdən sizin üçün övladlar ərsəyə gətirdi. Pak şeylərdən sizə ruzi verdi. Yoxsa batilə inanır, Allahın nemətlərini inkar edirlər?"**

◊ **Nöqtələr**

● Təbərinin təfsirində oxuyuruq ki, "həfədə" dedikdə kürəkən, övlad, nəvə, hətta xidmətçi və arvadın başqa ərdən olan övladı nəzərdə tutula bilər. "Əl-Mizan" təfsirində deyilir ki, "həfədə" "hafid" sözünün cəm forması olub, əməldə sürət mənasını bildirir. Övladlar öz valideynlərinin köməyinə tələsdiyindən onlara "həfədə" deyilmişdir.

● **Sual:** Nə üçün bu ayədə qız övladlar qeyd olunmur?

**Cavab:** "Bənun" dedikdə həm oğlan, həm də qız övladlar nəzərdə tutula bilər. Qız övladlar "təyyibat" sözü ilə də xatırlana bilər. Çünki "Nur" surəsinin 26-cı ayəsində məhz bu söz qadın cinsinə işarədir. Qız nəvəyə "həfədə" sözü ilə işarə olunduğundan qız övladların ayrıca zikr olunması da mümkündür.

◊ **Bildirişlər**

1. Zövcə və övlad ilahi nemətlərdəndir. (Zövcə aramlıq, övlad isə ümid səbəbidir).

2. Ərlə arvad arasındakı bağlılıq ilahi lütf və hikmətlərdəndir.

3. İzdivac hikmətli bir ilahi proqramdır.

4. Allah həm mənəvi, həm də maddi ehtiyacları təmin edir.

5. Ruzinin xoşagəlimli olması Allahın hikmətli lütflərindəndir.

---

1 Bax: "Təfsiri-Kənzud-Dəqaiq"

2 Bax: "Zuxruf", 32

6. İzdivacı tərk etmək, doğuşun qarşısını almaq, halalları haram etmək batilə meyl və nankorluqdur.

7. Zövcə və halal ruzi olan yerdə zina və haram yemək nankorluqdur.

8. İnsanda özündən xatirə qoymaq meyli var.

9. Nemət və lütfləri xatırlamaqla öncə qarşı tərəfdə hazırlıq yaradın, sonra tənqidə keçin.

● Ayə 73:

﴿وَيَعْبُدُونَ مِن دُونِ اللّهِ مَا لاَ يَمْلِكُ لَهُمْ رِزْقًا مِّنَ السَّمَاوَاتِ وَالأَرْضِ شَيْئًا وَلاَ يَسْتَطِيعُونَ﴾

**“Allahın yerinə göylərdə, yerdə heç nəyi olmayan və buna gücü çatmayan bütlərə pərəstiş edirlər.”**

● Ayə 74:

﴿فَلاَ تَضْرِبُواْ لِلّهِ الأَمْثَالَ إِنَّ اللّهَ يَعْلَمُ وَأَنتُمْ لاَ تَعْلَمُونَ﴾

**“Bütləri Allaha tay saymayın. Həqiqətən, Allah bilir, siz isə xəbərsizsiniz.”**

◊ **Nöqtələr**

● Müşriklər Allahı padşah, bütləri Onun vəziri kimi qəbul edirdilər. Ayədə bu sayaq təsəvvürlər inkar olunur.

● Şair Qaani deyir:

*Bütün varlıq fəqət Səndən yaranmış,*
*Cansız torpaq səndən gücünü almış.*
*Hökmün altındadır bütün kainat,*
*Bizimçün Sən varsan, Sənin üçün zat.*
*Varlığın varlığa duymaz ehtiyac,*
*Oxşarsızsan, Sənə tapılmaz məcaz.*

◊ **Bildirişlər**

1. Məbud həm ruzi verən, həm də qüdrətli olmalıdır. Ona qoşulan şəriklərdə isə bu səciyyələr yoxdur.

2. Bütlər və yalançı məbudlar nə bu gün ruzi verir, nə də gələcəkdə ruzi verəsidir.

3. Sizin uydurma məbudlarınız nə səmadan yağış endirə bilər, nə də torpaqdan bitki düzəltməyi bacarar.

4. Saxta məbudlar nəinki böyük, hətta kiçik işlərə də qadir deyildirlər.

5. Allahla bağlı bənzətmələrin kökü insanın cəhalətidir.

● Ayə 75:

﴿ضَرَبَ اللّهُ مَثَلاً عَبْدًا مَّمْلُوكًا لاَّ يَقْدِرُ عَلَى شَيْءٍ وَمَن رَّزَقْنَاهُ مِنَّا رِزْقًا حَسَنًا فَهُوَ يُنفِقُ مِنْهُ سِرًّا وَجَهْرًا هَلْ يَسْتَوُونَ الْحَمْدُ لِلّهِ بَلْ أَكْثَرُهُمْ لاَ يَعْلَمُونَ﴾

**“Allah məsəl çəkir: Başqalarının mülkü olan və heç nəyə qüdrəti çatmayan qul ilə öz tərəfimizdən verdiyimiz gözəl ruzini aşkar və məxfi şəkildə infaq edən kəs eyni ola bilərmi? (Əgər sizin üçün qüdrətli insanla zəif insan eyni deyilsə, nə üçün daş və ağacı Allaha bərabər sayırsınız?) Sitayiş Allaha məxsusdur, amma onların çoxu bilməz.”**

● Ayə 76:

﴿وَضَرَبَ اللّهُ مَثَلاً رَّجُلَيْنِ أَحَدُهُمَا أَبْكَمُ لاَ يَقْدِرُ عَلَىَ شَيْءٍ وَهُوَ كَلٌّ عَلَى مَوْلاهُ أَيْنَمَا يُوَجِّههُّ لاَ يَأْتِ بِخَيْرٍ هَلْ يَسْتَوِي هُوَ وَمَن يَأْمُرُ بِالْعَدْلِ وَهُوَ عَلَى صِرَاطٍ مُّسْتَقِيمٍ﴾

**“Allah iki kişi haqqında misal çəkir: Onlardan biri heç nəyə qadir olmayan laldır, öz ağasına yükdür, hara göndərirsə, bir fayda vermir. Beləsi ədalət əsasında göstəriş verən, özü doğru yolla gedən kəslə bərabərdirmi?”**

◊ **Bildirişlər**

1. Əgər iki insanı eyni saymırsınızsa, nə üçün Xaliqlə məxluqu bərabər tutursunuz?
2. Sual və məsəl yolu ilə xalqın vicdanını oyadın, onları düşüncəyə vadar edin.
3. Şirkin kökü cəhalətdir.
4. Azadlıq ilahi bir nemətdir.
5. Yaxşı ruzi həm də infaq olunursa gözəldir. Danışan dil ədalətə çağırdıqda dəyərli olur.
6. Gizli infaq aşkar infaqdan üstündür.
7. Dil ruzinin açarıdır.
8. «Əmr be məruf» (yaxşılığa əmr) düzgün yola yönəltdikdə təsirli olur.
9. Mülk sahibi olanların da bir şeyi yoxdur, onlar da ilahi ruzi sayəsində rifaha çatmışlar.

● Ayə 77:

﴿وَلِلّهِ غَيْبُ السَّمَاوَاتِ وَالأَرْضِ وَمَا أَمْرُ السَّاعَةِ إِلاَّ كَلَمْحِ الْبَصَرِ أَوْ هُوَ أَقْرَبُ إِنَّ اللّهَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ﴾

**“Göylərin və yerin qeybi Allaha məxsusdur. Qiyamət bir göz qırpımında, ya daha tez bərpa olar. Əlbəttə, Allah hər şeyə qadirdir.”**

◊ **Nöqtələr**

● “Qeyb” sözü nisbi məna daşıyır. Bir insan üçün qeybi (gizli) olan bir iş başqa biri üçün aşkar ola bilər.

● “Əmrus-saəti” dedikdə qiyamət hadisəsi nəzərdə tutulur. Bu, qeybin mühüm nümunələrindəndir. Qiyamət vaxtının bilinməməsi Allahın lütflərindəndir.

● Bu ayə müşriklərin bənzətmələrinə cavab ola bilər. Əgər göydə və yerdə yaranış və tədbirə şərik olsaydı, hər şeyi bilən Allah bundan xəbərdar olardı.

● Ölümdən sonra insanın cismi parçalanır və gözdən itir. Allah qeybi bildiyindən bu cismi yenidən bərpa edir.

◊ **Bildirişlər**

1. Allah nəinki qeybi bilir, hətta onun sahibidir.
2. Allah üçün heç bir iş çətin deyil, hətta qiyamətin bərpası!
3. Hər bir işin batini qiyamətdə aşkar olur.
4. Allah hər şeyi bildiyindən və hər şeyə qadir olduğundan qiyamətin bərpası mümkün sayılmalıdır.
5. Dünya ilə qürrələnməyək, Qiyamət uzaqda deyil və özümüzü hazırlamalıyıq.
6. Allah istənilən bir işin müqəddiməsini ləğv edə, xülasələşdirə və sürətləndirə bilər. (Müqəddimənin ləğvinə həzrət İsanın beşikdə danışması, müqəddimənin sürətləndirilməsinə Bilqeysin taxtının həzrət Süleymanın yanına gətirilməsi nümunə göstərilə bilər).

● Ayə 78:

﴿وَاللّهُ أَخْرَجَكُم مِّن بُطُونِ أُمَّهَاتِكُمْ لاَ تَعْلَمُونَ شَيْئًا وَجَعَلَ لَكُمُ الْسَّمْعَ وَالأَبْصَارَ وَالأَفْئِدَةَ لَعَلَّكُمْ تَشْكُرُونَ﴾

**“Heç bir şey bilmədiyiniz halda Allah sizi analarınızın bətnindən çıxardı. Sizə qulaq, göz, qəlb verdi ki, bəlkə şükür edəsiniz.”**

◊ **Nöqtələr**

● “Umm” sözünün cəm forması olan “umməhat” “ummat” sözünün əvəzində işlədilmişdir.

◊ **Bildirişlər**

1. İnsan Allahın iradəsi ilə anadan doğulur.

2. Keçmişdəki çatışmazlıqları, çətinlikləri xatırlamaq insanda şükür ruhiyyəsi yaradır.

3. İstənilən bir işi vasitə ilə görmək Allahın sünnəsidir. Göz, qulaq və qəlb elm vasitəsidir.

4. Qulaq gözdən tez işə düşür. (Qulaq ananın bətnində də eşidir.)

5. Nemətə təşəkkür vasitələrdən düzgün bəhrələnməni göstərir. Çünki Quran bəzilərini məzəmmət edərək buyurur ki, gözləri var, amma həqiqəti görmürlər, qulaqları var, amma haqqı eşitməyə hazır deyillər.

6. Göz və qulaq nemətinin həqiqi şükrü elm əldə etməkdir, çünki ayədə öncə buyurulur ki, siz bilmirdiniz, Mən şükür edəsiniz deyə sizə göz və qulaq verdim. (Yəni elm öyrənəsiniz.)

● Ayə 79:

﴿أَلَمْ يَرَوْاْ إِلَى الطَّيْرِ مُسَخَّرَاتٍ فِي جَوِّ السَّمَاء مَا يُمْسِكُهُنَّ إِلاَّ اللّهُ إِنَّ فِي ذَلِكَ لآيَاتٍ لِّقَوْمٍ يُؤْمِنُونَ﴾

**“Səmada ram edilmiş (saxlanılmış halda qalan) quşları görmürlərmi? Onları yalnız Allah saxlayır. Əlbəttə, bunda (bu uçuşda) iman gətirənlər üçün aydın nişanələr var.”**

◊ **Nöqtələr**

● Qeyd olunduğu kimi, bu surə nemətlərlə tanışlıq və Xaliqə diqqət mövzusundadır. Surənin bu yerinədək yağış suyu, heyvanların südü, meyvələr, bal, həyat yoldaşı və övlad kimi nemətlərin adı çəkildi. Bu və bundan sonrakı ayədə quşlardan, dördayaqlıların dərisindən, yunundan, eləcə də, dağlardan danışılır.

● Quşlar bəzən tənha, bəzən dəstə ilə, bəzən nizamlı, bəzən nizamsız, bəzən canını qurtarmaq üçün, bəzən qida tapmaq məqsədi ilə pərvaz edirlər. Hər bir quş öz çəkisinə uyğun qanadla hərəkət edir. Bütün bu nöqtələr ağıllı insanın diqqətini Allaha yönəltməlidir.

◊ **Bildirişlər**

1. Allah bizim yaradılmışlar haqqında düşünməyimizi istəyir və diqqətsiz insanlar tənqid olunur.

2. Quşlar istənilən halda, istənilən yerdə Allaha tabedir.

3. Səmada hərəkət üçün imkanlar əldə etməsi insanın diqqətini Allahdan yayındırmamalıdır. (Bir dəfə təyyarə ilə uçarkən bələdçi salona daxil olub təyyarənin nə vaxt yerə enəcəyini bildirdi. Soruşdum ki, nə üçün inşallah demirsən? Dedi ki, təyyarənin kompyuter sistemi var və bu sistem hər şeyi dəqiq göstərir. Bu şəxs unudurdu ki, dünyanın ayrı-ayrı nöqtələrində qəzaya uğrayan təyyarələrin də kompyuter sistemi var idi!)

4. Quşların uçuşunda bir çox qəribəliklər var. Amma bu nöqtələri yalnız iman əhli dərk edir.

● Ayə 80:

﴿وَاللّهُ جَعَلَ لَكُم مِّن بُيُوتِكُمْ سَكَنًا وَجَعَلَ لَكُم مِّن جُلُودِ الأَنْعَامِ بُيُوتًا تَسْتَخِفُّونَهَا يَوْمَ ظَعْنِكُمْ وَيَوْمَ إِقَامَتِكُمْ وَمِنْ أَصْوَافِهَا وَأَوْبَارِهَا وَأَشْعَارِهَا أَثَاثًا وَمَتَاعًا إِلَى حِينٍ﴾

**“Allah evlərinizi sizin üçün aramlıq səbəbi qərar verdi. Dördayaqlıların dərilərindən köç günü və dayanış günü sizin üçün yüngül və lətif xeymələr (çadırlar) düzəltdi. Onların yunundan, kürkündən və tüklərindən müəyyən müddət üçün əşyalar və həyat vasitələri hazırladı.”**

◊ **Nöqtələr**

● “Bəytutə” sözündən olan “bəyt” sözü adətən, insanın gecələr istirahət etdiyi yerə deyilir. “Zən” getmək mənasını bildirir. “Əsas” dedikdə müxtəlif ev əşyaları nəzərdə tutulur. “Təstəxiffunnəha” dedikdə isə asanlıqla daşınan xeymələr (çadırlar) başa düşülür.

◊ **Bildirişlər**

1. Ev asayiş və aramlıq məhəllidir.

2. Yaşayış vasitələri və xeymələrin hazırlanmasında dördayaqlıların, onların dərilərinin, kürkünün, tükünün və yununun rolunu yaddan çıxarmayın.

3. Nemətlərdən istifadə müddəti məhduddur.

4. Nemətlərin insanın ehtiyaclarına, heyvanın dərisinin, yununun, tükünün tikililərə uyğun gəlməsi ilahi tədbirlərdəndir.

5. Yunun, dərinin, kürkün və tükün yüngüllüyü ilahi nemətlərdəndir.

● Ayə 81:

﴿وَاللّهُ جَعَلَ لَكُم مِّمَّا خَلَقَ ظِلاَلاً وَجَعَلَ لَكُم مِّنَ الْجِبَالِ أَكْنَانًا
وَجَعَلَ لَكُمْ سَرَابِيلَ تَقِيكُمُ الْحَرَّ وَسَرَابِيلَ تَقِيكُم بَأْسَكُمْ كَذَلِكَ يُتِمُّ
نِعْمَتَهُ عَلَيْكُمْ لَعَلَّكُمْ تُسْلِمُونَ﴾

**“Allah yaratdıqlarından sizin üçün kölgəliklər qərar verdi (“xəlq etdi”). Dağlarda sizin üçün mağaralar hazırladı (“yaratdı”), sizi istidən (və soyuqdan) qoruyan libaslar, bir-birinizin zərbələrindən qoruyan zirehlər düzəltdi (“yaratdı”). Beləcə, (Allah) sizə Öz nemətini tamamladı. Ola bilsin ki, özünüzü Ona təslim edəsiniz.”**

◊ **Nöqtələr**

● “Kənn” sözünün cəm forması olan “əknan” sözü örtük vasitəsi mənasını bildirir. Bu söz ayədə mağaralar və tunellər mənasında işlədilmişdir.

● Allah ötən ayədə məskən nemətini şəhər əhlinə, çadır nemətini köçərilərə aid bildirir. Bu ayədə isə mağaraların dağ əhlinə aid olduğu bəyan olunur.

● Həm kişilərin, həm də qadınların, həm böyüklərin, həm də uşaqların daim istifadə etdiyi və bütün bədəni örtən uzun köynək “sərabil” adlanır.

● “Əl-Mizan” təfsirində bildirilir ki, ərəb dilində iki zidd məfhumun adını çəkmək lazım gəldikdə onlardan birini qeyd etməklə kifayətlənirlər. Ona görə də bu ayədə libasın insanı istidən və soyuqdan qorumasını bildirmək üçün yalnız istinin adı çəkilir.

◊ **Bildirişlər**

1. Nemətlərə diqqət və onların yada salınması insanın nemət sahibinə olan diqqətini artırır, insandakı təslimçilik və pərəstiş ruhunu oyadır.

2. Kölgənin rolu işığın rolundan az deyil.

3. Nemətlərdən alınan ləzzət bizə Yaradanı unutdurmasın. (Ayədə üç dəfə “cəələ” yəni qərar verdi, bir dəfə də “xəlq etdi” sözləri işlədilmişdir.)

4. Dəmiri əritməklə və xüsusi ustalıqla hazırlanan zireh (müdafiə libası) ilahi lütflərdəndir.

5. Nemətləri və nemətlərin Xaliqini xalqa xatırlatmaq Allaha doğru ən yaxşı dəvət yolu, azğınlıq və təkəbbürün qarşısını almaq üçün ən yaxşı vasitədir.

6. Danışarkən müsahibinizi və mühiti nəzərə alın. (Libas insanı soyuqdan qoruyub ona gözəllik versə də, Allah Hicaz məntəqəsindəki döyüşləri və bu məntəqənin iqlimini nəzərə alaraq libasın istilikdən və zərbədən qorunmaq kimi iki faydasını qeyd edir.)

● Ayə 82:

﴿فَإِن تَوَلَّوْاْ فَإِنَّمَا عَلَيْكَ الْبَلاَغُ الْمُبِينُ﴾

**“(Ey peyğəmbər,) əgər üz döndərsələr, sənin vəzifən yalnız açıq-aşkar təbliğdir.”**

◊ **Bildirişlər**

1. İnsan yol və əqidə seçimində azad buraxılmışdır. Peyğəmbərlərin göstərişindən çıxması onun azad olduğunu göstərir.

2. Peyğəmbərlərin vəzifəsi xalqı məcbur etmək yox, təbliğdir.

3. Təbliğ aydın olmalı, şəkk-şübhəyə yer qalmamalıdır.

4. Əgər insanın sağlam ruhu olmasa, ən pak insan olan peyğəmbərlərin aydın təbliğləri də səmərə verməz.

● Ayə 83:

﴿يَعْرِفُونَ نِعْمَتَ اللّهِ ثُمَّ يُنكِرُونَهَا وَأَكْثَرُهُمُ الْكَافِرُونَ﴾

**“(Onlar) Allahın nemətini tanıyır, sonra Onu inkar edirlər. onların çoxu kafirdirlər.”**

◊ **Nöqtələr**

● Quranda bilərəkdən inkar və haqqa qarşı inadkarlıq mövzusuna dəfələrlə toxunulur. “Nəml” surəsinin 14-cü ayəsində buyurulur: “Dərindən əmin olduqlarını inkar edirlər.” Başqa bir ayədə oxuyuruq: “Peyğəmbəri öz övladları kimi tanıyırdılar, amma onu inkar edirdilər.”[1] Başqa bir ayədə buyurulur: “Haqqı bilirlər, amma bilərəkdən gizlədirlər.”[2] Ayələrdən birində isə belə buyurulur: “Məsələni dərk edir, amma onun üstünə pərdə çəkirlər.”[3]

● İmam Sadiq (ə) buyurur: “Əli ibn Əbu-Talib (ə) Peyğəmbər məscidində rüku halında üzüyünü fəqirə verərkən “Maidə” surəsinin 55-ci ayəsi nazil oldu: “Sizin rəhbəriniz Allah, Onun rəsulu və rüku halında infaq edən kəsdir.” Bəziləri öz vəlisini tanıyıb inkar etdi. Həmin vaxt bu ayə nazil oldu.”[4]

● İmam Sadiq (ə) buyurur: “And olsun Allaha, Allahın Öz bəndələrinə əta etdiyi nemət bizik. İnsanlar yalnız bizim vasitəmizlə qurtular.”[5]

◊ **Bildirişlər**

---

1 “Bəqərə”, 146
2 “Bəqərə”, 146
3 “Bəqərə”, 89
4 “Təfsiri-Kənzüd-Dəqaiq”
5 “Bihar”, c. 8, s. 245

1. Həqiqəti bilmək bəs etmir, onu qəbul edib əməli addım atmaq lazımdır.

2. Küfrün cəhalətdən başqa da kökləri var. Milli təəssüb, ruhi inadkarlıq, maddi mənafenin qorunması.

3. Haqqı tanıdıqdan sonra ruhda bir müddət çarpışma gedir. Bəzən pislik qalib gəlir və küfr baş qaldırır.

● Ayə 84:

﴿وَيَوْمَ نَبْعَثُ مِن كُلِّ أُمَّةٍ شَهِيدًا ثُمَّ لاَ يُؤْذَنُ لِلَّذِينَ كَفَرُواْ وَلاَ هُمْ يُسْتَعْتَبُونَ﴾

**"(Xatırla) o gün ki, hər ümmətdən şahid seçdik. Sonra küfr edənlərə (danışmağa) icazə verilməyəcək. Onlar üzrxahlıq üçün çağırılmayacaqlar."**

◊ **Nöqtələr**

● Quranda Qiyamət şahidliyi haqqında dəfələrlə danışılmışdır. Həmin gün peyğəmbərlər, mələklər, Allahın övliyaları, yer, bədən üzvləri şahid olasıdır. İmam Sadiq (ə) buyurur: "Hər bir ümmət və dövr üçün imam var, xalq onunla məhşur olar."[1] İmam Baqir (ə) bu ayə haqqında buyurur: "Həqiqətən, biz bu ümmətə şahidlərdənik."

● Allah hər yerdə hər şeydən xəbərdar olsa da, çoxsaylı şahidlər möminlər üçün təqva və həya amili olur, günahkarların daha çox rüsvay olması ilə nəticələnir.

● Ədalətlə müşayiət olunan elm və agahlıq şahidlik şərtidir. Buna görə də Qiyamətdə əməllərimizə şahid olası övliyalar dünyada işlərimizə nəzarət etməli, əməllərimiz onların nəzərinə çatdırılmalıdır. Hər həftə əməllərimizin həzrət Mehdiyə (ə) çatdırılması bu əqidənin nümunəsidir.[2] Şəhadət və Qiyamətdə şahidlik ayələri belə bir inancsız izah oluna bilməz. Axı əməllərimizdən xəbərsiz və ya ədalətsiz bir şəxs Qiyamətdə necə şahid ola bilər?!

● "İstitab" sözü "itab" sözündəndir. Yəni günahkar şəxs haqqı tapdanmış şəxsin qəzəbini soyutmaq, onun razılığını almaq üçün qarşı tərəfdən məzəmmət gözləyir.

● Dünya həyatında da tövbə etmək, üzr diləyib, səhvi aradan qaldırmaq olar. Qiyamətdə isə izahat və üzrə yer yoxdur. Qiyamətdə yol verilən xətalara don geyindirmək mümkünsüzdür. Cəhənnəm əhlindən bəziləri digər bir dəstəyə "əgər siz olmasaydınız, biz mömin olardıq"

1 "Təfsiri-Məcməul-bəyan"
2 Bax: "Tövbə", 105

dedikdə onlara belə xitab olunar: “Xeyr, siz özünüz iman gətirən deyildiniz.”[1]

Geriyə qayıdış da mümkünsüzdür. Cəhənnəm əhli saleh işlər görmək üçün geriyə dönmək istədikdə onların bu istəyi rədd edilər.[2]

Qiyamətdə üzrlər də qəbul olunmaz. Quranda oxuyuruq: “Onlara üzr istəmək üçün icazə verilməz.”[3]

◊ **Bildirişlər**

1. Höccətin tamamlanması, bəhanəyə yer qalmaması üçün hər bir qövmə özündən olan şahidlər gətirilər.

2. Allahın bütün qövmlər arasında bütün dövrlərdə höccət və şahidləri var.

3. İlahi mühakimədə hesab-kitab, and və şahidlik var.

4. Şahid və dəlil olan yerdə üzrə, yozuma, razılıq diləməyə yer yoxdur.

● Ayə 85:

﴿وَإِذَا رَأى الَّذِينَ ظَلَمُواْ الْعَذَابَ فَلاَ يُخَفَّفُ عَنْهُمْ وَلاَ هُمْ يُنظَرُونَ﴾

**“Zülm-sitəm edənlər əzabı gördükdə nə əzabları azaldılar, nə onlara möhlət verilər.”**

◊ **Nöqtələr**

● Ötən ayədə oxuduq ki, Qiyamətdə nə izahata, nə də razılıq diləməyə icazə verilər. Bu ayədə isə buyurulur ki, həmin gün Allahın qəzəbi yüngülləşməz, təxirə salınmaz.

◊ **Bildirişlər**

1. Cəzadan və cəzanın necəliyindən xəbərdarlıq insanı günahdan çəkindirir.

2. İlahi əzabın qaynağı bəşərin öz zülmüdür.

3. Qiyamətdə zalımların cəzası yüngülləşdirilməz, təxirə salınmaz.

● Ayə 86:

---

1 Bax: “Səba”, 31; “Saffat”, 29

2 Bax: “Səcdə”, 12; “Muminun”, 100; “Səcdə”, 14

3 Bax: “Mursəlat”, 36

﴿وَإِذَا رَأى الَّذِينَ أَشْرَكُواْ شُرَكَاءهُمْ قَالُواْ رَبَّنَا هَؤُلاء شُرَكَآؤُنَا الَّذِينَ كُنَّا
نَدْعُوْ مِن دُونِكَ فَأَلْقَوْا إِلَيْهِمُ الْقَوْلَ إِنَّكُمْ لَكَاذِبُونَ﴾

**“Şirkə uğrayanlar (uydurduqları) şəriklərini gördükləri vaxt deyərlər: “Pərvərdigara, bunlar sənin yerinə çağırdığımız şəriklərdir.” (Şəriklər dilə gəlib) onların sözlərini özlərinə qaytararlar ki, siz, şübhəsiz, yalançılarsınız.”**

◊ **Nöqtələr**

● Rəvayətlərə əsasən Qiyamətdə müxtəlif dayanacaqlar var. Bəzi dayanacaqlarda dodaqlar möhürlənər və əl-ayaq şəhadət verər. Digər bir dayanacaqda nalələr və yalvarışlar göyə ucalar. Növbəti dayanacaqda insan öz günahlarını başqasının boynuna atmaq istəyər. Məsələn, şeytana deyər: “Sən məni şirk və küfrə vadar etdin”. Şeytan ona belə cavab verər: “Mən ilk gündən sizin şirkinizə müxalif idim.”[1] Allah hətta həzrət İsaya belə xitab edər: “Sən özünü və ananı xalqa məbud kimi tanıtdırdın?” Həzrət İsa cavab olaraq deyər: “Sən şəriki olmaqdan paksan...”[2] Haqqında danışdığımız ayədə də Allaha şərik qoşulmuş mövcudlar müşriklərdən üz çevirib, onları təkzib edərlər.

◊ **Bildirişlər**

1. Allaha şərik yoxdur. Müşriklər onların şərik olduğunu düşünürlər.
2. İnsan Qiyamət qorxusunun təsirindən özünü xilas etmək üçün yükünü başqasının çiyninə atar.
3. Saxta məbudlar da Qiyamət günü səhnəyə gətirilər.
4. Qiyamətdə özünü müdafiə üçün bütlər də danışar.
5. Bütlər pərəstiş üçün ləyaqətləri olmadığını bildirərlər və bütpərəstlərə deyərlər: “Siz əslində öz xəyallarınıza pərəstiş edirdiniz.”

● Ayə 87:

﴿وَأَلْقَوْاْ إِلَى اللّهِ يَوْمَئِذٍ السَّلَمَ وَضَلَّ عَنْهُم مَّا كَانُواْ يَفْتَرُونَ﴾

**“Belə bir gündə Allahın hüzurunda təslim olaraq boyun əyərlər və toxuduqları yalanlar məhv olar.”**

◊ **Bildirişlər**

---

1 Bax: “İbrahim”, 22
2 “Maidə”, 116

1. Bu gün təslim olmasaq, sabah qiyamətdə təslim olacağıq. Amma bunun nə faydası?

2. Qiyamətdə bütün uydurmalar məhv olar. (Allahdan qeyrisindən şəfaət gözləmək, onunla yaxınlıq, ona ümid və onun yardımı xəyaldan başqa bir şey deyil.)

● Ayə 88:

﴿الَّذِينَ كَفَرُواْ وَصَدُّواْ عَن سَبِيلِ اللّهِ زِدْنَاهُمْ عَذَابًا فَوْقَ الْعَذَابِ بِمَا كَانُواْ يُفْسِدُونَ﴾

**“Kafir olub xalqı Allahın yolundan çəkindirənlərin davamlı fəsadlarına cəza olaraq əzablarına əzab artırarıq.”**

◊ **Nöqtələr**

● İnsanlar Allahın yoluna fərqli reaksiya göstərirlər. Bu münasibətin dərəcələri, mərhələləri var.

a) Müsbət reaksiyalar:

- bir qrup insan Allah yolunu anlamaq və bu yolda addım atmaq intizarındadır.[1]
- bir qrup insan Allaha xatir hicrət edir.[2]
- bəziləri Allah yolunda olduğu üçün mühasirəyə alınır.[3]
- bir qrup insan Allah yolunda əzab-əziyyətə dözür.[4]
- bəziləri başqalarını Allah yoluna dəvət edirlər.[5]
- bir qrup insan Allah yolunda heç vaxt süstlük göstərmir.[6]
- bir qrup insan Allah yolunda vuruşur.[7]
- bir qrup insan bu yolda öldürülür.[8]

b) Mənfi reaksiyalar:

- bəziləri Allah yolunda olduğunu düşünürlər. [9]
- bir qrup insan Allahın yolunu əyir.[10]
- bir qrup insan Allah yolunu başqalarının üzünə bağlayır.[11]

---

1 Bax: “Qəsəs”, 22
2 Bax: “Nisa”, 100
3 Bax: “Bəqərə”, 273
4 Bax: “Ali-İmran”, 195
5 Bax: “Nəhl”, 125
6 Bax: “Ali-İmran”, 146
7 Bax: “Nisa”, 76
8 Bax: “Ali-İmran”, 169
9 Bax: “Əraf”, 30
10 Bax: “Əraf”, 45
11 Bax: “Əraf”, 45

- bəziləri Allah yolunu bağlamaq üçün pul xərcləyirlər.[1]

◊ **Bildirişlər**

1. İman saleh əməlin müqəddiməsi olduğu kimi, küfr də fəsadın müqəddiməsidir.

2. Qələm, bəyan, müxtəlif imkanlarla Allah yolunu bağlayan küfr başçılarının hesabı adi fərdlərin hesabından ayrıdır.

3. “Yer üzündə fəsad törədən” dedikdə təkcə cəmiyyətin asayişini pozanlar yox, istənilən bir şəkildə mənəvi təkamülə mane olanlar nəzərdə tutulur.

● Ayə 89:

﴿وَيَوْمَ نَبْعَثُ فِي كُلِّ أُمَّةٍ شَهِيدًا عَلَيْهِم مِّنْ أَنفُسِهِمْ وَجِئْنَا بِكَ شَهِيدًا عَلَى هَؤُلاء وَنَزَّلْنَا عَلَيْكَ الْكِتَابَ تِبْيَانًا لِّكُلِّ شَيْءٍ وَهُدًى وَرَحْمَةً وَبُشْرَى لِلْمُسْلِمِينَ﴾

**“(Xatırla) o gün ki, hər ümmət arasında onlara özlərindən olan şahid gətirərik və səni də onlara şahid tutarıq. Sənə hər şeyi aydınladan, müsəlmanlar üçün hidayət, rəhmət və müjdə səbəbi olan bu Kitabı nazil etdik.”**

◊ **Nöqtələr**

● Ötən 5 ayədə də ümmətə şahidlik məsələsinə toxunuldu. Qiyamətdə hər bir ümmətə şahid olması bizim qəti əqidələrimizdəndir. İslam Peyğəmbəri (s) bu və digər ümmətlərə şahiddir. Belə bir nöqtəyə diqqət yetirmək lazımdır ki, Allahın övliyaları hər növ xəta və yalanlardan məsum olmalı, hiss, görmək və bilməklə şəhadət verməlidirlər. Yalnız bu halda onların verdiyi şəhadət höccətin tamamlanması sayılır. Şübhəsiz ki, xalqın aşkar və gizli əməllərindən xəbərdar olan kəsin dediyi sözlər qiyamətdə qəbul olunasıdır. Belə bir şəhadəti isə yalnız qeybi yardımlardan faydalanaraq xalqın bütün hərəkət, danışıq və niyyətlərindən xəbərdar olan məsum Peyğəmbər (s) və imamlar verə bilər.

● “Təfsiri-Safi”də nəql olunur ki, imam Sadiq (ə) buyurmuşdur: Biz göylərdə və yerdə, onların arasında, behişt və cəhənnəmdə nə varsa, hamısını bilirik.” Sonra imam bu üç ayəni ardıcıl şəkildə tilavət etdi.

İmam Baqir (ə) buyurur: “Quranda xalqın ehtiyac duyduğu hər şey var. Dediklərimizin istənilən birinin Qurandakı sənədini istəsəniz deyəcəyəm.”

---

1 Bax: “Ənfal”, 36

Həzrət Əli (ə) buyurur: “Sizin, keçmişdəkilərin və gələcəkdəkilərin, göyün və yerin xəbərləri Quranda vardır.”[1]

● İmam Riza (ə) bir məclisdə din rəislərinə buyurdu: “İslam Peyğəmbərinin (s) möcüzələrindən biri budur ki, yoxsul bir yetimin, dərs oxumamış bir çobanın hər şeyi aydınladan, Qiyamətədək keçmiş və gələcəyin xəbərlərini əks etdirən bir kitabı var.”

● İmam Sadiq (ə) buyurur: “İki nəfər arasında ixtilafa səbəb olmuş hər bir məsələnin həlli üçün xalqın ağlı kəsməsə belə, Quranda əsas var.”[2]

● Quranda hər şey bəyan olunub. Amma bunu hamı dərk etmir. Həzrət Əli (ə) buyurur: “Quran avamlar üçün zahiri ifadələrdən, xüsusi bəndələr üçün rəmzi işarələrdən, Allahın övliyaları üçün ilahi lütfdən, peyğəmbərlər üçün həqiqətdən ibarətdir.”[3]

● Quran ya birbaşa, ya da ayələri vasitəsi ilə hər şeyi aydınladır. Həmin ayələrdə bizim üçün faydalı üsullar bəyan olunur: “Peyğəmbərlərin sizin üçün gətirdiyindən yapışın, sizə qadağan etdiyindən uzaq olun.”[4] Hazırkı surənin 44-cü ayəsi də bu qəbildəndir.

◊ **Bildirişlər**

1. Övliyaların bizim əməllərimizə nəzarəti Quranın aşkar bəyanatlarındandır.

2. Qiyamətdə şahidliyin mərtəbələri var. İmam bütün ümmət üçün şahiddir. İslam Peyğəmbəri (s) isə bütün şahidlərin şahididir.

3. Həm İslam Peyğəmbəri (s) bütün peyğəmbərlərin şahididir, həm də onun kitabı hər şeyi bəyan edir.

4. Quran cəmiyyətin bütün ehtiyaclarını ən yığcam şəkildə bəyan edən kitabdır.

5. Hidayət, rəhmət və müjdə əldə etmək üçün təslimçilik şərtdir.

● Ayə 90:

﴿إِنَّ اللّهَ يَأْمُرُ بِالْعَدْلِ وَالإِحْسَانِ وَإِيتَاء ذِي الْقُرْبَى وَيَنْهَى عَنِ الْفَحْشَاء
وَالْمُنكَرِ وَالْبَغْيِ يَعِظُكُمْ لَعَلَّكُمْ تَذَكَّرُونَ﴾

**“Həqiqətən, Allah ədaləti, ehsanı və qohumlara (haqqını) verməyi əmr edib. Allah çirkin, bəyənilməmiş işləri, təcavüzü qadağan edir. O sizə moizə edir. Ola bilsin ki, agah olasınız.”**

◊ **Nöqtələr**

---

1 “Təfsiri-Kənzud-Dəqaiq”
2 “Təfsiri-Nurus-Səqəleyn”
3 “Təfsiri-Furqan”
4 “Həşr”. 7

● Bu ayə İslamın bütün dünyaya ünvanlanmış bəyanatıdır. İmam Baqir (ə) bu ayəni cümə namazının xütbələrində oxuyardı. “Təfsiri-Safi”də deyilir ki, Quran təkcə bu ayədən ibarət olsaydı, yenə deyə bilərdik ki, bu kitab hər şeyi aydınladır. Bu ayənin göstərişləri bütün dinlərdə olmuşdur və heç vaxt nəsx edilməmişdir (dayandırılmamışdır).

Vəlid ibn Muğeyrə bu ayənin təsiri altında dedi: “Bu ayə o qədər şirin, gözəl və dəyərlidir ki, bəşər sözü sayıla bilməz.”[1] Osman ibn Məzun deyir: “Bu ayəni eşidən vaxt İslam bütün canıma nüfuz etdi, qəlbimə oturdu.”

● “Ədl” dediklə bərabərliyi bəsirətlə dərk olunan, “idl” dedikdə bərabərliyi hisslə duyulan həqiqət başa düşülür.”Ədl” cəzada bərabərlik, “ehsan” isə mükafatı artırmaqdır.[2] “Ədl” dedikdə ifrat və təfritdən uzaqlıq anlaşılır. Bu məsələ həm əqidələrdə, həm də şəxsi və ictimai rəftarlarda özünə yer tapmışdır. Bu ayə həm fərdə, həm də hökumətlərə ünvanlanmışdır.

“Ədl” yaranış nizamında sabitlik rəmzidir. Bu söz təşrii (şəriət) nizamında bütün peyğəmbərlərin dəvətinin sərlövhəsidir.

● “Ehsan” maddi, elmi, mədəni, qəlblə bağlı yardımları göstərən mübarək sözdür. “Fəhşa” dedikdə böyük və rüsvay edən günah başa düşülür. “Munkər” isə ağıl, fitrət və şəriətin inkar etdiyi işdir.

● “Fi-zilal” təfsirində bildirilir ki, zalım qüvvələr öz pozucu təbliğatları ilə xalqın nəzərində günahı adiləşdirsələr, şəri ölçü götürmək qanuni olacaq.

◊ **Bildirişlər**

1. İnsanı ədalət və ehsana çağıran Allah Özü ədalətsiz ola bilərmi?!

2. Ədalət və ehsan yanaşı olduqda cazibəlidir. Quru qanunlar isə qəlblərdə həvəs oyatmır. (Ədalət vacib, ehsan isə müstəhəbdir.)

3. Yaxşılığa əmr etməkdə, pisliyə qadağa qoymaqda Allah birincidir.

4. Ehsanda qohumlar öndə gəlir.

5. «Əmr be məruf» «nəhy əz munkər»dən, ədalət ehsandan öndə gəlir.

6. «Əmr be məruf», «nəhy əz munkər» (yaxşılığa əmr və pisliyə qadağa) məhəbbət fəzasında, moizə və xeyirxahlıq qəlibində olmalıdır.

7. Yaxşılığa əmr edənlər deyilənlərin yüz faiz qəbul olunmasını gözləməməlidirlər.

8. İnsanlarda ədalət və ehsana fitri meyl var. Onlar çirkin işlərə nifrət edirlər, amma vəsvəsələr və nəfs istəkləri onları yuxuya verir. Belə məqamlarda onları oyatmağa ehtiyac var.

9. «Əmr be məruf»da öncə vacib əmrlər bəyan olunduğu kimi, «nəhy əz munkərdə» də öncə ən çirkin günahların qarşısı alınmalıdır.

---

1 “Təfsiri-Kəbir”
2 “Mufrədati-Rağib”

10. Ədalətə çağırış və pis işlərə qadağa qoyulması Allahın əbədi sünnəsidir.

● Ayə 91:

﴿وَأَوْفُواْ بِعَهْدِ اللّهِ إِذَا عَاهَدتُّمْ وَلاَ تَنقُضُواْ الأَيْمَانَ بَعْدَ تَوْكِيدِهَا وَقَدْ
جَعَلْتُمُ اللّهَ عَلَيْكُمْ كَفِيلاً إِنَّ اللّهَ يَعْلَمُ مَا تَفْعَلُونَ﴾

**“Allahla əhd bağlayanda ona vəfa qılın. Möhkəm and içdikdən sonra onu pozmayın. Çünki Allahı özünüzə vəkil seçmisiniz. Həqiqətən, Allah gördüyünüz işlərdən xəbərdardır.”**

◊ **Nöqtələr**

● Rəvayətlərdə ayədəki peyman (əhd) sözü xalqın ilahi rəhbərlə əhdi kimi izah olunur.[1]

● Xalq öz əhdinə vəfa qılsa, Allah vəd etdiyi lütfünü həyata keçirər.[2]

◊ **Bildirişlər**

1. İlahi əhd və andlara vəfa qılmaq lazımdır.

2. And və əhdə əməl etmək lazımdır ki, işdə ciddi məqsəd olsun. “Maidə” surəsinin 89-cu ayəsində bildirilir ki, Allah insanı mənasız, boş andlara görə cəzalandırmaz.

3. İnsanlar anlasa da, anlamasa da, Allah insanın əhdi pozmasından xəbər tutur və onu cəzalandırır.

● Ayə 92:

﴿وَلاَ تَكُونُواْ كَالَّتِي نَقَضَتْ غَزْلَهَا مِن بَعْدِ قُوَّةٍ أَنكَاثًا تَتَّخِذُونَ أَيْمَانَكُمْ
دَخَلاً بَيْنَكُمْ أَن تَكُونَ أُمَّةٌ هِيَ أَرْبَى مِنْ أُمَّةٍ إِنَّمَا يَبْلُوكُمُ اللّهُ بِهِ وَلَيُبَيِّنَنَّ
لَكُمْ يَوْمَ الْقِيَامَةِ مَا كُنتُمْ فِيهِ تَخْتَلِفُونَ﴾

**“Toxuduğunu bərkitdikdən sonra tikə-tikə doğrayan qadın kimi olmayın. Bir dəstəni o birisindən çox bilib öz andlarınızı aranızda (yalan və xəyanət üçün) alət edirsiniz. (Zəif dəstə ilə bağladığınız əhdi pozursunuz.) Allah sizi həmin andlarla sınağa çəkər. Şübhəsiz, ixtilafda olduğunuz məsələləri Qiyamətdə sizin üçün aydınlaşdıracaq.”**

◊ **Nöqtələr**

---

1 “Təfsiri-Safi”, “Təfsiri-Dürrül-Mənsur”

2 Bax: “Bəqərə”, 40

● Ağılsız bir qadının günün birinci yarısında toxuduqlarını günün ikinci yarısında sökməsi el məsəlidir. Quran da zəhmətini hədərə verən, əhdi pozan insana münasibətdə bu məsəli çəkir.

● Fatimeyi-Zəhra (s) Mədinə məscidində dövrün hakimlərinə qarşı oxuduğu xütbədə bu ayəni tilavət etdi və Qədiri-Xumda həzrət Əli (ə) ilə əhd bağlayanları toxuduğunu sökən qadına oxşatdı.[1]

● Qurandakı məsəllər bütün məkanlarda və zamanlarda aktualdır. İstər məktəbli uşaq, istər filosof bu məsəlləri anlayır.

● "Ən təkunə ummətun hiyə ərba min ummətin" cümləsi iki cür təfsir oluna bilər:

a) Bir dəstənin güc və çoxluğuna görə kiçik dəstə ilə bağladığınız əhdi pozmayın.

b) Qüdrətə çatdığınız vaxt kiçik dəstə ilə əhdinizi pozmayın.

◊ **Bildirişlər**

1. Əhdi pozmaq ötən zəhmətləri hədərə verməkdir.
2. Peyman nə qədər möhkəm bağlanarsa, onu pozmaq bir o qədər çirkin olur.
3. Ardıcıl şəkildə əhdi pozmağın bir çox sıxıntıları var.
4. Müqəddəsliklərlə oyun oynamayın. (Müqəddəslikləri alətə çevirməyin.)
5. Qüdrət, çoxluq və siyasi-ictimai hay-küylər əhdin pozulması üçün zəmindir.
6. Əhdə vəfa sınaq vasitələrindəndir.
7. Məadın xatırlanması təqva və əhdə vəfa amilidir.

● Ayə 93:

﴿وَلَوْ شَاء اللّهُ لَجَعَلَكُمْ أُمَّةً وَاحِدَةً وَلكِن يُضِلُّ مَن يَشَاء وَيَهْدِي مَن يَشَاء وَلَتُسْأَلُنَّ عَمَّا كُنتُمْ تَعْمَلُونَ﴾

**"Əgər Allah istəsəydi (hamını məcburi şəkildə) vahid bir ümmət edərdi. Allah istədiyini azdırar (özbaşına buraxar), istədiyini (layiq olanı) hidayət edər. Şübhəsiz, gördüyünüz işlər haqqında sorğuya çəkiləcəksiniz."**

◊ **Nöqtələr**

● Allah bütün insanları fitri olaraq hidayət edir. Amma insanlar öz istəkləri ilə iki dəstəyə ayrılırlar. Bir dəstə ağıl və fitrətinin ziddinə gedərək azğınlıq yolunu tutur və tövbə etmir. Allah belələrini özbaşına buraxır. Başqa bir dəstə fitrət və itaət yolunu seçir. Allah belələrinə

---

1 "Təfsiri-Furqan"

yardım göstərir, onları hidayət edir. Demək, Allahın doğru yola çəkməsi və ya azdırması seçim mərhələsindən sonra gəlir. Məsələn, müəllim tədrisin ilk günündə sinifdəki bütün şagirdləri öyrətmək istəyir. Amma şagirdlər arasında bir qrupu daha çox çalışır və müəllim onlara xüsusi vaxt ayırır. Çalışmayan şagird müəllimin diqqətindən kənarda qalır. Əgər insanın hidayət və ya azğınlığı öz seçimi əsasında baş verməsəydi, Allah sorğu-sual aparmazdı. Allahın sorğu-sualı insanın azad şəkildə yol seçdiyini göstərir. Bir işə məcbur edilmiş insan isə sorğuya çəkilmir.

◊ **Bildirişlər**

1. Əlbəttə ki, Allah insanları məcbur etməyə qadirdir. Amma Allahın qanunu bəndələrini azad buraxmaqdır.

2. İnsan əqidə və yol seçimində azad buraxılmışdır.

3. Qiyamət sorğu-sualına ciddi yanaşın.

4. İnsandan bütün işləri haqqında soruşular.

● Ayə 94:

﴿وَلاَ تَتَّخِذُواْ أَيْمَانَكُمْ دَخَلاً بَيْنَكُمْ فَتَزِلَّ قَدَمٌ بَعْدَ ثُبُوتِهَا وَتَذُوقُواْ الْسُّوءَ بِمَا صَدَدتُّمْ عَن سَبِيلِ اللّهِ وَلَكُمْ عَذَابٌ عَظِيمٌ﴾

**“Andlarınızı bir-birinizi aldatmaq üçün vasitə etməyin. Məbada möhkəmlənmiş addım büdrəyə. (Bu halda and və əhdin müqəddəsliyi itir.) Xalqı Allahın yolundan döndərdiyiniz üçün pisliyi dadacaqsınız. Sizin üçün böyük əzab var.”**

◊ **Nöqtələr**

● “Sədəttum” dedikdə (Rağibin nəzərincə) həm geri qalmaq, həm də başqalarını geridə saxlamaq nəzərdə tutulur. “Dəxələ” sözü “dəğələ” vəznində və mənasındadır.

◊ **Bildirişlər**

1. Təhlükə ciddiləşdikdə tövsiyələrinizi verin, qadağalarınızı təkrarlayın. (91-ci ayədə də anddan sui-istifadə qadağan olunur.)

2. Əhdi pozmaq və müqəddəsliklərdən sui-istifadə etmək pis aqibət səbəbidir.

3. Bəzən bir günah başqa bir günahlar üçün zəmin olur. (Əhdə vəfasızlıq pis aqibətlə nəticələnir, o da öz növbəsində insanın azması və başqalarını azdırması üçün müqəddimə olur.)

● Ayə 95:

﴿وَلاَ تَشْتَرُواْ بِعَهْدِ اللّهِ ثَمَنًا قَلِيلاً إِنَّمَا عِندَ اللّهِ هُوَ خَيْرٌ لَّكُمْ إِن كُنتُمْ تَعْلَمُونَ﴾

**“Allahla əhdinizi ucuz qiymətə müamilə etməyin. Çünki Allahın yanında olan sizin üçün daha üstündür. Əgər bilsəydiniz!”**

◊ **Nöqtələr**

● 91-95-ci ayələrdə əhdi pozmaq və onun acı aqibəti ilə bağlı bir sıra təbirlər nəzərə çarpır. Bütün bunlar əhdə vəfasızlığın təhlükəsini göstərir. Cəmiyyətin çoxluğu və sizin qüdrətiniz əhdə vəfasızlıq üçün bəhanə deyil. Allah sizi sınağa çəkir, Qiyamətdə sorğu-sual olunacaqsınız. Ardıcıl şəkildə əhdi pozmağınız sizi məhv edir. Bu ayədə isə buyurulur ki, Allahla əhdinizi ucuz qiymətə müamilə etməyin.

◊ **Bildirişlər**

1. İnsanlar dünya ləzzətləri xatirinə əhdi pozurlar.
2. İstənilən bir qiymətə əhdi pozmaq zərərdir.
3. Hər hansı ləzzətə xatir ilahi lütflərdən məhrumluq və əhdi pozmaq sadəlövhlükdür.

● Ayə 96:

﴿مَا عِندَكُمْ يَنفَدُ وَمَا عِندَ اللّهِ بَاقٍ وَلَنَجْزِيَنَّ الَّذِينَ صَبَرُواْ أَجْرَهُم بِأَحْسَنِ مَا كَانُواْ يَعْمَلُونَ﴾

**“Sizdə olan bitib-tükənər. Allahın yanında olan isə dayanıqlı və möhkəmdir. Səbir edənlərə, həqiqətən, gördükləri ən yaxşı iş əsasında mükafat verəcəyik.”**

◊ **Bildirişlər**

1. Allahdan başqa heç kim və heç nə əbədi deyil.
2. Maddiyyatdan uzaqlıq, Allaha bağlılıq, əhdə vəfa üçün səbrə və nəfs istəklərilə mübarizəyə ehtiyac var.
3. Dünyaya əsir olmamaq məhrumiyyət yox, ləzzətdir.
4. Allahdan yaxşı müştəri yoxdur. O ən adi və dəyərsiz bir şeyi də böyük qiymətə alır.

● Ayə 97:

﴿مَنْ عَمِلَ صَالِحًا مِّن ذَكَرٍ أَوْ أُنثَى وَهُوَ مُؤْمِنٌ فَلَنُحْيِيَنَّهُ حَيَاةً طَيِّبَةً وَلَنَجْزِيَنَّهُمْ أَجْرَهُم بِأَحْسَنِ مَا كَانُواْ يَعْمَلُونَ﴾

**“Kişi, ya qadın – istənilən bir kəs mömin olsa və saleh iş görsə, onu hökmən pak və bəyənilmiş bir həyatla dirildərik. Ona, şübhəsiz, gördüyü işdən üstün muzd verəcəyik.”**

◊ **Nöqtələr**

● “Həyatən təyyibə”, yəni pak həyat dedikdə insanın aram qəlb və mömin ruha malik olması nəzərdə tutulur. Mömin ilahi nurla görər, mələklərin duasına nail olar, Allah tərəfindən təsdiqlənər. Bu zümrədən olanlar qorxu və kədər bilməzlər.

◊ **Bildirişlər**

1. İnsana mükafat verilərkən onun yaşı, milliyyəti, cinsi, ictimai-siyasi mövqeyi əsas götürülməz.

2. Qadın və kişi mənəvi kamillik əldə etməkdə bərabərdirlər.

3. İman saleh əməlin qəbul şərtidir.

4. Heç bir saleh əməl cavabsız qalmaz.

5. Harada qadını alçaq sayan cahil təfəkkür meydana çıxsa, qadının adı və məqamını aşkar şəkildə bəyan etmək lazımdır.

6. İnsanın təkcə əməli yox, həm də özü yaxşı olmalıdır.

7. İman və saleh əməli olmayan insan ölü kimidir.

● Ayə 98:

﴿فَإِذَا قَرَأْتَ الْقُرْآنَ فَاسْتَعِذْ بِاللّهِ مِنَ الشَّيْطَانِ الرَّجِيمِ﴾

**“Quran oxumaq istədiyin vaxt qovulmuş şeytandan (şeytanın şərindən) Allaha pənah apar.”**

● Ayə 99:

﴿إِنَّهُ لَيْسَ لَهُ سُلْطَانٌ عَلَى الَّذِينَ آمَنُواْ وَعَلَى رَبِّهِمْ يَتَوَكَّلُونَ﴾

**“Əlbəttə, iman gətirib Rəbbinə təvəkkül edənlər üzərində şeytanın hakimiyyəti yoxdur.”**

◊ **Nöqtələr**

● Hər bir yaxşı işin bəlası ola bilər. Qüdrətin bəlası təkəbbür, xalqa xidmətin bəlası minnət qoymaq, Quranı oxumağın bəlası özününümayiş, gəlir əldə etmək, mənfi rəğbət, xalqı aldatmaq, yanlış düşüncə, rəy əsasında təfsir ola bilər. İnsan Quran oxuduğu vaxt bütün bəlalardan Allaha pənah aparmalıdır.

● İmam Sadiq (ə) buyurur: “Quran tilavətində üç şeyə ehtiyac var: Müti qəlb, aram bədən, boş yer.”[1]

● Quran məsum imamlar tərəfindən təfsir olunaraq və onların nəzarəti altında açıqlansa pak qəlblərə daxil olduqda hidayət və inkişafa səbəb olar, insanın iman və elmini artırar. Qurani-Kərimdə oxuyuruq: “Ey peyğəmbər, sən Quran oxuyan vaxt Biz səninlə axirətə inanmayanlar arasında maneə qərar verərik.”[2]

---

1 “Təfsiri-Furqan”

2 “İsra”, 45

● Rəvayətdə oxuyuruq: İslam Peyğəmbəri (s) Quran tilavət etdiyi vaxt "əuzu billahi minəş-şeytanir-rəcim" deyərək Allaha pənah aparardı.[1]

◊ **Bildirişlər**

1. Şeytanın ən üstün və müqəddəs insanlara da nüfuz təhlükəsi var, bunu unutmayaq. (Hətta Peyğəmbər (s) kimi bir şəxs Quran oxuyarkən Allaha pənah aparırdı.)

2. Şeytan hamının sorağına gəlir, amma hamıya təsir edə bilmir.

3. İman və təvəkkül insanı zərbələrdən qoruyan qaladır.

4. İnsanın Allaha pənah aparması onun iman və təvəkkülünün göstəricisidir.

5. İnsanın pənah aparması Allahın pənah verməsi ilə müşayiət olunur. (Ona sığının (pənah aparın) ki, O da sizə sığınacaq versin. Əgər O sığınacaq verməsə, bizim verəcəyimiz sığınacaq faydasızdır.)

6. Ona sığınmaqdan (pənah aparmaqdan) başqa çıxış yolu yoxdur.

● Ayə 100:

﴿إِنَّمَا سُلْطَانُهُ عَلَى الَّذِينَ يَتَوَلَّوْنَهُ وَالَّذِينَ هُم بِهِ مُشْرِكُونَ﴾

**"Şeytan yalnız onun hakimiyyətini qəbul edənlərə hakim olur. Elə insanlar ki, onlar (şeytana aldanmaqla) Allaha şərik qoşmuşlar."**

◊ **Nöqtələr**

● Şeytan Allahın qalibiyyətinə and içib ki, öz dəstə və qəbiləsindən yardım almaqla, çirkinliyi gözəl göstərməklə, vədlərlə, təbliğatla, vəsvəsələrlə və azğın adamlarla insanı şikar edəcək. Şeytanın bu hücumları qarşısında insanlar bir neçə dəstəyə bölünürlər:

1. Şeytanın hədəfində olan, amma onun nüfuzu altına düşməyən peyğəmbərlər; yəni şeytan hər hansı peyğəmbərə davamlı təlqin etsə də, Allah onun hiylələrini puça çıxarır.[2]

2. Şeytanın təmasda olduğu, amma bu hiylədən xəbər tutub nicat tapan möminlər.[3]

3. Şeytanın nüfuz edib çaşdırdığı adi insanlar.[4]

4. Düşüncəsi, qəlbi, əzası şeytanın hökmü altında olan, şeytan ruhuna nüfuz edib ayrılmayan fasiq fərdlər.[5]

◊ **Bildirişlər**

---

1 "Təfsiri-Kənzud-Dəqaiq"
2 Bax: "Həcc", 52
3 Bax: "Əraf", 201
4 Bax: "Nas", 5
5 Bax:"Zuxruf", 36

1. Şeytan üçün özümüz müqəddimə hazırlayırıq. (Nə qədər ki, insanlar azğınların hakimiyyətini qəbul etməyib, onların əlindən bir iş gəlməz.)

2. Həqiqi müvəhhidlər (təkallahçılar) sığortalanmışlar. Allahdan qeyrisinin sorağınca gedənlər isə şeytanın nüfuzu altına düşürlər.

● Ayə 101:

﴿وَإِذَا بَدَّلْنَا آيَةً مَّكَانَ آيَةٍ وَاللّهُ أَعْلَمُ بِمَا يُنَزِّلُ قَالُواْ إِنَّمَا أَنتَ مُفْتَرٍ بَلْ أَكْثَرُهُمْ لاَ يَعْلَمُونَ﴾

**“Əgər bir ayəni o biri ayə ilə dəyişsək, Allah nazil etdiyini daha yaxşı bildiyi halda, müxaliflər deyər: “Həqiqətən, sən yalançısan”. Əslində onların çoxu bilmir (ki, qanun əbəs, peşmanlıq, zəiflik və əyləncə üçün yox, məsləhət haqqında dəyişir.)**

◊ **Nöqtələr**

● Bəzən həkim xəstənin halı dəyişdikdə dərman nüsxəsini dəyişir. Bu sayaq dəyişiklik ayə və hökmlərdə də olur. Bu dəyişiklik “nəsx” adlanır. Peyğəmbərin (s) müxalifləri göstərişin dəyişdiyini görən kimi deyirdilər: “Sən ardıcıllarını məsxərəyə qoymusan, hər gün əvvəlki qanunu ləğv edib, yeni bir qanun uydurursan.”

◊ **Bildirişlər**

1. Dində iki növ qanun var: sabit və dəyişkən. Qanunları dəyişmək Allahın əlindədir.

2. Bütün ilahi qanunlar öz zaman və şəraitində dəyərlidir.

3. Xalq ilahi qanunların sirrini bilmir.

4. İlahi qanunlar şəkk, peşmanlıq, elmi və təcrübi inkişaf, zəiflik səbəbindən dəyişmir. Bunun səbəbi hikmət və şəraitə diqqətdir.

5. Düşmən hər bir fürsətdən sui-istifadə edir, hər şeyi əlində bəhanə tutur.

6. Bir çox tənqid və böhtanların kökü cəhalətdir.

● Ayə 102:

﴿قُلْ نَزَّلَهُ رُوحُ الْقُدُسِ مِن رَّبِّكَ بِالْحَقِّ لِيُثَبِّتَ الَّذِينَ آمَنُواْ وَهُدًى وَبُشْرَى لِلْمُسْلِمِينَ﴾

**“De ki, onu (Quranı) Ruhul-qüdüs (Cəbrail) Rəbbin tərəfindən haqq olaraq, iman gətirənlərin sabitqədəmliyi, müsəlmanlara hidayət və müjdə üçün nazil edib.”**

◊ **Nöqtələr**

● “Ruhul-qüdüs” həmin Ruhul-əmin, Cəbraildir. O, xəta və büdrəmədən uzaq olduğu üçün Ruhul-qüdüs adlandırılmışdır.

◊ **Bildirişlər**

1. Böhtanlara cavab verilməlidir.

2. İlahi ayələr tədricən nazil olmuşdur. Quranın nazil olması ilə bağlı həm “ənzəlna”, həm də “nəzzələhu” təbirləri işlədilmişdir. Bunun səbəbi Quranın iki dəfə nazil olmasıdır: birinci dəfə Qədr gecəsində Peyğəmbərin (s) qəlbinə birdəfəyə nazil olma, ikinci dəfə 23 il ərzində tədricən nazil olma.

3. Quranın bütün məzmunu və hər bir qanunun dəyişməsi xüsusi bir şəraitdə haqdır.

4. Vəhyin nazil olması Allahın rübubiyyət şəni, ilahi tərbiyə şərtidir.

5. Vəhyin nazil olması müsəlmanların sabitqədəmliyinə təsirlidir.

6. Sabitqədəmlik və onun əldə olunması üçün Allahdan yardım diləyək.

7. İmanı dəyərli edən sabitqədəmlikdir.

8. Sağlam ruhiyyə və təslimçilik hidayət və müjdə əldə olunmasında şərtdir.

● Ayə 103:

﴿وَلَقَدْ نَعْلَمُ أَنَّهُمْ يَقُولُونَ إِنَّمَا يُعَلِّمُهُ بَشَرٌ لِّسَانُ الَّذِي يُلْحِدُونَ إِلَيْهِ
أَعْجَمِيٌّ وَهَـذَا لِسَانٌ عَرَبِيٌّ مُّبِينٌ﴾

**“Əlbəttə, Biz bilirik ki, sənin müxaliflərin deyir: “Bunu (Quranı) ona bir insan öyrədir və başqa cür ola bilməz. (Əslində belə deyil, çünki) onun (Quranın) aid edildiyi kəsin dili qeyri-ərəbi və yetərsizdir. Halbuki bu, (Quran) aydın ərəb dilindədir.”**

◊ **Nöqtələr**

● Kafirlər iddia edirdilər ki, Məkkədə yaşayan qeyri-ərəb bir şəxs Peyğəmbəri (s) öyrədir və öz dediklərini Allaha aid edir. Amma onlar müəyyən sualları cavabsız qoyurdular:

- Bir-birinin dilini bilməyən iki nəfər necə ünsiyyətdə ola bilər?
- Nə üçün həmin dövrdə kimsə Peyğəmbərə (s) nəsə öyrətdiyini iddia etmirdi?
- Necə ola bilər ki, 23 il ərzində müxtəlif şəraitlərdə nazil olmuş ayələr arasında heç bir ziddiyyət olmasın?

- Nə üçün nəzərdə tutulan kəs özü peyğəmbərlik iddiasına düşməmişdir?

- Nə üçün Quranın “oxşar bir surə gətirin” çağırışına bu günədək kimsə cavab verməmişdir?

- Cahiliyyət dövründə deyilmiş hansısa sözlərin bu gün də alimlər tərəfindən araşdırılıb başa çatmamasını necə izah etmək olar?

- Necə ola bilər ki, ərəblər tərəfindən oxşarı gətirilməyən surələr qeyri-ərəb tərəfindən öyrədilmiş olsun?

◊ **Bildirişlər**

1. Quran möminlərin düşüncəsini işıqlandırmaq üçün müxaliflərin iradlarını bu iradlara cavabla birlikdə nəql edir.

2. “Eşidilməyən bilinməz” məntiqi düzgün məntiq deyil.

● Ayə 104:

﴿إِنَّ الَّذِينَ لاَ يُؤْمِنُونَ بِآيَاتِ اللّهِ لاَ يَهْدِيهِمُ اللّهُ وَلَهُمْ عَذَابٌ أَلِيمٌ﴾

**“Həqiqətən, Allah Onun ayələrinə iman gətirməyənləri hidayət etməz və onlar üçün dərdli əzab var.”**

◊ **Nöqtələr**

● Bu ayə ötən ayədəki cavabın davamı ola bilər. Bildirilir ki, əgər nəzərdə dil tutulursa, ərəb olmayan şəxs Peyğəmbərə (s) ərəb dilini necə öyrədə bilərdi? Yox, əgər nəzərdə tutulan Quranın məzmunudursa, bilin ki, Allah dinsiz qövmü hidayət etməz, yəni imansız bir müəllimin ilahi maarifə yolu ola bilməzdi. Özü ilahi maarifdən xəbərsiz olan insan başqasını necə öyrədə bilər?![1]

Ola bilsin ki, ayədə Peyğəmbərin (s) müəllimi olduğunu uyduranlara xəbərdarlıq edilir. Allah bildirir ki, bu qəbildən olan insanları hidayət etməyəcək.

◊ **Bildirişlər**

1. Yalançı başqalarını da yalançı sayır.

● Ayə 105:

﴿إِنَّمَا يَفْتَرِي الْكَذِبَ الَّذِينَ لاَ يُؤْمِنُونَ بِآيَاتِ اللّهِ وَأُوْلئِكَ هُمُ الْكَاذِبُونَ﴾

**“Şübhəsiz, yalanı yalnız ilahi ayələrə iman gətirməyənlər uydururlar. Onlar özləri yalançıdırlar.”**

◊ **Nöqtələr**

---

1 “Təfsiri-Əl-Mizan”

● Ötən iki ayədə kafirlərin Peyğəmbərə (s) qarşı böhtanlarından danışıldı. Kafirlər deyirdilər ki, bu ayələri ona bəşər öyrədib və o bu sözləri yalandan Allaha aid edir. Onlara cavab olaraq buyuruldu: “Həmin şəxs ərəb deyil, bundan əlavə, Allah kafirə ilahi maarif təlim etməz.” Bu ayədə isə belə buyurulur: “Peyğəmbər başqalarının sözünü Allaha aid edən deyil və bu iş iman gətirməyənlərin işidir.

● Quran buyurur: “Əgər bir sözü yalan olaraq Bizə aid etsə, onun həyat damarlarını (belə) qət edərik.”[1]

● “Təfsiri-Dürrül-Mənsur” və “Təfsiri-Əl-Mizan”da nəql olunur ki, həzrət Peyğəmbər (s) belə buyurmuşdur: “Mömindən zina və oğurluq baş verə bilər, yalan isə yox!” Sonra həzrət bu ayəni tilavət etmişdir.

● Ayə 106:

﴿مَن كَفَرَ بِاللّهِ مِن بَعْدِ إيمَانِهِ إِلاَّ مَنْ أُكْرِهَ وَقَلْبُهُ مُطْمَئِنٌّ بِالإِيمَانِ وَلَكِن مَّن شَرَحَ بِالْكُفْرِ صَدْرًا فَعَلَيْهِمْ غَضَبٌ مِّنَ اللّهِ وَلَهُمْ عَذَابٌ عَظِيمٌ﴾

**“(Küfrə) vadar edilib qəlbində imanına əmin olan kəs istisna olmaqla, iman gətirdikdən sonra (azad şəkildə) Allahı inkar edən, küfrə ağuşunu açan kəs üçün Allah tərəfindən qəzəb var. Onları böyük əzab gözləyir.”**

◊ **Nöqtələr**

● İlkin İslam dövründə Məkkə kafirləri iman gətirdiyi üçün Əmmarın ata-anasını işgəncə ilə şəhadətə yetirdilər. Növbə Əmmara çatanda o, kafirlərin tələb etdiyi sözləri təkrarlayıb canını qurtardı. Bəzi müsəlmanlar Əmmarı qınadılar, onu İslamdan üz döndərməkdə ittiham elədilər. Əmmar ağlar halda Peyğəmbərin (s) yanına gəldi. Peyğəmbər (s) əlini nəvazişlə onun başına çəkib dedi: “Əgər yenə canın təhlükəyə düşsə, həmin sözləri de və canını qurtar. Sən başdan ayağa imansan.” Belə bir əməl təqiyyəyə aid olunur. Təqiyyənin öz hökmləri var. Amma bilməliyik ki, təqiyyənin müxtəlif halları mövcuddur. Bəzən təqiyyə vacib olur, bəzən isə candan keçib haqq sözü təkrarlamaq lazım gəlir. Fironun sehrbazlarını yada salaq. Onlar həzrət Musanın möcüzələrini görüb dərhal iman gətirdilər və Fironun hədələrindən çəkinməyərək dedilər: “Nə istəyirsənsə et, biz öz imanımızdan əl çəkən deyilik.” Firon onları şəhadətə yetirdi. Sahirlərin bu hərəkəti Quranda mədh olunur. Əlbəttə ki, təqiyyə dindən çıxmaq, zəiflik, qorxu, geri çəkilmək, özünü aldatmaq və

---

1 “Əl-Haqqə”, 46

təslimçiliyi nəzərdə tutmur. Təqiyyə əslində bir növ məxfi fəaliyyətə keçmə, imkanları qorumaq üçün taktiki gedişdir. Rəvayətlərdə təqiyyə sipərə bənzədilmişdir.

◊ **Bildirişlər**

1. Mürtədin, dindən çıxanın cəzası dünya və axirətdə ilahi qəhr-qəzəbdir.

2. İnsan üçün pis aqibət təhlükəsi var.

3. İslam istisna və zəruri hallarda ayrıca hesab çəkir.

4. İnsan məcbur olduqda onun vəzifəsi dəyişir.

5. Təzyiq altında etiraf dəyərsizdir.

6. İslamın ruhunu iman qəlbi təşkil edir.

7. İnsanın cismini məcbur etmək mümkünsə də, qəlbini döndərmək mümkün deyil.

8. Ən çirkin küfr müsəlmanlara arxa çevirib küfrə qucaq açmaqdır.

9. İman iki növdür: İnsanın ruhuna qatılan sabit iman və bünövrəsiz, ötəri iman.

● Ayə 107:

﴿ذَلِكَ بِأَنَّهُمُ اسْتَحَبُّواْ الْحَيَاةَ الْدُّنْيَا عَلَى الآخِرَةِ وَأَنَّ اللّهَ لاَ يَهْدِي الْقَوْمَ الْكَافِرِينَ﴾

**“Bunun (ilahi qəzəbin) səbəbi onların dünya həyatını axirət həyatından üstün tutmalarıdır. Şübhəsiz, Allah kafir qövmü hidayət etməz.”**

◊ **Bildirişlər**

1. Dünyapərəstlik və dünyanı axirətdən üstün tutmaq imansızlıq, mürtədlik, ilahi qəzəb üçün zəminədir. (Rifah həvəsi və məhdudiyyətlərdən qaçmaq materializmə yönəlmə səbəblərindəndir.)

2. Dünyapərəstlik küfrün qəbulu üçün insanın ruhuna və qəlbinə yol açır.

● Ayə 108:

﴿أُولَـئِكَ الَّذِينَ طَبَعَ اللّهُ عَلَى قُلُوبِهِمْ وَسَمْعِهِمْ وَأَبْصَارِهِمْ وَأُولَـئِكَ هُمُ الْغَافِلُونَ﴾

**“Onlar Allah tərəfindən qəlblərinə, qulaqlarına və gözlərinə möhür vurulanlardırlar. Onlar həmin qafillərdirlər.”**

◊ **Bildirişlər**

1. Dünyapərəstlik və dünyanın axirətdən üstün tutulması axirətdən xəbərsizlik, həqiqət qarşısında düşüncəsizlik, karlıq və korluq səbəbidir.

● Ayə 109:

﴿لاَ جَرَمَ أَنَّهُمْ فِي الآخِرَةِ هُمُ الْخَاسِرونَ﴾

**“Şəksiz ki, onlar axirətdə ziyana düşənlərdirlər.”**

◊ **Bildirişlər**

1. Dünyanı axirətdən üstün tutan kəs axirətdə ziyana düşmüşdür və öz təkamül sərmayəsini əldən vermişdir.

● Ayə 110:

﴿ثُمَّ إِنَّ رَبَّكَ لِلَّذِينَ هَاجَرُواْ مِن بَعْدِ مَا فُتِنُواْ ثُمَّ جَاهَدُواْ وَصَبَرُواْ إِنَّ رَبَّكَ مِن بَعْدِهَا لَغَفُورٌ رَّحِيمٌ﴾

**“Şübhəsiz, Rəbbin çətinliklərdən sonra hicrət edən və cihada qalxıb sabitqədəmlik göstərənlər üçün bağışlayan və mehribandır.”**

◊ **Nöqtələr**

● Ötən ayələrə nəzər saldıqda görürük ki, müsəlmanlar bir neçə dəstədən idilər:

1. Kafirlərin işgəncəsi altında canından keçib dillərinə küfr söz gətirməyənlər. Məsələn: Əmmarın ata-anası.

2. Qəlbən imanlı olub canını qurtarmaq üçün təqiyyə edənlər. Məsələn: Əmmar.

3. İman gətirdikdən sonra kafir, başqa sözlə, mürtəd olanlar.

4. Fitnə və azğınlığa düçar olduqdan sonra hicrət, cihad, səbrlə imana dönüb tövbə edən və dinini qoruyanlar.

● Mürtəd (dindən çıxanlar) iki qismidir:

1. Fitri mürtəd; Müsəlman ata-anadan doğulub, İslamı qəbul etdikdən sonra küfrə qayıdanlar. Belə bir insan İslam cəmiyyətinə və müsəlmanların əqidəsinə zərbə vurduğundan qətl və müsadirə ilə cəzalanır. Belələrinin tövbəsi qəbul deyildir.

2. Milli mürtəd; Nütfə bətnə düşən zaman ərlə arvad müsəlman olmamışsa, onlardan doğulan şəxs müsəlman olduqdan sonra küfrə qayıtmışsa, belələrinin tövbəsi qəbul olunur.

Amma hər hansı dəlil əsasında istisna vəziyyət yaranmazsa, bu ayədən məlum olur ki, hər iki mürtəd azğınlıqdan sonra hicrət, cihad və səbir əhli olsa bağışlanar.[1]

◊ **Bildirişlər**

1. Yalnız cihad, səbir və müqavimətlə müşayiət olunan hicrət dəyərlidir. Bu şərtlər ödənmədikdə hicrət yox, fərarilikdən danışmaq olar.

2. Cihad və müqavimət ilahi bağışlanma və rəhmətə çatma səbəbidir.

3. İslamda çıxılmaz vəziyyət yoxdur. İstənilən bir azğınlıq və fitnəni aradan qaldırmaq olar. (Mürtəd də iman gətirib tövbə qıla bilər).

● Ayə 111:

﴿يَوْمَ تَأْتِي كُلُّ نَفْسٍ تُجَادِلُ عَن نَّفْسِهَا وَتُوَفَّى كُلُّ نَفْسٍ مَّا عَمِلَتْ وَهُمْ لاَ يُظْلَمُونَ﴾

**“Elə bir gün gələr ki, hər kəs yalnız özü haqqında düşünər və hər kəsə gördüyü işə görə cəza verilər. Onlara zülm olunmaz.”**

◊ **Nöqtələr**

● Qiyamət səhnəsi o qədər dəhşətlidir ki, günahkar insan özünü xilas etmək üçün hər an bir söz deyər. O ya Allaha and içər ki, müşrik olmayıb, ya azğınlığında başqalarını ittiham edər, ya da “siz olmasaydınız, biz mömin olardıq” deyər.[2]

◊ **Bildirişlər**

1. Qiyamət əhatəlidir və həmin gün bütün insanlar səhnəyə gətirilər.

2. İnsan Qiyamət günü hamını yaddan çıxarıb yalnız və yalnız özü haqqında düşünər.

3. Əməllərimiz dünyada məhv olmur, onların əsərləri axirətdə üzə çıxır.

4. Qiyamət cəzası zülm və ya intiqam yox, insanın öz əməllərinin nəticəsidir.

● Ayə 112:

---

1 “Təfsiri-ətyəbul-bəyan”

2 Bax: “Ənam”, 23; “Əraf”, 38; “Səba”,31

﴿وَضَرَبَ اللّهُ مَثَلاً قَرْيَةً كَانَتْ آمِنَةً مُّطْمَئِنَّةً يَأْتِيهَا رِزْقُهَا رَغَدًا مِّن كُلِّ مَكَانٍ فَكَفَرَتْ بِأَنْعُمِ اللّهِ فَأَذَاقَهَا اللّهُ لِبَاسَ الْجُوعِ وَالْخَوْفِ بِمَا كَانُواْ يَصْنَعُونَ﴾

**“Allah əmin-amanlıqda olan bir şəhəri misal çəkər. Onun ruzisi hər tərəfdən firavandır. Amma Allahın nemətinə nankorluq göstərdilər. Allah əməllərinə görə onlara aclıq və qorxu libasını daddırdı.”**

◊ **Nöqtələr**

● Aclıq və qorxuya münasibətdə “libas” təbirinin işlənməsində məqsəd bu iki bəlanın insan vücudunu libas tək bürüməsi ola bilər. “Daddırmaq” dedikdə aclıq və qorxunun onların canının dərinliyinə işləməsinə işarə olunur.

◊ **Bildirişlər**

1. Bəşər tarixinin qanunauyğunluqları var və bu tarixə ilahi sünnə hakimdir.

2. Tarix və keçmiş qövmlərlə bağlı Quran misallarından ibrət götürək.

3. Əmin-amanlıq və asayiş nemətlər arasında öndə gəlir və cəmiyyətin maddi rifahı üçün zəmindir.

4. Məmləkətin müəyyən ehtiyacları idxal yolu ilə təmin edilə bilər.

5. Axirət əzablarına münasibətdə dünya əzabları içmək yox, bir növ dadmaqdır.

6. Nankorluğun elə bu dünyada cəzası var.

7. Nankorluq nemətlərin puça çıxması səbəbidir.

8. İqtisadi gerilik və ictimai nizamsızlıq bu cəmiyyətin dini əsaslara etinasızlığını göstərir.

9. Nankorluğun yoxsulluq və aclıq kimi fiziki, qorxu və nizamsızlıq kimi ruhi əzabları var.

● Ayə 113:

﴿وَلَقَدْ جَاءهُمْ رَسُولٌ مِّنْهُمْ فَكَذَّبُوهُ فَأَخَذَهُمُ الْعَذَابُ وَهُمْ ظَالِمُونَ﴾

**“Əlbəttə, onlara öz aralarından peyğəmbər gəldi. Amma onu təkzib etdilər. Onları sitəmkar olduqları halda əzab yaxaladı.”**

◊ **Nöqtələr**

● Bu ayə ötən ayənin davamı olaraq buyurur: “Naşükür insanlar nəinki maddi, hətta ilahi peyğəmbərlər kimi mənəvi nemətləri də inkar etdilər. Nəticədə Allahın qəhr-qəzəbinə düçar oldular.

◊ **Bildirişlər**

1. Peyğəmbərlər xalq arasından çıxmış ictimai insanlar idilər. Kafirlər onların kimliyini bilir, amma inadkarlıq göstərirdilər.

2. Yalnız höccət tamamlandıqdan, bəhanəyə yer qalmadıqdan sonra əzab gəlir.

3. Peyğəmbərlərin təkzibi insanın həm özünə, həm də məktəb və rəhbərə qarşı zülmdür.

● Ayə 114:

﴿فَكُلُواْ مِمَّا رَزَقَكُمُ اللّهُ حَلالاً طَيِّبًا وَاشْكُرُواْ نِعْمَتَ اللّهِ إِن كُنتُمْ إِيَّاهُ تَعْبُدُونَ﴾

**“Allahın sizə ruzi etdiyi halal və pak şeylərdən yeyin. Yalnız Ona pərəstiş edirsinizsə, nemətinin şükrünü yerinə yetirin.”**

◊ **Nöqtələr**

● İslam həm pak, həm də halal şeylərlə qidalanmağa icazə verir. Şərab və donuz əti kimi şeylər qadağandır. Çünki şərab və donuz əti zatən çirkindir. Öz-özlüyündə pak olan bir şey haram pulla alınarsa, haram hökmündədir.

Əgər nankorluq və peyğəmbərlərin təkzibi qəhr-qəzəb və əzaba səbəb olursa, nankorluq və küfr əvəzində halal nemətlərdən faydalanıb şükür edin.

◊ **Bildirişlər**

1. İslamda riyazət (nəfsə işgəncə) və rahiblik (guşənişinlik) yoxdur.

2. Hər ələ düşəndən yox, yalnız halal çərçivəsində olandan istifadə etmək olar.

3. Dini göstərişlər insan fitrətinə uyğundur. İnsan təbiətinə uyğun olan qidalardan istifadə etmək olar.

4. İslam dini kompleks dindir, onun göstərişləri də əhatəlidir. Bu dində həm zahiri, həm də batini paklıq şərt sayılır.

5. Əlimizə düşən ruzini öz zirəkliyimizin nəticəsi yox, Allahın hədiyyəsi sayaq.

6. İnsan qarnını doyurmaq xatirinə yox, vəzifəsini yerinə yetirmək üçün yeməlidir.

7. Nemətə şükür etmədən ibadət və bəndəlik yetərsizdir.

● Ayə 115:

﴿إِنَّمَا حَرَّمَ عَلَيْكُمُ الْمَيْتَةَ وَالْدَّمَ وَلَحْمَ الْخَنزِيرِ وَمَآ أُهِلَّ لِغَيْرِ اللّهِ بِهِ فَمَنِ اضْطُرَّ غَيْرَ بَاغٍ وَلاَ عَادٍ فَإِنَّ اللّهَ غَفُورٌ رَّحِيمٌ﴾

**“(Allah) yalnız murdarı (murdar olmuş əti), qanı, donuz ətini və Allahdan qeyrisinin adı ilə kəsiləni sizə haram buyurmuşdur. Bunlardan yeməyə məcbur olan şəxs itaətsizlik göstərməsə və həddi aşmasa (zəruri həddə yeyə bilər). Çünki Allah bağışlayan və mehribandır.”**

◊ **Nöqtələr**

● Bu ayə azca fərqlə “Ənam” və “Nəhl” kimi Məkkə, “Bəqərə” və “Maidə” kimi Mədinə ayələrində də təkrarlanmışdır.

● “Həlal” sözündən olan “ihlal” sözü ayı görən zaman səsin qaldırılması mənasını bildirir. Müşriklər heyvanları kəsərkən bütlərin adını çəkirdilər. Bu iş “ihlal” kimi ifadə olunmuşdur.[1]

● Bu ayədə bəzi haram qidalar sadalansa da, ayə bütünlüklə haramlara aid deyil. Ayədə Peyğəmbərin (s) Quran tərəfindən tapşırılmış bəzi bəyanlarını da qəbul etməliyik.[2]

◊ **Bildirişlər**

1. Bir şeyi yalnız Allah haram edə bilər. Kimsə özbaşına, xurafat əsasında halalı haram, haramı halal saya bilməz.

2. Bəzi şeylərin haram buyurulmasında məqsəd onların sağlamlıq üçün təhlükəli olması yox, şirk kimi mənəvi çirkinliklə nəticələnməsidir.

3. İnsanın qidalanması da tövhid əsasında olmalıdır.

4. İlahi qanunlardan sui-istifadə etməyin.

5. İslamda çıxılmaz vəziyyət yoxdur. İnsan bir işə məcbur olduqda günahının cəzası bağışlanır.

● Ayə 116:

﴿وَلاَ تَقُولُواْ لِمَا تَصِفُ أَلْسِنَتُكُمُ الْكَذِبَ هَذَا حَلاَلٌ وَهَذَا حَرَامٌ لِّتَفْتَرُواْ
عَلَى اللّهِ الْكَذِبَ إِنَّ الَّذِينَ يَفْتَرُونَ عَلَى اللّهِ الْكَذِبَ لاَ يُفْلِحُونَ﴾

**“Ağzınıza gələn yalanı danışıb Allaha iftira ilə deməyin ki, bu halaldır, bu haram. Çünki Allaha iftira yaxanlar nicat tapmır.”**

● Ayə 117:

﴿مَتَاعٌ قَلِيلٌ وَلَهُمْ عَذَابٌ أَلِيمٌ﴾

---

1 “Təfsiri-Nümunə”
2 Bax: “Həşr”, 7

**“(Bütün iftiraların səbəbi dünya əldə etməkdir.) Bu, cüzi bir bəhrədir və onlar üçün dərdli bir əzab vardır.”**

◊ **Nöqtələr**

● Bu iki ayədə ilahi qanunlara əsaslanmayan istənilən bir qadağa məhkum olunur və Allaha iftira sayılır. Bu sayaq iftiraların səbəbi dəyərsiz dünya malı əldə etməkdir.

◊ **Bildirişlər**

1. Halal-haramlara münasibətdə yersiz və əsassız nəzərlərimizi izhar etməyək. (Ya müctehid olaq, ya da müctehidə — din aliminə təqlid edək.)
2. Dində və dinin hökmlərində bidət (özbaşına yenilik) qadağandır.
3. Yalançı nicat tapmaz.
4. Dində bir çox bidətlərin səbəbi dünya matahı əldə etməkdir.
5. Halal-haram hədlərini pozmağın həm dünya, həm axirət əzabı var.

● Ayə 118:

﴿وَعَلَى الَّذِينَ هَادُواْ حَرَّمْنَا مَا قَصَصْنَا عَلَيْكَ مِن قَبْلُ وَمَا ظَلَمْنَاهُمْ وَلَكِن كَانُواْ أَنفُسَهُمْ يَظْلِمُونَ﴾

**“Yəhudilərə bundan öncə sənə nəql etdiklərimizi haram buyurduq. (“Nəhl” surəsindən öncə nazil olunmuş “Ənam” surəsində bəyan olunan haramlardan əlavə, yəhudilərə cəza olaraq başqa qadağalar da qoyulmuş) (bu qadağalarla) onlara zülm etmədik. Bu onların özlərinə rəva qıldıqları zülm idi.”**

◊ **Nöqtələr**

● Bir neçə ayə öncə yalnız 4 şeyin haramlığı buyuruldu. Murdar (ölmüş heyvan), qan, donuz əti, Allahdan qeyrisinin adı ilə kəsilmiş heyvan. Belə bir sual yaranır ki, əgər bu dörd şey haramdırsa, nə üçün “Ənam” surəsinin 146-cı ayəsində yəhudilərə dırnaqlı heyvanların, mal və qoyunun piyinin haram edilməsindən danışılır? Bu ayədə həmin suala cavab verilir: yəhudilərə bu sayaq əlavə qadağalar qoyulmasının səbəbi, onların iqtisadi təzyiqə məruz qoyulması və tənbehi olmuşdur.

● İslamda iki növ qadağa var: Bütün xalqa aid olan daimi qadağa və bir dəstəyə aid olan müvəqqəti qadağa.

◊ **Bildirişlər**

1. Bəzi qidaların haram buyurulması yolu, iqtisadi mühasirə ötən ümmətlərin düçar olduğu ilahi cəzalardandır.

● Ayə 119:

﴿ثُمَّ إِنَّ رَبَّكَ لِلَّذِينَ عَمِلُواْ السُّوءَ بِجَهَالَةٍ ثُمَّ تَابُواْ مِن بَعْدِ ذَلِكَ وَأَصْلَحُواْ
إِنَّ رَبَّكَ مِن بَعْدِهَا لَغَفُورٌ رَّحِيمٌ﴾

**“Sonra, əlbəttə, sənin Rəbbin, nadanlıq üzündən pis iş görüb, ardınca tövbə qılıb saleh işə üz tutanları həmin tövbədən sonra (bağışlayar), şübhəsiz, O, bağışlayan və mehribandır.”**

◊ **Nöqtələr**

● Cəhalət dedikdə bilməmək nəzərdə tutulur. Amma nəfsinə tabe olaraq bildiyinə əməl etməyən insan da cahil sayılır. “Ənam” surəsinin 54-cü ayəsində də cəhalət bu mənada işlədilmişdir.

◊ **Bildirişlər**

1. İslamda çıxılmaz vəziyyət yoxdur, insan üçün geriyə yol qoyulmuşdur.

2. Tövbənin qəbulu ilahi rübubiyyət şənindəndir və tərbiyə üsuludur.

3. Həqiqi tövbə islah və səhvlərin aradan qaldırılması ilə müşayiət olunur.

4. Tövbə yolu hamının üzünə açıqdır.

5. İnkar və inadkarlıq yox, nəfsin qələbəsi səbəbindən baş verən günahlara qılınan tövbə daha asan qəbul olunur.

6. Həqiqi tövbənin qəbuluna şübhə yoxdur.

7. Allah xətakarı qəbul etməklə yanaşı ona mehribanlıq göstərir.

● Ayə 120:

﴿إِنَّ إِبْرَاهِيمَ كَانَ أُمَّةً قَانِتًا لِلّهِ حَنِيفًا وَلَمْ يَكُ مِنَ الْمُشْرِكِينَ﴾

**“Həqiqətən, İbrahim (təklikdə) bir ümmət idi. O, Allah qarşısında təvazökar, müti və haqpərəst idi, müşriklərdən deyildi.”**

◊ **Nöqtələr**

● Bu ayədə Allah İbrahimi təklikdə bir ümmət sayır. Təfsirçilər bu münasibətlə bağlı müxtəlif fikirlər söyləmişlər. O cümlədən:

1. İbrahim kimsəyə aid olmayan bir məktəbdə idi. Ona görə də ümmət sayılmalıdır.[1]

---

1 “Təfsiri-Safi”

2. İbrahimdə bir ümmətdə olacaq qədər xeyir, yaxşılıq və kamal vardı. Şairin təbirincə “bütün salehlərdə olan təklikdə səndə var.”[1]

3. “Ümmət” sözü müəllim mənasını bildirir və İbrahim yaxşılıqlar müəllimi idi.[2]

4. Ümmət dedikdə rəhbər, məqsəd və bütün allahpərəstlərin imamı nəzərdə tutula bilər.[3]

5. Onun bir ümmətə xas şəxsiyyət və böyüklüyü vardı.[4]

6. Çünki ümmət ona sığınmışdı.

7. İbrahim alim idi, alim isə bir ümmətə yol göstərir.

8. İbrahim qiyam qaldırıb bir ümmətin işini gördü və bu işdə yoldaşı yox idi.[5]

◊ **Bildirişlər**

1. İlahi insanların tərifi, ideallar və tövhid qəhrəmanlarının tanıtdırılması tərbiyə üsullarındandır.

2. Say mühüm deyil, mühüm keyfiyyət və hərəkat yaratmaqdır.

3. Allah yolunda təklikdən qorxmayın.

4. İnsan mühitə, cəmiyyətə və tarixə tabe deyil.

5. İbrahimin həm əməli, həm də əqidəsi xalis idi.

6. İnsanlarla xoş keçinmənin tövhid inancına zərəri yoxdur. (İbrahim öncə ətrafındakılarla müdara üçün ayı və günəşi Rəbb kimi qəbul etdiyini söylədi. Amma ay və günəş batan vaxt “mənim qürub edənlərdən xoşum gəlmir” söylədi. Quran isə İbrahimi belə tanıtdırır: “O bir an olsun müşrik olmadı”.

7. İnsanı dəyərli edən onun ifrat və təfritə yol vermədən agah ibadət-itaəti, xalisliyidir.

---

1 “Təfsiri-Məraği”
2 “Təfsiri-Təbəri”
3 “Təfsiri-Furqan”
4 “Təfsiri-Nümunə”
5 “Təfsiri-Məcməul-bəyan”

● Ayə 121:

﴿شَاكِرًا لِّأَنْعُمِهِ اجْتَبَاهُ وَهَدَاهُ إِلَى صِرَاطٍ مُّسْتَقِيمٍ﴾

**“O, Allahın nemətlərinə şükür edirdi. (Allah) onu seçdi və doğru yola hidayət etdi.”**

● Ayə 122:

﴿وَآتَيْنَاهُ فِي الْدُّنْيَا حَسَنَةً وَإِنَّهُ فِي الآخِرَةِ لَمِنَ الصَّالِحِينَ﴾

**“Ona dünyada yaxşılıq verdik. Şübhəsiz, o, axirətdə də salehlərdəndir.”**

◊ **Nöqtələr**

● “Cəbabət” sözündən olan “ictəba” sözü toplama, mərkəzləşdirmək mənasını bildirir. “İctəbahu”, yəni Allah insanları parçalanmaqdan qorudu və Özünə münasibətdə xalis etdi.

● Yaxşı ad, pak övladlar, Kəbənin inşası, uzun ömür, duanın qəbulu, var-dövlət dünyadakı yaxşılıq nümunələrindəndir.

● Bu ayədə Allah İbrahimin beş kamilliyini sadalayır və sonra onun beş məqamını qeyd edir.

◊ **Bildirişlər**

1. Allah insanı onun ləyaqəti əsasında seçir.
2. Allah Öz seçdiyini məqsədə çatdırır.
3. Peyğəmbərlərin duası qəbuldur. İbrahim Allahdan diləmişdi ki, salehlərdən olsun. Onun duası qəbul olur.[1]

● Ayə 123:

﴿ثُمَّ أَوْحَيْنَا إِلَيْكَ أَنِ اتَّبِعْ مِلَّةَ إِبْرَاهِيمَ حَنِيفًا وَمَا كَانَ مِنَ الْمُشْرِكِينَ﴾

**“Sonra sənə vəhy etdik ki, İbrahimin haqq ayininə tabe ol. O, müşriklərdən deyildi.”**

◊ **Bildirişlər**

1. Peyğəmbərlərin şəraiti fərqli olsa da, tutduqları yol eynidir. Hər bir peyğəmbər özündən əvvəlki peyğəmbərin yolunu getmişdir.
2. İbrahimin ayələrdə ardıcıl şəkildə təriflənməsi onun kamil xalisliyindən danışır.

---

1 Bax: “Şuəra”, 83

● Ayə 124:

﴿إِنَّمَا جُعِلَ السَّبْتُ عَلَى الَّذِينَ اخْتَلَفُواْ فِيهِ وَإِنَّ رَبَّكَ لَيَحْكُمُ بَيْنَهُمْ يَوْمَ الْقِيَامَةِ فِيمَا كَانُواْ فِيهِ يَخْتَلِفُونَ﴾

**“Həqiqətən, şənbə tətili həmin məsələdə ixtilaf törədənlər üçün qərar verildi. Şübhəsiz, Rəbbin qiyamət günü onların daim ixtilafda olduqları məsələlərlə bağlı mühakimə aparacaq.”**

◊ **Nöqtələr**

● Yəhudilər öz inadkarlıqları səbəbindən Allah tərəfindən dəfələrlə məzəmmət olunmuşlar. Hazırkı surənin 118-ci ayəsində həmin tənbehlərdən biri ilə tanış olduq. Bu ayədə şənbə gününün tətil buyurulması digər bir tənbehdir. Əlbəttə ki, onlardan bir dəstəsi təşəkkür, digər bir dəstəsi naşükürlük etdi. Onlar hiyləyə əl atıb dərdli əzaba düçar oldular.

● Əvvəlki ayələrə əsasən bu ayəni belə mənalandırmaq olar: “Ey peyğəmbər, sən İbrahim ayinlərinə tabe ol. Onun üçün cümə günü tətil idi. Şənbə gününün yəhudilərə tətil müəyyənləşdirilməsinin səbəbi onların cəzalandırılması və tənbehidir. Əslində isə İbrahim dövründən tətil cümə günüdür.”

◊ **Bildirişlər**

1. İlahi proqramlarda bəzən qəhr-qəzəb, bəzən mehr-məhəbbət nəzərdə tutulur.

● Ayə 125:

﴿ادْعُ إِلِى سَبِيلِ رَبِّكَ بِالْحِكْمَةِ وَالْمَوْعِظَةِ الْحَسَنَةِ وَجَادِلْهُم بِالَّتِي هِيَ أَحْسَنُ إِنَّ رَبَّكَ هُوَ أَعْلَمُ بِمَن ضَلَّ عَن سَبِيلِهِ وَهُوَ أَعْلَمُ بِالْمُهْتَدِينَ﴾

**“(Ey peyğəmbər! Xalqı) hikmət və gözəl öyüdlə Rəbbinin yoluna çağır. Ən yaxşı şəkildə vəsf edib danış. Həqiqətən, Rəbbin Onun yolundan azanlardan xəbərdardır və doğru yolu tutanları yaxşı tanıyır.”**

◊ **Nöqtələr**

● Bu ayədən başlayaraq surənin sonunadək 10 maraqlı əxlaqi göstəriş bəyan olunmuşdur.

● Ayədə bütün məsullara, tərbiyəçilərə, müəllimlərə, ustadlara, alimlərə ümumi şəkildə göstəriş verilir ki, müvəffəqiyyət qazanmaq üçün qarşı tərəflə müxtəlif üslublarda iş aparsınlar. Çünki bütün xalqı eyni şəkildə dəvət etmək olmaz. Hər bir insanın fərqli ruhu və fərqli tutumu

var. İnsanla onun öz dilində danışmaq lazımdır. Xüsusi insanlarla hikmət və dəlil, adi insanlarla moizə üsulunda danışmaq lazımdır. Müxaliflər gözəl mübahisə ilə təslim edilməlidirlər.

● Gözəl moizə dedikdə vaizin (moizə edənin) öz dediyinə əməl etməsi, gözəl mübahisə dedikdə danışıqda təhqirə və yersiz təhriklərə yol verməmək nəzərdə tutulur.

◊ **Bildirişlər**

1. Peyğəmbərlərin ilkin vəzifələri dəvətdir.
2. Dəvət ilahi yönümlü olmalıdır.
3. Dəvətin mərhələləri və mərtəbələri var. (Hikmət, moizə, gözəl mübahisə).
4. Moizə gözəl, mübahisə isə daha gözəl olmalıdır. Həm məzmun, həm də bəyan üsuluna diqqət yetirilməlidir.
5. Yaxşılıqların bərəkətini, pisliklərin bəlasını bəyan etmək dəvət üsuludur. ("Hikmət" dedikdə nəzərdə tutulan işin faydaları və zərərlərini elm və ağıl yolu ilə açıqlamaq nəzərdə tutulur.)
6. İnsan işin nəticəsinə yox, öz vəzifəsinə məsuldur.
7. Hikmət və dəlil həmişə gözəldir. Amma moizə və mübahisə həm yaxşı, həm də pis üslubda ola bilər.
8. İslam öz tərəfdarlarını həm elmi, həm də mənəvi baxımdan qidalandırır. Müxaliflərlə məntiqi şəkildə davranılır.

● Ayə 126:

﴿وَإِنْ عَاقَبْتُمْ فَعَاقِبُواْ بِمِثْلِ مَا عُوقِبْتُم بِهِ وَلَئِن صَبَرْتُمْ لَهُوَ خَيْرٌ لِّلصَّابِرينَ﴾

**"Cəzalandırdıqda necə cəzalandırılmısınızsa, elə cəzalandırın. Əlbəttə, səbir və dözüm göstərsəniz, səbir əhli üçün bu daha yaxşıdır."**

◊ **Nöqtələr**

● Rəvayətlərdə bildirilir ki, Ühüd döyüşündə həzrət Həmzə şəhadətə çatdığı vaxt İslam Peyğəmbəri (s) buyurdu: "Əgər kafirlərə qalib gəlsək onları doğrayacağıq." Ayə nazil oldu ki, intiqam alarkən ədalət və səbrinizi əldən verməyin. Həzrət (s) buyurdu:"Səbir edirəm, səbir edirəm!" Bəli, İslamı tanıtdırarkən Ühüd döyüşü ilə yanaşı Məkkənin fəthini, həzrət Peyğəmbərin (s) əfvini (müqayisəli şəkildə) qeyd edək.

◊ **Bildirişlər**

1. Düşmənlərə münasibətdə də ədalət və insafı gözləyin.
2. Qarşı tərəf kimi rəftar etmək təbii və ilahi haqdır.
3. Səbirdə elə bir ləzzət vardır ki, intiqamda bu yoxdur.
4. İnamsızlıq yarandıqda öz vədinizi təkidlə bəyan edin.
5. Döyüşün də qanunu və əxlaqı var.

6. Qanun təklikdə bəs etmir, əxlaq da lazımdır.

7. Düşünməyin ki, sizin səbriniz düşmənə fayda verəcək. Səbir sizin özünüz üçün faydalıdır.

● Ayə 127:

﴿وَاصْبِرْ وَمَا صَبْرُكَ إِلاَّ بِاللّهِ وَلاَ تَحْزَنْ عَلَيْهِمْ وَلاَ تَكُ فِي ضَيْقٍ مِّمَّا يَمْكُرُونَ﴾

**"(Ey peyğəmbər,) Səbir et, sənin səbrin yalnız Allahın yardımı ilə mümkündür. Onlara (müşriklərə) görə kədərlənmə, onların alçaq hiylələrinə görə özünü sıxıntıya salma."**

● Ayə 128:

﴿إِنَّ اللّهَ مَعَ الَّذِينَ اتَّقَواْ وَّالَّذِينَ هُم مُّحْسِنُونَ﴾

**"Çünki Allah təqva yolunu tutanlar və yaxşı əməl sahibləri ilədir."**

◊ **Nöqtələr**

● Hikmət, moizə və mübahisə yolu ilə dəvət olduqca çətin bir işdir. Çünki bir dəstə inadkarlıq göstərib qəbul etmir, digər bir dəstə fitnəkarlığa əl atır, başqa bir dəstə zənn-gümana qapılıb böhtana, məsxərəyə, hədəyə, düşmənçiliyə, iqtisadi mühasirəyə, döyüş və hər növ işgəncəyə əl atır. Ona görə də bu iki ayədə bir növ təsəlli verilir, ilahi dəvət qarşısında keçilməz sədd olmadığı nəzərə çatdırılır.

● "Təfsiri-Nümunə"də bildirilir ki, bu surədə insandakı şükür ruhiyyəsini canlandırmaq üçün xeyli nemət sadalanmışdır. Həmin nemətlərdən 40-nın adını çəkirik: səma, yer, dördayaqlılar, libas, heyvanların faydası, ət, gözəllik, nəqliyyat, hidayət, su, otlaq, meyvələr, gecə-gündüz, günəş və ay, ulduzlar, yerin rəngarəng nemətləri və mövcudları, dəniz və onun cəvahiratı, gəmilərin hərəkəti, dağlar, çaylar, yollar, təbii əlamətlər, ulduzlar vasitəsi ilə yolu təyin etmək, yer üzünün yaşıl örtüyü, xalis süd, meyvədən hazırlanmış nemətlər, bal, zövcə, övladlar və nəvələr, ruzi, qulaq, göz, ağıl və ruh, sabit məskən, səyyar məskən, müxtəlif örtüklər, kölgə, mağara, insanı isti-soyuqdan qoruyan libaslar, zireh...

Aydın məsələdir ki, Allah nemətləri sadalamaqla minnət qoymaq və ya əvəz istəmək məqsədində deyil. Allah bütün ehtiyaclardan pakdır. Məqsəd insandakı şükür, düşüncə, təslimçilik ruhiyyəsini gücləndirməkdir.[1]

◊ **Bildirişlər**

1. Səbir Allah tərəfindəndir.
2. Təbliğatçı səbirli olmalıdır.
3. Səbir və müvəffəqiyyət iki köhnə dostdur. Səbir yolu ilə növbə müvəffəqiyyətə çatır.
4. İlahi yardımlara inam qəlbigenişlik və səbir səbəbidir.
5. Təqva və ehsan ilahi himayələrin əldə olunma vasitəsidir.

---

1 Bax: «Nəhl» surəsi, ayə 14, 15, 44, 81, 90

Mündəricat

HƏMD OLSUN ALƏMLƏRİN RƏBBİNƏ! ALLAHIN SALAMI OLSUN AĞAMIZ MƏHƏMMƏD (S) VƏ ONUN MƏSUM ƏHLİ-BEYTİNƏ! .... 4
HƏMKARLAR .... 4
İMTİYAZLAR .... 4
AYƏTULLAH HACI SEYYİD MEHDİ RUHANİDƏN BİR NEÇƏ XOŞ SÖZ .... 6
MÜƏLLİFDƏN .... 8
**“YUSUF” SURƏSİ .... *9***
**ON İKİ, ON ÜÇÜNCÜ CÜZLƏR .... *9***
“YUSUF” SURƏSİNİN SİMASI .... 9
◊ YUXU HAQQINDA .... 13
YUSİFİN SİMASI .... 99
(MÜVƏFFƏQ BİR RƏHBƏRİN XÜSUSİYYƏTLƏRİ) .... 99
● MÜŞRİK .... 103
(ŞƏRİK QOŞAN, XALİS OLMAYAN) MÖMİNİN NİŞANƏLƏRİ: .... 103
**“RƏD” SURƏSİ .... *109***
“RƏD” SURƏSİNİN SİMASI .... 109
DƏVƏT MÖVZUSUNDA SÖHBƏT .... 124
QURANDA DÜŞÜNCƏ SAHİBLƏRİNİN SİMASI .... 125
SİLEYİ-RƏHM (QOHUMLARLA ƏLAQƏ, QOHUMLARA EHSAN) .... 127
SƏBİRLƏ BAĞLI BƏZİ NÖQTƏLƏR .... 132
HİDAYƏT VƏ ZƏLALƏT (DOĞRU YOLA YÖNƏLTMƏ VƏ AZDIRMA) MÖVZULARINDA SÖHBƏT .... 136
ARAMLIQ VƏ TƏSKİNLİK AMİLLƏRİ .... 138
İZTİRAB VƏ NİGARANLIQ AMİLLƏRİ .... 139
“BƏDA” NƏDİR? .... 147
BƏDA NÜMUNƏLƏRİ .... 148
**“İBRAHİM” SURƏSİ .... *152***
“İBRAHİM” SURƏSİNİN SİMASI .... 152
**“HİCR” SURƏSİ .... *186***
“HİCR” SURƏSİNİN SİMASI .... 186
**“NƏHL” SURƏSİ .... *220***
“NƏHL” SURƏSİNİN SİMASI .... 220